**S.M.MİKAYILOVA**

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ MAKROİQTİSADİ PROBLEMLƏRİ

**(Monoqrafiya)**

**B A K I – 2 0 0 9**

**Az**
M.61
ББК 46.2.2.
**Elmi redaktor:** i.e.d., prof. **M.X.Meybullayev**

**Rəyçilər:** i.e.d., prof. **F.A.Nəsrullayev**
i.e.d., prof. **Q.N.Manafov**

**M 61 Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri.** Monoqrafiya. Bakı, «Gənclik», 2009, 400 səh.

Monoqrafiyada müasir qloballaşan dünyada transformasiya prosesinin ümumi qanunauyğunluqları, mərhələləri, dayanaqlı inkişafın xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi təhlükəsizliyin təmin olunmasının və milli mənafelərin reallaşmasının nəzəri-metodoloji əsasları və prinsipləri araşdırılır, həmçinin makroiqtisadi transformasiya prosesində iqtisadi təhlükəsizliyin təmin olunması strategiyasında maliyyə-pul siyasətinin prioritet istiqamətləri, iqtisadiyyatın korrupsiyalaşması xüsusiyyətləri, yoxsulluğun azaldılması və ərzaq təhlükəsizliyinin təmin olunmasının milli mənafelərin qorunmasındakı rolu göstərilir. Qloballaşma şəraitində milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması və milli mənafelərin qorunması istiqamətində mövcud olan ilkin şərtlər, xüsusən iqtisadiyyatın strukturu, onun rəqabətqabiliyyətliliyinin artırılması, enerji təhlükəsizliyinin təmin olunması başlıca istiqamət kimi müəyyənləşdirilərək, bu aspektdə irəli sürülən makroiqtisadi siyasətin mahiyyəti açıqlanır. Həmçinin milli iqtisadi təhlükəsizlik strategiyasının təmin olunmasında, milli mənafelərin qorunmasında dövlət tənzimlənməsinin yeri, müasir vəziyyəti tədqiq olunaraq, konkret faktiki materiallar əsasında ümumiləşmələr edilərək bir sıra təklif və tövsiyələr irəli sürülür.

Monoqrafiya iqtisadiyyatla maraqlananlar və məşğul olanlar, tədqiqatçılar, iqtisad elmlərini tədris edənlər və öyrənənlər, siyasətçilər, aspirant və tələbələr üçün nəzərdə tutulur.

ISBN 5.8020-1680-10

$$M = \frac{4702060202}{M653-(07)-11}$$ qrifli nəşr.

**© Mikayılova S.M. - 2009**
**© «İqtisad Universiteti» - 2009**

# M Ü N D Ə R İ C A T


**GİRİŞ** ........................................................................ *5*

**I FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI, MİLLİ XÜSUSİYYƏTLƏRİ VƏ KEÇİD DÖVRÜNDƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI** .................. *9*

1.1. İqtisadi təhlükəsizlik konsepsiyası və keçid dövründə onun xüsusiyyətləri ............................................ *9*

1.2. Milli iqtisadi inkişaf modelinin formalaşmasının təhlükəsizlik aspekti ...................................................... *25*

1.3. İqtisadi təhlükəsizliyin qorunması əsasında milli mənafelərin təmin olunmasının dünya təcrübəsi ...................... *41*

**II FƏSİL. KEÇİD İQTİSADİYYATINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI VƏ MİLLİ MƏNAFELƏRİN QORUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI VƏ PRİNSİPLƏRİ** ............................ *57*

2.1. Keçid iqtisadiyyatında iqtisadi təhlükəsizliyin təmin olunmasının xarakterik cəhətləri .................................. *57*

2.2. Milli mənafelərin qorunmasının nəzəri-metodoloji əsasları və prinsipləri .................................................... *71*

2.3. Makroiqtisadi sabitləşmə prosesində iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətləri ............................. *86*

**III FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASINDA MALİYYƏ-PUL SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ** ..................................................... *102*

3.1. Maliyyə təhlükəsizliyi strategiyasının formalaşması milli mənafelərin qorunmasının tərkib hissəsidir .................. *102*

3.2. İqtisadi təhlükəsizliyin fiskal aspektləri ....................... *116*

3.3. İnvestisiya, innovasiya potensialının artırılmasında pul-kredit sisteminin rolu .......................................... *139*

**IV FƏSİL. İQTİSADİYYATIN KORRUPSİYALAŞMASI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI PROBLEMİ** ..................................................... *164*

4.1. Keçid dövründə korrupsiyalı iqtisadiyyatın formalaşması prosesi ........................................................................ *164*

4.2. «Kölgə iqtisadiyyatı» korrupsiyalı fəaliyyətin əsası kimi: strukturu, mahiyyəti və subyektləri .......................... *182*

4.3. «Kölgə iqtisadiyyatı»nın miqyası ilə iqtisadi təhlükəsizliyin yüksəlməsi arasındakı qarşılıqlı əlaqə ...... *195*

**V FƏSİL. YOXSULLUĞUN AZALDILMASI İLƏ MİLLİ İQTİSADİ MƏNAFELƏRİN REALLAŞDIRILMASI ARASINDAKI QARŞILIQLI ƏLAQƏ** ........................... *216*
5.1. İqtisadi təhlükəsizlik strategiyasında sosial siyasətin həyata keçirilməsinin başlıca istiqamətləri .................... *216*
5.2. Əhali gəlirlərinin fərqlənməsi və onun iqtisadi mənafelərin reallaşmasına təsiri ................................................ *231*
5.3. Yoxsulluğun azaldılması və ərzaq təhlükəsizliyinin təmin olunmasının milli mənafelərin qorunmasındakı rolu ....... *240*
**VI FƏSİL QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ İSTİQAMƏTLƏRİ**........................................................ *260*
6.1. Milli iqtisadiyyatın strukturu və iqtisadi təhlükəsizlik ...... *260*
6.2. Qloballaşma şəraitində milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması iqtisadi təhlükəsizliyin təmin olunmasının mühüm istiqamətidir .............................. *282*
6.3. Azərbaycanın milli iqtisadi inkişaf modeli enerji təhlükəsizliyinin təmininin ən etibarlı vasitəsidir ............ *304*
**VII FƏSİL MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASININ TƏMİN OLUNMASINDA VƏ MİLLİ MƏNAFELƏRİN QORUNMASINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN YERİ** ..................................... *314*
7.1. İqtisadi təhlükəsizliyin təmin olunmasının dövlət strategiyası ..................................................................... *314*
7.2. Regionların iqtisadi təhlükəsizliyinin təmin olunması xüsusiyyətləri ................................................... *329*
7.3. Qlobal və milli iqtisadi təhlükəsizliyin balanslaşdırılmasında dövlətin rolu ................................................. *345*
**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........................................... *359*
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** .................................. *379*

# G İ R İ Ş

Müasir mərhələdə Azərbaycan iqtisadiyyatının yeni keyfiyyət halına keçməsi iqtisadiyyatın müvazinətli inkişafının təmin olunması, təkrar istehsalın sürət və miqyasının proqnozlaşdırılması şəraitində iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması sahəsində fəaliyyətin gücləndirilməsi vəzifələri vacib məsələ kimi ön planda durur.

Ölkənin həqiqi müstəqilliyinin təmin olunması müvafiq iqtisadi aspektlərdən biri kimi iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması sahəsində siyasətin yeridilməsindən asılıdır. Digər tərəfdən iqtisadi təhlükəsizliyin sistemli şəkildə təmin olunması olduqca vacibdir. Bu, bir tərəfdən milli və regional iqtisadi inkişafın vəhdətinin təmin olunmasını, digər tərəfdən vətəndaş, dövlət və cəmiyyət mənafelərinin balanslaşdırılmasını qarşıya qoyur.

Transformasiya şəraitində hər hansı ölkə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, həmişə müəyyən səviyyəli böhranla rastlaşırlar ki, qarşısını almaq üçün elmi cəhətdən əsaslandırılmış, əməli cəhətdən real görünən tədbirlər həyata keçirilməzsə, bütövlükdə milli iqtisadiyyatın özü təhlükə altına düşür. Müstəqilliyin ilk illərində Azərbaycan belə bir vəziyyətlə rastlaşmış, onun nəinki iqtisadiyyatı, həm də siyasəti, ideologiyası və mədəniyyəti çox ciddi böhran və tənəzzülə uğramışdır. Məhz cəmiyyətdə baş verən bu vəziyyət iqtisadi təhlükəsizlik və milli mənafelər probleminin həllini çox ciddiliklə qarşıya qoydu.

Belə bir şəraitdə ölkəyə ikinci dəfə rəhbərliyə qayıtmış ulu öndər Heydər Əliyev dövlət quruculuğunun yeni mərhələsində yaratmış olduğu möhkəm siyasi-iqtisadi və sosial zəmin əsasında Azərbaycanın milli maraqlarına xidmət edən iqtisadi təhlükəsizlik prosesinə təminat verən strategiya müəyyən etdi.

Digər tərəfdən hazırda dünyada baş verən qlobal maliyyə (iqtisadi) böhranı bütün dünya ölkələri üçün, o cümlədən Azərbaycan iqtisadiyyatı üçün də milli mənafelərin qorunması prizmasında iqtisadi təhlükəsizliyin təmin olunmasının yeni

vasitələrinin üzə çıxarılmasını və tətbiq olunması istiqamətində strateji əhəmiyyətli vəzifələrin həyata keçirilməsini tələb edir.

Azərbaycan iqtisadiyyatının müasir inkişaf səviyyəsi öz sabit dinamizmi ilə, ÜDM-un yüksək inkişaf sürəti ilə səciyyələnir. Lakin regional inkişaf sahəsində, struktur siyasəti sahəsində, yoxsulluq istiqamətində, cəmiyyət, dövlət və şəxsiyyət sahəsində mənafelərin balanslaşdırılması istiqamətində ciddi problemlər qarşıda durur ki, bütün bunlar iqtisadi təhlükəsizliyin təmin olunması və qorunması sahəsində yeni tədqiqatların aparılması zəruriliyini qarşıya qoyur. Ona görə də iqtisadi təhlükəsizlik və iqtisadi mənafelərin milli müstəqillik şəraitində qiymətləndirilməsi, onların tətbiqinə sistemli, kompleks və məntiqi baxımdan yanaşmaq, həyata keçiriləcək iqtisadi sistemlə qarşılıqlı əlaqəsini üzə çıxarmaq, bu istiqamətdə həyata keçiriləcək iqtisadi strategiyanın elmi və metodoloji bazasının formalaşmasına kömək edəcək mülahizələrin irəli sürülməsi olduqca vacibdir.

Mövzunun tədqiqini aktuallaşdıran başqa bir cəhətini də qeyd etmək lazımdır ki, keçid dövrü iqtisadiyyatının xüsusiyyətlərini, qloballaşma prosesindən doğan ikitərəfli, regional və çoxtərəfli inteqrasiya prosesinin gedişatını, milli mənafelərin qorunması istiqamətində vətəndaş, dövlət və cəmiyyətin əlaqələndirilmiş və balanslaşdırılmış iqtisadi təhlükəsizlik sisteminin yaradılmasını tələb edir.

Keçən əsrin 90-cı illərindən başlayaraq istər ölkəmizdə, istərsə də MDB məkanında iqtisadi təhlükəsizlik və milli mənafelərə dair xeyli əsərlər, məqalələr və tezislər dərc olunmuşdur. Eyni zamanda müstəqillik qazanmış bir sıra ölkələrdə iqtisadi təhlükəsizliyə dair qanunlar da qəbul olunmuşdur.

İri və kiçik dövlətlərin iqtisadi təhlükəsizlik və milli mənafelərin qorunması səviyyəsi müxtəlif problemlərin həlli çərçivəsində aparıldığından, ümumi nəzəri konsepsiyalardan çıxış etməklə, konkret fəaliyyət dairəsini, onu törədən amilləri, şərtlərin və ünsürlərin nəzərə alınmasını zəruri edir.

Bundan əlavə, iqtisadi təhlükəsizliyin və milli mənafelərin əsas cəhətlərini üzə çıxarmaqla onların milli iqtisadi inkişaf modelində nəzərə alınması olduqca vacibdir. Burada

iqtisadi müstəqillik, makroiqtisadi sabitlik, iqtisadi azadlıq, rəqabətqabiliyyətlilik, davamlı iqtisadi inkişaf, sosial tərəqqi, yoxsulluğun azaldılması, kriminallaşmanın, gizli iqtisadiyyatın aradan qaldırılması, milli mənəviyyatın qorunması xüsusi üstün cəhətlər kimi fərqləndirilməlidir. Bütün bu qeyd olunan cəhətlərin iqtisadi təhlükəsizlik və milli mənafelərin əlaqələndirilməsi sistemində nəzərə alınması və tədqiqi ilə bağlı ümumiləşdirmələrin edilməsi, nəzəri-metodoloji və əməli cəhətdən tövsiyələrin verilməsi problemi aktuallaşdırmaqla, onun tədqiqini əsaslandırır.

Milli iqtisadiyyatın formalaşması və inkişafı ilə əlaqədar iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması sahəsində birbaşa olmasa da, lakin onun ayrı-ayrı səviyyələrdə təsir dairəsi barədə dünya iqtisad elminin görkəmli nümayəndələri öz elmi töhfələrini vermişlər. Bu sahədə Erhard Y., Keyns C., Kornai Y., Leontyev V., Nort V. Oyken V., Porter M., Todoro M., Şumpeter Y., Zombart V. və digər alimlər nəzəri, metodoloji və əməli cəhətdən böyük maraq doğuran tədqiqatlarında aparmış və olduqca zəngin və istiqamətverici müddəalar irəli sürmüşlər.

XX əsrin 90-cı illərindən başlayaraq MDB məkanında da iqtisadi təhlükəsizlik və milli mənafelərlə bağlı xeyli iqtisadçı-alimlər öz dəyərli mülahizələrini irəli sürmüşlər. Xüsusən Abalkin L., Belousov A., Dronov R., İllarionov A., Kulikov Q., Poroxovski A., Qlazyev S., Sençaqov V., Straxov A., Vikitenko P., Ziyadullayev N. və digərlərinin tədqiqatlarında milli iqtisadi təhlükəsizliyin və iqtisadi mənafelərin qorunmasının bir sıra aspektlərinə toxunulmuş və bu istiqamətdə kompleks tədqiqatların aparılması zəruriliyini qeyd etmişlər.

Azərbaycanda keçid dövrü iqtisadiyyatı şəraitində iqtisadi təhlükəsizlik və milli mənafelərin qorunması ilə əlaqədar iqtisadçı alimlərimizin də çox böyük elmi-metodoloji və əməli əhəmiyyətli fikirləri olmuşdur. Burada Səmədzadə Z.Ə., Nadirov A.A., Ataşov B., Balayeva E., Babayev Ə.P., Bərxudarov M., Bayramov Ə.İ., Ələsgərov A.K., Əhmədov M.A., Əliyev Ü.Ə., Hacıyev Ş.H., Kərimli İ.A., Meybullayev M.X., Məmmədov N., Quliyev T.Ə., Quliyev R.A., Şəkərəliyev A.Ş.,

Qafarov Ş.S., Səfərov S.İ., Salahov S., Mustafayev F.F. və digərlərinin əsərlərində müəyyən səviyyədə tədqiq edilmişdir.

Milli iqtisadiyyatın və milli bazarın təşəkkülü, formalaşması modeli və inkişafı ilə əlaqədar sistem dəyişiklikləri şəraitində aparılmış tədqiqatların elmi əhəmiyyətini, nəzəri səviyyəsini, metodoloji bazasını yüksək dəyərləndirməklə bərabər, onu qeyd etmək istərdik ki, tədqiqat obyekti kimi bu problem kompleks şəkildə deyil, onun ayrı-ayrı istiqamətləri tədqiq edilmiş və müasir iqtisadi sistemin formalaşmasındakı yeri və rolu öyrənilmişdir.

Qeyd etmək lazımdır ki, ölkəmizin müasir qloballaşan dünya iqtisadiyyatına sürətlə inteqrasiya prosesinə daxil olduğu milli və regional iqtisadi inkişafın tarazlaşdırılmasının zəruriləşdiyi və adekvat milli iqtisadi inkişaf modelinin formalaşdığı bir şəraitdə keçid dövründə iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunmasının və təmin olunmasının nəzəri və əməli problemləri indiyədək xüsusi tədqiqat obyekti kimi sistemli və kompleks şəkildə öyrənilməmişdir. Sivilizasiyalı bazar sisteminin qurulması, milli iqtisadi inkişaf modelinin təşəkkül tapması, dünya təsərrüfat sisteminə, milli mənafelərin qorunması və iqtisadi təhlükəsizliyin qorunması problemlərindən doğan xüsusiyyətlərinin üzə çıxarılması, mövcud iqtisadi potensialdan istifadə olunması imkanlarının müəyyənləşdirilməsi, ölkə ərazisinin bütövlüyünün bərpası istiqamətində iqtisadi gücün artırılmasının və dinamizminin qorunmasını şərtləndirir. Digər tərəfdən keçid dövründə Azərbaycan iqtisadiyyatının yüksək artım sürətinə malik olması, xarici investisiya qoyuluşlarının iri həcmə malik olması, iqtisadiyyatın neft amilindən asılılığının aradan qaldırılması, iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması istiqamətində qarşıya çıxacaq problemlərin həlli yollarının üzə çıxarılması, dissertasiya işində mövcud məkan və zaman çərçivəsində ümumi qanunauyğunluqlara söykənməklə, konkret şəraitdən, milli xüsusiyyətdən, mənəvi dəyərlərdən irəli gələn iqtisadi problemlərin nəzəri-metodoloji cəhətdən öyrəNilməsini və əməli cəhətdən konkret təklif və tövsiyələrin irəli sürülməsini tələb edir.

# I FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI, MİLLİ XÜSUSİYYƏTLƏRİ VƏ KEÇİD DÖVRÜNDƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI

## 1.1. İqtisadi təhlükəsizlik konsepsiyası və keçid dövründə onun xüsusiyyətləri

İqtisadiyyat hər bir ictimai quruluşun əsası kimi əhalinin həyat (yaşayış) səviyyəsini, ölkədə ictimai-siyasi həyatı, vəziyyəti, dövlətin müdafiə qabiliyyətini müəyyən edir. Eyni zamanda o, ictimai-siyasi rejimin inikasıdır. Belə bir qarşılıqlı əlaqə ölkənin milli  təhlükəsizliyinin mühüm tərkib hissəsi kimi iqtisadi təhlükəsizliyin təmin edilməsi zərurətini yaradır. Ümumi şəkildə demək olar ki,  iqtisadi təhlükəsizlik ölkə iqtisadiyyatının ona qarşı daxildən və xaricdən yönəlmiş təhdidlərdən qorunmasını təmin edən, zəmanət verən və dövlət tərəfindən yaradılmış hüquqi normalar, şərtlər, iqtisadi normativlər, təlimatlar və direktivlər kompleksidir.

İqtisadi təhlükəsizlik problemlərini araşdıran tədqiqatçılar iqtisadi prosesləri müxtəlif aspektlərdən nəzərdən keçirərkən ayrı-ayrı ölkələrdəki mövcud olan şəraitə görə təsnifləşdirmə aparırlar və haqlı olaraq bu dövlətlər içərisindən keçid iqtisadiyyatlı ölkələri ayırırlar. Sanki bununla həmin ölkələrdə bu problemin daha kəskin və aktual olduğunu qeyd etmək istəyirlər.

Stepaşin S.V. qeyd edir ki, iqtisadi təhlükəsizliyin obyektləri sırasına şəxsiyyət, cəmiyyət, dövlət və iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi çərçivəsində institusional münasibətlər sistemi də daxil olmaqla iqtisadi sistemin əsas elementləri aiddir [161, səh. 82]. Müəllif ölkədə iqtisadi prosesləri müxtəlif aspektlərdən tədqiq edərək aşağıdakıları ayırır:

- siyasi baxımdan hərbi qüvvə istifadə olunmaqla müxtəlif miqyaslı konfliktlər şəraitində iqtisadi təhlükəsizlik;
- opponent dövlətlə kəskin qarşıdurma şəraitində iqtisadi təhlükəsizlik, təcrid olunma, yaxud da əksinə dünya iqtisa-

diyyatına yüksək səviyyədə inteqrasiya şəraitində iqtisadi təhlükəsizlik;

- keçid iqtisadiyyatı şəraitində iqtisadi təhlükəsizlik.

R.Dronovun fikrincə, iqtisadi təhlükəsizlik ölkədə təsərrüfat subyektlərinin fəaliyyətinin etibarlığına zəmanət verən və avtomatik olaraq onu təmin edən rejim, vəziyyət, hücum atmosferidir. Dövlət tərəfindən yaradılan tələblər, şərait kompleksi isə təsərrüfat subyektlərinin iqtisadi fəaliyyət rejimini, vəziyyətini, hücum atmosferi təmin edir. Deməli, ölkə iqtisadiyyatına qarşı yönəlmiş təhlükələrin qarşısını alan bu tələblər və şərtlər iqtisadi təhlükəsizliyin zəruri səviyyəsinin təmin edilməsi mexanizmləridir [97, səh. 42].

İqtisadi təhlükəsizliyin mahiyyəti, məzmunu onun kəmiyyət və keyfiyyət xüsusiyyətlərini ifadə edən meyarlar və göstəricilər vasitəsilə müəyyən olunur. Meyarlar da öz növbəsində iqtisadi təhlükəsizliyin göstəriciləri vasitəsilə ifadə olunur. Göstəricilər hər hansı bir iqtisadi prosesin, hadisənin kəmiyyət və keyfiyyət xüsusiyyətləridir.

Bu mənada iqtisadi təhlükəsizliyin meyar nöqteyi-nəzərindən araşdırılması, qiymətləndirilməsi aşağıdakı cəhətləri əhatə edir:

- ölkənin təbii, maddi-insani resurs potensialı, onun mövcud durumu və inkişaf səviyyəsi, kəmiyyət və keyfiyyət xüsusiyyətləri və bu potensialın, ondan istifadə səviyyəsinin inkişaf etmiş ölkələrdəki mövcud səviyyə ilə müqayisəsi, bu səviyyəyə çatdırılması;
- ölkənin ərazi bütövlüyü və vahid iqtisadi məkan;
- iqtisadiyyatın rəqabətqabiliyyətliliyi;
- xarici təsirlərə qarşı daxili potensial hesabına davam gətirmək, onları dəf etmək imkanının olması;
- ölkədə sosial-iqtisadi sabitlik, sosial gərginliyin olmaması və s.

Ümumiyyətlə, göründüyü kimi, iqtisadi təhlükəsizliyin meyarları əsasında ümumi bir istiqamət müəyyən olunur. Bu meyarlar sosial-iqtisadi proseslərin mərhələli həllini müəyyən edir və iqtisadi təhlükəsizlik vəziyyətini ifadə edən göstə-

ricilərin seçilməsini, təyin olunmasını şərtləndirir. Əlbəttə ki, burada da əsas cəhət məhz seçilmiş həmin göstəricilərin qiymətlərinin, hədlərinin müəyyən edilməsidir, daha doğrusu, hədd qiymətlərinin konkretləşdirilməsidir. Çünki bu qiymətlərdən kənarlaşmalar iqtisadi təhlükəsizlik vəziyyətinə qarşı mənfi meyillərin formalaşmasına səbəb olur. Bu göstəricilərin hədd qiymətləri yol verilən səviyyədə olduqda ölkənin milli-iqtisadi təhlükəsizliyinə nail olmaq olar. Bu mənada iqtisadi təhlükəsizlik kontekstindən ölkənin iqtisadi vəziyyətinin qiymətləndirilməsi məhz qeyd etdiyimiz göstəricilər sisteminin kompleks halda müəyyən edilməsini tələb edir.

İqtisadi təhlükəsizlik göstəricilərinin konkretləşdirilməsinə fərqli yanaşmalar mövcuddur.

V.L.Tambovçevin «Təsərrüfat sistemlərinin iqtisadi təhlükəsizliyi: struktur, problemlər» adlı məqaləsində iqtisadi təhlükəsizlik sahəsində irəli sürdüyü ideyalar çox maraqlıdır [165, səh. 43]. Müəllifin fikrincə, iqtisadi təhlükəsizliyin təmin olunması proqramı aşağıdakı xüsusiyyətləri özündə əks etdirməlidir:

- iqtisadi təhlükəsizliyin onun subyektləri tərəfindən müəyyən olunan predmeti;
- bu predmetin parametrlərinin təhlükəsizlik zonasının hüdudlarına ən yaxın olan tərkib hissələri;
- sistemin arzu olunan vəziyyəti üçün əsas təhlükələr və onlardan doğan fəsadlar;
- təhlükəsizliyin tərkib hissələri üçün işlənib hazırlanması və həyata keçirilməsi məqsədəuyğun olan təhlükəsizliyin təmin olunma strategiyalarının tipləri;
- təhlükəsizliyin təmin olunmasının əsas strategiyalarının və onları təşkil edən tədbirlərin tərkibi.

S.Qlazyev iqtisadi təhlükəsizlik göstəricilərinə aşağıdakıları aid edir və müəllif tərəfindən onların hədd qiymətləri belə müəyyənləşdirilmişdir.

**Cədvəl 1.1.**

**İqtisadi təhlükəsizlik göstəriciləri [88, səh. 3]**

| № | Göstəricilər | Qlazyevə görə hədd qiymətləri |
|---|---|---|
| 1 | ÜDM-un həcmi | |
| | a) «yeddilik» üzrə bütövlükdə orta göstəricidən | 75% |
| | b) «yeddilik» üzrə orta göstəricidən adambaşına | 50% |
| | c) dünya üzrə orta göstəricidən adambaşına | 100% |
| 2 | Emal sənayesinin sənaye istehsalında payı | 70% |
| 3 | Maşınqayırmanın istehsal sənayesində payı | 20% |
| 4 | ÜDM-ə nisbətən investisiyanın həcmi, % | 25% |
| 5 | Elmi tədqiqatlara ayrılan xərclərin ÜDM-də payı | 2% |
| 6 | Buraxılan maşınqayırma məhsulunun ümumi həcmində yeni məhsul növlərinin payı | 6% |
| 7 | Gəlirlərin yaşayış minimumundan aşağı olan əhali təbəqəsinin əhalinin ümumi sayında payı | 7% |
| 8 | Əhalinin ömür müddəti | 70 il |
| 9 | Ən yüksək gəlirə malik 10% əhali hissəsinin və ən aşağı gəlirə malik 10% əhali arasında fərq | 8 dəfə |
| 10 | Cinayətkarlığın səviyyəsi (100 min nəfərə düşən cinayətlərin sayı) | 5 min |
| 11 | BƏT-in metodologiyası üzrə işsizliyin səviyyəsi | 7% |
| 12 | İl ərzində işsizliyin səviyyəsi | 20% |
| 13 | Müqayisə olunan dövrdə ÜDM-də xarici borcun həcmi | 20% |
| 14 | Vergi daxilolmalarına nisbətdə | |
| 15 | ÜDM-də xarici borcun həcmi | 25% |
| 16 | Büdcə kəsirinin örtülməsində xarici borcun payı | 30% |
| 17 | ÜDM-dən büdcə kəsiri | 5% |
| 18 | Milli valyutada xarici valyutanın həcm nisbəti | 10% |
| 19 | Nəğd formada milli valyutanın həcmində xarici valyutanın payı, həcmi | 25% |
| 20 | ÜDM-də pul kütləsi ($M_2$) | 50% |
| 21 | Daxili istehlakda ixracın payı, o cümlədən ərzaq da daxil olmaqla | 30% |
| 22 | Yaşayış minimumuna görə regionların differensasiyası | 1,5 dəfə |

Lakin araşdırmaların nəticəsi göstərir ki, Qlazyevin təklif etdiyi metodikaya uyğun gələn heç bir dövlət yoxdur. Qlazyev tərəfindən müəyyən edilən hədd qiymətləri baxımından yanaşdıqda, o zaman dünyanın əksər dövlətləri, hətta ən yüksək iqtisadi inkişafa nail olan dövlətlər belə iqtisadi cəhətdən təhlükəsiz hesab oluna bilmirlər. Hətta ümumi olaraq dünyada qəbul edilmiş iqtisadi təhlükəsizlik göstəricilərinə belə bu hədd qiymətləri səviyyəsində uyğun olan dövlətlərin sayı çox azdır və bu uyğunluq da demək olar ki, qeyri-ciddi xarakter daşıyır.

Belə ki, Qlazyevdən fərqli olaraq, bir sıra iqtisadi institutlar tərəfindən dünya ölkələri üçün qəbul edilmiş iqtisadi təhlükəsizlik göstəriciləri işlənib hazırlanmışdır və siyahıda göstəricilərin bəziləri beynəlxalq iqtisadi statistikada qəbul olunmuş terminlərlə ifadə olunmuşdur. Bunlar aşağıdakılardır:

1) alıcılıq qabiliyyəti pariteti üzrə məcmu daxili məhsul;

2) alıcılıq qabiliyyəti pariteti üzrə əhalinin adambaşına düşən məcmu daxili məhsul;

3) bütün sənaye məhsullarında emal sənayesinin payı, %;

4) bütün sənaye məhsullarında maşınqayırma sənayesinin payı, %;

5) ÜDM-ə faizlə investisiya;

6) elmi tədqiqatlara ayrılan xərclərin ÜDM-də payı;

7) beynəlxalq standartlara görə yoxsulluğun (AQP üzrə gündəlik gəliri 1 dollardan az olan əhali hissəsi), %;

8) gözlənilən orta ömür müddəti, il;

9) 10% ən yüksək gəlirə malik əhali hissəsi və 10% ən aşağı gəlirə malik əhali hissəsinin nisbəti, dəfə;

10) BƏT-in metodologiyasına uyğun olaraq işsizliyin səviyyəsi, %;

11) illik inflyasiyanın səviyyəsi, %;

12) ÜDM-də xarici borcun həcmi, %

13) ÜDM-in həcmində idxalın məbləği, %;

14) ÜDM-də daxili borcun həcmi, %;

15) dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsində xarici borcun həcmi, %;

16) beynəlxalq metodologiya üzrə ÜDM-də dövlət büdcəsinin balansı;

17) məcmu pul kütləsində ($M_2$) xarici valyuta ilə depozitlərin həcmi;

18) ÜDM-də məcmu pul kütləsi ($M_2$);

19) ÜDM-də ixracın həcmi;

20) ərzaq istehsalında ixrac ərzağının payı.

Bu göstəricilərlə belə Qlazyevin təklif etdiyi hədd qiymətlərinə uyğun təhlillər apardıqda belə məlum olur ki, dünya ölkələrinin 99%-i, əhalisinin isə 72%-i iqtisadi təhlükəsizlik baxımından «böhran həddi»ndədirlər.

Bundan başqa, əhalisi yüksək həyat səviyyəsi və gəlir səviyyəsinə malik bir sıra dünya dövlətləri də vardır ki, onlar da Qlazyevin təklif etdiyi hədd qiymətlərinə görə bəzi göstəricilər üzrə böhran həddindədirlər. Bunlarla aşağıdakı cədvəldən tanış ola bilərik [106, səh. 35].

**Cədvəl 1.2.**

**Qlazyevin təklif etdiyi hədd qiymətlərinə uyğun olmayan dövlətlər**

| № | Göstəricilər | Qlazyevin təklif etdiyi hədd qiymətləri | Qlazyevin təklif etdiyi hədd qiymətlərinə uyğun olmayan dövlətlər (1996-cı il üçün) | | |
|---|---|---|---|---|---|
| | | | ölkələr | göstəricinin qiyməti | AQP üzrə adambaşına düşən ÜDM |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | 1993-cü ilin qiymətləri ilə AQP üzrə ÜDM, mlrd. doll. | 1670 | Almaniya | 1650 | 20162 |
| 2 | 1993-cü ilin qiymətləri ilə AQP üzrə adambaşına düşən ÜDM | 11505 | Sloveniya | 11082 | 11082 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | Bütün sənaye məhsullarının həcmində emal sənayesinin payı, % | 70 | Norveç | 38,9 | 22378 |
| 4 | Bütün sənaye məhsullarında maşınqayırma sənayesinin payı, % | 20 | Kanada | 14,7 | 21243 |
| 5 | ÜDM-də investisiyanın həcmi, % | 25 | ABŞ | 17,6 | 26683 |
| 6 | Elmi-tədqiqat işlərinə ayrılan xərclərin ÜDM-də payı, % | 2 | İsveçrə | 1,8 | 23803 |
| 7 | Beynəlxalq metodika üzrə yoxsulluq (AQP üzrə gündəlik gəliri 1 dollardan az olan əhali hissəsi), % | 7 | Çili | 15,0 | 10051 |
| 8 | Gözlənilən orta ömür müddəti, il | 70 | Qrenlandiya | 67,6 | 21668 |
| 9 | Ən yüksək və ən aşağı gəlir səviyyəsinə malik 10% əhali təbəqəsinin nisbəti, dəfə | 8 | Çili | 32,5 | 10051 |
| 10 | BƏT-in metodologiyası üzrə işsizliyin səviyyəsi, % | 7 | Belçika | 12,6 | 21483 |
| 11 | İllik inflyasiyanın səviyyəsi, % | 20 | Venesuela | 99,9 | 7270 |
| 12 | ÜDM-ə nisbətən daxili borc, % | 20 | Yaponiya | 82,3 | 22069 |
| 13 | Dövlət büdcəsinin vergi gəlirlərinə nisbətən dövlət borcunun qaytarılması | 25 | Yunanıstan | 64,2 | 11666 |
| 14 | ÜDM-də xarici borc | 25 | İsveç | 31,5 | 18437 |
| 15 | Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsində xarici borcun payı, % | 30 | Almaniya | 68,9 | 20162 |
| 16 | Beynəlxalq metodika üzrə ÜDM-də dövlət büdcəsi balansı, % | -5 | İtaliya | -6,7 | 19515 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 17 | Məcmu pul kütləsində xarici valyuta ilə depozitlər, % | 10 | Niderland | 26,6 | 30838 |
| 18 | ÜDM-də məcmu pul kütləsi, % | 50 | İslandiya | 36,8 | 21196 |
| 19 | ÜDM-də ixracın payı, % | 30 | Kanada | 35,3 | 21243 |
| 20 | Ərzaq istehlakında ərzaq idxalının payı, % | 25 | Böyük Britaniya | 25,7 | 19060 |

Göründüyü kimi, yuxarıda qeyd edilən dövlətlər Qlazyevin təklif etdiyi hədd qiymətlərinə görə iqtisadi təhlükəsizlik meyarlarını təmin etmirlər. Bu meyarlara uyğun gəlməyən, lakin yüksək iqtisadi inkişaf tempinə malik dövlətlər də vardır ki, onlar da «böhran həddində»ki kimi qiymətləndirmirlər [106, səh. 46].

**Cədvəl 1.3.**

**Qlazyevin təklif etdiyi meyarlara uyğun gəlməyən, lakin yüksək iqtisadi inkişaf tempinə malik dövlətlər**

| № | Göstəricilər | Qlazyevin təklif etdiyi hədd qiyməti | Qlazyevin təklif etdiyi hədd qiymətinə uyğun olmayan ölkələr | | |
|---|---|---|---|---|---|
| | | | ölkələr | göstəricinin qiyməti | 1991-1996-cı ildə ÜDM-in adambaşına orta illik artım tempi, % |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | 1993-cü ilin qiymətləri ilə AQP üzrə ÜDM, mlrd. doll. | 1670 | Cənubi Koreya | 605 | 6,4 |
| 2 | 1993-cü ilin qiymətləri ilə AQP üzrə adambaşına ÜDM (dollar) | 11505 | Çili | 10051 | 5,9 |
| 3 | Bütün sənaye məhsullarında emal sənayesinin payı, % | 70 | Cənubi Koreya | 62,5 | 6,4 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4 | Bütün sənaye məhsullarında maşınqayırma sənayesinin payı, % | 20 | Çin | 19,1 | 10,4 |
| 5 | ÜDM-də investisiyanın həcmi, % | 25 | Tayvan | 23,2 | 5,4 |
| 6 | Elmi-tədqiqat işlərinə çəkilən xərclərin ÜDM-də payı, % | 2 | Çin | 0,6 | 10,4 |
| 7 | Beynəlxalq metodika üzrə yoxsulluq (AQP üzrə gündəlik gəliri 1 dollardan aşağı olan əhali hissəsi), % | 7 | Çin | 29,4 | 10,4 |
| 8 | Gözlənilən orta ömür müddəti, il | 70 | Ekvatorial Qvinee-ya | 48,8 | 9,9 |
| 9 | Ən yüksək və ən aşağı gəlir səviyyəsinə malik 10% əhali hissəsinin nisbəti, dəfə | 8 | Malayziya | 20,5 | 6,2 |
| 10 | BƏT-in metodologiyası üzrə işsizliyin səviyyəsi, % | 7 | Argentina | 17,2 | 4,5 |
| 11 | İllik inflyasiya səviyyəsi, % | 20 | Sudan | 85,0 | 2,6 |
| 12 | ÜDM-də daxili borc, % | 20 | Livan | 66,5 | 9,0 |
| 13 | Dövlət büdcəsinə vergi daxilolmalarında dövlət borcunun qaytarılma payı, % | 25 | Şri-Lanka | 32,2 | 3,9 |
| 14 | ÜDM-də xarici borc, % | 25 | Vyetnam | 130,2 | 6,2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 15 | Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsində xarici borcların çəkisi, % | 30 | Argentina | 66,6 | 4,5 |
| 16 | Beynəlxalq metodologiya üzrə ÜDM-də dövlət büdcəsi balansı, % | -5 | Livan | -157,7 | 9,0 |
| 17 | Məcmu pul kütləsində xarici valyuta ilə depozitlər, % | 10 | İndoneziya | 19,1 | 5,6 |
| 18 | ÜDM-də məcmu pul kütləsi, ($M_2$) % | 50 | Vyetnam | 15,0 | 6,2 |
| 19 | ÜDM-də idxalın həcmi, % | 30 | Tailand | 44,3 | 7,0 |
| 20 | İstehlak olunan ərzaqda ixracın payı, % | 25 | Niderland | 66,1 | 1,5 |

Göründüyü kimi, yüksək iqtisadi inkişaf tempi ilə seçilən yuxarıda adları çəkilən dövlətlər də Qlazyevin təklif etdiyi meyarlar əsasında iqtisadi cəhətdən heç də təhlükəsiz hesab olunmurlar. Onu da qeyd edək ki, Qlazyevin təklif etdiyi hədd qiymətləri çərçivəsində iqtisadi cəhətdən təhlükəsiz olan heç bir dövlət hal-hazırda dünyada mövcud deyildir. Çünki elə bir dövlət tapmaq mümkün deyildir ki, o, iqtisadi təhlükəsizliyin göstəriciləri üzrə Qlazyev tərəfindən təklif edilən hədd qiymətlərinə malik olsun. Hətta Yaponiya iqtisadi təhlükəsizliyin qeyd olunan 20 göstəricisindən yalnız 15-i üzrə qoyulan tələblərə uyğun gəlir. ABŞ, Fransa bu göstəricilərdən 14-ü, Cənubi-Koreya, Sinqapur, Böyük Britaniya, Almaniya, Lüksemburq, Finlandiya, Çex Respublikası 13-ü, Avstraliya, Avstriya, Belçika, Danimarka, Çin, İsveç 10-u üzrə verilən tələbləri təmin edir. Əlbəttə, bu siyahını daha da genişləndirmək olar. Azərbaycan isə 4 göstərici üzrə verilən tələbləri təmin edir.

A.İllarionov isə Qlazyevə əks mövqedə dayanaraq, ölkənin sosial-iqtisadi inkişafını müəyyən edən göstəricilər sferasında iqtisadi inkişafın səviyyəsini müəyyənedici amil kimi

qiymətləndirərək, iqtisadi təhlükəsizlik vəziyyətinin göstəriciləri sırasına aşağıdakıları daxil etmişdir [106, səh. 49]:

1) alıcılıq qabiliyyəti pariteti üzrə əhalinin adambaşına düşən məcmu daxili məhsul;

2) ÜDM-də dövlət müəssisələrinin istehsal payı, %-lə;

3) ÜDM-də dövlət xərcləri, %;

4) ÜDM-də dövlət istehlakının həcmi, %;

5) ÜDM-də dövlət büdcəsi kəsirinin payı, %;

6) dövlət borcunun səviyyəsi;

7) pul kütləsinin artım tempi (ÜDM-in real artım tempi nəzərə alınmadan), %;

8) inflyasiyanın artım tempi, %;

9) ABŞ dollarına nisbətdə milli valyutanın kursunun azalması, dəyişməsi, %;

10) xarici ticarət dövriyyəsində vergi yükünün həcmi (idxal və ixraca təyin olunan vergilərin nisbəti), %;

Bir faktı da qeyd edək ki, A.İllarionov bu göstəricilərin hamısını adambaşına düşən ÜDM-in orta illik artım tempi ilə asılılıq kontekstində araşdırmışdır. O, bu istiqamətlərdə həyata keçirilən iqtisadi siyasətin rolunu da iqtisadi təhlükəsizliyin təmin olunmasında müəyyənedici amil kimi qiymətləndirərək, büdcə, pul, valyuta, xarici ticarət sahəsində aparılan siyasətin əhəmiyyətinin yüksək olduğunu əsaslandırmışdır.

Digər müəlliflər isə iqtisadi təhlükəsizlik göstəricilərinin təsnifləşdirilməsinə bir qədər geniş aspektdən yanaşırlar. Belə ki, V.M.Zaxarova bu göstəriciləri müxtəlif cəhətlərə görə təsnifləşdirir [175, səh. 416]:

1. İqtisadi təhlükəsizliyin səviyyəsinə görə:

1.1. makroiqtisadi səviyyə – bu zaman bütövlükdə ölkənin iqtisadiyyatı nəzərdə tutulur;

1.2. mezosəviyyədə (regional və ya sahə çərçivəsində) – regionlar və ayrı-ayrı sahələr üzrə;

1.3. mikroiqtisadi səviyyə – firma, səhmdar cəmiyyətlər, banklar, müəssisələr, təşkilatlar, bir sözlə, iqtisadi agentlər nəzərdə tutulur;

1.4. ailə və şəxs (fərd) səviyyəsində – ölkənin hər bir vətəndaşının iqtisadi təhlükəsizliyi nəzərdə tutulur.

2. Göstəricilərin əhəmiyyətlilik dərəcəsinə görə:

2.1. ümumi makroiqtisadi göstəricilər;

2.2. baza (əsas) makroiqtisadi göstəricilər;

2.3. xüsusi iqtisadi göstəricilər;

2.3.1. istehsal təyinatlı;

2.3.2. sosial göstəricilər.

3.Təhlükənin təsir müddəti və onların proqnozlaşdırıldığı dövrə görə:

3.1. taktiki (cari və ortamüddətli);

3.2. strateji (uzunmüddətli).

4. İqtisadiyyata təsir istiqamətinə görə:

4.1. daxili;

4.1.1. iqtisadi xarakterli;

4.1.2. institusional xarakterli.

4.2. xarici.

5. Bütün göstəricilər bölünür:

5.1. kəmiyyət göstəriciləri;

5.2. keyfiyyət göstəriciləri.

Müəllifin qeyd etdiyi göstəricilər qrupunun daxilində də əlavə göstəriciləri də qeyd etmişqdir. Düzdür, bu problemin araşdırılmasına hərtərəfli yanaşma üçün geniş imkanları təmin etsə də, konkretlikdən uzaqlaşma üçün də zəmin yaradır. Xarici iqtisadçıların iqtisadi təhlükəsizliyi əks etdirən göstəricilər barədə fikirləri müəyyən mənada ölkəmizin görkəmli iqtisadçı-alimi akademik Z.Səmədzadənin tədqiqatlarında da öz əksini tapmışdır. O da iqtisadi təhlükəsizliyin təhlili üçün 22 göstəricinin tədbiq olunmasını təklif etmişdir [151, səh. 842].

Qeyd etmək lazımdır ki, bu göstəricilərin hər biri ilə tədqiqatın aparılması iqtisadi təhlükəsizliyin zəminində öz əksini tapsa da, lakin ölkənin ümumi iqtisadi potensialının qorunmasında bu göstəricilər ayrı-ayrılıqda istənilən nəticənin əldə olunmasına imkan yaratmayacaqdır.

Bu mənada, iqtisadi təhlükəsizliklə bağlı göstəriciləri ümumi halda makroiqtisadi məzmunda təsnifləşdirmək məq-

sədəuyğun olardı. Lakin bu, heç də iqtisadi inkişafda öz yeri olan digər göstəricilərin təsirini, rolunu kiçiltməməlidir. Eyni zamanda fikrimizcə, bu göstəricilər yuxarıda qeyd etdiyimiz səviyyələri ümumi və konkret olaraq əhatə etməlidir. Bu mənada aşağıdakı göstəricilər ölkədə iqtisadi baxımdan təhlükəsizliyin təhlilində istifadə edilə bilər.

1. ÜDM-in artım tempi (iqtisadi artım).
2. Sənaye istehsalında artım sürəti və ÜDM-də onun payı.
3. Aqrar-sənaye kompleksinin artım və inkişaf sürəti və ÜDM-də onun payı.
4. İnflyasiyanın səviyyəsi.
5. İşsizliyin səviyyəsi.
6. Büdcə kəsiri.
7. Yoxsulluğun səviyyəsi.
8. Daxili və xarici borcun ÜDM-də xüsusi çəkisi, payı.
9. Xarici ticarət dövriyyəsi.
10. İdxalda ərzaq məhsullarının xüsusi çəkisi.
11. Vergi-gömrük sisteminin inkişafı.
12. ÜDM-də investisiyaların həcmi.
13. ÜDM-də regionların xüsusi çəkisi, onların inkişaf səviyyəsi.
14. Pul kütləsinin həcmi və artım tempi.
15. Ölkənin elmi-texniki, kadr potensialının, əmək ehtiyatlarının kəmiyyət və keyfiyyəti, eləcə də təbii ehtiyatları.
16. Ölkədə demoqrafik vəziyyət.
17. Əhalinin miqrasiyası, o cümlədən ölkədən «beyin» axını.
18. Dövlət idarəetməsinin keyfiyyəti və fəaliyyət mexanizmi.
19. Monopoliya, inhisarçılıq.
20. Kölgə iqtisadiyyatının miqyası.
21. Korrupsiyanın miqyası.
22. Həyat səviyyəsi və həyatın keyfiyyəti.

Onu da qeyd edək ki, bu göstəricilər ümumi olaraq bir-birini tamamlayır və birinin inkişaf səviyyəsi digərini

şərtləndirir. Lakin elə göstəricilər də vardır ki, onlar yerdə qalan digər göstəricilərin qiymətlərinə birbaşa təsir edərək, nəinki həmin meyarlar üzrə iqtisadi tənəzzülə gətirib çıxara bilir, hətta bütövlükdə bu meyarlar üzrə iqtisadi inkişafı kölgə altına alır. Məhz korrupsiya, kölgə iqtisadiyyatının miqyası, dövlət idarəetməsi mexanizminin keyfiyyəti, strukturu belə göstəricilərdəndir.

Bəzi alimlər isə iqtisadi təhlükəsizliyin ümumiləşdirilmiş göstəricilərindən biri kimi dövlətdə sakitlik (asayiş) əmsalının ($Kn_{nq}$) tətbiq edilməsini təklif edirlər. Bu əmsal bir tərəfdən dövlətin gücü, daxildə və xaricdə olan təhlükəli amillərin qiymətinin nisbəti ilə, digər tərəfdən də dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunması səviyyəsini ifadə edən əmsalların kəmiyyəti ilə əlaqəlidir. Belə hesab edilir ki, dövlətin iqtisadi təhlükəsizliyi, yəni $K_{nq} = 1$ [175, səh. 428].

Rus alimləri isə belə hesab edirlər ki, ölkədə iqtisadi təhlükəsizliyi təmin etmək istiqamətində əsas meyar kimi ictimai əmək məhsuldarlığının stabil artım tempi il ərzində 5%-dən az olmamalıdır [175, səh. 428].

Lakin fikrimizcə, elə göstəricilər seçilməlidir ki, onlar ölkə iqtisadiyyatının əsas sahələrinin inkişaf səviyyəsini əks etdirsinlər və bilavasitə ölkənin sosial-iqtisadi inkişafını şərtləndirsinlər. Düzdür, ölkədə mövcud olan siyasi sabitlik, sakitlik özü də iqtisadi inkişaf üçün əsas rol oynasa da, ölkədəki sosial-iqtisadi durum da bu sabitlik üçün əsas təminatverici cəhət kimi çıxış edir.

İqtisadi təhlükəsizlik sahəsində aparılan tədqiqatların təhlili göstərir ki, Rusiya Federasiyasında bu sahədə daha dərin araşdırmalar aparılmışdır. Həmçinin Rusiya iqtisadiyyatının da keçid dövrünü yaşaması bu təcrübənin bizim üçün digər ölkələrin təcrübəsindən daha münasib olduğu haqda nəticəyə gəlməyə imkan verir. 2000-ci illərin əvvəllərində AMEA-nın İqtisadiyyat İnstitutunun Maliyyə-Bank tədqiqatları mərkəzinin iqtisadi təhlükəsizliyin göstəricilərinin müəyyənləşdirilməsi sahəsində apardığı araşdırmaların nəticələrinin

istifadə edilməsi Azərbaycan üçün də çox məqsədəuyğun olardı.

Fikrimizcə, Azərbaycanda iqtisadi təhlükəsizliyin 3 qrup hədd göstəriciləri müəyyənləşdirilib formalaşdırılmalıdır:

1. Milli mənafelərin əsas prinsipial xüsusiyyətlərini əks etdirən və dövlət səviyyəsində qəbul olunan makroiqtisadi göstəricilər;

2. Bu əsas xüsusiyyətləri daha geniş şərh edən, tamamlayan və İqtisadi İnkişaf Nazirliyi tərəfindən qəbul olunan göstəricilər;

3. Uyğun olaraq ayrı-ayrı nazirliklər tərəfindən qəbul olunan funksional və sahə səviyyəli göstəricilər.

Sxem 1.1.-də iqtisadi təhlükəsizliyin sistemi göstərilmişdir. Cədvəl 1.4.-də isə Azərbaycan üçün təklif olunan iqtisadi təhlükəsizliyin hədd göstəricilərinin siyahısı və onların parametrlərinin qiymətləri göstərilmişdir.




**Sxem 1.1. İqtisadi təhlükəsizlik sisteminin strukturu**

**Cədvəl 1.4.**

## Azərbaycanda iqtisadi təhlükəsizliyin hədd göstəriciləri

| № | İqtisadi təhlükəsizliyin hədd göstəricilərinin adı | İqtisadi təhlükəsizliyin hədd göstəricilərinin səviyyəsi (MDB ölkələri üzrə) | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | ÜDM-in həcmi (mln. manatla) | 6000 | 4718,1 | 5315,6 | 6062,5 | 7146,5 | 8530,2 | 12522,5 | 18037,1 |
| 2 | Əsas kapitala investisiyalar, ÜDM-də %-lə | 25 | 13,9 | 15,5 | 26,8 | 14,0 | 45,9 | 33,3 | 23,8 |
| 3 | Müdafiə xərcləri ÜDM-də %-lə | 3 | 1,5 | 1,6 | 1,5 | 1,6 | 1,8 | 1,6 | 1,5 |
| 4 | ÜDM-də elmə çəkilən xərclərin payı, %-lə | 1,5 | 0,19 | 0,17 | 0,18 | 0,23 | 0,23 | 0,22 | 0,17 |
| 5 | Bütövlükdə sənaye məhsulunun həcmində innovasiyalı məhsulun payı, %-lə | 15 | 2,0 | 2,0 | 0,01 | 0,008 | 0,02 | 0,1 | 0,3 |
| 6 | Sənaye istehsalında maşınqayırma və metal emalının payı, %-lə | 25 | 1,5 | 1,8 | 1,67 | 4,7 | 5,7 | 4,3 | 3,2 |
| 7 | İşsizliyin orta illik səviyyəsi, %-lə | 5,8 | 1,2 | 1,3 | 1,3 | 1,4 | 1,5 | 1,4 | 1,3 |
| 8 | Gəlirləri yaşayış minimumundan aşağı səviyyədə olan əhalinin xüsusi çəkisi, bütün əhaliyə nisbətən %-lə | 7,10 | 49,0 | 49,0 | 40,7 | 44,7 | 40,2 | 29,3 | 20,8 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 9 | İlin sonuna moneti-zasiyanın səviyyəsi ($M_2$), ÜDM-də %-lə | 50 | 6,9 | 6,6 | 6,6 | 7,2 | 8,0 | 6,3 | 11,8 |
| 10 | Taxıl istehsalı (mln.ton) | 4,6 | 1,5 | 1,9 | 2,1 | 2,0 | 2,1 | 2,0 | 2,0 |
| 11 | Xarici və daxili borc, ÜDM-də %-lə | 60 | 45 | 42 | 40 | 30 | 16 | 15 | 11 |
| 12 | Büdcə kəsiri, ÜDM-də %-lə | 3 | 1 | 0,5 | 0,4 | 0,2 | 0,2 | 0,7 | - |
| 13 | İnflyasiyanın səviyyəsi, % | 25 | 2,2 | 1,3 | 3,3 | 3,6 | 10,4 | 5,4 | 11,4 |

Mənbə: Cədvəl müəllif tərəfindən Azərbaycanın statistik göstəriciləri əsasında tərtib olunmuşdur.

Ən mühüm iqtisadi təhlükəsizlik göstəricilərinin faktiki səviyyəsinin onların hədd göstəriciləri ilə müqayisəsi onu göstərdi ki, seçilmiş hədd göstəriciləri təhlil üçün tam qənaətbəxş səviyyədədir. Cədvəldən (cədvəl 1.4.) göründüyü kimi, 2000-2006-cı illərdə göstəricilərin təxminən ⅓ hissəsi hədd göstəricilərindən daha yaxşıdır. Bununla belə əksər hədd göstəriciləri üzrə, başlıca olaraq, əsas kapitala investisiyalar, investisiya aktivliyi, bununla əlaqədar olaraq başlıca sosial göstəricilər üzrə iqtisadiyyat təhlükə zonasında qalmaqda davam edir və bu hal manatın məzənnəsinin kəskin dəyişikliyi, ixrac yönlü xammal məhsullarının dünya bazarında qiymətinin aşağı düşməsi ilə daha da kəskinləşərək, yeni böhrana yol aça bilər.

## 1.2. Milli iqtisadi inkişaf modelinin formalaşmasının təhlükəsizlik aspekti

İqtisadi təhlükəsizliyin təmin olunması dövlətin həyata keçirdiyi mühüm funksiyalardan biridir. İqtisadi təhlükəsizlik problemi ayrılıqda sərbəst şəkildə mövcud olmayıb, cəmiyyətin hər bir inkişaf mərhələsində iqtisadi artımla, yüksəlişlə əlaqəli zərurətdən meydana gəlmişdir. Mövcud dövrdə xarici

və daxili şəraitdən, amillərdən asılı olaraq problemin konkret məzmununda dəyişikliklər baş verə bilər.

«İqtisadi təhlükəsizlik» anlayışı qeyri-təbii, konyunktur xarakterə malik deyildir. Bu gün daha çox səslənən «milli təhlükəsizlik» anlayışı müasir cəmiyyətin həyatına, düşüncə tərzinə daha güclü nüfuz edərək, hər bir dövlətin daxili və xarici siyasətinin ayrılmaz hissəsidir. Təsadüfi deyil ki, bir çox dövlətlər bu gün öz milli təhlükəsizlik strategiyalarını işləyib-hazırlayır və onu daima təkmilləşdirirlər. Heç də təəccüblü deyildir ki, iqtisadi fəaliyyət cəmiyyətin, dövlətin və hər bir şəxsin fəaliyyətində əsas istiqamətlərdən birini təşkil etdiyi üçün, istənilən mümkün daxili və xarici təhlükələrə, təhdidlərə qarşı sabit və güclü iqtisadiyyat yaratmadan milli təhlükəsizlik haqqında danışmaq tam mənasız olardı.

Milli təhlükəsizlik anlayışı iqtisadi təhlükəsizlik anlayışından geniş məna kəsb edərək, müdafiə, informasiya, ekoloji, enerji təhlükəsizliyi və s. məsələləri özündə ehtiva edir. Lakin təhlükəsizliklə bağlı məsələlərin bu və ya digər cəhətlərilə yanaşı, onların iqtisadi aspektlərinin də nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Bir sıra ümumi şərtlər və amillər bu anlayışı cəmiyyətin və dövlətin fəaliyyətinə daha sıx daxil edir. Birincisi, inteqrasiya proseslərinin inkişafına baxmayaraq bu, milli maraqlarda olan fərqləndirici cəhətlər, ümumi maraqlardan onların daha da ayrılması cəhdidir. Maraqların spesifikası onların həyata keçirilməsi mexanizmlərinin müəyyən olunmasını və uyğun strategiyanın işlənib hazırlanmasını tələb edir. İkincisi, təbii ehtiyatların məhdudluğu, hər bir ölkədə müxtəlif səviyyədə olması bu ehtiyatlardan istifadə uğrunda siyasi və iqtisadi mübarizənin güclənməsinin potensial əsasını təşkil edir. Üçüncüsü, istehsal sferasında, xüsusən maliyyə-bank xidmətləri sahəsində rəqabət amilinin əhəmiyyəti artır. Maliyyə-bank sektorunun inkişafı üçün lazımi şərait yaratmaq və onun dəqiq işini təmin etmək yeni sənaye sahələrinin və kənd təsərrüfatı texnologiyalarının yaradılması qabiliyyəti ilə bir cərgədə durur. Məhz buna görə də bir ölkənin rəqabət-

qabiliyyətliyinin artması digər ölkələr üçün onların milli maraqları baxımından real təhlükə mənbəyi rolunu oynayır.

Milli təhlükəsizlik konsepsiyalarının təhlilini aparan müəlliflərin tədqiqatları göstərir ki, mühüm nəzəri əsaslardan biri milli təhlükəsizliyin gücü haqqında təsəvvürlərdir. Milli təhlükəsizlik konsepsiyaları milli mənafelər konsepsiyaları ilə o qədər sıx əlaqəli surətdə işlənib hazırlanmışdır ki, müəyyən mərhələlərdə bunlar analoji, eyni anlayışlar kimi nəzərdən keçirilmişdir. Hər iki anlayış milli dövlətçilik ideyası yaranmadan formalaşa bilməzdi. Bu ideya isə qəribə də olsa yeni bir məfhum olaraq, əvvəlki dövrlərə deyil, keçən əsrin sonuna və bu əsrin əvvəllərinə aiddir. Proxorenkoya görə – «milli təhlükəsizlik – ölkənin həyatına təsir edən xarici və daxili şərtlərin elə uyğunluğudur ki, bu zaman kritik xarakterli təhlükələr mövcud deyil və eyni zamanda bu təhlükələr yaranarsa, dövlətin onlara tam adekvat reaksiya vermək qabiliyyəti qorunub saxlanılır» [143, səh. 70].

İqtisadi təhlükəsizlik anlayışını formalaşdırmazdan əvvəl, onun mühüm komponentlərini müəyyənləşdirmək vacibdir. Burada hər bir dövlətin, o cümlədən Azərbaycanın milli-dövlətçilik maraqlarının və məqsədlərinin nəzərə alınması xüsusən əhəmiyyətlidir. Bu maraqlar həm ölkə sərhədləri daxilində, həm də ondan kənarda olduqca vacibdir: dövlət müstəqilliyinin qorunub saxlanması və onun inkişafına nail olmaq; Azərbaycanın beynəlxalq miqyasda mövqeyi, onun dünya bazarında, dünya sənaye istehsalında, onun ixtisaslaşması və kooperasiyasında, dünya ticarətində, beynəlxalq maliyyə-bank sistemində, əmtəə və xidmətlər bazarında, qiymətli kağızlar bazarında rolu və yeri; Azərbaycanın bir dövlət kimi özünün vahidliyini qoruyub saxlaması, özünü müdafiə etməsi.

Dövlətin vahidliyinin, bütövlüyünün təmin olunmasında güclü ordu və yüksək texnologiyaya malik müdafiə sistemi ilə yanaşı, daha təkmil iqtisadi, hüquqi və təşkilati mexanizmlərin mövcudluğu, güclü iqtisadi sistemin yaradılması zəruridir; inkişaf etmiş istehlak malları və xidmətləri sektoru; daxili sosial-siyasi sabitlik və etibarlı sosial bazaya əsaslanan

islahatlar; ümumi iqtisadi potensialla balanslaşdırılmış kifayət qədər güclü müdafiə potensialı. Bütövlükdə iqtisadiyyat və müdafiə sistemi arasında dərin disproporsiyanın olması sonda ölkənin dağılması üçün real təhlükə mənbəyinə çevrilə bilər (Keçmiş SSRİ-nin təcrübəsi də buna misaldır).

İqtisadi təhlükəsizlik anlayışının məzmununu başa düşmək üçün onun «inkişaf», «sabitlik» anlayışları ilə əlaqəsini araşdırmaq məqsədəuyğundur. İnkişaf iqtisadi təhzlükəsizliyin komponentlərindən biridir. İqtisadiyyatın inkişaf etməsi, onun daxili və xarici təsirlərə, təhlükələrə qarşı müqaviməti və uyğunlaşa bilməsi kəskin şəkildə aşağı düşər və yüksəliş imkanları məhdudlaşar. Dayanıqlıq və təhlükəsizlik vahid bir sistem kimi iqtisadiyyatın mühüm xüsusiyyətlərindəndir. Onları heç də bir-birinə qarşı qoymaq lazım deyil, hər biri özünəməxsus səviyyədə iqtisadiyyatın səviyyəsini, vəziyyətini xarakterizə edir. İqtisadi dayanıqlıq onun elementlərinin, üfiqi, şaquli və digər sistem daxili əlaqələrin möhkəmliyini və etibarlığını, daxili və xarici təsirlərə («yüklənmələrə») qarşı davam gətirmə, dayanmaq qabiliyyətini bir növ əks etdirir. Təhlükəsizlik–obyektin daxili və xarici təsirlər, təhlükələr şəraitində mövcud olma və inkişaf edə bilmə qabiliyyəti nöqteyi-nəzərindən onun əlaqələr sistemində vəziyyətini ifadə etməklə yanaşı, həmçinin gözlənilməz və çətin proqnozlaşdırılan amillərin təsirini müəyyən edir.

İqtisadi sistem, istehsal və maliyyə-bank kapitalı münasibətləri nə qədər dayanıqlıdırsa, iqtisadiyyat bir o qədər güclü olar və onun təhlükəsizliyi kifayət qədər yüksək qiymətləndirilə bilər. Sistemin ayrı-ayrı komponentləri arasında əlaqələrin və uyğunluğun, mütənasibliyin pozulması iqtisadi sistemdə qeyri-stabilliyə gətirib çıxara bilər və iqtisadiyyatın təhlükəsizlik vəziyyətdən təhlükəli vəziyyətə keçməsinə bir siqnaldır.

Beləliklə, iqtisadi təhlükəsizliyin mahiyyəti, məzmununu, milli maraqların təminatlı müdafiəsini, sosial yönümlü siyasəti, hətta qeyri-əlverişli daxili və xarici proseslərin inkişafı şəraitində kifayət qədər müdafiə potensialını təmin edə biləcək

dövlət institutlarının və iqtisadiyyatın vəziyyəti, səviyyəsi kimi müəyyən etmək olar. Başqa sözlə, iqtisadi təhlükəsizlik – yalnız milli maraqların müdafiə olunması deyil, həmçinin dövlət inistitutlarının milli iqtisadiyyatın inkişafı kontekstində milli maraqların qorunması və həyata keçirilməsi, eləcə də cəmiyyətin sosial-siyasi stabilliyinin qorunub saxlanılması mexanizmlərini yarada bilmə qabiliyyəti və buna hazır olmalarıdır.

İqtisadi təhlükəsizliyin mahiyyəti göstəricilər və meyarlar sistemi ilə reallaşır. İqtisadi təhlükəsizliyin meyarları – iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirə biləcək mühüm, vacib proseslər nöqteyi-nəzərindən mövcud iqtisadi vəziyyətin (iqtisadiyyatın vəziyyətinin) qiymətləndirilməsidir. Təhlükəsizliyin meyarlar baxımından qiymətləndirilməsi aşağıdakıların qiymətləndirilməsini nəzərdə tutur: resurs potensalının və onun inkişaf imkanlarının; ehtiyatlardan, kapitaldan və əməkdən səmərəli istifadə səviyyəsi və onun inkişaf etmiş ölkələrdəki səviyyəyə, həmçinin daxili və xarici təhlükələrin minimum səviyyəsinə uyğunluğu; iqtisadiyyatın rəqabətqabiliyyətliliyi; iqtisadi və ərazi məkanının vahidliyi, bütövlüyü; süverenlik, müstəqillik və xarici təhlükələrə qarşı dayanma imkanı; sosial stabillik və sosial münaqişələrin qarşısının alınması və həll edilməsi üçün şərait.

İqtisadi təhlükəsizlik göstəriciləri – indikatorları sistemində aşağıdakılar ayrılır; həyat səviyyəsi və həyatın keyfiyyəti; inflyasiyanın tempi; işsizliyin səviyyəsi (norma səviyyəsi); iqtisadi artım; büdcə kəsiri; dövlətin borcları; dünya iqtisadiyyatına daxil olmaq, qoşulmaq; qızıl valyuta ehtiyatlarının vəziyyəti, səviyyəsi; kölgə iqtisadiyyatının fəaliyyəti.

İqtisadi təhlükəsizlik üçün göstəricilərin özləri bir o qədər yox, onların qiymət səviyyələri, hədləri mühüm əhəmiyyət kəsb edir. Qiymət həddi dedikdə yekun, son hədd başa düşülür. Bu həddin gözlənilməməsi təkrar istehsal prosesinin müxtəlif elementlərinin normal inkişafına mane olur, iqtisadi təhlükəsizlik sahəsində neqativ, dağıdıcı meyllərin formalaşmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, yüksək təhlükəsizlik dərəcəsi bütün göstəricilər kompleksinin qiymətlərinin yol verilən hədd daxilində olması, ancaq bir göstəricinin qiymət həddinin (hədd qiymətinin) digər göstəricinin zərərinə olmaması şərti daxilində təmin oluna bilər.

Fikrimizcə, təhlükəli amillər sırasında xaricdən olan təhlükələr daha ciddi xarakterə malikdir. Xarici təhlükə mənbələri kimi, ölkənin xarici borclarının artması, ixracatın xammal yönümlü olması, xarici ticarət dövriyyəsinin həcminin azalması kimi amillər aşağı iqtisadi səmərəliliyi, emal sənayesinin zəif rəqabətqabiliyyətliliyini şərtləndirir və sonda daxili təhlükə üçün zəmin yaradır.

Bu məsələyə V.İ.Fomiçevin baxışları ilə razılaşmaq lazımdır. O, qeyd edir ki, ölkələr arasında kommersiya münasibətlərinin təşəkkülü və inkişafı beynəlxalq əmək bölgüsü subyektlərinin bir-birindən qarşılıqlı asılılığının güclənməsinə, eləcə də ixtisaslaşma və kooperasiyadan əldə olunan üstünlüklərdən gəlir götürmənin zəruriliyinin meydana çıxmasına səbəb olur. Əgər ÜDM-in səviyyəsi xaricdəki təsadüfi, yaxud da bilərəkdən hazırlanmış hadisələrdən əhəmiyyətli dərəcədə asılı deyilsə, bu zaman milli iqtisadiyyat təhlükəsizlikdədir. Əgər ÜDM-in səviyyəsi xarici amillərə həssasdırsa və bu reaksiyanın nəticələrini neytrallaşdırmaq mümkün deyilsə, bu zaman iqtisadi təhlükəsizliyin səviyyəsi aşağı düşür [170, səh. 44].

Deməli, son zamanlar dünya bazarında neftin qiymətinin qalxması ilə əlaqədar Azərbaycanda ÜDM-in səviyyəsinin xeyli artmasının ölkə iqtisadiyyatına müsbət təsiri ilə yanaşı iqtisadi təhlükəsizliyə mənfi təsiri də ola bilər, bu amillərin gələcəkdə iqtisadi təhlükəsizliyə təsirinin miqyasları barədə düşünməyə dəyər.

Daxili təhlükə mənbələri sırasında sosial və elmi-texniki sferalarda yaranan meyllər daha ciddi təhlükə xarakteri daşıyır. Burada güclü resurs potensialına malik olmaq hər bir dövlət üçün mühüm əhəmiyyət kəsb edir. Belə ehtiyatlar və elmi-texniki potensial maddi istehsal sahələrinin kompleks inkişafını təmin edə bilər.

Həm iqtisadi, həm də milli təhlükəsizliyin təmin olunmasında sosial sfera mühüm, «açar» rolu oynayır. Burada fərdlərin, cəmiyyətin, ailələrin, həmçinin siniflərin, sosial qrupların, dövlətin maraqlarının real təcəssümü, həyata keçirilməsi daxildir. Məhz burada bütün çoxcəhətli sosial münasibətlərin ahəngdarlığı və davamlılığı, möhkəmliyi, həmçinin dövlət, fərd və müəssisə arasında münaqişəli və münaqişəsiz münasibətlər nəzərdən keçirilir, yoxlanılır. Ölkə, onun təhlükəsizliyi üçün daha böyük qorxu amilləri aşağıdakılardır: əhalinin gəlir və istehlak səviyyəsində kəskin differensasiyanın olması; qiymətli ərzaq malları üzrə orta istehlak normasının azalması hesabına ərzaq istehlakı strukturunun (qidalanmanın) pisləşməsi; gəlir səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin çoxluğu nəticəsində yoxsulluq səviyyəsinin yüksək olması. ABŞ-da yüksək gəlir səviyyəsinə malik 10% əhalinin gəliri aşağı gəlir səviyyəsinə malik 10% əhalinin gəlirindən 11 dəfə, Rusiyada isə 13 dəfə çoxdur, Qərbi Avporada isə bu 5-8 dəfə çoxdur. Bu səviyyədə differensasiyaya nə iqtisadi, nə də sosial cəhətdən haqq qazandırmaq olmaz. Onu da qeyd edək ki, bəzən yalnız işsizlər deyil, həm də o qədər də yüksək əmək haqqı olmayan işləyən əhali hissəsi də səmərəsiz bölgü mexanizminin qurbanına çevrilmiş olur.

Məşğulluğun səviyyəsinin azalması, təhsil alma imkanlarının məhdudlaşması, xüsusilə əhali arasında ölümün artması və doğumun səviyyəsinin aşağı düşməsi həyatın keyfiyyətinin pisləşməsinə səbəb olur. Çox vaxt həyatın keyfiyyəti haqqında inteqral göstərici kimi adambaşına düşən məcmu daxili məhsul əsas götürülür.

Elmi-texniki potensial iqtisadiyyatın səviyyəsini, gələcəkdə onun inkişaf imkanlarını müəyyən edir. Elmi-texniki tərəqqinin özünün inkişafı və təkmilləşdirilməsi olmadan ölkənin müdafiə qabiliyyətini yüksəltmək, mühüm sənaye sahələrində əsas fondların yeniləşdirilməsi mümkün deyildir. Məhz bu baxımdan elmi-texniki işlərin daha geniş miqyasda həyata keçirilməsi, elmi-texniki tədqiqatların həcminin artırılması, bu istiqamətdə kadr potensialının səviyyəsinin təkmilləşdirilməsi

iqtisadiyyatın inkişafında, hər bir ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaya bilər.

Avropalı ekspertlər belə hesab edirlər ki, əhalinin normal inkişafı, yaşayışı üçün elm sahəsində işləyənlər məşğul əhalinin 30%-ni təşkil etməlidir. Deməli, bu sahədə kadr axıcılığının qarşısının alınması bazar iqtisadiyyatı şəraitində həlli vacib məsələlərdəndir.

İqtisadi təhlükəsizliyə qarşı olan bütün amillər iqtisadiyyatın mühüm sferalarını əhatə edərək, insanın həyat fəaliyyətinə, onun fundamental əsaslarına ciddi mənfi təsir göstərir. Struktur yenidən qurması adı altında istehsalın dağılmasına gətirib çıxaran iqtisadi siyasət nəticədə milli təhlükəsizliyin əsaslarını sarsıdaraq, süni surətdə inkişafı ləngidir.

Bu baxımdan keçid iqtisadiyyatı şəraitində iqtisadi təhlükəsizlik strategiyasının müəyyənləşdirilməsi, onun perspektivlərinin öyrənilməsi, tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Bəzən belə bir fikir formalaşır ki, keçid dövründə əsas məsələ bütün ölkənin və iqtisadiyyatın «yaşamasını», «sağ qalmasını» təmin etmək, daha sonra isə onun stabilliyini və gələcəkdə inkişafını təmin etməkdir. Həqiqətdə isə yaşama, sağ qalma meyarı olduqca genişdir. İstehsalın azalmasının son həddə çatması və stabilləşmənin başlamasını müəyyən etmək çətindir.

Bazarın «qüdrətli əllər»i haqqında, onun adi gözlə görünməyən gücü barəsində təsəvvürlər artıq bizə məlumdur. Bu «görünməz əllər» özü gələcək inkişafın təkan nöqtəsini tapır. Həqiqətdə, bazar təsərrüfatı sisteminin imkanları informasiya bazası üzərində qurulan iqtisadi strategiya olmadan reallaşa bilməz. Amerika iqtisadçısı V.Leontyevin fikrincə, bazar və sahibkarlıq iqtisadiyyatın «yelkənidir» və məqsədli idarəetmə, sınaqdan keçirmə və səhvləri aşkaretmə metodları olmadan inkişaf istiqamətlərini, trayektoriyasını müəyyənləşdirmək çox vaxt tələb edir.

İqtisadi, bütövlükdə milli təhlükəsizliklə bağlı dövlətin həyata keçirdiyi strategiyanın əsasını təhlükə qorxusunu minimuma endirə biləcək strateji prioritetləri, milli maraqları nəzərə alacaq inkişaf ideologiyası (yəni iqtisadi, fəlsəfi, sosial,

informatika, hüquq, politologiya və geosiyasət və s. bağlı elmi baxışlar sistemi, elmi dünyagörüşü) təşkil etməlidir. Əgər bazarın özünün gücü ilə ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyilsə, o zaman bazar şəraitinin geniş və dərin təhlili əsasında istehsalın artırılmasının bazası müəyyənləşdirilməlidir. İnkişaf ideologiyası olmadan, sənaye və elmi-texniki yüksəlişi təmin etmədən, ona şəraiti yaratmadan büdcə gəlirlərini artırmaq, əhalinin məşğulluq səviyyəsini təmin etmək, əhalinin həyat keyfiyyətini və sosial müdafiəsinin səviyyəsini yüksəltmək kimi iqtisadi təhlükəsizlik məsələlərini həll etmək olmaz.

V.Medvedevin tədqiqatlarında Rusiyanın iqtisadi təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi ölkənin milli təhlükəsizliyi anlayışının elə bir vəziyyətin şərhinə əsaslanır ki, bu zaman köklü milli dövlətçilik maraqlarına və ölkənin mövcudiyyətinə qarşı yönələn təhlükələrin aradan qaldırılması, yaxud da neytrallaşdırılması təmin olunur. Daxili və xarici səbəblərdən belə təhlükələr cəmiyyətin həyatının ən müxtəlif sahələrində və sferalarında meydana çıxa bilər. Məhz buradan milli təhlükəsizlik anlayışının bəzi mühüm məqamları üzə çıxır. V.Medvedevin fikrincə, iqtisadi təhlükəsizliyin prioritetlərinin müəyyənləşdirilməsi siyasi konyunkturanın maraqlarından, ideoloji təsəvvürlərdən, siyasi spekulyasiyalardan azad olmalıdır. Çünki bu prioritetlər real problemlərin kəskinliyini, onların ölkənin mövcudluğu üçün əhəmiyyətini əks etdirməli, dövlətin iqtisadi siyasətində onların yerini əsaslandırmalıdır. Bu zaman sözü gedən prioritetlərin iqtisadi inkişafın bütün sferalarını əhatə etməsi vacib deyil [123, səh. 3].

Bu baxımdan 1995-ci ildən başlayaraq ölkəmizdə ÜDM-in davamlı olaraq artması iqtisadi təhlukəsizliyin qorunmasına imkan yaratmaqla milli iqtisadi inkişaf modelinin formalaşmasına təkan vermişdir. Bunu konkret rəqəmlərdə deyil, eyni zamanda ölkədə gedən sosial-iqtisadi inkişafı əks etdirən göstəricilərdə, regionlarda baş verən müsbət istiqamətli irəliləyişlərdə də görmək olar. Nəticə etibarilə 2006-cı ildə iqtisadi artım sürətinin 34,5% artması ölkəmizin strateji

istiqamətdə inkişafının müəyyənləşməsinə şərait yaratmaqla, iqtisadi mənafelərin qorunmasına imkan vermişdir.

**Cədvəl 1.5.**

**Ümumi daxili məhsul – manat və dollarla (1995-2006-cı illər)**
[7, səh. 324]

| **İllər** | **Cəmi** | | **Adambaşına** | | **1$=manat** |
|---|---|---|---|---|---|
| | **milyon manatla** | **milyon dollarla** | **manatla** | **dollarla** | |
| 1995 | 2133,8 | 2415,2 | 282,1 | 319,3 | 0,8835 |
| 2000 | 4718,1 | 5272,8 | 595,1 | 665,1 | 0,8948 |
| 2001 | 5315,6 | 5707,7 | 665,2 | 714,3 | 0,9313 |
| 2002 | 6062,5 | 6235,9 | 752,9 | 774,4 | 0,9722 |
| 2003 | 7146,5 | 7276,0 | 880,8 | 896,8 | 0,9822 |
| 2004 | 8530,2 | 8680,4 | 1042,0 | 1060,3 | 0,9827 |
| 2005 | 12522,5 | 13238,6 | 1513,9 | 1600,4 | 0,9459 |
| 2006 | 18037,1 | 20189,3 | 2156,4 | 2413,7 | 0,8934 |

Buna görə də iqtisadi strategiyanın başlıca məqsədi dayanıqlı iqtisadi artımı təmin etməkdən ibarətdir. Hesab edirik ki, bu, yeni əsasda və bazar iqtisadi sisteminin yeni institutlarının köməyi ilə artıq həyata keçirilməkdədir. Bu, iqtisadiyyatın prinsipial olaraq yeni strukturlarının formalaşması və iqtisadiyyatın yeni inkişafı istiqamətində kapitalın hərəkətinə kömək edən sənaye-maliyyə və bank strukturlarının yaradılmasını göstərir. Struktur siyasətinə belə yanaşmanın fərqli xüsusiyyəti sahələrarası və məhsul-əmtəə yanaşmalarının birləşməsindən ibarətdir. Bazar hansı məhsuldan və hansı həcmdə istehsal olunmasını müəyyən edə bilər. İstehlakçı əmtəəni əldə edənədək onun rentabelliyinin və gəlirinin necə olmasını yalnız təxmini müəyyən edə bilər. Lakin bu təxminlər «artım cığırıdır», makroiqtisadi tənzimləmənin tərkib hissəsi kimi struktur siyasəti çərçivəsində yetişir və təkmilləşir. Buna görə də yeni struktur siyasəti nöqteyi-nəzərindən bu və ya digər əmtəə dəstinin seçilməsi real əmtəə bazarının dərindən öyrənilməsi əsasında həyata keçirilməli və

xərcini çıxara bilmə, geri qaytarılma gəlir normasının yerinə yetirilməsi prinsiplərinə cavab verməlidir.

İqtisadi inkişafın yeniləşməsi, yenidən başlaması həm istehlak, həm də investisiya sektorunda ödəməqabiliyyətli tələbin bərpa olunmasını tələb edir. Xüsusən hərbiləşdirilmiş və inhisarlaşdırılmış iqtisadiyyat şəraitində aşağı ödəməqabiliyyətli tələb müxtəlif istehsal növlərinin sıradan çıxmasına, itib getməsinə səbəb olur. İstehsalın əmtəə və xidmətlərin təklifinin azalması şəraitində həddindən artıq yüksək ödəməqabiliyyətli tələb qiymətlərin artmasına səbəb olur, pul emissiyasına «təsiri» artırır (yaradır) və inflyasiyanın güclənməsinə «təkan verir».

Ödəməqabiliyyətli tələbin genişləndirilməsi istiqamətində siyasətin aparılması zamanı bu və ya digər əhali qruplarının ödəməqabiliyyətində, alıcılıq qabiliyyətindəki dərin fərqlər nəzərə alınmalıdır, çünki yüksək qiymətli əmtəələrlə yanaşı, orta və aşağı qiymətli əmtəələr də vardır. Bu siyasətin mühüm elementi – bir tərəfdən əmtəə və maddi nemətlərə, digər tərəfdən də maliyyə-kredit xidmətlərinə olan tələbin birləşdirilməsidir.

Əhalinin ödəməqabiliyyətli tələbinin optimal strukturu, istehlak və fond bazarlarının bütün seqmentlərinin inkişafı istehlak xərclərinin azaldılmasına və qiymət qalxımının zəiflədilməsinə imkan verir. Qiymətli kağızlara olan tələbin fəallaşması sürətlə varlanmaq, zəngin olmaq illüziyası yaradır. Bu ayrı-ayrı vətəndaşlar üçün mümkündür, lakin onların əksəriyyəti və bəzi sosial qruplar üçün qeyri-realdır. Qiymətli kağızlara olan tələbin dəyişdirilməsi maliyyə-kredit təşkilatlarının, həmçinin dövlətin öz vəzifələrinin icrasına ciddi yanaşmaları şəraitində mümkündür. Əhali üçün milli valyutanın kursunun dəyişməsinin əvvəlcədən müəyyənləşməsi vacibdir. Bir sözlə, qiymətli kağızlar bazarı onun iştirakçıları üçün «şəffaf» olmalıdır, əhali üçün isə bu bazarın stabillik, qeyri-stabillik sərhədləri, həddi aydın olmalıdır.

Məcmu tələbin genişlənməsi investisiya siyasətinin fəallaşdırılmasını tələb edir və bu məsələnin həll olunmasında dövlət xüsusi rol oynayır. O, amortizasiya ayırmalarına, ka-

pital qoyuluşuna impuls yaradaraq tədarük sistemi vasitəsilə stabil fəaliyyət şəraitini formalaşdırır.

Dövlət investisiya layihələrində iştirakı barədə qərar qəbul edərsə, bu, yerli və xarici investorlar üçün əsas təminat ola bilər. Kapital qoyuluşuna tələbatın yeniləşməsi və genişlənməsi ilə bağlı meydana çıxan çətinliklər dövlət qiymətli kağızlarına kapital qoyuluşlarına gəlirliyin real iqtisadi sektorun rentabellik norması ilə müqayisədə həddindən artıq artması, yüksək olmasıdır. Buna görə də spekulyativ (möhtəkir) sövdələşmələrin gəlirliliyini azaltmayınca iqtisadi inkişafın yeniləşməsinə şərait yaratmaq və kapital qoyuluşlarına stimul, həvəs yaratmaq, bu həvəsi bir növ qaytarmaq mümkün deyildir.

Keçid dövrünün ilkin mərhələlərində, qiymətlərin stabilləşməsi və təbii monopoliyalarda onların aşağı salınması kimi əsas məsələlərin həllində inflyasiyanın qarşısının alınması başlıca istiqamətlərdəndir. Şübhəsiz, tələb təklifi üstələyirsə, iqtisadiyyat kəsirlidir, pul kütləsi isə əmtəə kütləsi və kapitalın təbii dövriyyəsinin tələbinə nisbətən daha yüksək sürətlə artır ki, bu da qiymətlərin üzdə artımı üçün ilkin şərtdir. Lakin bu da məlumdur ki, qiymət artımının qarşısını almaq üçün pul kütləsinin artımını süni surətdə dayandırmaq iqtisadiyyata birbaşa zərbə vurur və vaxtında ödəyəbilməmə böhranı, həqiqətdə – dövriyyə kapitalının tam maliyyələşdirilməməsi problemi meydana çıxır. Dövriyyə kapitalının təkrar maliyyələşdirilməsi olmadan büdcəyə gəlirdən ödəmələr, əlavə dəyər vergisi daxil olur, müəssisələr isə təkrar istehsalın saxlanılması, əmək haqqının vaxtında ödənilməsi üçün vəsaitə malik olmurlar.

Pul kütləsinin idarə olunması – ödəməqabiliyyətli tələbin və inflyasiyanın tənzimlənməsinin, idarə olunmasının ən sadə üsuludur. Forma və mahiyyətcə bu, çox sərt üsuldur və iqtisadiyyata sərt inzibati təsir metodunu xatırladır. Daha mürəkkəb və çoxamilli üsullarla inflyasiyanın qarşısının alınmasının, istehsal xərclərinin və qiymətlərin stabilləşməsini təmin edir. İnamla demək olar ki, pul emissiyasının sərt tən-

zimlənməsi, büdcə kəsirinin azaldılması yolu ilə qiymətləri stabilləşdirmək mümkün deyildir. Qiymətlərin liberallaşdırılmasından sonra nə qədər çox vaxt keçərsə, bir o qədər tam aydın olar ki, istehsal xərclərinin və tədavülün stabilləşməsi, həmçinin əmək məhsuldarlığının yüksəldilməsi olmadan qiymətlərin stabilləşməsi mümkün deyildir. Eyni vaxtda qiymətlərin sərbəstləşdirilməsi vasitəsilə bu problemi həll etmək olmaz. Burada rəqabətin inkişafı üçün şəraitin yaradılması istiqamətində bütöv tədbirlər sistemi və xüsusən aşağıdakılar tələb olunur.

- dövlətin ümumi mövqeyindən irəli gələn struktur siyasətinin və milli iqtisadiyyatın prioritetlərinin formalaşması;
- orta və kiçik müəssisələrin sayının artırılması;
- əhalidən yığımların stimullaşdırılması və investisiya layihələrinin həyata keçirilməsi üçün vəsaitlərin toplanması, yığım vasitəsi kimi qiymətli kağızlar bazarının inkişaf etdirilməsi;
- maliyyə-bank sistemi idarələri, ticarət və sənaye kənd təsərrüfatı sahələri rentabelliyi arasında fərqin, uyğunSuzluğun azaldılması. Bu, etibarlı bankların, maliyyə və sığorta kompaniyalarının sayının artırılması, fiziki və hüquqi şəxslər tərəfindən göstərilən xidmətlərin tərkibinin, miqyasının genişləndirilməsi, həmçinin əmtəə istehsalının həcminin genişləndirilməsi şəraitində mümkündür:
- etibarlı qanunvericilik bazasının və xərclərin hesablanmasına etibarlı nəzarət metodlarının işlənib-hazırlanması. Bu, mühasibatlıq işlərinin keyfiyyətinin yüksəldilməsini və auditor xidmətlərinin genişləndirilməsini tələb edir.
- rəqabət qaydalarının pozulması hesabına gəlirlərin və rentabelliyin artmasının aşkara çıxarılmasına yönəlmiş çevik antiinhisar siyəsinin həyata keçirilməsi;
- tədarük və topdansatış, eləcə də istehlak qiymətləri də daxil olmaqla bütün məcmu qiymətlərin təhlili, proqnozlaşdırılması və tənzimlənməsi sisteminin qurulması. Qiymətlərin dərin təhlili vasitəsilə istehsal və tədavül qiymətlərinin artırılması mənbələrini aşkara çıxarmaq və bu xərclərin azaldıl-

ması istiqamətində tədbirlər sisteminin işlənib-hazırlanması. Əsas tənzimləmə obyekti qiymətlərin səviyyəsi və onların artım tempi olmalıdır;

- milli maraqların nəzərə alınması üçün qaydalar məcəlləsi və rəqabət etikasının yaradılması, düzgün, vicdanlı rəqabət mübarizəsi metodlarının işlənib-hazırlanması.

Bəzən belə bir sual meydana çıxır ki, hansı səbəbdən mülkiyyət münasibətlərinin dəyişməsi azad rəqabətin formalaşması və inkişafında, iqtisadi səmərəliliyin yüksəlməsində əsas amilə çevrilə bilmir. Bunun bir neçə səbəbləri vardır. Birincisi, fəal mülkiyyətçi fenomeni hələ tam formalaşmamışdır. Özəlləşdirmə prosesi, səhmdar cəmiyyətlərin yaranması yüksək risk dərəcəli yeni inkişaf strategiyasını təklif edə bilən, işləyib hazırlayan idarəetmə qabiliyyətli şəxslərin, menecerlərin meydana gəlməsinə, formalaşmasına təkan verə bilmədi. Buna şərait yaradan səbəblərdən biri menecerlərin öz şəxsi maraqlarını kompaniyanın maraqlarından üstün tutmaları, daha çox gəlir əldə etmələri idi. İkinci səbəb, öz şəxsi fəaliyyətlərini yaratmaq, müflisləşmiş müəssisələrin çevik olan öz fəaliyyət istiqamətlərini dəyişə bilmələri və bəzi hallarda onların ləğvi ilə bağlı mexanizmin olmamasıdır. Üçüncü, rəqabət mühitini formalaşdıran kiçik və orta sahibkarlığın kifayət qədər inkişaf etməməsi, həmçinin perspektivli mülkiyyətçilərin və menecerlərin olmaması. Dördüncüsü, sahibkarların hüquqlarının qorunması və kontraktların, müqavilələrin və öhdəliklərin yerinə yetirilməsi institutlarının zəif formalaşması.

Bazar iqtisadiyyatı şəraitində dövlətin əsas vəzifələrindən biri qanunvericiliyi təsisatı, qəbul olunmuş qanunların icrasına nəzarət funksiyasını vaxtında həyata keçirməkdir. Burada məhkəmə hakimiyyəti orqanlarının da rolu artmaqdadır.

İqtisadi təhlükəsizliyin təmin edilməsində, bu istiqamətdə strateji maraqların müdafiə olunmasında əsas istiqamətlərdən biri bazar iqtisadiyyatının çevik tənzimlənməsi sisteminin yaradılmasıdır. Əlbəttə, öz-özünə tənzimləmə təhlükəsizliyin tam təminatçısı ola bilməz. Nəzərə almaq lazımdır ki, sadəcə iqtisadiyyatın deyil, onun bazar modelinin tənzimlən-

məsindən söhbət gedir. Bu baxımdan özütənzimləmə mexanizminin daha səmərəli işləməsi üçün şəraiti təmin etmək lazımdır. Bu mənada, bazarın subyektləri iqtisadiyyatın bütövlükdə inkişafı haqqında kifayət qədər informasiyaya malik olmalıdırlar. Ümumi halda, iqtisadi təhlükəsizliklə bağlı bazar iqtisadi sisteminin tənzimlənməsində dövlətin rolu bazar iqtisadiyyatında səbəb-nəticə və digər asılılıqların aşkar olunması, milli təhlükəsizlik üçün qorxu yaradan kortəbii momentlərin qarşısının alınması, gələcəkdə da çox gəlir verə bilən sferaların müəyyən olunmasından ibarətdir. Çevik dövlət tənzimləməsi sisteminə aşağıdakı yarımsistemlər daxildir:

- bütün təşkilat tipləri üçün təsərrüfat fəaliyyətinin ümumi qayda və parametrlərini müəyyən edən makroiqtisadi tənzimləmə;
- struktur siyasətinin seçilmiş prioritetləri üzrə investisiya proseslərini istiqamətləndirən indikativ planlaşdırma;
- dövlət müəssisələrinin fəaliyyətinin, müdafiə məsələləri ilə bağlı dövlət sifarişlərinin daha sərt, ciddi planlaşdırılması, həmçinin dövlət mülkiyyətinin idarə olunması metodlarının işlənib hazırlanması və həyata keçirilməsi:

İqtisadi təhlükəsizliyin mahiyyəti və strategiyası yeni struktur siyasəti əsasında iqtisadi inkişafın bərpası, təminatı problemləri, istehlakçı və investisiya tələbatının təmin olunması, qiymətli kağızlar bazarının inkişafı, rəqabət mühitinin yaradılması, mülkiyyət və idarəetmə (menecment) münasibətlərinin optimallaşdırılması, bazar iqtisadiyyatının çevik dövlət tənzimləməsi sisteminin yaradılması kimi problemlərin həlli ilə bitmir. Lakin iqtisadiyyatın ayrı-ayrı sferalarında, o cümlədən maddi istehsal sahələrində; elmi-texniki, sosial və xarici iqtisadi sferalarda, regionlarda iqtisadi təhlükəsizliklə əlaqəli məsələlərin konkretləşdirilməsi, strategiya həqiqi siyasi bir alət ola bilməz.

İqtisadi təhlükəsizlik strategiyasının mühüm aspektlərindən biri də milli valyutanın sabitliyidir. Milli valyutanın sabitliyi problemi bütün bazar sistemi indikatorları ilə birgə mühüm əhəmiyyət kəsb edir. Qiymətlərin sərbəstləşməsi, libe-

rallaşması şəraitində milli valyutanın (manatın) kursu istehsal və tədavül xərclərinə, qiymətlərin səviyyəsinə və dinamikasına təsir göstərən mühüm amillərdən birinə çevrilir. Onu da qeyd edək ki, iqtisadi sabitlikdən asılı olaraq, milli valyuta kursunun özü də qiymətlərin dinamikasından asılı ola bilər.

Yerli istehsal kəskin olaraq azaldıqda və ölkə iqtisadiyyatı idxal yönümlü olduqda, zəif gömrük siyasəti aparıldıqda, qeyri-düzgün vergi güzəştləri sistemi tətbiq edildikdə bu problem özünü daha çox göstərir. Buna görə də milli valyutanın kursunun kəskin şəkildə dəyişməsi idxal olunan malların daxili qiymətlərinin yüksəlməsinə səbəb olur ki, bu da rəqabətin olmadığı və yerli istehsalın aşağı düşməsi şəraitində yerli məhsulların qiymətlərinin qalxması üçün bu bir siqnal rolunu oynayır.

Valyutanın kursu bütün valyuta bazarı seqmentləri üzrə banklararası valyuta dövriyyəsi də daxil olmaqla müəyyən orta kurs əsasında müəyyənləşir. Qızıl valyuta ehtiyatlarının artırılması da vacibdir. Ödəmə balansının vəziyyəti və onun yanacaq-xammal ehtiyatlarının ixracından asılılığı, ölkənin pul, valyuta ehtiyatlarının ölkə ərazisindən çıxarılması da qızıl valyuta ehtiyatları fondunun formalaşmasına mənfi təsir göstərir. Belə hallar ölkənin milli valyutasının kursuna da neqativ təsir göstərir. Qiymətli kağızlar bazarında likvidliyin qorunması üçün valyuta ehtiyatlarının bir hissəsinin cəlb edilməsi sonda milli valyutanın sabitliyini sarsıdır. Milli valyuta kursunun düşməsinə gətirib çıxaran ümumi iqtisadi səbəbləri aradan qaldırmaq lazımdır. Lakin bu səbəblər iqtisadiyyatın özünün bir növ özəyində, istehsalın azalmasında, onun qeyri-səmərəli strukturunda gizlənir. Bunların aşkara çıxarılması ölkənin bütün iqtisadi potensalının və məhsuldar qüvvələrin səfərbərliyə alınmasını tələb edir.

## 1.3. İqtisadi təhlükəsizliyin qorunması əsasında milli mənafelərin təmin olunmasının dünya təcrübəsi

«Təhlükəsizlik» anlayışının meydana gəlməsi, onun inkişafı uzun tarixi yol keçmişdir. Hər inkişaf dönəmində bu anlayışın məzmunu, mahiyyəti fərqli olmuşdur. İlk dəfə 1190-cı ildən istifadə olunan «təhlükəsizlik» anlayışı XVII əsrə qədər demək olar ki, Qərbi Avropa xalqlarının dilində, lüğətində özünü istənilən təhlükədən mühafizə olunmuş insanın mənəvi, ruhi sakitlik vəziyyətini ifadə etmişdir və az hallarda işlədilmişdir.

XVII-XVIII əsrlərdə bütün ölkələrdə belə bir fikir praktik olaraq qəbul edilirdi ki, dövlətin əsas məqsədi ümumilikdə cəmiyyətdə firavanlığı, sakitliyi və təhlükəsizliyi təmin etməkdir. Bu yanaşma kontekstində «təhlükəsizlik» anlayışı real təhlükənin olmadığı (fiziki, eləcə də mənəvi təhlükə) sakit vəziyyəti, şəraiti ifadə edir. Burada həmçinin müvafiq orqanlar və təşkilatların sayı ilə təmin edilmiş normal iqtisadi, sosial, siyasi, maddi şərait də nəzərdə tutulur.

Yaxın qonşumuz olan Rusiyada isə 1811-ci il 14 avqustda qəbul edilmiş «İctimai stabilliyin və dövlət qayda-qanunlarının qorunması tədbirləri haqqında» Əsasnamədə «dövlətin təhlükəsizliyi» anlayışı, termini «ictimai təhlükəsizlik» termini ilə birgə işlədilmişdir. Bir neçə müddətdən sonra isə dövlət səviyyəsində cinayətkarlıqla mübarizəyə yönəlmiş və siyasi axtarışa müstəsna hüquq verən fəaliyyəti ifadə edən «ictimai təhlükəsizliyin mühafizəsi» anlayışı qanunvericilikdə daha da geniş yer aldı.

1934-cü ildə qanunvericiliklə müəyyən edilmiş «dövlət təhlükəsizliyi» anlayışı isə cəmiyyətin dövlətləşdirilməsi, Milliləşdirilməsinin məzmununu ifadə edirdi. Dövlət təhlükəsizliyi dedikdə, vətəndaşların birliklər, təşkilatlar, ittifaqlar yaratmaq hüququnun reallaşması, vicdan azadlığının konstitusion prinsiplərinin həyata keçməsi ilə əlaqəli olan və cəmiyyətin mənəvi, əxlaqi həyatında baş verən hadisələr, situasiyalar başa düşülürdü. Dövlət təhlükəsizliyinə bu cür yanaşma ictimai

təhlükəsizliyin zəifləməsinə, ona qarşı soyuq bir münasibətə gətirib çıxardı.

Fikrimizcə, müasir dövrdə təhlükəsizlik dedikdə, həm şəxsi, həm ictimai, həm də dövlətin təhlükəsizliyini başa düşmək lazımdır. Məhz belə mövqe təhlükəsizliyin sistemli təhlilinə imkan verə bilər. Burada həyati əhəmiyyətli maraqlar, mənafelər də əsasdır. Çünki vətəndaşın, cəmiyyətin və dövlətin mövcudluğu və inkişaf imkanlarını etibarlı şəkildə təmin edən və tələbatların məcmuyu kimi çıxış edən həyati əhəmiyyətli maraqlar, mənafelər, eləcə də bu mənafelərin mühafizə səviyyəsi və vəziyyəti, inkişaf meylləri yekunda təhlükəsizliyin təmin olunma səviyyəsindən çox asılıdır.

«Təhlükəsizlik» bir kateqoriya kimi aşağıdakı kimi təsnifləşdirilir [175, səh. 17]:

1) beynəlxalq qlobal təhlükəsizlik;
2) beynəlxalq regional təhlükəsizlik;
3) milli təhlükəsizlik.
4) yerli təhlükəsizlik.

Milli təhlükəsizlik isə aşağıdakı kimi təsnifləşdirilir [175, səh. 18]:

1) hərbi təhlükəsizlik.
2) sosial təhlükəsizlik.
3) siyasi təhlükəsizlik.
4) iqtisadi təhlükəsizlik.
5) ekoloji təhlükəsizlik.
6) informasiya təhlükəsizliyi.
7) mədəni təhlükəsizlik.
8) hüquqi təhlükəsizlik.
9) elmi-texniki təhlükəsizlik.
10) demoqrafik təhlükəsizlik.
11) genetik təhlükəsizlik.
12) enerji təhlükəsizliyi.
13) kriminal təhlükəsizlik.
14) intellektual təhlükəsizlik.
15) innovasiya təhlükəsizliyi.
16) nüvə təhlükəsizliyi.

Onu da qeyd edək ki, milli təhlükəsizlik dövlət, cəmiyyət, region, müəssisə və şəxsi formada ola bilər.

Bir faktı da qeyd edək ki, milli təhlükəsizlik anlayışı siyasi leksikada ilk dəfə olaraq 1904-cü ildə ABŞ prezidenti Teodor Ruzvelt tərəfindən konqresdə işlədilmişdir. T.Ruzvelt bu anlayışı Panama kanalına bitişik ərazidə hərbi əməliyyat keçirilməsinin milli təhlükəsizlik-milli maraqlar kontekstindən əsaslandırılması donunda işlətmişdir. Amerikalı müəlliflər milli təhlükəsizlik anlayışının köklərini milli mənafelər (maraqlar) nəzəriyyəsində axtarırlar.

L.Fon Tezau iqtisadi güc və iqtisadi təhlükəsizlik arasında, iqtisadi təhlükəsizlik və iqtisadi siyasət sahəsində qarşıya qoyulan məqsədlərə çatmaq imkanları arasında, iqtisadi təhlükəsizliyə qarşı yönələn təhdidlər və milli mənafelərə qarşı yönələn təhdidlər arasında fərqləndirmənin aparılması zərurətini qeyd etmişdir. Ümumilikdə o, V.Xaqer tərəfindən iqtisadi təhlükəsizliyə verilən şərhə tərəf meyl edir, yəni iqtisadi təhlükəsizlik o zaman təhlükə altında olur ki, xarici iqtisadi parametrlərin dəyişməsi əlverişli iqtisadi sistemi dağıtmaq iqtidarında olsun [101, səh. 15].

Milli təhlükəsizlik dedikdə, təbiətcə və məzmunca çoxsaylı daxili və xarici təhdidlərin təsirindən (hərbi, iqtisadi, siyasi, sosial, informasiya, ekoloji və s. aspektlər nəzərdə tutulur) şəxsin (vətəndaşın), cəmiyyətin, dövlətin, eləcə də milli dəyərlərin, mənafelərin və həyat tərzinin, şəraitinin qorunması kimi başa düşmək olar.

Milli «təhlükəsizlik» anlayışının mühüm bir komponenti olan «iqtisadi təhlükəsizlik» anlayışı artıq uzun illərdir ki, qərb ölkələrinin inzibati, idarəetmə strukturlarının fəaliyyətlərində geniş miqyasda tətbiq edilir. İqtisadi təhlükəsizlik iqtisadi müstəqillik və asılılıq, stabillik və zəiflik, iqtisadi təzyiq, şantaj və s. kimi kateqoriyalarla sıx əlaqəsi olan sintetik bir kateqoriyadır. İqtisadi təhlükəsizliyin aşağıdakı səviyyələri fərqləndirilir:

1) beynəlxalq səviyyə (qlobal və regional);
2) milli iqtisadi təhlükəsizlik;

3) lokal iqtisadi təhlükəsizlik (ölkə daxilində regional və ya sahəvi iqtisadi təhlükəsizlik);

4) fərdi (firma və ayrı-ayrı fərdlər səviyyəsində).

Beynəlxalq iqtisadi təhlükəsizlik dünya birliyinin üzvü kimi hər bir dövlətin heç bir xarici təsirlərə məruz qalmadan sərbəst şəkildə öz sosial və iqtisadi inkişaf strategiyasını müəyyən etmək və həyata keçirə bilmək imkanına malik olmasını müəyyən edir. Belə fəaliyyət bütövlükdə qarşılıqlı anlaşma və qarşılıqlı faydalılıq şəraitində dünya birliyinin digər dövlətləri ilə əməkdaşlıq zəminində həyata keçirilməlidir.

Beynəlxalq səviyyədə iqtisadi təhlükəsizliyin həyata keçirilməsi siyasi və iqtisadi təhdidlərdən, məcburiyyətlərdən əl çəkmək, hər bir xalqın, dövlətin seçiminə hörmətlə yanaşmaq, müxtəlif mülkiyyət formaları və maraqların mövcudLuğuna ehtiyatla yanaşmaq, yalnız hərbi yolla deyil, sağlam iqtisadi münasibətlər kontekstində inkişaf problemini dərk etmək yolundan keçir. Burada həmçinin hər bir dövlətin öz ərazisinin təbii ehtiyatları və iqtisadi potensialı üzərində müstəqil hüquqlara malik olması, dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlıq və iqtisadi, maliyyə, elmi-texniki və başqa məzmunlu münasibətlərin sərbəst inkişaf imkanları, sosial-iqtisadi inkişaf və tərəqqiyə yönəlmiş beynəlxalq əməkdaşlıq, iqtisadi məzmunlu münasibətlərin heç bir güc tətbiq etmədən sülh yolu ilə tənzimlənməsi, həmçinin zəif inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərə qarşılıqlı münasibətlərdə müəyyən güzəştlərin, əlavə imkanların təmin edilməsi kimi məsələlər də mühüm əhəmiyyət kəsb edir.

Donald Losman öz tədqiqatlarında iqtisadi təhlükəsizliyin son 10 il ərzində Amerikanın milli təhlükəsizlik strategiyasının ayrılmaz hissəsinə çevrildiyini qeyd edir. O göstərir ki, «iqtisadi rifah» kimi bir qeyri-müəyyən anlayışı müdafiə edərkən hərbi resurslardan istifadə olunması mənəviyyatsızdır və təhlükəsizliyə təminat vermir. İqtisadi çağırışların ən etibarlı ünvanı – hərbi yolla deyil, səmərəli iqtisadi siyasətin həyata keçirilməsidir [180, səh. 50].

Həmçinin beynəlxalq iqtisadi təhlükəsizlik təkcə öz milli (ölkədaxili) problemlərinin həlli üçün dövlətlərin əməkdaşlığını deyil, həm də bütövlükdə insanlığa xas problemlərin həllini təmin edir və nüvə təhlükəsindən azad və zorakılıqlar olmayan bir cəmiyyətdə sülh, barış prinsipləri əsasında yanaşmanın maddi əsasını təşkil edir, iqtisadi geriliyin, zəifliyin aradan qaldırılması istiqamətindəki irəliləyişlərin təminatçısı kimi çıxış edir.

Milli iqtisadi təhlükəsizlik isə dövlətin milli maraqlarını, bütövlükdə ölkənin ahəngdar, sosial yönlü inkişafını, daxili və xarici təsirlər şəraitində belə kifayət dərəcədə iqtisadi və müdafiə potensialını təminatlı şəkildə qoruya bilən institutlarının və iqtisadiyyatının mövcud durumunu ifadə edir.

Ölkənin iqtisadi təhlükəsizliyi dedikdə isə burada təkcə hər bir xalqın, dövlətin öz müstəqil iqtisadi inkişaf yolunu seçə bilməsini başa düşmək bu anlayışın məzmununu bir qədər çərçivəyə salmış olardı. A.İllarionovun fikrincə, ölkənin iqtisadi təhlükəsizliyi dedikdə, ən optimal, səmərəli üsullarla, qaydalarla ölkə əhalisinin maksimal səviyyədə adambaşına düşən iqtisadi resursların uzunmüddətli perspektivdə sabit istehsalını təmin edəcək iqtisadi, hüquqi və siyasi şərtlərinin məcmusu başa düşülür [106, səh. 35]. Lakin fikrimizcə, burada təkcə iqtisadi resursların istehsal səviyyəsini, ölkənin iqtisadi potensialını deyil, həm də bu resursların ədalətli bölgüsünə təminat verən bir mexanizmin fəaliyyətini və bu mexanizmin fəaliyyəti nəticəsində ölkədəki bütün sosial-demoqrafik qrupların, bütün cəmiyyət üzvlərinin yüksək həyat səviyyəsini, ölkənin yüksək müdafiə qabiliyyətinin əsaslı formalaşmasına rəvac verən kompleks münasibətlər sistemini, elmi-texniki, texniki-iqtisadi yüksəlişin səviyyəsini başa düşmək olar.

Ölkənin iqtisadi təhlükəsizliyinin maddi əsasını ümumi daxili məhsulun, geniş təkrar istehsalın özəyini təşkil edən məhsuldar qüvvələrin inkişaf səviyyəsi, sosial-siyasi əsasını isə ölkənin inkişafı, qüdrətlənməsi istiqamətində strateji ümummilli maraqların təmin olunması üçün ölkədaxili ictimai bir-

liyin, həmrəyliyin olması təşkil edir. Eyni zamanda qeyd etdiklərimizi milli iqtisadi təhlükəsizliyin təminatının daxili amilləri kimi də qiymətləndirmək olar.

Lakin qloballaşma şəraitində ölkələr arasında inteqrasiya əlaqələrinin güclənməsi, sərhədlərin demək olar ki, şərti xarakter daşıdığı bir dövrdə iqtisadi təhlükəsizlik vəziyyəti nisbi xarakter daşıyır. Tədricən milli iqtisadi təhlükəsizlik beynəlxalq iqtisadi təhlükəsizliklə sıx əlaqəli olur və nəticə etibarilə ümumilikdə təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevrilir. Bu mənada həm də qeyd etmək olar ki, iqtisadi təhlükəsizlik milli təhlükəsizliyin digər komponentləri ilə sıx əlaqəli olmaqla, ayrı-ayrılıqda bu komponentlərin məzmununa nüfuz edərək, onların ümumi təhlükəsizlik sistemindəki roluna bilavasitə təsir göstərməklə, bütövlükdə milli təhlükəsizliyin əsasını, əsas sütununu, şərtini təşkil etmiş olur. Çünki güclü iqtisadiyyatla, güclü iqtisadi potensial və ondan düzgün istifadə yolu ilə hər bir ölkə öz tərəqqisinə nail ola bilər. Robert B.Zoellikin qeyd etdiyi kimi, qloballaşma və iqtisadiyyatın açıqlığı Amerikanın iqtisadi inkişafının çox mühüm, amma əhəmiyyəti hələ tam qiymətləndirilməyən aspektlərindən biridir [148].

Ümumiyyətlə, iqtisadi təhlükəsizlik sahəsində dövlətlərin öz səylərini səfərbər etmələri demək olar ki, XX əsrin birinci yarısından etibarən öz başlanğıcını götürmüşdür. Belə ki, 1934-cü ildə ABŞ prezidenti F.Ruzvelt iqtisadi təhlükəsizlik üzrə federal Komitə yaratmaqla öz ölkəsinin iqtisadi gücünü bərpa etmək və böhranı aradan qaldırmaq istiqamətində işlərin düzgün əlaqələndirilməsini həyata keçirmişdir. O, öz prezidentliyinin ilk dövründə bu sahədə 15-ə yaxın qanun imzalamışdır. 1947-ci ildə isə Milli Təhlükəsizlik Şurası yaradılmışdır. Digər bir ABŞ prezidenti R.Niksonun hakimiyyəti dövründə isə 1972-ci ildə İqtisadi siyasət üzrə Şura təşkil edilmişdir. Buna səbəb ABŞ-ın Vyetnamda apardığı müharibənin ölkə iqtisadiyyatına vurduğu mənfi təsirlər idi.

1980-ci illərdən başlayan iqtisadi geriləməni, büdcə kəsirini aradan qaldırmaq, inflyasiyanın qarşısını almaq, eləcə

də ölkənin milli təhlükəsizliyinə qarşı yaranmış vəziyyətdən çıxış üçün ABŞ-ın digər prezidenti B.Klintonun hakimiyyəti dövründə isə Milli İqtisadi Şura yaradılmışdır.

Göründüyü kimi, artıq bu gün dünyanın böyük bir güc mərkəzinə çevrilmiş, super dövlət olan ABŞ zaman-zaman öz inkişaf strategiyasında təhlükəsizlik probleminə, xüsusən onun tərkib elementi kimi iqtisadi təhlükəsizlik məsələlərinə dövlət səviyyəsində ciddi diqqət ayırmış və bu sahədəki fəaliyyəti mərkəzləşmiş qaydada təşkil etmişdir.

Keçmiş SSRİ məkanında iqtisadi təhlükəsizlikdən çox, ölkənin hərbi gücünün artırılmasına, hərbi sənayenin inkişafına xüsusi diqqət ayrılmışdır, ona görə də iqtisadi təhlükəsizliklə bağlı məsələlər də nəzəri təhlillərdən, araşdırmalardan kənar olmuşdur. Uzun illər Azərbaycan keçmiş SSRİ-nin tərkibində olduğu üçün qeyd olunan meyllər bu ölkəyə də öz təsirini göstərmişdir. Lakin bu gün bir müstəqil dövlət kimi Azərbaycanın müasir dünyanın reallıqlarına söykənən iqtisadi, milli təhlükəsizlik strategiyasının işlənib-hazırlanmasına böyük ehtiyacı vardır. Bu istiqamətdə məhz ölkənin iqtisadi, siyasi potensialının səfərbər edilməsi çox önəmli rol oynayır.

İqtisadi təhlükəsizlik eyni zamanda dövlətin dünya iqtisadiyyatına, beynəlxalq aləmə inteqrasiyası şəraitində həmin ölkənin iqtisadiyyatına qarşı yönəlmiş daxili və xarici amillərin, təhdidlərin (təhlükələrin) mənfi təsirlərini minimuma endirmək, yaxud da neytrallaşdırmağı, bu istiqamətdə həyata keçirilən tədbirlər kompleksi sistemini nəzərdə tutur. Bu tədbirlər kompleksi ölkə daxilində sosial, iqtisadi və siyasi sabitliyi qorumaq, iqtisadiyyatın bütün sahələrinin normal, ahəngdar fəaliyyətini təmin etmək, ölkə vətəndaşlarının firavanlığını, yüksək həyat səviyyəsini təmin etmək, makroiqtisadi sabitliyə, yüksəlişə nail olmaq, ölkə daxilində vahid iqtisadi məkanın yaranmasına və tarazlı iqtisadi inkişafa nail olmaq istiqamətində mühüm əhəmiyyət kəsb edir. İqtisadi təhlükəsizlik amili isə bütövlükdə ölkənin milli təhlükəsizliyinin ən mühüm komponenti kimi bu təhlükəsizliyin təmin olunmasında əsas şərt rolunu oynayır.

İqtisadi sferada təhlükəsizliyin təmin olunması ölkə vətəndaşlarının həmrəyliyi ilə yanaşı, ölkənin hakimiyyət strukturlarının bütün həlqələrində, o cümlədən iqtisadi təhlükəsizliyin obyekti və subyektlərinin dəqiq əlaqələndirilmiş sistemli fəaliyyətindən çox asılıdır. Onu da qeyd edək ki, burada iqtisadi təhlükəsizliyin obyekti dedikdə, ilk öncə dövlət, bütövlükdə ölkənin iqtisadi sistemi, milli maraqları, təbii-insani ehtiyatları başa düşülür. İqtisadi təhlükəsizliyin subyekti kimi isə dövlətin qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanları, nazirliklər, idarələr, komitələr, təşkilatlar, cəmiyyətdəki institutlar, iqtisadiyyatın bütün sferalarında fəaliyyət göstərən təsərrüfat subyektləri başa düşülür.

İqtisadi təhlükəsizliklə bağlı strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi dövlətin milli iqtisadi maraqlarının, mənafelərinin təmin olunması çərçivəsində reallaşmalıdır. Onu da qeyd edək ki, makro və mikroiqtisadi tədbirlər sistemi ilə həyata keçirilən bu addım dövlətin sosial-iqtisadi siyasətinin əsas ana xətti kimi onun bu sahədəki praktik fəaliyyətinin prioritetlərini təşkil etməlidir. Hər bir dövlət bu sahədəki praktik fəaliyyəti ilə davamlı inkişafa nail olmaqla dünya iqtisadi sisteminə uğurlu inteqrasiya edərək, bu sistemin fəal subyektinə çevrilə bilər.

Dövlətin milli iqtisadi maraqları bir çox sahələrdə təmin edilə bilər, o cümlədən demoqrafiya, sosial sahə, istehsal, investisiya, elmi-texniki və innovasiya fəaliyyəti sahəsi, vergi-büdcə, gömrük sistemi, pul-kredit, maliyyə sahəsi, xarici iqtisadi fəaliyyət sahəsi, regionların sosial-iqtisadi inkişafı sahəsi, ekoloji sfera, dövlət idarəçiliyi sahəsində.

Demoqrafik inkişafla bağlı mənafelərin təmin olunması cəmiyyətin həyatının bir çox sahələri ilə sıx şəkildə bağlı olduğu üçün, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin sosial-iqtisadi mənafelərinə bilavasitə təsir edir. Burada əsas cəhət ailə-nigah, doğum, ölüm, təbii artım, vətəndaşların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluğunun təmin olunması və həyat səviyyəsinin yaxşılaşdırılması, orta ömür müddətinin uzadılması, miqrasiya və s.

kimi proseslərə təsir göstərən amillərin öyrənilməsi və onların təsirinin tənzimlənməsidir. Bu mənada bazar iqtisadi sistemінə keçən respublikamız üçün demoqrafik siyasətin və əhali sakinliyinin ölkənin sosial-iqtisadi inkişafının məqsəd və vəzifələrinə uyğun yenidən qurulması tələbinə uyğun olaraq 1999-cu ildə Azərbaycan Respublikası Prezidentinin 290 saylı sərəncamı ilə «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası» təsdiq edilmişdir. Konsepsiyada demoqrafiya sahəsində dövlətin apardığı siyasətin aşağıdakı milli prioritetləri konkretləşdirilmişdir:

- əhalinin, xüsusilə ana və uşaqların və əmək qabiliyyətli olanların ölüm səviyyəsinin ardıcıl surətdə azaldılması yolu ilə cinslər və yaşlar üzrə ömür müddətinin uzadılması;
- aztəminatlı uşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi köçkünlərə ünvanlı sosial yardımın göstərilməsi;
- əhalinin bütün sosial-demoqrafik qrupları və təbəqələri üçün sağlam həyat tərzinin təmin edilməsi;
- ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi;
- əhalinin sağlamlağının və həyatının yaxşılaşdırılması (qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, suyun, havanın çirklənməsinin qarşısının alınması, ətraf mühitin sağlamlaşdırılması, yoluxucu və cinsi yolla keçən xəstəliklərin qarşısının alınması və tədricən ləğv edilməsi və s.);
- əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi, ailənin planlaşdırılması xidmətinin inkişafı və bu barədə əhalinin məlumatlandırılması və məlumat almalarının təmin edilməsi;
- tam məhsuldar və dəyərli həyat tərzinin təmin edilməsi məqsədi ilə təhsil və məşğulluq sisteminin inkişaf etdirilməsi;
- aztəminatlı əhali təbəqəsinə, o cümlədən çoxuşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi köçkünlərə və s. pulsuz səhiyyə xidmətinin verilməsi;
- əhalinin demoqrafiya sahəsində biliklərinin yüksəldilməsi, təhsil müəssisələrində demoqrafiyanın tədris olunması

və demoqrafiya sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi;

- miqrasiya proseslərinin tənzimlənməsi.

Qeyd olunan prioritetlər sabitlik və uzunmüddətlilik, sosial ədalətlilik, komplekslilik, elmilik, eləcə də hər bir respublika vətəndaşının hüquq və azadlıqlarının təmin edilməsi, gender bərabərliyinə nail olunmasına yardım, ölkənin sosial-iqtisadi inkişafının gələcək nəslin hərtərəfli inkişafına yönəlməsinin təmin olunması prinsipləri əsasında həyata keçirilir.

Sosial sahədə maraqların təmin olunmasında məqsəd əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsinə nail olmaq və bunu davamlı iqtisadi inkişafın əsas təminatçısı səviyyəsində qəbul etməkdən ibarətdir. Sosial sahədə maraqların təmin olunması aşağıdakı məsələlərin həllinə ehtiyac yaradır:

- əhalinin gəlirlərinin səviyyəsi və yoxsulluq səviyyəsinə görə təbəqələşməsinin, differensiasiyasının azaldılması;
- inflyasiyanın səviyyəsinə uyğun olaraq əhalinin pul gəlirlərinin indeksasiya edilməsi və onun yaşayış minimumu həddinə çatdırılması;
- ölkədə yaşayış minimumunun təyin olunmasında çevik mexanizmin işlənib-hazırlanması;
- əhalinin səmərəli məşğulluğunun təmin olunması. Bu istiqamətdə çevik əmək bazarının formalaşması, işçi qüvvəsinə tələb və təklifin işlək mexanizminin təmin olunması, peşə-ixtisas təhsili almaq imkanı, eləcə də işçi qüvvəsinin mobilliyini yüksəltmək, bunun əsasında əmək kapitalının, insan kapitalının sərbəst yerdəyişməsinə nail olmaq əsas rol oynayır;
- ölkədə təhsilin, səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və onun dünya standartları həddinə çatdırılmasına nail olmaq;
- aztəminatlı əhali təbəqəsinə dövlət tərəfindən göstərilən yardımların ünvanlılıq prinsipi əsasında həyata keçirilməsi;
- dövlətin düzgün, səmərəli qiymət və gəlir siyasətinin həyata keçirilməsi;

- əhalinin bütün sosial-demoqrafik qruplarının keyfiyyətli təhsil, mədəni, səhiyyə və digər xidmətlərlə təmin olunması, sosial sahədəki tədbirlərin, ümumiyyətlə, sosial siyasətin prioritetlərinin əhalinin həyat səviyyəsinin yüksəldilməsi məsələləri ilə üzvi şəkildə həyata keçirilməsinə nail olmaq.

Vergi-büdcə sahəsində milli iqtisadi maraqların təmin olunması aşağıda qeyd olunan məsələlərin həlli ilə həyata keçirilir:

- büdcə sisteminin dayanıqlığının təmin olunması, dövlətin daxili və xarici borclarının azaldılması, büdcənin gəlir və xərclərinin balanslaşdırılması;
- vergi-büdcə sisteminin yüksək inflyasiyanın təsirindən qorunması, dövlət tərəfindən ölkə daxilində qiymətlərin səviyyəsinə səmərəli nəzarətin təmin edilməsi, çevik antiinhisar siyasətinin həyata keçirilməsi;
- fəal sahibkarlığa, investisiya, innovasiya fəaliyyətinin və əhalinin məşğulluğunun stimullaşdırılmasına şəraiti təmin edən optimal vergi sisteminin yaradılması;
- investisiya və innovasiya fəallığının stimullaşdırılması və iqtisadiyyatın dinamik inkişafına yönəlmiş büdcə siyasətinin rolunun bu istiqamətdə gücləndirilməsi;
- dövlətin maliyyə nəzarətinin və tənzimlənməsinin səmərəliliyini yüksəltmək;
- büdcəyə daha çox gəlir gətirən iri müəssisələrin fəaliyyətinə, ölkədə maliyyə axınlarına mərkəzləşdirilmiş və çevik maliyyə nəzarəti mexanizmlərini işləyib-hazırlamaq.

İstehsal sferasında iqtisadi maraqların təmin olunması aşağıdakı məsələlərin həllini tələb edir:

- iqtisadi inteqrasiya şəraitində iqtisadiyyatın açıqlığını təmin etməklə onun geniş təkrar istehsal rejimində fəaliyyətinin texniki, təşkilati, institusional əsaslarını təmin etmək;
- nisbətən az səmərəli iqtisadi institutların strukturunun təkmilləşdirilməsi, səmərəli bazar sisteminin formalaşması, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, dünya iqtisadi sisteminə inteqrasiya, mikrosəviyyədə biznesin inkişafının qarşısını alan maneələrin aradan qaldırılması;

- təşkilati-institusional strukturun təkmilləşdirilməsi yolu ilə iqtisadiyyatın sahələrinin yenidənqurulmasını həyata keçirmək. Bu, elm və istehsalın inteqrasiyasının sürətlənməsi, yerli sənaye müəssisələrinin formalaşması və idarə olunması proseslərinin təkmilləşməsi, onların rəqabətqabiliyyətliyinin yüksəlməsi dövriyyə kapitalından səmərəli istifadəyə geniş imkanlar açır. Onu da qeyd edək ki, istehsalın strukturunun yenidən qurulması məhsulun resurs və enerji tutumunun azaldılması, elm tutumlu məhsul istehsalının həcminin genişləndirilməsinə yönəlməlidir.

- innovasiya və investisiya fəallığının artırılması, bunun əsasında əsas istehsal fondlarının, texnika, texnologiyanın yeniləşdirilməsinin həyata keçirilməsi. Bu, istehsalın yüksək səviyyədə texnika ilə silahlanması, elm və istehsal arasında inteqrasiyanın sürətlənməsi, yerli istehsalın rəqabətqabiliyyətliliyinin yüksəlməsini təmin edə bilər.

- ölkənin elmi-texniki potensialının elmi-texniki tərəqqinin müasir istiqamətlərinə uyğun fundamental və tətbiqi elmlərin prioritet inkişaf istiqamətlərində inkişafının təmin edilməsi, elmtutumlu və yüksək texnologiyalı sənaye, kənd təsərrüfatı istehsalının yaradılması. Burada elmi-texniki inkişafın prioritet istiqamətləri üzrə fundamental və tətbiqi tədqiqatların əsaslı şəkildə maliyyələşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

- intellektual mülkiyyət bazarının formalaşması və inkişafına şərait yaratmaq, istehsal və elmi-texniki müəssisələrin, orta və kiçik innovasiya müəssisələrinin təşkilinə diqqət ayırmaq, onların səmərəli fəaliyyəti, innovasiya məhsulları və xidmətlərini yüksək texnologiyanı reallaşdıra bilmələri üçün şəraiti təmin etmək;

- ölkənin milli iqtisadi təhlükəsizliyini təmin edən sahələrin fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsi və bu sahədə normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsinə nail olmaq;

- ölkədə istər ölkə daxilində baş verən, istərsə də dünya sistemində baş verən fövqəladə hallara, konyunktur dəyişik-

liklərə hazırlıq baxımından strateji-maddi ehtiyatların formalaşdırılması;

- ölkənin təbii-resurs potensialından uzunmüddətli və səmərəli istifadə, istismar strategiyasının işlənib hazırlanması;
- ölkənin ixrac potensialının inkişaf etdirilməsi;

Xarici iqtisadi sferada milli iqtisadi təhlükəsizliyin təmin olunmasında mövcud potensialdan istifadə ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir:

- ölkənin dünya iqtisadi sisteminə uğurlu inteqrasiyası baxımından elmtutumlu yüksək texnologiyalı məhsul istehsal edən aparıcı şirkətlərlə strateji əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq miqyasda resursları əldə etmək imkanlarını genişləndirmək;
- ölkənin inkişafı və dövlətin maraqlarına uyğunluq baxımından əsaslı sahələrə investisiya axınına şərait yaratmaq. Lakin bunu ölkənin belə kapitaldan asılılığı səviyyəsinədək çatmasına imkan verməmək;
- iqtisadi sahədə ölkənin qanunvericilik bazasının beynəlxalq səviyyədə qanunvericiliyin tələblərinə uyğunlaşdırılması, xüsusilə beynəlxalq iqtisadi təşkilatlarla sıx əməkdaşlıq əlaqələrini inkişaf etdirmək və bu zaman ölkənin milli iqtisadi maraqlarının önə çəkilməsi;
- dünya ölkələri, yaxın qonşularla əməkdaşlıq əlaqələrinin, iqtisadi münasibətlərin və inteqrasiya proseslərinin prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və inkişaf etdirilməsi;
- ixracın strukturunda elmtutumlu məhsulların, yüksək texnologiyanın həcminin artırılması və ixraca dövlət yardımının və nəzarətin təmin edilməsi;
- yerli istehsalın idxalın, eləcə də haqsız rəqabətin təsirindən qorunması;
- dövlətin maraqları çərçivəsində gömrük-tarif və qeyri-tarif tənzimləmə mexanizmlərindən istifadə edilməsi;
- ölkə vətəndaşlarının, yerli investorların xaricdə öz fəaliyyətlərini qurmalarına kömək etmək, həmin fəaliyyət gös-

tərdikləri dövlətlərdə onların maraqlarının yüksək səviyyədə hüquqi baxımdan qorunmasını təmin etmək;

Regional baxımdan ölkənin milli iqtisadi maraqlarının təmin olunması ölkə daxilində vahid iqtisadi məkanın formalaşması və uğurlu fəaliyyəti, regionlarda avtoritet-kriminogen qüvvələrin iqtisadi strukturların fəaliyyətinə müdaxiləsinin qarşısını almaq, ölkə daxilində əlverişli inteqrasiya proseslərinin həyata keçirilməsinə şərait yaradır. Bu mənada dövlətin sosial-iqtisadi siyasətinin başlıca prioritetlərindən biri də məhz ölkənin paytaxt və iri şəhərlərinin inkişaf səviyyələri arasındakı uyğunsuzluğu minimuma endirmək və aradan qaldırmaq, regional inkişafın optimal istiqamətlərini müəyyənləşdirməkdir. Bu istiqamətdə aşağıdakılar həyata keçirilməlidir:

- ölkə daxilində vahid dövlət nəzarətinin optimal mexanizminin işlənib hazırlanması;
- regionlararası təsərrüfat əlaqələrinin səmərəli şəkildə qurulması, maliyyə vəsaitlərinin regionlar arasında səmərəli bölgüsü və regionlara fərqli münasibətlərə yol verməmək;
- hər bir regionun potensialından müvafiq olaraq ölkənin ümumi inkişafında və həmin regionun özünün inkişafında optimal şəkildə istifadə etmək;
- vergi-büdcə tənzimlənməsi məsələlərində hər bir regionun coğrafi-iqtisadi imkanlarının nəzərə alınması, bu sahədə optimal güzəştlər sisteminin, mexanizminin işlənib hazırlanması;
- regionların investisiya layihələrində bərabər hüquqlar çərçivəsində inkişafına nail olmaq.

Maliyyə, pul dövriyyəsi sahəsində milli iqtisadi təhlükəsizliyin təmin olunması aşağıdakı məsələlərin həllini tələb edir:

- ilk öncə ölkədə maliyyə sferasında sabitliyə nail olmaq, bank sektorunun rəqabətqabiliyyətliyini yüksəltmək, bank sisteminin fəaliyyətini dünya standartları səviyyəsində qurmaq, bank nəzarəti, mühasibatlıq sisteminin fəaliyyətini bazar mexanizmləri əsasında təkmilləşdirmək, dövlət tərəfindən bank əmanətlərinin maraqlarının yüksək səviyyədə qorunmasını təmin etmək, elmi-texniki inkişafın və informasiya tex-

nologiyalarının müasir nailiyyətlərindən istifadə imkanlarını genişləndirmək;

- milli valyutanın yüksək rəqabətqabiliyyətliyini, dönərliyini təmin etmək, valyuta nəzarətinin səmərəliliyini yüksəltmək, çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirlərini gücləndirmək, ölkədən kapital axınının qarşısını almaq, iqtisadi cinayətkarlığa qarşı, korrupsiyaya qarşı ciddi, sərt tədbirlər kompleksi işləyib hazırlamaq;

- ölkədə maliyyə bazarını müasir iqtisadi sistemin tələblərinə uyğun formalaşdırma və inkişaf etdirmək, bütövlükdə dövlətin maliyyə-pul sisteminin, beynəlxalq maliyyə sisteminin fəaliyyətində baş verən mənfi meyllərin təsirindən qorumaq üçün tarazlı, iqtisadi siyasət həyata keçirmək.

Dövlət idarəetməsi ilə bağlı həyata keçirilən fəaliyyətin iqtisadi təhlükəsizliyin təmin olunmasında əsas cəhətləri səmərəli, sosial yönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində iqtisadi siyasətin həyata keçirilməsi, ölkənin milli iqtisadi resurslarından səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, dövlət, sahibkar, ayrı-ayrı vətəndaşlar, bütövlükdə cəmiyyətdə sağlam rəqabət prinsipləri əsasında sosial-iqtisadi münasibətlərin, əməkdaşlığın təmin olunmasından ibarətdir. Bu mənada aşağıdakı məsələlərə diqqət yönəldilməsi vacibdir:

- ilk növbədə dövlətin müstəqilliyinin təmin olunması və qorunub saxlanılması;

- milli xüsusiyyətlərin, adət-ənənələrin, dəyərlərin yad ünsürlərin təsirindən, aşınmadan qorunması, iqtisadi fəaliyyətin etik normaları fonunda bu cəhətlərin əsas götürülməsi və qloballaşma şəraitində ətraf dünyadan faydalı cəhətlərin əxz olunması;

- dünya bazarında rəqabətqabiliyyətinə malik milli iqtisadiyyatın formalaşması üçün əlverişli şəraitin təmin edilməsi;

- təsərrüfat subyektlərinin, kapital, maliyyə, intellektual kapital sahiblərinin fəaliyyətini, eləcə də ölkədə sahibkarlığın inkişafını, işgüzar əlverişli investisiya mühitinin yaradılmasını təmin edəcək qanunverici bazanın təmin olunması mexanizm-

lərinin yaradılması və onların işləməsi üçün şəraitin təmin olunması;

- bürokratiya, korrupsiya, iqtisadi cinayətkar fəaliyyətə qarşı sivil, amansız mübarizə tədbirlərinin işlənib hazırlanması;

- bazar sistemi şəraitində iqtisadiyyatın dövlət tərəfindən səmərəli tənzimlənməsi mexanizmlərinin yaradılması;

- yüksək ixtisaslı kadrların dövlətin idarəetmə strukturlarında işə cəlb edilməsinin təmin olunması; dövlət qulluğu haqqında təkmil qanunverici bazanın yaradılması; savadlı idarəetmə kadrlarının hazırlanması, ölkənin istehsal-iqtisadi ehtiyatlarından səmərəli istifadənin idarə edilməsinə cəlb olunması.

# II FƏSİL. KEÇİD İQTİSADİYYATINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI VƏ MİLLİ MƏNAFELƏRİN QORUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI VƏ PRİNSİPLƏRİ

## 2.1. Keçid iqtisadiyyatında iqtisadi təhlükəsizliyin təmin olunmasının xarakterik cəhətləri

Keçid iqtisadiyyatı şəraitində cəmiyyətdə baş verən mənfi meylli sosial-iqtisadi proseslərin əsasında mövcud iqtisadi sistemə məxsus təkrar istehsal modelinin dayanıqlığının, bir növ ehtiyat gücünün tükənməsi, zəifləməsi durur. Belə olan halda qiymətlərin və xarici ticarətin liberallaşması şəraitində enerji-xammal sahələri iqtisadiyyatın digər qütbü olan emal sənayesi, kənd təsərrüfatı ilə müqayisədə nisbətən üstünlük əldə etsə də, istehlakın səviyyəsinin saxlanması və dövlət xərclərinin təmin olunması nöqteyi-nəzərindən enerji-xammal sahələri üzərinə əlavə yük düşür. Bu prosesin tədricən davamlı xarakter alması emal sənayesinin dağılmasının sürətlənməsinə, istehsal potensialının tükənməsinə və enerji-xammal sahələrində səmərəliliyin aşağı düşməsinə gətirib çıxarır, enerji-xammal sektoru üzərinə düşən iqtisadi yüklənmələrə davam gətirə bilmir. Nəticə etibarilə təkrar istehsal sistemi, bütövlükdə iqtisadi sistem tənəzzülə uğrayır, sistemdə baş verən böhranlara yeni impulslar təkan verir ki, bu da əhalinin həyat səviyyəsinin aşağı düşməsi, əmək haqları üzrə qeyri-ödəmələrin sıçrayışla artması, maliyyə, bank və pul sistemində geniş miqyaslı böhranlara səbəb olur.

Böhranlı vəziyyətin kəskinləşməsi iqtisadi sistemdə və bu sistemə məxsus təkrar istehsal modelində yaranmış ziddiyyətlər və strukturdakı disbalansla şərtləşir. Burada iqtisadi modeldə yaranmış gərginlik mənbələri, düyünləri əsas rol oynayır: istehsal və istehlak arasında disbalansın yaranması; istehsal və mütəxəssis kadr potensialından tam istifadə edilməməsi; iqtisadiyyatın idxal və ixrac yönlü sektorları arasında qütbləşmənin güclənməsi; ixracın saxlanması, qorunması üçün

əlavə dəyərin yenidən bölüşdürülməsi; milli təsərrüfatda yaranmış makrostruktur disproporsiyaların kompensasiyası vasitəsi kimi inflyasiya və qeyri-ödəmələrin artması.

Yuxarıda qeyd olunan gərginlik düyünləri iqtisadi sistemin fəaliyyətini məhdudlaşdıraraq, vahid kontur yaradırlar.

İqtisadi sistemdə yaranmış əsas gərginlik mənbələrinin təsir dairəsi haqqında bir qədər geniş şərh verək.

1. Əhalinin istehlakının səviyyəsi ilə əmtəə istehsalı arasında qeyri-tarazlığın, disbalansın geniş miqyas alması. Bu disbalans ixrac yönlü istehlak hesabına kompensasiya olunur. Söz yox ki, bu hal keçid iqtisadiyyatı şəraitində daha da kəskinləşir və əmtəə istehsalının səviyyəsinin azalması istehlakın səviyyəsinin azalmasını əhəmiyyətli dərəcədə qabaqlayır. Bu vəziyyət həmçinin tələb və təklif arasında makrostruktur qeyri-tarazlığın yaranmasına da səbəb olur. Yekun tələbdə ev təsərrüfatlarının tələbatı səviyyəsi üstünlük təşkil edir. Tələbin səviyyəsinin təmin olunması iki yolla mümkündür. Birincisi, əlavə dəyərin əmtəə istehsalçıları və dövlətdən ev təsərrüfatlarının xeyrinə yenidən bölüşdürülməsi. Burada, MDM-də əhali gəlirlərinin payının artması, əhalinin xeyrinə olaraq maliyyə resurslarının yenidən bölüşdürülməsi əmtəə istehsalçılarının və dövlət xərclərinin azaldılması hesabına mümkündür.

Ümumiyyətlə, struktur balansı anlayışı inkişaf etmiş ölkələrdə büdcə siyasətinin işlənib hazırlanması və təhlili zamanı biznes tsiklin (xammal ixrac edən ölkələrdə isə qiymət konyunkturasının) təsirinin aradan qaldırılmasında geniş istifadə olunur [181, səh. 99].

İkincisi, iqtisadi tənəzzül şəraitində istehlakın nisbətən sabitləşməsi, onun səviyyəsinin qorunub saxlanması istehlak yönlü idxalın həcminin artırılması hesabına mümkün olur. Bu isə öz növbəsində ixracın artırılmasını tələb edir ki, Azərbaycanda, respublikamızda bu daha çox enerji-xammal sahələrinin payına düşür.

Deməli, belə bir vəziyyət yaranır ki, mövcud iqtisadi modeldə istehlakın səviyyəsi yanacaq-xammal sahələrinin inkişafı ilə sıx əlaqədardır.

2. Maddi istehsaldakı iqtisadi potensial və əmtəə istehsalı (buraxılışı) səviyyəsi arasında dərin fərqlərin, ayrılığın yaranması. Bu, tələbin səviyyəsi və maliyyə məhdudiyyətləri ilə əlaqədar olub, resurslardan qeyri-səmərəli istifadə və real sektordakı əlavə xərclərlə müşayiət olunur.

Keçid şəraitində istehsalın səviyyəsinin aşağı düşməsi texnoloji və kadr potensialından həddindən ziyada pis, səmərəsiz istifadə olunması ilə müşayiət olunur. İstehsaldakı mövcud potensialın azalması əmtəə və xidmətlər buraxılışının azalması ilə müqayisədə azdır. İstehsalatda əsas fondlar praktik olaraq dəyişilməsə də, onların keyfiyyəti aşağı düşür və istehsal gücləri azalır, həmçinin işçilərin sayı da azalır. Bu da istehsalda geniş miqyasda istifadə olunmamış ehtiyatların əmələ gəlməsinə səbəb olur. Nəticə etibarilə, əsas fondlardan istifadənin səmərəliliyi azalır, fond verimi aşağı düşür və istehsal xərcləri artır və sonda əmək məhsuldarlığının səviyyəsi azalır.

3. İqtisadiyyatın bir-birilə rəqabət aparan ixrac və idxal yönlü sektorlar əsasında qütbləşməsi. Bu, milli iqtisadiyyatda struktur baxımından qeyri-tarazlığın yaranmasını daha da sürətləndirir.

Açıq iqtisadiyyat şəraitində xarici-iqtisadi təhlükəsizlik aşağıdakıları tələb edir: birincisi, ölkənin dünya təsərrüfatında iştirakı milli istehsal üçün ən əlverişli şərait yaratmış olsun; ikincisi, milli iqtisadiyyat dünya təsərrüfatında həm iqtisadi, həm də siyasi sahədə baş verən hadisələrin əlverişsiz gedişatını ən aşağı səviyyədə hiss etmiş olsun. Onu da qeyd etmək lazımdır ki, açıq iqtisadiyyat şəraitində bu təsirdən tamamilə yaxa qurtarmaq mümkün deyil [105, səh. 44].

Bazar iqtisadiyyatına keçid şəraitində milli bazar seqmentinin formalaşmasına xidmət edən ənənəvi iqtisadiyyatla yanaşı, dünya təsərrüfat sisteminə inteqrasiya yönlü iqtisadiyyat formalaşır. Dünya və daxili qiymətlərin yaxınlaşması, iqtisadi tənəzzülün dərinləşməsi şəraitində bu iki iqtisadi seqment arasında təsərrüfat şəraiti, resurslar uğrunda mübarizə də güclənir.

Uyğun olaraq, əmtəə istehsalı çərçivəsində də iki sektor ayrılır: əsasən, enerji-xammal ehtiyatlarına əsaslanan ixrac yönlü sektor və aşağı rəqabətqabiliyyətli məhsul istehsal edən idxal yönlü sektor.

Əmtəə istehsalının dezinteqrasiyasının güclənməsi, onun seqmentlərə parçalanması əsas balansın dağılması ilə nəticələnir. Burada söhbət iqtisadiyyatın sahə strukturları arasında iqtisadi potensial, məcmu gəlir və investisiya səviyyəsindəki uyğunluqdan gedir.

Keçmiş sovet iqtisadiyyatında bu balans bir sıra mexanizmlərlə saxlanırdı. Birincisi, enerji daşıyıcılarının daxili qiymətləri aşağı idi, istehlak və investisiya ilə bağlı gəlirlərin və yığımların lazımi həcmi təmin edirdi. İkincisi, enerji xammalının keyfiyyətli idxal məhsullarına mübadiləsi istehsal sahələrinin texnoloji cəhətdən geriliyini kompensasiya edə bilirdi. Üçüncüsü, əhalinin yığımlarının səfərbərliyə alınması, mobilizasiyası investisiyaların artırılmasında maliyyə məhdudluğunu yumşaltmağa imkan verirdi.

Lakin keçid şəraitində iki qütblü iqtisadi modelin formalaşması zamanı vəziyyət əhəmiyyətli dərəcədə dəyişir:

- ixrac yönlü sektorda qeyri-mütənasib yüksək gəlirlər və investisiya cəmlənmişdir. Yaranmış qiymət uyğunluğuna görə bu sektorda bir nəfər məşğul adama düşən əlavə dəyərin səviyyəsi idxal yönlü sektorda olduğundan yüksək olur.

- digər qütbdə, yəni idxal yönlü sektorda məşğul olan əhalinin əsas hissəsi cəmlənir və uyğun olaraq, artıq işçi qüvvəsindən səmərəsiz istifadəyə görə xərclər, eləcə də vergi yükünün xeyli hissəsi bu sektorun üzərinə düşür.

Nəticədə hər iki sektorun üzərinə düşən iqtisadi yük (güc) onların maliyyə və istehsal imkanlarına uyğun gəlmir. Vergilərin və əmək haqlarının ödənilməsindən sonra yerdə qalan gəlir normal təkrar istehsal prosesini təmin etmək üçün əsas və dövriyyə kapitalına investisiya qoyuluşuna kifayət etmir.

4. İxrac yönlü sektorun aşağı səmərəli fəaliyyətini kompensasiya etmək baxımından maliyyə resurslarının bu sektorun xeyrinə yenidən bölgüsünü həyata keçirmək lazımdır.

Kənd təsərrüfatı və emal sənayesi sahələrinin gəlirləri belə resurs mənbələri kimi çıxış edirlər ki, bu da tədricən həmin sahələrin dağılması ilə nəticələnir.

Əhalinin həyat səviyyəsinin təmin olunmasında əsas rol rəqabətqabiliyyətli ixrac yönlü sektora məxsus olur. Burada yanacaq, kimya və metallurgiya sənayesi nəzərdə tutulur. Kapital tutumu və cari xərclər kimi istehsal-texnoloji parametrlərə görə bu sahələr inkişaf etmiş dünya analoqlarından geri qalmır.

Bu mənada, ixrac yönlü sektorun saxlanılması və enerji daşıyıcılarının və xammalın ixracının artırılması bu sahənin rəqabətqabiliyyətliyindəki çatışmazlığı kompensasiya etmək üçün birbaşa və dolayısı ilə onun subsidiyalarının ayrılmasını tələb edir. Subsidiya ayrılmanın belə forması kimi ixrac yönlü sektorun xeyrinə olaraq əlavə dəyərin yenidən bölüşdürülməsi çıxış edir. Bunu aşağıdakı kanallarla həyata keçirmək olar: milli valyutanın kursu və alıcılıq qabiliyyəti pariteti arasında fərq (ixracdan gələn gəlir); enerji-xammal resurslarının daxili qiymətlərinin inflyasiyanın orta səviyyəsini ötüb keçən artımı.

İxracdan gələn gəlirlər (yəni birinci yol) əlavə dəyərin bölüşdürülməsində əsas rol oynayır. Milli valyutanın kursu və alıcılıq qabiliyyəti paritetinin yaxınlaşması ixracdan daxil olan gəlirlərin kəskin azalması ilə nəticələnir.

Dolayı yolla ixraca subsidiyaların ayrılması zamanı əsas maliyyə donorları kənd təsərrüfatı və qeyri-sənaye xidmətləri sektorudur.

5. Təkrar istehsal sistemində yaranmış makroiqtisadi natarazlığı kompensasiya edəcək gəlirlərin və qeyri-ödəmələrin inflyasion yenidən bölüşdürülməsi.

Belə bir vəziyyət iqtisadiyyatda potensial olaraq mövcud olan yüksək inflyasiya səviyyəsi ilə əlaqədardır. Hər bir müəssisə sadə formada təkrar istehsal prosesini təmin etmək qiymətlərin yüksək artımı şəraitində müəyyən həcm ehtiyat toplaya bilir. Bu yığımın səviyyəsinə enerji daşıyıcılarının, nəqliyyat xidmətlərinin və s. qiymətləri də mühüm təsir göstərir. Müəssisələrin bu yığımlardan əldə etdikləri inflyasiya gəlirləri

yaranmış maliyyə çatışmazlığını kompensasiya edir. Onu da qeyd edək ki, inflyasiya gəlirləri dedikdə müəssisənin öz tələbatını təmin etmək üçün (istehsal ehtiyatı formalaşdırmaq məqsədilə) aldığı xammal və materialların onların alınması ilə istehsal prosesində istehlak olduğu dövr arasında bu materialların qiymətlərinin inflyasiya nəticəsində bahalaşmalarından müəssisənin əldə etdiyi gəlirlər nəzərdə tutulur. Bu dövr nə qədər çox olarsa və inflyasiya nə qədər yüksək olarsa, əmtəənin dəyərində maddi məsrəflərin həcmi bir o qədər az olar, müəssisənin inflyasiya gəlirlərinin həcmi də çox olar. Lakin istehsalın azalması və müəssisənin qeyri-ödəmələrinin həcminin artması şəraitində müəssisə inflyasiya gəlirlərini cari istehsal xərclərinə və başqa məqsədlərə (əmək haqlarının ödənilməsi, maliyyə aktivlərinə kapital qoyuluşu və s.) yönəldə bilər.

İqtisadiyyatdakı potensial inflyasiya aşağıdakı səbəblərdən yarana bilər:

- dünya qiymətlərinin təsiri altında yaranan qiymətlərin real sektorda təkrar istehsalın tarazlıq vəziyyətini təmin üçün onun tələbatını müəyyən edəcək kapital məsrəflərinin strukturu və səviyyəsinin uyğunsuzluğu;
- əsas fondlardan və əmək məsrəflərindən qeyri-səmərəli istifadə nəticəsində istehsal xərclərinin yüksək olması;
- istehsal və istehlak arasında ayrılığın əmələ gəlməsi.

İnflyasiya gəlirləri müəssisənin bu prosesə uyğunlaşmasına imkan verir.

Onu da qeyd edək ki, qiymətlərin liberallaşması və iqtisadiyyatın açıq xarakter alması potensial inflyasiya və inflyasiyanın faktiki səviyyəsi arasındakı nisbətin dəyişməsini şərtləndirir. İkincinin birinciyə nisbətən azalması ilə iqtisadiyyatda sabit inflyasiya təmin edilir.

İnflyasiya gəlirləri ilə yanaşı real sektorda gəlirlərin və xərclərin tarazlaşdırılmasında, balanslaşdırılmasında qeyri-ödəmələr də əsas rol oynayır.

Yuxarıda qeyd etdiyimiz gərginlik nöqtələrində, qovşaqlarında milli iqtisadi sistemdə yaranmış qeyri-tarazlıq səviy-

yəsini obyektiv olaraq aşağı salan meyllər müşahidə edilsə də, bunlar sosial-iqtisadi böhranların kəskinləşməsinə səbəb olur. Bu meyllər aşağıdakılardır:

- əmtəə istehsalı və istehlakı arasında yaranmış disbalansın tarazlaşdırılması, bərabərləşdirilməsi əhalinin həyat səviyyəsinin pisləşməsi, aşağı düşməsi hesabına baş verir.

- iqtisadiyyatda, hər şeydən əvvəl, maddi istehsal sahəsində məşğulluğun kəskin şəkildə azalması və bu prosesin sürətlənməsi baş verir.

- ixrac və idxal yönlü sektorlar arasında məcmu gəlirlərin bölüşdürülməsi uğrunda rəqabət kəskinləşir. Bu münaqişə çərçivəsində ixrac yönlü sahələr valyuta kursu və nisbi qiymətlər artımı mexanizmləri vasitəsilə gizli yardım alma mənbələrindən məhrum olurlar.

Milli valyutanın kursunun və alıcılıq qabiliyyəti paritetinin yaxınlaşması ixracdan gələn gəlirlərin azalmasına səbəb olur. Enerji xammalının daxili qiymətlərinin azalması ixrac yönlü sektorda gəlirlərin azalmasına səbəb olur.

- qiymətlərin artım tempinin azalması əmtəə istehsalçılarının inflyasiya gəlirlərinin azalması və onların maliyyə gəlirlərinin artmasına səbəb olur. Bu, qeyri-ödəmələrin artımını şərtləndirir.

Bu meyllərin baş verməsi təkrar istehsal sisteminin transformasiyasını şərtləndirir. Bu transformasiya prosesi bəzən bir neçə il davam edə bilir və aşağıdakı bir-birilə qarşılıqlı əlaqəli anları əhatə edir:

- istehlakın saxlanılması və vergi ödəmələri yükünün azaldılması baxımından enerji-xammal sektorunda prioritet mövqelərin qorunub saxlanması. Bu sektorun dünya təsərrüfat sisteminə inteqrasiyası ixrac yönlü istehsalın özünün saxlanılması ilə müşahidə edilir.

- istifadə olunmamış istehsal potensialının ixtisar olunması hesabına istehsal xərclərinin azalması;

- kənd təsərrüfatının dağılması, aqrar potensialın azalması;

- dövlətin sosial və müdafiə xərclərinin azaldılması hesabına maddi istehsal vergi yükünün yüngülləşdirilməsi.

Bəzən daxili yönlü sektora arxalanaraq təkrar istehsal sisteminin transformasiyasını həyata keçirmək yolunu da əsas kimi qəbul edirlər. Bu yol əhalinin real gəlirlərini stabilləşdirməsini, istehsal yönlü investisiyaların miqyasının genişləndirilməsini və idxalın fəal şəkildə əvəz olunmasını tələb edir. Bu isə öz növbəsində iqtisadi proseslərin tənzimlənməsində, qiymətlərin strukturunun emal sənayesinin xeyrinə dəyişilməsində dövlətin fəal, yaxından iştirakını şərtləndirir.

Bir məsələni də qeyd edək ki, formalaşmış təkrar istehsal modelinin transformasiya olunması böhranların yeni mərhələsinə yol açır ki, bu da ölkənin iqtisadi təhlükəsizliyi üçün strateji əhəmiyyətli təhdidlər yaradaraq, fundamental iqtisadi problemlərin kəskinləşməsini şərtləndirir. Bu problemlərlə konkret olaraq tanış olaq.

1. Birincisi, vergi daxilolmaların aşağı səviyyədə olması hətta minimal dövlət xərclərini belə təmin edə bilmir. Uyğun olaraq maliyyə resurslarının çatışmazlığı yaranır ki, bu da qeyri-inflyasion daxili və xarici ödəmələr hesabına təmin edilə bilmir.

Yaranmış bu problem nəticəsində azalan vergi bazası və azalmayan dövlət xərcləri arasında fərq artır. Bir tərəfdən təkrar istehsal sistemində yaranmış böhranlar vergi bazasının azalmasının mühüm amilinə çevrilir. Burada təkrar istehsal amilləri sırasına aşağıdakıları aid etmək olar:

- qiymətlərdəki disbalans, əmtəə istehsalçılarının gəlirlərinin azalması və qeyri-ödəmələrin səviyyəsinin artması səbəbindən real iqtisadi sektorda maliyyə vəziyyətinin pisləşməsi;
- istehsalın həcminin azalması;
- işçilərin sayının artıq olması, istehsal fondlarından qeyri-səmərəli istifadə ilə əlaqədar olaraq istehsal xərclərinin artması;
- likvid vəsaitlərin çatışmazlığı səbəbindən əmtəəlik, bazar ehtiyatları üçün məhsul istehsaletmə qabiliyyətinin

aşağı düşməsi, yəni əmtəələrin daha çox özünü təmin etmə və barter məqsədləri üçün istehsal olunması.

Digər tərəfdən, dövlət xərclərinin tərkibində müdafiə, sosial ödəmələr, idarəetmə aparatı və elmə ayrılan xərclərdə azalmanı davam etdirmək arzuolunmazdır.

Tədqiqatçıların fikrincə, fundamental tədqiqatların dayandırılması, elmi-tədqiqat kollektivlərinin və beynəlxalq səviyyəli konstruktor bürolarının dağılması, yüksək texnoloji və tamamilə rəqabət qabiliyyətli məhsullara sifarişlərin kəskin azaldılması, ölkədən «beyinlərin axıb getməsi» ölkənin iqtisadi təhlükəsizliyinə çox ciddi və real təhlükə yaradır [161, səh. 15].

Dövlət xərclərinin artırılması dövlətin borclarının çoxalması və onların qaytarılması xərclərinin artmasını şərtləndirir. Burada dövlət xərclərinin ya emission qaydada örtülməsi, ya da radikal olaraq bu xərclərin azaldılması yolları seçilə bilər. Birinci halda əhalinin real gəlirlərinin səviyyəsi aşağı düşür, inflyasiya yüksəlir. İkinci halda dövlət institutları böhranla üzləşir, əhalinin və əmtəə istehsalçılarının vəziyyəti pisləşir.

2. İkinci problem maddi istehsal sahələrinin, ilk növbədə ixrac yönlü sektorda maliyyə vəziyyətinin kəskin şəkildə pisləşməsidir. Nəticədə əmtəə istehsalçılarının gəlirləri hətta sadə təkrar istehsalı təmin edə biləcək səviyyədən aşağı olur.

Maddi istehsalda gəlirlərin aşağı düşməsi çox vaxt təkrar istehsalla bağlı səbəblərdən irəli gəlir. Bu da iqtisadi sistemin qeyri-səmərəliliyi və sistemdə baş verən böhranlarla əlaqədardır. Əmtəə istehsalının azalması ilə yanaşı, maddi istehsalda gəlirlərin azalması səbəbləri sırasına əlavə dəyərin istehsaldan istehlaka doğru yenidən bölüşdürülməsi, ixracdan daxil olan gəlirlərin azalması, əmtəə istehsalçılarının inflyasiya gəlirlərinin azalması da daxildir.

Əlavə dəyərin istehsaldan istehlaka doğru yenidən bölüşdürülməsi yuxarıda qeyd etdiyimiz kimi istehsalın azalması, yaxud da tənəzzülü şəraitində istehlakın və məşğulluq səviyyəsinin saxlanılmasının ilkin şərti və nəticəsidir. Belə şəraitdə əhalinin sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirləri və əmək haqlarının artımı avtomatik olaraq real sektorda

məcmu gəliri azaldır. Bəzən bu, maddi istehsalda məcmu gəlir normasının azalmasında həlledici rol oynayır.

İxracdan gələn gəlirlərin azalması ixrac yönlü sektorda maliyyə vəziyyətini kəskin şəkildə pisləşdirir.

Strateji nöqteyi-nəzərdən bu qanunauyğunluq aşağıdakılarla şərtlənir. Birincisi, açıq iqtisadi sistem şəraitində bazar mexanizminin təsiri ilə daxili qiymətlərin dünya qiymətlərinə yaxınlaşması ixracatçıların gəlirlərinin azalmasına səbəb olur. İkincisi, bazar iqtisadiyyatı şəraitində aşağı rəqabətqabiliyyətli ixracın subsidiyalaşdırılması imkanları tükənir. Üçüncüsü, milli valyutanın kursunun alıcılıq qabiliyyəti paritetindən ayrılması ilə idxal daxili ödəməqabiliyyətli tələbin sərhədlərindən uzaqlaşır ki, bu da istehlakın azalması ilə müşahidə olunur.

Maddi istehsalda inflyasiya gəlirlərinin azalması məcmu gəlir normasının azalmasını şərtləndirir. İnflyasiyanın səviyyəsinin azalması qiymət proporsiyalarının bərabərləşməsi ilə müşahidə edilirsə, daxili qiymətlərdə və istehsal xərclərindəki disbalansın, artıq məşğulluğun, əsas fondların qeyri-tam yüklənməsi və s. bağlı mənfi nəticələri daha da kəskinləşdirir. Bu isə iqtisadiyyatdakı seqmentlər arasında maliyyə qarşılıqlı münasibətlərdə tarazlığın pozulmasına gətirib çıxarır. Bu, milli iqtisadiyyatın bütün sektorlarına, daha çox ixrac yönlü sektora mənfi təsir göstərir. Bu, ixrac hesabına dövlət xərclərinin və əhalinin həyat səviyyəsinin təmin edilməsi kimi funksiyalara da öz təsirini göstərir.

Keçid şəraitində əmtəə istehsalçılarının gəlirlərinin azalması maliyyə sahəsində yaranmış gərginliyin artması ilə müşahidə edilir. Belə olan halda real sektorun məcmu gəlirlərinin səviyyəsi sadə təkrar istehsalın səviyyəsini, vergi ödəmələrini, dövriyyə kapitalına minimal kapital qoyuluşu üçün zəruri investisiya həcmini təmin edə bilmir.

3. Üçüncü problem pul-kredit resurslarının dövriyyəsi və istehsal kapitalının tələbləri arasında fərqin, ayrılığın daha da artmasıdır ki, bu da maddi istehsalda bazar ehtiyacları üçün

və öz tələbatını təmin etmək üçün əmtəə istehsalının azalmasını şərtləndirir.

Burada, pul sistemindəki böhranlı vəziyyətin inkişafı bir-biri ilə qarşılıqlı əlaqəli üç meyllə müşahidə edilir.

Birinci meyl: təsərrüfat dövriyyəsinə xidmət edən likvid vəsaitlərin çatışmazlığının artımı.

Real pul kütləsinin həcminin stabilləşməsi heç də həmişə iqtisadiyyatda pul vəsaitlərinin çatışmazlığını aradan qaldırmır. Bu çatışmazlıq istehsalın naturallaşmasını şərtləndirir ki, bu da qeyri-ödəmələrin və barter sövdələşmələrin həcminin artması ilə müşahidə edilir.

İkinci meyl: pul vəsaitlərinin real sektordan ev təsərrüfatlarının yığımlarına doğru axını. Nəticədə əhalinin əmanətlərinin həcmi artır, müəssisələrin vəsaitlərinin həcmi isə azalır. Uyğun olaraq, əmtəə istehsalçılarının hesablarındakı real pul qalığı inflyasiyanın təsiri ilə durmadan azalır.

Üçüncü meyl: dövlət borclarının qaytarılması üçün pul vəsaitlərinin səfərbər edilməsi miqyasının genişləndirilməsi.

Dövlətin daxili borclarının həcminin artması bankların resurslarının cəlb edilməsini tələb edir ki, bu da həmin resursların başqa təyinatlar üzrə istifadəsinə maneçilik yaradır.

Qeyd olunan bu meyllər pul-maliyyə dövriyyəsinin biri kimi onun iki qapalı kontura ayrılması ilə şərtləşir ki, bu konturlar arasındakı pul resurslarının intensiv bölgüsü həyata keçirilir. Birinci kontur – əhalinin vəsaitləri – dövlət borclarının maliyyələşdirilməsi konturu pul gəlirlərinin və əhalinin yığımlarının formalaşması və dövlət xərclərinin təmin edilməsi, örtülməsi üçün bu vəsaitlərin səfərbər edilməsi kimi qarşılıqlı prosesləri birləşdirir. İkinci kontur – müəssisənin vəsaitləri – əmtəə istehsalına ayrılan kretidlər – real sektorun pul gəlirlərinin formalaşması və müəssisənin vəsaitlərindən iqtisadiyyatın kreditləşməsi resursları kimi istifadə edilməsini əhatə edir. Birinci kontur ev təsərrüfatlarının xeyrinə pul vəsaitlərinin yenidən bölüşdürülməsi nəticəsində real sektorun gəlirlərinin azalması səbəbindən vergi bazasının məhdudlaş-

masını kompensasiya edərək balanslaşdırıcı funksiyanı yerinə yetirir.

Bu iki kontur çərçivəsində pul-kredit resurslarının dövriyyəsi və müəssisənin maliyyə vəziyyəti arasında uyğunsuzluq qanunauyğun olaraq güclənir. Əmək məhsuldarlığının aşağı düşməsi, istehsal və istehlak arasında qeyri-tarazlığın yaranması pul resurslarının, vəsaitlərinin real sektordan ev təsərrüfatlarının xeyrinə yenidən bölgüsünü şərtləndirir. Bu zaman əhalinin yığımları kreditlər vasitəsilə yenidən istehsala «qayıtmır». Bu hal kredit qoyuluşları zamanı yüksək risklərin olması və əmanətlər üzrə faiz dərəcələrinin istehsalın rentabelliyindən fərqlənməsindən irəli gəlir. Uyğun olaraq aşağıdakı hallar da müşahidə edilir:

- pul sferasında maliyyə bazarında qeyri-sabit vəziyyət yarada bilən və sıçrayışlı inflyasiyaya səbəb ola bilən bahalı kredit resurslarının artıqlığı (çoxluğu) əmələ gəlir. Belə sərbəst vəsaitlərin olması vergi daxilolmalarının azalmasına baxmayaraq, dövlət borclarının qiymətinin azalmasına imkan verir.
- maddi istehsal sferasında pul vəsaitlərinin çatışmazlığının artması burada əmtəəlik, bazar ehtiyacları üçün məhsul istehsal etmə qabiliyyətini aşağı salır, nəticədə barter sövdələşmələrinin və qeyri-ödəmələrin həcmi artır;

Pul dövriyyəsində baş verən qeyri-tarazlıq halı nəticəsində iqtisadi sistem «likvidlik tələsinə» yuvarlanır. Bu vaxt aşağı inflyasiya səviyyəsinin saxlanılması, əhalinin real gəlirlərinin stabilləşməsi əmtəə istehsalında likvidliyin azalması ilə müşahidə olunur.

Əhalinin real gəlirlərinin və eyni zamanda müəssisələrin dövriyyə vəsaitlərinin stabilləşməsi pul kütləsinin artırılmasını tələb edir. Lakin bu inflyasiyanın nəzərdə tutulan səviyyədən belə çox olması ilə nəticələnə bilir. Bu mənada, inflyasiyanın lazımi səviyyədə saxlanılması üçün pul kütləsinin illik artımını məhdudlaşdırmağı tələb edir ki, nəticədə müəssisələrin hesablarındakı qalıq vəsaitin azalması baş verir.

4. Dördüncü problem aqrar sektorda kənd təsərrüfatı potensialının, istehsal həcminin və əmtəəlik məhsul istehsal

etmə qabiliyyətinin azalmasıdır. Bu zaman kənd təsərrüfatı istehsalının həcmi əhalinin əsas qida, ərzaq məhsullarına olan minimal fizioloji tələbatını çətinliklə tələb edə biləcək səviyyəyədək azalması müşahidə edilir.

Bazar iqtisadi sisteminə keçidin ilk dövrlərində aqrar sektor əsas stabilləşdirici rol oynayır. O, maliyyə donoru funksiyasını icra edərək sənaye və istehsal xidməti sferasına «qiymət qayçısı» mexanizmi vasitəsilə yardım göstərir.

Lakin bu proses heç də uzun müddət davamlı olmur və tədricən kənd təsərrüfatı sektorunun özünün tənəzzülə uğraması üçün münbit şərait yaradır və ümumsənaye istehsalının həcminin azalmasını geridə qoyur, ötüb keçir. Nəticədə kənd təsərrüfatı müəssisələri zərərlə işləyir, əsas kənd təsərrüfatı məhsullarının istehsal həcmi azalır. Bu da sonda ölkənin ərzaq məhsullarının idxalından asılı vəziyyətə düşməsinə səbəb olur.

Burada əsas problem ondan ibarətdir ki, aqrar sektorda təkrar istehsal mexanizmi dağılmışdır. Digər hər bir iqtisadi sferada maddi və maliyyə resurslarına yönəlmiş təkrar istehsal təyinatlı tələbatla şəxsi təsərrüfat fəaliyyəti hesabına bu resursları əldə etmək imkanları arasında belə geniş miqyaslı parçalanma, ayrılma yoxdur. Aqrar sektorda yaranan gərginliyə büdcədən ayrılan dotasiyaların kəskin şəkildə azalması da əlavə olunur. Bu da sənaye təyinatlı məhsullara, o cümlədən kənd təsərrüfatı texnikasına, mineral gübrələrə və s. olan tələbatın məhdudlaşmasına gətirib çıxarır.

Azsəviyyəli resurs təminatına uyğunlaşma aqrar sektorda əkin sahələrinin və uyğun olaraq məhsul yığımının, həmçinin bazar ehtiyacı üçün məhsul, əmtəə istehsal etmə qabiliyyətinin aşağı düşməsi hesabına baş verir. Əkin sahələrinin, məhsul yığımının həcminin azalması da aqrar sektorun müxtəlif bölmələrinin, o cümlədən heyvandarlığın və başqa sahələrin inkişafını iflic vəziyyətə salır.

5. Beşinci problem keyfiyyətli ərzaq məhsulları istehlakının kritik həddədək azalması ilə əhalinin həyat səviyyəsinin aşağı düşməsidir. Sosial sferada baş verən böhranların kəskin-

ləşməsi bu problemi daha da dərinləşdirir. Burada aşağıdakılar aşkara çıxır:

- əhalinin real gəlirlərinin və istehlakının sürətlə azalması. İstehlak malları və xidmətlərin qiymətlərinin bahalaşması ilə əhalinin real gəlirlərinin və uyğun olaraq istehlakının səviyyəsi, həcmi aşağı düşür;

- maddi istehsal sferasında əmək haqqı üzrə borcların kəskin şəkildə artımı ilə eyni vaxtda həmin sferada işçi qüvvəsinin azad olmasının miqyası genişlənir.

Onu da qeyd edək ki, bu proses, vəziyyət əhalinin istehlakının səviyyəsinə həm normativ baxımdan, həm də ərzaq məhsullarının enerji dəyəri, koloriliyi baxımından da mənfi təsir göstərir.

6. Altıncı problem – ölkənin ixrac potensialının kritik idxalı təmin etmək üçün valyuta vəsaitlərinə olan tələbata cavab verə bilməməsidir. Bu potensial enerji-xammal ehtiyatlarının istehsalının və ixracdan gələn gəlirlərin aşağı düşməsi nəticəsində ixrac potensialının azalması ilə şərtləşir.

Əvvəlcə qeyd etdiyimiz kimi, əlavə dəyərin ixrac yönlü sektorun xeyrinə yenidən bölgüsü vasitəsilə yardımların ayrılmasının dayandırılması bu sektorun aşağı rentabelli və zərərli işləməsinə səbəb olur. Bu problemin dərinləşməsinə aşağıdakı vəziyyətdə təsir göstərir.

Enerji resursları hesabına ölkənin ixrac potensialının artırılması imkanları tükənir.

İkincisi, dövlətin proseslərə zəif nəzarəti, iqtisadi sahədə cinayətkar ünsürlərin fəaliyyətinin genişlənməsi və başqa səbəblərdən ixracdan gələn valyuta ehtiyatlarının azalması.

İxrac potensialının belə vəziyyəti ilə ölkənin milli iqtisadiyyatın valyutaya olan tələbatını təmin etmək çətinləşir.

Belə problemlər ölkədə sosial-iqtisadi vəziyyəti gərginləşdirərək, əhalinin böyük bir hissəsinin vəziyyətinin pisləşməsinə rəvac verərək, əsas dövlət institutlarının fəaliyyətinə mənfi təsir göstərir. Bu proses cəmiyyətlə dövlət hakimiyyəti institutları arasında parçalanmanı dərinləşdirir.

Yaranmış bu problemlərin aradan qaldırılmasında başlıca məsələ bu proseslərə dövlətin fəal şəkildə müdaxiləsini tələb edir. Burada güclü dövlət maşınının formalaşması labüddür. Cəmiyyətlə dövlət, hakimiyyət arasında maraqların yaxşılaşdırılması, güclü dövlətin formalaşmasının əsaslarındandır.

## 2.2. Milli mənafelərin qorunmasının nəzəri-metodoloji əsasları və prinsipləri

İqtisadi təhlükəsizliyin əsas parametrləri istehsalın dinamikası, dövlət büdcəsinin vəziyyəti və dövlət borclarının səviyyəsindən asılıdır. Lakin texnoloji, siyasi, ekoloji, hüquqi xarakterli təhdidlər ölkənin iqtisadi potensialının zəifləməsində heç də az rol oynamırlar. İqtisadi təhlükəsizliyə qarşı olan hər hansı bir qorxu, təhdid maddi və maliyyə itkilərilə nəticələnə bilər ki, bu da ölkənin ödəmə balansında öz mənfi təsirini əks etdirir. İqtisadi təhlükəsizliklə bağlı böhrana səbəb olan daxili amillər sırasına aşağıdakılar daxildir: kapitalın «axınının» dövlət tərəfindən tənzimlənməməsi; vergi və gömrük siyasətinin qeyri-təkmil olması; ölkə ərazisində mineral xammal emalının az olması; texnogen faciələr və qəzalar nəticəsində ölkə ərazisində hər il iri miqyaslı maddi itkilərin olması; «beyinlərin axınının» davam etməsi; ölkənin elmi-texniki potensialının dağılması; sənayedə və kənd təsərrüfatında xərc tələb edən texnologiyanın tətbiqi; ölkə iqtisadiyyatının mühüm sahələrində xarici portfel investisiyaların payının çox olması; qızıl və digər qiymətli malların və daşların hasilatının kəskin şəkildə azalması; ölkə ərazisində terror təhlükəsinin olması; insan potensialının səviyyəsinin aşağı olması; xarici dövlət borclarının səviyyəsi və s.

Təhdid yaradan bu amilləri aktiv və passiv təhdidlər olmaqla iki yerə ayırmaq olar. Məsələn, kapital axının dövlət tərəfindən tənzimlənməməsi və qeyri-təkmil vergi və gömrük siyasətinin aparılması amilləri təhlükəsizliyə qarşı fəal təh-

didlər hesab olunursa, dövlətin xarici borcları passiv təhdidlər sırasına daxildir.

Yuxarıda sadalanan amillərdən əsaslılarını nəzərdən keçirək.

**Kapitalın axını**. Ölkə ərazisindən xarici fiziki və hüquqi şəxslərin pul vəsaitləri axınının tənzimlənməməsi bir çox səbəblərdən irəli gəlir. Bu səbəblərdən aşağıdakıları qeyd etmək olar: pul vəsaitlərinin əlverişli saxlanma şəraiti, səmərəli kreditləşmə və investisiya yatırma imkanları, inflyasiyadan qorunma, ölkədə siyasi stabilliyin olmaması, kapital sahibinin dövlətin siyasi kursuna qarşı inamsızlığı, həmçinin pul vəsaitlərinin qeyri-qanuni yollarla əldə edilməsi və maliyyə kapitalının ekspроriasiyaya məruz qalma təhlükəsi və s.

Bütün dünyada milli valyutanın kursu ölkənin iqtisadi vəziyyətinin əsas göstəricisi sayılır. Ölkədən irimiqyaslı maliyyə vəsaitlərinin axını milli iqtisadi təhlükəsizliyə qarşı yönələn ən ciddi təhdidlərdən biridir. Maliyyə vəsaitlərinin qanuni axınına kommersiya bankları tərəfindən iri pul məbləğlərinin xarici banklardakı hesablara köçürülməsini misal göstərmək olar. Qeyri-qanuni yollara isə ixrac zamanı qiymətlərin aşağı salınması, idxal zamanı isə yüksəldilməsi aiddir [140, səh. 97].

Hüquqi şəxslərin pul vəsaitlərinin axını öz başlanğıcını holdinq strukturlarından başlayır. Holdinqlər bir sıra rəqabət mexanizmlərini blokadaya alaraq, iqtisadiyyatın mühüm sahələrində yüksək səviyyədə monopoliya əldə edirlər. Bu, onlara qanuni şəkildə, asanlıqla xaricdə müəssisələr şəbəkəsi yaratmağa imkan verir. Sonra bu şəbəkə ilə birləşərək transmilli strukturlar əmələ gətirirlər.

Bəzən mövcud sahədə qanunvericilik bazasının və pul axınının dövlət tərəfindən tənzimlənməsi mexanizmlərinin olmaması ölkənin illik büdcəsi ilə müqayisə olunmayacaq dərəcədə çox kapitalın axınına səbəb olur.

Fikrimizcə, ölkədən kapital axınının qarşısını almaq üçün ölkə ərazisində pul vəsaitlərindən normal istifadəni təşkil edən hüquqi, normativ şəraitin yaradılması lazımdır. Bunun

üçün vergi və bank güzəştlərinin tətbiqi mexanizmlərini işləyib-hazırlamaq lazımdır. Bu real sektora vəsaitlərin yönəldilməsinə də müsbət təsir göstərər. Qayıdan maliyyə kapitalı isə xüsusi qanunvericiliklə qorunmalıdır. Bu cür yanaşma ölkə üçün iqtisadi fayda verə bilər.

**Texnogen faciələrlə və qəzalarla bağlı maddi itkilər.** Texniki səbəblərdən baş verən texnogen faciələr, qəzaların vurduğu orta illik zərər, itki 4,6 mlrd. dollar təşkil edir. Belə səbəblər potensial təhlükəli sistemlərdə, qurğularda, tikililərdə onların iş rejiminin pozulmasına gətirib çıxaran konstruktiv nöqsanların olması; istismar müddətində təsadüfi hadisələrdən etibarlı müdafiə sisteminin olmaması, qəza vəziyyətlərində texniki sistemlər və qurğularla rəftar imkanlarının səthi proqnozlaşdırılması, mürəkkəb texniki sistemlərin idarə edilməsi üzrə mütəxəssis hazırlığının aşağı səviyyədə olması; texnikanın, maşın və qurğuların fiziki cəhətdən köhnəlməsi və s. sadalanan bu səbəblər texnoloji proseslərlə və istehsalatla eyni dərəcədə əlaqəlidir.

Texnogen faciələr və qəzalar təkcə geniş miqyaslı maddi itkilərlə deyil, eyni zamanda kütləvi şəkildə insan ölümünə səbəb olması baxımından iqtisadi təhlükəsizlik probleminin araşdırlmasında aktual hesab olunur.

Mürəkkəb texniki sistemlərin istismarının təhlükəsizliyini təmin etmək, ağır maddi, iqtisadi, texniki və mənəvi itkilərin qarşısını almaq üçün aşağıdakı məsələlərin həlli vacibdir:

- potensial təhlükəli obyektlərə, texniki sistemlərə, istehsal proseslərinə kompleks nəzarət və yoxlama sistemlərinin işlənib-hazırlanması;
- ixtisaslaşmış müxtəlif dövlət nəzarət xidməti orqanlarının mürəkkəb texniki sistemlərə, onların fəaliyyətinə qarşı vahid tələblər sisteminin işlənib-hazırlanması;
- bütün təsərrüfat-texniki obyektlərlə yanaşı, mürəkkəb texniki sistemlərin fəaliyyətinə vahid, mərkəzləşmiş dövlət nəzarətinin təşkili;
- geniş miqyaslı texnogen faciələrin və qəzaların baş verməsindən əvvəl ən vacib problemlərin aşkara çıxarılması, qəza

vəziyyətinin nəzəri və praktiki olaraq modelləşdirilməsi təcrübəsinə yiyələnmək; dövlət orqanlarının xarici təşkilatlar və firmalarla genişmiqyaslı qəzalar zamanı, eləcə də bu qəzaların qarşısının alınması istiqamətində qarşılıqlı fəaliyyətin və əməkdaşlığın qurulması, təcrübə mübadiləsinin həyata keçirilməsi və s.

İqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən texnogen qəzaların qarşısının alınması bu sahədə ixtisaslaşmış dövlət nəzarəti orqanlarının idarəetmə strukturunun təkmilləşdirilməsi, potensial təhlükəli mürrəkəb texniki sistemlərin və qurğuların, xüsusilə hərbi sahədə, atom sənayesində, kimya istehsalında həyata keçirilən yoxlama-sınaqlar üçün normativlərin, normaların ciddiləşdirilməsi; mürrəkəb texniki sistemlərə xidmət edən mütəxəssislərin attestasiya qaydalarının sərtləşdirilməsi; ölkə iqtisadiyyatı və əhalisi üçün potensial təhlükə mənbəyi olan texniki sistemlərin istismarı üzrə xüsusi qanunların işlənib-hazırlanması.

**«Beyinlərin axını».** Bu amil texnoloji təhlükəsizlik probleminə aid edilsə də, daxili məzmunu və nəticəsi etibarilə iqtisadi təhlükəsizliyin obyektidir. Elmi işçilərin, alimlərin emiqrasiyası böyük maddi və mənəvi itkilərə səbəb olur.

**Ölkənin elmi-texniki potensialının azalması.** Keçid iqtisadiyyatı şəraitində bir çox iqtisadi və sosial sahələr kimi, elmi sahələrdə də böhranlar yaranmışdır. Elmi sahələrə ayrılan maliyyə vəsaitlərinin həcmi kəskin şəkildə aşağı düşmüş, elmi işçilərin sayı azalmış, elmi sahələrin texniki bazası köhnəlmişdir.

Bu gün elmin XX əsr inkişaf səviyyəsi üçün xarakterik olan modelin mühüm cəhətlərindən biri fundamental və tətbiqi elmi sahələrdə prioritet tədqiqat istiqamətlərinin səmərəli mexanizminin yaradılmasıdr. Bütün elm sahələri olmasa da, süni intellektin yaradılması, aviasiya və kosmonavtika sahələri, nüvə fizikası, biotexnologiya, onkoloji xəstəliklər, SPİD-in müalicəsi və digər sahələrdə tətqiqatlara dövlət tərəfindən vəsaitin ayrılması olduqca vacibdir. Bu yöndə innovasiya texnologiyalarının və müasir səmərəli texnikanın və müa-

licə metodlarının yaradılması ölkə iqtisadiyyatında ÜDM-in 25-55%-ədək artmasına kömək edə bilər.

Onu da qeyd edək ki, ölkənin elm sahələri üzrə geniş ixtisaslaşması onun elmi-texniki potensialının inkişafı nöqteyi-nəzərindən iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmlərindən biri kimi çox mühüm rol oynayır.

**Ölkə iqtisadiyyatında xarici portfel investisiyalar**. Portfel investisiyalar likvidlik amili əsasında maksimal gəlir əldə etmənin qısamüddətli strategiyasıdır.

Dünya təcrübəsində qəbul edilmişdir ki, nizamnamə kapitalında transsəhmlərin həcmi 10-20% olduqda, bu portfel adlanır. Bu investisiyaların sahibləri (investorlar) idarəetmə qərarlarına təsir edə bilmirlər.

Ölkədə terror təhlükəsinin olması, ümumiyyətlə terrorizm amili iqtisadi təhlükəsizliyə birbaşa aid olmasa da nəticə etibarilə iqtisadi faciələrə gətirib çıxarır. Bu mənada, iqtisadi təhlükəsizliyə qarşı olan təhdidlərin aradan qaldırılmasında dövlət güc və icra strukturları birgə fəaliyyət göstərməlidirlər.

İqtisadi təhlükəsizliyin təmin olunmasının strateji məqsədləri ölkə vətəndaşlarının inkişafı və həyatları, yaşayışları üçün əlverişli şərait yaratmaq, cəmiyyətdə sosial-iqtisadi və hərbi-siyasi stabilliyi təmin etmək, dövlətin bütövlüyünü, vahidliyini qoruyub saxlamaq, daxili və xarici təhlükələrdən, təsirlərdən qorunmaqdan ibarətdir. Dövlətin iqtisadi təhlükəsizliyin təmin edilməsi sahəsində strategiyası yerli istehsalın, elmi-texniki potensialın səviyyəsinin qaldırılması, əhalinin həyat səviyyəsinin pisləşməsinə yol verməmək, ayrı-ayrı əhali qrupları və əhali təbəqələri, millətlər və xalqlar arasında yarana biləcək münaqişələrin qarşısını almağa doğru yönəlməlidir. Bu strategiya ilk növbədə qanunvericilik, icra və məhkəmə orqanlarının, ictimai və başqa təşkilatların, birliklərin yaratdıqları təhlükəsizlik sistemi vasitəsilə həyata keçirilməlidir.

İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət strategiyası müəyyən məsələlərin həlli bir sıra tələblərin təmin olunması yolu ilə uğurla reallaşa bilər. Birincisi, hökumətin,

icra orqanlarının üzərinə düşən funksiyaları dəqiq müəyyənləşdirmək. İkincisi, dövlətin tənzimləyici funksiyalarının adekvat informasiya təminatı tələb olunur.

İqtisadi təhlükəsizliyin təmin olunması üzrə dövlətin fəaliyyətinin bir sıra mühüm müddəaları hər il dövlət büdcəsinin və dövlətin sosial-iqtisadi inkişaf proqnozları layihələrinin işlənib hazırlanması prosesində həyata keçirilməlidir.

İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin strategiyası aparılan iqtisadi siyasət çərçivəsində işlənib hazırlanır və həyata keçirilir. Bu iqtisadi siyasətin əsas prioritetlərini ölkə vətəndaşlarının sabit iqtisadi vəziyyətinin təmin olunması, cəmiyyətin, dövlətin sosial-iqtisadi stabilliyi, vətəndaşların konstitusion hüquq və azadlıqlarının riayət olunması, dövlət hakimiyyəti orqanları da daxil olmaqla hər bir kəsin qanunlara riayət etmələri, tabe olmaları təşkil edir. Bu məqsədlə, dövlətin iqtisadiyyata az itkilərlə mühüm iqtisadi dəyişiklikləri tənzimləməyə imkan verən, ölkə iqtisadiyyatının təhlükəsizliyini təmin etmək və idarə etmək funksiyasını öz üzərinə götürə bilən etibarlı təsir mexanizmi yaradılmalıdır. Burada iqtisadiyyata təsir dairəsi, sərhədləri, meyarları və şərtləri dəqiq müəyyənləşdirilməli, xüsusilə, iqtisadiyyatda dövlət sektorunun sərhədləri dəqiqləşdirilməli, səmərəli dövlət tənzimləməsi metodlarının inkişafı təmin edilməlidir.

Bu sahədə dövlətin iqtisadi siyasətinə dair bəzi dünya şöhrətli alimlərin fikirləri maraqlıdır. Belə ki, N.Q.Menkyunun fikrincə «... İqtisadi siyasətdə hər hansı dəyişikliklər etmək barədə qərar qəbul etməzdən əvvəl dövlət xadimləri bunun bütün mümkün ola biləcək nəticələrini göz altına almalıdırlar... Siyasətçilər uzunmüddətli dövrdə məcmu tələbə, deməli, istehsalın həcminə və məşğulluğa təsir etmək imkanına malikdirlər. Dövlət kəsirsiz büdcəyə nail olmaq məqsədilə dövlət xərclərini azaldırsa, millət vəkilləri bunun yığım və iqtisadi artım üçün uzunmüddətli, eləcə də məcmu tələb və məşğulluq üçün qısamüddətli nəticələrini nəzərə almalıdırlar. Həmçinin pul təklifinin artım sürətinin azaldılması haqda qərar qəbul edilərkən bu addımın inflyasiyaya

uzunmüddətli, həm də istehsala qısamüddətli təsirini nəzərə almaq vacibdir…» [183, səh. 557].

İqtisadi təhlükəsizliyin strateji məqsədlərinin qoyuluşu və müəyyən edilməsindən onun təmin olunması üzrə müvafiq vəzifələrin və tədbirlərin konkretləşdirilməsi olduqca vacibdir. Bununla əlaqədar olaraq dövlət tərəfindən iqtisadi böhrandan çıxmaq istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər kompleksi iqtisadiyyatın bütün sferalarını əhatə etməlidir və ölkənin iqtisadi təhlükəsizliyinin təminatı kimi çıxış edə bilər. Belə tədbirlər sırasına fəal struktur və sosial siyasətin həyata keçirilməsi, investisiya, maliyyə, pul-kredit və xarici iqtisadi sferada dövlətin fəallığının gücləndirilməsi, intitutsional dəyişikliklərin davam etdirilməsi daxildir.

Struktur siyasəti sahəsində mühüm məsələlərin həlli durur. Makroiqtisadi səviyyəyə aşağıdakı məsələlər daxildir: məcmu tələbin yüksəldilməsi; yığım normalarının artırılması və əlverişli investisiya mühitinin formalaşması; maliyyə və istehsal resurslarının fəaliyyət göstərə bilməyən müəssisələrdən və sektorlardan daha səmərəli istehsal sahələrinə yönəlməsini təmin etmək; ixracın stimullaşdırılması və onun diversifikasiyası; ümumi qaydalar çərçivəsində yerli istehsalın qorunması məqsədilə idxalın tənzimlənməsi. Makroiqtisadi səviyyədə struktur siyasətinin həyata keçirilməsi zamanı iqtisadi cəhətdən səmərəli işləyən müəssisələrin inkişafını stimullaşdırmaq və ona təkan vermək, qeyri-səmərəli fəaliyyət göstərən iqtisadi strukturların ləğvi və ya onların yenidən qurulması, qiymətlərin qalxmasının qarşısını almaq məqsədilə razılaşma proseslərinin təşkili, iqtisadi subyektlərin bazar davranışı normalarının tətbiqi kimi məsələlər ön plana keçir.

Bu iş prosesində aşağıdakılar zəruri hesab edilir:

- «inkişaf nöqtəsini» müəyyən etmək, aşkara çıxarmaq, yəni azad bazarda real ödəməqabiliyyətli tələbin aşkarlanaraq mənimsənilməsini təmin edən layihə və proqramların həyata keçirən müəssisə və təşkilatları müəyyən etmək;

- təsərrüfat sistemində fəaliyyət göstərən müəssisələrin rolu və yerinin müəyyən edilməsi, səmərəsiz işləyən müəssisə-

lərin ləğvi prosesini təşkil etmək, dövlət müəssisələrinin idarə olunmasının səmərəliliyini yüksəltmək;

- dövlət ehtiyaclarını təmin etmək üçün məhsul istehsal edən müəssisələrin (hərbi sifarişlərin yerinə yetirilməsi ilə məşğul olan müdafiə kompleksi müəssisələrinin, nüvə tullantıları emal edən müəssisələrin və s.) siyahısını tərtib etmək;
- iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə qəbul edilənlərə təsir etmək üçün səhm nəzarət paketləri və ya «qəzəl səhmləri» dövlətin adına yazılan təsərrüfat subyektlərini seçmək, ayırmaq;
- iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə dövlət qayğısına, dövlətin köməyinə ehtiyacı olan müəssisələrin konkret siyahısını müəyyən etmək:

İqtisadi təhlükəsizliklə bağlı tələblərin təmin edilməsinin vacib şərtləri elmi və innovasiya, eləcə də istehsal və investisiya xarakterli perspektivi olan layihə və proqramlar sisteminin reallaşdırılması, həyata keçirilməsidir.

Dövlətin həyata keçirdiyi sosial siyasət ölkə vətəndaşlarının yüksək həyat səviyyəsi, sabit iqtisadi vəziyyətləri şəraitində cəmiyyətin konsolidasiyasına uyğun olmalıdır. Onu da qeyd edək ki, əhalinin orta aylıq pul gəlirlərinin artması ilə müşahidə olunan müəyyən müsbət dəyişikliklər pul ödəmələrinin xeyli gecikdirilməsi, müxtəlif sosial-demoqrafik qrupların gəlirlərində differensasi-yanın çoxalması fonunda baş vermişdir. Cəmiyyətdə varlıların və kasıbların əmələ gəlməsi prosesi sosial münaqişələrin yaranmasına real təhlükə yaradan qeyri-stabilləşdirici amil kimi çıxış edir.

İqtisadi siyasətin həyata keçirilməsi cəmiyyətdə qütbləşmənin dərinləşməsinə rəvac verməməli, ona şərait yaratmamalıdır, əksinə, keçid dövrünün çətinliyinin əhalinin müxtəlif sosial qrupları arasında bərabər paylanmasını təmin etməlidir. Ölkəmizdə bu istiqamətdə aparılan tədbirlərin nəticəsində 2000-ci ildən başlayaraq 2006-cı il də daxil olmaqla adambaşına düşən ÜDM istehsalının (cari qiymətlərlə, dollar hesabı ilə) MDB-nin bir sıra aparıcı ölkələri ilə müqayisədə artdığı müşahidə olunur.

Cədvəl 2.1.

**Azərbaycanda adambaşına düşən ÜDM-in indeksinin dinamikası** [7, səh. 654]

| Ölkələr | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| Azərbaycan | 52,6 | 57,3 | 62,9 | 69,3 | 75,7 | 94,7 |
| Rusiya | 110 | 116 | 122 | 131 | 141 | 151 |
| Ukrayna | 45 | 51 | 53 | 59 | 67 | 69 |
| Gürcüstan | 41 | 43 | 46 | 51 | 55 | 59 |
| Özbəkistan | 81 | 84 | 85 | 88 | 94 | 100,1 |

Belə şəraitdə iqtisadi cəhətdən güclü qrupların gəlirlərini tənzimləyə biləcək mexanizm yaratmaq lazımdır. Əmək haqqının əmək məhsuldarlığının yüksəldilməsində stimullaşdırıcı amili kimi funksiyalarını bərpa etmək, cəmiyyətdə sosial gərginliyi yumşaltmaq və bu məsələlərin həllində dövlətin rolunu artırmaq lazımdır. Mülkiyyət formasından və idarəçilik üsulundan asılı olmayaraq müəssisə, təşkilat və idarə rəhbərlərinin əmək haqqının ödənilməsi müddətinin ləngidilməsində maddi cavabdehliyini artırmaq lazımdır.

Ölkənin strateji maraqlarının və elmi-texniki müstəqilliyinin mühüm təminatçısı olan onun elmi-texniki potensialın qorunması və inkişafı üçün zənnimizcə, dövlət elmi-texniki siyasətin ölkənin iqtisadi təhlükəsizliyi məsələləri ilə uzlaşan prioritetlərini müəyyən etməlidir. Fundamental tədqiqatların istiqamətləri üzrə dövlət proqramları işlənib hazırlanmalı, qabaqcıl texnologiyaların yayılmasının dövlət tərəfindən müxtəlif stimullaşdırma formalarından istifadə edərək iqtiSAdiyyatda əlverişli innovasiya mühiti yaratmaq və elmtutumlu rəqabətqabiliyyətli yerli məhsul istehsalçılarını qorumaq lazımdır.

Keçid dövründə investisiya siyasətinin əsas istiqamətləri investisiya fəallığını artırmağa kömək edən əlverişli mühitin formalaşdırılması, respublikamızın iqtisadiyyatının yenidən qurulması istiqamətində yerli və xarici investisiyaların cəlb edilməsidir. Onu da qeyd edək ki, səmərəli investisiya siyasə-

tinin həyata keçirilməsi üçün aşağıdakı prinsiplər yerinə yetirilməlidir;

- investisiya proseslərinin ardıcıl olaraq mərkəzi orqanlardan yerli orqanlara verilməsi, qeyri-mərkəzləşdirilməsi;
- qeyri-inflyasiya yığım mənbələrinin (müəssisənin daxili yığım mənbələri və əhalidən yığımlar) rolunun artırılması;
- investisiya layihələrində birgə dövlət – kommersiya maliyyələşdirməsi təcrübəsinin geniş yayılması;
- istehsal yönümlü investisiya layihələrinə mərkəzləşdirilmiş kapital qoyuluşlarının və dövlət tərəfindən maliyyələşdirmənin müsabiqələr əsasında həyata keçirilməsi, paylanması;
- mərkəzləşdirilmiş (kredit məqsədli) investisiya vəsaitlərinin bir hissəsinin daha səmərəli və qoyulan xərclərin tez qayıtması nöqteyi-nəzərdən əlverişli investisiya layihələrinin və istehsalda struktur-texnoloji yenidənqurmanın sürətləndilməsi məqsədilə mülkiyyət formasından, istehsal sahəsindən, istiqamətindən asılı olmayaraq kiçik biznes obyektlərinin təşkilində istifadə olunması;
- xarici investisiyaların cəlb olunmasını stimullaşdırmaq və s.

Bütün bunlarla yanaşı, iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən xarici investorlar üçün «qapalı» saxlanılmalı müəssisələrin siyahısını müəyyənləşdirmək qarşıda duran mühüm məsələlərdən biridir.

Maliyyə-kredit sisteminin möhkəmləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi olduqca vacibdir. Bununla əlaqədar olaraq, vergi sisteminin səmərəliliyini yüksəltmək, vergilərin sayını azaltmaq və onların yığımını yaxşılaşdırmaq; büdcə kəsirinin qeyri-inflyasiya metodları ilə maliyyələşdirilməsini inkişaf etdirmək; ümumdövlət prioritetlərinə əsaslanaraq maliyyə resurslarının səmərəli bölüşdürülməsi; milli müdafiə məsələləri ilə xərclərin səmərəli sərf olunması diqqət mərkəzində olmalıdır.

Büdcə-vergi islahatlarının əsas istiqamətlərinin müəyyən edilməsi problemlərini araşdıran rus iqtisadçılarının fikrincə, tənzimləyici federal və regional vergilərin sayını minimuma

endirməklə «bir vergi-bir büdcə» prinsipi üzrə büdcə sisteminin müəyyən səviyyəsinə bağlanmış vergilərin sayını artırmaq lazımdır [144, səh. 21].

Azərbaycan Respublikası hələ SSRİ-nin tərkibində olarkən Naxçıvan MR və 11 iqtisadi zonaya bölünmüşdür. Bir sıra elmi-tədqiqat işlərində, xüsusilə də məhsuldar qüvvələrin yerləşdirilməsi sahəsində çalışan alimlər, professorlar R.Məmmədov, S.Hüseynov, M.Tağıyev Azərbaycan Respublikasının 11 iqtisadi zonasının sosial-iqtisadi inkişaf xüsusiyyətlərini araşdırmış və onların inkişaf proqnozlarını əsaslandırmağa səy göstərmişlər [1].

Professor M.Sadıqov elmi əsərlərində respublikamızın 11 iqtisadi zonaya bölgüsünü statistik hesabatların aparılmasında və hər bir zona üçün ayrıca sosial-iqtisadi inkişaf proqramı hazırlanması məsələsi qarşıya çıxanda müəyyən çətinliklərin yarandığını qeyd edir və ölkəni 9 iqtisadi zonaya (Naxçıvan, Abşeron, Qərb, Cənub-Şərq, Cənub, Mərkəzi Aran, Şimal, Şimal-Qərb və Qarabağ) bölünməsini təklif edir. Fikrimizcə, bu cür rayonlaşma iqtisadi zonaların maliyyə və vergi potensialının qiymətləndirilməsi və onların sosial-iqtisadi inkişafının proqnozlaşdırılmasında xüsusi əhəmiyyət kəsb edir [55].

Ölkənin ayrı-ayrı regionlarında normal iqtisadi inkişafı təmin etmək üçün dövlətin və regionların maraqlarının səmərəli kəsişmə strategiyasının işlənib hazırlanması tələb olunur və ölkə ərazisində vahid iqtisadi siyasətin həyata keçirilməsi vacibdir.

Regional siyasətin prioritet vəzifələrinə aşağıdakıları aid etmək olar:

- müdafiə xarakterli müəssisələrin konversiyası yolu ilə ağır sənaye sahələri üstün inkişaf etmiş regionların, bölgələrin iqtisadiyyatının yenidən qurulması;
- azsaylı xalqların dirçəlişi, inkişafı üçün şərait yaratmaq, ekstremal şəraitli rayonlarda iqtisadi tənəzzülün qarşısının alınması;

- bazarın tələblərinə cavab verən məhsulların istehsalı və satışı ilə məşğul olan yeni tipli ərazi-istehsal komplekslərinin formalaşması;

- regionlararası infrastrukturun (nəqliyyat, rabitə, informasiya) inkişafı.

Bu vəzifələrin həyata keçirilməsində dövlətin rolu gücləndirilməlidir. Dövlətin regionların inkişafının tənzimlənməsində əsas iştirak formaları aşağıdakılardır: regionlar üzrə ümumdövlət ehtiyacı üçün məhsul tədavülünə sifarişlərin paylanması; ayrı-ayrı struktur əmələ gətirici investisiya layihələrində iştirak etmə; regionların inkişafına dövlət yardımını həyata keçirmək; regionların iqtisadi tənəzzülünün qarşısını almaq üçün regionların və ümumilikdə respublikanın büdcə sisteminin qarşılıqlı təsiri, əlaqələndirilməsi.

Keçid iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin və regionların iqtisadi müstəqilliyini genişləndirmək, gücləndirmək, müəyyən dövlət nəzarəti mexanizmlərinin təsirinin gücləndirilməsi, vahid xarici ticarət çərçivəsində istiqamətləndirilməsi və əlaqələndirilməsini tələb edilir.

Keçid dövründə xarici iqtisadi fəaliyyət sahəsində iqtisadi təhlükəsizliyi təmin edən mühüm vəzifələr aşağıdakılardır:

- ölkənin iqtisadi maraqları baxımından xarici ticarətin inkişafını tənzimləmək və onun iqtisadi təhlükəsizliyini təmin etmək, respublikamızın iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası şəraitində xarici iqtisadi fəaliyyətin səmərəliliyini artırmaq;

- maşın, avadanlıq və digər yüksək texnologiyalı məhsulların istehsalının genişləndirilməsi hesabına ixrac potensialını inkişaf etdirmək, idxalın əvəz edilmə siyasətini aparmaq;

- xarici bazarlarda yerli ixracatçıların mövqeyinin bərpası və saxlanılması, qorunması məqsədilə onların maraqlarının müdafiə edilməsi;

- daxili bazarda inhisarçılıq mövqeyi tutmayan yerli istehsalçılar haqqında ümumi qəbul edilmiş qaydalar çərçivəsində ağıllı, səmərəli proteksionizm siyasəti aparmaq;

- respublikamız üçün xarici borcların ödənilməsinə əlverişli şəraiti təmin etmək;

- sərbəst konversiya olunan valyutalara nisbətən Azərbaycan manatının kursunun stabilliyinə nail olmaq;

- Azərbaycanın xarici bazarlarla əlaqəsini təmin edən nəqliyyat sisteminin fasiləsiz işini təmin etmək (yəni dəmir yolu və avtomobil nəqliyyatı, magistral qaz və neft kəmərləri, sistemlərarası və regionlararası elektrik ötürülməsi xətləri və s.).

- iqtisadiyyatda cinayətkar ünsürlərə qarşı, iqtisadi fəaliyyət sferasında vətəndaşların hüquqlarının pozulmasına qarşı mübarizəni gücləndirmək lazımdır. İstər respublika, istərsə də ayrı-ayrı regionlar səviyyəsində ölkənin konstitusion quruluşuna, cəmiyyətin sosial stabilliyinə, iqtisadi stabilləyə, müdafiə qabiliyyətinə, dövlətin xarici iqtisadi maraqlarına zərər vura biləcək iqtisadi cinayətkarlıqla bağlı təhlükələri dəf edəcək tədbirlər kompleksinin həyata keçirilməsi vacibdir.

Mühüm əhəmiyyətli, geniş məsələlər iqtisadi idarəetmə səviyyəsində həll edilməlidir. İqtisadiyyatın idarə edilməsi sistemlərinin təkmilləşdirilməsi yerli, regional və ümumrespublika səviyyəli vəzifələrin dəqiq müəyyən edilməsini tələb edir. İqtisadi təhlükəsizliyi qoruyub saxlamaq üçün bütün istiqamətlərdə iqtisadi islahatları sürətləndirmək lazımdır, o cümlədən normativ-hüquqi məkanın yeni idarəetmə institutlarının yaradılması və institusional dəyişikliklərin həyata keçirilməsi; iqtisadi fəaliyyət sferasında yaranmış mübahisələrin və münaqişələrin həlli mexanizmlərinin işlənib hazırlanması; ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması və maraqların qarşılıqlı olaraq nəzərə alınması ilə uzaq və yaxın xarici ölkələrlə iqtisadi və siyasi münasibətləri ahəngar şəkildə inkişaf etdirmək; dövlətin, hakimiyyətin möhkəmləndirilməsi, onun institutlarına inamın artırılması, iqtisadi siyasətin formalaşması və işlənib hazırlanması mexanizmlərinin səmərələşdirilməsi.

Göstərilən vəzifələrin həlli üçün onların həyata keçirilməsi mexanizmləri işlənib hazırlanmalıdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmi – iqtisadi təhlükələrin qarşısının alınması istiqamətində həyata keçirilən təşkilati-iqtisadi və hüquqi tədbirlər sistemidir. Bu sistemə aşağıdakılar daxildir: iqtisadi təhlükəsizliyə qarşı daxili və xarici təhlükələrin aşkar olunması və proqnozlaşdırılması məqsədilə iqtisadiyyatın cəmiyyətin obyektiv və hərtərəfli monitorinqi; qeyri-stabilliyə və sosial münaqişələrə gətirib çıxaran sosial-iqtisadi göstəricilərin yol verilən son hədd qiymətlərinin tərtib edilməsi; iqtisadi təhlükəsizliyə qarşı daxili və xarici qorxu mənbələrinin aşkar olunması və xəbərdar edilməsi üzrə dövlətin fəaliyyəti. Bu elementlərdən bəzilərini xarakterizə edək.

Monitorinq, ölkənin iqtisadi təhlükəsizlik göstəricilərinin dinamikasına informasiya-palitik müşahidə sistemidir. Bu, dünyanın bir çox ölkələrində həyata keçirilir. Lakin bu, Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, respublikamız bazar iqtisadiyyatına keçid şəraitində sahələrarası disproporsiyalar ciddi xarakter almış, maliyyə resurslarının kəskin çatışmazlığı, eləcə də iqtisadi göstəricilərin, xüsusilə maliyyə göstəricilərinin həddindən artıq qeyri-sabitliyi, səbatsızlığı müşahidə edilmişdir. Bununla əlaqədar olaraq dövlət statistikasının rolu, onun obyektivliyi, etibarlığı, müşahidə edilən obyektləri hərtərəfli əhatə etməsi, informasiyanın keyfiyyəti və s. qarşı tələblər yüksəlir.

Təhlükəsizlik üzrə bu və ya digər göstəricilərin hədd qiymətlərini aşması ilə bağlı dəyən ziyanın ödənilməsi ekstremal vəziyyətlərdə istifadə edilə bilən bərpaedici, əvəzləyici ehtiyatların yaradılması zərurətini şərtləndirir. Burada istehsal və qeyri-istehsal təyinatlı maddi ehtiyatların, böhran vəziyyətində olan ərazilərə, bölgələrə maddi resursların daşınması üçün əlavə nəqliyyat imkanlarının, enerji sahəsində ehtiyat güclərin, əhaliyə sosial yardım göstərilməsi məqsədilə istehlak malları ehtiyatının, valyuta ehtiyatının yaradılması nəzərdə tutulur.

İqtisadi təhlükəsizliyini təmin edilməsi mexanizminin mühüm elementlərindən biri də iqtisadi təhlükəsizliyə qarşı daxili və xarici təhdidlərin, yaranacaq qorxunun aşkara çıxarılması və qarşısının alınması üzrə dövlət fəaliyyətidir. Bu fəaliyyətin əsas istiqamətləri aşağıdakılardır:

- iqtisadi inkişafın faktiki yaxud da proqnozlaşdırılan parametrlərinin iqtisadi təhlükəsizliyin hədd qiymətlərindən kənarlaşması hallarının aşkar olunması və ölkənin təhlükədən uzaqlaşdırılması istiqamətində dövlət tərfindən tədbirlər kompleksinin işlənib hazırlanması. İqtisadi təhlükəsizliyi təmin edəcək tədbirlər, mexanizmlər dövlətin sosial-iqtisadi inkişaf proqnozları ilə eyni vaxtda işlənib hazırlanır.
- ölkənin iqtisadi təhlükəsizliyi üçün yaranacaq təhdidlərin qarşısının vaxtında alınması və ya onlara yol verilməməsi məqsədilə tədbirlər kompleksinin həyata keçirilməsi üzrə işlərin təşkili. Bu baxımdan dövlət büdcəsi konsepsiyası iqtisadi təhlükəsizliyin təmin olunması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Dövlət bu istiqamətdə qanunvericilik və digər normatik aktların hazırlanması üzrə işləri istiqamətləndirməli və onlara nəzarəti həyata keçirməlidir;
- ölkənin iqtisadi təhlükəsizliyi nöqteyi-nəzərindən maliyyə və təsərrüfat məsələləri üzrə qəbul edilən qərarların ekspertizası. Qanunverici və digər normativ-hüquqi aktlar iqtisadi təhlükəsizliyin predmeti baxımından ekspertizadan keçməlidir. Bu ekspertizanın keçirilməsi qaydaları Azərbaycan dövləti tərəfindən müəyyənləşdirilməlidir. İqtisadi təhlükəsizliyə qarşı təhdidlərin müəyyən edilməsi istiqamətində tədbirlərin reallaşması onlara ciddi nəzarət sisteminin təşkilini tələb edir.

Bir məsələni qeyd etmək yerinə düşərdi ki, bazar iqtisadiyyatı şəraitində dövlət, makroiqtisadi parametrlərə təsir yolu ilə, struktur dəyişikliklərinin və pul-maliyyə axınını məqsədyönlü tənzimləməklə iqtisadi tənzimləməni həyata keçirir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin nəzəri və praktiki cəhətdən təkmilləşdirilməsi məsələləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasına əsaslanmalıdır.

## 2.3. Makroiqtisadi sabitləşmə prosesində iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətləri

Həyata keçirilən qeyri-düzgün makroiqtisadi siyasət nəticəsində iqtisadiyyatda dezinteqrasiya prosesi dərinləşir. Nəticədə iqtisadi sistem bir-birilə zəif əlaqədə olan iki sferaya ayrılır. Birincisi, kapitalın dövriyyəsi sferasıdır. Buraya qiymətli kağızlar bazarında, valyuta bazarında, həmçinin ticarət sferasında aparılan əməliyyatlar daxildir. Bu sfera yüksək gəlirlilik səviyyəsi və pulun dövriyyəsi sürətilə xarakterizə olunur ki, burada da dövlət tərəfindən qısamüddətli borc bazarı mühafizə olundüğü üçün, bu sferada risklər o qədər də yüksək deyildir. İkincisi, istehsal sferasıdır, yəni maddi istehsal, məişət xidməti, tibbi xidmət, təhsil, nəqliyyat daşımaları və maddi istehsalla əlaqədar olan digər sahələri əhatə edən «real iqtisadi sektor» başa düşülür. Bu sfera isə birincidən fərqli olaraq, aşağı gəlirlilik və pul dövriyyəsi sürətilə, əməliyyatların yüksək riskli olması ilə seçilir. Belə vəziyyət istehsal sferasında təsərrüfat əlaqələrinin xaotikliyi, qırılması, mülkiyyət münasibətlərinin qeyri-müəyyənliyi, tələbin qeyri-sabitliyi (səbatsızlığı), ədalətsiz rəqabət mühitinin və qeyri-əlverişli bazar konyunkturunun olması ilə şərtləşir.

Bu və ya digər dərinliyə və müddətə malik iqtisadi böhranlar istənilən bazar iqtisadiyyatına xasdır. Böhranlar tələb və təklif arasında getdikcə artan uyğunsuzluqda, milli valyutanın dəyərsizləşməsində, həyat dəyərinin, işsizliyin artmasında və s. özünü göstərə bilərlər. Demək olar ki, bütün məşhur iqtisadçılar böhranlar problemlərinə diqqət ayırmışlar. C.M.Keynsin davamçısı Oksford Universitetinin professoru R.Xarrod yazırdı: «Bütün bu mühazirələrin əsasında belə bir fikir durur ki, biz gec və ya tez staqnasiya problemi ilə üzləşməliyik və iqtisadçılar məhz bu problemə öz diqqətlərini daha çox yönəltməli olacaqlar» [171, səh. 57].

Tarazlıq inkişaf vəziyyətində olan balanslaşdırılmış iqtisadi sistemdə kapitalın dövriyyəsi sferası və istehsal sferası hər ikisi təkrar istehsal nöqteyi-nəzərindən qarşılıqlı tamamlayıcı

funksiyanı yerinə yetirirlər. Dövriyyə sferası vasitəsilə əmtəələrin və kapital axınının daimi mübadiləsi həyata keçirilir ki, bu da ictimai təkrar istehsal prosesinin fasiləsizliyini təmin edir. Bu sferalar banklarla, satıcı təşkilatlar, dövlət büdcəsi ilə ayrılmaz, vahid kimi fəaliyyət göstərirlər.

Qeyri-taraz iqtisadi sistemdə isə hər iki sfera bir-birindən ayrılmış, dezinteqrasiya olunmuşlar. Bu sferaların gəlirlik və əməliyyatların cəlbediciliyi nöqteyi-nəzərindən bir-birindən kəskin şəkildə uzaqlaşmaları, fərqlənmələri kapitalın istehsal sferasından dövriyyə sferasına kütləvi və sürətli axınına səbəb olur. Bu vəziyyət istehsal sferası müəssisələrinin ucuz vəsaitlərinin səfərbərliyi əsasında bank sektorunun inkişafına şərait yaradır. Dövriyyə sferasına cəlb olunmuş bu vəsaitlər daha gəlirli mübadilə, spekulyativ əməliyyatlara yönəldilir.

Borc bazarında faiz dərəcəsi istehsal sferasındakı gəlir normasından dəfələrlə yüksək ola bilir. Bu baxımdan kapitalın axını istehsal sferasında döriyyə vəsaitlərinin çatışmazlığına və onların bərpası üzrə xərclərin artmasına, qeyri-ödəmələrdə aktivlərin dondurulmasına və sonda – müəssisənin dağılmasına gətirib çıxarır. Bu proseslərin sürətlənməsi sonda büdcə kəsirinin əsas yaranma səbəbinə çevrilir. İstehsal sferasından dövriyyə sferasına kapitalın axını dövlət büdcəsi vasitəsilə də baş verir. İstehsal sferasından yığılan vergi gəlirlərini toplayaraq, dövlət onları «qısamüddətli dövlət borcları» piramidasının saxlanması üçün yenidən bölüşdürür, kapitalın dövriyyəsi sferasında sabitliyi təmin etmək üçün kommersiya banklarının hesablarında ehtiyat halında toplayır. İstehsal sferasından dövriyyə sferasına kapitalın axını dövriyyə sferasında pul emissiyasının böyük bir hissəsinin toplanması və bunun bilavasitə tələbin həcminə və inflyasiyanın səviyyəsinə təsir göstərməklə dərinləşir.

Bu proseslər milli valyutanın mübadilə kursunun dəfələrlə aşağı düşməsi ilə də güclənir. Nəticədə yerli məhsullara nisbətən ixrac məhsullarına tələbin artması, «ixraca tələbin yüksəlməsi – xarici valyutaya tələbatın artması – pul vəsaitlərinin valyuta bazarına axını – milli valyutanın mübadilə

kursunun aşağı düşməsi – qiymətlərin artımı» konturu üzrə dövriyyə sferasının makroiqtisadi zəncirini qapayır. Milli valyutanın kursunun süni olaraq saxlanılması, tənzimlənməsi kapitalın idxal məhsulları ilə ticarət sferasına istehsal sferasından axınına əlavə olaraq güclü təzyiq göstərərək, yuxarıda göstərdiyimiz kontur üzrə kapital dövriyyəsini ləngidir.

Kapitalın dövriyyə sferasına axını müəssisələrin vəsaitlərinin azalmasına səbəb olur. Həmçinin, likvidlik böhranı, milli valyutanın real kursunun artması nəticəsində müəssisələrin maliyyə vəziyyəti pisləşir.

Pul kütləsinin dövriyyə sferasına cəlb edilməsi onun təbii olaraq artmasına təsir göstərir ki, bu da sövdələşmə sektorunda yüksək elastik tələbi şərtləndirir. Dövriyyəyə əlavə olaraq pul kütləsinin buraxılması, yəni əlavə olaraq emissiya olunmuş pul kütləsi dövriyyə sferasında tələbi (o cümlədən xarici valyutaya olan tələbi) artıraraq bu sferaya doğru yönəlir.

İstehsal sferasında pul vəsaitlərinə tələbin artımı təklifə nisbətən aşağıdır. Pul kütləsinin artımından asılı olaraq qiymətlərin qalxması ilə bağlı hesabatlar istehsal sferasında pula olan tələbin vəziyyətini praktiki olaraq əks etdirmir. Bu hesablamalar istehsal sferasından dövriyyə sferasına kapitalın axınına da həssas deyildir. Bu axın emissiya göstəricilərindən əks olunmayaraq tələbin artmasına, deməli, dövriyyə sferasında qiymətlərin qalxmasına əhəmiyyətli təsir göstərir. Bu artım ticarət sferasında əmtəə və xidmətlərin, həmçinin valyuta əməliyyatlarının bahalaşmasına səbəb olur ki, bilavasitə istehlak qiymətlərinin artımı baş verir. Eyni zamanda kapitalın istehsal sferasından dövriyyə sferasına bu cür axını pulun dövriyyə sürətini də artırır.

Dövlətin həyata keçirdiyi monetar siyasətdə pul kütləsinin istehsal sferasından dövriyyə sferasına axını, istehsal sferasında pul kütləsinə olan tələblə bağlı əhəmiyyətli reallıqların nəzərə alınmaması nəticəsində pul dövriyyəsinin vəziyyəti və aparılan bu siyasətin prioritetləri arasında uyğunsuzluq yaranır. Bu hal infliyasiya ilə bağlı proqnozlaşdırmada da kobud səhvlərə yol verilməsinə şərait yaradır.

Lakin nə Rusiyada, nə də Azərbaycanda bu gözlənilən nəticələri vermədi. Belə ki, akademik D.Lvovun qeyd etdiyi kimi, «İslahatçılarımız bütün bəlalardan yaxa qurtarmaq yolunu monetarizmdə – makroiqtisadi təhlil və menecment üzrə mütəxəssislərin hazırlığı kurslarında əsas mövqe tutan, Qərbdə geniş yayılmış nəzəri konsepsiyada – görürlər. Buna görə də onlar son illər aktiv inkişaf edən iqtisadi fikrin təkamül nəzəriyyəsi, təşkilati nəzəriyyə, institusionalizm və s. kimi istiqamətlərindən yan keçmişdirlər. Onlar monetarizmin müddəalarını Rusiyaya gətirən özünəməxsus bir vasitəçilər oldular və bu müddəaların ölkə şəraitində heç olmasa sadə təcrübi yoxlanılmasının zəruriliyi haqda düşünmədilər. Bu siyasətin təhrik etdiyi istehsalın tənəzzülü, iqtisadi səmərəliliyin azalması, ölkənin istehsal potensialının dağılmasının əmin-amanlıq (müharibəsiz) dövründə iqtisadi tarixdə analoqu yoxdur. Bu siyasətin müəlliflərinin proqnozlarından heç biri özünü doğrultmadı…» [117, səh. 90].

Makroiqtisadi siyasətdə bu cəhətlərin nəzərə alınmaması onun həddindən artıq formal xarakter daşıması və onun pul emissiyası və pul kütləsinin həcminə antiinflyasiya nəzarəti kimi qələmə verilən monetor siyasət səviyyəsinə endirilməsi səbəbindən irəli gəlir. Bu cür yanaşma makroiqtisadi siyasətin obyektini kapitalın dövriyyəsi sferası ilə məhdudlaşdırır. Məhz monetor tənzimləmə faktiki olaraq «pulun emissiyası – kapital dövriyyəsi bazarında onun təklifinin artması – xarici valyutaya olan tələbin yüksəlməsi – milli valyutanın mübadilə kursunun azalması – qiymətlərin qalxması» konturu ilə məhdudlaşır. Bu kontur çərçivəsində «pulun emissiyası – qiymətlərin qalxması» asılılığını zəiflətmək cəhdi də nəzərdə tutulur. Burada valyuta sövdələşmələrinin cəlbediciliyini azaltmaq və alternativ yüksək gəlirli sferaların saxlanılması kimi müxtəlif tədbirlər də həyata keçirilir. Bu məsələlərin həllində əsas tənzimləyici vasitə pulun emissiyasını azaltmaq və onu real ifadədə məcmu pul təklifinin azalmasını təmin edən səviyyədə saxlamaqdır. Aparılan bu makroiqtisadi siyasətin qanunauyğun nəticəsi iqtisadiyyatda pul kütləsinin səviyyəsini

kapitalın dövriyyəsi sferasında pulun hərəkətinə nəzarəti təmin edə biləcək həddədək ardıcıl olaraq azaltmaqdan ibarətdir.

Onu da qeyd edək ki, real pul kütləsinin həcminin azaldılması, əlavə tədbirlər həyata keçirməklə pul emissiyasının məhdudlaşdırılması inflyasiyanın səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə gətirib çıxara bilir. Pul kütləsinin həcminin azaldılaraq kapital dövriyyəsi sferasının və əhalinin nəğd pula olan tələblərinə uyğunlaşdırılması ilə makroiqtisadi tənzimləmə vasitəsilə antiinflyasiya məqsədlərinə nail olmağa imkan verir.

İstehsal sferasından kapital dövriyyəsi sferasına geniş miqyaslı pul axını nəticəsində sənayedə, real iqtisadi sektorda rentabellik, gəlir səviyyəsinin azalması, zərərlə işləyən qeyri-ödəmə qabiliyyətli müəssisələrin sayının artması, işsizliyin səviyyəsinin yüksəlməsi və əhalinin gəlirlərinin azalması ilə nəticələnir.

İstehsal sferasında maliyyə vəziyyətinin pisləşməsi və oradan dövriyyə sferasına kapital axınının imkanlarının tükənməsi bank sistemində böhranların kəskinləşməsilə daha da güclənir, dərinləşir. Bu prosesin qarşısının tədricən alınması yeni şəraitə uyğunlaşa bilməyən və kapital axını fonunda formalaşmış bankların fəaliyyətini dayandırmaları ilə nəticələnir.

Nəzərə alınsa ki, istehsal sferasında pulun dövriyyə sürəti sövdələşmə (dövriyyə) sferasında olduğundan iki dəfə aşağıdır, əmtəə istehsalı və dövriyyə sferası arasında MDM həcmi bərabər şəkildə paylanırsa, o zaman demək olar ki, istehsal sferasında pul resurslarına olan tələb bütün pul kütləsi həcminin 85%-ni təşkil edəcək. İstehsal sferasında pul vəsaitlərinin çatışmazlığı şəraitində müəssisələrdə həyata keçirilən vaxtı ötmüş borclarla aparılan əməliyyatlar bu sferada pul dövriyyəsinin əsas formasına çevrilir, qeyri-ödəmələrin həcmi isə göndərilmiş məhsulların dəyərini ötüb keçir. İstehsal sferasında pul çatışmazlığı müəssisələrin vaxtı keçmiş borcları, müxtəlif təşkilatların veksellərі, həmçinin barter sövdələşmələri ilə əvəz edilir.

Pul dövriyyəsi üzərində mərkəzləşdirilmiş nəzarətin olmaması iqtisadiyyatın müxtəlif sferaları üzrə pul dövriyyəsinin dəqiq proporsiyalarını müəyyən etmək çətinləşir. Aparılan qeyri-düzgün makroiqtisadi siyasət istehsal sferasının «pulsuzlaşması», real pul kütləsi həcminin məhdudlaşması, pul surroqatlarının və milli valyutanın həcminin adekvat olaraq artması ilə nəticələnir. Bu kontekstdə investisiya fəallığının aşağı düşməsi, maddi istehsalın həcminin azalması, istehsal müəssisələrinin dağılması sonda ölkənin milli, iqtisadi təhlükəsizliyi üçün ciddi qorxu mənbəyinə çevrilir.

İqtisadiyyatın yuxarıda haqqında geniş danışdığımız sferalara dezinteqrasiyası bu sferaların özlərinin də daxilində parçalanmaya səbəb olur. Bu mənada, kapital dövriyyəsi sferasında kifayət qədər avtonom fəaliyyət göstərən dövlət borc bazarı, valyuta bazarı, korporativ qiymətli kağızlar bazarı kimi seqmentlər fəaliyyət göstərir.

Kapital dövriyyəsi sferasında dövlət pul dövriyyəsini tənzimləmək üçün birinci seqmentdə (dövlətin borc bazarı seqmenti) yüksək gəlirlilik səviyyəsini saxlamalıdır. Bu seqment vasitəsilə makroiqtisadi siyasətin parametrləri müəyyənləşdirilir və ona nəzarət həyata keçirilir. Belə nəzarət rejimi həmin seqmentdə aparılan əməliyyatların gəlirlilik səviyyəsini digər seqmentlərə nisbətən sistematik şəkildə artırmağı tələb edir ki, bu da dövlət qısamüddətli istiqrazların gəlirlik siyasətinin prioritetlərini əvvəlcədən müəyyənləşdirir. Baxmayaraq ki, bu siyasət vergiödəyicilərinin ödədikləri vergilər hesabına faiz stavkalarının süni şəkildə artması dövlət büdcəsinin dağılması, istehsal sferasında likvidlik böhranının dərinləşməsi, vergiödəyicilərinin, ilk növbədə istehsal sferasında olan vergiödəyicilərinin müfsisləşməsi ilə nəticələnir, lakin onun həyata keçirilməsi kapitalın dövriyyəsi sferasında və bütövlükdə iqtisadiyyatda pul axınını (milli valyuta ilə) tənzimləməyə imkan verir. Bunun vasitəsilə, pul dövriyyəsinin idarə olunması illüziyası yaradılır, pul siyasəti və inflyasiyanın planlaşdırılan parametrləri formal olaraq saxlanılır. Bu siyasət pul resurslarının istehsal sferasından çıxardılaraq dövlətin

borc bazarında toplanmasına və bu sferada investisiya fəallığının təcrid olunmasına, məhdudlaşmasına gətirib çıxarır.

1995-ci ildən başlayaraq Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar oldu və bu da uzunmüddətli iqtisadi siyasətin həyata keçirilməsinə zəmin yaratdı.

Ölkədə reabilitasiya xarakterli islahatlar həyata keçirilməyə başladı. Makroiqtisadi sabitliyin reallaşmasında pul-kredit siyasətini həyata keçirməli olan Milli Bank mühüm rol oynamalı idi. Bu məqsədlə Milli Bank tərəfindən yeni tələblərə cavab verən monetar tənzimləmə həyata keçirilməyə başladı və pul-kredit siyasəti sahəsində ilk addımlar atıldı [54]. Kapital dövriyyəsi sferasında olduğu kimi, istehsal sferasında dezinteqrasiya proseslərinin güclənməsi, daxili gəlir norması və ödəməqabiliyyətli tələbin sabitliyindən asılı olaraq maddi istehsalın müxtəlif qruplara ayrılması prosesi baş verir.

Birinci qrupa daxil olan istehsal sahələri sabit ödəməqabiliyyətli tələb və normal gəlir səviyyəsi ilə fərqlənirlər. Buraya neft-qaz, kimya və metallurgiya sənayesi sahələri daxildir ki, onların məhsullarının əksər hissəsi ixrac olunur. Bu isə həmin müəssisələrə nisbətən yüksək gəlir əldə etmək, vaxtında vəsaitlərin qaytarılmasını təmin etmək və dövriyyə vəsaitlərini maliyyələşdirmək üçün xaricdən nisbətən ucuz kredit vəsaitlərini cəlb etmək imkanı verir. Belə vəziyyət həmin müəssisələrə investisiya layihələrini maliyyələşdirmək üçün lazımi həcmdə şəxsi yığım vəsaitlərini və kreditlərini yönəltmək, səfərbər etmək imkanı verir.

İkinci qrup müəssisələr öz sadə təkrar istehsal səviyyəsini təmin edə biləcək həcmdə gəlir norması və onların məhsullarına bu və ya digər həcmdə ödəməqabiliyyətli tələbin olması ilə xarakterizə olunurlar. Onlar birinci qrup müəssisələrin məhsullarına tələbatın səviyyəsi ilə seçilirlər. Buraya istehlak təyinatlı rəqabətqabiliyyətli məhsul istehsal edən azsaylı müəssisələr də aiddir.

Üçüncü qrupa aşağı rentabelli və gəlir səviyyəsi ilə seçilən və rəqabətqabiliyyəti olmayan məhsul istehsal edən

müəssisələr daxildir. Bu qrupa kənd təsərrüfatı, yüngül sənaye, nəqliyyat və maşınqayırma müəssisələri aiddir.

Birinci qrup müəssisələr əsasən xarici valyuta və yüksək likvidli veksellərlə işləyirlər. İkinci qrup müəssisələrin dövriyyəsi qarşılıqlı hesablaşmalar, barter əməliyyatları və nisbətən likvidli veksellərlə təmin edilir. Üçüncü qrup müəssisələrin dövriyyəsində büdcə subsidiyaları, qeyri-ödəmələr, aşağı likvidli pul surroqatları üstünlük təşkil edir. Bu qrupa daxil olan müəssisələr öz fəaliyyətlərini tam dayandırmamaq üçün («sağ qalmaq üçün») binaların müəyyən sahələrinə icarəyə verərək, qiymətli kağızlar əldə etmək üçün vəsait toplayaraq, anbar təsərrüfatını təşkil edib inkişaf etdirərək dövriyyə sferasında əməliyyatları inkişaf etdirərək, başqa istiqamətlərdə də işlərini qurtarmağa çalışırlar. Yaranmış belə şəraitdə bu müəssisələrin fəaliyyətinə kömək məqsədilə dövlət tərəfindən ayrılan subsidiyaların əksər hissəsi dövriyyə sferasına yönəldilir ki, bu da dövlət xərclərinin mahiyyətini heçə endirir.

Ümumiyyətlə, həyata keçirilən monetar siyasət o zaman səmərəli hesab oluna bilər ki, istehsal sferası və kapitalın dövriyyəsi sferasının inteqrasiya olunmuş, qarşılıqlı fəaliyyəti təmin edilə bilsin. Burada dövriyyə sferası istehsalın müxtəlif seqmentləri arasında kapital axınını, daha səmərəli texnologiya və fəaliyyət sferaları istiqamətində resursların yenidən bölüşdürülməsini təmin etməlidir. Əgər bu belə olmasa, o zaman monetar metodlar xalq təsərrüfatında dezinteqrasiyanı dərinləşdirərək, istehsal sferasının tənəzzülünə, dağılmasına səbəb olur. Belə şəraitdə makroiqtisadi siyasəti bu cür Monetar metodlarla məhdudlaşdırmaq yolverilməzdir.

Müasir şəraitdə normal iqtisadi inkişafı təmin edəcək makroiqtisadi siyasət minimum iki fundamental məqsədə xidmət etməlidir. Birincisi, istehsal sferasının, o cümlədən onun kapital dövriyyəsi sferasına pul vəsaitlərinin axınından dağılmaq təhlükəsi qarşısında olan seqmentlərinin inkişafını və canlanmasını təmin etmək. İkincisi, istehsal sferası və kapitalın dövriyyəsi sferası arasında, eyni zamanda onların da-

xilində olan maneələri aradan qaldıraraq inteqrasiyanı təmin etmək. Bu məsələlərin həll edilməsi makroiqtisadi siyasətin istənilən metodlarının uğursuzluğa düçar olmasını labüdləşdirəcək.

Hər bir ölkədə normal siyasi və iqtisadi şəraitin təmin edilməsi normal investisiya mühitinin yaradılmasının əsas şərtlərindən biridir. Əks vəziyyət ölkədə investisiya fəallığının aşağı düşməsi, investisiya böhranının dərinləşməsi, istehsalatda struktur-texnoloji dəyişikliklərin həyata keçirilməsini ləngidir.

İnvestisiyaya olan tələb bazar iqtisadi sistemi şəraitində yeni mülkiyyət münasibətlərinin formalaşması, şəxsi mülkiyyətçiliyin inkişafı, şəxsi müəssisələrin sayının artması ilə daha da inkişaf edir. Yeni iqtisadi sistemə keçid mərhələsində, iqtisadi dəyişikliklərin baş verdiyi məqamda əsas, başlıca məsələ, problem ölkədə daxili yığım imkanlarının həddindən artıq məhdudluğu və şəxsi investorların investisiya fəallığının azalmasını aradan qaldırmaq üçün zəruri həcmdə kapital qoyuluşlarının çatışmazlığını tam kompensasiya etmək imkanlarının olmamasıdır. Dövlət tərəfindən investisiyaların həcminin də kəskin azalması investisiya bazarında vəziyyəti gərginləşdirən əsas amilə çevrilir.

İqtisadiyyatı inkişaf etdirmək, yüksək iqtisadi artım tempinə nail olmaq üçün iqtisadiyyata yatırılan investisiyaların həcmi artırılaraq ÜDM-in minimum 25-30%-ni təşkil etməlidir. Bu hədd qiymətlərindən biri kimi qəbul edilə bilər. Yalnız bu yolla istehsal güclərinin tam qüvvəsilə işini təmin etmək və geniş təkrar istehsal prosesi üçün şərait yaratmaq olar. İnkişaf etmiş ölkələrdə bu göstərici 40%-ə çatır. Lakin bəzi ölkələr üçün bu problemin həlli ÜDM-də yığımın payını onun istehlak olunan hissəsinin azaldılması hesabına artırmaq məcburiyyəti ilə üzləşdiyi halda mümkün olursa, əhalisinin 30-40%-i, (hətta 50%-ə qədəri də) yoxsulluq həddində yaşayan dövlətlər üçün bu bir o qədər də real görünə bilməz.

Təcrübə göstərir ki, mülkiyyət münasibətlərindən asılı olmayaraq müəssisələrin yalnız yarısı öz gəlirlərindən fərdi

istehsallarını inkişaf etdirmək istiqamətində yönəldirlər. Yerdə qalan müəssisələr əldə etdikləri gəlirlərdən işçilərinin əmək haqlarını artırmaq, dövlət qiymətli kağızlarının yığımını tələb olunan formada, səviyyədə saxlamaq məqsədilə istifadə etməyə üstünlük verirlər. Qeyri-sabit iqtisadi şəraitdə şəxsi investorlar öz maliyyə ehtiyatlarını istehsalın inkişafına yönəltməkdən ehtiyatlanaraq, çox vaxt investisiya layihələrində iştirak etmələri üçün dövlət təminatı tələb edirlər. Fikrimizcə, burada daha etibarlı təminat dövlətin və şəxsi investorların investisiya layihələrində birgə iştirak etmələri olardı. Bu, dövlət investisiya proqramlarının reallaşmasına şəxsi kapitalın mütləq cəlb edilməsi prinsipi kimi çıxış edə bilər.

Lakin burada başqa bir yol kommersiya strukturları tərəfindən hazırlanmış investisiya layihələrinin müəyyənləşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsaitin ayrılmasıdır. Lakin dövlətin bu layihələrdə iştirakı müəyyən bir səviyyəyədək tənzimlənir. Bu istiqamətdə dövlətin apardığı siyasətin istehsala səmərəli kapital qoyuluşu prinsipləri və strateji maraqlarından irəli gələn tələblərə bir sıra uyğunsuzluğu, tam vacib verməməsi kapital qoyuluşu bazarında vəziyyəti sabitsizləşdirərək, şəxsi investorların dövlətə qarşı inamsızlığına səbəb ola bilər. Aparılan büdcə siyasəti ilə iqtisadiyyatın böhrandan çıxarılması istiqamətində ən mühüm investisiya vəzifələrinin həlli imkanları arasında uyğunsuzluq yaranır.

Ölkədə texnoloji innovasiyalara ayrılan xərclərin xeyli hissəsi kapital qoyuluşlarının həcmi ilə müəyyən edilir. Bu məsələlər sırasına fəaliyyətdə olan, mövcud müəssisələrin yenidən qurulmasına kapital qoyuluşları, elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın təkmilləşdirilməsi və onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə əlaqədar yeni obyektlərin, sexlərin, həmçinin müəssisələrin yaradılmasına kapital qoyuluşları aiddir. İstehsal təyinatlı kapital qoyuluşlarının demək olar ki, yarısı mövcud müəssisələrin yenidən qurulması və texniki-texnoloji silahlanması məqsədlərinə yönəldilir. Lakin bu, investisiyaların həcminin azalması amili nəzərə alınarsa, istehsalın kütləvi şəkildə yenidən

silahlanması üçün kifayət deyildir. Göstərilən istiqamətdə innovasiya məqsədli kapital qoyuluşlarından istifadə edən sənaye nəhənglərinə əlvan və qara metallurgiya sahələri aiddir.

İnnovasiya xərcləri arasında elmi tədqiqatlara və araşdırmalara ayrılan vəsaitlər nisbətən çoxluq təşkil edir. Ümumi innovasiya xərclərinə texnologiyanın alınması, marketinq tədqiqatları mütəxəssis hazırlığı (heyətin təlimi və hazırlığı), istehsalın texnologi hazırlığı və digər cari xərclər aiddir. Onu da qeyd edək ki, innovasiya sferasında elmi tədqiqat və eksperimental bazanın inkişafı üçün ayrılan kvota, məbləğ hədd qiyməti göstəricisidir.

Elmi-texniki sahələrin inkişafı və elmi-texnika sahəsində xidmətlərin idxal və ixracı göstəricisi də innovasiya sferasında növbəti hədd qiymətlərindəndir.

Ölkədə olan mürəkkəb sosial-iqtisadi vəziyyət elmi-texniki sferanın maliyyə vəziyyətinə mənfi təsir göstərir. Müəssisələrin innovasiya sferasında passivliyi elmi sahələrin təminatında əsas yükün dövlət büdcəsi üzərinə düşməsinə səbəb olur. Bu sahələrə ayrılan maliyyə vəsaitlərinin azalması elmi müəssisələrin böhran vəziyyətinə səbəb olur. İnkişaf etmiş ölkələrdə elmi sahələrə ayrılan maliyyə vəsaitlərinin ÜDM-də payı 1996-cı ildə Yaponiyada 3%, Almaniyada–2,8%, ABŞ-da–2,75%, İsveçdə–2,6%, Fransada–2,4% olmuşdur. Aparıcı ölkələrdə burada dövlətin payı ÜDM-in 1%-nə yaxın, yaxud da ümumi məbləğin üçbə biri həcmində olmuşdur. Dünya təcrübəsi göstərir ki, elmi-texniki kompleks kömək üçün ayrılan vəsait ÜDM-in 1%-dən az olmamalıdır, əks halda elmi-texniki potensialın dağılması baş verir. Bu göstərici innovasiya sferasında növbəti hədd qiymətidir.

İnnovasiya fəallığının səviyyəsi və innovasiyanın strukturu innovasiya tsikllərinin fazalarına görə fərqlənirlər. Bu tsikllər ortamüddətli, uzunmüddətli və həddindən artıq uzunmüddətli olur. İnnovasiya dalğasının pik səviyyəsi iqtisadiyyatın canlanma fazasında müşahidə edilir. Böhran və tənəzzül şəraitində innovasiya fəallığı kəskin şəkildə aşağı düşür – bu zaman yalançı innovasiya geniş yayılır. Yeni texno-

logiyanın formalaşması və xüsusilə, yeni texnoloji istehsal üsuluna keçid şəraitində bu dalğa daha çox müşahidə edilir.

Göstərməliyik ki, müəyyən dövr ərzində ÜDM-in sahə strukturuna diqqət yetirdikdə aydın olur ki, həmin sahələrə yönəldilən investisiyalar və oradakı innovasiya mühiti bütövlükdə iqtisadi fəallığı əks etdirir. Başqa sözlə, innovasiya fəallığına olan marağın artması nəticə etibarilə sahələr üzrə iqtisadi artıma olan marağın olması deməkdir.

**Cədvəl 2.2.**

**Ümumi Daxili Məhsulda qeyri-dövlət bölməsinin payı, faizlə [7, səh. 324]**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 30,3 | 70,8 | 71,8 | 73,0 | 73,3 | 73,5 | 77,8 | 81,0 |
| o cümlədən: | | | | | | | | |
| Sənaye | 5,5 | 48,4 | 51,2 | 61,0 | 66,7 | 68,5 | 84,5 | 87,3 |
| Tikinti | 79,0 | 63,5 | 60,4 | 95,8 | 97,0 | 97,6 | 90,4 | 69,7 |
| Kənd təsərrüfatı | 61,5 | 99,0 | 99,0 | 98,0 | 99,3 | 98,4 | 97,8 | 98,9 |
| Ticarət və restoranlar | 82,4 | 98,3 | 98,4 | 98,9 | 98,5 | 97,8 | 97,8 | 98,6 |
| Nəqliyyat | 4,6 | 62,6 | 63,6 | 60,3 | 36,7 | 42,1 | 37,5 | 63,5 |
| Rabitə | 10,0 | 57,8 | 62,8 | 71,4 | 90,9 | 81,7 | 80,2 | 74,8 |
| Sosial və sair xidmətlər | 24,1 | 78,8 | 84,2 | 59,0 | 52,0 | 47,7 | 33,5 | 32,7 |

İnnovasiya tsiklləri elmi tsikllərlə, istehsal tsikllərilə ayrılmaz şəkildə əlaqəlidir. Birincilərə elmi kəşflərin, ixtiraların reallaşması, ikincidə isə iqtisadi artım tempindəki və istehsalın səmərəliliyi ilə bağlı dəyişmələr, artıb-azalmalar nəzərdə tutulur. İnnovasiya fəallığına maraq oyadan mexanizm elmi-texniki tərəqqinin müxtəlif fazaları üzrə əmtəələrin rəqabətqabiliyyətliliyi və rentabelliyinin dəyişməsidir. Elmi yenilikləri, yeni texnologiyaları birinci olaraq mənimsəyən sahibkarlar xərclərin ilk artımından sonra bazara daha keyfiyyətli məhsullar çıxara və daha az məsrəflərlə məhsul istehsalına nail ola bilirlər. Texniki tərəqqinin səviyyəsi ilə ayaqlaşmayan sahibkarlar isə köhnəlmiş texnologiya ilə məh-

sul istehsal edərək, bazarda itkilərlə üzləşir. Onların fəaliyyətlərində baş verən differensial elmi-texniki itkilər nəticəsində bu müəssisələr dağılır, yaxud da həmin müəssisələrin sahibləri innovasiyanın tətbiqi məcburiyyətində qalırlar.

İnnovasiyanın reallaşması müxtəlif fazalar üzrə miqyası və risklik dərəcəsi fərqli olan investisiyaların köməyilə həyata keçirilir. Böhrandan çıxış dövründə, geniş miqyaslı iqtisadi canlanma şəraitində müəssisələr tərəfindən bazis innovasiya mənimsənilir. Bu, yeni texniki və texnologiyanın mənimsənilməsi, yeni müəssisələrin tikilməsi yaxud mövcud müəssisələrin texniki cəhətdən yenidən qurulması üçün uzunmüddətli, nəhəng, olduqca riskli investisiya layihələrinin reallaşmasını tələb edir. Bu istiqamətdə dövlət iqtisadiyyatın tərəqqisi və onun rəqabətqabiliyyətliyinin yüksəlməsi üçün birbaşa, yaxud da dolayısı ilə bu layihələrə yardım göstərir.

Nisbətən yüksəlmiş və sabit iqtisadi inkişaf fazasında o qədər də yüksək riskli olmayan, kiçik investisiyalarla əlaqəli təkmilləşdirilmiş innovasiyalara üstünlük verilir. Bu zaman innovasiya investisiya proseslərinə dövlət yardımı azalır və onlar rəqabət əsasında həyata keçirilirlər.

Böhran fazasında dövlət yardımı və əhəmiyyətli səviyyədə investisiyalar tələb etməyən mikro-innovasiyalar üstünlük təşkil edir. Köhnəlmiş texnika və texnologiyanın təkmilləşdirilməsi cəhdi yalançı innovasiyanın yayılmasına şərait yaradır ki, bu da elmi-texniki itkilərin miqyasının genişlənməsi və sənayecə inkişaf etmiş ölkələrdən geri qalmanın mühüm amilinə çevrilir və bununla nəticələnir. Yalançı innovasiya keçmiş SSRİ-də 80-cı illərdə baş vermişdir. Nəticədə yeni texnika növlərinin, nəsillərinin maşınqayırma məhsullarının ümumi həcmindəki payı azalmışdır.

Böhran fazasında innovasiya-investisiya fəallığı olduqca aşağı olur, fazanın sonunda tənəzzülün inkişafı başlayır, bazis innovasiyadan istifadə etməklə əsas kapitalın kütləvi təzələnməsi fazasında ən yüksək pik vəziyyətinə çatır, təkmilləşdirilmiş innovasiya şəraitində yetişkənlik fazasında stabilləşir və sonra kəskin şəkildə azalır.

İnnovasiya və investisiyanın proqnozlaşdırılması uzunmüddətli perspektiv proqnoz və konsepsiyaların işlənib-hazırlanmasının tərkib hissəsidir. İnnovasiya-investisiya fəallığı proqramı bir neçə mərhələdə işlənib-hazırlanır: sahələrarası komplekslər, regionlar, sahibkarlıq fəaliyyəti səviyyələri üzrə (kiçik biznesin ayrılması şərtilə), həmçinin əsas parametrlər üzrə oxşar proqnozlar.

Yerli müəssisələr investisiyaların aşağıdakı maliyyələşdirilməsi mənbələrindən istifadə edə bilərlər:

- investisiya əməkdaşlığının müxtəlif formaları;
- səhmlərin buraxılışı və satışı;
- müxtəlif nazirliklərin investisiya müsabiqələrində iştirakı;
- güzəştli dövlət kreditləri;
- xarici banklar tərəfindən istehsalın yenidən qurulması üçün ayrılan kreditlər;
- səmərəli investisiya layihələrinin reallaşmasından əldə edilən gəlirlər hesabına öz-özünü maliyyələşdirmə.

Xarici şirkətlər yerli müəssisələri daxili bazardan çıxarırsa, bunun nəticəsində ölkədə investisiyaları özü maliyyələşdirə bilən müəssisələrin sayı da azalır. İnvestisiyaların maliyyələşdirilməsinin yuxarıda göstərdiyimiz mənbələri müəssisələrin yeni fəaliyyət formalarının məzmununa daxildir və durğunluq, böhranlar şəraitində, müəssisələrin qeyri-ödəmələrinin artması nəticəsində bu formaların yerli müəssisələr tərəfindən mənimsənilməsi çətinləşir.

Elmi ideyaların, elmi işlərin, innovasiya ideyalarının reallaşması bazar iqtisadi sisteminə xas prioritet məsələlərdəndir.

İnvestisiya fəaliyyətinin tənzimlənməsi dövlətin iqtisadi siyasət strategiyası çərçivəsində həyata keçirilməlidir.Burada əsas tənzimləyici alət ayrı-ayrı iqtisadi sferalar və regionlar, bütövlüklə ölkə iqtisadiyyatının prioritet inkişaf istiqamətlərinə yönəlmiş investisiya proqramları və layihələri olmalıdır. Bu məsələlərin həlli birinci olaraq, sabit struktur dəyişikliklərinin təmin edilməsi, ikinci isə dövlət və şəxsi müəssisələrin

investisiya fəaliyyətlərinin iş mexanizmini və özünütənzimləməsini müəyyən iqtisadi vasitələrdən uyğun şəkildə istifadə etməklə əlaqədardır. Burada qarşılıqlı əlaqəli iqtisadi-təşkilati tədbirlər həyata keçirmək vacibdir. Keçid iqtisadiyyatı şəraitində müxtəlif iqtisadi sfera və regionlar üçün prioritet investisiya istiqamətlərinin əsaslandırılmasında yeni texniki-iqtisadi metodların işlənib-hazırlanması çətin olsa da, həlli vacib məsələdir. Bu metodlar bazar iqtisadiyyatı konsepsiyaları ilə ziddiyyət təşkil etməməlidir.

Mühüm məsələlərdən biri də investisiya layihələrinin iqtisadi cəhətdən tənzimlənməsində dövlətin iştirak payının müəyyən edilməsidir. İnvestisiya siyasətinin reallaşmasında dövlətin ikili funksiya daşıması əsas təşkil edir. Bir tərəfdən dövlət müvafiq qanunverici bazanın yaradılması ilə iqtisadi mühitin formalaşmasını müəyyənləşdirir, digər tərəfdən isə istehsal-təsərrüfat komplekslərinin sahibi kimi onların inkişafı istiqamətində investisiyalaşmanı özü həyata keçirir.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün dövlət tərəfindən investisiyalar ayrılan prioritet iqtisadi sferalar aşağıdakılardır:

- istehsal-iqtisadi əlaqələrin qırılması nəticəsində idxalı əvəz edən məhsulların istehsalının bərpası. Belə vacib əhəmiyyətli məhsulları istehsal edən müəssisələrin aşağı rentabelliklə işləməsi dövlətin fəal şəkildə onların fəaliyyətinə yardım etməsinə, maliyyələşdirməsinə zərurət yaradır;
- rəqabətqabiliyyətli məhsullar buraxan müəssisələr. İnhisar strukturlarının təsiri ilə formalaşan qiymətlərdən qorunmaq məqsədilə bu müəssisələrə kömək etmək onların istehsal xərclərini azaltmaq zərurətindən irəli gəlir;
- uzun müddət yüksək tələbat duyulan məhsulların istehsalı;
- daha yüksək keyfiyyətli və ya yeni məhsul növlərinin buraxılışını mənimsəyən müəssisələr;
- istehsal və sosial infrastruktura.

Prioritetlərin müəyyənləşməsində vacib məsələlərdən biri büdcədən investisiyaların ayrıldığı prioritet sahələr prob-

leminin həllidir. Texniki sistemlərin təhlükəsiz fəaliyyəti və həyatı vacib istehsala (yəni AES-in təhlükəsiz fəaliyyəti, nəqliyyatda təhlükəsizlik, radioaktiv tullantıların utilizasiya və saxlanması üçün obyektlərin tikintisi və s.) yardım məqsədilə ayrılan xərclər başa düşülür.

Dövlət proqramları üzrə differensasiya olunmuş prioritet istiqamətlər üzrə güzəştli kreditlərin faiz stavkalarını müəyyən etmək vacibdir. Bu vəsaitlərin razılaşdırılmış müddətə qaytarılmasına nəzarət prosesi də tənzimlənməlidir.

# III FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASINDA MALİYYƏ-PUL SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

## 3.1. Maliyyə təhlükəsizliyi strategiyasının formalaşması milli mənafelərin qorunmasının tərkib hissəsidir

Mühüm makroiqtisadi və maliyyə proseslərinin sosial-iqtisadi yöndə yeni istiqamətləndirici elementi kimi maliyyə təhlükəsizliyi sisteminin konseptual əsaslarının işlənib hazırlanması olduqca çoxcəhətli və mürəkkəb bir problemdir. Birinci növbədə, proses qeyri-müəyyənlik şəraitində baş verir, ikincisi, lazımi səviyyədə proqramla təmin olunmur. Qeyd etmək lazımdır ki, bir çox sahələrdə gələcək inkişafı təmin etmək üçün mövcud potensialın qorunub saxlanmasına cəhd göstərməklə makromaliyyə sabitliyinin qorunması üçün iqtisadi siyasət həyata keçirilir. Ona görə də müasir bazar iqtisadiyyatı şəraitində, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətlənməsi ilə əlaqədar olaraq həyata keçirilən yeni iqtisadi siyasətin mühüm bir qolu kimi maliyyə təhlükəsizliyi strategiyasının işlənib-hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bu, öz növbəsində iqtisadiyyatın sağlamlaşdırılması və iqtisadi inkişafın yeni prinsiplərlə təmin edilməsinə yönəlmiş ardıcıl məqsədli praktiki işlərin həyata keçirilməsini tələb edir. Beləliklə, maliyyə təhlükəsizliyi sistemi konsepsiyasının yaradılması maliyyə sisteminin özünün səmərəli fəaliyyəti ilə yanaşı, ölkənin maliyyə-iqtisadi mexanizminin böyük elementlərinin təhlükəsiz fəaliyyətinin təmin edilməsini tələb edir.

Dünya təcrübəsinə nəzər salsaq görmək olar ki, məsələn, Asiya böhranı zamanı coğrafi yaxınlıq və beynəlxalq spekulyantların misli görünməmiş təzyiqinə baxmayaraq məhz ÇXR və Tayvan praktiki olaraq zərər çəkməmişlər. Əgər ÇXR-nın «yenilməzliyi» ilk növbədə kənardan güclü təzyiqlərə baxmayaraq bütün xarici iqtisadi əməliyyatlar üzərində tam dövlət nəzarətinin qorunub saxlanılması ilə bağlıdırsa, Tayvanda bu onunla əlaqədardır ki, maliyyə liberallaşdırılması

zamanı vaxtında strateji maliyyə tənzimlənməsinin yeni vasitələrinin yaradılması həyata keçirilmiş, ənənəvi vasitələr isə müasirləşdirilmişdir [184, səh. 241]. Maliyyə təhlükəsizliyi sahəsində xüsusi tədbirlər sisteminin işlənib-hazırlanmasına ehtiyac maliyyə sferasında bir sıra əhəmiyyətli problemlərin olmasından irəli gəlir:

- müasir şəraitdə maliyyə-kredit sistemi pul vəsaitlərinin geniş və sadə təkrar istehsalını təmin etmək iqtidarında deyildir. O, bu funksiyanı yalnız ənənəvi ixracat sahələrində həyata keçirə bilir. Mürəkkəb sistemin qurulması nöqteyi-nəzərindən bu sistem geniş qarşılıqlı ödəmələrlə təzahür edən natamamlıqla xarakterizə olunur. Bu, xüsusilə əmək haqqı, pensiya və müavinətlər, müdafiə xarakterli sifarişlərə ayrılan xərclərin büdcədən təminatlı maliyyələşdirilməsi üçün təhlükəli hesab olunur;
- maliyyə və pul-kredit alətləri öz aralarında kifayət qədər düzgün əlaqələndirilməmişdir. Büdcə siyasəti (xüsusilə üzunmüddətli strateji investisiyalaşdırma cəhətdən) pul kütləsinin həcmi layihəsi şəklində əsas yaratmadan işlənib hazırlanır:
- maliyyə-bank sistemi qarışıq pul dövriyyəsi sisteminə (manat, dollar, avro) əsaslanır ki, bu da kapitalın axınına və dövriyyənin dollarlaşmasına səbəb olur;
- müasir maliyyə-bank sistemi yüksək inflyasiya şəraitində formalaşmışdır. Bu, nisbətən sabit qiymətlər və aşağı səviyyəli inflyasiya ilə xarakterizə olunan yeni iqtisadi şəraitdə uyğunlaşmamışdır;
- yeni sistemin qanunvericilik bazası tamlığı ilə fərqlənməlidir, yəni iqtisadi fəaliyyətin bütün sferalarını əhatə edən qanunvericilik bazasının yaradılması təmin edilməlidir;
- iqtisadi siyasətin idarə olunmasında makroiqtisadi maliyyə tənzimlənməsinin mütləq üstünlüyü şəraitində mikrotənzimləmə proseslərinin fəallaşmasına yönəlmiş, yeni iqtisadi inkişafın təmin olunması üçün şəraitin yaradılmasına yönələn elementar sənaye siyasətinin olmaması problemi;

- əmtəə və maliyyə bazarlarının, xarici investisiyanın ölkəmizdə, yerli investisiyanın xaricdə dövlət tərəfindən tənzimlənməsi meyarlarının işlənib-hazırlanmaması. Belə bir cəhət nəzərə alınmadan bu sahədəki müsbət və mənfi meyillərin birmənalı qiymətləndirilməsi mümkün deyildir;

- xarici ticarət, gömrük, vergi, valyuta və digər istiqamətlərdə vahid qarşılıqlı əlaqəli dövlət tənzimlənməsi sisteminin olmaması, valyuta və xarici ticarətə nəzarət funksiyalarının dəqiq sərhədlərinin müəyyən edilməməsi;

- ayrı-ayrı əmtəə və maliyyə bazarlarının subyektlərinin və ayrı-ayrı fəaliyyət sferası subyektlərinin təsərrüfat fəaliyyətləri əməliyyatlarına inzibati nəzarətin tam itirilməsi. Dövlət tərəfindən əsas əmtəə və maliyyə bazarları üzərində nəzarət funksiyası kəskin şəkildə azalmışdır.

Bu gün ölkə iqtisadiyyatında baş verən qeyri-adekvat şəraitdə, dövlət idarəetmə orqanlarının iqtisadi proseslərin prinsipial olaraq yeni tənzimlənməsi formalarına zəif hazırlıqlı olmaları şəraitində hesablama (nəzarət) siyasəti və müşahidə (monitorinq) vasitələri, alətləri ön planda durur. Bu, hər şeydən əvvəl, informasiya bazası və peşəkar fəaliyyətə aiddir (burada söhbət xaotik, qaydasız halda toplanmış məlumatlardan deyil, qeyri-inzibati metodlarla iqtisadi idarəetmə və monitorinqin məqsədlərinə uyğun struktura malik informasiyadan gedir). Dövlət tənzimləməsinin ayrı-ayrı növləri və metodları üçün qanunvericilik bazasının olmaması və yalnız icra orqanları səviyyəsində qanun qüvvəli aktların, normativ sənədlərin olması dövlət idarəetmə orqanlarının vahid qeydə alma və informasiya təminatı sisteminin yaradılmasını tələb edir.

Maliyyə-pul sferasında vahid dövlət tənzimləməsi mexanizminin olmaması əlverişli və səmərəli iqtisadi kursun həyata keçirilməsini şübhə altında qoyur. Burada məqsədyönlü iqtisadi siyasətin olmaması da öz mənfi təsirini göstərir.

Bu vəziyyət iqtisadiyyatın hökumət tərəfindən həyata keçirilən maliyyə siyasətinə kortəbii uyğunlaşdırılması cəhdindən irəli gəlir. Maliyyə makrostabilliyi ilə müşayiət olunan

pul-kredit restriksiyası iqtisadi siyasətin tənəzzülündə əsas səbəbə çevrilir. Bu belə bir nəticəyə gəlməyə əsas verir ki, monetar tənzimləmə metodları ilə həyata keçirilən maliyyə sabitliyi siyasətinin tükənmə ehtimalı daha çoxdur. Makro-maliyyə problemlərinin həllinə yönələn bu iqtisadi siyasət o qədər də səmərəli ola bilməz.

Bu mənada, maliyyə sabitliyi siyasətinin və müsbət cəhətlərinin səmərəli sənaye siyasəti ilə tamamlanması iqtisadi inkişafın yeni mərhələsini şərtləndirir. Ölkəmizin sənayesinin sahə strukturuna diqqət yetirdikdə aydın olur ki, 2000-2006-cı illər ərzində ayrı-ayrı sahələrin payının müxtəlif şəkildə dəyişməsinə baxmayaraq, burada əsas yeri enerji sənayesi ilə yanacaq sənayesi tutmuşdur. Belə ki, enerji sənayesinin payı 2000-ci ildə 18%-ə, yanacaq sənayesinin payı 52%-ə bərabər olmuşdur. Lakin 2006-cı ildə bu sahələrin payı müxtəlif şəkildə olmuşdur. Belə ki, enerji sənayesinin payı tədqiq olunan dövr ərzində 8% aşağı düşmüşdürsə də, lakin yanacaq sənayesinin payı 20% yüksəlmişdir. Digər maraqlı cəhət ondan ibarətdir ki, göstərilən dövr ərzində maşınqayırma sənayesinin payı 3,6%-dən 3%-ə, yüngül sənayenin payı 8,2%-dən 1,2%-ə, yeyinti sənayesinin payı isə 7,4%-dən 4,7%-ə enmişdir. Sənayenin digər sahələrində də elə bir ciddi artım meyli baş verməmişdir. Bütün bunlar o deməkdir ki, istər enerji təhlükəsizliyi, istər qida məhsulları təhlükəsizliyi sahəsində, eləcə də iqtisadi təhlükəsizliyi xarakterizə edən maşınqayırma və metal emalı sənayesi sahəsində ciddi iqtisadi tədbirlərin görülməsi zərurətini qarşıya qoyur. Bu isə o deməkdir ki, sənaye sahələrində balanslaşdırılmış maliyyə siyasətinin aparılması, milli iqtisadi mənafelərin qorunması və iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətində mühüm addım olardı.

**Cədvəl 3.1.**

# İqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturu (ümumi yekuna görə, müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə) [7, səh. 387]

| Sənaye sahələri | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| Sənaye üzrə – cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| o cümlədən: | | | | | | | |
| Xam neft və təbii qaz hasilatı | 53,4 | 58,6 | 59,3 | 56,6 | 57,2 | 67,3 | 72,1 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 0,1 | 0,1 | 0,2 | 0,3 | 0,3 | 0,3 | 0,2 |
| İçkilər də daxil olmaqla qida məhsullarının istehsalı | 2,6 | 3,2 | 3,5 | 3,4 | 4,5 | 3,2 | 2,4 |
| Tütün məmulatlarının istehsalı | 0,5 | 1,6 | 0,85 | 0,7 | 0,4 | 0,4 | 0,2 |
| Toxuculuq sənayesi | 0,9 | 0,7 | 0,55 | 0,6 | 0,4 | 0,5 | 0,4 |
| Geyim istehsalı, xəzin bəzədilməsi və rənglənməsi | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,1 | 0,1 | 0,1 |
| Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 0,1 | 0,1 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 0,1 | 0,1 | 0,08 | 0,05 | 0,1 | 0,1 | 0,1 |
| Nəşriyyat və poliqrafiya fəaliyyəti, məmulatların yazılmış daşıyıcılarının çoxaldılması | 0,2 | 0,3 | 0,4 | 0,5 | 0,4 | 0,3 | 0,2 |
| Koksun və neftayırma məhsullarının istehsalı | 18,4 | 14,9 | 14,0 | 15,4 | 13,8 | 10,0 | 12,5 |
| Kimya sənayesi | 3,4 | 3,4 | 3,4 | 3,3 | 3,5 | 2,4 | 1,3 |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | 0,1 | 0,2 | 0,2 | 0,3 | 0,4 | 0,3 | 0,2 |
| Digər qeyri-metal mineral maddələrin istehsalı | 0,8 | 1,0 | 1,4 | 1,6 | 1,9 | 1,6 | 1,1 |
| Metallurgiya sənayesi | 0,1 | 0,5 | 1,1 | 2,7 | 3,7 | 3,2 | 2,4 |
| Hazır metal məmulatlarının istehsalı | 0,3 | 0,3 | 0,27 | 1,0 | 1,0 | 0,7 | 0,4 |
| Maşın və avadanlıqların istehsalı | 1,1 | 1,0 | 1,3 | 1,0 | 0,9 | 0,4 | 0,4 |
| Elektrik maşınları və elektrik avadanlıqları istehsalı | 0,2 | 0,2 | 0,1 | 0,1 | 0,2 | 0,2 | 0,1 |
| Tibb texnikası məmulatları, ölçü vasitələri, optik cihazlar və aparaturaların istehsalı | 0,06 | 0,07 | 0,1 | 0,08 | 0,07 | 0,06 | 0,03 |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 0,01 | 0,01 | 0,0 | 0,05 | 0,05 | 0,1 | 0,03 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 1,9 | 1,2 | 2,0 | 1,8 | 1,6 | 1,9 | 1,2 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Mebel və digər qruplara daxil edilməyən sair məhsulların istehsalı | 0,2 | 0,13 | 0,2 | 0,2 | 0,4 | 0,4 | 0,2 |
| Xammalın təkrar emalı | 0,06 | 0,04 | 0,02 | 0,02 | 0,02 | 0,01 | 0,01 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 15,2 | 12,1 | 10,5 | 10,0 | 8,9 | 6,4 | 1,3 |
| Digər kateqoriyalara daxil edilməyən sair istehsal | 0,07 | 0,05 | 0,03 | 0,0 | 0,06 | 0,03 | 0,03 |

Sənaye siyasəti real iqtisadi sektorda ayrı-ayrı iqtisadi subyektlərin fəaliyyətinin dəqiq tənzimlənməsi (və özütənzimləmə) effektivliyi ilə müəyyən edilir. Burada ayrı-ayrı, natamam sistemlərin (iqtisadi subyektlərin) özünü tənzimləməsi nisbi xarakter daşıyacaqdar. Bu onu göstərir ki, yüksək təşkil olunmuş ictimai dinamik sistem tənzimlənən çoxsaylı kəmiyyətlər şəraitində davamlı ola bilər. Belə hal ondan irəli gəlir ki, bir-biriləri ilə ayrı-ayrı funksiyalarla əlaqəli olan natamam sistemlər nisbətən müstəqil olsalar da, kompleks məcmu sistemin üzvi tərkib hissələri olaraq qalırlar və ali səviyyəli tənzimləyici (dövlət) bütövlükdə sistemin vahid dinamik struktur və funksiyalarını müdafiə edir, ona yardım göstərir.

Bəzi müəlliflər maliyyə və dövriyyə vəsaitlərinin dövriyyəsini birləşdirməyi (qapamağı), kapital axınının qarşısını almağı, maliyyə vəsaitlərinin axınını real sektora yönəltməyi, iqtisadiyyatın kortəbii olaraq öz-özünə sağalması, sağlamlaşmasını gözləməkdən imtina etməyi tələb edir. Bu siyasətin həyata keçirilməsi siyasi iradə, iqtisadi idarələrin, strukturların əlaqəli fəaliyyətini tələb edir.

Dünya iqtisadiyyatında iqtisadi inkişafın azalması və artması şəraitində inflyasiyanın mövcudluğu ilə bağlı kifayət qədər təcrübə mövcuddur. Göstərdiyimiz hər iki şəraitdə prinsipial cəhətdən müxtəlif makroiqtisadi gösətəricilər, bir-birlərindən fərqli mübarizə metodları mövcuddur. Son zamanlar, xüsusilə bazar iqtisadiyyatına keçidin ilk illərində respublika iqtisadiyyatında istehsalın səviyyəsinin aşağı düşməsi fonunda qiymətlərin qalxması prosesi (staqflyasiya) gedirdi. Bəzən belə hallar pul kütləsi dövriyyəsinin süni ləngidilməsi yolu ilə inflyasiyanın qarşısını almağa çalışsalar da,

bu o halda qənaətbəxş hesab oluna bilər ki, belə sərt pul-kredit siyasətinin həyata keçirilməsi istehsalın və investisiyanın dinamikası üçün təhlükə yaratmasın.

Bəzən aparılan antiinflyasiya siyasəti güclü inflyasiya amilinə çevrilə bilər. Dövlət sifarişləri üzrə hesablaşmaların ləngidilməsi, sahələrin büdcədən maliyyələşdirilməsinin azalması istiqamətində aparılan sərt siyasət tələbin məhdudlaşmasına səbəb olur ki, bu da istehsalın inkişafını stimullaşdırmır, onun azalması üçün əsas amilə çevrilir. Müəssisələrdə dövriyyə vəsaitlərinin kəskin şəkildə çatışmazlığı hətta ödəməqabiliyyətli sektorda istehsalı məhdudlaşdırır. Bu zaman pul kütləsi həcmi dəyişməz qalarsa və ya azalarsa, onda istehsal prosesinin özü güclü inflyasiya amilinə çevrilir. Lakin Azərbaycan iqtisadiyyatında bu vəziyyət istehsalın azalması fonunda baş vermişdir. Onu da qeyd edək ki, bu şəraitdə inflyasiya ilə mübarizə metodları istehsalın azalması şəraitində qiymətlərin qalxması vəziyyətinə uyğun olmalıdır. Əgər ölkədə aparılan pul-kredit siyasəti istehsalın və investisiyanın artımına müsbət təsir göstərirsə, o zaman qiymətlərin qalxımı problem xarakteri daşımır.

Azərbaycanın maliyyə sisteminə ən böyük təhlükə törədən amillərdən biri də xarici ölkələrlə iqtisadi-ticarət münasibətlərində olan qeyri-ekvivalent mübadilədir. Başqa sözlə, xarici ölkələrə strateji xammal ixrac etməklə onlardan avadanlıq, ərzaq və digər istehlak şeyləri alınmasıdır. Halbuki, Azərbaycan nəinki öz əhalisini ərzaqla, sənayesini xammalla təmin etmək imkanına malikdir, hətta xarici bazarlara hazır məhsul ixrac etməyə böyük potensial imkanları vardır. Azərbaycan dövləti mövcud imkanları sözügedən istiqamətdə mərhələli şəkildə reallaşdırmağı qarşısına məqsəd kimi qoyur [35].

İqtisadiyyatda qeyri-sabitliyə səbəb olan əsas amillərdən biri pul və əmtəə axınının hərəkətində uyğunsuzluğun olmasıdır. Təsərrüfat sisteminin inkişafının vahid idarə olunması prosesinin hər iki cəhəti onlar üçün xarakterik, spesifik qanunlara tabedirlər. Əmtəə və pul münasibətlərinin sistemə salınması, qarşılıqlı əlaqələndirilməsi mühüm makroiqtisadi

vəzifə olub, normal təkrar istehsal prosesi üçün zəmin yaradır. Belə əlaqənin yaradılması pul və əmtəə kütləsinin fasiləsiz və nisbətən avtonom hərəkəti zamanı həyata keçirilməlidir, bu isə proseslərin xüsusi süni tənzimlənməsini tələb edir.

Maliyyə-bank sferasının mürəkkəbliyi mühüm bloklar üzrə onun quruluşunun müəyyənləşdirilməsini şərtləşdirir. Burada belə real bloklarda iqtisadi təhlükəsizliyə qarşı potensial və real təhdidlərin təhlili nəzərə alınır ki, bu da tələb olunan konkretlik səviyyəsini və praktiki istiqaməti təmin etməyə imkan verir. Aşağıdakı blokları ayırmaq məqsədəuyğun olardı: büdcə-vergi sferası; maliyyə-pul dövriyyəsi sferası; bank sistemi, fond bazarı; xarici iqtisadi fəaliyyət. Onu da qeyd edək ki, maliyyə-bank sferasında kölgə iqtisadi mexanizminin fəaliyyəti dövlətin potensialına dağıdıcı təsir göstərərək, hökumətə onun apardığı iqtisadi siyasətə qarşı inamsızlıq hissi yaradır.

Maliyyə təhlükəsizliyi sistemi dedikdə ilk növbədə qanunverici normativ aktlarla əsaslandırılmamış sferalara maliyyə axını imkanlarını məhdudlaşdıran, maliyyə vəsaitlərindən çirkin məqsədlər üçün istifadə imkanlarını minimuma endirəcək şəraitin yaradılması fonunda maliyyə sisteminin fəaliyyəti nəzərdə tutulur. Maliyyə təhlükəsizliyi sisteminin formalaşmasının əsasını maliyyə bazarının inkişaf strategiyasının işlənib-hazırlanması təşkil etməlidir. Bu istiqamətdə, maliyyə bazarının bütün iştirakçılarının maraqlarının balanslaşdırılmasının eyni vaxtda təmin edilməsilə, bu bazarın bütün əsas seqmentlərinin inkişafını əlaqələndirmək vacibdir. Xüsusən, maraqlarda balansın təmin edilməsi prinsipinin həyata keçirilməsi maliyyə bazarının əsas funksiyalarının tam reallaşmasına nail olmağa və onun daha sabit, davamlı fəaliyyəti üçün şəraiti təmin etməyə imkan verir.

Əgər sistemin bütün elementlərini iyerarxik düzmək, sistemləşdirmək təşəbbüsü ortaya çıxarsa, o zaman maliyyə vəsaitlərindən onların qorunub saxlanmasında əsas amil kimi ciddi məqsədlərlə istifadə prinsipi ilə yanaşı, qoyulmuş vəsaitlərin sürətlə və səmərəli şəkildə qaytarılması şəraitini təmin

etmək məsələləri ön planda durur. Bu prinsiplərin həyata keçirilməsi vəsaitlərdən vaxtında və məqsədəuyğun şəkildə istifadəyə və xərclənən vəsaitlərin qaytarılması səviyyəsinə nəzarət sisteminin yaradılmasını ifadə edir. Müasir şəraitdə maliyyə-iqtisadi mexanizminin fəaliyyətinin əhəmiyyəti onu deməyə əsas verir ki, geniş miqyaslı səmərəli maliyyə təhlükəsizliyi sisteminin formalaşması bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının mühüm amili olmaqla yanaşı, həm də bu təhlükəsizliyin əsas, özünəməxsus hərəkətverici qüvvəsi, mexanizmidir.

Maliyyə sistemi üçün təhlükə səviyyəsi nə qədər az olarsa, yatırılan vəsaitlərdən gələn gəlir, fayda bir o qədər çox olar. Vahid konsepsiya formasında maliyyə təhlükəsizliyi sisteminin formalaşması üçün islahatlar dövründə maliyyə-pul alətlərinin fəaliyyətinin kompleks təhlili vacibdir. İqtisadi artıma şərait yaradacaq maliyyə mühitinin yaradılmasını təmin edə bilən sistemin konseptual əsaslarının işlənib-hazırlanması nəzərdə tutulan təhlilin əsas istiqaməti və yekun nəticəsi olmalıdır. Burada əsas diqqət cari maliyyə-iqtisadi problemlərin həllinə yönəldilən maliyyə və pul siyasətinin məqsədyönlü təhlili üzərində cəmləşdirilməlidir. Bu istiqamətdə maliyyə sisteminin bütün elementləri arasında mühüm qarşılıqlı əlaqələr nəzərə alınmalıdır.

Maliyyə sisteminin strukturunun təhlili zamanı onun daha çox əhəmiyyət kəsb edən elementləri kimi büdcə, vergi, kredit-maliyyə sistemi diqqət mərkəzində olur. Maliyyə təhlükəsizliyi konsepsiyasının işlənib-hazırlanması və iqtisadi artımın təmin olunması zamanı istehsal aparatı ehtiyatları ilə də hesablaşmamaq, onları nəzərdən qaçırmaq olmaz. Lakin böhran şəraitində yalnız maliyyə bazarı alətlərinin köməyilə əsas fondların dəyərinin dəyişilməsini qiymətləndirmək olduqca çətin olardı. Buna görə də əsas fondların müntəzəm şəkildə yenidən qiymətləndirilməsi öz əhəmiyyətini qoruyub saxlayır.

Yüksək səmərəli maliyyə təhlükəsizliyi sisteminin formalaşması ölkədə baş verən bütün əsas maliyyə-iqtisadi pro-

seslərin dinamikasının çox səviyyəli və geniş miqyaslı müşahidəsi, təhlili sisteminə əsaslanmalıdır. Maliyyə təhlükəsizliyi meyarlarının və səviyyələrinin işlənib-hazırlanması kifayət qədər çətin məsələdir. Bank kreditlərindən istifadəyə görə stavkanın həddinin, büdcə kəsirinin maksimal yol verilən həcminin, daxili və xarici borcların səviyyəsinin əsaslandırılmış şəkildə müəyyənləşdirilməsi və hesablanması böyük əhəmiyyət kəsb edir ki, bu da qəbul edilmiş qeyri-düzgün qərarların korrektəsinə, düzəlişinə imkan verir.

Fikrimizcə, ölkənin iqtisadi təhlükəsizliyinin maliyyə göstəricilərini aşağıdakı meyarlara ayırmaq məqsədəuyğun olardı:

- makromaliyyə göstəriciləri;
- qiymət göstəriciləri;
- maliyyə bazarlarının vəziyyətini və orada baş verən prosesləri əks etdirən göstəricilər;
- bank fəaliyyəti ilə bağlı göstəricilər;
- iqtisadiyyatda əmanətlərin və investisiyaların səviyyəsini əks etdirən göstəricilər;
- valyuta bazarına və milli valyutanın kursuna aid olan göstəricilər [132].

Maliyyə innovasiyalarının reallaşması sferası olduqca genişdir. Bu, maliyyə sisteminin bir çox elementlərini əhatə edir, həmçinin bu sferanın mərkəzi elementi investisiya proseslərinin seqmentidir. Maliyyə innovasiyası maliyyə mühitindəki dəyişmə meyllərini əvvəlcədən müəyyənləşdirir.

Son illərdə inkişaf etmiş qərb ölkələrində maliyyə bazarı xeyli maliyyə innovasiyaları ilə xarakterizə edilir. Bu yeniliklər aşağıdakılardır: opsion və fyuçers bazarı; aktivlərin sekyuritizasiyası; yüksək faizlərlə ödənilən kreditlər; pul bazarına səhmlərin cəlb edilməsi və s. İnnovasiya prosesləri öz-özünə deyil, konseptual, eləcə də ətraf mühit, aləmin doğurduğu səbəblərdən irəli gəlir. Hər hansı bir maliyyə yeniliyini doğuran əsas səbəb gəlir amilidir. İqtisadi nöqteyi-nəzərdən bazarın daha səmərəli və yaxud universal fəaliyyətini təmin edəcək maliyyə məhsulu və ya prosesi gəlirli ola bilər. Maliyyə

innovasiyası xərclərin azalması nöqteyi-nəzərindən bazarın səmərəliliyini təmin edə bilir.

Maliyyə innovasiyasını sürətləndirən mühüm amil tənzimləmə xarakterinin dəyişməsidir. Son illər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə maliyyə xidmətləri bazarı tənzimlənmir. Müxtəlif maliyyə təşkilatlarının fəaliyyətini məhdudlaşdıran maneələr aradan qalxır və rəqabətin xarakteri əsaslı şəkildə dəyişir. Məhdudiyyətlərin aradan qaldırılması ilə kommersiya bankları, borc-əmanət assosiasiyaları, investisiya bankları, nəhəng pərakəndə ticarət təşkilatları, həmçinin maliyyə konqlomeratları arasında fərqlər itib gedir. İqtisadi tsiklin dəyişməsilə maliyyə innovasiyası sürətlənə bilir. İqtisadi artım dövründə yeni maliyyə məhsulları və proseslərinin reallaşma, meydana gəlmə səbəbləri çoxalır, iqtisadi azalma dövründə isə riskin azalmasına cəhd edilir və likvidliyə üstünlük verilir.

Kapitalın səfərbər edilməsi üçün mühit dəyişdikcə, maliyyə tənzimlənməsi proseslərində ehtiyatlılıq zərurəti ortaya çıxır. Maliyyə innovasiyası təkcə qiyməti, dəyəri, müəyyən maliyyələşdirmə növlərinin imkanlığını və hədlərini dəyişmir, həm də pul vəsaitləri və likvidli qiymətli kağızlar bazarı nortfellərinin idarəedilməsinə təsir göstərir. Maliyyə innovasiyası nəticəsində maliyyə bazarlarında, o cümlədən opsion, fyuçers və valyuta bazarları üzrə risklərin paylanması imkanları əhəmiyyətli dərəcədə artır. Maliyyə tənzimlənməsi azacıq dərəcədə iri şirkətlərə kömək edir.

İnflyasiyanın aşağı düşməsi, pul kütləsinin azalması, dövlətin qısamüddətli borc bazarının gəlirliyinin aşağı düşməsi bankları və digər maliyyə institutlarını kapital qoyuluşu üçün yeni sahələr, sferalar axtarıb-tapmaq məcburiyyətində qoyur. Belə olan halda onların istehsal sferası ilə sıx əməkdaşlıq etmək məsələləri daha da ciddi xarakter alır və zərurətə çevrilir. Bu heç də bankların istehsala tərəf çevrilməsi, yön olması demək deyildir. Sənaye müəssisələri arasında yatırılan investisiyaları qaytarmaq qabiliyyəti olan müəssisələrin sayı da bu prosesə əhəmiyyətli dərəcədə təsir

göstərir. Bu baxımdan, banklar özləri zərbə altında qallmamaları üçün çox vaxt belə müəssisələrlə kreditləşmə sövdələşmələri aparmırlar. Bu ziddiyyətli məsələni həll etmək üçün həm maliyyə institutları, həm də müəssisələr investisiya mühitinin dəyişməsinə ciddi reaksiya verməklə yanaşı, onlar öz mövqelərini də düşünülmüş şəkildə qiymətləndirməlidirlər. Onu da qeyd edək ki, bu gün respublikamızda yerli sənaye müəssisələrinin kapital qoyuluşlarına olan tələbatının səviyyəsi müəssisələrin bu investisiyalardan real istifadə imkanlarını xeyli üstələyir. Bu mənada, bank sistemində baş verən böhranı investisiya proseslərindəki yeni keyfiyyət dəyişikliklərinin əlaməti kimi də hesab etmək olar.

Xarici investisiyaların milli bazarlara gəlişi ölkə daxilində kapitalın dövriyyə sürətini artırır. Lakin dünya iqtisadiyyatında böhran vəziyyəti yarandıqda qeyri-rezidentlərin maliyyə vəsaitlərinin axını daha da sürətli olur və bu iqtisadi təhlükəsizliyə təsir edir. Beynəlxalq təcrübədə bu çox riskli məsələ hesab olunur və bununla güclü mübarizə tədbirləri işlənib hazırlanmışdır. Məsələn, «Rusiya Federasiyasının Milli Təhlükəsizlik Konsepsiyası»nda qeyd olunur ki, investisiyaların səviyyəsinin enməsi ölkənin iqtisadi təhlükəsizliyini zərbə altında qoyur, «İnvestisiya və innovasiya aktivliyinin dövlət tərəfindən dəstəklənməsinin gücləndirilməsi, müəssisə və təşkilatların kapital qoyuluşlarının maliyyələşdirilməsi üçün uzunmüddətli kreditlər almaq imkanının asanlaşdırılması» ən vacib məsələlər sırasındadır [107].

Bununla yanaşı, investisiya almaq arzusunda olan hər bir müəssisə öz layihələrini əsaslandırmalıdır. Çünki heç bir investor təminatsız olaraq verilən vədlər müqabilində öz vəsaitlərini hər hansı bir müəssisənin inkişafına yönəltmək fikrində deyildir.

Dünya təcrübəsindən də aydındır ki, vəsaitlər yalnız inkişaf istiqamətləri məlum olan, əsaslandırılan müəssisələrə yönəldilir. Praktiki olaraq hər hansı bir müəssisəyə investisiya yatırılmamışdan əvvəl, həmin müəssisə bu istiqamətdə hazırlıq mərhələsindən keçməlidir. Bununla o, öz inkişaf perspektiv-

lərini göstərərək, investisiya yatırımlarını cəlb etmək baxımından ciddi iddiaçı olduğunu bir daha sübut etmiş olur. Yalnız bu zaman investor yatırdığı vəsaitinin hədər yerə sərf edilməyəcəyinə əmin ola bilər.

Yuxarıda deyilənlərlə əlaqədar olaraq, müəssisələrin kapital yatırımı proseslərinə hazırlanmaları ilə məşğul olan konsaltinq şirkətləri şəbəkəsinin yaradılması bu istiqamətdə aktual məsələlərdən biridir.

Kapital qoyuluşlarına hazırlıq məsələləri böyük həcmdə kapital məsrəfləri tələb etmir. Bir sıra hallarda müəssisələrin işində qeyri-sabitlik yarada biləcək təşkilati, struktur və digər səbəblər aradan qaldırılmalıdır.

İnvestisiya proseslərində maliyyə innovasiyası problemi korporasiya və iri təşkilatlar üçün olduqca aktualdır. Hər bir müəssisənin, təşkilatın gələcəyi, qazanacağı uğurlar investisiya ilə bağlı məsələlərin müvəffəqiyyətlə həllindən asılıdır. Burada əsas cəhətlər aşağıdakılardır:

1. İnvestisiya ilə bağlı təkliflərin müəyyən dəyişiklikləri yaratması. Bu təklifləri aşağıdakı istiqamətlər üzrə təsnifləşdirmək olar:

- yeni məhsul istehsalı;
- məhsul bazarının genişləndirilməsi;
- avadanlıqların yenidən qurulması, təzələnməsi;
- digər təkliflər;

2. Bu təkliflərin həyata keçirilməsi üçün pul vəsaitləri mənbələrinin müəyyənləşdirilməsi;

3. Vəsait mənbələrinin qiymətləndirilməsi;

4. Meyarlar üzrə layihələrin seçilməsi və qiymətləndirilməsi;

- investisiyalara düşən orta gəlir norması,
- vəsaitin qaytarıla bilməsi,
- daxili gəlir norması,
- xalis cari dəyər.

5. İnvestisiya layihələrinin onların reallaşdırılmasına başlandıqdan sonra dövri olaraq yenidən qiymətləndirilməsi. Burada investisiya yatırılan obyektlərin qiymətləndirilməsi ilə

bağlı analitik mərhələ vacibdir. Ona görə marketinq tədqiqatlarından istifadə məqsədəuyğun hesab edilir.

İnvestisiya ilə bağlı qərarların qəbul edilməsi zamanı investisiya riskinin qiymətləndirilməsi zəruridir. Risk – qeyri-əlverişli vəziyyətin yaranma ehtimalıdır. Müxtəlif investisiya layihələri fərqli risk dərəcələrinə malikdirlər. Bəzən yüksək gəlirli bir investisiya layihəsi olduqca riskli ola bilər. Nəticədə, bu, həmin layihənin etibarlığını azaldır.

İnvestisiya layihələri ilə bağlı qərarların işlənib-hazırlanması zamanı bu layihələrin risk dərəcəsi və vəsaitlər qaytarılma imkanlarının qiymətləndlirilməsi ilə yanaşı gəlirin artırılması üçün əsas vəsaitlərdən istifadə imkanları, ehtimal metodu ilə riskin qiymətləndirilməsi məsələləri də təhlil edilməlidir.

Uzunmüddətli investisiyalar barəsində qərar qəbul etmək çətin məsələlərdən biridir. Burada bu uzunmüddətli investisiyaların qaytarılma əmsalının nəzərə alınması olduqca vacibdir, lakin onun təcrübədə təyini çətindir. Bu baxımdan, olduqca sadə, lakin doğru bir üsul seçilir: investisiya layihələrinin alternativ xərcləri maliyyə bazarında eyni risk dərəcəli investisiyalarla müqayisə edilir. Bir sözlə, layihə mütləq gəlir gətirməlidir.

Əlavə etmək lazımdır ki, bu müqayisə zamanı şirkət kapitalının ümumi dəyərinin təyin olunması məsələləri nəzərdən keçirilməlidir (kapitalın dəyəri dedikdə müxtəlif növ təxsisatlar üçün tələb olunan gəlir nəzərdə tutulur).

Hər bir investisiya layihəsi riskin qiymətləndirilməsi baxımından özünəməxsus xüsusiyyətlərə malikdir. İnvestisiya layihələrinin müəyyən hissəsi risklərin öz aralarında yaxınlığı kontekstində kateqoriyalar üzrə təsnifləşdirilə bilər.

### 3.2. İqtisadi təhlükəsizliyin fiskal aspektləri

İqtisadi təhlükəsizliyin büdcə-vergi aspektləri bu mövzuda işləyən müəlliflərin əsərlərində böyük yer tutur. İqtisadi təhlükəsizliyin təmin olunması ilk növbədə dövlətin borcudur və dövlətin ümumi iqtisadi siyasətində fiskal siyasət mühüm rol oynayır. Biz burada yalnız fiskal metodlarla iqtisadiyyatı hər hansı təhlükələrdən qorumaq haqda danışa bilmərik. Çünki bəzi hallarda məhz qeyri-düzgün fiskal siyasət arzuolunmaz iqtisadi nəticələrə gətirib çıxara bilər [92].

Vergi ictimai tələbatın və qanunauyğunluqla müəyyən edilmiş tələblərin təmin edilməsi üçün dövlət tərəfindən mərkəzləşdirilmiş əsas maliyyə resursları mənbələrindəndir. Yeni iş yerlərinin açılması, yaradılması və ölkədə məşğulluq səviyyəsinin təmin edilməsi, sosial təminatlar və sosial müdafiə, təhsil və səhiyyə, ətraf mühitin qorunması və təhlükəsizliklə bağlı dövlətin üzərinə düşən vəzifələrin uğurlu həlli ölkədə aparılan vergi siyasətindən, ölkənin vergi potensialının miqyasından, vergi sisteminin səmərəliliyi, sabitliyi və demokratikliyindən asılıdır.

Vergi sistemi və vergi siyasəti təkcə dövlətin və cəmiyyətin deyil, eyni zamanda bütün ölkə vətəndaşlarının, əhali qruplarının və təbəqələrinin, müəssisə və təşkilatların maraqları nöqteyi-nəzərindən də böyük əhəmiyyət kəsb edir. Bu gün vergi sisteminin sivil və milli xüsusiyyətlər və qaydalar baxımından formalaşdırılması və inkişafı bazar iqtisadiyyatı yolu ilə gedən respublikamız üçün olduqca vacib bir məsələdir. Bu məsələnin uğurla həlli öz növbəsində ümumilikdə iqtisadi vəziyyətə, büdcə sisteminə, yerli özünü idarəetmə orqanlarının fəaliyyətinə, dövlətin sosial, müdafiə və hüquqi funksiyalarının yerinə yetirilməsinə öz təsirini göstərir.

Keçid iqtisadiyyatı şəraitində vergi sistemindən istifadə ilə dövlət həm iqtisadi, həm də milli təhlükəsizliyin əhəmiyyətli dərəcədə qorunmasına nail olunur. İqtisadi təhlükəsizlik sistemində vergilərin və vergi sisteminin rolu, əhəmiyyəti iqtisadi, o cümlədən maliyyə təhlükəsizliyinin ümumi prin-

sipləri, meyarları və göstəriciləri ilə müəyyən edilir. İqtisadi təhlükəsizliyin məzmunu baxımından vergi və vergi siyasəti şəxsiyyətin inkişafı və həyatı üçün, eləcə də cəmiyyətdə sosial-iqtisadi və hərbi-siyasi stabilliyi, dövlətin bütövlüyünü qoruyub saxlaya biləcək, onu daxili və xarici təhlükələrdən qoruya biləcək şəraitin yaradılmasını təmin edə bilən iqtisadi inkişafın mühüm amilidir. Cəmiyyətdə, bütövlükdə ölkədə, onun ayrı-ayrı regionlarında, bölgələrində sosial-iqtisadi sabitlik və inkişaf üçün maliyyə sisteminin (pul, büdcə, kredit və valyuta sisteminin) vahidliyi və bütövlüyünün qoruması üçün, bütövlükdə ölkənin daxili və xarici təhlükələrdən qorunmasını təmin edəcək maliyyə şəraitinin resurslarının formalaşması baxımından vergilər və vergi siyasəti maliyyə təhlükəsizliyinin iqtisadiyyatın, maliyyə sisteminin və maliyyə münasibətləri və proseslərinin inkişafına kömək edəcək amili kimi də mühüm rola malikdir.

Vergilər və vergi sistemi həm dövlətin əlində olan resurs amili kimi, həm sosial və iqtisadi proseslərə mühüm təsir vasitəsi kimi, həm də dövlətin vergi ödəyicilərindən asılılığı və onlarla əks əlaqələrinin mühüm amili kimi iqtisadi və maliyyə təhlükəsizliyi sistemində özünəməxsus yer tutur. Bu mənada, vergilər və vergi sistemi bir tərəfdən iqtisadi və maliyyə təhlükəsizliyi resursları və vasitələrin, digər tərəfdən də risk və asılılıq amilini özündə ehtiva edir. Resurs amili kimi vergilər dövlət üçün təhlükəsizliyin təminatı vasitəsinə çevrilə bildiyi kimi (vergi potensialının artması) risklərin və təhlükələrin güclənməsinin əsas səbəbinə də çevrilə bilərlər (vergi potensialının sərf olunması).

İqtisadi təhlükəsizliyin, yaxud iqtisadi təhdidlərin mühüm amili kimi vergilərin rolu konkret şəraitdə, iqtisadi inkişaf mərhələlərinin xüsusiyyətindən, həyata keçirilən iqtisadi siyasətin xarakterindən, ölkədən, siyasi stabillikdən asılıdır. Siyasi və iqtisadi siyasətin aparılması, dövlət aparatının zəifliyi vergi sistemində böhranlara gətirib çıxarır və o dövlətin siyasi quruluşu özü üçün real, yaxud potensial təhlükə mənbəyinə çevrilir, onu maliyyə resurslarından məhrum edir.

İqtisadi təhlükəsizlik meyarları və göstəriciləri mövqeyindən vergi siyasətinin qiymətləndirilməsi zamanı vergi siyasətinin meyllərinin obyektiv (real vergi münasibətləri və vergi sisteminin real kəmiyyət göstəriciləri) və subyektiv (dövlətin müxtəlif səviyyəli dövlət hakimiyyəti orqanları fəaliyyətlərinin nəticəsi və məqsədləri, səyləri) cəhətlərini fərqləndirmək lazımdır. Bundan başqa, vergi sistemi və vergi siyasəti baxımından həm obyektiv proseslərdə, həm də aparılan siyasətin özündə dövlətin iqtisadi təhlükəsizliyinə təhdidlər yarada bilən daxili və xarici amillər mövcuddur.

Vergi və vergi siyasəti ölkənin iqtisadi və maliyyə təhlükəsizliyi sistemində obyektiv olaraq özündə aşağıdakıları ehtiva edir. Birincisi, o dövlətin əlində resurs amilidir. İkincisi, iqtisadi və sosial prosesə təsir etmək vasitəsidir. Üçüncüsü, dövlətin vergi ödəyənlərdən və regionlardan asılılığını göstərən amildir. Başqa sözlə, dövlətlə vergi ödəyənlər bir-biri ilə qarşılıqlı əlaqədə və asılılıqda fəaliyyət göstərirlər. Bu prosesdə dövlət və onun məmurları dərk edirlər ki, dövlətin iqtisadi qüdrəti, milli və iqtisadi təhlükəsizliyi vergi ödəyənlərdən çox asılıdır. Ona görə də vergi verənlərə hərtərəfli qayğı göstərmək lazımdır ki, onların gəlirləri çox olsun, firəvan yaşasınlar. Belə normal şərait yaradılarsa, verginin hesabına dövlətin maliyyə təhlükəsizliyini təmin etmək olar [176, səh. 445].

İqtisadi təhlükəsizliyini təmin edilməsi üçün aparılan vergi siyasətinin obyektiv meyllərini daha çox əlverişli, subyektiv meyllər isə – az səmərəli və əlverişli ola bilər. Əksinə, dövlətin vergi siyasəti sahəsində subyektiv səyləri prinsipcə düzgün əsaslandırılmışdır, real vergi münasibətləri vergi yığımı və iqtisadi inkişaf sferasında mənfi meyllərlə müşahidə olunmaya bilər. Eyni zamanda obyektiv və subyektiv amillərin qarşılıqlı asılılığı problemi mürəkkəbləşdirir. Vergi siyasətində baş verən obyektiv meyllərə aşağıdakılar aiddir:

- mövcud vergi sisteminin gəlirlərin qanunauyğunluqla müəyyən edilmiş həcminin toplama qabiliyyətinin azalması. Bu öz əksini statistik gösətəricilərin təhlilində tapır;
- büdcə sistemində vergi yığımlarının həcminin azalması;

- vergi yükünün dar əhatəli vergi ödəyiciləri üzərinə qoyulması. Bunun nəticəsində onlar həddindən çox vergi təzyiqinə məruz qalır və iqtisadiyyatda yüksək vergi qoyma haqqında təsəvvür yaranır;

- vergi sisteminin iqtisadi artımı, investisiya fəallığını məhdudlaşdıran, vergilərdən yayınmalar, ölkə xaricinə kapitalın axınına səbəb olan mənfi amillər qismində özünü büruzə verməsi;

- büdcənin gəlir potensialının kəskin şəkildə azalması;

- zərərlə fəaliyyət göstərməklə bağlı əsas vergi ödəyicilərinin imkanlarının məhdudlaşması və müəssisələrin pul və maliyyə dövriyyəsinin pozulması, onların əlində olan «canlı» (nəğd) pulun həcminin azalması;

- iqtisadiyyatda, o cümlədən bank sektorunda cinayətkar ünsürlərin güclənməsi. Bu, gəlirlərin gizlədilməsinə cəhdi, daha təkmil və daimi təkmilləşən maliyyə, hüquqi, hesablama, informasiya və təşkilati texnologiyalar vasitəsilə vergi ödəmədən yayınma cəhdlərini şərtləndirir;

- vergi mexanizminin sahibkarların fəaliyyətinə, kapitalın yığımı və saxlanılmasına münasibətlərinə, vəsaitlərin leqallaşmasına, gizlədilməsi və ölkədən çıxarılması cəhdinin qarşısını almaq istiqamətindəki tənzimləyici və stimullaşdırıcı təsirinin zəifləməsi.

Göründüyü kimi, vergi mexanizmi və vergi siyasətinin obyektiv fəaliyyət meylləri mənfi xarakterə malikdir, istehsal sferasında, mülkiyyət münasibətləri və yerli sahibkarların davranışında sağlam proseslərin olmasını istisna edir.

Dövlətin vergi siyasətinin subyektiv meyllərinə aşağıdakılar aiddir:

- dövlətin vergi siyasətinin işlənib-hazırlanması və onun həyata keçirilməsi ilə bağlı fəaliyyətində və vergi sistemində islahatların aparılmasında dərin ziddiyyətlərin olması: vergi yığımlarının subyektiv olaraq artırılması cəhdi vergi bazasının daşınması ilə nəticələnə bilər;

- maliyyə-iqtisadi siyasətin müxtəlif istiqamətlərinin bir-birilə uzlaşması (pul kütləsinin dövriyyəsinin məhdud-

laşdırılması və iqtisadiyyatda kreditləşmə üzrə sərt tədbirlərin görülməsi ödəmələrlə bağlı böhranlara, pul dövriyyəsinin süni surətdə azalmasına və maliyyə vəsaitlərinin və vergi yığımlarının azalmasına gətirib çıxara bilər).

- iqtisadi və maliyyə təhlükəsizliyi, vergi sisteminin sabitliyi və vergi siyasətinin səmərəliyi baxımından qanunvericiliyin ekspertizası və qiymətləndirilməsinin keçirilməsi;
- vergi siyasətində üzaqgörənliyin zəif olması və dövlət tərəfindən vergi sistemilə, vergi yığımlarının qaydaları və mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər;
- həyata keçirilən vergi siyasətinin beynəlxalq maliyyə təşkilatları, transmilli korporasiyalardan asılılığı;
- vergi siyasətinin müxtəlif ictimai birliklərin və təşkilatların (idarə olunmayan təşkilatların, beynəlxalq struktur və fondların və s.) maraqlarından müdafiə sisteminin olmaması;
- vergi idarəçiliyində səmərəli təsir mexanizmlərinin olmaması;
- vergi hüququnun, vergi sisteminin hüquqi fəaliyyətinin elmi əsaslarının işlənib-hazırlanması, hüquqi normativ qanunverici bazada ziddiyyətlərin olması;
- vergi siyasətinin, vergi qanunvericiliyinin işlənib-hazırlanması və həyata keçirilməsində və vergilərin yığılmasında mərkəzlə bölgələr, regionlar arasında uyğunsuzluğun olması;
- vergi sahəsində stabilləşdirici tədbirlərin həyata keçirilməsi ilə bağlı gecikmələrin, ləngimələrin olması, zaman amiilinin tam qiymətləndirilməməsi, ölkədə vahid vergi siyasətinin həyata keçirilməsində sərt, ciddi idarəetmə metodlarının kasadlığı, olmaması, vergi qanunvericiliyinin müxtəlif subyektlər tərəfindən pozulmasına qarşı ciddi tədbirlərin görülməməsi (kommersiya bankları, maliyyə-bank, maliyyə-sənaye holdinqləri, birgə müəssisələr, xarici şirkətlər, ayrı-ayrı vətəndaşlar tərəfindən);
- maliyyə və kredit təşkilatlarının kadrlarının büdcə sisteminə vergilərin və ödəmələrin vaxtında köçürülməsi, ver-

gilərin yayılması ilə bağlı pozuntu hallarına qarşı zəif iqtisadi, inzibati və cinayət cavabdehliyinin olması.

Qeyri-səmərəli vergi siyasəti və dövlət hakimiyyəti orqanlarının fəaliyyətindəki neqativ hallar ölkənin iqtisadi təhlükəsizliyinə təhdidlər yaradır, maliyyə sistemini zəiflədir, regionları səviyyə baxımından bir-birlərindən uzaqlaşdırır, dövlət və sahibkarları, vergi ödəyicilərini, dövlət hakimiyyəti və vətəndaş cəmiyyəti institutlarını bir-birinə qarşı qoyur.

Sadalanan meyllər büdcənin gəlir bazasının dağılmasına və dövlətin, ölkənin təhlükəsizliyi və müdafiəsi, vətəndaşların hüquqlarının qorunması, cinayətkarlıqla mübarizə, iqtisadi inkişafı təmin etmək, bu məqsədlə vəsait ayırmaq kimi funksiyaların maliyyə təminatı qabiliyyətinin kəskin zəifləməsinə səbəb olur. Vergi yığımlarının lazımi səviyyəsinin təmin edilməsi və büdcədən istifadə məsələləri tənzimlənməyincə ölkədə maliyyə sabitləşməsindən danışmaq olmaz.

Real iqtisadi sektorda baş verən maliyyə böhranı, istehsalda durğunluq və ödəmələrlə bağlı böhranların yaranması, vergi ödəmələrindən yayınmalar və gəlirlərin gizlədilməsi ilə əlaqədar olaraq vergilərin ödənilməməsi, bu istiqamətdə dövlət hakimiyyətinin zəifliyi, səbatsızlığı da təhlükəli amillərdir. Real iqtisadi sektorda vəziyyət normallaşmadan vergi sistemi səmərəli fəaliyyət göstərə bilməz. Çünki istehsalın həcminin azalması və onun keyfiyyət göstəricilərinin pisləşməsi vergi yığımlarının bazasını azaldır.

Bazar iqtisadiyyatına keçid və onun formalaşması dövründə fond birjalarının ölkənin iqtisadi və maliyyə təhlükəsizliyinin təmin edilməsində öz yeri vardır. Fond birjaları dedikdə, qiymətli kağızların (səhmlərin, istiqrazların və s.) alqı-satqısının həyata keçirildiyi bazar başa düşülür [128]. Lakin müasir dövrdə bazar iqtisadiyyatının quruluşunda fond birjası daha yüksək xalq təsərrüfatı əhəmiyyətinə malikdir. Belə ki, sənayenin, kənd təsərrüfatının, ticarətin və xalq təsərrüfatının bir sıra digər sahələrinin inkişafına kapital qoyuluşları üçün zəruri olan pul vəsaiti fond birjaları vasitəsilə səfərbərliyə alınır.

Vergi bazasının formalaşması, vergilərin ödənilməsi səviyyəsinə təsir göstərən mühüm amillərdən biri müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşmasıdır. Burada əsas təsirli cəhət ümumi, çoxcəhətli maliyyə böhranının güclənməsidir. Bunun əsas səbəbləri, formaları müəssisələrin zərərlə işləməsi, borclarını ödəyə bilməmələri, əsas kapitalın dağılması və dövriyyə vəsaitlərindən məhrum olma, maliyyə menecmentində cinayətkarlıq elementlərinin artması, maliyyə vəsaitlərinin gizlədilməsi, maliyyə resurslarının oğurlanması, dövlət vəsaitlərinin oğurlanması cəhdlərinə göz yumulması, əmək haqlarının ödənilməsində ciddi, kütləvi ləngitmələrin olması, sosial ağırlığın dövlət büdcəsi və büdcədənkənar fondların üzərinə düşməsidir.

Maliyyə böhranının əsas göstəricilərindən və onların vergi sistemində doğurduğu qeyri-sabitlik istehsalda gəlir səviyyəsinin və rentabelliyin aşağı düşməsidir. Vergi siyasəti nöqteyi-nəzərindən bu, vergi bazasına müxtəlif vergilərin daxil olmaması, onların ödənilməməsi bir növ onların «itib getməsidir». Bu daha çox gəlir vergisinə aiddir.

Müəssisənin maliyyə böhranı – vergi sistemində baş verən qeyri-sabitliyin başlıca səbəblərindəndir. İstehsalın stabilləşməsi və sağlamlaşması istiqamətində dövlətin gördüyü tədbirlərin sistemsiz xarakter daşıması və səmərəsizliyi bu prosesi daha da gücləndirir, sürətləndirir.

Bütövlükdə dövlət «aparatının» davamlı, sabit fəaliyyəti üçün vergi yığımlarının səviyyəsi mühüm meyardır. Bu, vergi sisteminin, dövlətin bir sıra mühüm sahələrinin fəaliyyətinin səmərəlilik yaxud qeyri-səmərəlilik göstəricisi olub, təkrar istehsal, rəqabət, qanunvericilik, siyasi, təşkilati, psixoloji xarakterli amillərdən asılıdır.

Vergi yığımlarının səviyyəsinin azalmasına səbəb olan amillər içərisində təkrar istehsal sistemində yaranmış böhran vəziyyətindən doğan amillər, idarəetmə və tənzimləmə təcrübəsində olan nöqsanlardan irəli gələn, asılı olan amillər və vergiödəyicilərinin davranış motivləri ilə əlaqədar olan amilləri fərqləndirmək vacibdir. Vergi yığımlarının səviyyəsinin yüksəlməsində Dövlət Gömrük Komitəsinin də mü-

hüm rolu vardır. Lakin həyata keçirilən gömrük siyasətinin ölkənin iqtisadi təhlükəsizliyi, maraqlarına cavab verməsi önəmli xarakter daşıyır. Ölkədə aparılan vergi siyasətinin bir tərkib hissəsi kimi gömrük rüsumları və güzəştləri ilə bağlı məsələlər ölkənin maraqları çərçivəsində yanaşmaq lazımdır.

Pul dövriyyəsi sferasında baş verən böhranlar da vergi sistemində dəyişikliklərə səbəb olur. Bu mənada, maliyyə stabilliyi dövriyyə, ödəmə dövriyyəsi sferasında vəziyyətin normalaşmasını da nəzərdə tutur. Lakin dövriyyə sferası da iki sektora ayrılır, birincisi nəğd («canlı») formada pulların dövriyyəsi sektoru, ikincisi barter hesablaşmaları və müxtəlif pul surroqatları və qarşılıqlı hesablaşmalar sektorudur. Məhz dövlət maliyyəsi sferası kvazi pullar, barterlər, qarşılıqlı hesablaşmaları əhəmiyyətli dərəcədə təmin edir.

Real iqtisadi sektorda fəaliyyət pul surroqatlarının veksellər, qarşılıqlı hesablaşmaların istifadəsi, barterin geniş yayılması ilə həyata keçirilir. Bəzən bir çox iri müəssisələrdə əmtəə əməliyyatlarının 90-100%-i barter və qarşılıqlı hesablaşmalar vasitəsilə həyata keçirilir ki, bu vaxt həmin əməliyyatlar üzrə vergilər ödənilmir.

Təsərrüfat subyektlərinin ödəməqabiliyyəti ilə bağlı yaranmış problemin real həlli makroiqtisadi proseslərin tənzimlənməsində dövlətin rolunun fəallaşmasını tələb edir. Bu ölkədə aparılan büdcə və vergi siyasətinin əsas istiqamətlərindən biri olmalıdır.

Vergilərdən əldə olunan gəlirlərin gizlədilməsi praktikasının genişlənməsi dövlətin maliyyə tələbatının təmin edilməsi nöqteyi-nəzərdən böyük təhlükə hesab olunur. ABŞ-da büdcəyə ödənilməli olan vergi məbləğinin 15%-ə qədəri təyinatından kənarlaşdırılır. Bu göstərici Rusiyada 40-50% təşkil edir. Dövlət vəsaitinin oğurlanması, vergi sferasında baş verən cinayət halları bu problemi təkcə vergi deyil, həm də sosial-iqtisadi və siyasi problemlər sırasına aid edir.

Vergilərdən daha ciddi yayınmalar çox vaxt ticarət və xidmət sferasında, kiçik biznesə məxsus müəssisələrdə müşahidə edilir. Spirt-araq və tütün məmulatları qaçaqmal-

çılığı da büdcədə böyük itkilərə gətirib çıxarır. Belə yayılmaların qarşısının alınması vergi və gömrük, eləcə də digər dövlət orqanlarının birgə fəaliyyətini, həmçinin bank, vergi və başqa sahələrdə vahid, standart hesablaşmalar sisteminin formalaşması, birgə fəaliyyətə şərait yaradan qanunvericiliyin qəbul edilməsi zərurətini şərtləşdirir.

Vergi ödəmələrinin səviyyəsinin azalması, vergidən gələn gəlirlərin gizlədilməsi, kölgə iqtisadiyyatının miqyasının genişlənməsi problemi ilə üzvi surətdə bağlıdır. Bu mənada, vergiqoyma siyasəti vergi təzyiqinin güclənməsi, cəza tədbirlərinin tətbiqi ilə birgə həyata keçirilməlidir.

İqtisadi artımla, yüksəlişlə bağlı proseslərin sürətlənməsində vergi amili mühüm əhəmiyyət kəsb edir. Ölkənin iqtisadi təhlükəsizliyi üçün həlledici şərtlərdən biri də iqtisadi artım siyasətinin həyata keçirilməsidir. Bu strateji məqsədə nail olmağın mühüm istiqamətlərindən biri məhz bazar münasibətləri sisteminə uyğun, bazar sisteminin tələblərinə cavab verən vergi sistemini formalaşdırmaqdır. Keçid iqtisadiyyatı şəraitində büdcə dolayı vergilər hesabına dolur, əsas ağırlıq aztəminatlı ailələrin, əhali təbəqəsinin üzərinə düşür. Büdcəyə daxil olan vəsaitlər dövlətin ən vacib tələblərini belə təmin edə bilmir. Bu vəziyyətin uzun müddət davam etməsi keçid iqtisadiyyatı yaşayan ölkə üçün olduqca acınacaqlı nəticələr verə bilər. Bazar iqtisadi sisteminə uyğunlaşdırılmış vergi sistemində hüquqi və fiziki şəxslərdən birbaşa daxil olan vergilərin xüsusi çəkisi üstünlük təşkil edir (burada əmək haqqı və sahibkarlıq fəaliyyətindən daxil olan vergilərdir). ABŞ-da belə birbaşa vergilər 75,1% olduğu halda, müstəqil vergilərin həcmi 4% təşkil edir.

Vergilərin yüksək olması iqtisadiyyatın artım tempinin sürətli azalması, tələbin qarşısının alınması amili kimi çıxış edir. Müstəqil vergilər əməyin, kapitalın səmərəliliyi ilə bilavasitə əlaqəli deyildir və əksinə, bunlara əks mövqedə dayanır, ziddir. Bu vergilər antibazar xarakterli olub, onların yüksək olması o qədər də ürəkaçan deyildir. Tədricən vergi sistemində bu vergilərin həcminin məhdudlaşdırılması antiböhran

xarakterli siyasətin tələblərinə cavab verən və iqtisadi islahatların uğurlu davamı kimi qiymətləndirilə bilər. Vergi sisteminin və vergi qanunvericiliyinin bu prinsip əsasında formalaşması, təkmilləşdirilməsi olduqca vacibdir. Çünki büdcəyə və büdcədənkənar fondlara ödəmələrin əsas hissəsi hər hansı və rentabellik səviyyəsinə təsir göstərən istehsal şəraiti, şərtləri nəzərə alınmadan ödənilir.

Vergi sisteminin keyfiyyət xarakteristikası vergilərin ağırlığıdır. Bu da vergilərin hesablanmasında ümumi qəbul edilmiş metodikanın olmasını tələb edir. Vergi yükünün ağırlığı faktı sahibkarlıq fəaliyyətinə və xarici investisiyanın ölkəyə gəlməsinə mane olur.

Vergi siyasətinin konkret vəzifələrindən biri sosial ədalət prinsiplərini nəzərə alaraq və maksimum dərəcədə stimullaşdırıcı formada vergi yükünün mütənasib bölüşdürülməsidir.

Bir sıra ayrı-ayrı sahələrə aid müəssisələrdə və fəaliyyət sahələrində vergi daha çox məngənə rolunda çıxış edərək, müəssisələrin ödəmə fondlarının müsadirəsi funksiyasını yerinə yetirir. Belə təsəvvür yaranır ki, obyektiv səbəblərlə əlaqədar rentabellik səviyyələrindəki kəskin fərqlərə məxsus ayrı-ayrı məhsul növləri üzrə əlavə dəyər vergisinin dərəcəsi differensasiya olunmalıdır. Texnoloji prosesin aralıq həlqələrində də ƏDV-in dərəcəsi minimuma endirmək vacibdir. ƏDV-in dərəcəsinin azaldılması, yaxud da sıfıra çatdırılması ilk növbədə istehsalı azrentabelli yaxud zərərlə başa gələn məhsul növlərinə şamil edilməlidir. ƏDV-in vahid dərəcəsi prinsipindən imtina etmək və sahələr üzrə bu vergi dərəcəsini differensiallaşdırmaq məqsədəuyğun olardı.

Ayrı-ayrı vergiödəyiciləri kateqoriyaları üzrə vergi yükünün azaldılması ilə yanaşı, ölkənin maliyyə təhlükəsizliyi nöqteyi-nəzərindən ÜDM-də vergilərin payının kritik həddə azalmasının qarşısını almaq baxımından vergi bazasının genişləndirilməsi məsələsi də vacib əhəmiyyət kəsb edir.

Makroiqtisadi sabitliyin təmin olunması üçün həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri büdcəyə və büdcədənkənar fondlara daxil olan vergi ödəmələrini və

vergilərin sayını azaltmaq və sistemləşdirməkdir. Ayrı-ayrı regionlar üzrə çoxsaylı müxtəlif vergilərin tətbiqinə yol verməmək lazımdır. Regionlarda yerləşmə xüsusiyyətləri baxımından müəssisələrə ayrılan vergi güzəştlərinə nəzarəti təmin etmək vacibdir.

Akademik Z.Səmədzadə düzgün olaraq qeyd edir ki, «... təşəkkül tapmış vergi sistemi bu və ya digər sahələrin xüsusiyyətlərini kifayət qədər nəzərə almır, regional inkişafla zəif əlaqələndirilmişdir. Fikrimizcə, dünya təcrübəsinə söykənməklə, ölkənin rayonlarının inkişaf səviyyələri arasında disproporsiyaları aradan qaldırmaq məqsədilə regionlar üzrə fərqli olmaqla vergi dərəcələrini aşağı salmaq məqsədəuyğundur» [151, səh. 625].

Vergi mexanizmi kredit-bank siyasəti, faiz stavkası ilə qarşılıqlı fəaliyyət əlaqəli olmalı, bu istiqamətdə maliyyə, kredit təşkilatları və investisiya məqsədləri üçün uzunmüddətli borclardan istifadə edən müəssisələrə müəyyən üstünlüklər verilməlidir.

Buraxılan aksiyaların, istiqraz vərəqələrinin və digər qiymətli kağızlarından əldə olunan investisiya vəsaitlərinin məqsədli cəlbolunma xarakterindən asılı olaraq vergilərin artırılması və ya başqa üstünlük prinsipi üzrə qiymətli kağızlar bazarında müəssisələrin fəaliyyətini fərqli qaydada tənzimləmək lazımdır.

Kapitalın, gəlirlərin və maliyyə vəsaitlərinin geniş miqyasda gizlədilməsi təkcə vergi orqanları deyil əmək kollektivləri, səhmdarlar üçün də mənfi təsirlərə malik olub, qorxulu sosial təhlükə mənbəyidir. Şüurlu qəsdən olaraq gəlirlərin gizlədilməsi ilə müəssisə rəhbərləri müəssisələrdə çalışan işçilərin əmək haqlarını olduqca aşağı səviyyədə saxlayırlar.

Nəticədə aylarla əmək haqlarının verilməsinin gecikdirilməsi, səhmdarların aldadılması adi hala çevrilə bilər. Bu vəziyyət ölkədə aparılan iqtisadi islahatların məqsədlərini heçə endirir və sosial narazılıq alovunu daha da qızışdırır. Nəticədə ölkədə iqtisadi-siyasi stabilliyin pozulmasına real təhlükə yaranır. Əslində, kapitalın, gəlirlərin gizlədilməsi

səhmdarların, mülkiyyətçilərin, o cümlədən sadə vətəndaşların vəsaitlərinin özünəməxsus oğurlanması formasıdır, eyni zamanda onların hüquqlarının pozulmasıdır. Bu mənada, dövlət öz vətəndaşlarının hüquqlarını qorumaq, onlara qarşı belə haqsızlıqların qarşısını almaq üçün qanunvericilik bazasını gücləndirməli, qəbul edilmiş qanunların tətbiqi mexanizmlərini təkmilləşdirməlidir. Bu isə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının mühüm istiqamətlərindən biri kimi böyük əhəmiyyət kəsb edir.

Keçid iqtisadiyyatlı ölkələrdə maliyyə infrastrukturunun geniş inkişaf etməməsini, daxili yığım və iqtisadiyyatın real sektoruna investisiyaların yatırılmasının stimullaşdırılması mexanizmində xətaların olmasını nəzərə alsaq, qeyd etmək olar ki, hökumətin büdcə siyasəti Azərbaycan iqtisadiyyatının dayanıqlılığının pul-kredit tənzimlənməsi alətləri kompleksində mühüm yer tutmağı davam edir.

Məlum olduğu kimi, diskret və qeyri-diskret fiskal siyasətləri ayırırlar. Diskret fiskal siyasət vergilər və dövlət xərcləri ilə məqsədyönlü manipulyasiya tədbirlərini əks etdirir. Qeyri-diskret büdcə siyasəti isə daxili stabilizatorların fəaliyyəti prinsipinə əsaslanır.

Diskret büdcə siyasəti özündə dövlət xərcləri və gəlirləri vasitəsilə iqtisadiyyat üçün məcmu tələbin, real ÜDM-in, məşğulluq və inflyasiyanın əlverişsiz dəyişikliklərinin qarşısının alınması üzrə hökumətin cəhdini əks etdirir. «Diskret» siyasət anlayışı o deməkdir ki, dövlət öz bildiyi kimi gəlirlərin (vergilər, rüsumlar və s.) və xərclərin həcmini dəyişir. Bununla o, milli iqtisadiyyatda və maliyyə sistemində bərqərar olmuş vəziyyətə aktiv təsir etməyə çalışır.

Büdcə siyasətinin 2 əsas tipini ayırırlar: stimullaşdırıcı fiskal siyasət və məhdudlaşdırıcı, yaxud da restrektiv fiskal siyasət.

Stimullaşdırıcı fiskal siyasət adətən büdcənin xərc hissəsinin gəlir hissəsini üstələməsinə istiqamətlənmiş olur. Başqa sözlə, o, büdcə kəsirinin artmasını nəzərdə tutur. Stimullaşdırıcı fiskal siyasət iqtisadi tənəzzül dövründə həyata

keçirilir, bu zaman iqtisadiyyatda məcmu tələbin çatışmazlığına görə investisiya aktivliyi aşağı düşür.

İqtisadiyyatın sağlamlaşdırılması məqsədilə dövlət fiskal siyasətin dövlət xərclərinin artırılması, vergilərin azaldılması, yaxud da onların hər ikisinin kombinasiyasının tətbiqi kimi stimullaşdırıcı alətlərindən istifadə edir. Stimullaşdırıcı fiskal siyasətin həyata keçirilməsi zamanı dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi formaları; borc almaq, yaxud da yeni pulların buraxılışı iqtisadi artıma əhəmiyyətli təsir göstərir.

Məhdudlaşdırıcı büdcə siyasəti dövlət tərəfindən iqtisadiyyatın yüksəliş dövründə həyata keçirilir. Onun məqsədi artan məcmu tələbi inflyasiyanı yüksəltməyə qoymamaqdan ibarətdir. İnflyasiyanın artması isə öz növbəsində iqtisadiyyatı kəskin tənəzzülə gətirib çıxara bilər. Məhdudlaşdırıcı büdcə siyasətini həyata keçirərkən dövlət dövlət xərclərini azaldır, vergiləri artırır, yaxud da onların hər ikisini birlikdə həyata keçirir.

Məlum olduğu kimi, qeyri-diskret büdcə siyasətinin mahiyyəti ondan ibarətdir ki, dövlət iqtisadiyyata fəal müdaxilə tədbirləri həyata keçirməsə də, vergi sistemində daxili stabilizator istifadə oluna bilər: büdcəyə təmiz vergi daxilolmaları (vergilər minus transfert ödəmələr və daxilolmalar) iqtisadi yüksəliş dövründə artır, tənəzzül dövründə isə azalır, yəni avtomatik olaraq sahibkarlıq aktivliyi tsiklinin dəyişikliklərinin tam əksinə olaraq dəyişir.

**Cədvəl 3.2.**

**Ayrı-ayrı vergi növləri üzrə büdcəyə vergi daxilolmalarının strukturu** [188]

| Vergi növləri | Büdcəyə vergi daxilolmalarının xüsusi çəkisi, %-lə | | | | |
|---|---|---|---|---|---|
| | 1995 | 2000 | 2002 | 2004 | 2006 |
| ƏDV | 9,6 | 26,7 | 36,8 | 30,0 | 19,0 |
| Aksiz vergisi | 5,6 | 3,1 | 9,5 | 4,8 | 4,8 |
| Xalis mənfəət vergisi | 27,2 | 17,6 | 16,2 | 14,8 | 35,1 |
| Mədən vergisi | 2,3 | 7,0 | 5,5 | 6,5 | 2,5 |
| Fiziki şəxslərin gəlir vergisi | 7,2 | 13,2 | 12,0 | 14,7 | 10,5 |
| Əmlak vergisi | 0,3 | 1,7 | 2,2 | 2,1 | 1,4 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 2,8 | 8,9 | 8,3 | 6,7 | 3,6 |
| Torpaq vergisi | 0,3 | 0,9 | 1,0 | 0,9 | 0,4 |
| Büdcəyə vergi daxilolmalarının xüsusi çəkisi (%) | 55,4 | 79,1 | 91,5 | 80,5 | 77,7 |
| ÜDM-də vergi yükü (%) | 8,2 | 12,0 | 13,7 | 14,5 | 16,6 |
| ÜDM-də büdcə yükü (%) | 14,9 | 15,1 | 15,0 | 18,0 | 21,4 |

Cədvəl 3.2.-nin təhlili göstərir ki, vergi yükü (VY) və büdcə yükünün (BY) ÜDM-də artım tempi müşahidə olunur. Ona görə ki, VY 2,1%, BY isə 3,4% artmışdır. Cədvəldən göründüyü kimi, 1995-2002-ci illər ərzində ÜDM-də BY praktiki olaraq dəyişməz qalmış, 2004-cü ildən başlayaraq isə kəskin artmağa başlamış, 2006-cı ildə BY (2006-cı il) = 21,4% olmuşdur və nəticədə biz perspektivdə iqtisadi təhlükəsizliyə təhdid tördən ÜDM-də büdcə yükü almış ola bilərik. Xarici və MDB ölkələrinin təcrübəsindən aydın olur ki, 20-25% büdcə yükü qəbul olunandır və makroiqtisadi sabitliyə təhlükə yaratmır. Lakin büdcə yükünün sonrakı artımı iqtisadi təhlükəsizliyə mənfi təsir göstərər və makroiqtisadi sabitliyi poza bilər. Nəzərə almaq lazımdır ki, büdcə təşkilatlarında işləyənlərin əmək haqlarının və müdafiə, elm, təhsil və s. xərclərinin artırılmasının planlaşdırılması ilə əlaqədar olaraq büdcənin həcmi fasiləsiz olaraq artacaq. Yaranmış vəziyyətdən yeganə çıxış yolu BY-nün ölçülərini yol verilən göstəricilər çərçivəsində tarazlaşdırmaqdan ibarətdir. Bunun üçün qeyri-neft sektorunun intensiv inkişaf etdirilməsi, kiçik

biznesin, aqrar sektorun və kiçik sahibkarlıq nəzdində xidmət bölməsinin maliyyələşdirilməsi və güzəştli kreditləşdirilməsi üzrə əlavə dövlət proqramlarının qəbul olunması yolu ilə ÜDM-in özünün həcminin artırılmasına nail olmaq lazımdır.

ÜDM-də vergi yükünün (VY) təhlili də müəyyən maraq kəsb edir. Büdcə yükündən (BY) fərqli olaraq VY 1995-2006-cı illər ərzində fasiləsiz artım xarakterinə malikdir. VY-nün nisbətən kəskin artımı 1995-2000-ci illər ərzində baş vermiş və 1,46 dəfə təşkil etmişdir. BY-nün VY-nə nisbətən isə aşağıdakı kimidir:

$$\frac{BY}{VY}(1995) = 1{,}82 \text{ dəfə} \qquad \frac{BY}{VY}(2004) = 1{,}24 \text{ dəfə}$$

$$\frac{BY}{VY}(2000) = 1{,}26 \text{ dəfə} \qquad \frac{BY}{VY}(2006) = 1{,}76 \text{ dəfə}$$

Bu rəqəmlər onu göstərir ki, ÜDM-də BY-nün VY-nə nisbəti 2000-2004-cü illər ərzində sabitləşmiş, 2006-cı ildən isə artmağa başlamışdır.

Büdcəyə vergi daxilolmalarının dinamikasının təhlili maraqlıdır. 1995-2002-ci illər ərzində bu göstərici fasiləsiz artmışdır. Həmin dövr ərzində bu göstərici 1,65 dəfə artmış, lakin 2002-2006-cı illər ərzində 1,2 dəfə azalmışdır. Bu o deməkdir ki, büdcənin formalaşmasında digər mənbələr də (vergilərdən başqa) əhəmiyyətli rol oynamağa başlamışdır. Bu vəziyyət iqtisadi təhlükəsizliyə müsbət təsir göstərir, ona görə ki, büdcənin formalaşmasının vergilərin yığılması səviyyəsindən asılılığı ilə bağlı risk nisbətən azalır.

**Cədvəl 3.3.**

**Dövlət büdcəsi gəlirlərinin dinamikası (mln.manat) [7, səh. 348]**

| Gəlirlər | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Gəlirlər – cəmi | 316,9 | 714,6 | 784,8 | 910,2 | 1220,9 | 1509,5 | 2055,2 | 3868,8 |
| o cümlədən: | | | | | | | | |
| Dövriyyədən vergi | - | - | - | - | - | - | - | - |
| Əlavə dəyər vergisi | 30,6 | 190,8 | 253,3 | 334,9 | 409,7 | 452,7 | 599,9 | 737,8 |
| Aksizlər | 17,7 | 22,4 | 110,9 | 86,7 | 67,0 | 72,4 | 141,0 | 187,4 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 86,3 | 125,9 | 117,6 | 147,8 | 178,3 | 223,4 | 355,4 | 1360,5 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Mədən vergisi | - | 50,4 | 47,5 | 50,0 | 56,7 | 97,8 | 53,5 | 100,2 |
| Fiziki şəxslərin gəlir vergisi | 22,8 | 94,0 | 94,7 | 109,7 | 150,4 | 221,6 | 317,4 | 407,3 |
| Əmlak vergisi | 0,9 | 11,8 | 12,4 | 20,0 | 26,6 | 32,2 | 40,4 | 55,8 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 8,9 | 63,4 | 59,9 | 75,2 | 92,7 | 101,5 | 205,2 | 139,3 |
| Yerli vergi və yığımlar | 2,8 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| Digər gəlirlər | 20,7 | 117,9 | 65,3 | 63,4 | 209,7 | 277,3 | 288,2 | 816,1 |
| Torpaq vergisi | 0,8 | 6,7 | 10,4 | 8,8 | 11,3 | 14,1 | 15,3 | 18,5 |
| Xərclərin ödənilməsinə yönəldilmiş vəsaitlər | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| Sair gəlirlər | 125,4 | 31,3 | 12,8 | 13,7 | 18,5 | 16,5 | 38,9 | 45,9 |

Bu cədvəlin təhlili göstərir ki, ƏDV-nin büdcədə xüsusi çəkisi 1995-2002-ci illər ərzində 3,83 dəfə artmışdır, 2002-2004-cü illər ərzində 1,23 dəfə azalmış, 2004-2006-cı illər ərzində 2 dəfə azalmışdır. Qeyd etmək lazımdır ki, ƏDV büdcənin doldurulması üçün ən optimal mənbələrdən biridir. Bu göstəricinin 2002-2006-cı illər ərzində nisbətən aşağı düşməsi onu göstərir ki, ƏDV üzrə vergi siyasəti sahəsində tədbirləri gücləndirmək lazımdır. Daha dərin təhlillər onu göstərir ki, ÜDM-in artım tempi əsasən istehsal həcminin artımı, yəni ƏDV üzrə vergiyə cəlb olunan uyğun əmtəə və xidmət buraxılışı həcminin artımı ilə əlaqədardır. Fikrimizcə, vergi inzibatçılığının gücləndirilməsi və bu sahədə uyğun profilaktik tədbirlərin həyata keçirilməsi bu göstəricinin büdcədə xüsusi çəkisinin artmasına kömək edəcək.

Fiziki şəxslərin gəlir vergisinin büdcə gəlirlərində xüsusi çəkisinin daha sistemsiz dinamikası onunla əlaqədardır ki, bir çox kiçik müəssisələr və fiziki şəxslər bu vergidən yayınmaq imkanına malikdirlər. Çünki əmtəə və xidmətlərin həcminin artması ilə iqtisadi artım prosesinə cəlb olunanların sayı da proporsional olaraq artır və şəxsi bizneslə məşğul olan fiziki şəxslərdən tutulan gəlir vergisinin həcmi də daha yüksək sürətlə artmalıdır. Vəziyyətdən çıxış yolu fikrimizcə, yenə də kiçik biznes və şəxsi sahibkarlıq sahəsində vergi inzibat-

çılığının gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi olmalıdır.

Vergi daxilolmalarının digər mühüm komponenti müəssisə və təşkilatların xalis mənfəətinə tətbiq olunan vergidir. 1995-2004-cü illər ərzində büdcə gəlirlərinin strukturunda bu göstəricinin xüsusi çəkisi 1,84 dəfə azalmışdır. Bu rəqəm onu göstərir ki, müəssisə və təşkilatlarda yeni texnologiya və innovasiyaların səmərəli tətbiqi həmin dövr ərzində qənaətbəxş səviyyədə olmamışdır. Lakin 2004-2006-cı illər ərzində bu göstərici nisbətən artmışdır (2,1 dəfə). Bu isə iqtisadiyyatda baş verən ümumi müsbət meyillərlə əlaqədardır, əsasən Dövlət Neft Şirkətinin gəlirlərinin artması ilə, digər sahələrdə isə milli iqtisadiyyatın yeni texnologiya və innovasiyalarla silahlandırmaqla yaranmış vəziyyəti dəyişmək olar.

**Cədvəl 3.4.**

**Dövlət büdcəsi xərclərinin dinamikası**
**(mln.manat)** [7, səh. 348]

| Gəlirlər | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Xərclər – cəmi | 428,4 | 764,0 | 807,5 | 931,8 | 1234,5 | 1502,1 | 2140,7 | 3790,1 |
| o cümlədən: | | | | | | | | |
| İqtisadiyyata | 52,6 | 89,4 | 102,4 | 137,0 | 242,9 | 290,9 | 444,7 | 1246,9 |
| Sosial-mədəni tədbirlərə | 151,2 | 382,7 | 396,4 | 449,6 | 535,2 | 642,2 | 843,3 | 1049,7 |
| onlardan: | | | | | | | | |
| Təhsilə | 75,2 | 181,8 | 186,2 | 191,2 | 234,8 | 294,1 | 372,5 | 479,1 |
| Mədəniyyət, incəsənət, informasiya və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 9,0 | 18,0 | 19,4 | 20,5 | 28,0 | 34,1 | 45,5 | 59,9 |

Aşağıdakı qrafikdə dövlət büdcəsinin gəlir və xərcləri müqayisəli qaydada verilmişdir.




**Qrafik 3.1.**

Əgər 1995-ci ildə (iqtisadi qeyri-sabitlik dövründə) dövlət büdcəsi xərclərinin ÜDM-ə nisbəti 20% təşkil edirdisə, sabitlik dövründə bu göstərici artıq 17% təşkil etmişdir. Əgər şərti «büdcə kəsri» (ÜDM-də normalaşdırılmış faiz nisbətləri ilə)1995-ci ildə Δ=5% təşkil edirdisə, 2004-cü ildə o, artıq sıfıra bərabər olmuşdur. Gəlir və xərclərin fərqinin mütləq normasının (/Δ/) inkişaf dinamikası minimumlaşma meylinə malik olmuşdur və 2003-cü ildən etibarən tarazlaşma situasiyası müşahidə olunmağa başlamışdır.

Seçilmiş iqtisadi məqsədlərdən, iqtisadiyyatın inkişaf səviyyəsi və vəziyyətindən asılı olaraq hökumət büdcə siyasətinin prioritet vəzifələrini müəyyən edir. Bazar iqtisadiyyatlı ölkələrdə büdcə siyasətinin vəzifələrindən biri istehsalın elə sahələrinin maliyyələşdirilməsindən ibarətdir ki, həmin sahələrdə şəxsi sahibkar maraqları və bazar münasibətləri fəaliyyət

göstərmir, yaxud da qeyri-səmərəli fəaliyyət göstərir, eləcə də cəmiyyətin ayrı-ayrı təbəqələrinin maraqlarının və bütövlükdə cəmiyyətin maraqlarının qorunması tələb olunan sahələrdə.

Qarşıya qoyulan vəzifələrdən asılı olaraq dövlət büdcəsinin tənzimlənməsi baş verir. Dövlət büdcəsinin tənzimlənməsi probleminə müxtəlif yanaşmalar mövcuddur. Bu zaman optimal strategiya anlayışı mövcud deyildir. Bəzi iqtisadçılar və siyasətçilər hesab edirlər ki, büdcə hər il tarazlaşdırılmalıdır, digərləri isə tsiklik tarazlaşdırılan büdcə konsepsiyasının (büdcənin gah kəsirli, gah da gəlirli olması) tərəfdarıdırlar.

Büdcə siyasətinin səmərəliliyinin əsas göstəriciləri büdcə gəlirlərinin (o cümlədən vergilərin) yığım səviyyəsi, büdcə öhdəliklərinin yerinə yetirilmə səviyyəsi, büdcə kəsirinin (gəlirinin) ölçüsü və dövlət borcunun artım (azalma) sürətidir. Dövlətin iqtisadiyyatda yeri ÜDM və dövlət büdcəsi xərclərinin nisbəti ilə, yəni büdcə yükü ilə, eləcə də ÜDM və büdcəyə vergi daxilolmalarının nisbəti – vergi yükü ilə xarakterizə olunur. Bu nisbətlər nə qədər yüksək olarsa, dövlət iqtisadiyyatda bir o qədər böyük rol oynamış olur. Azərbaycanda 2006-cı ildə ÜDM-də büdcə və vergi yükləri uyğun olaraq 21,4% və 16,6%-dir, eyni zamanda mütəxəssislərin fikrincə, ölkənin iqtisadi artımı üçün onların hədd göstəriciləri 25% və 20%-dir. Yüksək vergi və büdcə yükünün xarakterik cəhətlərindən biri gizli iqtisadiyyatın əhəmiyyətli çəkisidir. Dinamik inkişaf edən ölkələrdə bu göstərici 20-30%-dir.

Hər bir ölkənin iqtisadi təhlükəsizliyini, ümumilikdə milli təhlükəsizliyini zərbə altına alan, vəziyyətin böhran həddinədək gəlib çatmasına şərait yaradan əsas səbəblərdən biri ölkə iqtisadiyyatında istehsalın payının azalması, istehsal sisteminin tənəzzülə uğraması və tədricən dağılmasıdır. Belə vəziyyət iqtisadiyyatın müxtəlif sahələrində, sferalarında gəlirin səviyyəsinə mənfi təsir göstərərək, həmin sahələrin, o cümlədən istehsal sferasının özündə də maliyyə vəziyyətinin pisləşməsinə, onların ödəməqabiliyyətinin aşağı düşməsinə gətirib çıxarır. Bu, öz əksini büdcə proseslərində, xüsusilə büdcə kəsirinin əmələ gəlməsilə daha aydın şəkildə büruzə

verir. İstehsalın aşağı düşməsi və maddi istehsal sferasında maliyyə vəziyyətinin pisləşməsi büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərərək, vergi gəlirlərinin həcmini azaldır. Nəticədə büdcədən maliyyələşən sahələrə dövlətin ayırdığı vəsaitlərin də həcmi azalır. Orada çalışan işçilərin əmək haqlarının azalması, işçi qüvvəsinin ixtisar olunması, işsizlik probleminin getdikcə dərinləşməsi və tədricən həmin sahələrin, istehsal sferasının sürətlə dağılması, ümumilikdə iqtisadi sistemin tənəzzülə uğraması başlayır. Belə şəraitdə iqtisadi, istehsal fəallığının azalması ilə yanaşı, investisiya fəallığının aşağı düşməsi maddi istehsal sferasında avadanlıqların, əsas kapitalın fiziki-mənəvi köhnəlməsini, sıradan çıxmasının qarşısını ala bilmir, nəticədə bu proses getdikcə dərinləşir.

Bu proseslər öz təsirini real sektorun müxtəlif sahələrində də büruzə verir. Ölkənin elmi-texniki potensialının formalaşmasını müəyyənləşdirən tədris müəssisələrinin fəaliyyətinin pisləşməsi, kadr hazırlığın keyfiyyətinin, səviyyəsinin aşağı düşməsi, sosial iqtisadi vəziyyətin kəskinləşməsi, əhalinin orta ömür müddətinin azalması, müəssisələrin müflisləşməsi, ölkənin elmi-texniki potensalının zəifləməsi, belə demək mümkünsə, tükənməsi, ölkədən ixtisaslı kadrların, savadlı insanların, «beyinlərin» uzaq, yaxın xaricə axınının güclənməsi ilə ölkənin siyasi, iqtisadi, hətta demoqrafik təhlükəsizliyi üçün ciddi təhdidlər yaranır.

Kəsirli büdcə başqa bir problem yaradır. Əslində bu dövlətin borcunun artması deməkdir. Dövlət borcları iki yerə – daxili və xarici borclara bölünür. Daxili borc dövlətin öz təşkilat və vətəndaşlarına borclu qalmasıdır, xarici borclar isə dövlətin başqa dövlətlərin təşkilat və vətəndaşlarından aldığı, lakin hələlik qaytara bilmədiyi borclardır.

Dövlət büdcəsinə qənaət etmək inflyasiyaya qarşı mübarizədə güclü vasitədir. Dövlət aparatını saxlamaq üçün sərf olunan məsrəfləri ixtisar etmək, dövlət büdcəsinin kəsinini azaltmaq və inflyasiya səviyyəsini aşağı salmaq üçün əsas istiqamətlərdən biridir. Məsələn, bu sahəyə sərf olunan məsrəflər iki dəfə azaldılarsa inflyasiya düşər, dövlət büdcəsinin kəsiri

isə 5 faiz azalar [176, səh. 451]. Dövlət borclarının olmasının aşağıdakı dörd iqtisadi nəticələrini göstərmək olar:

1. Dövlət borcunun artması həmin dövlətin əhalisinin istehlakının azalmasına, bu isə əhalinin maddi rifah halının pisləşməsinə səbəb ola bilər;

2. Dövlət borcunun artması xüsusi kapitalın istehsaldan sıxışdırılıb çıxarılmasına, bunun özü isə iqtisadiyyatın tənəzzülü ilə nəticələnər;

3. Dövlət öz borcunu vermək məqsədi ilə vergiləri həddindən çox artıra bilər, bu isə iqtisadi fəallığa əks təsir göstərir;

4. Gəlirlərin yenidən bölgüsü zamanı dövlət istiqraz vərəqələrindən öz xeyrinə istifadə edə bilər.

Bütün dövlətlərdə xarici borcların olması obyektiv prosesdir. Yalnız müəyyən səviyyəni keçdikdən sonra xarici borc ölkənin iqtisadi təhlükəsizliyinə təhlükə törədir. Məsələn, ABŞ kimi yüksək inkişaf etmiş ölkənin orta hesabla xarici borcu ümumi daxili məhsulun 30-50 faizini təşkil edir. Belə vəziyyət ABŞ-ın iqtisadi təhlükəsizliyi üçün qorxulu deyil, əgər xarici borc ümumi daxili məhsulun həcmindən 2,5 dəfə çox olarsa ölkənin iqtisadi və maliyyə təhlükəsizliyi qorxu altına düşə bilər [90]. İqtisadi fəallığın ümumi səviyyəsinin və istehsalın azalması kapital yığımının və artım potensalının zəifləməsinə gətirib çıxarır. Davamlı iqtisadi tənəzzül şəraitində iqtisadi potensialının zəif iqtisadi fəallıq səviyyəsinə adaptasiya olunması, uyğunlaşması ölkəni daxili inkişaf mənbələrindən məhrum edərək, onu iqtisadi və siyasi cəhətdən asılı vəziyyətə salır.

Zəif iqtisadi fəallıq sadə təkrar istehsalı və müdafiə qabiliyyətini saxlamağa, təmin etməyə imkan vermir. Bu vəziyyət ölkə ərazisini təsərrüfatçılıq baxımından tam mənimsəməyə, yəni məskunlaşmanın səviyyəsinə mənfi təsir göstərərək, müxtəlif regionlardan əhalinin kütləvi axınına şərait yaradır. Nəqliyyatda, energetikada, kimya sənayesində və başqa əsas, baza sahələrdə qəzaların, faciələrin artması halları baş verir. Bu proseslərin ölkəyə, dövlətə zəiflədici, aqressiv

təsiri, iqtisadi məkanda yaranan «seyrəkləşmə» bədxah niyyətli xarici qüvvələrin, o cümlədən lobbiçilik maraqlarına xidmət edən şirkətlərin ölkəyə axınına şərait yaradaraq, ölkənin informasiya-kommunikasiya, iqtisadi məkanında öz nəzarətlərini gücləndirməyə, ölkənin hakimiyyət orqanlarına təsirini, təzyiqlərini artırmağa imkan verir.

Belə olan halda ölkənin maliyyə bazarında xarici kapitalın axınının güclənməsi əsas infrastruktur sahələri, maliyyə institutları və iqtisadi sistemin əsas sahələri üzərində dövlət öz maraqlarından geri çəkilməyə məcmur olur. Tədricən ölkənin elmi-texniki potensialının zəifləməsi, tükənməsi onun elmi-texniki tərəqqi ilə bağlı daxili imkanlarını iflic vəziyyətə salaraq, ölkənin xaricdən texnologiya və avdanlıq ixracından, eləcə də xarici mütəxəssislərin potensialından asılı vəziyyətə düşməsinə səbəb olur.

İqtisadiyyatın mühüm sahələri üzərində dövlət milli maraqlarının itirilməsi təhlükəsi qiymətli kağızlar bazarında xarici portfel investisiyaların həcminin artması ilə özünü büruzə verir. Heç də sirr deyil ki, yerli müəssisələrin vəsait çatışmazlığı və lidkvidlik böhranı fonunda xarici kompaniyaların sənaye sahələri üzərində nəzarəti ələ almaları imkanının reallaşması baş verir. Kəskin büdcə kəsiri şəraitində bəzən hökumət bu vəziyyəti aradan qaldırmaq üçün müxtəlif təyinatlı müəssisələri, hətta təbii qiymətli resurslarla zəngin torpaq sahələrini də xarici şirkətlərə satmaq məcburiyyətində qalır.

Nəticə etibarilə, ölkənin resurs potensialının da dağılmaq, israf olunmaq təhlükəsi yaranır. Burada əsas rol oynayan insan potensialı üçün ciddi təhlükə meydana çıxır. Bu çətin sosial-iqtisadi vəziyyətlə əlaqədar yaşayış səviyyəsinin aşağı düşməsi, orta ömür müddətinin azalmasından, əhalinin sayının azalması, təhsilin və səhiyyənin səviyyəsinin aşağı olması müasir iqtisadi inkişaf şəraitini istisna edir.

İqtisadi sferada ölkənin milli maraqlarına real təhlükə yaranması onun elmi-texniki potensialının dağılması, elmi tədqiqatların, yeni texnika və texnologiyanın yaradılması istiqamətində işlərin həcminin azalması, innovasiya fəallığının

kəskin şəkildə aşağı düşməsinə səbəb olur. Elmi-texniki tərəqqi müasir iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi olduğundan bu istiqamətdə davamlı tənəzzül prosesinin gedişi ölkənin sabit inkişafı və müstəqilliyinin əsaslarını sarsıdır.

Müasir iqtisadi inkişaf nəzəriyyəsində belə bir sadə müddəa özünə yer tapmaqdadır; ölkənin xammal üzrə ixtisaslaşması və onun dünya təsərrüfatı əlaqələrinə inteqrasiyası. Bu aşağıdakı ardıcıllıqla baş verir: xammalın ixracı-maşınqayırma və istehlak mallarının idxalı. Bu, qeyri-ekvivalent xarici iqtisadi mübadiləyə və iqtisadi inkişaf səviyyəsində baş verən xroniki geriləməyə səbəb olur. Bu maşınqayırma və xammal məhsullarının qiymətəmələgəlmə xüsusiyyətlərinə əsaslanır. Birinci halda mühüm məsələ intellektual renta (yəni elmi-texniki yeniliklərdən istifadə sahəsində müvəqqəti mononomiya ilə əlaqədar əmələ gəlir, formalaşır və iqtisadi inkişafa uyğun olaraq gələcək elmi-texniki sahədə tədqiqat işlərinin maliyyələşdirilməsi mənbəyi kimi çıxış edir), ikinci halda isə təbii renta (əsasən, maşınqayırma məhsullarının hazırlanması, istehlak məqsədilə və qismən də investisiyaların maliyyələşməsində istifadə oluna bilir). Beləliklə, ölkə xammal ixracı üzrə ixtisaslaşırsa, təbii rentanın ixracının inflyasiyanın idxalına mübadiləsi baş verir, yəni zahirən qeyri-ekvivalent xarici iqtisadi mübadilə hesabına xaricdə iqtisadi artımı maliyyələşdirmək təsiri bağışlayır. Bu yolla resursların axını olduqca geniş miqyasda ola bilər (məsələn, yeni elektron texnikası və onun proqram təminatının qiyməti müqabilində intellektual rentanın payı 50%-dən çoxdur).

Ölkədə makroiqtisadi sabitləşməyə nail olunması ilə büdcə kəsirinin azaldılması iqtisadiyyatın çoxamilli və çoxfunksiyalı artımına imkan yaradır. Buna əsaslanaraq ayrı-ayrı dövrlər üzrə büdcə vəsaitlərinin düzgün yerləşdirilməsi və onun istifadəsində şəffaflığın təmin olunması iqtisadi təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən amil kimi özünü büruzə verir.

Cədvəl 3.5.

**Azərbaycan Respublikası Dövlət Büdcəsinin gəlir, xərc və kəsiri 1995-2006-cı illər**

| Göstəricilər mln.manat | İ l l ə r | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| Gəlirlər | 316,9 | 714,6 | 784,8 | 910,2 | 1220,9 | 1509,5 | 2055,2 | 3868,8 |
| ÜDM-də payı %-lə | 14,8 | 15,1 | 14,7 | 15,0 | 17,4 | 18,0 | 17,3 | 21,4 |
| Xərclər | 428,4 | 764,0 | 807,5 | 931,8 | 1234,5 | 1502,1 | 2140,7 | 3790,1 |
| ÜDM-in payı %-lə | 20,0 | 16,2 | 15,2 | 15,4 | 17,6 | 17,9 | 18,0 | 21,0 |
| Kəsir | -111,5 | -49,4 | -22,7 | -21,6 | -13,6 | +7,4 | -85,5 | +78,7 |
| ÜDM-in payı %-lə | 5,2 | 1,0 | 0,4 | 0,4 | 0,2 | 0,1 | 0,7 | 0,01 |

Mənbə: Cədvəl müəllif tərəfindən Azərbaycanın statistik göstəriciləri əsasında tərtib olunmuşdur.

Ümumiyyətlə, müasir beynəlxalq rəqabət şəraitində elmi-texniki və intellektual potensialın azalması və qiymətdən düşməsi ölkənin iqtisadi inkişafında daxili mənbələrin, hərəkətverici qüvvələri sıradan çıxararaq, qeyri ekvivalent xarici iqtisadi mübadilə ilə ölkəni onun malik olduğu milli sərvətlərdən məhrum olmağa sürükləyir.

## 3.3. İnvestisiya, innovasiya potensialının artırılmasında pul-kredit sisteminin rolu

İqtisadi islahatlar dövründə iqtisadiyyatda aparılan struktur dəyişiklikləri qarşıda duran prioritet vəzifələr deyildir. Məhz səmərəli fəaliyyət göstərən iqtisadi sistem istehsalatda köhnəlmiş texnologiyanın fasiləsiz olaraq yenisi ilə əvəz edilməsi və istehsalın müasir dövrün tələbləri səviyyəsində idarə edilməsini tələb edir. İqtisadiyyatda innovasiya sferası struktur dəyişikliklərinin əsas nüvəsi, özəyi hesab olunur və onun inkişaf səviyyəsi milli iqtisadi sistemdə aparılan sürətli və keyfiyyətli dəyişikliklərin müəyyənedici amili kimi çıxış edir.

İstehsalda texnologiyanın yeniləşməsi prosesi inteqrasiya xarakterli proses olub, insan, maddi və intellektual resursların cəlb edilməsi və onların birgə tətbiqini tələb edir. Məhz iqtisadi inteqrasiyanın ən yüksək inkişaf səviyyəsinə innovasiya proseslərində nail olmaq olur. Bu prosesin səmərəliliyi bu resursların uğurlu kombinasiyasının formalaşmasına kömək edən şəraitdən asılıdır.

Hüquqi və təşkilati baxımdan innovasiya sferası ayrılmamışdır: elmi fəaliyyət öz normativ aktları çərçivəsində gedir. Patent hüququ yalnız intellektual mülkiyyəti, innovasiya ideyalarını tənzimləyir, müqavilə hüququ-investisiya əməkdaşlığı formalarını, təsərrüfat hüququ-innovasiya layihələrinin reallaşması proseslərini tənzimləyir. İnnovasiya sferasında proseslərin fəallığında informasiya mühitinin, məkanının da rolunu qiymətləndirmək vacibdir. Bu sferada informasiya prosesləri innovasiya ideyalarının daşıyıcıları, investorlar və innovasiya proseslərinin təşkilatçıları arasında xüsusi olaraq qarşılıqlı təsir proseslərini təmin edir. Burada innovasiya proseslərinin iştirakçıları arasında innovasiya fəaliyyyətini stimullaşdıran, bu fəaliyyətə marağı formalaşdıran, təmin edən psixoloji mühitin də rolu əvəzedilməzdir.

Qanunverici bazanın inkişafı şəraitində bu amillərin nəzərə alınmaması mümkün deyildir. İnnovasiya fəaliyyətində stimul və marağın dərk edilməsi innovasiya proseslərinə maksimal sayda adamların cəlb olunması səviyyəsini əvvəlcədən müəyyənləşdirir. Məsələn, Avropada bütün maraqlananların innovasiya proseslərinə cəlb olunması fəallığının artırılması innovasiya strategiyasının işlənib-hazırlanmasında strateji məqsədlər kimi qarşıya qoyulmuşdur. İqtisadi böhran şəraitində innovasiya proseslərinin canlanmasında insan potensialından düzgün istifadə etmək innovasiya sferasının inkişafına kömək edə bilər.

İnnovasiya sferasında bütün növ resursların inteqrasiyasına çətinlik törədən bir sıra maneələr vardır. Bununla yaxından tanış olaq.

1. «Elm-innovasiya layihəsi» arasında maneə. İnnovasiya sferasında elm və istehsal arasında ənənəvi bir sədd, maneə vardır. Fundamental, tətbiqi, eləcə də sahələrlə bağlı elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi prinsipləri bu elmi işlərin haqqının ödənilməsinin onlardan istifadə səviyyəsindən asılılığını təmin etmir. Elmi işlərdən istifadə olunma səviyyəsi onların məzmunu, eləcə də səmərəli innovasiya layihələrində dünya təsərrüfatı sisteminin bu elmi-texniki yeniliklərdən istifadəyə hazır olmasından asılıdır. Məhz böhran şəraitində innovasiya layihələrində elmi tətqiqatların nəticələrindən istifadəyə nəzarəti gücləndirmək məqsədəuyğun olardı.

2. «İnnovasiya layihəsi-maliyyə sistemi» arasında maneə. Bir çox hallarda innovasiya sferasında yaranan maneələr təkcə investisiya vəsaitlərinin çatışmazlığı ilə deyil, həm də innovasiya ideyalarının çatışmazlığı innovasiya layihələrini həyata keçirə bilən menecerlərin az olması səbəblərindən irəli gəlir. İnnovasiya layihələrinin həyata keçirilməsinə başlanğıc üçün zəruri vəsaitin həcminin dünya təcrübəsində layihələrin maliyyələşdirilməsi təcrübəsinin öyrənilməsindən sonra müəyyən edilməsi işin xeyrinə olardı. Çünki bu gün Qərb iqtisadiyyatı kreditləşmə yolu ilə inkişaf etməkdədir və belə layihələrin də reallaşması çoxlu sayda investorların, böyük həcmdə vəsaitlərin bu proseslərə cəlb edilməsini tələb edir.

İnnovasiya layihələrinə investisiya vəsaitlərin cəlb olunmasında əsas maneə yaradan səbəblərdən biri aparılan tədqiqatlar, sona çatmış layihələr innovasiya ideyalarından kommersiya məqsədləri ilə istifadə barəsində toplanmış informasiyanın, məlumatların, eləcə də bu informasiyanın yayılmasını təmin edən vahid, ümummilli informasiya sisteminin olmamasıdır. Dünyada STN adlanan bir sistem yaradılmışdır ki, bu da ABŞ, Yaponiya və Almaniya kimi üç nəhəng elmi-texniki informasiya mərkəzlərini öz ətrafında birləşdirir. Bu sistem «on-line» rejimində bütün istifadəçilər üçün anlaşıqlıdır, əlçatandır, lakin onun tətbiqi imkanları maliyyə baxımından məhduddur.

Bazar iqtisadiyyatı şəraitində hər bir şirkət, firma, bank ölkədəki innovasiya imkanları barəsində informasiya almaq imkanını təmin edəcək şəxsi informasiya sistemini, şəbəkəsini yaradır. Lakin bununla yanaşı, belə subyektlər dövlət orqanları ilə birgə ölkədə vahid, ümumi informasiya sisteminin yaradılmasına çalışmalıdırlar. Dünyada belə sistemlərin yaradılmasi dövlət tərəfindən maliyyələşdirilir. Zaman keçdikcə belə sistem özünü doğruldaraq, öz xərclərini ödəməklə yanaşı, gəlirlə də işləyirlər.

3. «İnformasiya izolyasiyası» maneəsi. İnvestisiya ilə bağlı qərarların qəbul edilməsində dinamik inkişaf edən müasir dünyada baş verən reallıqları adekvat olaraq əks etdirən informasiya toplusundan istifadə etmək zərurəti meydana çıxır. Lakin bir sıra hallarda dünya informasiya şəbəkəsinə qoşulmaq, onun imkanlarından bəhrələnmək bu sistemdəki xidmətlərin qiymətləri ilə bağlı məhdudiyyətlər səbəbindən çətinləşir. Güclü konsaltinq şirkətlərində keyfiyyətli, yüksək səviyyəli investisiya layihələrinin işlənib hazırlanması onların bu layihələrdə nəzərdə tutulan həcmdə işləri dəqiq proqnozlaşdırmağa imkan verən dünya təsərrüfatı sistemi haqqındakı məlumatlar bazasından geniş istifadə imkanlarının olması ilə əlaqədardır. Məhz bu məlumatlar investisiya layihələrinin səmərəliliyini müəyyən edən rəqabətqabiliyyətliliyi qiymətləndirməyə imkan verir. Belə şirkətlər şəxsi informasiya resursları ilə yanaşı, kommersiya banklarının məlumatlarından da istifadə edə bilərlər və bu onların xeyrinə olardı.

Yuxarıda dediklərimiz yüksək texnologiyalı innovasiya layihələri ilə bağlı investisiya qərarlarının qəbul edilməsinə aiddir. Aydındır ki, innovasiya fəaliyyətinin canlanması, fəallığı innovasiya prosesinin iştirakçıları olan donorlar və resipiyektlər arasında informasiya mübadiləsini təmin edən geniş əhatəli informasiya bazası, kütləsi olmadan mümkün deyildir. Belə həcmdə informasiya kütləsi bu fəallığın əsasını təşkil edir. Bu faktın dərk olunması, əhəmiyyəti müxtəlif elm sahələrində çalışan alimlər və investisiya bazarlarında elmi

tətqiqat işlərini reallaşmasına kömək edən vençur firmaların arasında informasiya mübadiləsini fəallaşdırmağa xidmət edən texnoparkların və texnopolislərin yaradılması vacibliyini bir daha təsdiqləyir.

İnnovasiya proseslərinin müasir konsepsiyası onun iştirakçılarının əhatə dairəsini xeyli genişləndirmişdir. Eləcə də innovasiya ideyalarının axtarışından tutmuş innovasiya layihələrinin reallaşmasınadək bütün mərhələlərdə bu sahədə yetişmiş menecerlərin rolu artmışdır. İnnovasiya sferasının iştirakçılarının maraq dairəsi, onların qarşısında duran vəzifələrin miqyası genişlənmişdir; investisiya qoyulan obyektin seçilməsi; sərbəst vəsaitlərin axtarışı; optimal investisiya əməkdaşlığı formasının seçilməsi; investisiya tərəf müqabilinin seçilməsi; innovasiya layihələrinin rentabelliyinin artırılması yollarının müəyyən edilməsi; daha rəqabətqabiliyyətli layihələrin həyata keçməsi proseslərinin idarə edilməsi.

4. «İstehsal-innovasiya layihəsi» arasında maneə. Müasir iqtisadi sistemə keçidlə əlaqədar olaraq investisiya-innovasiya layihələrinin hazırlanmasında biznes-planın işlənib-hazırlanmasının əhəmiyyəti olduqca mühümdür. Bir çox müəssisələr bəzən biznes-planlarını hazırlayarkən təcrübəli mütəxəssislərdən, o cümlədən xarici konsaltinq firmalarından da, onların təcrübəsindən də geniş istifadə edirlər. Lakin bu firmalar investisiya vəsaitinin tapılması, layihədə nəzərdə tutulan məhsulların dünya bazarına çıxarılmasına, investisiya layihələrinin rəqabətqabiliyyətliyinin qiymətləndirilməsinə cavabdehlik daşımırlar.

İnvestisiya layihələrinin reallaşması ilə bağlı vəsaitlərin tapılmasında menecerlərin yüksək peşəkarlığı mühüm rol oynayır. Bu gün respublikamız üçün haqqında danışılan problem olduqca önəmli rol oynayır. Çünki innovasiya layihələrinin uğurla reallaşması bu sahədə menecerlərin hazırlıq səviyyəsindən asılıdır.

**Cədvəl 3.6.**

**İqtisadiyyata yönəldilən investisiyalar** [7, səh. 352]

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| İnvestisiya qoyuluşları bütün mənbələr üzrə (xarici investisiyalar nəzərə alınmaqla): | | | | | | | | |
| mln.manat | 480,6 | 1289,8 | 1454,5 | 2718,0 | 4249,2 | 5820,4 | 6733,4 | 7415,6 |
| mln.dollar | 546,1 | 1441,4 | 1561,8 | 2796,6 | 4326,2 | 5922,7 | 7118,5 | 8300,4 |
| Xarici investisiyalar: | | | | | | | | |
| mln.manat | 331,4 | 829,5 | 1016,8 | 2172,0 | 3310,9 | 4496,4 | 4628,5 | 4514,2 |
| mln.dollar | 375,1 | 927 | 1091,8 | 2234,0 | 3371,0 | 4575,5 | 4893,2 | 5052,8 |
| Daxili investisiyalar: | | | | | | | | |
| mln.manat | 149,3 | 460,3 | 437,7 | 546,0 | 938,3 | 1324,0 | 2104,9 | 2901,4 |
| mln.dollar | 169,7 | 514,4 | 470 | 561,7 | 955,2 | 1347,2 | 2225,3 | 3247,6 |

Cədvəl 3.6.-da verilən informasiyanı 2 mərhələyə bölmək olar. Birinci mərhələ – 1995-2000-ci illər (makroiqtisadi sabitlik vəziyyətinə keçid mərhələsi). İkinci mərhələ makroiqtisadi sabitlik və inkişaf diapazonunu əhatə edən dövrdür. İnvestisiyaların həcminin ÜDM-ə nisbəti 1995, 2000, 2001, 2002, 2003, 2004, 2005, 2006-cı illərdə uyğun olaraq 22,5%, 27,3%, 27,4%, 44,8%, 59,5%, 68,2%, 53,7%, 41,1% təşkil etmişdir. Bu qayda ilə daxili investisiyaların həcminin ÜDM-də nisbəti uyğun olaraq 6,9%, 9,8%, 8,2%, 9,0%, 13,1%, 15,5%, 16,8%, 16,0%-dir.

Aşağıdakı nisbətləri nəzərdən keçirmək lazımdır:

$$\frac{\text{Daxili investisiyalar}}{\text{Xarici investisiyalar}} \text{(1995, 2004, 2006-cı illər)}$$

Bu nisbətlər uyğun olaraq 45,0%, 29,4%, 64,2% təşkil etmişdir. Bu hesablamalar daxili investisiyaların iqtisadiyyatda rolunun nisbətən artdığını göstərir. 1995-ci ilə nisbətən in-

vestisiyaların həcminin artmasını nəzərdən keçirmək maraqlı olardı:

$$\frac{\dot{I}\,(2006\text{ - cı il})}{\dot{I}\,(1995\text{ - ci il})} = \frac{7415{,}6}{480{,}6} = 15{,}4 \text{ dəfə}$$

$$\frac{\dot{I}_X\,(2006\text{ - cı il})}{\dot{I}_X\,(1995\text{ - ci il})} = \frac{4514{,}2}{331{,}4} = 13{,}6 \text{ dəfə}$$

$$\frac{\dot{I}_d\,(2006\text{ - cı il})}{\dot{I}_d\,(1995\text{ - ci il})} = \frac{2901{,}4}{149{,}2} = 19{,}4 \text{ dəfə}$$

Burada, İ – investisiyalar, $\dot{I}_x$ – xarici investisiyalar, $\dot{I}_d$ – daxili investisiyalardır.

**Cədvəl 3.7.**

**Xarici investisiyalar (mln.ABŞ dolları)** [7, səh. 352]

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi – xarici investisiya | 375,1 | 927,0 | 1091,8 | 2234,9 | 3371,0 | 4575,5 | 4893,2 | 5052,8 |
| ondan: | | | | | | | | |
| Maliyyə kreditləri | 220,4 | 262,9 | 192,0 | 223,0 | 238,3 | 293,0 | 698,4 | 983,5 |
| Neft sənayesinə | 139,8 | 546,1 | 820,5 | 1693,0 | 2972,4 | 4088,1 | 3799,9 | 3422,3 |
| Neft bonusu | - | - | - | - | 58,6 | 21,6 | 1,0 | 17,0 |
| Birgə müəssisələr və xarici firmalar | 14,9 | 118 | 79,3 | 318,9 | 45,4 | 104,2 | 230,5 | 368,4 |
| ondan: | | | | | | | | |
| Türkiyə | 6,8 | 31,6 | 11,8 | 55,6 | 17,1 | 80,1 | 96,2 | 136,6 |
| ABŞ | 2,1 | 11,2 | 16,9 | 41,4 | 4,9 | 8,4 | 24,8 | 70,0 |
| İran | 0,9 | 2,9 | - | 2,7 | - | - | 1,2 | 17,5 |
| Almaniya | 1,2 | 1,7 | 1,2 | 1,7 | - | 2,1 | 21,5 | 17,4 |
| Rusiya | 0,7 | - | 1,4 | 0,7 | 1,2 | 1,8 | 5,1 | 4,6 |
| Böyük Britaniya | 0,7 | 6,8 | 15,1 | 108,1 | 9,0 | 4,2 | 39,5 | 39,1 |
| Birləşmiş Ərəb Əmirlikləri | 0,7 | 2,8 | 0,7 | 0,2 | 4,4 | 4,4 | 5,7 | 18,3 |
| İsveçrə | 1,2 | - | 8,3 | - | - | - | - | - |
| İtaliya | 0,1 | - | - | - | - | - | 4,6 | 2,8 |
| Fransa | - | 39,3 | 7,6 | 25,7 | 2,2 | 2,2 | 2,6 | 11,1 |
| Norveç | - | - | - | 31,6 | - | - | - | - |
| Yaponiya | - | 16,4 | 4 | 23,7 | - | - | - | - |
| Sair ölkələr | 0,5 | 5,3 | 12,3 | 27,5 | 6,6 | 1,0 | 29,3 | 51,0 |
| Digər investisiyalar | - | - | - | - | 56,3 | 68,6 | 163,4 | 261,6 |

Cədvəl 3.7.-dəki məlumatlardan istifadə etməklə xarici investisiyaların ÜDM-də payını hesablaya bilərik. Bu hesablamaları biz 3 çıxış nöqtələrində 1995, 2004, 2006-cı illərdə nəzərdən keçirəcəyik. Qeyd olunan xüsusi çəki: 3,5% (1995); 10,9% (2000); 25% (2006).

Xarici investisiyaların ÜDM-də xüsusi çəkisinin artması neft amili ilə əlaqədardır. Bu nisbətləri maliyyə komponentləri və neft sektoruna yönəldilən investisiyalar üzrə ayrı-ayrılıqda təhlil etdikdə vəziyyət aydın olacaq. Xarici maliyyə kreditlərinin ÜDM-də xüsusi çəkisi: 2,1% (1995); 1,1% (2000); 0,07% (2004); 5,5% (2006). Neft sektoruna yönəldilən investisiyaların ÜDM-də xüsusi çəkisi isə aşağıdakı kimidir: 1,3% (1995); 2,3% (2000); 9,8% (2004); 18,9% (2006).

Ölkənin iqtisadi təhlükəsizliyi üçün pul kütləsinin (M2) ÜDM-a olan nisbət göstəricisinin çox böyük əhəmiyyəti vardır (cədvəl 3.8.).

**Cədvəl 3.8.**

**Pul kütləsinin strukturu [7, səh. 351]**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Pul kütləsi ($M_2$) | 191,5 | 325,8 | 351,1 | 405,2 | 518,4 | 683,6 | 796,7 | 2137,7 |
| o cümlədən | | | | | | | | |
| Qeyri-nağd vəsaitlər ($M_1$) | 185,0 | 315,5 | 337,5 | 393,4 | 499,8 | 657,3 | 747,8 | 1853,6 |
| o cümlədən | | | | | | | | |
| Banklardan kənarda nağd pul ($M_0$) | 120,5 | 270,0 | 293,8 | 333,7 | 408,2 | 477,8 | 547,4 | 1311,3 |

Təhlillərin aparıldığı 4 çıxış nöqtəsində bu göstərici: 9,0% (1995); 7,04% (2000); 8,2% (2004); 11,8% (2006) təşkil etmişdir. Yəni 2002-2004-cü illər ərzində $M_2$-nin ÜDM-də xüsusi çəkisi praktiki olaraq dəyişməmişdir. 2006-cı ildən isə bu göstərici artmağa başlamışdır. Nağd pulların pul kütləsində ($M_2$) xüsusi çəkisi: 62,9% (1995); 81,3% (2000); 69,8% (2004); 61,3% (2006) təşkil etmişdir. İqtisadiyyatın və bank sisteminin sağlamlaşdırılması və onların dünya standartlarına çatdırıl-

ması üçün qeyri-nağd vəsaitlərin pul kütləsində ($M_2$) xüsusi çəkisinin artmasına nail olmaq lazımdır.

Pul emissiyasının ÜDM-ə nisbəti: 3,4% (1995); 0,9% (2000); 1,1% (2004); 1,3% (2006) təşkil etmişdir. Yəni pul emissiyası bir göstərici kimi iqtisadi təhlükəsizliyin strukturuna təsir edə bilməz. Lakin onun $M_2$-yə nisbətən xüsusi çəkisi hələ də əhəmiyyətli dərəcədədir. Hesablamalar göstərir ki, pul kütləsi emissiyasının $M_2$-də xüsusi çəkisi: 35,1% (1995); 13,6% (2000); 13,5% (2004); 13,3% (2006) təşkil etmişdir.

Bu gün Azərbaycanda dövlət tərəfindən həyata keçirilən aktiv tədbirlərə baxmayaraq qonşu respublikanın təcavüzü və dövlətin ərazi bütövlüyü uğrunda xalqın mübarizəsi ilə bağlı mürəkkəb proseslər davam edir. Bu və digər mürəkkəb, bəzən də iqtisadiyyatda böhran prosesləri hər bir dövlətin siyasətində mühüm istiqamətlərdən biri olan iqtisadi təhlükəsizliyin əhəmiyyətini dəfələrlə artırır.

Cədvəl 3.9.-da iqtisadiyyata kredit qoyuluşlarının strukturu verilmişdir.

**Cədvəl 3.9.**

**İqtisadiyyata kredit qoyuluşları [7, səh. 351]**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyata kredit qoyuluşları | 289,8 | 466,4 | 486,2 | 520,2 | 670,3 | 989,6 | 1440,9 | 2362,7 |
| onlardan: | | | | | | | | |
| Qısamüddətli | 253,0 | 336,4 | 353,9 | 374,2 | 487,1 | 700,9 | 913,2 | 1142,0 |
| Yekuna görə faizlə | 87,3 | 72,0 | 72,8 | 72,0 | 72,7 | 70,8 | 63,4 | 48,3 |
| Uzunmüddətli | 36,8 | 130,0 | 132,3 | 146,0 | 183,2 | 288,7 | 527,7 | 1220,7 |
| Yekuna görə faizlə | 12,7 | 28,0 | 27,2 | 28,0 | 27,3 | 29,2 | 36,6 | 51,7 |

Cədvəldən göründüyü kimi, 1995-ci ildən başlayaraq kredit qoyuluşları artım meylinə malikdirlər. Lakin milli iqtisadiyyatın formalaşmasında müəyyən rol oynayan uzunmüddətli kredit qoyuluşlarının ümumi kredit qoyuluşları paketində xüsusi çəkisi hələ də azdır. Belə ki, bu xüsusi çəkisi: 12,7 % (1995); 28,0% (2000); 29,1% (2004); 51,7% (2006) təşkil etmişdir. 2005-2006-cı illərdə bu göstəricinin artmasına

baxmayaraq uzunmüddətli kredit qoyuluşlarının həcmi hələ də azdır. ÜDM-də iqtisadiyyata kredit qoyuluşlarının xüsusi çəkisi isə 13,6% (1995); 9,8% (2000); 8,46% (2004); 13,0% (2006) təşkil etmişdir.

Sığorta kompaniyalarının məcmu kapitalının həcmi çox azdır və praktiki olaraq ÜDM-in formalaşmasında çox böyük rol oynamır (cədvəl 3.10.).

**Cədvəl 3.10.**

**Sığortaçıların məcmu kapitalı, min manat [7, səh. 355]**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Məcmu kapital – cəmi | 11545,5 | 8983,3 | 17131,8 | 20925,2 | 27505,6 | 35988,4 | 45303,4 |
| o cümlədən: | | | | | | | |
| Nizamnamə kapitalı | 6057,6 | 7629,7 | 15006,9 | 18359,4 | 22902,5 | 32312,5 | 41876,3 |
| Əlavə kapital | 811,8 | 919,2 | 1685,4 | 2142,0 | 4138,4 | 3326,5 | 3227,7 |
| Ehtiyat kapitalı | 4676,1 | 434,4 | 439,5 | 423,8 | 464,7 | 349,4 | 199,4 |

Bu vəziyyət onu göstərir ki, sığorta xidmətləri bazarı hələ tam formalaşmamışdır və bu istiqamətdə problemlərin aradan qaldırılması maliyyə sahəsində fəaliyyət aktivliyinə gətirib çıxaracaq.

ÜDM-də dəyişikliklərin dinəmikasını daha aydın təsvir etmək üçün qrafik 3.2.-də ÜDM, əsas kapitala investisiyalar və əsas fondların istifadəsi göstərilmişdir.




Qrafik 3.2.

Qrafikdən göründüyü kimi, əsas kapitala investisiyalar və əsas fondlardan istifadə 2001-2006-cı illər ərzində kəskin artma meylinə malikdir. əsas kapitala investisiyaların ÜDM-də xüsusi çəkisi: 10,7% (1995); 20,5% (2000); 69,5% (2004); 73,1% (2006) təşkil etmişdir. İstifadə olunmuş əsas istehsal fondlarının ÜDM-də xüsusi çəkisi: 3,5% (1995); 14,1% (2000); 50,2% (2004); 53,4% (2006) təşkil etmişdir.

Fikrimizcə, iqtisadi təhlükəsizliyin pul-kredit aspektlərinin təhlili zamanı maliyyə göstəricilərini ayrıca nəzərdən keçirmək daha məqsədəuyğundur.

Ölkənin investisiya-innovasiya potensialının artırılmasında bank sisteminin rolunun yüksəldilməsi olduqca vacibdir. Bu istiqamətdə bank sisteminin fəallığının təmin olunması ilə bağlı imkanların aşkara çıxarılması, ölkədə əlverişli siyasi və iqtisadi şəraitin yaradılması mühüm rol oynayır, eləcə də bankların özlərinin də xüsusiyyətləri az əhəmiyyət kəsb etmir.

Bu mənada aşağıdakı cəhətlərə diqqət yönəltmək məqsədəuyğun olardı.

- bankın şəxsi kapitalının nisbətən məhdud həcmdə olması;
- aktivlərdəki şəxsi kapitalın xüsusi çəkisinin az olması;
- uzunmüddətli kapital qoyuluşları imkanlarını məhdudlaşdıran qısamüddətli passivlərin üstünlük təşkil etməsi;
- passivlərdə depozitlərin payının aşağı olması;
- müəssisə və təşkilatların passivlərindəki qalıq payının hesablar üzrə yüksək olması;
- aktivlərin və passivlərin strukturunun üst-üstə düşməməsi, uyğunsuzluğu;
- bank aktivlərinin likvidliyi probleminin olması, kəskinləşməsi və s.

Deməli, innovasiya-investisiya layihələrində yaxından iştirak edən bankların kapital bazası beynəlxalq, dünya standartlarına cavab verməlidir. Çünki yalnız iri banklar istehsala investisiya yatırmaq istiqamətində vəsaitlərinin əksər hissəsini onların təsərrüfat dövriyyəsindən çıxarılmasına tab gətirə bilər.

Uzunmüddətli kreditlərin artmasına passivlərin struktur xüsusiyyətləri müəyyən dərəcədə mane olur; banklarda şəxsi vəsaitlər azlıq təşkil edir, cəlb olunan vəsaitlərsə qısamüddətlidir. Faiz dərəcələri ilə verilən borcların riski arasında ziddiyyətlər vəziyyəti bir qədər də kəskinləşdirə bilər. Dünya təcrübəsində uzunmüddətli kreditlər daha etibarlı hesab olunur və onlara görə faiz dərəcələri aşağıdır. Lakin bu gün respublikamızda uzunmüddətli kreditlər daha riskli hesab olunur və onlara verilən faiz dərəcələri müəssisələrin maliyyə imkanlarının məhdudluğu baxımından çox aşağıdır.

Qeyri-sabit iqtisadi-siyasi şəraitdə banklar tərəfindən həyata keçirilən investisiya siyasəti aşağıdakı xüsusiyyətlərlə müşahidə olunur:

- siyasi risklərin yüksək səviyyədə olması;
- dövlət qiymətli kağızlarına kapital qoyuluşlarının gəlirlik səviyyəsinin yüksək olması;

- korporativ qiymətli kağızlar bazarının zəif inkişaf etməsi və ya inkişaf etməməsi;

- fond bazarının inkişaf etməməsi səbəbindən kreditin, banklarda investisiya aktivlərinin ciddi çatışmazlığı şəraitində investisiya layihələrinə kommersiya bankları tərəfindən bir kömək, yardım formasına çevrilməsi;

- investisiya fəaliyyətində risk probleminin ciddi əhəmiyyət kəsb etməsi. İnvestisiya kreditinin müqabilində qoyulan girova qarşı likvidlik tələbini irəli sürən investisiya layihələrini kreditləşdirən banklar üçün kredit riskinin minimuma endirilməsi üçün əlverişli, rahat yollardan biridir. Lakin respublikamızın hələ bu inkişaf mərhələsi üçün belə imkana malik müəssisələrinin sayı çox azdır;

- borc alanın etibarlı olması. Müəssisələr üçün bu imkan böhrandan çıxış yollarından olsa da, maliyyə vəziyyətinin acınacaqlı olması onlara kredit verilməsi imkanlarını məhdudlaşdırır.

İstehsalın investisiyalaşdırılmasına maliyyə vəsaitlərinin cəlb olunması perspektivlərini araşdıran alimlərin fikrincə, keçid iqtisadiyyatı şəraitində maliyyə-sənaye qruplarının yaradılması həm makroiqtisadi sabitləşmə prosesinə və iqtisadi artım üçün potensialın formalaşmasına, həm də bank sisteminin özünün dayanıqlığının yüksəldilməsinə müsbət təsir göstərir [122, səh. 43].

Əksər şirkətlər açıq bazardan istifadə etməklə vəsait toplayırlar.

Qiymətli kağızların açıq (kütləvi) yerləşdirilməsi, təklif olunması – bazarda özünü təsdiqləmiş, uğurlu fəaliyyət göstərən, kapitalın iri şirkətlər üçün xarakterik cəlb olunma üsuludur. Adətən, kütləvi şəkildə yerləşdirmə korporasiyaların gücünün artırılması, məhsul və xidmətlərin çeşidinin genişləndirilməsi, dövriyyəsinin artırılması, əməliyyatların coğrafi miqyasının genişləndirilməsi və s. məqsədilə həyata keçirilir. Korporasiyanın qiymətli kağızları kütləvi yerləşdirməsi olduqca mürəkkəb və bahalı prosesdir, bu prosesi

həyata keçirməzdən əvvəl korporasiya prosesin məqsədlərini, dəyərini və nəticəsini əvvəlcədən görə bilməlidir.

İnkişaf etmiş ölkələrdə bu sahədə dəqiq fəaliyyət alqoritmi mövcuddur və burada mühüm cəhət – kredit təminatıdır. Müştərilərə borc verilməsi ilə bağlı aparılan danışıqlar zamanı müzakirə olunan əsas məsələ təminatın həcmi və keyfiyyətidir. Bu, borcun verilməsi zamanı bank sahibinin qərar qəbulu prosesində həlledici cəhətidir.

Borc vəsaitlərinin qorunma obyekti kimi aşağıdakılar ola bilər: girov; kredit riskinin sığortalanması; zaminlik; təminat. Borcalan borc müqaviləsinin möhkəmlənməsi üçün müxtəlif formalardan istifadə edir. Kreditlərin ən geniş yayılmış qorunma növləri-torpaq, bina, borcalanın digər növ daşınmaz əmlakı, əmtəə-material ehtiyatları, qiymətli kağızlar və s.ola bilər. Bunu cədvəldən də görə bilirik.

**Cədvəl 3.11.**

**İnvestisiya kreditlərinin əsas təminat əlamətləri**

| **Əsas qorunma (təminat) əlamətləri** | **Əlamətlərin qiymətləndirilməsi** |
|---|---|
| 1. Təminat ölçüsü | Bu ölçü böyük olduqca, qərarın müsbət həlli ehtimalı artır. |
| 2. Təminatın likvidliyi | - mülkiyyətin spesifikliyinin qiymətləndirilməsi.<br>- mülkiyyətin ləğv edilmə müddətinin qiymətləndirilməsi.<br>- likvidlərin təsnifatı. |
| 3. Təminatın mövcud olma müddəti | - mülkiyyətin, əmlakın mövcud olma müddəti kreditin müddətindən çox olmalıdır.<br>- mövcud olma müddətinə görə likvidlərin təsnifləşdirilməsi. |
| 4. Təminatın hüquqi cəhət-dən əsaslandırılması. | - hüquqların reallaşmasının sadəliyi və etibarlığı.<br>- təminatın təşkil edilməsi<br>- biznes-planın hazırlanması (olması) |

İlkin inkişaf mərhələsində olan şirkətlər üçün vençur kapitalı daha əlverişlidir. Bu növ kapital – yeni biznes fəaliyyətinin səhmlər və yaxud qiymətli kağızlarla maliyyələşdirilməsidir. Bu, yeni biznesə qoyulmuş pullar olub, bəzən borc öhdəlikləri, çox vaxt da adi səhmlər formasında olur.

Borc öhdəlikləri onların buraxılışı qeydiyyata alınmayanadək satıla bilməz; bir neçə il onlar likvidli olmurlar.

İnvestorlar ümid edirlər ki, firma bir neçə ildən sonra tam formalaşaraq, inkişaf edəcək və artıq açıq bazarda öz şəxsi səhmlərini satacaqdır. Öz növbəsində, vençur kapital sahibləri səhmləri onların gəlirlərindən bir neçə dəfə artıq qiymətə satacaqlarına ümid bəsləyirlər. Bu, bir variantdır. Təəssüf ki, digər variant da vardır. Yeni firmanın formalaşması ilə bağlı yüksək risklər mövcuddur, buna görə investorların qoyduqları vəsaitləri itirmə ehtimalı böyükdür. Beləliklə, investor bütün pullarını itirə bilər, lakin belə bir ehtimal var ki, onların dəyəri 10, hətta 50 dəfə arta bilər. Vençur kapital sahibinin bütün investisiyalar üzrə gəliri uğurlu kapital qoyuluşuna qarşı olduqca həssasdır, yəni bu fəaliyyətin müvəffəqiyyətindən asılıdır.

Kapital axını öz məzmununa görə dünya iqtisadiyyatında unikal hadisədir. Bir çox xarici mütəxəssislər bu problemə müxtəlif cür yanaşırlar. Ən geniş yayılmış yanaşma isə belədir ki, kapital axını kifayət qədər böyük həcmdə qısamüddətli borc kapitalının sürətlə bir ölkədən digərinə yerdəyişməsidir. Ölkələrin fond bazarları və dünya fond bazarı arasında qarşılıqlı asılılığın artması kapitalın axını riskini artırır, miqyasını genişləndirir və ölkənin maliyyə vəziyyətinə güclü təsir göstərir. Buna görə də BVF, Dünya Bankı və digər maliyyə təşkilatları bu problemin tədqiqinə böyük maraq göstərirlər. Kapitalın sürətlə yerdəyişməsi kapital axınının əsas əlaməti kimi xarici investorların səlahiyyətində olan maliyyə aktivlərinin (səhmlərin, istiqrazların) kütləvi şəkildə onlara satılması, həmçinin yerli banklardakı hesablardan vəsaitlərin kütləvi şəkildə götürülərək daha güclü valyutaya mübadiləsi mühüm rol oynayır. Maliyyə aktivlərinin leqal şəkildə satılması fond bazarının kifayət dərəcədə inkişafını tələb edir. Buna görə də bəzən fond bazarının formalaşması prosesində bu yolla kapital axını baş verməyə bilir. Bir faktı qeyd etmək yerinə düşərdi ki, 1997-ci ildə Şərqi-Asiya ölkələrində fond bazarlarında baş verən böhran bəzi ölkələrin

fond bazarlarına öz mənfi təsirini göstərərək həmin bazarlarda maliyyə aktivlərinin kütləvi leqal satışına səbəb oldu. Dünya fond bazarının elastikliyi bir sıra hallarda bu prosesin qarşısını alaraq, belə təsirlə üzləşən ölkələrin fond bazarlarından xarici valyutanın axınını dayandıra bilər.

Kapital axınının baş verdiyi ölkələr üçün ümumi oxşar əlamət axının miqyasının böyüklüyü və bunun nəticəsində ölkənin maliyyə-investisiya potensialının azalması, eyni zamanda onun xarici valyutadan gələn gəlirləri itirməsidir. Kapitalın sürətlə yerdəyişməsinin əsas motivi, səbəbi kommersiya məqsədli olmayıb, kapitalın daha təhlükəsiz yerdə saxlanılması və əlverişli istifadə şəraitinin təmin olunması tələbindən irəli gəlir.

Bazar iqtisadiyyatı inkişafı yolu seçmiş ölkələr, o cümlədən MDB ölkələri üçün kapital axınının spesifik cəhəti, özünəməxsusluğu həmin ölkələrdə iqtisadi-siyasi sistemin sürətlə transformasiya olunması, bunun daha çox qlobal xarakter daşıması və cəmiyyətin həyat tərzi ilə müəyyən edilir. Bu ölkələrdə mövcud sosial-iqtisadi, eləcə də siyasi şərait, dövlət idarəetməsinin, tənzimləməsinin səviyyəsi kapital axınının qeyri-leqal xarakter daşıması və kapitalın xarici ölkələrə yerdəyişməsi formalarının müxtəlifliyi spesifikasını müəyən edir. Burada iqtisadi fəaliyyətlə məşğul olan investorlar həmin ölkələrin milli valyutalarına «inamlarının» zəif olması səbəbindən öz vəsaitlərini xarici valyutanın alınmasına yönəldirlər. Bu hadisəni həmin ölkələrə məxsus spesifik bir hal kimi kapitalın ölkənin «milli valyutasından dollara doğru axını» kimi, yaxud da kapitalın daxili axını adlandırmaq da olar. Digər bir spesifik cəhət bu axının həmin ölkələrdə dönərli olmamasıdır. Belə ki, ölkədə əlverişli investisiya mühiti, sağlam siyasi-iqtisadi şərait yaradılmadıqda, bu istiqamətdə real müsbət dəyişikliklər edilmədikdə, mülkiyyət hüququnun qorunması mexanizmləri təkmilləşdirilmədikdə ölkədən çıxarılan kapital miqrasiya olunmuş kapital xarakterinə malik olur.

Bu mənada, deyilənləri nəzərə alaraq, «kapital axınına» belə tərif vermək olar. Kapital axını ölkənin maliyyə-investisiya resurslarının azalmasına, tükənməsinə səbəb olan, iqtisadi və maliyyə aktivlərinin geniş miqyasda leqal və qeyrileqal formalarda davamlı axınıdır.

MDB məkanındakı alimlərin fikrincə, ölkədən milli kapitalın çıxarılması prosesində mühüm əsas kimi iqtisadi artımın kreditləşdirilməsi və sosial sabitliyin təmin olunması sferasında pul kütləsinin onun aktiv istifadə olunması sahəsindən bərqərar olunmuş çıxarılması mexanizmidir. Bu prosesin qarşısının alınması üçün tamamilə əks pul-kredit siyasəti həyata keçirilməsi tələb olunur – bütün tənzimləmə və idarəetmə vasitələrinin iqtisadiyyatın inkişaf potensialının formalaşdırılmasına yönəldilməsi və bu əsasdan maliyyə sabitliyinin və milli valyutanın dayanıqlığının (milli valyutada əmanətlərin artırılmasının) təmin olunması [149, səh. 81].

Kapital axınından fərqli olaraq kapital ixracı rezidentlərin şəxsi və dövlət kapitalının rəsmi və qanuni qeydiyyatdan keçmiş müstəqim və portfel investisiyalarla aparılan əməliyyatlar şəklində məqsədyönlü ixracı kimi başa düşülür. Bundan başqa, ixrac olunan kapitalın strukturuna daşınmaz əmlak əldə etmək, dövlət kreditlərinin verilməsi, qeyri-rezidentlərə maliyyə kreditlərinin lisenziyalaşdırılması, tədiyələrin (ödəmələrin) vaxtının uzadılması üçün ticarət kreditlərinin lisenziyalaşdırılması, rezidentlərin xarici valyutalarının toplanması, açılmış hesablardakı qalıqların dəyişdirilməsi şəklində investisiya yatırımları daxildir. Kapital ixracının başlıca əlamətlərindən biri ondan ibarətdir ki, maliyyə resurslarının ixracı üzrə əməliyyatlar onların maliyyə aktivlərinin artmasına səbəb olur. Kapital axını nəticəsində isə əksinə, bu vəsaitlərin yönəldiyi ölkələrin maliyyə potensialı artır. Kapital axınının səbəbləri və motivləri müxtəlif ola bilir və keçid iqtisadiyyatının bazis əsası, xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin valyuta-maliyyə alətlərinin spesifikası, bazar subyektlərinin, investorların davranış psixologiyası, dövlətin həyata keçirdiyi

siyasətə onların inamı, eləcə də ölkənin milli valyutasının stabilliyinə inamları ilə əlaqədardır.

MDB ölkələrində cəmiyyətdə baş verən sürətli tranformasiya və qlobal xarakterli dəyişikliklər istehlak qiymətlərinin yüksək artım tempi ilə və uyğun olaraq yığım kapitalının dəyərdən düşməsi ilə müşahidə edilir. Belə vəziyyət istər-istəməz ölkənin maliyyə-kredit sisteminə qarşı və milli valyutasına qarşı əhalidə inamsızlıq yaradır.  Siyasi və iqtisadi risklərin artması bazar iqtisadiyyatı yönlü islahatlardan uzaqlaşmaq, kənara çəkilmək, onlara qarşı bir ümidsizlik hissi doğursa da, geriyə, köhnə sistemə qayıtmağın mümkünsüzlüyü islahatlar mexanizmində ciddi təkmilləşmələr, düzəlişlər edilməsini tələb edir, zəruriləşdirir. Belə risklərin təsiri altında iqtisadi sistemdə hökm sürən qeyri-sabitlik iqtisadiyyata yönəldilən investisiyaların ilbəil azalmasına  səbəb olur.

Kapital axınının daha bir səbəbi isə bazar intisadiyyatının əsas hərəkətverici qüvvəsi olan sahibkarlığın zəif inkişafı və bu istiqamətdə qeyri-münbit mühitin olmasıdır. Buna mülkiyyətin qorunmasının hüquqi sisteminin, məhkəmə sisteminin zəif inkişaf etməsi, qeyri-təkmil olması aiddir.

Kapital axınının digər səbəblərindən biri də ölkənin geniş əhatəli sosial və iqtisadi problemlərinin həllində dollardan istifadə olunması, yəni milli iqtisadiyyatın dollarlaşmasıdır. Bu, istehsalın iqtisadi səmərəliliyinin artırılması, kreditləşmə zamanı, təsərrüfat subyektləri arasında hesablaşmalar məqsədilə, daxili qiymətlərin təyini zamanı, icarə haqlarının dərəcələrinin təyin olunması zamanı daha çox özünü büruzə verir. Ən başlıcası odur ki, iqtisadiyyatın dollarlaşması insanlar arasındakı münasibətlərə də sirayət edir, əhalinin əmanətləri sistemində prioritetləri və davranış motivlərini müəyyənləşdirir. Milli valyuta ilə müqayisədə dollara üstünlük verilməsi əhalinin dollara meylliliyini (axınını) gücləndirir.  Nəticədə əhalidə, əllərdə olan dolların ümumi həcmi nəğd pul kütləsinin həcminə yaxınlaşır. 1997-1998-ci illərdə Cənubi-Asiyada baş verən böhran dollara qarşı

süni surətdə tələbatı artıraraq, əhalinin dollara meylliliyini, onun əldə edilməsinə doğru axınını gücləndirmişdir.

Kapital axınının əsas motivlərindən biri birbaşa kölgə iqtisadiyyatı, kölgə biznesi ilə əlaqəlidir. Məhz iqtisadiyyatın bu sferasında, onun qeyri-qanuni strukturlarında vergi orqanlarından, istənilən formalı dövlət nəzarətindən ciddi yayınmalar, gəlirlərin gizlədilməsi geniş miqyaslı xarakter daşıyır. Bu sferada kapitalın axınının əsas motivlərindən biri hədsiz yüksək vergilərdən yayınma cəhdidir. Bazar iqtisadiyyatına keçidlə əlaqədar belə bir fikir formalaşa bilərdi ki, orta sahibkarlığın və orta biznesin inkişafı kölgə iqtisadiyyatının miqyasını məhdudlaşdırajaq. Lakin keçidlə əlaqədar, ölkənin siyasi-iqtisadi sistemində baş verən mənfi meylli proseslər kölgə iqtisadiyyatının miqyasının bir neçə dəfə artmasına, onun mobilliyinin yüksəlməsinə təkan verə bilir. Kölgə biznesi daha çox xarici iqtisadi əlaqələrə və maliyyə bank sisteminə sürətlə yayılır.

Rusiya tədqiqatçılarının fikrincə, dövlət islahatları prosesləri ölkəmizdə siyasi və iqtisadi həyatın ən müxtəlif tərəflərinə toxunur. Müsbət dəyişikliklərlə yanaşı, bu, həm də iqtisadiyyatda mütəşəkkil cinayətkarlığın inkişafına da yol açır. Bu özünü kapital axını proseslərində daha aydın büruzə verir [115, səh. 36].

Kapitalın ixracı əməliyyatlarının tənzimlənməsində qanunverici bazanın qeyri-təkmil olması, valyuta və ixrac nəzarətinin səmərəliliyinin aşağı olması kapital ixracına səbəb olan amillərdən biridir.

Valyuta tənzimlənməsi ilə əlaqədar çoxsaylı pozuntular kapital axınına kömək edir. Bunları aşağıdakı kimi təsnifləşdirmək olar:

- valyuta əməliyyatlarının keçirilməsi ilə əlaqədar baş verən pozuntular. Burada müvəkkil banklar nəzərə alınmır, əməliyyatlara isə rezident və qeyri-rezidentlər arasında hesablaşmalar, xarici valyutanın alqısı və satqısı aiddir;
- Milli Bankın icazəsi olmadan keçirilən valyuta əməliyyatları zamanı baş verən pozuntular.

- maliyyə kreditlərinin alınması və verilməsi, idxal-ixrac əməliyyatları üzrə ödəmələrin (tədiyələrin) vaxtının uzadılması ilə əlaqədar pozuntular;

- rezidentlər və qeyri-rezidentlər arasında valyuta əməliyyatlarının tam və obyektiv hesabatının və qeydiyyatının aparılması ilə əlaqədar baş verən nöqsanlar.

Dövlət sərhədlərində nəzarətin zəif olması ölkədən kapital axınına şərait yaradır. Çünki belə vəziyyət ölkənin bütün sərhəd məntəqələri boyunca səmərəli gömrük nəzarətinin təşkilinə mane olur. Nəticə etibarilə ölkənin iqtisadi maraqlarını lazımi səviyyədə təmin edə bilmir. Bu gün Azərbaycanın öz ərazilərinin 20%-dən çoxuna nəzarət edə bilməməsi ilə əlaqədar olaraq Dağlıq Qarabağ ərazisindən təbii sərvətlərimizin talan edilməsi, daşınıb aparılması, eləcə də həmin ərazilərdən narkotik maddələrin əkilib becərilməsi və onların daşınmasında tranzit kimi istifadə edilməsi də respublikamızın iqtisadiyyatı üçün olduqca mənfi nəticələr yaratmaqdadır.

Ölkənin qanunvericilik bazasının zəif olması yaxud da qanunda boşluqların olması ölkədən kapitalın qeyri-qanuni yollarla və kanallarla çıxarılmasına əlverişli şərait yaradır. Bu üsulların bir neçəsi ilə tanış olaq.

1. Xarici ticarət əməliyyatları zamanı əmtəə və xidmətlərin real dəyərinin təhrif edilməsi yolu ilə vəsaitlərin xaricə ötürülməsi, keçirilməsi. İxrac əməliyyatları zamanı müqavilə qiymətləri faktiki qiymətlərlə müqayisədə süni şəkildə azaldılır, ucuzlaşdırılır, əmtəələrin idxalı zamanı isə əksinə olaraq qiymətlər qaldırılır. Bunun nəticəsində qeydiyyata alınmayan valyuta kütləsi xaricdəki bankların hesablarında, xaricdə partnyorlarla birgə yaradılan, yaxud offşor şirkətlərin hesablarında qalır. İxracın pasportlaşdırılması ilə əlaqədar hökümətin tətbiq etdiyi tədbirlər bunun qarşısının alınması istiqamətində müəyyən müsbət nəticələr verə bilər.

2. «Tollinq» əməliyyatları. Xammala (xarici sifarişçinin xammalı kimi) təchizat üzrə ixrac müqaviləsi bağlanır. Faktiki

olaraq isə bu xammal nə ölkədən ixrac olunur, nə də ki, emal edilir. Belə əməliyyat nəticəsində heç bir vergi və rüsum ödənmədən ölkədən ixrac olunur. Nəticədə valyuta gəlirlərinin həcmi azalır.

3. Əmtəə mübadiləsi rejimində valyutasız hesablaşmalar. Bura barter, klirinq, sərhəddə aparılan, paralel və qarşılıqlı sövdələşmələr aiddir. Əmtəə mübadiləsi üzrə sövdələşmələr adətən müqavilə qiymətlərinin orta dünya qiymətlərindən kəskin kənarlaşmaları ilə əlaqəsidir.

4. Xırdavat ticarəti. Bir sıra hallarda bu kanalla aparılan əmtəə idxalının həcmi ümumi idxalın yarısına bərabər olur. Bu yolla əsas etibarilə nəğd formada valyuta, qızıl, gümüş, qiymətli daş-qaşlar, zərgərlik məmulatları, bədii dəyərlər ölkədən çıxarılır.

5. Qaçaq mal ixracı. Bu, bilavasitə qeyri-qanuni şəkildə valyutanın, əntiq əşyaların, qiymətli şeylərin, dəyərlərin, həmçinin silah, hərbi texnika və döyüş sursatları, qiymətli və aztapılan metalların, neft və neft məhsullarının, qaz, daşkömür, prokat, tikinti materialları, xəz, narkotik, spirtli içkilər, ərzaq mallarının ölkədən çıxarılması, ixrac olunmasıdır.

Qaçaq mal ixracı respublikamızın həm hava, quru, həm də dəniz sərhədləri boyunca qeydə alına bilər. Belə bir biznes təşkilatçıları əksər hallarda mafioz qruplar, xarici iqtisadi fəaliyyət subyektləri, ticarət vasitəçiləri, bələdçilər, nəqliyyat işçiləri, «xırdavat ticarətlə» məşğul olanlar, bir sıra hallarda da kömrük xidməti orqanlarının əməkdaşları ola bilirlər.

Dünya təcrübəsi göstərir ki, hətta möhkəmləndirilmiş, stabil iş rejimində çalışan gömrük xidməti qaçaqmalçılıqla bağlı 10% əməliyyatların qarşısını ala bilər.

6. Rezidentlər və qeyri-rezidentlər arasında rəsmi müqavilə bağlanmadan aparılan qarşılıqlı hesablaşmalar. Belə əməliyyatlara rezidentlərin xaricdə daimi yaşamağa getmələri ilə əlaqədar öz şəxsi əmlaklarını, mülklərini satmalarını, xarici müəssisələrin qiymətli kağızlarının manatla alınması, patent və müəllif hüquqlarının satışı, rezidentlərin qeyri-rezidentlərə məxsus yerli müəssisələrin səhm paketlərini aldıqları zaman

komisyon xidmətlərinin ödənilməsi və s. aiddir. Belə əməliyyatlar zamanı hesablaşmalar ödəniş vasitələrinin sərhəddən hərəkəti, keçməsi ilə müşahidə edilmir.

7. Kapital axınının nisbətən yeni formalarından, kanallarından biri də offşor biznesidir. Bu kanal üzrə kapital axını offşor kompaniyaların xaricdə qeydiyyatı zamanı baş verir. Bu şirkətlərin  fəaliyyətinin genişlənməsi ilə kapital axınının miqyası da böyüyür.

Kapital axını miqyasının  müəyyənləşdirilməsi vergi və investisiya siyasətinin, valyuta-maliyyə tənzimlənməsinin səmərəliliyinin qiymətləndiril-məsində  əhəmiyyətli rol oynayır.

Kapital axınının miqyasının qiymətləndirilməsi investorların ölkənin milli valyutasına və bütövlükdə dövlətin iqtisadi siyasətinə qarşı inamını xarakterizə edən göstəricilərdən (indikatorlardan) biridir.

Kapital axınının qiymətləndirilməsindəki ziddiyyətlər onun miqyasının təyin edilməsi metodikasının əsaslandırılmasına böyük əhəmiyyət verir. Hesablamaların əsasını Ümumdünya  Bankının metodikası təşkil edir. Birincisi, bu halda müxtəlif tipli və iqtisadi inkişaf səviyyəsi olan ölkələrdə kapital axını hadisənin miqyasının müqayisəsi üçün vahid metodoloji  baza təmin edilir. İkincisi, Ümumdünya Bankının metodikası kapital axınının mahiyyətini və onun başvermə üsulları və kanallarının müxtəlifliyinin geniş izahına əsaslanır.

Ümumdünya Bankı mütəxəssislərinin istifadə etdikləri metod qalıq məbləğlər metodu adlanır və ölkənin tədiyə balansının məlumatlarına əsaslanır.

Kapital axınının həcmi qısamüddətli şəxsi qeyri-bank kapitalının hərəkəti saldosu, xarici depozit və kommersiya banklarındakı dəyişikliklər, portfel investisiyalar saldosu, «xəta və buraxılış» balansı maddələrinin (dərəcələri) cəmi kimi təyin edilir.

Kapitalın hərəkət saldosu, onun xarici axını, qeyri-qanuni kapital daşınmasının natamam əhatə olunması göstəriciləri əsasında kapital axınının hesablanması mürəkkəblik törədir. Bu mənada kapital axınının miqyasını hesablamaq

üçün A.S.Bulatov daha etibarlı balans dərəcələrindən istifadə etməyi məsləhət görür. Bunlar cari əməliyyatlar hesabına kapital axını, qızıl valyuta ehtiyatlarının dəyişməsi və xarici borcun həcmidir.

Tədiyə balansı əsasında kapital axınının miqyasının qiymətləndirilməsi metodu ilə yanaşı, əlavə təhlil vasitəsi kimi kapital axınının baş verdiyi ayrı-ayrı kanalların ekspert qiymətləndirilməsindən də istifadə olunur.

Kapital axını vergi daxilolmalarının həcmini əhəmiyyətli dərəcədə azaldır, ölkənin valyuta ehtiyatları kəskin şəkildə azalır və xarici borcların qaytarılma mənbələri tükənir. Kapital axını eyni zamanda tədiyə balansının ehtiyatlarını zəiflədir. Nəzərə alsaq ki, ölkədən çıxarılmış vəsaitlərin yenidən ölkəyə qaytarılması ölkənin qızıl valyuta ehtiyatlarını əhəmiyyətli dərəcədə artıraraq, fond bazarının daha yüksək dərəcədə sabitliyinə şərait yaradır, o zaman kapital axınının qarşısını almaq üçün xüsusi tədbirlər sisteminin işlənib-hazırlanmasının əhəmiyyətini dərk etmək o qədər çətin olmaz. Bu tədbirlərin bəziləri ilə tanış olaq.

Birincisi, kapitalın ölkəyə qaytarılmasına zəmin yaratmaq üçün əlverişli ümumi iqtisadi şərait formalaşdırmaq məqsədəuyğun olardı. Dünya təcrübəsi göstərir ki, kapitalın ölkəyə qayıtması kapital axını problemi ilə üzləşmiş ölkənin iqtisadiyyatının stabilləşmədən iqtisadi artıma keçməsi, investisiya mühitinin sağlamlaşdırılması, investisiyaların iqtisadi və siyasi risklərdən etibarlı təminat sistemini formalaşdırmaq, sabit və şəffaf vergi sistemi yaratmaqdan asılıdır. Xarici partnyorlarla əlaqəyə girməklə kapitalın ölkəyə qaytarılması prosesini müəyyən qədər yüngülləşdirmək olar.

İkincisi, gömrük, valyuta və bank nəzarəti üzrə tədbirlərin işlənib-hazırlanması. Bu mənada, bazar alətlərini təkmilləşdirmək, fond bazarlarının şəffaf və sabitliyi üçün şərait yaratmaq, korporativ qiymətli kağızlar bazarı hesabına fond bazarının həcminin genişləndirilməsi vacibdir. Əks halda yuxarıda qeyd etdiyimiz istiqamətlər üzrə tədbirlər sistemi

ölkədən çıxarılmış kapitalın geri qaytarılmasına öz-özünə kömək edə bilməz.

Üçüncüsü, bank sisteminə qarşı inamın artırılması və əhalinin banklardakı vəsaitlərinin saxlanılmasına təminatın gücləndirilməsi, möhkəmləndirilməsi üzrə tədbirlərə xüsusi əhəmiyyət vermək lazımdır. Etibarlı bank sistemi olmadan depozitlərin sığortalanması dövlət maliyyəsi üzərinə əlavə yük ola bilər, çünki kifayət dərəcədə likvidli olmayan qeyri-tədiyə qabiliyyətli bankların müflisləşməsi nəticəsində üzləşdikləri itkilər depozitlər üzrə ödəmələrin sığortalanması hesabına əvəz oluna bilməz.

Dördüncüsü, bank depozitlərinin məbləğində sərbəst olaraq dövr edə bilən və dollara mübadilə olunan sertifikatların buraxılışı barəsində tövsiyələr hazırlamaq. Bu tövsiyələr milli valyuta ilə əmanətlər toplanmasına stimul yaradaraq, onların müsadirə olunmasına qarşı təminat ola bilər. Bu ideya təkcə əmanətlər baxımından deyil, investisiya potensialının artırılması məqsədilə ətraflı, dərin təhlil edilməlidir.

Beşincisi, ölkədə aparıcı bankın (Milli Bankın) və aparıcı kommersiya banklarının xarici təşkilatlarla birgə kapital axınının mexanizmləri və kanallarının təhlili, ölçüsünün (miqyasının) qiymətləndirilməsi üzrə məsləhətlər aparılması məqsədəuyğun olardı. Bəzi halda ölkənin Mərkəzi Bankı ilə xarici bank arasında ölkədən qanunsuz çıxarılmış kapitalın ölkəyə qaytarılması formaları və şərtləri haqqında xüsusi razılaşma hazırlanması barədə danışıqlar aparıla bilər.

Altıncısı, kapital ixracının tənzimlənməsi üzrə qanunverici bazanı genişləndirmək vacibdir.

İxracdan gələn valyuta gəlirlərinin büdcəyə vaxtında daxil olmaması və idxal üzrə qanunsuz avansların köçürülməsinin qarşısını almaq üçün cərimə sanksiyaları sistemi tətbiq edilməlidir.

Bəzən ölkədən çıxarılmış kapitalın yenidən ölkəyə qaytarılması üçün amnistiyanın tətbiqi ilə bağlı təkliflər də irəli sürülür. Lakin bu öz mövqeyindən istifadə etməklə dövlət mülkiyyətini mənimsəyən adamlar üçün mümkünsüzdür.

Belə bir fikir yarana bilər ki, amnistiyanın tətbiqi gələcəkdə də qeyri-qanuni yollarla varlanmaq istəyindən uzaqlaşdırmaq üçün bir vasitədir. Digər tərəfdən belə bir fikir formalaşa bilər ki, böyük həcmdə kapitala sahib olan adamın ölkədən çıxartdığı kapitalı yenidən ölkəyə qaytarması ilə həmin şəxs qeyri-qanuni yollarla varlandığını etiraf edərək, digər motivlərlə də onun sıxışdırılmasına, təzyiqlərə məruz qalmasına şərait yaratmış olardı. Deməli, belə bir nəticəyə gəlmək olar ki, ölkədə siyasi, iqtisadi stabilliyə nail olmayınca ölkədən çıxarılmış kapitalın yenidən ölkəyə qaytarılmasına stimul yaratmaq olmaz.

# IV FƏSİL. İQTİSADİYYATIN KORRUPSİYALAŞMASI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI PROBLEMİ

## 4.1. Keçid dövründə korrupsiyalı iqtisadiyyatın formalaşması prosesi

İqtisadi sistemlərin fəaliyyətindən asılı olmayaraq dünya təcrübəsi göstərir ki, kölgə iqtisadiyyatını tamamilə aradan qaldırmaq mümkün deyildir. Lakin milli iqtisadiyyatın özünün deformasiyaya uğramasından irəli gələn gizli proseslərin mahiyyəti ilə əlaqədar olan və daha asan yolla qazanc əldə etmək meyarlarını dəqiq ifadə edərək kölgə iqtisadiyyatının miqyasını məhdudlaşdırmaq, minimuma endirmək mümkündür. Ona görə də «kölgə iqtisadiyyatın»ın minimuma endirmək məsələsi vacib hesab olunan məsələlərdəndir. Milli iqtisadiyyatdakı çatışmazlıqların aşkara çıxarılması və aradan qaldırılması kölgə iqtisadiyyatının neytrallaşdırılması üçün olduqca vacibdir. Müasir şəraitdə gizli iqtisadi münasibətlərin miqyasını radikal iqtisadi islahatların aparılması və onların icra mexanizminin həyata keçirilməsi, inzibati-amirlik sisteminə xas qanunvericilik aktlarının ləğvi və bazar iqtisadi sisteminə keçidlə əlaqədar olan normativ sənədlərin qəbulu ilə məhdudlaşdırmaq olar. Bazar iqtisadiyyatına keçid heç də bəzilərinin düşündüyü kimi kölgə iqtisadiyyatını tam ləğv edə bilməz. Lakin iqtisadi münasibətlərin tənzimlənməsi, təsərrüfat subyektlərinin cəmiyyətdə qəbul edilmiş iqtisadi davranış qaydalarının işlənib hazırlanması və tətbiqi, dövlətin və vətəndaşların maraqları çərçivəsində şəxsi tələbatlarının təmin edilməsi imkanlarının müəyyən edilməsi səviyyəsindən asılı olaraq kölgə iqtisadiyyatının miqyasını və strukturunu məhdudlaşdırmaq olar. İnzibati-amirlik sisteminin fərqli xüsusiyyəti iqtisadiyyatın bir mülkiyyətçi kimi dövləti maraqlarının təmin edilməsi istiqamətində idarə edilməsindən ibarət idi. Lakin cəmiyyətin total ideologiyalaşdırılması şəraitində dövlətin mülkiyyətçi kimi rolu mücərrəd xarakter alır, iqtisadi

münasibətlərin iştirakçılarının konkret tələbləri və maraqları nəzərə alınmırdı. Belə olan şəraitdə işçilərin və əmək kollektivlərinin maddi maraqları «ölkənin sahibi hissləri» yaxud mülkiyyətçi ideologiyası ilə əvəz olunur. Sosial-psixoloji cəhətdən real həyatda belə «sahibkarlıq duyğusu» iqtisadi böhrana gətirib çıxarır. Çünki bu subyektlər iqtisadi proseslərdə həqiqətən sahibkar səlahiyyətlərinə malik olMURlar. Bazis münasibətlər üzərində üstqurum münasibətlərin üstünlük təşkil etməsi rəsmi iqtisadi münasibətlərin hətta güclü dövlət nəzarətinin təsiri olmasına baxmayaraq dağılması ilə nəticələnmişdir. Təsərrüfat subyektlərinin, hüquqi və fiziki şəxslərin obyektiv iqtisadi maraqları rəsmi iqtisadi strukturlardan kənar özünün təsdiq formasının axtarılıb tapılması üçün güclü stimul yaradır. Dövlətin iqtisadi sferada təsir gücünün artması, genişlənməsi, onun iqtisadi sferada diktator kimi çıxış etməsi kölgə iqtisadi fəaliyyətin miqyasının genişlənməsinə səbəb olur.

Əvvəllər BMT tərəfindən işlənib hazırlanmış milli hesablar sistemində gizli iqtisadiyyatının şərhinə birmənalı yanaşmırdılar, lakin 1993-cü ildə qəbul edilmiş yeni formada isə bütünlükdə «gizli iqtisadiyyatın» istehsal fəaliyyətinin tərkibində nəzərə alınması tövsiyə olunur.

BMT-nin statistik məlumatlarında məzmun etibarilə bir-birinə yaxın olan və öz aralarında sıx əlaqəli olan üç anlayışdan istifadə edilir. Bu, «kölgə» (yaxud da «gizli»), «qeyri-rəsmi» (yaxud «qeyri-formal») və «qeyri-qanuni» fəaliyyət terminləri tətbiq edilir [83, səh. 198].

Qeyd etmək lazımdır ki, əgər müstəqilliyə qədər kölgə iqtisadiyyatı məhdud şəkildə, dar çərçivədə fəaliyyət göstərirdisə, lakin sosialist rejiminin dağılmasından sonra bir sıra postsovet məkanlı ölkələrdə ÜDM-də kölgə iqtisadiyyatı sahələrinin payı sürətlə artmağa başlamışdır. Müəssisələr arasında qarşılıqlı ödəmələrin və qeyri-formal iqtisadi fəaliyyətin (barter) mövcud olması kölgə iqtisadiyyatının fəaliyyətinə təkan vermişdir.

Qərb tədqiqatçıları «kölgə iqtisadiyyatı»nın miqyası və dinamikasını müəyyən edən amilləri aşağıdakı kimi qruplaşdırırlar: 1) vergilərin səviyyəsinin yüksək olması; 2) gəlirlərin səviyyəsi; 3) iş vaxtının müddəti; 4) işsizliyin miqyası; 5) dövlət sektorunun payı. Bu amilləri nəzərə almaqla keçid iqtisadiyyatlı ölkələrdə kölgə iqtisadiyyatının ÜDM-dəki payının dinamikasını müəyyən etmək olar.

**Cədvəl 4.1.**

**Keçid iqtisadiyyatlı ölkələrin ÜDM-də gizli iqtisadiyyatın payının dinamikası, %-lə ÜDM-ə nisbətən [182]**

| | *1989* | *1990* | *1991* | *1992* | *1993* | *1994* | *1995* |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 12,0 | 21,9 | 22,7 | 39,2 | 51,2 | 58,0 | 60,6 |
| Belarus | 12,0 | 15,4 | 16,6 | 13,2 | 11,0 | 18,9 | 19,3 |
| Bolqarıstan | 22,8 | 25,1 | 23,9 | 25,0 | 29,9 | 29,1 | 36,2 |
| Çexiya | 6,0 | 6,7 | 12,9 | 16,9 | 16,9 | 17,6 | 11,3 |
| Estoniya | 12,0 | 19,9 | 26,2 | 25,4 | 24,1 | 15,1 | 11,8 |
| Gürcüstan | 12,0 | 24,9 | 36,0 | 52,3 | 61,0 | 63,5 | 62,6 |
| Macarıstan | 27,0 | 28,0 | 32,9 | 30,6 | 28,5 | 27,7 | 29,0 |
| Qazaxıstan | 12,0 | 17,0 | 19,7 | 24,9 | 27,2 | 34,1 | 34,3 |
| Latviya | 12,0 | 12,8 | 19,0 | 34,3 | 31,0 | 3,2 | 35,3 |
| Litva | 12,0 | 11,3 | 21,8 | 39,2 | 31,7 | 28,7 | 21,6 |
| Moldova | 12,0 | 18,1 | 27,1 | 37,3 | 34,0 | 39,7 | 35,7 |
| Polşa | 15,7 | 19,6 | 23,5 | 19,7 | 18,5 | 15,2 | 12,6 |
| Rumıniya | 22,3 | 13,7 | 15,7 | 18,0 | 16,4 | 17,4 | 19,1 |
| Rusiya | 12,0 | 14,7 | 23,5 | 32,8 | 36,7 | 40,3 | 41,6 |
| Slovakiya | 6,0 | 7,7 | 15,1 | 17,6 | 16,2 | 14,6 | 5,8 |
| Ukrayna | 12,0 | 16,3 | 25,6 | 33,6 | 38,0 | 45,7 | 48,9 |
| Özbəkistan | 12,0 | 11,4 | 7,8 | 11,7 | 10,1 | 9,5 | 6,5 |

Cədvəlin məlumatlarından görmək olar ki, bəzi ölkələrdə kölgə iqtisadiyyatının ÜDM-dəki payının artımı bir qayda olaraq islahatların aparıldığı ilk illərdə müşahidə olunur. Makromaliyyə sabitliyinin əldə olunması ilə iqtisadi artıma nail olunması ilə kölgə iqtisadiyyatının payının azalması müşahidə olunur. Bəzi ölkələrdə isə islahatların aparıldığı bütün illər ərzində gizli iqtisadiyyatın payının artımı müşahidə olunur. Bu da əsasən təbii resurslardan istifadə imkan-

larının məhdud əllərdə cəmlənməsi ilə, enerji və yanacaq kompleksindən qeyri-məhdud istifadə edilməsi ilə əlaqədar olmuşdur. Bundan əlavə, enerji balansından qeyri-formal iqtisadi fəaliyyətdə sərbəst istifadə olunması ilə əlaqədardır.

Cədvəldən göründüyü kimi, MDB məkanlı ölkələrdə, Özbəkistan istisna olmaqla kölgəli fəaliyyət geniş yayılmış, Şərqi Avropa ölkələrində (bir ölkədə) belə fəaliyyət zəifdir. Göründüyü kimi, kölgəli (gizli) fəaliyyətin artmasına gəlirlərin səviyyəsi az təsir göstərir. Belə ki, belə bir hal inkişaf etmiş ölkələr üçün də xarakterikdir. İnkişaf etmiş ölkələrdə gəlirlərin səviyyəsi «kölgə iqtisadiyyatı»ndan asılı olmayaraq təmin edilir. Aşağı gəlir səviyyəsinə malik olan ölkələrdə «kölgə iqtisadiyyatı»nın aşağı olması bir qayda olaraq ənənəvi amillərdən asılıdır.

Bir çox qərb mütəxəssisləri «kölgə iqtisadiyyatı»nın inkişafında əsas səbəb kimi vergiqoymaların səviyyəsini, vergi yükünü qeyd edirlər. Bu, tək cəhət, xüsusi amil olmasa da, əhəmiyyətli hesab oluna bilər. ÜDM-in 33%-i vergilərin və sosial ayırmaların bu səviyyəsi «kölgə iqtisadiyyatı»nın artması üçün dözülməz hal hesab oluna bilər.

Bazar sisteminə keçidin mühüm elementi kimi dövlət mülkiyyətinin özəlləşdirilməsi gizli iqtisadiyyatın miqyasının məhdudlaşdırılmasına, xüsusən dövlət idarəetmə orqanlarının nəzarəti altında olan kölgəli fəaliyyət sferalarının miqyasının ixtisarına kömək edə bilər. Özəlləşdirmə, işçilərin şəxsi maraqlarının reallaşması, rəsmi iqtisadi sferada yaradıcı və səmərəli şəkildə özlərini ifadə edə bilmələri, gizli yollarla (yəni qanuna zidd) mülkiyyətçi kimi maddi vəziyyətlərinin yaxşılaşmasının faydasızlığı, zərərliyi üçün bazis və ya mühüm şərait yaradır. Özəlləşdirmə prosesinin aparılması bəzi hallarda «kölgə iqtisadiyyatı»nın maliyyə mənbəyinə də çevrilir. Şərqi Avropa ölkələrinin timsalında bunu aydın görmək olar. Məsələn, Polşanın rəsmi statistikasından bəlli olur ki, özəlləşdirilmiş müəssisələrdən daxil olan vergi ödəmələri dövlət bölməsindən xeyli azlıq təşkil edir. Bu heç də o demək deyildir ki, Polşa xüsusi sektoru qəbul etmir və ya orada işgüzarlıq üçün zəruri

mühit yaradılmayıb. Əslində bu o deməkdir ki, büdcəyə daxil olan aşağı səviyyəli vergi ödəmələrinin əsas səbəbi gəlirlərin çox hissəsinin gizli iqtisadiyyata getməsidir [114, səh. 2]. İqtisadi sferada istehsalçı-mülkiyyətçilər və istehlakçı-mülkiyyətçilərin qarşılıqlı təsiri, onların qarşılıqlı nəzarəti və tam iqtisadi cavabdehlik daşımaları inzibati dövlət nəzarətindən daha səmərəli olur. Mülkiyyətçilər arasındakı bazar münasibətləri iqtisadi subyektlər arasındakı qeyri-rəsmi və saxta qarşılıqlı təsirin əsasını dağıdaraq, əməyin səmərəliliyi ilə deyil, iqtisadi subyektlərin statusu ilə şərtlənən elitar iqtisadi imtiyazları, üstünlükləri praktiki olaraq istisna edir.

Bazar sferası və «gizli», qeyri-rəsmi münasibətlər bir-birinə sıx nüfuz edirlər; vicdanlı rəhbər fırıldaqçıya çevrilir, «tamahkar olmayan bir adam» rüşvətxor adama çevrilir. Bir müddətdən sonra məlum olur ki, tam ləyaqətli bir insan müdriyyətin, rəhbərliyin toruna düşərək, bir növ onun yeminə çevrilir, rüşvətxorluq və digər iqtisadi cinayətlərdə günahlandırılır və bununla da ləkələnirlər. Söz yox ki, belə şəraitə uyğunlaşa bilməyənlər bürokratlaşmış və fetişləşdirilmiş idarəetmə sistemi tərəfindən sərt qaydada bir növ cəzalandırılır.

Bir çox tədqiqatçıların fikrincə, cəmiyyətdə bu gün bərqərar olmuş mənəvi-etik dəyərlərin aşınması ona gətirib çıxarır ki, fərdin mənəvi dəyərlərində dəyişikliklər baş verir və o, artıq vergilərdən yayınmada, rüşvətin verilməsində, bütün vasitələrlə tamahkar hisslərin ödənilməsində pis bir şey görmür. Sözsüz ki, bu zaman o, «gizli» iqtisadiyyatın aktiv subyektinə çevrilə bilər. Bu da öz növbəsində iqtisadiyyatın formal sektorundan ixtisaslı və perspektivli kadrların axınına səbəb olur və onun işində mənfi nəticələrə gətirib çıxarır [104, səh. 42].

Qeyri-qanuni kollektiv və fərdi fəaliyyət sferalarının təhlili «mülkiyyətçilərin» müxtəlif modifikasiyalarını aşkara çıxarır və bu subyektlər açıq fəaliyyətdən çox, gizli, «kölgəli» fəaliyyətə üstünlük verirlər. Belə fəaliyyət növlərinin elə ilk yanaşmadan rədd edilməsi qeyri-düzgün olardı. Əksinə, «ikinci iqtisadiyyat» (yəni kooperativlər; fərdi (şəxsi) fəaliy-

yətlə məşğul olanlar; fermer təsərrüfatları) üçün daha əlverişli şəraitin, rejimin yaradılmasını çox zəruri hesab etmək lazımdır. Bu, kölgə iqtisadiyyatının xeyli hissəsini leqallaşdırmağa, qanuniləşdirməyə və bu iqtisadiyyatın potensialından radikal iqtisadi islahatların aparılmasında istifadə etməyə imkan verə bilər. «Kölgə iqtisadiyyatı»na qarşı əsaslandırılmış qadağalar, məhdudiyyətlər onun miqyasının genişlənməsinə səbəb ola bilər və iqtisadi böhrandan çıxmaq üçün həyata keçirilən tədbirlərin nəticəsində heçə endirilə bilər. Əlbəttə, zəhmətkeşlərin, insanların həm şəxsi, həm də cəmiyyət maraqlarından çıxış edərək daha səmərəli, iqtisadi cəhətdən əlverişli, gəlirli fəaliyyət yollarını, vasitələrini axtarıb tapmalarına, onu həyata keçirmələrinə tam şəkildə sərbəstlik vermək olmaz. Əgər bu fəaliyyət qeyri-qanunidirsə, «qara iqtisadiyyat», xüsusilə cinayətkar maraqlara xidmət edirsə, onda onun qarşısı söz yox ki, alınmalıdır. Bu sahədə tədqiqat aparan alimlərin fikrincə, gizli iqtisadiyyatın iqtisadi və sosial fenomen kimi qiymətləndirilməsi zamanı onun konstruktiv tərəfi ilə destruktiv tərəfini bir-birindən ayırmaq lazımdır. Müasir şəraitdə bəzən gizli iqtisadiyyat (onun gizli və qeyri-formal tərəfi) iqtisadi və sosial müvazinətin qorunmasının mühüm vasitəsi olmaqla, biznesin və əhalinin həyatda qalması üçün şərait yaradır [87, səh. 62].

Mülkiyyət münasibətlərində baş verən kriminal dəyişikliklər yalnız dövlət mülkiyyətinin özəlləşdirilməsi deyil, iqtisadi münasibətlərin bütün sferalarında kompleks islahatların aparılmasını tələb edir. Vergi, maliyyə-kredit və digər sferalarda aparılan dəyişikliklər gizli iqtisadiyyatın strukturunda və məzmununda obyektiv dəyişikliklərə səbəb olur. Mərkəzdən göstəriş metodlarla idarəetmədən iqtisadi tənzimləmə metodlarına keçid iqtisadi sferada fəaliyyətə süni maneələr və səmərəsiz qadağaların aradan qaldırılması, uyğun olaraq gizli fəaliyyət sferalarının leqallaşması və ya məhdudlaşmasına şərait yaradır. Bu zaman həm müsbət, həm də mənfi nəticələri görmək mümkündür.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın açıqlığının yüksəldilməsi mərhələli xarakter daşımalıdır, maliyyə və maddi resurslarla bağlı əməliyyatlara iqtisadi və hüquqi məhdudiyyətlərin aradan qaldırılması adekvat olaraq dövlət və korporativ nəzarət həddinin yüksəldilməsi tədbirləri ilə müşayiət olunmalıdır [116, səh. 78].

İqtisadi sferada baş verən cinayətlər və digər oğurluq halları ilə mübarizə məqsədilə yalnız iqtisadiyyatdakı dəyişikliklər deyil, eyni zamanda hüquq-mühafizə orqanlarının fəaliyyətini gücləndirmək, mülkiyyətçilərin hüquq və əmlaklarının qorunması istiqamətində fəaliyyətin keyfiyyətini yüksəltmək lazımdır. Bu tədbirlər və digər iqtisadi tədbirlər yeni iqtisadi mühit formalaşdırır ki, bu da kriminal iqtisadi sferanın miqyasının məhdudlaşdırılmasına kömək edir. Bu baxımdan, yeni şəraitdə kölgə iqtisadiyyatının neytrallaşdırılması inzibati və vətəndaş hüquq normaları ilə ifadə olunan iqtisadi metodlarla həyata keçirilə bilər.

Qeyri-qanuni fəaliyyətə hərəkətverici mexanizm kimi, kütləvi özəlləşdirmə, qiymətlərin liberallaşması cəhdi, ölkə iqtisadiyyatının dünyaya birbaşa, bidəfəlik açılması, qeyri-düzgün pul-kredit sistemi, istehsala sərt vergi siyasətinin tətbiqini qeyd etmək olar.

Çox vaxt kölgə iqtisadiyyatı və iqtisadi sahədə cinayətkarlıq sinonim terminlər kimi işlədilir. İlk baxımdan bu məntiqi olaraq düzgün görünür. Çünki harada törədilməsindən asılı olmayaraq, hətta iqtisadi sferada baş verən cinayətkarlıq da gizli şəkildə həyata keçirilir, rəsmi olaraq müəyyən edilmiş qaydaları, ictimai münasibətləri inkar edir. Heç kim inkar edə bilməz ki, iqtisadi cinayətkarlıq iqtisadi sferada gizli (kölgəli) münasibətlərin həyata keçirilməsinin tipik, klassik formasıdır. O zaman belə bir sual ortaya çıxa bilər ki, «iqtisadi cinayətkarlıq» termini ilə yanaşı yeni terminin işlədilməsi hansı zərurətdən irəli gəlir?

Fikrimizcə, kölgə iqtisadiyyatı ümumi halda əmtəə və xidmətlərin faktiki olaraq nəzarətdən kənar ictimai istehsal fəaliyyəti, bölgü, mübadilə və istehlakı kimi qiymətləndiril-

məlidir. Buraya normativ sənədlərdə və qaydalarda təsbit edilmiş normalardan fərqli olaraq və qeydiyyata alınmayan, tənzimlənməyən iqtisadi fəaliyyət növləri aiddir. İqtisadi-hüquqi nöqteyi-nəzərdən kölgə iqtisadiyyatı yalnız tamah məqsədilə törədilmiş iqtisadi cinayətləri deyil, həm də qeyri-cinayət xarakterli tamah məqsədli iqtisadi qanun pozuntuları və qeydiyyata alınmayan yaxud nəzarətdənkənar qanunauyğun iqtisadi fəaliyyət növlərini ifadə edir. İqtisadi münasibətlərin məzmunu olduqca müxtəlifdir və fərqli formalarda və şəkillərdə təzahür edir.

Ümumiyyətlə, kölgə iqtisadiyyatının miqyası olduqca genişdir. Lakin müxtəlif, bəzən qiymətləndirilən elementlərin müqayisəolunmaz iqtisadi məzmununa görə bu miqyasın qiymətləndirilməsi çətinlik törədir. Eyni zamanda kölgə iqtisadiyyatının müxtəlif tiplərinə aid, eləcə də eyni bir tipin daxilindəki hadisələrin, proseslərin sərhədini müəyyənləşdirmək çətinlik törədir. Belə ki, kölgə iqtisadiyyatında kriminal sektor həm qeyri-rəsmi, həm də qeyri-formal iqtisadiyyatla müxtəlif qaydada, həcmdə kəsişmə müstəvisinə malikdir. Digər bir tərəfdən, oğurlanmış qiymətli dəyərlər alver predmeti ola bilər, lakin asan qazanc əldə etmək cəhdi rüşvətxorluq üçün əsas yaradır.

Kölgə iqtisadiyyatının kəmiyyət və keyfiyyətcə xarakteristikası rəsmi iqtisadi modelin özünəməxsus səmərəlilik və əlverişlilik göstəricisidir (eləcə də cəmiyyətin mənəvi-əxali sağlamlığı göstəricisidir). Məhz bu baxımdan da radikal iqtisadi islahatların həyata keçirilməsi kölgə iqtisadiyyatının aradan qaldırılmasında əsas tədbirlərdən hesab olunur. Bu istinamətdə həyata keçirilən tədbirlərin, islahatların kəmiyyətcə deyil, məhz kefiyyətjə iqtisadiyyatdakı gizli (kölgə) proseslərə təsirini müəyyən etmək; ikincisi də bu islahatlar nəticəsində kölgə iqtisadiyyatı sferasında və onun strukturunda həm müsbət, həm də mənfi meyillərin aşkara çıxarılması və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qiymətlərin liberallaşdırılması sərt antiinhisar siyasətinin həyata keçirilməsini tələb edir. İnhisarın geniş miqyas aldığı

şəraitdə qiymətlərin qalxması natural formada istehsalın həcmi artmadan baş verir. Əmtəə və xidmətlərin iki-üç təşkilat, müəssisə tərəfindən istehsal olunması iqtisadiyyatın inhisarlaşdırılmasını olduqca çətinləşdirir. Əgər özəlləşdirmə formal şəkildə aparılarsa, antiinhisar qanunvericiliyindən yayınma baş verərsə, bu sferada pozuntular daha intensiv xarakter alar.

Rəsmi iqtisadi sferada həyata keçirilən dəyişikliklərin təhlili həm kölgə iqtisadiyyatının neytrallaşdırılmasında əsas istiqamətləri müəyyən etməklə yanaşı, kölgə (gizli) fəaliyyətin aktivləşdirilməsi üsulları və amillərini əvvəlcədən görməyə və yeni təsərrüfatçılıq şəraitinə uyğunlaşmağa imkan verir. Bununla yanaşı neqativ nəticələri əvvəlcədən görmək, rəsmi iqtisadiyyatda islahatların keçirilməsi zamanı cinayətkarlığın qarşısını almaq üçün əlavə tədbirlərin nəzərdən keçirilməsinə imkan verir. Belə qabaqlayıcı fəaliyyət konkret iqtisadi dəyişikliklərin məzmununda düzəlişlərin edilməsinə səbəb olur. Yeni növ iqtisadi qanun pozuntuların görə hüquqi cavabdehliyin müəyyən edilməsi, gizli yolla gəlirlərin əldə edilməsinin yeni forma və üsullarının meydana gəlməsi imkanlarının nəzərə alınması ilə hüquq-mühafizə orqanlarının öz fəaliyyətlərini təşkil etmələri ilə ifadə olunur.

Aydındır ki, iqtisadi dəyişikliklərin həyata keçirilməsi müvafiq təşkilati və hüquqi təminat tələb edir. Bu məqsədlə, kölgə iqtisadiyyatının neytrallaşdırılması ilə əlaqədar aşağıdakı iqtisadi təbdirlər kompleksini həyata keçirmək məqsədəuyğundur;

- özəlləşdirmə, iqtisadiyyatın dövlətsizləşdirilməsi (müxtəlif mülkiyyət formaları və fərqli iqtisadi subyektlərin təmsil olunduğu yeni iqtisadi məkanın formalaşması, yəni qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması, cinayətdən uzaq iqtisadi fəaliyyət növləri, saxta əməliyyatlar həyata keçirən sahibkarların əks-təsiri, müqaviməti);

- iqtisadi münasibətlərin bütün sferalarında rəqabətə şəraitin yaradılması (iqtisadiyyatın inhisarsızlaşdırılması, qiymətlərin liberallaşması, dövlətin iqtisadiyyata birbaşa müda-

xiləsini məhdudlaşdırmaq. Bunlar qeyri-formal və saxta iqtisadiyyatın inkişafı amillərini və onların cinayətkar formalarının inkişafını neytrallaşdırır);

- sahibkarlıq fəaliyyətinin iqtisadi stimullaşdırılması və istehsalın həcminin artırılması (güzəştli kreditlərin verilməsi və vergi sistemin tətbiqi, məhsulun çeşidi və istehsalının genişləndirilməsi. Bu, istehlak bazarının və istehsal vasitələri bazarının inkişafına kömək edər, eləcə də kölgə iqtisadiyyatının, gizli fəaliyyətin neytrallaşdırılmasına xidmət edir);

- əməyin səmərəliyinin artırılmasında iqtisadi stimullaşdırma (əməyin nəticələrindən asılı olaraq əmək haqqının artırılmasında məhdudiyyətlərin aradan qaldırılması, müəssisənin gəlirlərinin bölüşdürülməsində işçilərin iştirakını təmin etmək. Bu, gizli yolla gəlir əldə etmək hesabına yox rəsmi sferada əmək fəallıqları hesabına işçilərin həyat səviyyələrini yüksəltməyə stimul yaradır);

- vergi sisteminin təkmilləşdirilməsi (müəssisənin vergi ödəmə səviyyəsini və əhalidən gəlir vergisi dərəcəsini optimallaşdırmaq. Bu, müəssisənin istehsal fəaliyyətinin keyfiyyətini yüksəltmək və miqyasını genişləndirməyi stimullaşdıraraq, zəhmətkeşlərin rəsmi sferada öz gəlirlərini artırmaqda maraqlı olmalarına, müəssisələrin isə öz gəlirlərini artırmalarına kömək edə bilər. Gəlir vergisinin səviyyəsinin həddindən çox yüksək olması vergilərdən yayınma hallarının çoxalmasına və uyğun olaraq gizli formada gəlir əldə etmək istiqamətində fəaliyyətin genişlənməsinə şərait yaradır);

- əmtəə və xidmətlərin bazar mexanizmləri əsasında bölgüsü (əmtəələrin xüsusi sistem əsasında, yəni talon, sifariş, əlaltdan satış və s. əsasında bölgüsünü minimuma endirmək, belə sistemin tətbiqinə böyük ehtiyac duyulduğu hallarda, (yəni müxtəlif qrup uşaqlar, ayrı-ayrı kateqoriyalı xəstələr, aztəminatlı əhali qrupu) tam aşkarlığın və nəzarətin təmin edilməsi; resursların, məhsulların mərkəzləşdirilmiş qaydada bölgüsündən bazar sistemi əsasında müsabiqə qaydasında bölgüyə keçmək; iqtisadiyyatda barterin ləğvi – bu qeyri-formal razılaşmaların, sui-istifadə hallarının, o cümlədən

iqtisadi statusu, vəzifə səlahiyyətlərini aşaraq cinayət edən şəxslərin hərəkətlərinin qarşısının alınmasında mühüm rol oynayır);

- təsərrüfat fəaliyyətinə iqtisadi nəzarətin həyata keçirilməsi (burada maliyyə, bank, vergi nəzarəti müxtəlif gizli münasibətlərin, əməliyyatların aşkara çıxarılması və iqtisadi cəzaların tətbiqini təmin edir; eyni zamanda iqtisadi nəzarət iqtisadi sferada cinayətkar fəaliyyətin, hadisələrin qarşısının alınmasında səmərəli vasitə rolunu oynayır);

Ümumiyyətlə, bazar sisteminə keçid şəraitində kölgə iqtisadiyyatının inkişafına mane olan tədbirlər sisteminin işlənib-hazırlanması gizli iqtisadi münasibətlər sferasının miqyasının hiss olunajaq dərəcədə məhdudlaşmasına kömək edə bilər.

İqtisadi böhranın aradan qaldırılması radikal islahatların həyata keçirilməsi, bazar münasibətlərinin formalaşması ilə bağlıdır. Həyata keçirilməsi vacib hesab olunan iqtisadi dəyişikliklərin mühüm istiqamətlərindən biri gizli iqtisadi fəaliyyətin (kölgə iqtisadiyyatının) neytrallaşdırılması üzrə tədbirlər kompleksinin işlənib-hazırlanmasıdır. Kölgə iqtisadiyyatının inkişafına mane olan konkret praktiki tədbirlərin işlənib-hazırlanması və həyata keçirilməsi bu problemlə bağlı dərin tədqiqatların aparılmasını tələb edir. Problemin çoxcəhətliliyi, fəaliyyət növlərinin müxtəlifliyi bu istiqamətdə tətqiqatların aparılmasında müəyyən çətinliklər yaradır. Bəzən mütəxəssislər kölgə iqtisadiyyatı probleminin tədqiqinə daha çox kriminal aspektdən, meyildən yanaşırlar. Düzdür, iqtisadi sferadakı cinayətkar fəaliyyət gizli iqtisadi münasibətlərin meydana gəlməsinin mühüm və sosial cəhətdən təhlükəli, əyani formasıdır. Lakin kölgə iqtisadiyyatının cinayətkar fəaliyyət, ümumiyyətlə cinayətkarlıq baxımından tədqiq edilməsi həm nəzəri, həm də praktiki nöqteyi-nəzərindən yanlış olardı. Bu mənada, gizli (kölgə) iqtisadi münasibətlərin mahiyyəti, növləri və meydana gəlmə formalarının öyrənilməsinə kompleks yanaşma əsasında «kölgə iqtisadiyyatı» probleminin tədqiqi daha aktual olardı.

**Geniş təkrar istehsalın mərhələləri üzrə (kölgə) iqtisadi münasibətlərin növləri.** Kölgə iqtisadi münasibətlərin strukturunda ictimai təkrar istehsalın hər bir mərhələsi üçün aşağıdakıları ayırmaq alar: a) rəsmi iqtisadiyyat üzərində qurulmuş (kölgə) münasibətlər, bu münasibətlər iştirakçıların iqtisadi statusu ilə şərtləşir; b) rəsmi iqtisadiyyata süni olaraq (zorla) nüfuz etmiş gizli münasibətlər, bu münasibətlər iştirakçıların iqtisadi statusu ilə şərtlənmir. Gizli (kölgəli) iqtisadi münasibətlərin birinci qrupunu daxili münasibətlər adlandırmaq olar. Bu münasibətlərin meydana gəlməsi və reallaşması konkret subyektlərin rəsmi iqtisadi statusdan süni, tamahkarcasına istifadəsi ilə şərtlənir. İkinci qrup münasibətləri şərti olaraq «paralel (kölgə) münasibətləri» ilə ifadə etmək olar. Bu münasibətlər subyektlərin iqtisadi statusdan birbaşa və bilavasitə istifadəsi ilə əlaqəli deyil, ona görə də bu subyektlərin münasibətləri rəsmi münasibətlərlə paraleldir. «Paralellik» termininin şərtiliyi ondan ibarətdir ki, paralel münasibətlər gizli daxili iqtisadi münasibətlərlə kəsişə bilər, müxtəlif kombinasiyalarda birləşə bilər.

Çoxaspektli sosial-iqtisadi hadisə kimi kölgə iqtisadiyyatının meydana gəlməsi formaları (kölgə) iqtisadi münasibətlərin həyata keçirilməsi qanunauyğunluqları və üsulları, xarakteri, iqtisadi nəticələri, məqsədli istiqamətləri baxımından nəzərdən keçirilir.

**Kölgə iqtisadi münasibətlərin məqsədli istiqamətləri.** Gizli iqtisadi münasibətlərin iştirakçıları onların bu münasibətlərdəki rolu və mövqeyi baxımından onlar təşəbbüskarlar, icraçılar və istehlakçılar kimi xarakterizə olunurlar. Çox zaman eyni bir subyekt bu münasibətlərdə iki - üç rolda çıxış edə bilər.

Gizli münasibətlərin yaranmasında müəyyən iqtisadi statusa malik konkret fərdin, yəni real yaxud potensial iştirakçının şəxsi maraqları mühüm rol oynayır. Burada xüsusən qeyd etmək vacibdir ki, gizli münasibətlər müəyyən iqtisadi statusa malik insanlar arasındakı münasibətlərdir. Baxmayaraq ki, zahirən bu münasibətlər yalnız, fərdlər arasındakı

qarşılıqlı münasibətlər formasında deyil, həm də fərd-təşkilat, fərd-dövlət, təşkilat-təşkilat, təşkilat-dövlət arasında qarşılıqlı münasibətlər kimi ifadə oluna bilər. Buna görə də kölgə iqtisadiyyatının fəaliyyəti onun iştirakçılarının (subyektlərinin) rəsmi normalar nəzərə alınmadan maddi və status tələblərinin təmin edilməsinə yönəlmişdir. Lakin kölgə iqtisadiyyatı qapalı məkanda deyil, rəsmi, qanuni iqtisadi məkanda fəaliyyət göstərir.

Mahiyyət etibarilə bu sferanın bütün strukturlarına nüfuz edir, o zaman gizli (kölgəli) iqtisadi qarşılıqlı təsirin, münasibətlərin nəticələri cəmiyyətin bütün üzvlərinin həyat fəaliyyətində, ictimai istehsalın nəticələrində bilavasitə öz təsirini büruzə verir. Bu baxımdan (kölgəli) iqtisadi hadisələrin formalarına təkcə bu münasibətlərin subyektləri, fəal iştirakçıları deyil, bütövlükdə cəmiyyət üçün iqtisadi nəticələri baxımından yanaşmaq əhəmiyyətli hesab olunur.

**Kölgə iqtisadi fəaliyyətin ictimai iqtisadi nəticələri.** Gizli iqtisadi fəaliyyətin nəticələri xalq təsərrüfatı baxımından məhsuldar və qeyri-məhsuldar (qondarma) ola bilər. Nəticələrin qeyri-məhsuldarlığı (saxta olması) iqtisadiyyatın ayrı-ayrı sferalarını xarakterizə edən iqtisadi göstəricilərin təhrif olunması ilə bağlıdır. Bunun da nəticəsində rəsmi göstəricilərdə istehlak qiymətlərinin mövcud olmayan artımı əks etdirilir. ÜDM, milli gəlir kimi ümumiləşdirici göstəricilərə gizli fəaliyyəti doğuran komponentlər əlavə olunur. Bu zaman əhaliyə təklif olunan əmtəə və xidmətlərin həcminin artması baxımından gizli (kölgəli) iqtisadi fəaliyyətin ayrı-ayrı növləri şərti olaraq məhsuldar qəbul edilir. Bu və ya digər səbəblərdən dövlət tərəfindən qeydiyyata alınmayan, ictimai zəruri malların istehsalına və xidmətlərin göstərilməsinə yönəldilən resurslardan bütövlüklə məhsuldar istifadə edilməsi məcmu ictimai məhsulun real həcminin artması ilə başa çatır və əhalinin ödəmə qabiliyyətli tələbinin maddi cəhətdən yaxşı təmin olunmasına kömək edir.

Vətəndaşların şəxsi mülkiyyətinə qarşı cinayətkar münasibət, əmtəə və xidmətlərin gizli istehsalı sosial baxımdan

təhlükəli və qorxulu olsa da, ictimai məhsulun artımı baxımından heç bir iqtisadi fayda vermir.

Gizli iqtisadi fəaliyyətin nəticələri ictimai tələbatı ödəyən məhsulların və xidmətlərin həcminin artımı ilə yanaşı, iqtisadi subyektlərin gəlirlərinin formalaşmasına da təsir göstərir. İctimai məhsulun artımı baxımından saxta nəticələr saxta iqtisadi fəaliyyətin iştirakçılarının (saxta nəticələrə görə əmək haqqı və mükafat formasında), müəssisə kollektivi (mənfəət, təsərrüfathesablı gəlir, saxta göstəricilər əsasında formalaşmış iqtisadi həvəsləndirmə fondları şəklində) və dövlətin (təsərrüfat hesablı gəlirdən, müəssisənin mənfəətindən büdcəyə ayırmalar, rəsmi sferadakı saxta fəaliyyətin nəticələrinə görə təsərrüfat subyektlərinin əldə etdikləri gəlirlərdən tutulan vergilər formasında) real gəlirlərini verir. Qeydiyyata alınmayan məhsuldar nəticələr dövlətin və kollektivlərin gəlirlərinin formalaşmasına təsir etmir və yalnız qeydiyyatsız ictimai məhsul istehsal edən şəxslərin gəlirlərinin artmasına xidmət edir. Saxta nəticələr cinayətkar ünsürlərin, qanun pozğunlarının zənginləşməsində, istehlakçıların gəlirlərinin azalmasında özünü ifadə edir.

**Kölgə iqtisadi fəaliyyətin subyektlərinin davranışının sosial-normativ xüsusiyyətləri.** Gizli fəaliyyətin iştirakçılarının davranışı iqtisadi sferada ictimai münasibətlərin normativ tənzimlənməsi nöqteyi-nəzərindən rəsmi və qeyri-rəsmi davranış kimi qiymətləndirilir.

Qeyri-rəsmi iqtisadi münasibətlər 3 qrupla müəyyən edilir: qanuniləşdirilməmiş, ənənəvi-qarşılıqlı razılaşma (kompromisli) və deviant münasibətlər. Rəsmiləşdirilməmiş münasibətlərə miqyası, xarakteri və sərhədləri baxımından dəqiq və birmənalı olaraq rəsmi sosial normativlərlə möhkəmləndirilməmiş münasibətlər aid edilir (məsələn, vətəndaşların iqtisadi müstəqilliyi). Ənənəvi-kompromisli gizli münasibətlər o zaman yaranır ki, iqtisadi davranışı tənzim edən normalar ziddiyyət təşkil edir və iştirakçıların fəaliyyəti bu normalardan biri çərçivəsində həyata keçirilsə də, digərinin pozulması ilə nəticələnir. Əgər zidd, hətta bir-birini inkar edən normalar

saxlanılırsa, münasibətlərin özü kompromisli xarakterə malik olursa, belə davranış ənənvi hesab olunur. Beləliklə, ənənəvi-kompromisli münasibətlərə sahə, müəssisə normaları əsasında həyata keçirilən bütün iqtisadi fəaliyyətin növləri aid edilir. Nəhayət, deviant gizli münasibətlər sosial normalardan kənarlaşmaları əks etdirir. Burada bir-birinə zidd olmayan, birmənalı şərt olunan sosial normalar nəzərdə tutulur. Bu baxımdan, deviant münasibətlər ənənəvi-kompromisli münasibətlərdən fərqlənir, lakin geniş mənada ikincilər birincilərin fərqli növüdür. Qəbul edilmiş sosial-normativ davranış xəttindən kənarlaşma şəxsi maraqlarla bağlı olaraq bu normaların birbaşa pozulması, eləcə də bu normaların deformasiyası, köhnəlməsi, iqtisadiyyatın obyektiv inkişaf tələblərinə uyğunsuzluğu səbəbindən məcburi olaraq onlardan yan keçmək, uzaqlaşmaqla əlaqəli ola bilər.

**Kölgə iqtisadiyyatı subyektlərinin fəaliyyətinin hüquqi qiymətləndirilməsi.** Qanunauyğun kölgəli (gizli) iqtisadi dövranış tənzimlənməyən, qeydiyyata alınmayan və saxta huquqi fəaliyyətlə özünü ifadə edir. Tənzimlənməyən gizli (kölgə) fəaliyyət rəsmi olaraq dövlət tərəfindən tənzimlənməyən, amiiranə (qəti) hüquqi normalara uyğun davranış variantlarının, yaxud sərhədlərinin dəqiq və birmənalı təsviri verilməyən fəaliyyət növlərini əhatə edir. Belə vəziyyətdə təbii olaraq dövlət tənzimlənməyin fəaliyyəti qeydə almır, bu fəaliyyətlə məşğul olan şəxslər isə öz fəaliyyətlərinin nəticələri barəsində hesab verməyə borclu deyillər. Qeydə alınmayan Qanunauyğun fəaliyyət barəsində danışarkən fəaliyyətin özünün qanunauyğunluğu nəzərdə tutulur. Aydındır ki, qeydiyyata alınmayan qanunauyğun fəaliyyət təşkilat tərəfindən deyil, ayrı-ayrı şəxslər tərəfindən həyata keçirilir. Yalançı hüquqi fəaliyyət isə hüquqi normalara uyğun həyata keçirilən fəaLiyyət olsa da, bu normaların özləri isə ya köhnəlmiş, ya deformasiyaya uğramış normalar olub, obyektiv sosial-iqtisadi inkişaf tələblərinə cavab vermir.

Müəyyən edilmiş hüquqi normaların pozulması üzərində qurulan gizli (kölgə) iqtisadi münasibətlər iqtisadi

sferada subyektlərin qanunsuz davranış forması kimi qiymətləndirilir. Məqsədyönlü istiqamətinə və sosialtəhlükəlilik dərəcəsinə görə inzibati sahədə tamahkarlıq və vətəndaşların hüquq pozuntuları, tamahkarlıq məqsədli cinayətlər, vətəndaşların şəxsi mülkiyyətlərinə qarşı cinayətlər fərqlənir.

**Kölgə fəaliyyətin rəsmi nəzarətdən yayınma formaları.** Nəzarət sistemi baxımından gizli iqtisadi fəaliyyətin meydana gəlməsi rəsmi və qeyri-rəsmi formada olur. Kölgə iqtisadiyyatının qanuni (leqal) formalarına rəsmi qaydada hesabat verməli olmayan (vətəndaşların tənzimlənməyən və qeydiyyata alınmayan iqtisadi fəaliyyət növləri) və üstüörtülü (pərdəaltı) fəaliyyət (o cümlədən yalnış hüquqi və ənənəvi-kompromisli fəaliyyət, davranış) növlərinə ayrılır. Birinci fəaliyyət formasında heç bir nəzarətdən yayınma vasitələri lazım deyil, çünki bu fəaliyyətin nəticələri haqqında rəsmi hesabat vermək qanunvericiliklə nəzərdə tutulur. Kölgə iqtisadiyyatının qanuni pərdəaltı forması fəaliyyətin hüquqi normalar çərçivəsində həyata keçirildiyi və onun yalnız ayrı-ayrı dövlət orqanlarına məlum olduğu halı əks etdirərək, ya əsaslandırılmamış imtiyazlarla, ya da hüquqi normaların ziddiyyət təşkil etdiyi şəraitdə tamahkar fəaliyyətlə əlaqədardır.

Cəmiyyətin iqtisadi həyatına müdaxilə etməklə bağlı baş verən hüquq pozuntuları və cinayətlər qeyri-qanuni həyata keçirilir. Burada da qeyri-qanuni, pərdələnmiş və gizli (əlaltdan) fəaliyyət formaları fərqlənir. Qeyri-qanuni fəaliyyət formasında qeyri-qanunauyğun yollarla tamahkar məqsədlərə nail olurlar. Bu, zahirən tam rəsmi fəaliyyət kimi özünü büruzə versə də, nəticələri rəsmi olaraq qeydiyyata alınmır, yaxud da təhrif olunmuş formada verilir. Başqa sözlə, qeyri-qanuni gizli (kölgə) fəaliyyəti rəsmi iqtisadi model və müəyyən edilmiş iqtisadi davranış normaları maskası altında həyata keçirilir. Əgər qanunsuz kölgəli fəaliyyət rəsmi iqtisadi strukturdan təşkilati baxımdan ayrılırsa, bu halda o, dövlət və ictimai nəzarətdən yayınan, bütövlükdə rəsmi qeydiyyata alınmayan gizli (əlaltından) fəaliyyətə çevrilir. Gizli (əlaltından) iqtisadi fəaliyyət özünəməxsus qanunlar çərçivəsində

həyata keçirilir və resurslar götürmək və islahatçılara öz məhsullarını satmaq yolu ilə rəsmi iqtisadi sfera ilə əlaqələndirilir.

Deyilənləri ümumiləşdirərək (kölgəli) münasibətlərin növlərini özündə ehtiva edən kölgə iqtisadiyyatının tiplərini, onların təzahür formalarını aşağıdakı kimi fərqləndirmək olar.

**Saxta iqtisadiyyat:** istehsal prosesləri və onun nəticələri barəsində informasiyanın təhrif edilməsi; keyfiyyətsiz məhsul buraxılışı; məhsulun saxtalaşdırılması; saxta fəaliyyəti təmin edən resursların yalançı qanunu (kvazi qanunu) bölgüsü; saxta fəaliyyətdən əldə edilən gəlirlərin yalançı qanunu (kvazi qanunu) bölüşdürülməsi; əsaslandırılmamış qiymət artımı ilə məhsulların satışı; saxta fəaliyyətdən ləyaqətsiz yollarla qazanılmış pullara əldə edilən nemətlərin istehlakı. Qeyri-rəsmi iqtisadiyyat; əhalinin özünəxidməti; qeydiyyata alınmayan qanunauyğun fəaliyyət; qeydiyyata alınmayan qanunauyğun fəaliyyətdən əldə edilən gəlirlərin vergidən gizlədilməsi; vətəndaşlar arasında tənzimlənməyən mübadilə; qeydiyyata alınmayan qanunauyğun fəaliyyəti olan məhsulların satışı; qeydiyyata alınmayan qanunauyğun fəaliyyətdən gizlədilən gəlirlərin maddiləşdirilməsi; fərdi istehsal məhsullarının istehlakı; qanunauyğun fəaliyyətdən qeydiyyata alınmayan gəlir hesabına əldə edilən nemətlərin istehlakı.

**Qeyri-formal iqtisadiyyat:** rəsmi iqtisadiyyatda resursların saxta qanunu (kvazi qanuni) bölgüsü; rəsmi iqtisadiyyatdakı gəlirlərin kvazi qanuni bölgüsü; rəsmi iqtisadiyyatda qanuna zidd ənənəvi bölgü; qanuni əldə edilmiş gəlirlərin vergidən gizlədilməsi; kvaziqanuni məhsul mübadiləsi; qanunsuz, ləyaqətsiz yollarla əldə edilmiş, qeydiyyata alınmayan gəlirlərin maddiləşdirilməsi; xidmətlərdən qeyri-qanuni ənənəvi istifadə edilməsi; qanunsuz, ləyaqətsiz yolla əldə edilmiş, qeydiyyata alınmayan gəlirlərlə əldə edilən nemətlərin istehlakı;

Elitar-qapalı iqtisadiyyat; xüsusi qruplara daxil olan istehlakçılar üçün istehsal etmək; xüsusi qayda bölgü; xüsusi təbəqəyə daxil olanlar üçün maddi nemətlər və xidmətlərin çatdırılması; xüsusi təbəqələr üzrə istehlak.

**Kriminallaşdırılmış iqtisadiyyat:** qeydiyyata alınmayan məhsulların buraxılışı; rüşvətə görə qanuna zidd bölgü; mənimsəmə, israfçılıq, sui-istifadə yolu ilə dövlət və ictimai mülkiyyətin oğurlanması; oğurluq, qarət, quldurluq yolu ilə dövlət və ictimai mülkiyyətin oğurlanması; istehlakçıları hesabda aldatma, hiylə, fırıldaq, çəkidə aldatma; qanuna zidd olaraq topdansatış və pərakəndə ticarətlə məşğul olma; möhtəkirlik (alverçilik); qanunsuz gəlirlərin maddiləşdirilməsi; rəsmi iqtisadiyyat çərçivəsində istehsal edilən qeydiyyata alınmayan məhsulların satışı; qanuna zidd yollarla əldə edilmiş dövlət və ictimai mülkiyyətin satışı; qanunsuz yollarla əldə edilmiş dövlət və ictimai mülkiyyətin (əmlakın) istehlak olunması; cinayətkar əlaqələr hesabına qanunsuz olaraq xidmətlərdən istifadə edilməsi; qanunsuz gəlirlərə əldə edilən nemətlərin istehlakı; saxta və qeyri-formal iqtisadiyyatın kriminal hissəsi (həm vəzifə, həm də təsərrüfat fəaliyyəti ilə bağlı cinayətkar hərəkətlər).

Kriminal iqtisadiyyat: ictimai faydalı malların və xidmətlərin qanunsuz gizli (əlaltındakı) istehsalı; saxta, yalançı tələbatı təşkil edən əmtəə və xidmətlərin qanunsuz (əlaltından) istehsalı; saxta (yalançı) tələbatı təşkil edən gizli (əlaltdan) istehsal olunan məhsulların satışı; saxta tələbatın (kvazitələbin) təmin edilməsi.

Kriminal, yalançı iqtisadiyyat (kvaziiqtisadiyyat); vətəndaşların şəxsi əmlaklarına qarşı cinayət etmək; vətəndaşlardan qanunsuz yollarla əldə edilmiş əmlakın satılması; vətəndaşlardan qanunsuz yollarla əldə edilmiş əmlakın istehlakı.

Məhsuldar qüvvələr inkişaf etdikcə və iqtisadi sistem dəyişdikjə rüşvətxorluğun miqyası və forması da inkişaf etmiş və təkmilləşmişdir. Bu öz ifadəsini bazar iqtisadiyyatı sistemində rüşvətxorluğun inkişaf edərək korrupsiyaya çevrilməsində tapmışdır. Korrupsiyaya qısaca aşağıdakı tərifi vermək olar: «Korrupsiya ölkədə məmurların səlahiyyətlərindən istifadə edərək şəxsi mənfəət əldə etmək məqsədilə həyata keçirdikləri fəaliyyətdir. Bu fəaliyyət prosesində dövlətin qanunları alqı-satqı mənbəyinə çevrilir». İri miqyaslı kor-

rupsiya inzibati-amirlik sistemindçn bazar iqtisadiyyatına keçən dövlətlər üçün daha çox xarakterikdir. Bazar iqtisadiyyatına keçid dövründə milli sahibkarlığın formalaşmasına çox böyük mənfi təsir göstərən amillərdən biri məhz korrupsiyadır [693, səh. 78].

Qeyd etmək lazımdır ki, kölgə iqtisadiyyatının müxtəlif tipləri arasında kifayət qədər geniş və möhkəm əlaqələr vardır. Bu əlaqələr bu və ya digər fəaliyyətin qanunauyğun olub-olmamasının təhlili zamanı təzahür edir.

Onu da qeyd edək ki, kölgə iqtisadiyyatının müəyyən edilməsində istifadə edilən sinonim terminlər kölgə iqtisadadiyatının yalnız müəyyən bir aspektini əks etdirirlər. Digər tərəfdən bu cür terminologiyanın tərtib edilməsi real hadisələrin bütün cəhətlərini əks etdirməyə imkan verən elmi təsnifatın elementləridir. Nəhayət, kölgə iqtisadiyyatının tiplərinin ayrılması tədqiqatçıları ictimai elmlər sahəsinə aid təhlil metodlarından istifadə edərək mürəkkəb bir hadisənin müəyyən cəhətlərinin konkret xüsusiyyətlərini öyrənməyə istiqamətləndirir.

## 4.2. «Kölgə iqtisadiyyatı» korrupsiyalı fəaliyyətin əsası kimi: strukturu, mahiyyəti və subyektləri

Siyasi-iqtisad baxımından «kölgə iqtisadiyyatı» qanuni iqtisadi fəaliyyətdən («işıqlı» iqtisadiyyatdan) ayrıja, təjrid olunmuş şəkildə nəzərdən keçirmək qanundan kənardır. Bundan başqa, birinci ikincinin amirlik-bürokratik deformasiyası nəticəsində meydana gəlir. «Kölgə» iqtisadiyyatının inkişafı istehsal münasibətlərində süründürməçilik, bürokratlaşdırmanın geniş vüsət alması ilə birbaşa əlaqəlidir. Bundan asılı olaraq, kölgə iqtisadiyyatının 7 əsas sferası ayrılır: fetişləşdirilmiş iqtisadiyyat; imtiyazlı istehlak; qeyri-rəsmi iqtisadiyyat; məfkurəvi (ideolojiləşdirilmiş) iqtisadiyyat; qeyri-qanuni fərdi və kollektiv əmək fəaliyyəti sferası; «qara» iqtisadiyyat; iq-

tisadi cinayətkarlıqla məşğul olan jənayətkar qrupların (mafioz) nəzarətində olan sfera.

«Kölgə» iqtisadiyyatı qanuni iqtisadi sferada fəaliyyət göstərir və bu sferanı yoluxdurur. Özünəməxsus «kölgə iqtisadiyyatı»na, məfkurəsinə və idarəetmə mexanizminə malik olur; bürokratik istehsal və təkrar istehsalın iqtisadi əsasıdır; siyasətdəki «kölgə» münasibətləri ilə sıx qovuşmuş iqtisadi münasibətlər üzərində qurulur.

«Kölgə iqtisadiyyatı»nın sosial-iqtisadi mahiyyətini dövlət mülkiyyətinin gizli özəlləşdirilməsi forması, onun fərdi və şəxsi mülkiyyətə çevrilməsi təşkil edir.

A.Bazilyuk, Y.Vorabyov və S.Kovalenko hesab edirlər ki, gizli iqtisadiyyatın tarixi dövlətin meydana gəldiyi dövrdən başlayır. Bu məhfumun mənşəyi insanın özündə, onun hərəkətlərinin motivlərində, maraqlarında, fərdin sosial psixologiyasının spesifikası və əsrarəngizliyindədir [80, səh. 24].

«Kölgə iqtisadiyyatı»na şəxsləndirmə aspektindən yanaşmaq, o zaman burada inhisarçı-məmur (bürokrat) əsas sima kimi çıxış edir. O, öz üstünlüyünü qeyri-real, elmi əsaslandırılmamış fetiş-plan vasitəsilə reallaşdırır. Fetiş-plan iqtisadiyyatın dağılması və dezinteqrasiyasında əsas rol oynayır. İstehsala sərf olunan artıq məsrəflər və aşağı nəticələr planda göstərilir, sonra planın icrası və iqtisadi sferaların fəaliyyəti bütün səviyyələrdə qiymətləndirilir. Qeyri-real plana qeyri-real nəticələr uyğun gəlir. Bunun üçün hesabatlardakı rəqəmlər süni olaraq şişirdilir. Plan artıqlaması ilə yerinə yetirilir, real iqtisadi artımsa yoxdur. «Kölgə iqtisadiyyatı» bu bazis üzərində meydana gəlir və möhkəmlənir. Fetiş-plan iqtisadiyyatda bütün sağlam və effektli cəhətləri sıradan çıxaran iqtisadi virusa bənzəyir. Bu plan nəinki istehsal barəsindəki təsəvvürləri, eləcə də istehsalın özünü məhvə doğru sürükləyir, fetişləşdirilmə bölgü, mübadilə və istehlak sferalarında da yayılır. Nəticədə iqtisadi maska əmələ gəlir, formalaşır və bu maska altında gizli, «kölgəli» fəaliyyət göstərən şəxslər toplaşır, gizlənir.

Fetişləşdirmə istehsal münasibətlərini deformasiyaya uğradaraq, bu münasibətləri qarşılıqlı aldatmaya, fırıldaqçılığa çevirir. Belə bir vəziyyət nazirlikdə oturan fetişisti-məmuru, idarəetmə aparatındakı təlimatçılar və müəssisədəki fırıldaqçıları tam «qane edir». Belə halda onların zənginləşməsi, varlanmaları, xidməti vəzifələrinin artması üçün əlverişli şərait yaranır. Zəhmətkeşlərin mülkiyyətdən, idarəetmədən, öz əməklərindən uzaqlaşma fetişləşdirilmiş iqtisadiyyatda ayrı-ayrı subyektlərin fəaliyyətinin məzmununu təşkil edir.

Ümumi iqtisadi maraqlar çərçivəsində «kölgə iqtisadiyyatı»nda işbazların dövlət orqanlarındakı korrupsioner, rüşvətxor elementlərin iş birliyi yaranır, iqtisadi sferada cinayətkar, mafioz strukturun formalaşması prosesi gedir. Bu struktur «kölgə iqtisadiyyatı»nın inkişafında, ümumiyyətlə, «qara iqtisadiyyatın» inkişafında keyfiyyətcə yeni bir səviyyəni müəyyən edir. Sosial-iqtisadi mahiyyəti etibarilə mafiya zəhmətkeşlərin mülkiyyətdən uzaqlaşmasının məntiqi sonluğudur və iqtisadi, siyasi və ideoloji sferalarda münasibətlərin deformasiyaya uğraması və pozulması ilə nəticələnir.

Mafiyanın xarakterik əlamətləri: gizli yollarla toplanmış kapitalın yüksək səviyyədə mərkəzləşdirilməsi, bir yerə toplanması əsasında iqtisadi cinayətkarlığın keyfiyyətcə yeni peşəkar səviyyədə mövcud olması; olduqca dəqiq təşkil edilmiş və qollara ayrılmış idarəetmə aparatının olması; iyerarxik olaraq funksiyaların bölüşdürülməsi; spesifik gizli bürokratiyanın olması, yəni iqtisadiyyatın mafioz sferasında münasibətləri istiqamətləndirən və tənzimləyən «elit» bürokratik təbəqənin olması; mərkəzləşdirilmiş maddi fondların olması və bəzi şəxslərin, məsələn, həmkarlar təşkilatlarının rüşvətlə, pulla ələ alınması; təsərrüfat aparatında, dövlət orqanlarında məqsədyönlü şəkildə korrupsiyanın yayılması; cinayətkarlıq ideologiyasının işlənib-hazırlanması və həyata keçirilməsi; dəyişkən şəraitdə çevik uyğunlaşma mexanizmlərinin olması, müxtəlif strukturları parçalaya biləcək, hörmətdən sala biləcək mexanizmlərin olması; inhisarçılığa cəhd göstərmə; defisitin idarə edilməsi üçün siyasi və iqtisadi

proseslərə təsir mexanizmlərinin olması, milli etnik münaqişələri törətmək üçün mexanizmlərin olması; idarəetmə orqanlarında kadr siyasətinə təsir etmək imkanlarına, mexanizmlərinə malik olmaq, buna cəhd göstərmək. Burada xalq təsərrüfatının idarə edilməsinin müxtəlif mərhələlərində iqtisadi qərarların qəbul edilməsinə təsir imkanları, transmilli iqtisadi əlaqələrə təsir edə bilmə; cinayətkar aləmlə əlaqəyə girmə, bu istiqamətdə quldur dəstələrinin saxlanması da xarakterik əlamətlərdəndir.

Qeyd etmək lazımdır ki, mafioz iqtisadiyyat amirlik-bürokratik sistem üzərində inkişaf edir və onun törəməsidir. Mafiya ilə mübarizə kompleks və radikal şəkildə aparılmalıdır. Bu, amirlik-bürokratik sistemin dağıdılmasını, onların demokratik institutlarla əvəz edilməsini tələb edir. Burada hakimiyyət strukturlarının, məmurların iqtisadi-təsərrüfat fəaliyyətindən uzaqlaşdırılması, kadr siyasətinin demokratikləşdirilməsi, rəhbər işçilərin demokratik qaydada seçilməsində mühüm rol oynayır. Həmçinin «kölgə iqtisadiyyatının» digər sferalarına mafiyanın kök salmasının qarşısını almaq, mafioz strukturların genişlənməsinin qarşısını almaq vacibdir. Eləcə də xüsusi mülkiyyətçiləri qorxu hissindən uzaqlaşdırmaq, gizli olaraq gedən prosesləri cəmiyyətin nəzarətinə yönəltmək mühümdür.

Son zamanlar «kölgə iqtisadiyyatı» termini daha çox iqtisadi fəaliyyətin mənfi, neqativ tərəflərini ifadə etmək üçün işlədilir. Lakin bu termin altında birləşən, ümumi şəkildə birmənalı olaraq baş verən hadisələrin izahı hələ tam şəkildə açıqlanmamışdır. Adətən, «kölgə iqtisadiyyatı» dedikdə, cinayət məcəlləsinin iqtisadi sahədə cinayətlərə görə məsuliyyətini nəzərdə tutan normalarının təsir dairəsinə düşən iqtisadi fəaliyyəti başa düşülür. Lakin kölgə iqtisadiyyatına iqtisadi fəaliyyətin yalnız sırf cinayətkar təzahürləri baxımından yanaşmaq düzgün olmazdı.

Əsassız olaraq planın, əmək haqqının, görülən işlərin həcminin süni olaraq artırılması böyük məhkəmə proseslərinə gətirib çıxarmışdır.

Qondarma istehlak dəyərinin istehsalı, yəni keyfiyyətsiz məhsul buraxılışı həm iqtisadi, sosial, həm də mənəvi itkilərə gətirib çıxarır.

Əmtəə və xidmətlərin dəyərindəki qondarma komponentlər əsaslandırılmadan məhsulların qiymətlərinin artırılması, inflyasiya proseslərinin sürətlənməsi ilə əlaqədardır. İstehlak mallarının qiymətlərinin artımı əsasında qiymətlərin indeksinin hesablanması əmtəə dövriyyəsinin makrostrukturundakı dəyişikliklər, qara bazarın çəkisinin artması kimi cəhətlərin nəzərə alınması qiymətlərin süni olaraq gizli artımına səbəb olan amilləri nəzərə almağa imkan verir. Bütün amillərin nəzərə alınması ilə hesablanmış istehlak qiymətləri indeksi əmtəələrin orta alış qiyməti indeksindən biri əhalinin pul gəlirlərinin əlavə artımıdır.

Çox vaxt «ikinci iqtisadiyyat» termini cinayət nöqteyinəzərindən kölgə iqtisadiyyatının sinonimi kimi işlədilir. İkinci iqtisadiyyat dedikdə, kiçik qruplar şəklində fəaliyyət formaları, yəni artellər, kiçik kooperativlər, digər kiçik fəaliyyət formaları nəzərdə tutulur. İkinci iqtisadiyyatın əksər hissəsi nəzarət və maliyyə orqanlarından gizlədilir, kölgə iqtisadiyyatı çərçivəsində həyata keçirilir.

Uzun illər «ikinci» iqtisadiyyat məcburiyyət səbəbindən qeyri-qanuni şəkildə mövcud olmuşdur. Onun bir çox növləri əsaslandırılmadan qadağan edilmişdir. Keçmiş SSRİ-də kooperasiyalar və fərdi əmək fəaliyyəti haqqında qanunun qəbul edilməsi «ikinci» iqtisadiyyatın qeyri-qanuni sektorunun əhəmiyyətli dərəcədə məhdudlaşmasına səbəb olmuşdur.

Bir sıra xidmət növlərinin qeyri-qanuni, gizlin şəkildə fəaliyyət göstərməsi, qeydiyata alınmaması onların standartlara uyğun olmaması ilə əlaqədar olur və bu fəaliyyət qara iqtisadiyyata aid edilir.

«İkinci» iqtisadiyyatın kölgə sektorunun leqallaşmasına sosial-psixoloji xarakterli amillər də ləngidici təsir göstərir. Belə amillərdən biri bu sahədə çalışan şəxslərin həddindən artıq zənginləşməsi barədə cəmiyyətdə, insanların şüurunda

təsəvvürlərin formalaşmasıdır. Bu təsəvvür «ikinci» iqtisadiyyatda baş verən neqativ proseslərdən irəli gəlir.

Dövlətin fərdi fəaliyyət sferasına münasibəti, bu istiqamətdə siyasəti də güclü təsir effektinə malik amillərdən biridir.

Bir cəhəti də qeyd etmək lazımdır ki, «ikinci» iqtisadiyyatın ən fəal işgüzar «qolları» maddi cəhəti əsas tutaraq bu fəaliyyətin qanuniləşməsində maraqlı deyildir.

Bir çox hallarda «ikinci» iqtisadiyyatın spesifikliyi mövcud istehsalın xarakteri ilə müəyyən edilir. İstehsaldan kütləvi şəkildə oğurluq hər şeydən öncə məhz «ikinci» iqtisadiyyatda «üzə çıxır».

Bəzən «ikinci» iqtisadiyyatın «qara» iqtisadiyyatla birbaşa qovuşması baş verir, yəni gələcəkdə istehsalda oğurluğun təşkili planlaşdırılması ilə qovuşma.

Bir neçə kəlmə də «qara» iqtisadiyyat barəsində qeyd edək. Buraya hər şeydən öncə qanunsuz istehsal fəaliyyəti ilə əlaqəli olan iqtisadi cinayətkarlığın formaları aiddir.

«Qara» iqtisadiyyatın mütəşəkkil formalarından cəmiyyətə daha çox itki, zərər dəyir. Belə formalar arasında aşağıdakıları qeyd etmək olar:

- «gizli» (əlaltdan) iqtisadiyyat. Bütöv bir müəssisə, yaxud da dövlət müəssisəsinin ayrı-ayrı həlqələri «qara» iqtisadiyyat çərçivəsində fəaliyyət göstərirlər (gizli iqtisadiyyatın «klassik» formaları gizli araq çəkməkdir);
- «təbəqələşmiş» iqtisadiyyat – dövlət müəssisəsində istehsal olunan məhsulun bir hissəsi qeyri-qanuni istehsal olunur və qanunsuz kanallarla bölüşdürülür;
- korrupsiyaya uğramış iqtisadiyyat (qanunsuz şəkildə həyata keçirilən istehsalla dövlət aparatı arasında əlaqə yaranır ki, bu da qanunsuz sahibkarlıq fəaliyyətinə zəmin yaradır).

Kölgə iqtisadiyyatının həcminin qiymətləndirilməsində ilk öncə onun kəmiyyətcə qiymətləndirilməsində lazımi cəhətləri müəyyən etmək vacibdir. Burada kölgə iqtisadiyyatının malik olduğu kapital, mafioz qrupların büdcə gəlirləri, bu iqtisadiyatın dövriyyəsi və s. nəzərə alınmalıdır. Burada gizli

dövriyyəyə cəlb edilən və istifadə olunan əmtəələrin, maddi dəyərlərin həcmini kölgə iqtisadiyyatı sferasında fəaliyyət göstərən şəxslərin gəlirləri və kölgə iqtisadiyyatı kapitalından ayırmaq lazımdır.

İkincisi, qeyd etmək lazımdır ki, müxtəlif elementlərin mövcudluğu səbəbindən kəmiyyətcə kölgə iqtisadiyyatını yekun rəqəmlə ifadə etmək çətindir. Bəzən kölgə iqtisadiyyatının müəyyən edilmiş həcmi qiymətinin şərti xarakter daşıdığı qənaətinə gəlmək olar.

Kölgə iqtisadiyyatının qiymətləndirilməsində müxtəlif metodlardan istifadə edirlər. Məsələn, belə metodlardan biri kölgə iqtisadiyyatı sferasında çalışan, məşğul əmək ehtiyatlarının qiymətləndirilməsinə əsaslanır. Belə şəxslərin sayı kölgə iqtisadiyyatının fəaliyyəti ilə əlaqədar olmayan amillər kənar edilməklə işsizliyin konkret səviyyəsinin ölkə, region üzrə konkret səviyyə ilə müqayisə edilmək yolu ilə təyin olunur. Bu metodun istifadəsi əmək ehtiyatları artıq regionlar üçün bəzi problemlər yaradır.

«Sosioloji metod» kölgə iqtisadiyyatı ilə əlaqəsi ola bilən və ya əlaqəsi olmayan şəxslərin sorğusu yolu ilə vəziyyətin aydınlaşdırılmasına əsaslanır.

«Sahə» qiymətləndirməsi metodu belə bir hipotezə əsaslanır ki, kölgə iqtisadi fəaliyyətlə məşğul olan bir sıra sahələrin (tikinti, narkotik istehsalı, gizli araq çəkmə və s.) pul vəsaitlərinin həcmi digər sahələrə nisbətən çoxdur.

Kölgə iqtisadiyyatının kəmiyyətcə qiymətləndirilməsi metodlarından biri də bu sferada olan pul vəsaitlərinin qiymətləndirilməsidir. Burada əhalinin pul əmanətlərinin dinamikası və strukturu ilə gəlirlərin yenidən bölgüsü prosesləri arasında asılılıq təhlil edilir. Belə bir fikri irəli sürmək olar ki, gəlirlərin yenidən bölgüsü prosesinin əhalidə olan artıq pul əmanətlərinin qiymətləndirilməsi əsasında təyin oluna bilər. Belə artıq əmanətlərin qiymətləndirilməsində müxtəlif metodlardan istifadə edilir. Burada əhalinin tam təmin edilməmiş tələbi ilə artıq pul əmanətləri arasında əlaqə də mühüm

rol oynayır. Bunlar arasındakı fərq kölgəli istehlak bazarının dövriyyəsini əks etdirir.

Ümumiyyətlə, kölgə iqtisadiyyatının miqyasının qiymətləndirilməsi dərin iqtisadi, hüquqi, sosioloji tədqiqatlar tələb edir. Bu tədqiqatlarla yanaşı, həmçinin kölgə iqtisadiyyatının miqyasını məhdudlaşdırmaq istiqamətində kompleks tədbirlər sistemi də işlənib-hazırlanmalıdır.

Gizli fəaliyyət göstərən subyektlər sırasına təkcə cinayətkar ünsürlər deyil, həm də qanun çərçivəsində fəaliyyət göstərmək istəməyən sahibkarlar da daxil ola bilir. Burada əmtəə və xidmətlərin istehsalında iştirak edən subyektlərlə məhsulların bölgüsü prosesində iştirak edən subyektlər arasındakı istehsal münasibətləri xarakter baxımından fərqlidir.

«Kölgə iqtisadiyyatı»nın subyektləri bir piramida şəklində struktur əmələ gətirirlər. Piramidanın üst pilləsində kriminal avtoritetlər və onlara tabe olanlar (əlaltıları); narkotik və silah alverçiləri, reketlər, quldur dəstələri – soyğunçular, muzdlu qatillər və digər ünsürlər daxildir. Dövlət hakimiyyəti və idarəetmə orqanlarında oturan korrupsioner, rüşvətxor ünsürlər də buraya daxildir və onlar burada kifayət qədər təsir qüvvəsinə malik olub, bəzən piramidada 5-25% yer tuturlar.

Piramidanın orta hissəsində gizli fəaliyyət göstərən təsərrüfat subyektləri, o cümlədən iş adamları, kommersantlar, bankirlər, orta və xırda sahibkarlar yer tuturlar. Bunlar iqtisadi fəaliyyətin bir növ mühərriki olub, normal bazar iqtisadiyyatının formalaşmasında orta sinif kimi mühüm rol oynayırlar. Qanuni iqtisadi fəaliyyət çərçivəsində, lakin onlar əldə etdikləri gəliri, qazanc xərclərini ört-basdır edə bilmədikləri üçün, bu subyektlər qanunsuz fəaliyyətə can atırlar.

Piramidanın üçüncü hissəsində zehni və fiziki əməklə məşğul olan muzdlu işçilər durur. Bunlara orta və xırda dövlət qulluqçuları aiddir ki, bəzən onların qazancının 60%-ni rüşvət təşkil edir. Bu kateqoriyaya daxil olan şəxslər üçün qeydiyyatdan keçməmiş fəaliyyət ikinci (qeyri-rəsmi) məşğulluq hesab olunur. Onların işi, məşğuliyyəti qeyri-qanuni deyildir,

lakin müxtəlif vəziyyətlər baxımından bu məşğuliyyət qanundan yayınaraq, gizli, «kölgəli» fəaliyyətə keçir.

«Kölgə iqtisadiyyatı» subyektlərinin 3 qrupa bölünməsi şərti xarakter daşıyır və onların hər biri həm ümumi, həm də spesifik maraqlar çərçivəsində fəaliyyət göstərirlər. İkinci və üçüncü qrupa daxil olan subyektlərin əsas spesifik maraqları onların qanuni olaraq orta sinfə çevrilməsidir.

Ümumiyyətlə götürdükdə isə, Hegelə görə insan bir fərd kimi insan ruhunun sonsuz sayda münasibətləri və əlaqələrinin təzahürünün məcmusunu özündə əks etdirir. Eyni zamanda məlumdur ki, biososial varlıq kimi insanın davranışına onun daxili mənəvi-psixoloji vəziyyətindən çox onu əhatə edən sosial mühit təsir göstərir. «Qəddarlıq və məhvetmə hərisliyi (qeyri-qanuni hərəkətlər) insanın özündən deyil, onun ətrafından doğur» [93, səh. 250].

Ən əlverişli iqtisadi sistemdə belə qanunvericilik çərçivəsindən kənar fəaliyyət həyata keçirilə bilər. Bir çox mütəxəssislər hələ də qeyri-rəsmi iqtisadi sektor anlayışının məzmununu tam açıqlaya bilməmişlər. Bu isə istər Qərbdə, istərsə də hətta Rusiyanın özündə belə bu problemlə bağlı tədqiqatların aparılmasında çətinliklər yaradır. İngilis ədəbiyyatlarında bu iqtisadiyyat «qeyri-rəsmi», «gizli» və «əlaltdan», fransız ədəbiyyatında – «yeraltı», «qeyri-rəsmi», italyan ədəbiyyatında – «sirli», «sualtı», alman ədəbiyyatında – «kölgə» iqtisadiyyatı kimi ifadə edilir. Alman ədəbiyyatında «kölgə iqtisadiyyatına» müxtəlif formada həyata keçirilən gizli maliyyə sövdələşmələri, digərləri cinayətkar fəaliyyəti, bir qismi bu sektora bütün növ vergi ödəmələrindən yayınmaları, dördüncü qismi təkcə maliyyə əməliyyatlarını deyil, həm də məcmu milli məhsulda öz nəticələrini göstərən iqtisadi fəaliyyət, beşinci qismi isə «yarımqanuni» (yarı gizli) yaxud da «qanunsuz» iqtisadiyyatla eyniləşdirirlər. Kölgə iqtisadiyyatı dedikdə geniş mənada ev təsərrüfatlarında fəaliyyətdən tutmuş müxtəlif formaları gizli sahibkarlıq fəaliyyətinədək rəsmi sektorun çərçivəsindən kənara çıxan istənilən fəaliyyət növü başa düşülür. Lakin əksəriyyət alimlər «kölgə iqtisadiy-

yatını» məcmu milli məhsulun həcminə daxil etməyi məqsədəuyğun hesab edirlər.

Rusiyada bu fenomeni ifadə etmək üçün müxtəlif terminlər işlənir; «qeyri-qanuni», «qanundankənar», «cinayətkar», «qeyri-rəsmi», «kölgə», «əlaltından» fəaliyyət kimi işlədilir. Çox vaxt «kölgə» və «qeyri-rəsmi» iqtisadiyyat anlayışları eyniləşdirilsə də, bəzi hallarda fərqləndirilir. Digər bir halda «kölgə» anlayışı cinayətkar iqtisadiyyat kimi başa düşülür.

Əvvəllər BMT tərfindən işlənib hazırlanmış milli hesablaşmalar sistemində kölgə iqtisadiyyatının şərhinə birmənalı yanaşmırdılar, lakin 1993-cü ildə qəbul edilmiş yeni formada isə bütünlükdə «kölgə iqtisadiyyatı»nı istehsal fəaliyyətinin tərkibində nəzərə almağı təklif edilir. BMT-nin statistik məlumatlarında məzmun etibarilə yaxın olan və öz aralarında sıx əlaqəli üç anlayışdan istifadə edilir. Bu, «gizli» (yaxud da «kölgə»), «qeyri-rəsmi» (yaxud «qeyri-formal») və «qeyri-qanuni» fəaliyyət terminləri tətbiq edilir.

«Kölgə iqtisadiyyatı» rəsmi olaraq göstərilməyən, yaxud da vergilərdən yayınmaq məqsədilə subyektləri tərəfindən müəyyən qədər azaldılan qanunvericiliklə icazə verilən fəaliyyətdir. Bu fəaliyyət iqtisadiyyatın bütün sahələrində praktiki olaraq mümkündür.

Tədqiqatçılar haqlı olaraq kölgə iqtisadiyyatının sosial-iqtisadi nəticələrini birmənalı qiymətləndirmirlər. Bəziləri onu kriminal iqtisadiyyatla eyniləşdirirlər və iqtisadi münasibətlərin sırf mənfi, parazit zonasına aid edirlər. Digərləri onu keçid dövrünün mürəkkəb şəraitində təsərrüfatçılığın ən effektiv nümunəsi kimi nəzərdən keçirirlər. P.Puşkarenko və N.Loqvinenkonun fikrincə, kölgə iqtisadiyyatının bütün iştirakçılarını cinayətkar hesab etmək üçün əsas yoxdur. Lakin kölgə sektorunda idarəetmə vektoru müəyyən səviyyədə antisosial istiqamətli bucaq əmələ gətirir [146, səh. 48].

«Qeyri-rəsmi» iqtisadi sektor əməyin statistikası üzrə keçirilən 15-ci beynəlxalq konfransın qərarına görə qanuni əsaslarla fəaliyyət göstərən qeyri-korporativ müəssisələrdir.

Qanunsuz (qeyri-rəsmi) müəssisələrə şəxsi tələbatları üçün işləyən ev təsərrüfatları (məsələn, şəxsi imkanları hesabına yaradılan fərdi tikintilər) və işçilərlə iş verənlər arasında, yaxud da tərəfdaşlar arasında münasibətlərin müqavilələr və başqa hüquqi sənədlər olmadan tənzimlənən müəssisələr aiddir.

Qeyri-qanuni müəssisələrdə də istehsal prosesləri həyata keçirilir və onların istehsal etdikləri məhsula bazarda tələbat vardır. Qeyri-qanuni fəaliyyət növlərinə qanunsuz olaraq əmtəə və xidmətlərin istehsalı və satışını həyata keçirən müəssisələr (məsələn, silah və ya narkotik maddələr, kontrabanda istehsalı). Buraya lisenziyası olmadan fəaliyyət göstərən həkimlər, vəkillər, tədris müəssisələri, banklar və b. daxildir. Əlbəttə, mülkiyyətə və ya şəxsiyyətə qarşı yönələn cinayətkar fəaliyyət (məsələn, oğurluq, qarət və terrorçuluq) istehsala aid edilə bilməz. Bu fəaliyyətin iqtisadi nəticələrinin milli hesablaşmalarda nəzərə alınması məsləhət görülür.

Məcmu milli məhsulun müəyyən edilməsi zamanı uyğun düzəlişlər aşağıdakı göstəricilər vasitəsilə ifadə olunur.

1. Vergilərdən yayınmaq məqsədilə gizlədilən, yaxud da kiçik miqyasda təqdim edilən qanuni fəaliyyət göstəriciləri.

2. Qeyri-rəsmi fəaliyyət götəriciləri, o cümlədən şəxsi ehtiyacları üçün işləyən qeyri-rəsmi məşğulluqlu müəssisələr.

3. Qeyri-rəsmi qanunsuz fəaliyyət, o cümlədən; a) qanuni fəaliyyət növlərinin qanunsuz olaraq həyata keçirilməsi; b) qadağan olunmuş istehsal əmtəə və xidmətlərin yayılması ilə həyata keçirilən qanunsuz fəaliyyət; c) şəxsiyyət və mülkiyyətə qarşı yönəlmiş qanunsuz fəaliyyət.

Qeyd edilən fəaliyyət növlərindən sonuncu istisna olunmaqla digərləri istehsala aiddir.

Bu göstəriciləri nəzərə alaraq, məhz «kölgə iqtisadiyyatı» terminini əsas götürmək məqsədəuyğun olardı. Bu termin rəsmi orqanlar tərəfindən qeydiyyata alınmayan bütün iqtisadi fəaliyyət növlərini məntiqi olaraq ifadə edir. Kölgə iqtisadiyyatı – qanuna, hüquqi normalara, hüquqi çərçivədən kənara çıxan formal təsərrüfatçılıq qayda-qanunlarına zidd olan iqtisadi münasibətlər sistemidir.

«Kölgə iqtisadiyyatı»nın miqyasının müəyyənləşdirilməsi, konkret olaraq hansısa bir rəqəmlə ifadə edilməsi çətindir. Bu da onun «görünməzliyindən» irəli gəlir.

Qərb ölkələrində qanunsuz iqtisadi sektorun məcmu milli məhsulda payı 5-10% həddində müəyyənləşdirilmişdir. Latın Amerikası ölkələrində bu göstərici 60-65% həddindədir. Qonşu Rusiyada gizli yolla əldə edilmiş kapitalın həcmi ÜDM-in 45-50%-i həddində qiymətləndirilir.

«Kölgə iqtisadiyyatı»nın sürətlənmə mexanizmlərinin parametrləri ÜDM-un ümumi həcminin aşağı düşməsi, müəssisələrin rəsmi olaraq təqdim etdikləri hesabatlardakı rentabellik səviyyəsinə nisbətən bank faizlərinin bir neçə dəfə yüksək olması, pul yığımlarının katirovkasının (surroqatlarının) buraxılışından sonra nominala nisbətən dərhal aşağı düşməsi, əhalinin gəlirlərinin gizli formada olması aiddir.

Qərb tədqiqatçıları «kölgə iqtisadiyyatının» miqyası və dinamikasını müəyyən edən amilləri aşağıdakı kimi qruplaşdırırlar: 1) vergilərin səviyyəsinin yüksək olması (ağırlığı); 2) gəlirlərin səviyyəsi; 3) iş vaxtının müddəti; 4) işsizliyin miqyası; 5) dövlət sektorunun payı (rolu). Bu amilləri nəzərə almaqla dünya ölkələrini 3 qrupa bölmək olar. Bu məlumatlarla aşağıdakı cədvəldən tanış ola bilərik.

Cədvəl 4.2.

**İnkişaf etmiş dünya ölkələrində kölgə iqtisadiyyatının vəziyyəti [187]**

| № | Kölgə iqtisa-diyyatının xüsusi çəkisinə görə | Vergilər və sosial ödəmələr (ÜDM-ə %-lə) | Adambaşına düşən gəlir | Həftə ərzində iş vaxtının müddəti. Metal sənayesi üzrə, (saat) | İşsizlərin sayı 1989-99-ci il | Dövlət müəs-sisələrində məşğul olanlar. % |
|---|---|---|---|---|---|---|
| 1<br>2<br>3<br>4<br>5<br>6<br>7<br>8<br>9<br>10 | İsveç<br>Belçika<br>Nider-land<br>Norveç<br>Danimark<br>a<br>İtaliya<br>AFR<br>ABŞ<br>Finlandiya<br>İrlandiya | 53<br>42,6<br>47,0<br>48,9<br>42,9<br>32,9<br>39,8<br>31,1<br>36,3<br>34,8 | 7353<br>6305<br>5918<br>6394<br>7421<br>3292<br>6683<br>7184<br>5072<br>2683 | 30,0<br>35,2<br>41,1<br>30,1<br>38,5<br>41,5<br>41,6<br>40,4<br>41,0<br>42,4 | 2,0<br>3,7<br>3,0<br>1,5<br>2,8<br>6,1<br>3,1<br>5,8<br>3,3<br>7,0 | 28,2<br>15,8<br>13,9<br>20,7<br>22,8<br>13,2<br>13,9<br>15,7<br>16,9<br>15,3 |
| 11<br>12<br>13<br>14<br>15 | İspaniya<br>İngiltərə<br>Kanada<br>Fransa<br>Avstriya | 23,0<br>34,7<br>30,2<br>38,4<br>36,6 | 2803<br>3892<br>6784<br>6302<br>4787 | 41,6<br>41,9<br>38,8<br>41,0<br>33,4 | 3,7<br>3,4<br>6,0<br>3,4<br>1,5 | 11,3<br>20,7<br>18,3<br>13,6<br>17,9 |
| 16<br>17 | İsveçrə<br>Yaponiya | 31,0<br>22,9 | 7973<br>4416 | 44,4<br>40,6 | 0,2<br>1,8 | 10,1<br>6,3 |

Cədvəldən göründüyü kimi, I qrup ölkələrdə kölgəli fəaliyyət geniş yayılmış, üçüncü qrup ölkələrdə (iki ölkədə) belə fəaliyyət yoxdur. Göründüyü kimi kölgəli (gizli) fəaliyyətin artmasına gəlirlərin səviyyəsi ən az təsir göstərir. İnkişaf etmiş ölkələrdə gəlirlərin səviyyəsi «kölgə iqtisadiyyatından» asılı olmayaraq təmin edilir. Aşağı gəlir səviyyəsinə malik 11 ölkədən 6-da kölgə iqtisadiyyatının xüsusi çəkisi aşağı olmuşdur.

Bir çox qərb mütəxəssisləri «kölgə iqtisadiyyatının» inkişafında əsas səbəb kimi vergi qoymaların səviyyəsini, vergi yükünü qeyd edirlər. Bu, tək cəhət, amil olmasa da əhəmiyyətli hesab oluna bilər. ÜDM-un 33%-i vergilərin və sosial ayırmalar bu səviyyəsi «kölgə iqtisadiyyatının» artması üçün kritik hesab oluna bilər.

Ümumilikdə «kölgə iqtisadiyyatının» genişlənməsi ümumi iqtisadi vəziyyət, əhalinin həyat səviyyəsi və dövlətin qoyduğu məhdudiyyətlərdən əhəmiyətli dərəcədə asılıdır. İqtisadi dəyişikliklərin, islahatların düzgün aparılmaması, səhvlərə yol verilməməsi əhalinin maddi həyat səviyyəsinin pisləşməsinə qeyri-qanuni iqtisadi fəaliyyətə «stimul» yaradır.

Qeyri-qanuni fəaliyyətə hərəkətverici mexanizmlərə kütləvi özəlləşdirmə, qiymətlərin liberallaşması cəhdi, ölkə iqtisadiyyatının dünyaya birbaşa, birdəfəlik açılması, qeyri-düzgün pul-kredit sistemi, istehsala sərt vergi siyasətinin tətbiqini qeyd etmək olar.

## 4.3. «Kölgə iqtisadiyyatı»nın miqyası ilə iqtisadi təhlükəsizliyin yüksəlməsi arasındakı qarşılıqlı əlaqə

Müxtəlif ölkələrdə kölgə iqtisadiyyatının səviyyəsinin müqayisəli təhlili olduqca çətin və mürəkkəb bir prosesdir. Bu, ondan irəli gəlir ki, bir ölkədə qanunla qadağan edilmiş bir çox fəaliyyət növləri digər bir ölkədə qanunsuz hesab edilir.

T.Korsqanın qiymətləndirilməsinə görə gizli xidmətlər bazarının ümumi həcmi 8-10 mlrd. rub. olmuş, 4 mlrd. rub. həcmində isə kriminal mənşəli xidmətlər olmuşdur.

A.Şoxinin qiymətləndirilməsinə görə 80-cı illərdə qeydiyyatdan keçməmiş «mülkiyyətçilərin» əhali üçün istehsal etdikləri məhsulların və göstərdikləri xidmətlərin həcmi 20-30 mlrd. rub., gizli araq çəkməklə əldə edilən gəlirlər isə 23 mlrd. rub. olmuşdur.

O.Osienko hesab edir ki, 80-cı illərin II yarısında kölgə iqtisadiyyatında 40-50 mln. adam çalışmış, 1988-1989-cu illərdə SSRİ-də kölgə iqtisadiyyatında kapital dövriyyəsi 150-200 mlrd. rub. olmuşdur.

Kölgə iqtisadiyyatının genişlənməsində əsas səbəblərdən biri mülkiyyətin milliləşdirilməsidir; xalq təsərrüfatı kompleksinin mərkəzləşdirilməsi; iqtisadiyyatın, bütövlükdə ölkənin

inzibati-amirlik sistemi əsasında idarə edilməsi; vətəndaşların əmək fəaliyətinə və müəssisələrin istehsal fəaliyyətinə kifayət dərəcədə həvəsləndirilməməsidir.

Yeni müstəqillik qazanmış dövlətdə iqtisadi və sosial-siyasi münasibətlər sferasında yalnız islahatlarla böhran meyillərini aradan qaldırmaq, kölgə iqtisadiyyatının inkişafı və möhkəmlənməsinin qarşısını almaq olmaz.

Alimlərin və mütəxəssislərin hesablamaları və qiymətləndirmələrinə görə kölgə iqtisadiyyatının əsas seqmentləri və gizli (kölgəli) yollarla gəlir əldə etmənin əsas mexanizmləri aşağıdakılardır:

- vətəndaşların real gəlirlərinin, həmçinin müəssisələrin əldə etdikləri gəlirlərin vergidən gizlədilməsi;
- kapitalın qanunsuz ixracı;
- əmtəə və xidmətlərin real və rəsmi dövriyyə qiymətləri arasındakı fərqin gizli aradan qaldırılması yolu ilə gəlir əldə etmək;
- korrupsiya;
- qanunsuz valyuta və xarici iqtisadi əməliyyatlar (kontrabanda);
- qeydiyyata alınmayan məhsulların və xidmətlərin buraxılışı və reallaşması;
- kriminal fəaliyyət (reket, narkobiznes, fahişəlik, oğurluq, qarət, soyğunçuluq);
- maliyyə fırıldaqçılığı;
- dövlət mülkiyyətinin qanunsuz özəlləşdirilməsi;
- dövlət, səhmdar və kollektiv müəssisələrdə baş verən xırda oğurluq halları.

Bunlar arasında daha geniş yayılanı kapitalın qanunsuz ixracı və maliyyə fırıldaqçılığıdır:

- xarici partnyorları aldatmaq, pul vəsaitlərini onlara qaytarmamaq və bu vəsaitlərin xaricdə xüsusi hesablara köçürülməsi;
- «qeyri-ödəmə qabiliyyətli» xarici partnyorlarla razılaşmalar;

- yalançı, saxta sahibkarların əhalidən pul vəsaitlərini toplamaları, onları xarici banklara köçürmələri. Çox vaxt belə yalançı firmaların fəaliyyəti öz məqsədlərinə nail olduqdan sonra bağlanır;

- müxtəlif investisiya kompaniyalarının, digər firma və bankların fırıldaqçılıq fəaliyyəti ilə məşğul olmaları;

- saxta sənədlərlə və endirilmiş qiymətlərlə məhsulların göndərilməsi;

- dövlətin kapital ehtiyatlarından, xarici kreditlərdən, bank aktivlərindən və dövlət büdcəsindən məqsədsiz istifadə edilməsi.

Bəzi ölkələrdə, məsələn, Ukraynada daha çox maliyyə-kredit sistemində cinayətkar ünsürlər fəaliyyət göstərir. Burada kölgəli, qanunsuz yollarla gəlir əldə etmənin aşağıdakı metodları vardı:

- saxta ödəmə sənədlərindən istifadə edilməsi:
- bank təminatının saxtalaşdırılması:
- bank kreditlərindən məqsədsiz istifadə edilməsi;
- pul vəsaitlərinin oğurlanması;
- kreditlərin verilməsi, faiz dərəcələrinin azaldılması, maliyyə sənədlərinin sürətlə, tez hazırlanması, qeydiyyatdan keçirilməsi, vergilərdən yayınmalarla əlaqəli məsləhətlər (konsultasiyalar), vergilərin ödənilməməsi ilə bağlı aşkara çıxarılan faktların gizlədilməsi, həmçinin gəlirlərin vergilərdən gizlədilməsi və s. ilə əlaqədar rüşvətxorluq hallarının baş verməsi;
- saxta pulların hazırlanması;
- cinayətkar yollarla əldə edilmiş, çirkli pulların «yuyulması» (qeyri-qanuni olaraq rəsmiləşdirilməsi);
- birjalarda valyuta maxinasiyaları (möhtəkirliyi halları);
- qanunsuz yollarla güzəştli kredit əldə etmək;
- büdcə vəsaitlərindən və əhalinin pullarından istifadə ilə əlaqədar müxtəlif formada fırıldaqçılıq hallarının baş verməsi.

Bir sıra hallarda xarici partnyorlar tərəfindən ixrac olunan mallara görə pulların ödənilməsi halları da müşahidə edilir.

Ukraynada «500 gün» proqramının müəlliflərinin fikrincə, kölgə iqtisadiyyatı əməliyyatlarının 90%-dən çoxunu bazarın formalaşdırılması tədbirlərinin köməyi ilə ortadan qaldırmaq olar. Həqiqətən də V.Popoviçin qeyd etdiyi kimi bu şüar müəyyən mənada özünü o vaxt doğrulda bilər ki, əgər Ukrayna iqtisadiyyatı tam sahibli natural təsərrüfat formasına gəlib çıxa bilsin. Lakin təcrübə göstərir ki, məhz belə mülkiyyətçiyə maliyyə-təsərrüfat əməliyyatlarını «kölgədə» həyata keçirmək, xüsusilə vergidən yayınmaq daha sərfəlidir [135, səh. 29].

Ümumiyyətlə, müasir şəraitdə kölgə iqtisadi fəaliyyətin yeni formaları, istiqamətləri meydana gəlmişdir. Bu mənada, bir çox köhnə formalar tədricən öz «aktuallığını» itirərək, sıradan çıxır, yaxud da gizli iqtisadiyyatda onların payı kəskin şəkildə azalır. Lakin bəzi formalar, məsələn dövlət orqanlarında çalışan işçilərin korrupsiyaya uğraması halları (həm kəmiyyət, həm də keyfiyyət) baxımından kəskin şəkildə artmışdır.

Kölgə iqtisadiyyatının strukturunun yenidən qurulması və miqyasının genişlənməsi sosial-iqtisadi böhranın sürətlənməsi, qanunverici və inzibati nəzarətin zəifləməsi fonunda yeni motivlərin bir-birini əvəzləməsi ilə müşahidə edilir.

Müasir şəraitdə kölgə iqtisadiyyatının sürətlənməsi və güclənməsinə aşağıdakılar təsir göstərir;

- çoxsaylı fiziki və hüquqi şəxslərin maraq və imkanlarına zidd olan yüksək vergi səviyyəsi;
- kriminal ünsürlərin sayının nəzarətdənkənar artması və onların fəaliyyətlərinin nəticələrinə görə cəzasız qalmaları, iqtisadi subyektlərin fəaliyyətinin cinayətkar ünsürlərin fəaliyyətilə inteqrasiyası, kriminal avtoritetlərin açıq fəaliyyətinə dövlətin etinasız yanaşması;
- vətəndaşların və müəssisələrin cinayətkar qruplardan mühafizə edilməməsi və bu qrupların onların fəaliyyətinə nəzarət etmələri;
- iqtisadi fəaliyyətin subyektlərinin dövlətin bütün idarəetmə strukturlarında olan məmurların hədə və qorxula-

rından, təsirlərindən, təzyiqlərindən qanunla mühafizə edilməməsi;

- balanslaşdırılmış və sabit iqtisadi fəaliyyəti tənzimləyən qanunvericiliyin olmaması;
- gizli yolla toplanmış kölgə kapitalına alternativ investisiyanın olmaması;
- kölgə sektorunun və kölgə iqtisadiyyatı subyektlərinin dövlətlərarası inteqrasiyası;
- təşkilatların məxfiliyi (gizliliyi) və iqtisadi cəhətdən perspektivli obyektlərin özəlləşdirilməsi, qanuni kapital üçün özəlləşdirmənin rəqabətqabiliyyətliliyi və əlverişliyinə etinasız yanaşma;
- sağlam, düzgün yollarla sahibkarlıq fəaliyyətilə məşğul olmanın əsasını təşkil edən tarixi ənənələrdən, əxlaqi və etik normalardan uzaqlaşma.

Son illər Rusiyada və digər MDB ölkələrində kölgəli iqtisadi fəaliyyətin miqyası elə bir həddədək artmışdır ki, bu artıq makroiqtisadi nəticələrə öz təsirini göstərməkdədir, sosial-iqtisadi vəziyyətin təhlili, proqnozlaşdırılması və modelləşdirilməsində ciddi səhvlərin yaranmasına səbəb olmuşdur.

Müxtəlif cür adlandırılan kölgə iqtisadiyyatı («ikinci», «paralel», «qeyri-formal», «kriminogen» və s.) – müəyyən dərəcədə bütün ölkələr üçün xarakterik olan dünyəvi, qlobal bir hadisədir. Dünya miqyasında onun çəkisi ÜDM-də 5-10%-dən ibarətdir, Afrika və Cənubi Amerika ölkələrində 25-30%, Belarusiyada 19,3%, Qazaxstanda 34,3%, Rusiyada 41,6%-dir. BVF-nun ekspertlərinin iddiasına görə kölgə iqtisadiyyatının xüsusi çəkisi bazara keçidin ilkin mərhələlərində artır, sonra isə islahatların müvəffəqiyyəti və dövlət hakimiyyəti orqanlarında korrupsiyanın azalması ilə aşağı düşməyə başlayır. Akademik V.Prisnyakovun düzgün olaraq qeyd etdiyi kimi, partiyanın (kommunist) konsolidəedici rolunun, daha sonra isə dövlətin qəfil ləğv olunması, psevdodemokratiya eyffiyası, dinin zəifliyi, insani dəyərlərin və mənəviyyatın korroziyası postsovet məkanında xaosa səbəb oldu

və hələ sovet dövründən başlanan iqtisadiyyatın güclü kriminallaşmasına gətirib çıxardı [142, səh. 10].

Kölgə iqtisadiyyatının mövcudluğu və inkişafı digər mənfi nəticələrə də gətirib çıxarır. Burada, hər şeydən əvvəl, vergilərdən yayınmalar nəticəsində büdcəyə daxil olmaların həcmini azaldır. Mənfi nəticələrdən biri də bankdankənar dövriyyədə pul vəsaitlərinin artması və onlardan məqsədsiz istifadə olunmasıdır. Kölgə iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq bu sferanın kapitalının həcmi artır, pul vəsaitlərinin leqal dövriyyədən axını baş verir, əhalinin gəlir səviyyələrinə görə təbəqələşməsi, əmtəə və xidmətlərin qiymətlərinin artması, inflyasiya proseslərinin sürətlənməsi prosesi gedir.

Kölgə kapitalının xüsusiyyəti ondan ibarətdir ki, bu kapital maddi istehsal sferasında deyil, dövriyyə sferasında, vasitəçilik fəaliyyətində istifadə edilir ki, dövlət tərəfindən də bu kapitala nəzarət mümkünsüz olur. Kölgə iqtisadiyyatında kapitalın toplanması nəticəsində sahibkarlıq sferasında ayrı-ayrı fəaliyyət növlərinin inhisarlaşması imkanları özünü büruzə verir, dövlət strukturlarına, siyasi partiyalara təsir imkanları genişlənir.

Kölgə iqtisadiyyatının inkişafı və kölgə kapitalının toplanması nəticəsində kriminal hadisələrin və iqtisadi sferada cinayətlərin əhəmiyyətli dərəcədə artması, təşkil olunmuş cinayətkar qrupların meydana gəlməsi, onların öz fəaliyyət dairələrini genişləndirmələri, bu qrupların hakimiyyət strukturlarına və huquq-mühafizə orqanlarına yol tapmaları, onların əməkdaşlarını ələ almaları, ümumilikdə cəmiyyətin kriminallaşması prosesi sürətlənir. Kölgə iqtisadiyyatının ən təhlükəli nəticələrindən biri mütəşəkkil cinayətkarlığın geniş miqyasda inkişaf etməsidir.

Mütəxəssislərin fikrincə, mütəşəkkil cinayətkarlıq milli təhlükəsizlik üçün ən ciddi təhdidlərdəndir. Son illər bu, daha çox siyasi bir hadisəyə çevrilmişdir. İstehlak bazarlarında vəziyyət kriminallaşır, bazarda keyfiyyətsiz məhsulların miqdarı artır. İqtisadi cinayətkarlıq hallarının artması, miqyasının genişlənməsi tempi həm ölkənin milli, o cümlədən iqtisadi

təhlükəsizliyi və sahibkarlıq fəaliyyəti üçün çox ciddi təhdidlər yaradır.

Rəqabətqabiliyyətli dövlət sektorunun və şəxsi əmtəə istehsalçıları bazarının olmaması şəraitində kölgə iqtisadiyyatının inkişafı aşağıdakılara gətirib çıxarır:

- iqtisadi təsir sferasının bölüşdürülməsi nəticəsində ayrı-ayrı bazarların lokallaşması;
- kriminal elementlərin cəmiyyətin qanunsuz biznesə heç bir aidiyyatı olmayan sahələrə nüfuz etməsi;
- qüvvədə olan qanunvericiliyə vətəndaşların etinasızlığı;
- iqtisadiyyatda investisiya yatırmaq üçün kapitalın olmaması.

Kölgə iqtisadiyyatı sektorunda dövriyyədə olan məhsulun həcminin artması keçid dövrü iqtisadiyyatının xarakterik əlaməti kimi çıxış edir. Bu, köhnə dövlət idarəetmə sisteminin dağılması şəraitində yeni bazar sisteminin inkişaf etməməsi, bazar münasibətlərinə keçid dövrünə uyğun qanunverici bazanın olmaması ilə şərtlənir. Kölgə iqtisadiyyatının inkişafı birinci növbədə müəssisənin təsərrüfat fəaliyyətinə yönümlülüyünü dəyişir. Bazar iqtisadiyyatı şəraitində müəssisələr öz vergi ödəmələri üçün öz istehsal fəaliyyətlərinin nəticələrini göstərməməyə çalışırlar. Bəzən ölkənin vergi sistemi də buna zəmin yaradır: vergi dərəcələrinin həddindən artıq yüksək olması və vergi qanunvericiliyi bazasının stabil olmaması.

Dövlət tərəfindən kölgəli iqtisadi fəaliyyətin lokallaşdırılması üçün həyata keçirilən qadağanedici və güc tədbirlərini həddindən artıq qiymətləndirmək olmaz. Nəzərə almaq lazımdır ki, bir çox hallarda bu fəaliyyət subyektlərin rəsmi iqtisadiyyat çərçivəsində mövcudluğu və inkişafının mümkünsüzlüyünə müdafiə reaksiyasıdır. Bəzən kölgəli iqtisadi fəaliyyətə görə rezidentlərin təqib edilməsi, onun gücləndirilməsi bu fəaliyyətin həyata keçirilməsinin daha yeni, mürəkkəb formalarının meydana gəlməsinə, sahibkarların emiqrasiyasını gücləndirir. Bu isə millətin iqtisadi fəal və daha hazırlıqlı, peşəkar təbəqəsinin ölkədən getməsinə səbəb ola bilər ki, belə halda hər bir ölkə, dövlət üçün olduqca təhlükəli

haldır. Kölgəli iqtisadi fəaliyyətə təsir etmək və onu lokallaşdırmaq üçün kompleks dövlət proqramı işləyib-hazırlamaq lazımdır. Buraya aşağıdakılar daxil olmalıdır:

- vergi bazasının genişləndirilməsi, eyni vaxta vergi dərəcələrinin nominal həcminin azaldılmasını nəzərdə tutan kompleks vergi islahatlarının həyata keçirilməsi;
- milli mühasibat hesabatları sisteminin sadələşdirilməsi və unifikasiyası məqsədilə islahatların aparılması;
- investisiya yatırımlarının artırılması məqsədilə maliyyə resurslarının cəlb edilməsi üçün daha əlverişli şəraitin yaradılması;
- xüsusi mülkiyyətin kommersiya və bank sirlərinin qorunmasını gücləndirmək məqsədilə, sahibkarların hüquqi müdafiəsini təmin etmək məqsədilə qanunvericilik aktları paketinin qəbul edilməsi;
- gizli yollarla toplanmış kapitalın (kriminal mənşəli olmayan) qanuniləşdirilməsi üzrə proqramın qəbul edilməsi və həyata keçirilməsi;
- mütəşəkkil cinayətkarlıq və kriminal fəaliyyətin məhdudlaşdırılması, vətəndaşların mülkiyyəti, iqtisadi hüquq və həyatlarını qorumaq istiqamətində hüquq-mühafizə orqanlarının fəaliyyətinin dəqiqləşdirilməsi;
- kölgə iqtisadiyyatının bütün təzahür formalarının tədqiqi üçün çevik elmi-praktiki tədqiqat qruplarının yaradılması və dövlət tərəfindən maliyyələşdirilməsini təmin etmək.

Bu tədbirlərin həyata keçirilməsi müəyyən dərəcədə kölgə iqtisadiyyatının miqyasını məhdudlaşdıraraq, gizli yollarla toplanmış kapitalın milli iqtisadiyyatın inkişafına sərf olunmasının qarşısını ala bilər.

Rəsmi iqtisadi sferada müəyyən norma və prinsiplərin deformasiyaya uğraması kölgə iqtisadiyyatının fərqləndirici xüsusiyyət olub, kölgə iqtisadiyyatının mütləq atributu kimi ona konkret təsərrüfat mexanizminə uyğun olaraq baxılması tələb olunur. Bu halda kölgə iqtisadiyyatı qanunvericiliklə tənzimlənən rəsmi iqtisadiyyatdan uzaqlaşan deviant iqtisadiyyat kimi xarakterizə edilir. Təsərrüfat proseslərinin hüquqi

qiymətləndirilməsi gizli (kölgəli) fəaliyyətə qiymət verilməsi üçün zəruri parametrləri müəyyən edir. Belə fəaliyyət bütövlükdə cəmiyyətin maraqlarına ziddir. Hüquqi münasibətlərin iqtisadi münasibətlərdən meydana gəldiyini nəzərə alsaq, gizli (kölgəli) fəaliyyəti xarakterizə etmək üçün ilk növbədə bu fəaliyyətin mövcud (hakim) istehsal münasibətləri ilə dialektik qarşılıqlı əlaqələrini müəyyən etmək və yalnız bundan sonra real hüquqi mühit, rejim çərçivəsində gizli (kölgəli) iqtisadi münasibətlərin meydana gəlməsi, təzahür formalarını konkretləşdirmək mümkündür. Bu baxımdan həm iqtisadi, həm də hüquqi məsələləri tədqiq etmək, bu istiqamətdə gizli (kölgəli) fəaliyyətin kompleks tədqiqi metodologiyasını işləyib-hazırlamaq uğurlu nəticələr verə bilər. İqtisadi-hüquqi yanaşma burada mühüm rol oynayır.

Məlum olduğu kimi, hər bir cəmiyyətdə iqtisadi münasibətlər iqtisadi maraqlar kimi təzahür edir. Müxtəlif səviyyəli maraqların və müxtəlif sosial qrupların və ayrı-ayrı fərdlərin maraqlarının uyğunluğu, yaxınlığı istənilən mümkün vasitələrlə, yollarla şəxsi və qrup maraqlarının reallaşması meyillərini formalaşdırır, cəmiyyətin maraqlarına, digər sosial qrupların və ayrı-ayrı vətəndaşların maraqlarına zidd yollarla olsa belə. Çox zaman bu cür davranış tamahkar niyyətləri aydın ifadə edir və dövlət aparatı geniş əhali kütləsi tərəfindən dəstəklənmiş, yəni tamahkar məqsədlərə nail olmaq gizli şəkildə həyata keçirilir, bəzən qanun pərdəsi altında gizlənir. Cəmiyyətdə qəbul edilmiş normalardan kütləvi şəkildə yayınmalar iqtisadi sistemin özündəki çatışmazlıqlardan irəli gəlir. Bu çatışmazlıqlar və bunlarla əlaqədar şəxsi və qrup maraqlarının təmin edilməsi sosial-iqtisadi münasibətləri gizli, kölgəli münasibətlərə çevirərək, maraqların tamahkar, mənfəətpərəst yöndə reallaşmasına gətirib çıxarır.

Bu mənada kölgə iqtisadiyyatını ictimai istehsal, bölgü, mübadilə və istehlakın faktiki olaraq idarə olunmaması, yəni dövlət idarəetmə orqanlarından və özünü idarəetmə orqanlarından gizlənmə, yayınma, ayrı-ayrı sosial qruplar, ictimai mülkiyyətdən şəxsi və qrup maraqları baxımından tamahkar-

casına istifadə etmək kimi başa düşmək olar. Kölgə iqtisadiyyatının mövcudluğu ayrı-ayrı vətəndaşlar və sosial qrupların onların cəmiyyətdəki mövqeləri ilə həmçinin bir sıra hallarda rəsmi yollarda təsərrüfat maraqlarını həyata keçirməyin mümkünsüzlüyü şərtləşən maddi maraqlarını spesifik həyata keçirmə üsulları ilə əlaqələndirilir. Qeyd etmək lazımdır ki, kölgə iqtisadiyyatı təsadüfi, iqtisadi sferada baş verən Qanunazidd epizodik hərəkətlərin mexaniki məcmuyu olmayıb, müəyyən sosial qrupların tamahkar maraqları üzərində formalaşmış sosial-iqtisadi fenomendir.

Kölgə iqtisadi münasibətləri yalnız gizli, qeyri-qanuni deyil, həm də qanuni formada həyata keçirilə bilər. Lakin rəsmi iqtisadi sferada rəsmi və kölgə nəticələrin ayrılması, fərqləndirilməsi təsərrüfat prosesləri barəsində informasiyanın düzgünlüyünü yoxlamaq metodları olmadan mümkün deyildir. Bu fərqləndirmədə əsas meyar əldə edilmiş nəticələrin ictimai, cəmiyyətin maraqlarına, məqsədlərinə uyğunluq dərəcəsi ola bilər.

«Qarışıq» münasibətlərə misal kimi təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabatların şişirdilməsini qeyd etmək olar. Şişirdilmələrin iqtisadi məzmununu dövlət tərəfindən natura formasında qeydiyyata alınmış ictimai məhsulun, mövcud olmayan əmtəələrin, məhsulların, xidmətlərin və qazanılmamış əmək haqqı və mükafatlar şəklində pul vəsaitlərinin real dövriyyəyə saxta şəkildə (yalançı formada) buraxılması təşkil edir. Dövlət tərəfindən tam həqiqət kimi, doğru olmayan qəbul edilən bu təsərrüfat əməliyyatları ictimai maraqlara zərbə vurur, tamahkar məqsədlər və qanunsuz xarici iqtisadi vasitələrlə həyata keçirilir (yəni qazanılmamış əmək haqlarının, gəlirlərin əldə edilməsi və vəzifəli şəxslərin vəzifələrindən istifadə edərək sosial vəziyyətlərini möhkəmləndirmələri).

Kölgəli fəaliyyət ekstremal formada korrupsiyaya uğramış iqtisadiyyat kimi təzahür edir, ifadə olunur. Belə bir iqtisadiyyat nəinki bir regionun, bütövlükdə bir ölkənin məhvinə səbəb olur. Korrupsiyaya uğramış iqtisadiyyat cəmiy-

yətin hüquqi, iqtisadi, mənəvi, əxlaqi sütunlarını, prinsiplərini deformasiyaya uğradır. Bu iqtisadiyyat iqtisadi münasibətləri erroziyaya uğradır. Burada V əsrdə yaşamış tarixçi Silvionun əsərlərini misal göstərmək olar. O, yazırdı: - «dövlət məmurlarının korrupsiyalı fəaliyyəti bir zamanlar əzəmətli dövlət olan Roma imperiyasının tənəzzül dövrünə gətirib çıxardı, sonra isə süqutuna səbəb oldu» [85, səh. 46]. Ümumiyyətlə, kölgə iqtisadiyyatı bu və ya digər dərəcədə ictimai təkrar istehsalın bütün mərhələlərini əhatə edir, həm üfüqi, həm də şaquli istiqamətlərdə bütün təsərrüfat əlaqələrinə nüfuz edir, fərdlərin, sosial qrupların və dövlətin qarşılıqlı münasibətlərində təzahür edir. Bu, özü-özünü formalaşdıran iqtisadi sistem kimi çıxış edir. Onun məqsədi kölgəli iqtisadi münasibətlərin iştirakçılarının maksimal dərəcədə maddi və sosial fayda əldə etmələrini təmin etməkdir. Kölgə iqtisadiyyatı destruktiv, dağıdıcı funksiya daşıyır; iqtisadi sistemin əsasını dağıdır, dövlətin iqtisadi gücünü zəiflədir, cəmiyyətə sağalmaz mənəvi zərbələr vurur və əhalinin əksəriyyətinin maddi maraqlarını məhdudlaşdırır.

Kölgə iqtisadiyyatının mənfi nəticələri cəmiyyətə dəyən iqtisadi itkilərlə qurtarmır. O, ictimai həyatın bütün aspektlərinə mənfi təsir göstərir. Bu və ya digər kölgə iqtisadiyyatı hadisəsinin sosial təhlükəlilik dərəcəsi tamahkar məqsədlərin həyata keçməsi üsulları və onların digər ictimai münasibətlərin (hüquqi, mənəvi-etik) korlanmasına təsiri ilə müəyyən edilir. Bu mənada, kölgə iqtisadiyyatının təzahür formaları aşağıdakılardır:

- korrupsiyaya uğramış iqtisadiyyat, mütəşəkkil iqtisadi cinayətkarlıq, qeyri-iqtisadi cinayətlər, tamah məqsədilə iqtisadi sferada törədilmiş qanun pozuntuları, qanunauyğun səmərəsiz iqtisadiyyat (şərti-qanunauyğun). Təcrübədə bu hadisələr bir-birilə kəsişir, bir-birilərini tamamlayır və aşağıdakı təsərrüfat proseslərində öz əksini tapır:

- saxta dəyərlərin və istehlak dəyərlərinin hərəkəti, yəni dövlət tərəfindən natura şəklində qeydiyyata alınmış real ic-

timai məhsulun, lazımsız xidmətlər, əmtəələr (göstəricilərin şişirdilməsi);

- keyfiyyətli məhsul kimi qeydiyyata alınan keyfiyyətsiz maddi dəyərlərin, əmtəə və xidmətlərin hərəkəti;

- qeydiyyatdan gizlədilən real dəyərlərin və pul vəsaitlərinin hərəkəti (qeydiyyata alınmayan məhsul istehsalı, qanunsuz əmtəə və xidmətlər istehsalı, gəlirlərin vergidən gizlədilməsi);

- əsaslandırılmamış qiymət artımı ilə real əmtəələrin (xidmətlərin) hərəkəti;

- dar istehlakçı mühitində (yəni bir qrupu əhatə edən) qanunsuz qarşılıqlı razılaşma əsasında (xidmətə görə xidmət, rüşvətxorluq, xidməti mövqeyindən sui-istifadə etmək).

Burada kölgəli iqtisadi münasibətlərin təşəbbüskarı, tərəfdarı kimi çıxış edən sosial qrupların tərkibi, sosioloji xüsusiyyətləri olduqca müxtəlif və rəngarəngdir. İlk növbədə bu, öz tamahkar niyyətlərinə cinayətkar yollarla nail olmağa çalışan vətəndaşlardan (cinayətkar ünsürlərdən) ibarət fəal kriminal qruplardır. Bu sosial qrupda dominant mövqeyi rəsmi iqtisadi sferada cildə girərək, maskalanmış şəkildə cinayət törədən şəxslər tuturlar. Bu şəxslərə təşkilat, müəssisə və onların struktur bölmələrinin rəhbərləri, mühasibatlıq işçiləri də aiddir. Bu şəxslər tamah məqsədli cinayətlərin təşkilatçısı və fəal iştirakçısı kimi çıxış edirlər. İdarəetmə aparatında mühüm vəzifə sahibi olan, rəsmi səlahiyyətlərə və ictimai resurslara malik olan bu sosial qruplar dövlət mülkiyyətindən yalnız tamahkar məqsədlər üçün istifadə etmirlər, həm də onların imtiyazlarını məhdudlaşdıran və kölgə iqtisadiyyatının inkişafına mane olan hər hansı bir qərarın qəbulunu ləngidir, ona çətinlik yaradırlar.

Deyilənləri ümumiləşdirərək qeyd edə bilərik ki, kölgə iqtisadiyyatının mühafizəsi və inkişafı üçün əsas amillər aşağıdakılardır:

- zəhmətkeşlərin, vətəndaşların mülkiyyətdən uzaqlaşdırılması (əmlaka qarşı mülkiyyətçi münasibətin olmaması);

- əmək üzrə bölgü prinsipinin pozulması (aşağı əmək haqqı səviyyəsi, əmək haqqının səviyyəsinin məhdudlaşdırılması, mükafatlandırma sisteminin səmərəsizliyi);

- qiymətlərin ictimai zəruri məsrəflərə, məhsulun keyfiyyətinə uyğunsuzluğu (inhisarçı qaydada və əsaslandırılmamış şəkildə qiymətlərin qaldırılması);

- maddi ehtiyatların, əmtəə və xidmətlərin çatışmazlığı (təklifin ödəmə qabiliyyətli tələbə uyğunsuzluğu);

- istehsalçı inhisarı (istehsalçıların öz tələblərini istehlakçılara diktə etmələri);

- idarəetmədə özbaşınalıq (iqtisadiyyatın müxtəlif sahələrində balanslaşdırılmamış vəziyyət yaradan səriştəsiz idarəetmə qərarlarının qəbul edilməsi);

- bürokratizm, məmur özbaşınalığı (idarəetmə strukturunda, aparatın fəaliyyətindəki özbaşınalıq, hərci-mərclik);

- planlı fetişizm;

- yerliçilik, regionçuluq (ümumdövlət, ümumxalq maraqlarının nəzərə alınmaması);

- iqtisadiyyatda dövlət və ictimai nəzarətin səviyyəsinin aşağı olması (maliyyə nəzarətinin, auditin, yoxlamaların səmərəsiz aparılması, qeydiyyatda baş verən nöqsanlar və s.);

- hüquq-mühafizə orqanlarının fəaliyyətindəki nöqsanlar (zəif profilaktiki tədbirlər, xırda cinayətlərin açılmasına üstünlük verilməsi);

- maddi nemətlərə və xidmətlərə sahibolma imkanından asılı olaraq cəmiyyətin sosial təbəqələşməsi (əmtəə və xidmətlərin əldə edilməsində imtiyazlı olan sosial qrupların mövcudluğu);

- cəmiyyətin əmlak baxımından differensasiyası (əməyindən, sosial statusundan asılı olaraq əhalinin gəlir səviyyəsindəki fərqlərin olması);

- insanların (zəhmətkeşlərin) sosial uyğunlaşması (cəmiyyətdə baş verənlərə etinasız yanaşma);

- vətəndaşların yaradıcılıq potensiallarını reallaşdırmaq imkanlarının olmaması, onların istimai istehsalda öz gə-

lirlərini artırmalarına cəhd etmələri (işçilərin öz əmək payını artırmaları üçün səylərini birləşdirmələri);

- ideoloji tərbiyənin düzgün aparılmaması.

Kölgə iqtisadiyyatının sosial fenomen kimi başa düşülməsi təkcə onun ayrı-ayrı təzahür formaları ilə mübarizənin gücləndirməsi deyil, bütövlükdə kölgə iqtisadiyyatının inkişafına qarşı tədbirlər kompleksinin tətbiqini, ayrı-ayrı sosial qrupların tamahkar məqsədli fəaliyyətlərini məhdudlaşdırmaq üçün və kölgə iqtisadiyyatının inkişafını təmin edəcək şəraiti aradan qaldırmaq istiqamətində tədbirlər həyata keçirməyi tələb edir. Qeyd etmək lazımdır ki, kölgə iqtisadiyyatı sferasının mövcudluğu və genişlənməsi qaçılmaz, labud bir hadisə deyildir və onun inkişafına əks-təsir göstərə bilən effektiv sosial sistemin yaradılması mümkündür. Bu məqsədlə vahid siyasi, iqtisadi, hüquqi, təşkilati tədbirlər sisteminin işlənib-hazırlanması, tətbiqi vacibdir.

Müəssisələrin, icarə, kooperativ və digər mütərəqqi təsərrüfat formalarının iqtisadi müstəqilliklərinin həyata keçirilməsi, reallaşması kölgə iqtisadiyyatının sıxışdırılmasının maddi əsasıdır. Lakin qanunların qəbulunda tələsiklik və siyasiləşdirməyə meyllilik, onların icra mexanizmlərinin işlənib-hazırlanmaması kölgə iqtisadiyyatının inkişafına təsirin səmərəliliyini azaltmaqla yanaşı, çox vaxt onun inkişafına yeni imkanları reallaşdırır. Kölgə iqtisadiyyatının aradan qaldırılması və ya neytrallaşdırılmaq istiqamətində təşkilati xarakterli tədbirlər kimi iqtisadi sferada cinayətkarlığa qarşı ümumdövlət mübarizə proqramı işlənib hazırlanmalıdır. Bu mübarizə tədbirləri çərçivəsində aşağıdakılar həyata keçirilə bilər:

- vətəndaşların gəlirlərinə və sahib olduqları əmlakın həcminə ümumi və birbaşa nəzarət mexanizminin işlənib-hazırlanması: bazar münasibətləri şəraitində bu, gizli, kölgə iqtisadiyyatının «işbazları» və cinayətkar aləmin liderləri tərəfindən toplanmış gəlirlərə və sərvətə qarşı etibarlı sipər yaradır;
- maddi istehsal sahələrində azad olan işçi qüvvəsinin kəmiyyət və keyfiyyət parametrlərini, əmək ehtiyatlarının və

əhalinin miqrasiyasının əsas istiqamətlərini, regionların sosial infrastrukturunun inkişafı üçün kapital yatırımlarının bölüşdürülməsi istiqamətlərini, əlavə işçi qüvvəsinə tələbatın səviyyəsini müəyyənləşdirmək; tam və səmərəli məşğulluğun təmin edilməsi məqsədilə ictimai istehsalda həyata keçirilən struktur dəyişikliklərinin mənfi nəticələrinin qarşısının alınması ilə bağlı uyğun məlumatların ümumdövlət proqramında nəzərə alınması;

- çevik qiymət və vergi sisteminin yaradılması. Bu, dövlət sifarişlərinin yerinə yetirilməsini iqtisadi cəhətdən stimullaşdırmağa, yüksək keyfiyyətli, ucuz başa gələn və tələbatı təmin edən əmtəələrin və xidmətlərin istehsalına kömək edir; təsərrüfat hesablı gəlirdə xüsusi çəkisindən asılı olaraq əmək haqqı fondundan mütərəqqi vergi tutumu şkalasının tətbiqi;
- maddi və maliyyə ehtiyatlarının, o cümlədən qeyri-məhsuldar xərclərin və itkilərin hərəkəti haqqında yeni qeydiyyat və hesabat sisteminin işlənib-hazırlanması;
- mülkiyyət, xüsusiləşmə (özəlləşmə) probleminə yeni yanaşmanın təmin edilməsi. Bu məqsədlə elmi-tədqiqat müəssisələrinin fəaliyyətlərini yenidən təşkil etmək, mühüm sosial-iqtisadi qərarların hazırlanmasında bu müəssisələrdə kriminoloji ekspertizanın aparılmasına şərait yaratmaq;
- istehsal-təsərrüfat fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericiliyi təkmilləşdirmək, stimullaşdırıcı tədbirlərə diqqət ayırmaq;
- cinayət və cinayət-prosessual, vətəndaş və vətəndaş prosessual, inzibati qanunvericiliyi təkmilləşdirmək, aşağıdakı cəhətlərə diqqəti yönəltmək, yenidən baxmaq; a) iqtisadi sferada qanun pozuntuları zamanı cinayət və qeyri-cinayət hallarını müəyyən edən meyarları əsaslandırmaq; b) daha təhlükəli iqtisadi cinayət növlərinə qarşı cinayət məsuliyyətinin artırılması; c) şahidlərin və zərərçəkmiş şəxslərin müdafiəsi, qorunması, cinayətlərin açılmasına fəal təsir edən və cinayətkarları törətdikləri əməllərə görə peşimançılıq hissinə doğru stimullaşdırıcı effektə malik tədbirlər sistemini

nəzərdən keçirmək; ç) cərimə sanksiyalarının tətbiqi mülkiyyətin müsadirəsi imkanlarını genişləndirmək;

- xırda qanun pozuntularının nəzərdən keçirilməsi üçün inzibati-hüquq sisteminin yaradılması;
- vətəndaşların hüquq və maraqlarına, təsərrüfat fəaliyyətinə əsassız müdaxilənin qarşısını almaq üçün qanunların qəbulunda müvafiq məsələlərin nəzərə alınması;
- maliyyə, audit nəzarətinin gücləndirilməsi, təşkilatlararası yoxlama, ekspertiza xidmətinin təkmilləşdirilməsi, vergi nəzarətinin təkmilləşdirilməsi;
- zəhmətsiz yolla əldə edilən gəlirlə mübarizə metodlarının işlənib-hazırlanması cinayətkar yollarla əldə edilən vəsaitlərin maliyyə orqanlarına könüllü verilməsi və cinayət məsuliyyətindən azad olmaları ilə əlaqədar imkanların qanunvericilikdə nəzərə alınması;
- hüquq-mühafizə orqanlarının maddi, sosial-məişət və texniki təchizatının yaxşılaşdırılması.

Kölgə iqtisadiyyatını məzmununa, xarakterinə görə qeyri-qanuni fəaliyyətdən ayırsaq, o zaman hər şeydən əvvəl vergi, gömrük və digər ödəmələrdən qəsdən yayınmalar nəzərdə tutulur. Təcrübə göstərir ki, bu cür ödəmələrdən ən gizli xarakterə malik olanı vergi ilə baş verən cinayətlərdir. Bu mənada kölgə iqtisadiyyatının məzmununu tam açmaq üçün vergi cinayətləri ilə bağlı araşdırmalar aparmaq lazımdır. Digər növ ödəmələrdən yayınma vasitələrini, yollarını ya nəzarət metodları vasitəsilə, ya da məzmunu baxımından vergi ödəmələrindən yayınma üsullarına oxşar üsullarla aşkar etmək olar. Vergi ödəmələrindən yayınmaların 8 əsas vasitəsi vardır. Bunlar ümumilikdə iki yerə ayrılır.

Birincisi, vergi növündən asılı olmayan yayınma vasitələri. Bunlar aşağıdakılardır.

1. Obyektlərin vergidən gizlədilməsi (heç bir qeydiyyat olmadan maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsi, saxta sənədlərdən, yaxud da saxta, yalançı firmaların sənədlərindən istifadə etməklə lisenziya əldə etmək və ya dövlət vergi müfəttişliyində qeydiyyata durmaq, maliyyə-

təsərrüfat fəaliyyətinin nəticələrinin mühasibatlıq sənədlərində əks etdirilməməsi, sövdələşmələr bağlandıqdan sonra mühasibat sənədlərinin ləğv edilməsi (məhv edilməsi), maliyyə təsərrüfat fəaliyyətinin nəticələrinin digər təşkilatlar yaxud struktur bölmələri adından, onların hesabları vasitəsilə qeydiyyata alınması).

2. Vergi ödəyən obyektlərin göstəricilərinin azaldılması (mühasibatlıq sənədlərində göstəricilərin təhrif olunması, mədaxilin bir hissəsinin lazımsız mühasibatlıq hesabatlarına daxil edilməsi, itki normasının artırılması yolu ilə qeydiyyatdan kənar artıq məhsul həcmi yaratmaq).

3. Vergi üzrə borc yarandığı zaman yaxud da cari vergiləri ödəməmək məqsədilə vəsaitlərin vergi ödəmələrindən gizlədilməsi (süni şəkildə debitor borcların yaradılması, qabaqcadan pulu ödənilmədən əmtəələrin buraxılması, satışdan daxil olan pulun müəssisənin hesabına qaytarılmaması, mədaxilin asılı şəkildə olan strukturların hesablarına köçürülməsi, qeyri-rezidentlərdən valyuta vəsaitlərinin geri alınmaması və s.)

4. Güzəştlərdən qanunsuz olaraq istifadə etmək (güzəşt təyin edilən əsas fəaliyyət növlərinin həyata keçirilməsi, işləməyən təqaüdçü-əlillərin ştat cədvəlinə daxil edilməsi və s.).

İkincisi isə ayrı-ayrı vergi növləri üçün xarakterik olan vergidən yayınma vasitələri, yollarıdır. Bunlara aşağıdakılar aiddir:

1. Gəlir vergisinin azaldılması (müəssisənin maliyyə nəticələrinə qanunsuz olaraq əlavə xərclərin daxil edilməsi, işçilərin sayını artırmaqla, əmək haqqı fondunun süni şəkildə artırılması, satışdan kənar xərclərin artırılması və s.)

2. Aksizlərə görə ödəmələrdən yayınmalar (aksizli məhsul istehsalı texnologiyasına müəyyən dəyişikliklər etməklə, bu məhsulu aksizə görə vergi ödəmədən yayındırmaq (lakin bu texnologiya faktiki olaraq əvvəlki kimi istifadə edilir)).

3. Gəlir vergisinin ödənilməsindən yayınma (böyük həcmdə maddi yardım almaq, fərdi qaydada mükafatlandırma, yaxud da qaytarılmamaq şərtilə borc (ssuda) verilməsi,

qaytarılmamaqla tənbəl hesab məbləğdə pul vəsaitlərinin əldə edilməsi, alınması, məcmu illik gəlir barəsində deklarasiyada məlumatların təhrif olunması).

Axırıncı üsul nə maliyyə-təsərrüfat fəaliyyətini, nə də onun nəticələrini nəzərdə tutmur. Bunlar qeyri-qanuni mühasibat hesablarına aiddir. Buna görə də bu maliyyə-təsərrüfat əməliyyatları vergidən yayınma vasitələrinə aiddir, lakin tərifə görə kölgə iqtisadiyyatına aid edilmir. Bu xarakterli yayınma qanunun digər tələblərinin yerinə yetirilməməsi zamanı da müşahidə edilə bilər. Əgər bütün əməliyyatlar qeydiyyata alınırsa, onlara dövlət tərfindən tam nəzarət olunur.

Vergidən yayınmanın birinci üç vasitəsi, yolu başqa xarakter kəsb edir. Birinci vasitəyə mühasibat hesabatlarından, yəni dövlət nəzarətindən yayınan, tam gizlədilən maliyyə-təsərrüfat əməliyyatları daxildir. Öz iqtisadi fəaliyyətini tam gizlətmək vergidən və hər hansı bir dövlət nəzarətindən ən təhlükəli yayınma vasitəsidir. Buna görə də bunu «kölgə iqtisadiyyatı» anlayışı altında ifadə etmək daha məqsədəuyğundur. Belə kölgə iqtisadiyyatı istənilən bir kölgə iqtisadiyyatı üçün xarakterikdir və beynəlxalq anlamda «gizli» iqtisadiyyat kimi xarakterizə edilir. Bunu qanuni (leqal) iqtisadiyyatdan ayırmaq (fərqləndirmək) asandır. Bununla yanaşı, əməliyyatların vergi orqanlarının nəzarətindən yayındırılması, gizlədilməsi bu əməliyyatların digər fəaliyyət növü adı altında maskalanması yolu ilə həyata keçirilir. Bunlar yalançı əməliyyatlardır.

İkinci vasitə istehsal dövriyyəsinin müəyyən hissəsinin yoxlamalardan, nəzarətdən gizlədilməsidir. Bu hissə ya qanuni dövriyyəyə daxil edilir və ya növbəti maliyyə-təsərrüfat əməliyyatlarında qeydiyyata alınır, ya da müəyyən əməliyyatların köməyilə tam yaxud müvəqqəti qanuni qeydiyyatdan yayındırılır gizli fəaliyyətə çevrilir. Dövriyyə vəsaitinin bir hissəsinin yayındırılması ilə müşahidə edilən maliyyə-təsərrüfat əməliyyatlarını əgər vəsaitlər digər maliyyə-təsərrüfat əməliyyatlarının keçirilməsi üçün qanuni dövriyyədən çıxarılırsa və əməliyyatın qeydiyyata alınmış hissəsindən fayda

əldə edilmirsə və yaxud bu, əsas əməliyyat hesab olunmursa, o zaman kölgə iqtisadiyyatına aid etmək olar.

Üçüncü vasitəyə büdcəyə vergi ödəmələrindən yayınma metodu aiddir. Ola bilər ki, bağlanan sövdələşmələr mühasibat hesablarında əks olunsun və buna görə vergilər hesablansın, lakin büdcəyə vəsait daxil olmasın. Belə ki, bu vergi ödəyicisinin hesablarında göstərilmir. Müəyyən maliyyə-təsərrüfat əməliyyatlarının köməyilə bu vəsaitlər bir qanuni dövriyyədən çıxarılır və öz-özünə rəsmiləşdirilən digər bir dövriyyəyə istiqamətləndirilir. Bu maliyyə-təsərrüfat əməliyyatları birbaşa qeydiyyata alına bilməz. Ona görə də onlar ya hesabatlarda əks olunmur, ya da digər əməliyyat adı ıltında gizlədilir (maskalanır). Bu halda həmin əməliyyatlar yabançı əməliyyatlar xarakteri alır və «vergi cinayətləri» anlayışına aid edilir, bəzən bu anlayış çərçivəsindən kənarə çıxır.

Beləliklə, kölgə iqtisadiyyatı çərçivəsində 3 növ əməliyyatı ayırmaq lazımdır: mühasibat hesablarından tam çıxarılan (ortada qeydiyyata alınmayan) əməliyyatlar; dövriyyə vəsaitinin bir hissəsinin gizlədilməsinə yönələn əməliyyatlar; digər əməliyyatlar adı altında keçirilən əməliyyatlar. Birinci növ əməliyyatlar da öz növbəsində qeydiyyata alınmadan aparılan təsərrüfat əməliyyatları və maliyyə-təsərrüfat fəaliyyətinin qanuni subyektləri tərəfindən keçirilən əməLiyyatlara ayrılır. Bunları sxem 4.2.-dən də görmək olar.

Kölgə əməliyyatlarının klassik formalarına qeydiyyatsız həyata keçirilən maliyyə-təsərrüfat əməliyyatları və ya qeydiyyata alınmayan lisenziyalar və yaxud ayrı-ayrı əməliyyatların qeydiyyata alınmaması, mühasibatlıq sənədlərinin ləğv edilməsi aiddir. Bir sıra hallarda vergi nəzarəti orqanlarına maliyyə-təsərrüfat fəaliyyətinin olmaması barəsində balans təqdim edilsə də, əməliyyat məlumatları və keçirilən vergi yoxlamaları bu fəaliyyətin olmasını sübut edir. Bəzən belə fəaliyyət sırasına saxta sənədlərin, möhürlərin və blankların tərtib edilməsi də daxil olur, itirilmiş pasportlar, olmayan adlar ünvanlardan da istifadə olunur.

Öz maliyyə-təsərrüfat fəaliyyəti barəsində hesabat verməyən sahibkarları müəyyən etmək olduqca çətin prosesdir, çünki onların yerləşdikləri yer barəsində real informasiya olmur. Bəzən vergi qanunvericiliyndə olan sahibkarların qeydiyyata alınması prosedurundakı nöqsanlar buna şərait yaradır. Gizli sövdələşmələr aparmaqla vergidən yayınmanın ən geniş yayılmış üsullarından biri müəssisənin qanuni hesabatlarında bu əməliyyatların əks olunmamasıdır. Burada əsas məqsəd hesabatları gizlətməkdir.




**Sxem 4.2. Qeydiyyata alınmadan aparılan təsərrüfat əməliyyatları və maliyyə-təsərrüfat fəaliyyəti**

Barter əməliyyatları və veksellə hesablaşmalar çərçivəsində çox zaman gizli əməliyyatlar həyata keçirilir. Veksellə aparılan əməliyyatlarda çox zaman vergi bazası azaldılır, vergi sferasında kriminogen durum gərginləşir. Veksellə hesablaşmalar gizli xarakter daşıyır, iqtisadiyyat üçün ciddi itkilərlə nəticələnən sui-istifadə halları artır. Diskontlu veksellərin dövriyyəsi süni olaraq vergi borcunu artırır ki, bu da maliyyə maxinasiyaları üçün münbit şərait yaradır.

Müəssisələr arasında mürəkkəb hesablaşmalar sxemi kriminal xarakter daşımır. Çox zaman bu dövriyyə vəsaitlərinin çatışmazlığından irəli gəlir. Bununla yanaşı, real sövdələşmələri gizlətməyə (maskalamağa), mühasibat hesabatlarında onların əks olunmamasına və büdcəyə ödəniləcək vəsaitlərin gizlədilməsinə gətirib çıxarır. Burada kölgəli fəaliyyət büdcədən vəsaitlərin gizlədilməsi hesab olunur.

Praktikada çox zaman belə fəaliyyətlə məşğul olmaq üçün yalançı firmalar (qeydiyyatdan keçmiş, lakin real şəkildə mövcud olmayan, fəaliyyət göstərməyən) yaradılır və həyatda mövcud olmayan bir şəxsin adına rəsmiləşdirilir. Belə firmalarla aparılan çoxsaylı sövdələşmələr nəticəsində gizli əməliyyatların həyata keçirilməsi yolu ilə vergi ödəmələrindən yayınma sxemi mürəkkəbləşir.

Gizli (saxta) firmalarda sənədlərdən istifadə etməklə vergilərin gizlədilməsi yüksək peşəkarlığa malik hüquqşunaslar və auditorlar tərəfindən elə işlənib-hazırlanır ki, sanki qanuni fəaliyyət göstərən təşkilatın vergi bazası minimum olmuşdur, bu zaman büdcə qarşısında onun borcu real mövcud olmayan firmanın balansına «yüklənmişdir». Nəticədə vergi cinayətinə görə məsuliyyət mövcud olmayan şəxsin üzərinə düşür, belə əməliyyatı həyata keçirən həqiqi mövcud olan subyekt isə vergi cinayəti məsuliyyətindən kənarda qalır. Saxta firmanın rəhbərinin müəyyən edilə bilməməsi vergi cinayəti faktı üzrə cinayət işi qaldırılmasına mane olan əsas səbəblərdəndir.

Bu cür neqativ prosesləri yaradılan yalançı (gizli) firmaların fəaliyyətini iqtisadi cəhətdən səmərəsiz edə biləcək normaların vergi və cinayət qanunvericiliyində nəzərə almaqla aradan qaldırmaq olar. Onu da qeyd etmək lazımdır ki, bu firmaların yaradılması deyil, onlar tərəfindən müəyyən saxta və ya real maliyyə-təsərrüfat əməliyyatlarının həyata keçirilməsi cəmiyyət üçün təhlükəlidir. Gizli şəkildə həyata keçirilən əməliyyatlarla mübarizə üçün müəssisələrin və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətləri barəsində informasiya toplamaq və onu təhlil etmək prinsipi üzrə qurulmuş kompleks nəzarət sistemini yaratmaq məqsədəuyğun olardı. Dövlət orqanları ilə belə nəzarət sistemi arasında informasiya mübadiləsi də nəzərə alınmalıdır. Eyni zamanda vətəndaşların xərcləri və gəlirlərinə də dövlət tərəfindən ciddi nəzarət həyata keçirilməlidir.

# V FƏSİL. YOXSULLUĞUN AZALDILMASI İLƏ MİLLİ İQTİSADİ MƏNAFELƏRİN REALLAŞDIRILMASI ARASINDAKI QARŞILIQLI ƏLAQƏ

## 5.1. İqtisadi təhlükəsizlik strategiyasında sosial siyasətin həyata keçirilməsinin başlıca istiqamətləri

İqtisadi təhlükəsizliyin, ümumilikdə milli təhlükəsizliyin təmin edilməsi və artırılması sosial sferanın hərtərəfli və obyektiv manitorinqini tələb edir. Bu istiqamətdə ilk növbədə iqtisadi təhlükəsizliyin təhlili üçün göstəricilər qrupunun düzgün seçilməsi, əsaslandırılması vacibdir. İqtisadi təhlükəsizliyin sosial amillərlə əlaqəli təhlili aşağıdakıların qiymətləndirilməsini tələb edir:

- ölkənin müdafiə qabiliyyətinin təmin edilməsi və iqtisadi inkişaf qabiliyyəti, geniş təkrar istehsal rejiminin fəaliyyəti nöqteyi-nəzərindən insan kapitalı, əmək və mütəxəssis potensalının qiymətləndirilməsi; bu potensialın perspektiv inkişaf meylləri və inkişaf etmiş ölkələrin uyğun göstəricilərinin səviyyəsi ilə müqayisədə onlardan istifadə səmərəliliyinin qiymətləndirilməsi;
- sosial sabitlik və əhalinin sosial fəallığı (təbii hərəkatının canlanması, qızışması nöqteyi-nəzərindən);
- həyat səviyyəsi və onun keyfiyyəti (əhalinin təkrar istehsalı və demoqrafik potensialın bərpası, məşğulluq səviyyəsi, real və perspektiv işsizlik, kriminogen vəziyyət baxımından).

İndikativ təhlilin bu obyektləri cəmiyyətdə sosial vəziyyəti, durumu tam və hərtərəfli əks etdirə bilən göstəricilər sistemini formalaşdırmağı tələb edir. Bu sistem sosial inkişaf səviyyəsini göstərən faktiki və proqnozlaşdırılan parametrlərin iqtisadi təhlükəsizlik meyarlarının hədd qiymətlərindən kənarlaşmanı vaxtında müəyyənləşdirməyə imkan verməlidir. Bununla əlaqədar ölkəni risk zonasından uzaqlaşdırmaq istiqamətində xüsusi tədbirlərə böyük ehtiyac vardır.

Göstəricilərin seçilməsində bir sıra tələblər nəzərə alınmalıdır. İlk növbədə bu göstəricilərin sosial sferadakı real

və potensial təhlükəni tam əks etdirməsi və ölkənin hesablama, statistika və proqnozlaşdırma sisteminə uyğunluğu tələbidir. Digər tərəfdən onların kifayət qədər konkret olmaları və ölkədə, regionda, yaxud hər hansısa bir sahədə sahələrarası müqayisə üçün faktiki sosial vəziyyətin birmənalı qiymətləndirilməsinə imkan verməlidir. İkinci tələb ölkənin sosial parametrlərinin geosiyasi rəqiblərlə müqayisəsi zərurətini ortaya qoyur, diktə edir və ölkənin iqtisadi təhlükəsizliyinin mühüm meyarlarından biri kimi qiymətləndirilməlidir. İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı dövlət strategiyasında nəzərdə tutulan əsas vəzifələrə uyğun olaraq sosial yöndə iqtisadi təhlükəsizliyin indikativ təhlili üçün aşağıdakı cəhətlər nəzərdə tutulmalıdır:

- demoqrafiya, həyat keyfiyyəti və səviyyəsi. Buraya – doğum və ölüm səviyyəsi, orta ömür müddəti, xəstəlik səviyyəsi; yaşayış minimumuna nisbətən orta və minimal əmək haqqı və təqaüdlərin səviyyəsi; əhalinin ayrı-ayrı təbəqələrinin gəlir səviyyələrindəki fərq; vacib ərzaq məhsullarının istehlakı göstəriciləri daxildir.
- iri iqtisadi rayonlar, əhalinin yaş və sosial qrupları üzrə məşğulluğun dinamikası;
- əmtəə və xidmətlərə olan tələbin dinamikası;
- əhalinin sosial fəallığı;
- regional səviyyədə nəzərə alınan göstəricilər; əhalinin əsas qrupları üzrə, qadınlar və gənclər arasında işsizliyin səviyyəsi; yaş və milli tərkibə görə demoqrafik vəziyyət, miqrantların və qaçqınların sayı; tətillərlə əlaqəli sosial fəallıq; kriminogen vəziyyət.

Bu göstəricilər sırasına elmi, intellektual potensialın dinamikası, mütəxəssislərin hazırlıq səviyyəsi, təhsil almaq imkanı, ölkədən «beyinlərin axını» səviyyəsini xarakterizə edən göstəricilərin də daxil edilməsi iqtisadi təhlükəsizliyin hərtərəfli indikativ təhlilinə imkan verərdi. Həmçinin, yoxsulluq səviyyəsi, əmlak səviyyəsi üzrə və işsizlik səviyyəsini xarakterizə edən göstəricilərin sosial-siyasi sabitliyi poza biləcək təhlükəli həddi keçməsinə imkan vermək olmaz.

Sosial sferada mövcud vəziyyətin dinamikasını qiymətləndirmək üçün müəyyən edilmiş göstəricilər və meyarlar sisteminin təkmilləşdirilməsi sosial siyasətin prioritetlərini dəqiqləşdirməyə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Dünya təcrübəsindən bəllidir ki, əhalinin kütləvi şəkildə yoxsullaşması, həyat keyfiyyətinin aşağı düşməsi, əhalinin sağlamlıq səviyyəsinin pisləşməsi, reproduktiv potensialın aşağı düşməsi və genefondun zəifləməsi, ölkədə istehsalın dağılması fonunda təhsil və intellektual potensialın tədricən tənəzzülə uğraması, kadrların hazırlanması və təhsil sisteminin keyfiyyətinin aşağı düşməsi, ixtisaslı mütəxəssislərin xaricə axını, əhalinin milli xüsusiyyətlərinə yad olan həyat tərzinin yayılması, qanunsuzluğun, qəddarlığın hökm sürməsi – dövlət idarəetmə orqanlarının fəaliyyət prinsiplərinin ölkə vətəndaşlarının maraqlarına cavab verməməsi, dövlətin sosial siyasətinin düzgün istiqamətlənməməsinin nəticəsidir. Sosial proqramların deklarativ, rəsmi xarakter daşıması, onların dövlətin maliyyə imkanlarına uyğunsuzluğu, sosial sferada həyata keçirilən islahatların sürətinin əhalinin real gəlirləri ilə əlaqələndirilməməsi bu proqramların səmərəliliyini heçə endirir.

Bu mənada dövlətin vahid sosial siyasət konsepsiyasının olması, onun uzunmüddətli perispektiv üçün prioritetlərinin, istiqamətlərinin konkretləşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Dövlətin iqtisadi və sosial siyasətin məqsəd və prioritetlərinin dəqiqləşdirilməsi, bazar iqtisadiyyatının formalaşması və inkişafı proseslərində dövlətin iqtisadi-tənzimləyici funksiyasının transformasiyası spesifikasını nəzərə almaqla sosial-əmək münasibətlərinin dövlət tənzimləməsi mexanizmlərini təkmilləşdirmək tələbi durmadan artır.

Onu da qeyd edək ki, sosial siyasətin həyata keçirilməsi zamanı ölkənin regionlarının spesifikası, əhalinin tarixən formalaşmış təsərrüfat fəaliyyətinin təşkili metodları və formaları, məşğulluğu nəzərə alınmaqla, əhalinin sosial təhlükəsizliyi və fiziki mövcudluğu, sağlamlığının təmin edilməsinə diqqətin yönəldilməsi, gələcəkdə əhalinin həyat səviyyəsinin

və keyfiyyətinin aşağı düşməsinin qarşısının alınması, əhalinin tənəzzülünə yol verməmək, iqtisadi artımın strateji əhəmiyyətli amilləri olan təhsil və peşə sisteminin dağılmasının qarşısını almaq, ona imkan verməmək kimi məsələlər də diqqət mərkəzində olmalıdır. Bu sahədə fəaliyyət təxirəsalınmaz vəzifələrin həllindən orta və uzunmüddətli perspektivdə daha yüksək məqsədlərə nail olmağa doğru yönəlməlidir.

Bu məsələlərin həllində dövlətin mühüm funksiyası iqtisadi dəyişikliklərin taktikası və prioritetlərinin sosial yönlü islahatların tempi və prioritetləri arasında dəqiq və ciddi uyğunluğun təmin edilməsidir. Həmçinin, həyata keçirilən hər hansı istənilən iqtisadi xarakterli tədbirlərin sosial nəticələrini əvvəlcədən görmək, gəlirlərin ölkənin iqtisadi yüksəlişinə yönəlmiş yenidən bölüşdürülməsi prosesinin tənzimlənməsi vasitəsilə sosial və iqtisadi mexanizmlərin birləşdirilməsi də bu istiqamətdə əsas dövlət funksiyalarına aiddir.

Göründüyü kimi, söhbət keyfiyyətcə yeni şərait daxilində sosial proseslərin tənzimlənməsində dövlətin rolunun artırılmasından gedir. Bu istiqamətdə əsas vasitə dövlətin fəal sosial siyasət yeritməsidir. Bu siyasətin mühüm tərkib hissələri məşğulluq, gəlirlər, sosial-mədəni sferanın inkişafı sahəsində aparılan siyasət, əmək və kapital arasında münasibətlərin tənzimlənməsi, vətəndaşların hüquqlarının sosial müdafiəsinə təminatdır.

Lakin sosial-iqtisadi proseslərin tənzimlənməsində dövlətin rolunun artırılması məsələsinin özünə də çox ehtiyatla yanaşmaq lazımdır. Dövlət müdaxiləsinin hüdudlarını və təsir dairəsini dəqiq müəyyənləşdirmək və sonrakı dövrlərdə onun nəticələrini düzgün proqnozlaşdırmaq lazımdır. Əvvəlki dövrlərdə iqtidarda olan hökumət tərəfindən görülən tədbirlər əhəmiyyətli dərəcədə bugünkü iqtisadi siyasətə təsir göstərir və bəzən iqtisadi islahatların aparılması üçün çox əlverişsiz şərait yaradır. Dövlətin iqtisadiyyata müdaxiləsinin çoxillik praktik təcrübəsi vardır. Bu isə bəslənən ümidləri və nəticələri müqayisə etməyə imkan verir. Bu sahədə aparılan tədqiqatlardan məlum olur ki, bu müqayisənin nəticələri heç də

ürəkaçan deyil, xüsusilə inkişaf etməkdə olan ölkələrdə. Bir çox misallar onu göstərir ki, dövlət müdaxiləsi resursların bölgüsünü yaxşılaşdırmamış, iqtisadi artıma və gəlirlərin daha səmərəli bölgüsünə gətirib çıxarmamış, daha sabit təsərrüfat mühiti yaratmamışdır. Əksinə resursların bölgüsündə əhəmiyyətli dərəcədə qeyri-bərabərlik qorunub saxlanılır, hətta çox vaxt buna səbəb məhz dövlətin apardığı siyasət olmuşdur. Əldə olan məlumatlar onu göstərir ki, Cini əmsalı və gəlirlərin qeyri-bərabərliyinin digər göstəriciləri ümumilikdə təkmilləşməmiş, yaxşılaşmamış, dövlətin iqtisadiyyata geniş müdaxiləsi ilə səciyyələnən ölkələrdə isə qeyri-bərabərlik heç də iqtisadiyyatları daha liberal olan ölkələrdən az deyil. İnflyasiya, işsizlik, makroiqtisadi müvazinətsizlik əvvəlki kimi bir çox ölkələr, xüsusilə iqtisadiyyata geniş dövlət müdaxiləsi olan ölkələr üçün xarakterik xüsusiyyət olaraq qalır. Dövlətin rolu daha məhdud və daha konkretləşdirilmiş olan bir çox ölkələri misal göstərmək olar ki, orada daha müvəffəqiyyətli inkişaf prosesləri gedir. Bu konteksdə Cənubi-Şərqi Asiya, Çili və Yeni Zelandiyanı qeyd etmək olar [185, səh. 295]. Son illər belə bir fikir geniş yayılmağa başlamışdır ki, bazar proseslərinə dövlət müdaxiləsi dövlətin əsas funksiyalarına diqqətin yayınması ilə müşahidə olunur [186].

Bazar münasibətlərinə keçid şəraitində əsas sosial problemlərdən biri əhalinin təbəqələşməsinin kəskin xarakter alması və sosial-əmlak fərqlərinin dərinləşməsidir. Bu mənada əməyə münasibətin, eləcə də iqtisadi fəaliyyətin stimullaşdırılmasının yeni formalarının tətbiqi, iqtisadi baxımdan özünümüdafiə sisteminin yaradılması ilə yanaşı, gəlirlərin bölüşdürülməsi siyasəti ilkin imkanların bərabərləşdirilməsi və əhalinin aztəminatlı təbəqəsinin, qruplarının müdafiəsi ilə bağlı tədbirlər sistemini də əhatə etməlidir. Burada xüsusən aşağıdakılar nəzərdə tutulur: yaşayış minimumu həddində gəlirlərin vergilərdən azad edilməsi, təhsil dövründə güzəştlərin verilməsi, evdə, yaxud da sosial müdafiə müəssisələrində olan qeyri-əmək qabiliyyətli şəxslərə (ruhi xəstələrə) güzəştlərin verilməsi, xeyriyyəçiliyin miqyasının genəşlindirilməsi və s.

Gəlirlərin bərabər bölüşdürülməsi siyasətində aşağı gəlir səviyyəsinə malik olan əhali qruplarının sosial müdafiəsinə, yaxud da yüksək gəlir səviyyəsinə malik olan əhali qruplarının gəlirlərinin məhdudlaşdırılması istiqamətlərinə üstünlük verilə bilər. Həyata keçirilən siyasətin hər iki istiqaməti özündə birləşdirməsi və vergiqoyma sisteminin-sosial güzəştlərin səmərəli təşkilinə istiqamətlənməsi daha yaxşı hal hesab oluna bilər. Tənzimləmə üst səviyyədə başlamalı və ölkənin iqtisadi inkişafına yönələn tələblərlə sosial proqramların irəli sürdüyü tələblər arasında səmərəli tarazlığın, balansın əldə edilməsinə gətirib çıxarmalıdır. Belə sosial proqramların həyata keçirilməsinə yalnız dövlət deyil, həm də müxtəlif institusional strukturlar və ictimai təşkilatlar da cəlb edilməlidir.

İnsanların həyat səviyyəsi ümumi, xüsusi, konkret yanaşma ilə öyrənilir, tədqiq olunur, proqnozlaşdırılır. Belə ki, ayrı-ayrı regionlarda, ayrı-ayrı sosial-iqtisadi qruplarda onların istehlakına, gəlirləri və xərclərinə, sərbəst vaxtlarına balans şəklində baxılır, təhlil olunur. Ona görə də həyat səviyyəsinin öyrənilmə metodikası ümumi inteqral konkret yanaşma göstəricilərinin vəhdəti formasında həyata keçirilir. Sonradan differensial yanaşma formalaşır. Differensial yanaşma dedikdə, onun yaratdığı amilləri qiymətləndirmək başa düşülür. Məsələn, təhsilin, peşənin xarakterinin həyat səviyyəsinə təsiri. Həyat səviyyəsinin differensiasiyası daha çox ümumi göstərici olan gəlirlərin differensiasiyası və differensial əmsalı ilə ölçülür.

Həyat səviyyəsinin yüksəlməsi istiqamətində sosial infrastrukturlar, onların istehsal gücləri, il ərzində xidmət göstərmək qabiliyyəti, hər 1000 nəfərə, ya da adambaşına düşən səviyyəsi mühüm rol oynayır. Sosial infrastruktur sahələrə görə kənd və şəhər yerlərində əhalinin sayı, onların məşğulluq səviyyəsi, əhalinin gəlirləri və rifahı ilə ölçülür. Belə ki, gəlirlərin strukturu yaşayış yerləri ilə əlaqəli şəkildə tədqiq olunur.

Cədvəl 5.1.

**Yaşayış yerləri üzrə gəlirlər (ayda adambaşına, manatla) [2005 st.gös. səh. 145]**

| | Ölkə üzrə cəmi | | Şəhər yerləri | | Kənd yerləri | |
|---|---|---|---|---|---|---|
| | 2003 | 2004 | 2003 | 2004 | 2003 | 2004 |
| Gəlirlər – cəmi | 187870,9 | 207557,5 | 202192,0 | 222126,4 | 171288,2 | 191066,5 |
| Məşğulluqdan gəlirlər | 57215,5 | 64697,6 | 80892,2 | 94311,5 | 29799,5 | 31176,5 |
| Özüməşğulluqdan gəlirlər | 42825,2 | 46957,6 | 51575,4 | 56433,0 | 32693,2 | 36232,1 |
| Kənd təsərrüfatından gəlirlər | 29140,7 | 32574,8 | 8135,9 | 8489,1 | 53462,6 | 59838,3 |
| İcarədən gəlirlər | 2955,3 | 3080,2 | 3967,9 | 4061,3 | 1782,8 | 1969,6 |
| Əmlakdan gəlirlər | 603,2 | 752,1 | 842,7 | 931,4 | 352,8 | 549,1 |
| Alınmış cari transfertlər: | 21768,1 | 25570,7 | 20847,0 | 24500,1 | 22834,5 | 26782,7 |
| Pensiyalar | 17082,2 | 21056,9 | 17236,4 | 20722,4 | 16903,7 | 21435,7 |
| müavinət və sosial yardımlar | 3357,3 | 2188,4 | 2337,0 | 1615,8 | 4538,8 | 2836,6 |
| naturadan sosial transfertlər | 1328,6 | 2325,4 | 1273,6 | 2161,9 | 1392,0 | 2510,4 |
| Digər gəlirlər | 33362,9 | 33924,5 | 35930,9 | 33400,0 | 30398,8 | 34518,2 |
| Digər ailələrdən alınmış gəlirlər | 26336,1 | 29071,0 | 27904,5 | 28711,3 | 24519,9 | 29478,2 |

Cədvəldən göründüyü kimi, 2003-cü ildə ev təsərrüfatlarının hər bir üzvünün pul gəlirləri aybaay artmışdır. Bu artım təkcə respublika üzrə deyil, həm də şəhər və kənd yerlərində də müşahidə edilmişdir. 2003-2004-cü illərdə adambaşına düşən pul gəlirlərinin səviyyəsində müşahidə edilən artım həm şəhər, həm də kənd yerləri üçün xarakterik olmuşdur. Formalaşma mənbələri nəzərə alınmaqla bu gəlirlərin artmasında müəyyən fərqlər müşahidə edilmişdir. Belə ki, məşğulluqla bağlı bütün gəlir növləri orta hesabla ildə 10% artmışdır, lakin transfertlər üzrə bu meyl bütün gəlir növləri üzrə müşahidə edilməmişdir.

Cədvəl 5.2.

**Respublika əhalisinin hər nəfərinə düşən pul gəlirləri [Az.Mil.Hes. 2005, səh.183]**

| | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Respublika əhalisinin hər nəfərinə düşən pul gəlirləri, min man. | 1246,3 | 1602,3 | 1850,9 | 2052,0 | 2214,4 | 2378,9 | 2635,4 | 3068,0 | 3670,0 | |
| Əvvəlki ilə nisbətən faizlə | 140,7 | 128,6 | 115,5 | 110,9 | 107,9 | 107,4 | 110,8 | 116,4 | 119,7 | |

Sosial siyasətin yalnız dövlət və onun strukturlarının vəzifələri və hüquqları olmasını düşünmük düzgün olmazdı. B.V.Rakitskinin verdiyi tərifə görə sosial siyasət-müxtəlif, bəzən oxşar maraqları olan sosial qrupların, siniflərin qarşılıqlı münasibətləridir. Bəzən də bu münasibətlər çərçivəsində bütövlükdə əhalinin və onun təbəqələri, sosial birliklərin (yəni ailə, xalq, şəhər əhalisi, qəsəbə, region əhalisi və s.) sosial vəziyyətinin dəyişilməsi və saxlanılması maraqları uyğunluq təşkil etmirlər. Sosial siyasətin istiqamətləri müxtəlif sosial qrupların və siniflərin, regionların, yerli özünüidarəetmə orqanlarının maraqları nəzərə alınmaqla dəqiqləşdirilməlidir. Bu amil dövlətin müstəqil sosial siyasət həyata keçirmək imkanlarının məhdudlaşması və onun rolunun zəifləməsinə dəlalət etmir. Əksinə, müxtəlif subyektlərin funksiyalarının dəqiqləşdirilməsi və onlar arasında qarşılıqlı təsirin təmin edilməsi əhəmiyyətini artırır. Sosial siyasət sferasında dövlətin və onun subyektlərinin əsas qarşılıqlı təsir prinsipləri aşağıdakılardır:

- bütün regionlar üçün ümumi normaların işlənib-hazırlanması;

- bərabər siyasi-hüquq və sosial-iqtisadi imkanların təmin edilməsi;

Sosial siyasətin aktivliyi prinsipinin həyata keçməsi üçün qarşıda duran əsas problem regionların və yerli idarəetmə orqanlarının özlərini onların üzərinə düşən sosial funksiyaları həyata keçirmələri üçün lazımi həcmdə maliyyə vəsaitləri ilə təmin etmək şəraiti formalaşdırmaq, bu subyektlərə onlar qarşısında duran sosial vəzifələrin icrasına təminat verən həcmdə konkret gəlir növlərini təhkim etməkdən ibarətdir. Mərkəzi dövlət idarəetmə aparatının fəaliyyət prioritetləri aşağıdakılardır:

- dövlətin sosial siyasətinin məqsəd və vəzifələrini işləyib-hazırlamaq;
- bütün ölkə ərazisi üçün sosial sferada vahid davranış qaydalarını müəyyənləşdirmək;
- ümumi sosial təminat sistemi və səviyyələrinin (əmək haqqı, pensiya, müavinət, təqaüd, təhsil, tibbi xidmət) formalaşdırılması;
- dövlətin sosial siyasətini həyata keçirməsi üçün qanunvericilik bazasının işlənib-hazırlanması;
- böhran vəziyyətlərində regionlara yardım etmək.

Beləliklə, dövlətin sosial siyasəti dedikdə, ölkənin konkret tarixi inkişaf mərhələləri və müəyyən məqsədlərlə əlaqədar olan və müəyyən yekun nəticələr nəzərə alınmaqla təşkilati və maliyyə cəhətdən əsaslandırılmış dövlət fəaliyyəti başa düşülür.

Keçid iqtisadiyyatı dövründə müəyyən imtiyazlı qrupların, şəxslərin, yaxud bütöv bir sinfin maraqlarına xidmət edən sosial siyasətin aparılması təhlükəsi də istisna edilmir. Bu halda aparılan sosial siyasət bir qrup adamın, bir sinfin əhalinin yerdə qalan hissəsinə qarşı «iqtisadi genosid» hesabına varlanmasına xidmət edir. Belə vəziyyət əhalinin gəlirlərinin azalması, xalqın maraqlarının sıxışdırılması hesabına ilkin kapitalın toplanması, dövlətin sosial-əmək hüquqlarının konstitusion təminatı öhdəliyindən imtina etməsi, istismar münasibətlərinin hüquqi cəhətdən leqallaşması, sosial müdafiə taktikasından insanların, vətəndaşların sosial mövqeyinə, hüquq-

larına qarşı hücum taktikasına keçilməsi ilə müşahidə edilir. Göstərilən halda dövlətin sosial siyasəti vətəndaşların, zəhmətkeşlərin, təqaüdçülərin, əlillərin, tələbələrin maraqlarının müdafiəsi baxımında passiv, qeyri-kafi qiymətləndirilə bilər. Sonda bu siyasət əhalinin mütləq yoxsullaşması, əhalinin və cəmiyyətin tənəzzülü əlamətlərinin kəskinləşməsi, həyat tərzinin və həyatın keyfiyyətinin pisləşməsi, acınacaqlı vəziyyətə düşməsi, əmək ehtiyatlarının strukturunun deformasiyaya uğraması, strukturda «demoqrafik yoxsulluq» vəziyyətinin yaranması kimi ölkənin milli təhlükəsizliyi üçün qorxulu sosial problemlərin baş verməsi ilə nəticələnir. İnflyasiya düyününün açılması, əhalinin əsas hissəsi, xüsusilə orta təbəqənin hesabına islahatların yeni mərhələsinin keçirilməsi mümkünsüzləşir.

MDB məkanında bir çox iqtisadçıların qeyd etdiyi kimi, iqtisadi islahatların aparıldığı dövrdə sosial qeyri-bərabərlik əhəmiyyətli dərəcədə kəskinləşmişdir. Təbəqələşmənin yüksək səviyyəsi sosial sabitlik və tərəqqinin təminatçısı olan, eləcə də vətəndaşlıq cəmiyyəti institutlarını qərarlaşdıran orta sinif təbəqəsinin əhəmiyyətli dərəcədə çatışmaması ilə müşayiət olunur. Transformasiya dövrünün əvvəlində orta gəlirlərə (yerli standartlara görə) malik olan və cəmiyyətdə sabitləşdirici rol oynayan bir çox professional qrupların nümayəndələri (həkimlər, təhsil işçiləri, alimlər, mühəndislər) bu gün əksər hallarda «yeni yoxsullar» arasında yer almışdırlar. Yoxsulluq və sosial bərabərsizlik problemlərini müəyyən səviyyədə dövlətin sosial təminat orqanları yumşaltmağa çalışırlar. Məhz bu orqanların vasitəsilə yoxsullara yardım proqramları həyata keçirilir [130, səh. 68].

Yaranmış vəziyyət fəaliyyətin aşağıdakı prioritet istiqamətlər üzrə təkmilləşdirilməsini tələb edir: fəal məşğulluq siyasətinin aparılması; əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısını almaq, aztəminatlı ailələrin etibarlı sosial müdafiə sistemini təşkil etmək məqsədilə orta sinfin formalaşması istiqamətində gəlir və vergi siyasətinin aparılması; cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə qayıdış, onun əsaslarının

bərpası, yüksəlişinə nail olmaq, ailənin əsaslarının möhkəmləndirilməsi və bu istiqamətdə dövlətin bütün təsir, təhsil vasitələrindən, o cümlədən televiziya, incəsənət, ədəbiyyat, dinin imkanlarından istifadə edilməsi.

Sosial sabitlik – ölkənin iqtisadi təhlükəsizliyinin əsas qiymətləndirmə meyarlarından biri olub, dövlətin sosial subyektlər arasında yaranmış, baş verə biləcək münaqişələri vaxtında aradan qaldırmaq və baş verməsinin qarşısını almaq, maraqların qorunması və reallaşmasının etibarlı mexanizmlərini yaratmaq qabiliyyətini əks etdirən göstəricidir. İnsanların normal yaşayışı, həyat fəaliyyəti üçün iqtisadi imkanların məhdudluğu, onların maraqlarının qorunması və təmin edilməsi mexanizmlərinin qeyri-təkmil olması ölkədə sosial-iqtisadi inkişafın mühüm ləngidici amilinə çevrilən, ölkənin milli təhlükəsizliyi və iqtisadi təhlükəsizliyi üçün ciddi daxili təhdidə çevrilən və sosial sferanı bürüyən dərin böhranlara səbəb olur.

Dövlətin iqtisadi təhlükəsizlik strategiyasında əsas təhlükə amilləri sırasında birincisi əhalinin əmlak səviyyəsinə görə təbəqələşməsinin sürətlənməsi və yoxsulluq səviyyəsinin yüksəlməsidir. Bu meyil sosial sabitliyin, ictimai həmrəyliyin və sosial maraqlardakı balansın pozulması təhlükəsini yaradır. Sosial sferada qeyri-sabitliyə səbəb olan əsas amillər sırasına aşağıdakılar aiddir:

- cəmiyyətin varlılar və yoxsullar olmaqla iki təbəqəyə ayrılması; Birincilərə əhalinin az bir hissəsi, ikincilərə isə gələcəyə heç bir inamı olmayan və əhalinin böyük əksəriyyəti daxildir;
- kəndlə müqayisədə şəhərlərdə yoxsul əhalinin sayının çox olması. Bu nisbət olkədə sosial və kriminal gərginlik yaradaraq, narkomaniya, alkoqolizm, cinayətkarlıq, fahişəlik və s. kimi neqativ halların miqyasının genişlənməsinə səbəb olur.
- sosial münaqişələrə səbəb olan işsizliyin səviyyəsinin artması;
- əmək haqlarının ödənilməsinin ləngidilməsi, müəssisələrin fəaliyyətinin dayanması;

- cəmiyyətdə, təsərrüfat fəaliyyəti sferalarında və digər sahələrdə cinayətkarlıq elementlərinin çoxalması.

Sosial sferada iqtisadi təhlükəsizliyə qarşı yönələn təhdidlər sırasında iqtisadi xarakterli yaxın səbəblər çoxdur – müəssisələrin qeyri-sabit maliyyə vəziyyəti, qeyri – əlverişli investisiya mühiti və s.

İşsizlik, qeyri-ödəmələr, əhalinin təbəqələşməsi, cinayətkarlığın artması amilləri milli iqtisadiyyatın inkişafı, insan kapitalının, əmək potensialının təkrar istehsalı üçün birinci dərəcəli təhlükə mənbələri, təhdidlərdir. Lakin cəmiyyətin tənəzzülü prosesinin getdikcə dərinləşməsi və əhalinin sürətlə təbəqələşməsi də ölkə iqtisadiyyatı və milli təhlükəsizliyi üçün ciddi təhdidlərdir. Çoxcəhətli olmaları ilə yanaşı bu proseslərin getdikcə dərinləşməsi və sürətlənməsi ölkə üçün milli fəlakətə çevrilə bilir.

Yoxsulluq problemindən fərqli olaraq əhalinin və cəmiyyətin tənəzzülü prosesinin qarşısını almaq olduqca çətin bir məsələ olub, bütün ölkə həyatı üçün dağıdıcı təsirə malik amil kimi onun aradan qaldırılması dövlətin təxirəsalınmaz müdaxiləsinə böyük zərurət yaradır. Onu da qeyd edək ki, bu problemin həlli təkcə iqtisadi amillərlə deyil, eləcə də hər bir xalqın mənəvi-əxlaqi keyfiyyətləri, qədim adət-ənənəsi, dini, milli mentaliteti ilə birbaşa bağlıdır. İslahatlar və istehsal sferasındakı böhranlar cəmiyyətin parçalanma prosesinin ilkin səbəbi yox, bu prosesin katalizatoruna çevrilir.

Tənəzzülün iqtisadi islahatlara mümkün təsiri, cəmiyyətdə hərbi-siyasi sabitliyə qarşı yaradıcı təhlükə tam qiymətləndirilməmişdir. Bu problem dövlətin iqtisadi təhlükəsizlik stategiyasında özünəməxsus yer tutmalıdır. Bəzən bu, həqiqi təhlükə mənbələri sırasına aid edilməyərək, ona çətin, iqtisadi islahatların mənfi nəticələrinin aydınlaşdırılması qaydasında yanaşılır və əhalinin bir hissəsinin yoxsullaşması ilə əlaqələndirilir. Tənəzzul təhlükəsi ilə bağlı məsələ radikal islahatların əhalinin sosial vəziyyətinə mənfi təsirləri kontekstində qalldırır və yoxsulluğun qeyri-tipik, xüsusi halı kimi nəzərdən keçirilir. Bu mənada, cəmiyyət və əhali baxımından «tənəzzül»

anlayışının geniş şərhini vermək və onun meydana gəlməsi əlamətlərini müəyyən etmək olduqca vacibdir.

«Tənəzzül» anlayışı – bu və ya digər sosial subyektin məruz qaldığı dəyişikliyin mühüm tərkib hissələrindən biridir. Tənəzzülün əsas əlaməti subyektin (cəmiyyətin, əhalinin) nail olduğu erkən alışdığı sivil səviyyəsini itirməsidir. Cəmiyyətdə tənəzzül prosesinin ümumi əlamətlərinə aşağıdakıları göstərmək olar:

- əmək şəraitinin və mədəniyyətinin pisləşməsi, istehsalın dağılması;
- əməyə motivasiyanın dəyişməsi, əməyin həyatda uğur qazandırıcı amildən yaşayış vasitəsi amilinə çevrilməsi;
- əmək potensialının keyfiyyətinin aşağı düşməsi, bir çox sahələrin dağılması nəticəsində kütləvi halda öz ixtisaslarını itirmələri, ixtisaslı mütəxəssislərin az ixtisaslı əmək sahələrinə axını, təhsil almaq və istehsalda işləmək marağının azalması, işsizliyin geniş vüsət alması.
- real əmək haqqı səviyyəsinin azalması, əhalinin əksər hissəsinin həyat şəraitinin pisləşməsi, tələbatların və istehlakın ilkin tənəzzül şərti kimi kütləvi yoxsullaşma;
- sosial sferada vətəndaşların hüquqlarının qorunması və təminatı üzrə dövlətin funksiyalarının məhdudlaşması, sosial müdafiə mexanizmlərinin fəaliyyətinin pozulması nəticəsində vətəndaşların həyatı üçün sosial təhlükələrin, təhdidlərin və risklərin artması, sosial təminatların ləğvi, dövlətin onun üzərinə düşən sosial müdafiə rolundan imtina etməsi;
- milli-mənəvi sərvətlərin xarici təsirlər altında kütləvi aşınmaya məruz qalması; sosial-məişət sferalarının, kitabxanaların, idman meydançalarının, yaradıcılıq evlərinin fəaliyyətinin, pulsuz təhsil alma imkanlarının məhdudlaşması; səhiyyə sisteminin tənəzzülə uğraması və ekoloji təhlükəsizlik səviyyəsinin pisləşməsi;
- ailə-məişət münasibətlərinin keyfiyyətcə pisləşməsi, boşanmaların sayının artması;
- əxlaqi və mənəvi dəyərlərin tədricən sıradan çıxması, cəmiyyətdə, həyatda pulun hökmranlığının bərqərar olması,

israfçılığın, qəddarlığın, qanunsuzluğun təbliği və yayılması, geniş vüsət alması, şəxslərarası və əmək münasibətlərinin transformasiyaya uğraması;

- kölgə iqtisadiyyatının, korrupsiyanın, rüşvətxorluğun, fırıldaqçılığın miqyasının genişlənməsi, vətəndaşların əmək hüququnun və əmək qanunvericiliyinin kütləvi halda pozulması, vətəndaşların bir sıra vəzifə (orduda xidmət, vergi ödəmə və s.) icrasından yayınmaları.

Cəmiyyətdə tənəzzül prosesinin dərinləşməsini qiymətləndirmək üçün xüsusi göstəricilər sisteminin müəyyən edilməsi, onların hədd qiymətlərinin işlənib-hazırlanması tələb olunur. Bununla yanaşı cəmiyyətin tənəzzülü prosesi cəmiyyətin sosial strukturunu formalaşdıran müxtəlif sosial qruplarda və siniflərdə baş verən mümkün fərqli dəyişiklikləri nəzərə almaqla qiymətləndirmək vacibdir.

Cəmiyyətin tənəzzülə uğraması əlaməti kimi əhalinin yaşayış şəraiti keyfiyyətinin pisləşməsi, əhali arasında xroniki xəstəliklərin və ölümün səviyyəsinin artması, orta ömür müddətinin azalması, əhali arasında əlilliyin səviyyəsinin yüksəlməsi, kimsəsiz, sahibsiz və evsiz-eşiksiz uşaqların çoxalmasını göstərmək olar ki, bu da demoqrafik böhranlara səbəb ola bilər.

Mütəxəssislərin fikrincə, demoqrafik böhranların əsas təhlükəli əlaməti-doğum səviyyəsinin aşağı düşməsi və əhali ölümünün katastrofik həddə çatmasıdır, o cümlədən kişilər arasında yüksək ölüm səviyyəsi və uşaqlar arasında ölüm hallarının çoxalmasıdır. Demoqrafik proseslərdə baş verən neqativ meyilli dəyişikliklər ölkəni böhran vəziyyətindən çıxmasına mənfi təsir göstərməklə yanaşı, dövlətin geosiyasi maraqları üçün real təhlükə mənbəyinə çevrilərək, birbaşa milli təhlükəsizliyinə zərbə vurur.

Tədqiqatçıların fikrincə, makro, mikro və mezo səviyyələrdə bu və ya digər təsərrüfat qərarlarının (layihələrinin) reallaşdırılması zamanı istənilən yeniliyin iqtisadi təhlili potensial milli təhlükəsizlik müddəasına əsaslanmalıdır, eyni zamanda sosial-iqtisadi və ekoloji təhlükəsizliyə xüsusi diqqət yetirilməlidir. Buna görə də birincisi, tədqiq olunan obyektin

üstünlükləri, yaxud da çatışmazlıqlarının iqtisadi təhlili mütləq innovasiya layihəsinin, yaxud da qərarının verilən variantının reallaşdırılmasının məqsədəuyğunluğu haqqında ekspert rəyi qəbul olunanadək həyata keçirilməlidir; ikincisi, səmərəliliyin təhlilinin bütün mərhələlərində ölkənin sosial-iqtisadi, hərbi, ekoloji, demoqrafik və s. təhlükəsizliyinin təmin olunmasını nəzərə almaq və bu layihənin reallaşdırılmasının mümkün ola biləcək mənfi nəticələrini aradan qalldırmaq lazımdır; üçüncüsü, yüksək iqtisadi səmərəliliyin təmin olunması üçün dövlətin, regionların, sahibkar strukturlarının və bütövlükdə cəmiyyətin maraqlarının optimal səviyyəsinə nail olmaq xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün idarəetmə və təsərrüfatçılığın bütün səviyyələrində ölkənin sosial-iqtisadi strategiyası, proqramları və layihələrinin elmi-iqtisadi əsaslandırılmasının ən yüksək səviyyəsi tələb olunur. İstənilən layihənin reallaşdırılması o zaman məqsədəuyğun olar ki, bundan əldə olunan ictimai mənfəət, bütün digər eyni şərtlər altında, ictimai məsrəflərdən çox olsun [118, səh. 77].

Müasir dünyada cəmiyyətin və əhalinin tənəzzülü prosesləri həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsi, eyni zamanda əhalinin alıcılıq qabiliyyəti və istehlakının səviyyəsində tənəzzüllə bağlı öz aralarında sıx münasibətlərdədir. Əhalinin əmək haqqı səviyyəsinin aşağı olması əhalinin və işçi qüvvəsinin geniş təkrar istehsal proseslərinə əngəl törədir. Bu, işçini bir neçə yerdə işləməyə məcbur etsə də, onun ailəsinin tələbatı səviyyəsi yenə də təmin edilə bilmir, onun əmək haqqı səviyyəsi yaşayış minimumundan da aşağı səviyyədə olur. Statistik məlumatlara görə bu gün Azərbaycanda əhalinin 42%-i yoxsulluq səviyyəsindən aşağı şəraitdə yaşayır. Bu o deməkdir ki, əhalinin bu təbəqəsinin gəlirləri onların minimal tələbatlarının səviyyəsini təmin edə bilmir və onlara dövlət tərəfindən sosial yardımlar formasında kömək göstərilməlidir.

Əhalinin belə mütləq yoxsulluq səviyyəsində yaşaması gələcək nəslin inkişafına mənfi təsir göstərərək, millətin genofondunu zəiflədir. Yoxsulluq əhalinin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşmasını ləngidir, vətəndaşların yeni peşələrə

yiyələnmələrinə, ixtisaslarını artırmalarına mane olur, yoxsulluğun son həddində olan dilənçilik vəziyyəti yaradır, mənəvi düşkünlük yaradır, cinayətkarların, dilənçilərin sayı artır.

Kommunal xərclərlə bağlı qiymətlərin və tariflərin artması azgəlirli ailələrlə qidalanma xərclərinin azalmasını qaçılmaz edir.

Əhalinin kütləvi şəkildə yoxsulluşması, yoxsulluğun nisbi məzmundan mütləq həddə keçməsi, geniş vüsət alması ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün ikinci mühüm real sosial təhdid hesab oluna bilər. Bu, islahatların uğursuzluqla nəticələnməsi və sosial partlayış təhlükəsini doğurur. Dövlətin iqtisadi təhlükəsizlik strategiyasına daxil olan sosial məzmunlu təhdidlər bu iki təhlükənin sürətləndirici amili kimi qiymətləndirilməlidir. Bu da iqtisadi təhlükəsizliyin meyarları üzrə sosial siyasətin prioritetlərində düzəlişlər edilməsini tələb edir.

## 5.2. Əhali gəlirlərinin fərqlənməsi və onun iqtisadi mənafelərin reallaşmasına təsiri

İqtisadi təhlükəsizliyin sosial parametrləri tədqiq olunarkən bir çox ETİ-ları, xüsusilə REA-nın Sosial-Siyasi Tədqiqatlar İnstitutu iqtisadiyyatın vəziyyətinin, sosial sferanın, ekologiyanın, demoqrafik proseslər sahəsində cəmiyyətin siyasi münasibətlərinin qiymətləndirilməsinə və araşdırılmasına üstünlük verirlər [131, səh. 15].

Əhalinin gəlir səviyyəsində fərqlərin artması, həyat səviyyəsinin, sosial vəziyyətinin pisləşməsi belə demək mümkünsə, «yeni yoxsulluq ordusu»nun əmələ gəlməsi, əvvəllər orta təbəqədə qərarlaşmış intellektual peşə sahiblərinin və bir çox sahələrin nümayəndələrinin bu əhali qrupuna daxil olması ilə nəticələnir.

Yoxsul əhali qrupu işsizlik, qaçqınlıq və məcburi köçkünlər hesabına genişlənsə də, ağırlıq mərkəzi tədricən «işləyən» əhali qrupuna doğru yerini dəyişir. Lakin «işləyən» əhalinin aldıqları əmək haqqı, onların gəlirləri özlərinin və ailə üzvlərinin ərzaq təminatını belə ödəyə bilmir. Dövlət

sektorunda və büdcə sferasında belə gəlir səviyyəsi olan əhali qrupu vardır. Belə vəziyyət əhalinin yoxsul təbəqəsinin öz potensial imkanlarını reallaşdırmaqda iqtisadi bərabərsizliyi daha da dərinləşdirən uzunmüddətli xarakter alır və getdikcə ölkədə yoxsulluğun miqyası genişlənir.

Əhalinin az bir hissəsinin aid olduğu varlılar təbəqəsində isə öz vəzifələrindən, xidməti mövqelərindən istifadə edərək keçid dövründə dövlət mülkiyyətinin çox hissəsini öz maraqları çərçivəsində özəlləşdirən, ona sahib olan, eləcə də kölgə iqtisadiyyatı vasitəsilə fəaliyyət göstərən, ölkənin təbii ehtiyatlarını öz əlində cəmləyən məmurlar, dövlət adamları çoxluq təşkil edir. Bu qrupa həm də cinayətkar yollarla qazanc əldə edən, varlananlar da daxildir.

Gəlirlər səviyyəsində fərq keçid dövründə, islahatların aparıldığı illərdə daha sürətlə artır. Gəlirlərdəki fərqlərlə yanaşı, vətəndaşlar arasında bərabərsizlik dərinləşir. Mövqeyindən asılı olaraq, daha imkanlı təbəqə pul vəsaitlərinə, vəsait mənbələrinə daha asanlıqla yol tapır, həmçinin kapital toplamaq, vəsait yatırmaq (kapital qoymaq) və gəlirlərini vergidən gizlətmək üçün geniş imkanlara malik olurlar.

Struktur amilinin təsiri nəticəsində regionlar üzrə gəlirlərin qeyri-bərabər bölüşdürülməsi iqtisadi bərabərsizliyi daha da dərinləşdirir. Yəni regionlar arasında zəngin və yoxsul regionlar fərqlənirlər. Əhalinin pul gəlirləri içərisində əmək haqqının payının azalması nəticəsində daha qeyri-əlverişli vəziyyət insanların yaşayış səviyyəsində məhz əmək haqqı gəlirlərinin təsirinin böyük olduğu regionlarda, ərazilərdə, həmçinin aşağı rəqabətqabiliyyətli sahələrin, dominantlıq təşkil etdiyi regionlarda müşahidə olunur. Enerji xammalının qiymətlərinin dəyişməsindən fayda götürən regionlarda isə əks vəziyyət yaranır.

Əməyin ödənilməsi prinsiplərinin pozulması və əmək haqqının differensasiyasındakı ziddiyyətlər ciddi sosial təhlükə yaradır. Nəticədə istehlak qiymətlərinin artması fonunda tədricən əməyin qiyməti, dəyəri aşağı düşür. Bu da ödəməqabiliyyətli tələbin səviyyəsində, istehsalın həcminin genişlən-

məsi, onun səmərəliyinin yüksəlməsi, iqtisadi artım və texniki tərəqqinin səviyyəsinə mənfi təsir göstərir, həmin istiqamətlərdə tənəzzülə səbəb olur. Bütün bunlar iqtisadi artımın qarşısını alan əsas amillərdən birinə çevrilən əsassız gəlir siyasətinin nəticəsidir.

Yaranmış vəziyyəti aradan qaldırmaq, əhalinin yoxsullaşmasının qarşısını almaq üçün ölkədə dayanıqlı iqtisadi artıma nail olmaq lazımdır. Belə bir artım əhalinin adambaşına düşən ÜDM-in real həcminin sosial bazar təsərrüfatı modelindəki istehlak parametrlərinə yaxınlaşmasına kömək edə bilir.

Dünya təcrübəsi göstərir ki, ildə təxminən 2% həddində iqtisadi artım məğulluq səviyyəsini genişləndirməyə şərait yaradır və bunun əsasında da əhali gəlirlərinin ümumi artımı və vətəndaşların müvafiq kateqoriyalarının sosial müdafiəsini təmin etmək üçün zəruri maliyyə resurslarının həcminin artması baş verir.

F.İ.Hüseynovun qeyd etdiyi kimi, «Hazırda bazara transformasiya şəraitində bəşəriyyətin həll etməli olduğu əsas problemlər arasında məşğulluq, işsizlik və yoxsulluq problemləri mühüm yer tutur. Bu gün cəmiyyət bazar münasibətlərinə keçid dövrünü yaşayır. Belə bir şəraitdə bəşəriyyətin qarşısında duran və həll etməli olduğu sosial siyasətin əsasını məşğulluq, işsizlik və yoxsulluq problemləri təşkil edir. Bu problemlərin nəzəri-metodoloji aspektdə öyrənilməsi vacibdir. Müstəqil Azərbaycan Respublikasında da bu problemlərin öyrənilməsi və həlli yollarının müəyyən olunması qarşıya məqsəd olaraq qoyulmalıdır» [25].

Ölkədə nisbətən sosial sabitliyinə nail olmaq, yüksək gəlirlik səviyyəsini təmin etmək üçün mühüm məsələlərdən biri əhalinin yığımları problemidir.

Cəmiyyətdə yoxsullaşma maliyyə vəsaitlərinin çatışmazlığına şərait yaradan amillərdən biridir ki, bu da iqtisadi artımı ləngidir. Hiperinflyasiya nəticəsində əhalinin yığımlarının qiymətdən düşməsi adambaşına düşən gəlirlərinin və real əmək haqqının kəskin şəkildə azalması dövriyyə vəsaitlərinin

yığım imkanlarını minimuma edirir və vətəndaşların yığım formalarını dəyişir. Yığımlar üzrə aşağı faiz dərəcələri və inflyasiya nəticəsində vəsaitlərin qiymətdən düşməsi riski vətəndaşların topladıqları vəsaitləri, kapitalı xaricə çıxartmağa sövq edir. Onu da qeyd edək ki, inkişaf etmiş ölkələrdə ev təsərrüfatlarının banklarda və qeyri-bank strukturlarında yerləşdirdikləri pul ÜDM-in illik həcmini əhəmiyyətli dərəcədə artırır ki, bu da iqtisadi artıma əlverişli əsas yaradır.

Əhaliyə borcların qaytarılması iqtisadi çətinliyin aradan qaldırılması və əhalinin dövlətə və əmanətlər toplayan institutlara inamının artmasına müsbət təsir göstərir. Eyni zamanda bu, mühüm sosial aksiya cəmiyyətin sosial strukturundakı qeyri-bərabərliyi, əhalinin böyük bir hissəsinin, xüsusən təqaüd yaşında olan yaşlı əhali təbəqəsinin yoxsulluğunu aradan qaldırmaq üçün mühüm addımlardan biridir. Onu da qeyd etmək yerinə düşərdi ki, istehsalın inkişafı və iqtisadiyyatın yüksəlişi təmin olunanadək dövlətin aztəminatlı ailələrə himayədarlığı, yardımı, yoxsulluğa qarşı mübarizə proqramının işlənib hazırlanması və həyata keçirilməsi dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi mühüm iqtisadi-sosial addım olardı.

Yoxsulluq cəmiyyəti tənəzzülə uğradıcı təhlükələrdən biri olub, onunla mübarizə olduqca əhəmiyyətli sosial vəzifələrdəndir.

Dövlətin yoxsulluğun qarşısı alınması məqsədilə həyata keçirdiyi siyasətin əsas istiqamətlərinə aşağıdakılar aiddir:

- birincisi, makroiqtisadi sahələr üzrə sabitləşmə və dayanıqlı iqtisadi artım siyasətinin həyata keçirilməsi. Bu məşğulluğun genişləndirilməsi və minimal əmək haqqının orta yaşayış minimumu səviyyəsinə yaxınlaşdırılması, əməyin qiymətinin, dəyərinin artırılması, əmək haqqı və əhalinin digər ödəmələr üzrə borcların ləğvi istiqamətində qətiyyətli əsas yaradır;
- ikincisi, dövlətin sosial prinsiplərinə uyğun minimal sosial təminatlar sisteminin formalaşdırılması, təşkil edilməsi;

- üçüncüsü, yoxsul əhaliyə sosial yardım sisteminin yaradılması, bazar iqtisadi sisteminə keçidlə əlaqədar yoxsulluq həddində yaşayan əhaliyə ünvanlı sosial yardımların müxtəlif formalarını tətbiq etmək, sosial təminatlar sahəsində sabitliyin təmin olunması, vergi güzəştləri, ucuz kreditlər, dotasiyalar ayrılması yolu, münasib qiymətlərə istehlak mallarının istehsalını stimullaşdırmaq yolu ilə əhalinin azgəlirli təbəqəsinin onların gəlirlərinə uyğun səviyyədə öz tələbatlarını təmin edə bilmələri üçün şəraiti yaratmaq.

Birinci dərəcəli əhəmiyyətə malik vəzifə-birbaşa sosial yardımlar və qoruyucu tədbirlər vasitəsilə real gəlirlərin azalmasının qarşısını almaq, onların sabitləşməsini təmin etmək, sonra bu gəlirlərin artım tempini sürətləndirmək, onların qiymətlər artımını ötüb keçən, üstələyən yüksəlişini təmin etməkdən ibarətdir. Bu, investisiya fəallığını artırmaq, istehlak tələbini canlandırmağa, yoxsulluq probleminin kəskinliyini azaltmağa imkan verir.

Əhalinin gəlirlərinin tənzimlənməsi və cəmiyyətin sosial strukturunun optimallaşdırılması yönündə həyata keçirilən siyasətdə əsas diqqət əhalini böhran vəziyyətindən, «koma halın»-dan çıxarmaq məqsədi ilə bölgü təyinatlı tədbirlər həyata keçirtmək yolu ilə gəlirlərin tarazlaşdırılmasına, bərabərləşdirilməsinə yönəlməlidir. Bu, fiziki şəxslərdən vergi tutulması rejimi və vergi sisteminə uyğun iqtisadi mexanizmin yaradılmasını, varlı adamların pul gəlirləri həcminin və xüsusi sektorda və kölgə iqtisadiyyatı vasitəsilə dövlətdən gizlədilən gəlirlərin dəqiq hesaba alınması üsulunun tapılmasını, vicdanlı vergi ödəyicilərinə qarşı vergi təzyiqinin artmasına yol verməməyi tələb edilir.

Bu mənada yüksək gəlir səviyyəsinə malik əhali təbəqəsinə mütərəqqi vergi tutumuna əsaslanaraq şəxsi gəlirdən vergi tutulması prinsiplərini dəqiqləşdirmək, gəlirlərin gizlədilməsinə görə yüksək cərimə sanksiyalarının tətbiqi, ailə amilinin nəzərə alınması (ailədə kimisə öhdədə saxlamaq), gəlirlərin hesablanmasına kompyuterlərin tətbiqi vacibdir. Əmək haqları və sahibkarlar gəlirindən tutulan vergilərin də-

qiq bölgüsünü aparmaq, muzdlu işçilər, fermerlər, ailə və fərdi təssərüfatlardan vergi tutumları zamanı daha aşağı başlanğıc xəttini müəyyən etməklə cəmiyyətdə gəlirlərin tarazlaşdırılmasına, orta sinfin formalaşmasına kömək etmək olar.

Yoxsulluğun miqyasının məhdudlaşdırılması ilə bağlı tədbirlər sırasında real əmək haqlarının artırılması, əmək haqları, təqaüdlər, pensiyalar, müavinətlər üzrə borcların ləğvi xüsusi yer tutur.

Real gəlirlərin azalması və vətəndaşların yoxsullaşmasına əks təsirli tədbirlər sırasında qiymətlərin artımına uyğun olaraq indeksasiya yolu ilə əhalinin real pul gəlirlərinin dəyərini qoruyub saxlamaq, itkilərin eyni vaxtda artım metodu vasitəsilə kompensasiya olunması, yaşayış minimumunun dəyişməsinə uyğun olaraq pul gəlirlərinin minimal səviyyəsinin təkrar nəzərdən keçirilməsi də daxil edilməlidir.

Ən çətin məsələlərdən biri də yoxsulluq həddində yaşayan imkansız əhali qrupuna sosial yardım və onların sosial müdafiəsi ilə bağlı mexanizmlərin işlənib-hazırlanmasına, eləcə də dövlət tərəfindən sosial yardımlar məqsədi ilə ayrılan maliyyə vəsaitlərinin xərclənməsində (mənfi mənada) bərabərçiliyə yol verməməklə bağlıdır. Problemin həllinə prinsipial yanaşma ehtiyac səviyyəsinin nəzərə alınması ilə birbaşa ünvanlı sosial yardım göstərilməsi ehtiyacı olanların seçiminin əsaslandırılmasıdır. Eyni zamanda bu məqsədlər üçün ayrılmış maliyyə vəsaitlərindən israfsız istifadəyə yol verməmək, ölkənin bütün regionlarında belə yardımların alınmasının sabitliyini təmin etmək məsələsi də prinsipial əhəmiyyət kəsb edir. İşsizliyin səviyyəsinin artması yoxsulluğun və sosial qeyri-sabitliyin dərinləşməsinə səbəb olan amil kimi iqtisadi təhlükəsizlik üçün daha ciddi təhdidlar sırasına daxil edilməlidir.

Bu barədə R.Muradov yazır: «Hər bir ölkədə əhalinin məşğulluq səviyyəsi, əvvəla, burada mövcud olan əmək qabiliyyətli əhalinin hamısının, yoxsa onların bir hissəsinin ictimai istehsalda müxtəlif sosial qruplara məxsus olan əhalinin iştirakının nə səviyyədə olmasını göstərir» [40, səh. 224].

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq sahələrin strukturunun yenidən qurulması, bir çox müəsisələrin öz fəaliyyətlərini dayandırması, müflisləşməsi işsizliyin səviyyəsini kəskin sıçrayışla artırır və ölkədə işsizlərin sayını çoxaldır. Bu, fəaliyyət göstərən təsərrüfat mexanizminin işsizliyin sosial nəticələrini yumşaltmaqda zəif cəhətlərindən irəli gəlir. Kadrların hazırlığı sistemi ixtisasının artırılması, yeni ixtisasa yiyələnmə ilə bağlı irəli sürülən tələblərə çətin uyğunlaşır. İşsizliklə bağlı verilən müavinətlərin səviyyəsi yaşayışı təmin edə bilmir. Məşğulluq fonduna ödəmələrlə bağlı yaranan problem işsizlik üzrə müavinətlərin verilməsini ləngidir.

İşsizlik probleminin kəskin xarakter almasında bir sıra əlavə səbəblər də rol oynayır. Burada ailələrin maddi təminat səviyyəsinin aşağı olması; əhalinin əmanətlərinin, yığımların hiperinfliyasiya nəticəsində dəyərdən düşməsi; müqavilə əsasında işə götürmə formasının zəif inkişaf etməsi; işsiz əhali arasında qadınların üstünlük təşkil etməsi – bu, daha çox ailə başçısı qadınlar olan ailələrdə vəziyyəti gərginləşdirir. Ölkədə intellektual potensialın dəyərdən düşməsi ixtisaslı əmək sahiblərinin işə düzəlməsini çətinləşdirir. Müəssisələrdə əmək haqlarının, eləcə də təqaüdlərin və sosial müavinətlərin ödənişinin ləngidilməsi dərhal ailələrin maddi vəziyyətini gərginləşdirir, onları yoxsulluq həddinə gətirib çıxarır.

İşsizlik probleminin kəskinləşməsi nəticəsində ailələrin gəlir mənbəyinin məhdudlaşması, gəlir səviyyəsinin azalması istehsalda tənəzzül prosesinə səbəb olur, əmtəə və xidmətlərə olan tələbin məhdudlaşması amilinə çevrilir və vergi daxilolmalarının həcmi aşağı düşür. Digər tərəfdən işsizliyin səviyyəsinin artması cinayətkarlıq və özünəqəsd hallarının çoxalması ilə nəticələnir. ABŞ-ın Jon Hopkunc universitetində aparılan tədqiqatların nəticələrinə görə işsizliyin səviyyəsinin 1% artmasının özünəqəsd hallarının 4,1%, cinayətkarlıq hallarının isə 5,7% artmasına səbəb olur, ÜDM-in həcmi isə 4,5% azalır. Belə faciəli halların qarşısının alınması məqsədi ilə sosial-iqtisadi islahatlar strategiyasında aztəminatlı ailələrə sosial yardımlar üçün maliyyə vəsaitləri mənbələrinin axtarıb

tapılması yox, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin açılması, mövcud iş yerlərinin saxlanılması isdiqamətində siyasi kurs davam etdirilməlidir.

Məşğulluq siyasəti əmək potensialında tam istifadəyə və əmək qabiliyyətli əhalinin işgüzar fəallığına şəraitin təmin edilməsi istiqamətinə yönəlməlidir. Bu, əhalinin yoxsullaşmasının və kütləvi işsizliyin baş alıb getməsinin qarşısını alır, rəqabət mühitində vətəndaşın məhsuldar davranışını stimullaşdırır. Orta müddət üçün nəzərdə tutulan sosial-iqtisadi inkişaf proqramında müəssisələrdə artıq ehtiyat halında işçi qüvvəsi saxlanılması və gizli işsizlik səviyyəsinin artmasına qarşı məhsuldar məşğulluğun təmin edilməsi üzrə tədbirlər sistemi nəzərdə tutulmalıdır. Söz yox ki, bu problemlər makro, mezo və mikro səviyyələrdə həll edilməlidir.

İqtisadi təhlükəsizlik məşğulluğun səmərəliliyi, məşğul əhalinin öz əməyi, onun nəticələri ilə bütün ölkə əhalisi, o cümlədən uşaqlar, yaşlılar, əmək qabiliyyətini itirənlər, müvəqqəti işləməyənlərin və başqalarının normal həyat səviyyəsini təmin edə bilmə qabiliyyətindən asılıdır. Bu cəhət, məhz məşğul əhalinin himayəçilik yükünün həcmini səviyyələndirir, yəni faktiki işləyən əhalinin himayəsində olan əhalinin sayını göstərir.

Vətəndaşların sosial və iqtisadi hüquqlarının təmin edilməsi dövlətin əsas funksiyalarından və iqtisadi siyasətinin mühüm vəzifələrindən biridir. Lakin burada çətinlik törədən əsas məsələ dövlətin maliyyə imkanları ilə iş yerlərinə olan tələbat arasında balansın təmin edilməsidir. Bir məsələni də qeyd edək ki, məşğulluq makroiqtisadi tənzimlənmənin inteqral hissəsi, regionlarda və bütövlükdə ölkədə sosial və iqtisadi problemlərin fəal və effektiv həlli vasitəsidir.

Məşğulluğun təmin edilməsində qeyri-dövlət sektorunun inkişafı, genişlənməsi də müsbət rol oynayır. Əmək bazarında mühüm sabitləşdirici amil olan yeni iş yerlərinin yaradılmasında investisiya proqramlarının səthi yanaşılmasına ölkənin iqtisadi təhlükəsizliyinə qarşı ciddi təhdid, qorxu yaradır.

İş yerlərinin saxlanması və kütləvi işsizliyin qarşısının alınmasında əmək proteksionizmi siyasətinin həyata keçirilməsi, milli əmək bazarının qorunması üzrə tədbirlər sistemi işlənib hazırlanmalıdır. Bu, maliyyə, texnoloji, struktur, sənaye, ixrac-idxal siyasətinin formalaşması zamanı dövlət orqanları qarşısında yeni istehsalçıların maraqlarının nəzərə alınması, məhsuldar məşğulluğun stimullaşdırılması və təmin edilməsi üçün investisiyalar cəlb edilməsi kimi mühüm vəzifələr irəli sürür.

Məşğulluq sferasında nisbi sabitliyin qorunması və saxlanılması, məşğulluğun artırılması sahəsində regional səviyyədə tədbirlərin işlənib-hazırlanması və həyata keçirilməsində region subyektlərinin cavabdehliyinin və məsuliyyətinin artırılması yeni iş yerlərinin yaradılması ilə bağlı regional proqramların işlənib-hazırlanması və həyata keçirilməsi əhəmiyyətini artırardı. Bu proqramda iş qüvvəsinə olan tələbin fəallaşdırılmasının bütün bazar vasitələri daxil edilməlidir. Onu da qeyd edək ki, belə regional proqramlar ölkə üzrə inkişaf proqramının tərkib hissəsidir. Məşğulluğun təmin edilməsi üzrə regional proqramların təsir gücünün artırılması üçün qanunvericilik və normativ aktlara uyğun olaraq islahatlar strategiyası və makroiqtisadi siyasətin prioritetlərində müsbət düzəlişlərin həyata keçirilməsi prinsipial əhəmiyyət kəsb edir. Bu düzəlişlər sırasına aşağıdakılar daxildir;

- sahibkarların yeni iş yerlərinin açılması ilə bağlı investisiya fəallığının artırılmasını stimullaşdırmaq;
- istehsal sahələrinin yenidən qurulması, texniki cəhətdən silahlanması, istehsal sferalarına məxsus kiçik sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində kreditlərin cəlb edilməsi üçün əlverişli şərait yaratmaq;
- yerli istehsalçıları xarici və inhisarçı rəqabətdən qorumaq və ölkədə normal fəaliyyəti təmin edəcək sağlam rəqabət mühitini təmin etmək;
- regional məşğulluq problemlərinin həllində milli-dövlətçilik maraqlarının prioritetlərinin reallaşmasında ictimai

xarakterli işlərin təşkili səviyyəsini və statusunu, rolunu yüksəltmək;

- ilkin sağlamlaşma mərhələsi keçən müəssisələrə məşğulluğun təmin edilməsi və kadr hazırlığının təkmilləşdirilməsi istiqamətində kömək etmək;

Bu istiqamətlərdə aparılan işlər söz yox ki, ölkədə geniş miqyaslı işsizliyin qarşısının alınması üzrə fəal şəkildə tədbirlərin həyata keçirilməsi zərurətinə və məşğulluq prinsiplərinə əsaslanan iqtisadi təhlükəsizlik maraqlarına cavab verməlidir.

## 5.3. Yoxsulluğun azaldılması və ərzaq təhlükəsizliyinin təmin olunmasının milli mənafelərin qorunmasındakı rolu

İqtisad elmində belə bir fikir formalaşmışdır ki, yoxsulluğun davamlı olaraq azaldılmasında iqtisadi artıma nail olmaq həlledici əhəmiyyət kəsb edir. Lakin dayanıqlı iqtisadi artıma nail olmaq o qədər də asan olmadığı üçün, bu proses uzunmüddətli olduğuna görə yoxsulluq həddində yaşayan insanlar üçün onları belə vəziyyətdən çıxarda biləcək və həyatlarında əhəmiyyətli dəyişikliklər edəcək iqtisadi artım prosesinin nəticələrini uzun illər gözləmələri nəinki çətin, hətta acınacaqlı olardı. Bu mənada çox sürətlə yayılmış yoxsulluq problemini aradan qaldırmaq üçün xüsusi strategiya işlənib-hazırlanmalıdır.

Yoxsulluq təkcə gəlir və istehlak səviyyəsi deyil, həmçinin təhsilin, tibbi təminatın, mədəni həyatın aşağı olması, kifayət qədər qidalanmamaq kimi başa düşülür. Belə adamların onları əhatə edən mühit, hadisələr qarşısında aciz və gücsüz qalmaları, səsvermə hüquqlarının olmaması, daimi qorxu içində olmaları, özlərini müdafiəsiz hiss etmələri bu problemin ölkənin  hər bir vətəndaşı və bütövlükdə ölkə üçün yaxşı gələcək, sağlam nəsil, qloballaşan dünyayla ayaqlaşa bilmək vəd etmir. Ona görə də yoxsulluq çoxcəhətli problem olduğu üçün, onunla mübarizə ayrı-ayrı istiqamətlər üzrə, lakin kompleks xarakterdə aparılmalıdır. Real məqsədlər formalaş-

dırılmalı və onları elmi cəhətdən əsaslandırmaq, yoxsulluq vəziyyətinin diaqnostik təyini üçün göstəricilər sistemi müəyyənlədirilməli və proqramın reallaşma monitorinqi təyin edilməli və nəticələr qiymətləndirilməlidir. Yoxsulluq probleminin kompleks həlli üçün vahid konseptual əsas yaratmaqla, hər bir ölkənin regionun spesifik xüsusiyyətlərini nəzərə alaraq yoxsulluğun azaldılmasının xüsusi strategiyası işlənib-hazırlanmalıdır. Yoxsulluq bütün iqtisadi sistemlərlə əlaqədar və bütün dövrlər üçün xarakterik hadisədir.

Cəmiyyətdə kütləvi yoxsulluq o halda baş verir ki, gəlirlər qeyri-bərabər bölüşdürülür. Kütləvi yoxsullaşmanın, pauperizmin səbəbləri müxtəlif zamanlarda fərqli olmuşdur. Qədimlərdə və orta əsrlərdə pauperizmin əsas səbəbləri qıtlıq, epidemiyalar, daşqınlar, yanğınlar, müharibələr idi. Hətta orta əsrlərdə demək olar ki, bütün təhkimçi kəndlilər xroniki yoxsulluq həddində yaşayırdılar, yəni baş verən xırda bir səbəbdən kəndlilər arasında aclıq, qıtlıq vüsət alırdı. Lakin bu gün yoxsulluq qlobal  xarakter daşıyır.  SPİD, narkomaniya, cinayətkarlıq, ətraf mühitdə baş verən bədbəxt hadisələr, texnogen faciələr, təbii fəlakətlər, terrorizm heç bir sərhəd tanımır. Təkcə 2000-ci ildə beynəlxalq miqyasda 26  müharibə baş vermiş və bunun nəticəsində 26 mln. insan qaçqın olmuşdur.

Yoxsul əhalinin sayı hər il durmadan artır. Günü 2 dollara yaşayan insanların sayı hər il 80 mlrd. nəfər artır. Dünya Bankının 1999-2000-ci illər dünyanın iqtisadi inkişafı haqqında hesabatında qeyd olunur ki, 3-cü minilliyin başlanğıcında təxminən 1,5 mlrd. adam günü 1 dollara bərabər səviyyədə yaşamaq məcburiyyətində qalacaqlar. 2015-ci ildə yoxsulluq həddindən aşağı səviyyədə yaşayanların sayı 1,9 milyarda çatacaq ki, bu da Yer Kürəsi əhalisinin üçdə birini təşkil edəcək. Buna əsaslanaraq belə bir nəticə çıxarmaq olar ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əhalilərinin gəlirləri arasında fərq getdikcə artır. Hesabatda o da qeyd olunur ki, artan yoxsul əhalinin əksər hissəsi şəhərlərdə toplanacaqdır.

Deməli, belə qənaətə gəlmək olar ki, yoxsulluq problemi gələcəkdə beynəlxalq maliyyə institutlarının fəaliyyətində prioritet istiqamətlərdən olacaqdır.

Yüksək gəlir səviyyəli ölkələrdə 100 uşaqdan biri 5 yaşadək yaşayır, yoxsul ölkələrdə isə bu 100 uşaqdan 5 nəfərdir. İnkişaf etmiş ölkələrdə doğulan uşaqların 5%-dən azı 5 yaşadək yarıac-yarıtox yaşamaq məcburiyyətində olduğu halda, zəif ölkələrdə belə vəziyyət uşaqların 50%-ə qədərini əhatə edir.

Qlobal problem olan yoxsulluq dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsi ilə birbaşa əlaqədardır. 20 ən zəngin ölkədə orta gəlir səviyyəsi 20 yoxsul ölkədəki orta gəlir səviyyəsindən 37 dəfə yüksəkdir. Son 40 ildə bu fərq 2 dəfə artmışdır.

Yoxsulluq problemi müxtəlif dünya ölkələrində fərqli xüsusiyyətlərə malikdir. Şərqi Asiya ölkələrində günü 1 dollara yaşayan əhalinin sayı 1987-ci ildə 420-mln-dan 1998-ci ildə 280 mln-dək azalmışdır. Lakin Cənubi Asiyada, Latın Amerikası ölkələrində, Afrika ölkələrində yoxsulların sayı durmadan artır. Şərqi Avropa, Orta Asiya ölkələrində də yoxsul əhalinin sayı artır.

Ölkələr daxilində də yoxsulluğun yayılması fərqli cəhətlərə malikdir. Afrikanın bəzi ölkələrində uşaq ölümü üzrə ən aşağı göstərici siyasi cəhətdən güclü etnik qruplarda müşahidə edilir. Latın Amerikasında yerli əhali gəlmələrə nisbətən daha aşağı təhsil səviyyəsi alırlar. Cənubi Asiyada qadınlar kişilərə nisbətən 2 il az təhsil alırlar, orta təhsil müəssisələrinə daxil olan qadınların sayı kişilərin üçdə iki hissəsini təşkil edir.

Hal-hazırda 800 mln. yaxın insan, yaxud dünya əhalisinin 14%-i minimum səviyyədə belə ərzaqla təmin edilmir və 0,5 mlrd. insan xroniki olaraq yarıac-yarıtox vəziyyətindədir, onlardan üçdə birini uşaqlar təşkil edir. 1,3 mlrd. adam, yəni dünya əhalisinin 22%-i təmiz içməli suya böyük ehtiyac duyur, 2 mlrd. (34%) antisanitariya şəraitində yaşamağa məcburdur və 2mlrd. əhali elektrik enerjisindən məhrumdur. Beynəlxalq kənd təsərrüfatı məsləhət qrupunun tədqiqatlarına görə əkin yerləri 40% tükənmişdir və rekultivasiyaya ehtiyac duyulur.

Yaxın 25 ildə dünya əhalisinin dörddə biri su çatışmamazlığından əziyyət çəkəcəkdir, dünya miqyasında istehlakın təxminən 80%-i əkinçiliyin payına düşür. Dünyada kənd təsərrüfatı əvvəlki kimi ekologiyanın pisləşməsi və yoxsulluq arasında əlaqələndirici həlqə kimi qalır.

Əhalinin ərzaq təhlükəsizliyi problemi XX əsrin 70-ci illərində inkişaf etməkdə olan ölkələrdə baş verən sosial-iqtisadi proseslərlə əlaqədar olaraq dünya ictimaiyyəti tərəfindən güclü müzakirə predmetinə çevrildi. O zamanlar qlobal ziddiyyət meydana gəlmişdi. İnkişaf etmiş ölkələrdə ərzaq məhsullarının ifrat istehsalı bir sıra 3-cü dünya ölkələrində əhalinin kütləvi aclığı və yeməməzliyi ilə müşayiət olunurdu [91, səh. 9].

Dünya Bankının proqnozlarına görə planetin əhalisi 2025-ci ildə 3 mlrd. nəfər artacaq. Bu, əsasən Asiya regionları hesabına baş verəcək. 3 mlrd. insan qlobal su ehtiyatları böhranı ilə üzləşəcək və su çatışmazlığından əziyyət çəkəcək, urbanizasiya böhranı olacaqdır ki, nəticədə də yaxın 30 ildə şəhər əhalisi 3 dəfə artacaq. 2020-ci ildə Afrika əhalisinin üçdə ikisi bu gün heç də iqtisadi artım müşahidə edilməyən şəhərlərdə yaşayacaqdır. Yaxın 15 ildə dünya əhalisini ərzaqla təmin etmək üçün ya məhsuldarlığı 3 dəfə artırmaq, yaxud da əkin sahələrini 3 dəfə artırmaq lazım gələcək, lakin reallıq budur ki, əksər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı orta hesabla 50%-i təşkil edəcəkdir. Yaxın 30 ildə ərzaq məhsullarının istehsalı yalnız 2 dəfə artacaq. Deməli, demoqrafik böhran, qlobal su ehtiyatları böhranı, urbanizasiya probleminə ərzaq böhranı da əlavə olunacaq.

Aparılan tədqiqatlar göstərir ki, yoxsulluq problemin həlli ilə bağlı müsbət proseslər, meyllər baş vermişdir. Bunu aşağıdakı cədvəldən görmək olar.

**Cədvəl 5.3.**

**20 il ərzində yoxsulluğun səviyyəsinin azalmasını göstərən bəzi göstəricilər [187]**

| Göstəricilər | 1985 | 2005 |
|---|---|---|
| Uşaqların ümumi say tərkibində ibtidai siniflərdə təhsil alan uşaqların sayı | 10 nəfərdən 8-i | 10 nəfərdən 9-u |
| İbtidai siniflərdə təhsil alan oğlan və qızların say tərkibi | 10 nəfərə 7,3 | 10 nəfərə 8,6 |
| Uşaq ölümü | 1000 nəfərə 101 | 1000 nəfərə 61 |
| İçməli suya ehtiyacı təmin olan insanların sayı | 10 nəfərə 4 | 10 nəfərə 6 |
| Ailədə uşaqların orta sayı | 4,7 | 3,0 |

Aşağıdakı cədvəldən kasıb və zəngin ölkələrdə yoxsulluğun səviyyəsi bir sıra göstəricilər üzrə müqayisə edilmişdir.

**Cədvəl 5.4.**

**Yoxsul və zəngin ölkələrin fərqli iqtisadi inkişaf səviyyəsi [187]**

| | 34 yoxsul ölkə | 33 varlı ölkə |
|---|---|---|
| Yoxsulluq həddində yaşayan əhali, % | 37 | 6 |
| 15-24 yaşda əhali arasında savadlılıq səviyyəsi, % | 50 | 99 |
| 5 yaşadək uşaqlar arasında ölüm səviyyəsi, (1000 nəfərə) | 175 | 17 |
| Doğum əmsalı | 6,1 | 1,5 |
| İçməli suya tələbatı təmin etmə imkanı, % | 37 | 94 |

Son bir neçə 10 il ərzində aşağı gəlir səviyyəsinə malik ölkələrdə zəif sürətlə yoxsulların sayının azalması beynəlxalq təşkilatları ciddi təhlillər aparmağa sövq etmişdir. Burada əsas məqsəd aşağı gəlir səviyyəsinə malik ölkələrdə yoxsulluğun azaldılması və iqtisadi artıma kömək edəcək sosial-iqtisadi siyasətin prioritetlərini müəyyənləşdirmək olmuşdur.

Analitiklərin fikrincə, burada iki istiqamət üzrə fəaliyyət göstərmək lazımdır: daxili siyasət və xaricdən yardımlar, yəni söhbət iki problem qrupundan gedir; yoxsulluğun azaldılmasında təsirli planın aşkar olunması, göstərilməsi; xarici

partnyorlarla və xaricdən yardım göstərilməsinə münasibətdə konkret dəyişikliklərin edilməsi zərurəti.

İnkişaf etməkdə olan yoxsul ölkələrdə yoxsulluq səviyyəsinin azaldılmasının milli planı xarici partnyorlar tərəfindən maliyyələşdirilən xərclərin qənaətbəxşliyini və texniki məsləhətlərin səmərəliliyini artıra bilir.

Yoxsulluq səviyyəsinin qiymətləndirilməsi ilk növbədə yoxsulluq həddinin müəyyən edilməsini tələb edir. Müxtəlif əmtəələrin istehlak səviyyəsi az və ya çox dərəcədə uzunmüddətli perspektivdə insanın sağ qalmasına birbaşa dəlalət edir. Bundan başqa, yoxsul ölkələr də daxil olmaqla əksər cəmiyyətlərdə «yoxsulluq» anlayışı yaşayış üçün lazımi minimum çərçivəsində kənara çıxır. «Yoxsulluğun həddi» anlayışı ilk dəfə 1970-ci ildə qəbul edilmişdir. Yoxsulluğun müəyyənləşdirilmiş həddindən bir qədər aşağı tərzdə yaşayan insanın bu həddən bir qədər yuxarı tərzdə yaşayan insana nisbətən pis həyat səviyyəsinə malik olması fikrinə əsaslanaraq bəzi konsepsiyalar «yoxsulluq həddi» anlayışını qəbul etmirlər.

MDB ölkələrində isə yoxsulluğun mütləq həddi qəbul edilmişdir. Mütləq yoxsulluq insanın yemək, su, geyim və sığınacağa olan minimal fizioloji tələbat səviyyəsini qiymətləndirmək imkanını nəzərdə tutur. Burada sosial-mədəni tələbatlar deyil, məhz fizioloji tələbat əsas götürülür. Mütləq yoxsulluq o zaman aşkar olunur ki, insan geyim, ərzaq, yemək, sığınacaq əldə etmək imkanından məhrum olur, yaxud onu itirir və onun həyat tərzi bu səviyyədən aşağı olur. Mütləq yoxsulluq həddini təyin etmək üçün ərzaq səbətinin tərkibi və onun dəyəri müəyyən edilməlidir. Nisbi yoxsulluq konkret cəmiyyətdə, konkret dövrdə ümumi qəbul edilmiş həyat tərzilə, səviyyəsilə müəyyən edilir. Bu, minimal fizioloji tələbatla təyin edilmir.

Yoxsulluq problemi heç də bütün ölkələrdə keyfiyyətcə oxşar deyildir. Yoxsulluq anlayışının birmənalı, ümumi qəbul edilmiş, elmi cəhətdən əsaslandırılmış dürüst tərifi yoxdur və ola da bilməz. Problemin sosial, iqtisadi və psixoloji tərəfləri ilə yanaşı, o siyasi əhəmiyyət, məzmun da kəsb edir. Bu, siyasi

mübarizə gedişində konkretləşir və modifikasiyaya uğrayır. Yoxsulluq anlayışı sadəcə olaraq cəmiyyətdəki vəziyyəti əks etdirmir, o, eyni zamanda yaranmış vəziyyətin qəbuledilməzliyini, yolverilməzliyini, hadisənin özünün aradan qaldırılma zəruriliyini göstərir. Dövlətin sosial siyasəti yoxsulluq anlayışının məzmununun şəklini dəyişir.

İnkişaf etmiş ölkələrdə yoxsulluq problemi inkişaf etməkdə olan ölkələrdə olduğundan əhəmiyyətli dərəcədə fərqlənir. Bu, birincilərə nisbətən ikincilərdə belə proqramların ya hələ ibtidai səviyyədə olması, yaxud da tamamilə olmaması səbəbindən irəli gəlir.

Yoxsulluğun mütləq həddi-dəqiq təyin edilmiş yaşayış minimumudur. Belə yanaşma problemin mahiyyətini, miqyasını məhdudlaşdırır və əlavə tədqiqatların aparılmasına imkan vermir. Mütləq yoxsulluq həddinə – orta güzəran səviyyəsinin dəyişməsindən asılı olmayaraq bir qədər ümumi həyat səviyyəsi kimi baxmaq məqsədəuyğun olardı, nisbi yoxsulluq həddi isə əksinə olaraq dəyişilir və orta həyat səviyyəsini ötüb keçmir. Beləliklə, iki eyni həyat səviyyəsinə malik insan təhlil yerindən və zamanından, siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq yoxsul, yaxud varlı hesab olunacaq. İnsanların rifahının eyni şəkildə, tərzdə təhlili mənasında yoxsulluq eyni cür qiymətləndirilir.

Yoxsulluq həddinin müəyyən edilməsində ən geniş yayılmış yanaşma əsas tələbatların təhlilidir. Ərzaq mallarına olan tələbat əsas tələbat hesab olunur ki, bu da tövsiyə edilmiş qida enerjisinin istehlak həcmidir. Belə yanaşmada orqanizmin qida enerjisinə olan tələbatını müəyyən etmək əsas məsələdir. Bu tələbat müxtəlif adamlarda, hətta eyni adamda müxtəlif dövrlərdə də fərqlidir. Dietoloqlar orqanizmin enerjiyə olan tələbatını bədən çəkisinin dəyişməz saxlanılması, qidanın həzmi və fərqli fiziki aktivlik səviyyəsi baxımından qiymətləndirirlər. Yoxsulluq həddini orqanizmin enerjiyə olan tələbatı nöqteyi-nəzərdən müəyyən etmək nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, yoxsul adamın bədən çəkisinin normadan aşağı olması onun fiziki aktivliyini məhdudlaş-

dıran, azaldan amilə çevrilir. Müxtəlif əhali qrupları üzrə yoxsulluq həddini təyin edən zaman fiziki aktivlik səviyyələrindəki, bədən çəkilərindəki fərqə əsaslansaq belə qənaətə gəlmək olar ki, yoxsul əhali qrupunun aşağı fiziki aktivlik səviyyəsi onlar üçün təbii olmayıb, birbaşa enerji, güc çatışmazlığından irəli gəlir. Bu problem tələbat səviyyəsindəki yaş fərqlərinə az ümumilik təşkil edir.

Yoxsulluq həddinin ərzaq tərkibi, komponentləri ilə əlaqəsi heç də qidaya olan tələbatla bitmir. Müxtəlif ərzaq məhsullarının birgə istifadəsi vasitəsilə orqanizmin minimal xərclərlə qida enerjisinə olan tələbatını təmin etmək olar. Lakin bu, bəzən insanın çoxəsrlik tarixi ənənələr fonunda formalaşmış qida vərdişlərinə, qida rasionuna zidd ola bilər. Yoxsulluğun yüksək qiymətlər fonunda orqanizmin qida tələbatının minimal xərclərlə təmin edilməsi kimi təyin edilən ərzaq həcmi ilə müəyyənləşən həddi yoxsul əhali təbəqəsi üçün əlçatmaz olan qida rasionunun işlənib-hazırlanması ilə nəticələnə bilər. Orqanizmin minimal enerji tələbatının təmin edilməsi üçün lazım olan minimal xərclər yoxsul əhalinin real xərclərindən olduqca az ola bilər. Görünür, lazımi həcmdə enerji qəbul etmək qidalanmaya üstünlük verilməsində tək motiv deyildir.

İkinci problem qeyri-ərzaq təyinatlı tələbatın nəzərə alınması ilə əlaqədardır. Qeyri-ərzaq təyinatlı tələbat fonunda yoxsulluq həddinin təyini zamanı qidanın tərkibinə, komponentlərinə uyğun olaraq qidalanma enerjisinə olan tələbat qədər əhəmiyyətli rol oynamır.

Təcrübədə ərzaq təyinatlı tələbat fonunda yoxsulluq həddinin təyin edilməsinin iki əsas metodu vardır.

**1. Qida enerjisi metodu.** Bu metod istehlak xərcləri və yaxud gəlirlərinin yekun həcminin müəyyən edilməsi ilə kalori ifadəsində qida enerjisinin dəqiq miqdarının təyinini nəzərdə tutur. Bu kəmiyyəti istehlak xərcləri, yaxud gəlirlərindən asılı olaraq kalori ifadəsi ilə qida enerjisinin miqdarının reqresssiyasından tapmaq olar. Mahiyyətcə, yoxsulluq həddi-konkret olaraq cəmiyyətdə insanın qida tələbatını təmin etmək üçün

kifayət həcmdə istehlak xərclərinin məcmuyudur. Əgər nəzərə alsaq ki, qida enerjisinə olan tələbat müəyyən edilmişdir, onda bu yanaşma müəyyən nöqteyi-nəzərdən yoxsulluğun vahid həddini, əlamətini göstərir.

Qida enerjisi metodu ilə yoxsulluğun eyni cür xarakteristikasını vermək olmaz, çünki yoxsulluğun bu metodla müəyyənləşdirilmiş sərhədi bütün əhali qrupları üçün eyni ola bilməz. Bu fərq müxtəlif regionlarda, ölkələrdə, eləcə də müxtəlif vaxtlarda qida enerjisinin istehlak həcmi ilə istehlak xərclərinin ümumi həcminin eyni olmaması ilə şərtləşir və ərzaq bolluğundan, zövqlərdən, fiziki fəallıq səviyyəsindən, qiymətlər nisbətindən asılı olaraq bu və ya digər dərəcədə dəyişir. Bu metodikada yoxsulluğun qiymətləndirilməsi üçün həmin fərqin əhəmiyyətli olacağına təminat verən heç nə yoxdur. Nəticədə yoxsulluğun eyni olmayan müqayisəli qiymətləri alınır, eyni həyat səviyyəsi olan insanlar real istehlak həcmi baxımında fərqli səviyyələrdə yerləşir. Məsələn, zəngin ailələr daha bahalı «kalori» qəbul edirlər. Qida enerjisi metoduna uyğun olaraq bu, daha zəngin, varlı regionlarda yoxsulluğun daha yüksək həddini ifadə edəcək. Nəticə etibarilə müxtəlif regionlar, ölkələr üçün, eləcə də fərqli zaman kəsiklərində bu metodla təyin edilmiş mütləq yoxsulluğun müqayisəli qiyməti aldadıcı ola bilər.

**2. Ərzaq məhsullarının xüsusi çəkisi metodu.** Bu metoda uyğun olaraq hər bir əhali qrupu üçün ərzaq dəstinin qiyməti müəyyən edilir, sonra alınmış qiymət ailə qruplarının bu istiqamətdə yekun xərcləri müqayisə edilir. Bu ailə qrupları hər birində 20% yoxsul olan yarımqruplardan təşkil edilir. Bu metodun tətbiqi nəticəsində birinci metoddakı eyni problem ortaya çıxır. Uyğunsuzluq real istehlakın orta həcmində, yaxud yarımqruplar arasındakı xərclər, yaxud da zaman kəsiklərində olan fərqlə əlaqədardır. Müəyyən həyat səviyyəsi bir region üçün yoxsulluq əlaməti kimi qəbul edilirsə, digər region üçün bu belə qəbul edilmir. Ona görə ərzaq məhsullarının xüsusi çəkisinin reqressiya modelinə əsaslanan metoddan istifadəni bir sıra mənbələr daha səmərəli hesab edir.

Hər iki metodda olan fərqlər yoxsulluğun əlamətinin müxtəlifliyinə səbəb olur və yoxsulluq həddinin təyin edilməsində fərqli qiymətlər alınır. Belə vəziyyət əhali qrupları arasında mobilliyin yüksəlməsi, əhalinin kənddən şəhərə miqrasiyasına səbəb olur.

Belə bir qənaətə gəlmək olar ki, yoxsulluq həddi elastikdir. Real yoxsulluq həddi əhalinin ümumi həyat səviyyəsinin qalxması dərəcəsinə görə artmağa meyllidir. Lakin ən yoxsul ölkələr üçün bu artım tempi zəifdir. Mütləq yoxsulluq həddini aşağı gəlir səviyyəli ölkələrə, nisbi yoxsulluq isə yüksək gəlir səviyyəli ölkələr üçün münasibdir.

Ümumiyyətlə, yoxsulluq problemi sosial-iqtisadi dəyişikliklərin neqativ nəticələri olmaqla, intellektual, mədəni inkişaf səviyyəsi, təhsil, vicdanlılıq, düzlük, tamahkarlıq kimi insanı keyfiyyətlərlə də sıx bağlıdır.

Ərzaq təhlükəsizliyi aqrar-sənaye kompleksinin inkişafı baxımından milli təhlükəsizliyin mühüm cəhətlərindən biridir. Ölkədə siyasi, sosial və iqtisadi şəraitin dəyişməsi, həmçinin qloballaşmanın təsiri yeni təhdidlər, təhlükə mənbələri yaradaraq, ərzaq təhlükəsizliyinin təmin edilməsi problemini mürəkkəbləşdirərək, ənənəvi yanaşma çərçivəsində onun həllini bir qədər də çətinləşdirir. Bu mənada, ərzaq təhlükəsizliyi probleminə insanın inkişaf konsepsiyası kontekstindən yanaşmanın da nəzərə alınması problemin metodoloji dəyərini və aktuallığını artıraraq, onun kompleks həllinə və insanın prioritet maraqlarının təmin edilməsinə şərait yaradır. BMT-nin inkişaf proqramı çərçivəsində formalaşan konsepsiyanın fərqli xüsusiyyəti burada sosial-iqtisadi problemlərin həlli, o cümlədən təhlükəsizliyə insanın inkişafı baxımından yanaşmanın olmasıdır. Bu zaman ərzaq təhlükəsizliyi insanın təhlükəsizliyinin mühüm bir cəhəti, tərkib elementi kimi nəzərdən keçirilir və bilavasitə insanın sağlamlığı ilə əlaqələndirilir. İnsanın təhlükəsizliyi milli təhlükəsizliyə nisbətən geniş məna kəsb edir. Milli təhlükəsizlik ictimai təhlükəsizliyin təmin edilməsi formalarından biri kimi, insanın təhlükəsizliyinin yeddi əsas cəhətlərindən biridir.

Əhalinin ərzaq təhlükəsizliyi (dünya ədəbiyyatı terminologiyasında) ilk növbədə makroiqtisadi vəziyyətlə, ictimai istehsalın səmərəliliyi və əhali gəlirləri ilə müəyyən olunur. Əhalinin ərzaq təhlükəsizliyinin vəziyyəti geniş göstəricilər sistemi ilə müəyyən olunur [81].

İnsanın inkişafı nöqteyi-nəzərindən sosial-iqtisadi problemlərin həlli yanaşmanın prioritetlərinin dəyişilməsini tələb edir. Burada, iqtisadi maraqların təmin edilməsi xatirinə insan yox, insanın inkişafı baxımından iqtisadiyyat, eləcə də dövlət sərhədlərinin qorunması xatirinə insan yox, insanın maraqlarının, mənafeyinin qorunması, ictimai birliyə, həmrəyliyə nail olmaq xatirinə dövlət, dövlətçiliyin formalaşması, inkişafı ön planda durur. Ərzaq bazarının inkişafı, ərzaq məhsullarının istehsalı kapital, vəsait toplamaq yox, insanın inkişafına, onun sağlamlığının, yüksək həyat səviyyəsinin təmin olunmasına xidmət etməlidir.

İnsanın inkişafı konsepsiyasında insanın təhlükəsizliyi «sərbəstlik, azadlıq şəraitində seçki hüququndan istifadə etmə imkanı və onun təhlükəsizliyi, həmçinin bu imkanın gələcəkdə də təmin edilməsi» kimi müəyyən olunur. Bu konsepsiyanın əsas müddəaları 1994-cü ildə BMT-nin inkişaf proqramının hesabatlarında şərh edilmişdir. Qarşılıqlı əlaqəli cəhətlər aşağıdakılardır:

İqtisadi cəhət – tələbatın ödənilməsi üçün kifayət dərəcədə gəlirlə təmin olunma;

Ərzaq cəhəti – əsas ərzaq məhsullarını əldə etmə imkanı. Bu, əhalinin istehlak tələbatını təmin etmək üçün kifayət qədər həcmdə ərzaq məhsullarının və onları sərbəst, rahat əldə etmə imkanının olmasını tələb edir;

Ekoloji cəhət – ekoloji çirklənmə təhlükəsindən qorunma. Yaşayış mühitinin, ətraf mühitin təhlükəsizliyi aşağıdakı ilkin şərtlər daxilində təmin edilə bilər: təmiz hava və çirklənməmiş su; ekoloji təhlükəsiz ərzaq məhsullarını əldə etmə imkanının olması və ekoloji cəhətdən sağlamlıq üçün təhlükəsiz şəraitdə yaşamaq; ekoloji fəlakətlərdən qorunma;

Şəxsi cəhət – insanın azadlığı, sərbəstliyi və güc, zor tətbiqi təhlükəsindən qorunması;

Siyasi cəhət – insanın cəmiyyətdə yaşamaq imkanını təsbit edən əsas hüquqları;

Sağlamlıq üçün təhlükəsizlik – insanın xəstələnmək risklərindən qorunması. Bu, insanın sağlamlığı üçün təhlükəsiz şəraitdə yaşamaq və ona yüksək kefiyyətli tibbi xidmət göstərilməsi imkanlarını tələb edir;

İctimai və mədəni cəhətlər – mədəni müxtəlifliyin qorunması və ictimai inkişafın destruktiv meyllərdən mühafizəsi.

İnsanın müxtəlif təhlükələrdən və təhdidlərdən, müasir risklərdən qorunması həyat keyfiyyəti üçün mühüm cəhətlərdir. Bu mənada, ərzaq təhlükəsizliyi yüksək həyat keyfiyyəti standartlarının zəruri təmin edilməsi şərtlərindən biri kimi çıxış edir. İnsanın təhlükəsizliyinə qarşı təhdidlər müxtəlif formalarla aşkar olunur və onların təsiri çoxsaylı amillərlə şərtlənir. Təsnifat əlamətlərinə görə təhdidlər aşağıdakı tiplərə ayrılır:

- universallıq dərəcəsinə görə – ümumi və spesifik təhdidlər;
- təsir müddətinə görə – daimi, uzunmüddətli və qısamüddətli təhdidlər;
- ərazi üzrə yayılma dərəcəsinə görə – qlobal, regional, milli və yerli təhdidlər;
- təsir üsuluna görə – açıq və gizli təhdidlər;
- başvermə mənbəyinə görə – təbii (təbiət hadisələrilə əlaqədar), süni (insan fəaliyyəti nəticəsində) və qarışıq (təbii fəlakətlərin baş verməsinə səbəb olan insan fəaliyyəti nəticəsində) xarakterli təhdidlər;
- başvermə xarakterinə görə – qəsdən və bilməyərəkdən yaradılan təhdidlər, təhlükələr;
- təsir xarakterinə görə – tədricən və ya qəflətən baş verən və bilavasitə (birbaşa), yaxud dolayısı ilə ziyan, itki törədən təhdidlər;

- təhlükəlilik dərəcəsinə görə – nəticəsi aradan qaldırıla bilən, aradan qaldırılmayan və tədricən aradan qaldırılan təhdidlər.

- qarşısı alınma imkanına görə – tam, qismən qarşısı alına bilən və bütövlükdə qarşısının alınması mümkün olmayan təhdidlər.

Ərzaq təhlükəsizliyinə qarşı yönələn belə müxtəlif təhdidləri aşağıdakı əsas istiqamətlər üzrə konkretləşdirmək olar:

- əhalinin gəlir səviyyəsinin aşağı və qeyri-sabit olması nəticəsində ərzaq məhsullarının əldə edilməsinin iqtisadi cəhətdən qeyri-mümkünlüyü, çox bahalı olması;

- ərzaq məhsulları istehsalın az olması, yaxud bazara az həcmdə, məhsullarının daxil olması ilə əlaqədar bu məhsulları əldə etməyin fiziki cəhətdən imkansızlığı; eləcə də ekoloji cəhətdən təmiz, sağlamlıq üçün təhlükəsiz ərzaq məhsulları almaq, əldə etmə imkanının qeyri-mümkünlüyü.

Ənənəvi yanaşma və kənd təsərrüfatı istehsalının həcmi, eləcə də bazarın təchizatı səviyyəsi ilə əlaqədar olaraq ərzaq təhlükəsizliyinə qarşı təhdidlərin spektri, əhatə dairəsi insanın inkişafı, onun həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsi nöqteyi-nəzərindən əhəmiyyətli dərəcədə genişlənir. Burada gizli və dolayısı ilə təsir göstərən, süni baş vermə xarakterli, qlobal səviyyədə yayılan təhdidlər mühüm əhəmiyyət kəsb edir. Nəticədə onların aşkara çıxarılması və qarşısının alınması da çətinləşir.

Bu gün Azərbaycan dünyanın geosiyasi xəritəsində çox mühüm yer tutur. Müasir vəziyyətin bu və ya digər reallıqları ərzaq təhlükəsizliyi problemlərini önə keçirir. Bu konsepsiya daxili istehsal və səmərəli həcmdə idxal hesabına ölkənin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin olunmasını nəzərdə tutur. Bu məsələləri isə yalnız dəqiq təşkil olunmuş aqroiqtisadi mühit çərçivəsində həll etmək olar [14].

İnsanın təhlükəsizliyinin cəhətləri, tərkib elementləri qarşılıqlı əlaqəsidir. Təhdidlərin meydana gəlməsi və risklərin bir-birlərini qarşılıqlı şərtləndirirlər. Təhlükəsizliyin işsizlik, gəlir səviyyəsinin azalması, yoxsulluq kimi iqtisadi və sosial

xarakterli təhdidləri ərzaq məhsulları əldə etmək imkanlarını heçə endirir. Ekoloji təhdidlər, ilk öncə ətraf mühitin radiasiya və çirklənməsinin artması, pisləşməsi, yeni biotexnologiyalarla bağlı risklər ərzaq təhlükəsizliyi üçün neqativ təsirlər yaradır.

Ərzaq məhsullarının kimyəvi və radiasiya çirklənməsi ərzaq təhlükəsizliyi problemini daha da kəskinləşdirir. Mütəxəssislərin rəyinə görə kənd təsərrüfatında tətbiq edilən gübrələr, bitkilərin həşəratlardan, ziyanvericilərdən qorunması məqsədilə istifadə edilən müxtəlif vasitələr və dərman preparatları ərzaq məhsullarında kimyəvi qalıqlar şəklində toplanaraq, əhalinin sağlamlığı üçün ciddi təhlükəyə çevrilir. Xüsusilə, müxtəlif kimyəvi maddələrin nəzarətsiz tətbiqi daha ciddi təhlükələr, təhdidlər yaradaraq onkoloji xəstəliklərin, immunoloji və genetik dəyişikliklərin baş verməsi, doğum zamanı uşaqlarda annadangəlmə qüsurların olmasına səbəb olur.

Akademik A.V.Yablokovun fikrincə, istifadə edilən ərzaq məhsullarının böyük bir əksəriyyəti insanın sağlamlığı üçün, xüsusən yüksək riskli əhali qrupları üçün bu və ya digər dərəcədə təhlükəli xarakter daşıyır. Ərzaq məhsullarının tərkibində olan konsorogen maddələrin, nitratların və digər təhlükəli kimyəvi maddələrin miqdarına, bu ərzaq məhsullarının radioaktivliyi səviyyəsinə ciddi nəzarət sisteminin tətbiqi olduqca vacibdir. Bir faktı da nəzərə almaq lazımdır ki, bir çox inkişaf etmiş ölkələr öz ölkələrindən çirkli ərzaq məhsullarından istifadəyə qadağa tətbiq etsələr də, belə məhsulların ixracına icazə verirlər. Bu mənada, hər bir ölkədə ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarət sisteminin tətbiqi, nəzarət mexanizmlərinin metodlarının işlənib hazırlanması, bu sahədə informasiya sisteminin yenidən qurulması, informasiya açıqlığının təmin edilməsi strateji əhəmiyyət kəsb edir.

Kənd təsərrüfatında müxtəlif kimyəvi maddələrin tətbiqi bir tərəfdən faydalı olsa da, digər tərəfdən ətraf mühit və insan sağlamlığı üçün yüksək risk dərəcəsinə malikdir. Yeni biotexnologiyalar bazarına nəzarət edən transmilli korporasiyalar yüksək gəlir əldə etmək məqsədilə onların tətbiqi

nəticələrini dərindən öyrənmədən sürətlə istifadəsinə və yayılmasında böyük maraq göstərirlər. Biotəhlükəsizlik probleminin işlənib-hazırlanması və insanların sağlamlığı baxımından, ətraf mühitin təhlükəsizliyi nöqteyi-nəzərindən qoruyucu tədbirlərin tətbiqi yeni biotexnologiyaların istismarda tətbiqi tempindən və miqyasından əhəmiyyətli dərəcədə geri qalır.

Ölkədə cinayətkarlığın səviyyəsinin artması şəxsi təhlükəsizliyə qarşı təhdidlərin artmasının forma və xarakterik xüsusiyyətlərindən biridir. Bu istiqamətdə yalançı reklamların verilməsi, keyfiyyətsiz məhsulların satışı və s. kimi iqtisadi cinayətkarlıq hallarının çoxalması, onun səviyyəsinin artması ərzaq təhlükəsizliyi üçün də birbaşa ciddi və qorxulu təhdidlər yaradır.

İdeologiya və informasiya sferasına nəzarət, kütləvi informasiya vasitələrinin inhisarlaşması, ictimai şüurun manipulyasiyası kimi təhdidlər cəmiyyətdə bir qrup adamların maraqlarına uyğun ictimai stereotipin formalaşmasına şərait yaradır. Belə vəziyyət ekoloji təhlükəsiz məhsullara münasibətdə saxta rəyin formalaşmasına, kapitalın maraqlarına cavab verən, lakin sağlamlıq üçün təhlükəli ərzaq məhsullarının istehlakının kütləvi təbliğinə kömək edir. Deməli, ərzaq təhlükəsizliyi ilə bağlı informasiya xarakterli təhdidlər daha da güclənir.

Ərzaq təhlükəsizliyi probleminə insanın inkişafı nöqteyi-nəzərindən yanaşma ona qarşı təhdidlərin geniş təhlilini və təsnifatını şərtləndirir. Burada bazarın deyil, məhz insanın maraqları ön plana keçir.

Müasir şəraitdə qloballaşma ilə bağlı risklər xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma insanın inkişafı və həyatın keyfiyyətini yüksəltmək üçün imkanları genişləndirərək, ayrı-ayrı təhlükələrin, təhdidlərin qarşısını almağa və yaxud onların təsirlərini zəiflətməyə kömək edir. O, eyni zaman insanın təhlükəsizliyi üçün yeni təhdidlər yaradaraq, mövcud olanları daha da gücləndirir. Qloballaşma insanların həyat səviyyəsinə, şəraitinə təsir göstərərək, müxtəlif xarakterli dəyişikliklər yaradır.

İnsanın həyat fəaliyyəti üçün müəyyənedici rol oynayan əsas dəyişiklikləri ayırmaq olar. Bu, insanların həyatının transmilli korporasiyaların maraqlarından asılılığının kəskin artması; ərazi ilə bağlı amillərin əhəmiyyətinin azalması; bir növ məkanın daralmasıdır. İnsan həyatında baş verən dəyişikliklər daha çox onun yaşadığı yerdən uzaqlarda baş verən proseslərdən asılıdır. Bir çox proseslər, o cümlədən bazar münasibətləri daha çox vasitəli xarakter kəsb edir; burada artıq milli (dövlət) sərhədlərin rolu azalır və bu sərhədlər ticarət, kapital, informasiya, hətta ideyalar, mədəni normalar, dəyərlər üçün öz qapalı xarakterini itirir – «zaman məfhumu kiçilir». Bazarların və texnologiyanın sürətlə dəyişməsi həyat ritminin sürətlənməsinə və eyni zamanda, cəmiyyətdə qeyri-sabitliyin artmasına, insanın bir növ zəifləməsinə, proseslərin baş vermə sürətinin dəfələrlə artmasına, qlobal hadisələrin tempinə uyğunlaşma cəhdinə şərait yaradaraq, insanın həyat fəaliyyətini əsaslı şəkildə dəyişir.

İnsanın ərzaq təhlükəsizliyinə qarşı təhdidlər sırasında aşağıdakıları qeyd etmək olar.

1. Yeni texnologiyalarla bağlı risklər. İstehsalatda yeni texnologiyalar onların ətraf mühit üçün mümkün nəticələri dəqiq öyrənilmədən sürətlə tətbiq edilir. Belə bazarlara nəzarət edən transmilli korporasiyaların maraqları cəmiyyətin fiziki və mənəvi cəhətdən qorunması maraqları ilə uyğunlaşmır. Belə problemlər daha çox inkişaf etməmiş, yaxud zəif inkişaf etmiş ölkələrdə, vətəndaş fəallığı, təhsil səviyyəsi aşağı olan, kütləvi informasiya vasitələrinin inhisarlaşdığı ölkələrdə kəskin xarakter alır. Lakin insanların həyatında, tələbatlarında baş verən sürətli dəyişikliklər yeni biotexnologiyaların tətbiqini şərtləndirsə də, bu sahədə potensial təhlükənin artması qaçılmazdır.

2. İnsanın təhlükəsizliyinə qarşı qlobal əhəmiyyətli təhdidlərin artması ətraf mühitin pozulması, beynəlxalq cinayətkarlığın təsiri ilə əlaqədardır.

3. İctimai şüurun manipulyasiyası təhlükəsinin güclənməsi. Qlobal səviyyədə yayılmış informasiya və kommu-

nikasiya texnologiyaları bütün dünyanı əhatə edən yeni informasiya məkanının formalaşması üçün şərait yaradır. Müsbət cəhətlərlə yanaşı, insanın təhlükəsizliyi üçün risk artır, mədəniyyətin, ictimai fikrin, istehlak davranışının ümumiləşməsi, unifikasiyası üçün ilkin şərait, şərt formalaşır. Ənənəvi ictimai birliklərin (yəni ailə, cəmiyyət, etnik qruplar və s.) dəyərlər sistemi müasir kütləvi informasiya vasitələrinin yaratdıqları risklərin dağıdıcı təsirlərinə məruz qalır. Ərzaq təhlükəsizliyi haqqında ictimai fikrin manipulyasiya edilməsi kütləvi informasiya vasitələrinə nəzarət edən qüvvələrin maraqlarına cavab versə də, cəmiyyətin inkişaf perspektivləri, insanın sağlamlığı üçün təhlükə ilə nəticələnir. Burada təsir spektri qeyri-məhduddur: ərzaq məhsullarının istehlakı standartlarından tutmuş kənd təsərrüfatı və sənayedə tətbiq edilən texnologiyalaradək. İnformasiya riski geniş əhatəli və müəyyənedicidir. İnformasiyanın qeyri-düzgünlüyü və məhdudluğu digər təhdidlərin, təhlükələrin baş verməsi üçün əlverişli şərait yaradır və insanın sağlamlığı və ətraf mühüt üçün təhlükəli texnologiyaların yaranmasına kömək edir.

Manitorinq insanın ərzaq təhlükəsizliyinin təmin edilməsi vasitəsi (aləti) kimi. - İnsanın təhlükəsizlliyinə qarşı təhdidlər onun seçki azadlığını məhdudlaşdırır, böhranlar, yaxud faciələrə gətirib çıxarır. Belə bir riskin qarşısının alınması imkanı böhranları aradan qaldırmağa, yaxud onların nəticələrini yumşaltmaq məqsədilə qabaqlayıcı tədbirlər həyata keçirməyə şərait yaradır. Müasir şəraitdə təhlükələrlə (təhdidlərlə) bağlı informasiya əldə etmək məqsədilə insanın təhlükəsizliyi monitorinqi deyilən – əvvəlcədən xəbərdaretmə sistemi yaradılır. Burada iki yanaşma mövcuddur: strateji və taktiki xəbərdarlıq. Strateji xəbərdarlıq formalaşmaqda olan təhlükəni (təhdidi) və gələcəkdə onun potensial reallaşma imkanlarını aşkara çıxarır. Taktiki xəbərdarlıq isə artıq baş vermiş təhlükəni göstərir. Strateji xəbərdarlıq sistemi insanın təhlükəsizliyinə qarşı təhdidlərin son formalaşma və həyata keçmə anınadək baş verən təsir imkanlarını müəyyən edir. Bu sistem siyasi variantlar dairəsini genişləndirərək müvafiq

seçim etməyə imkan verir. Təhlükəsizliyə qarşı mümkün təhdidlərin və baş verəcək sosial böhranların qarşısını almaq üçün müvafiq indikatorlar sistemi informasiya bazası rolunu oynaya bilər. İnsan təhlükəsizliyi üçün qorxunun əvvəldən xəbər verilməsi, qarşısının alınması baş verə biləcək mənfi nəticələri yumşaldaraq, bütövlükdə yaranacaq böhranları aradan qaldıra bilər. Əlbəttə, hər hansı bir təhlükənin qarşısının alınması onun mənfi nəticələrinin aradan qaldırılmasına nisbətən daha səmərəlidir.

Monitorinqin göstəricilər sisteminin formalaşmasına müxtəlif cür yanaşmalar mövcuddur. Lakin indikatorlar sisteminin qeyri-məhdud olaraq genişlənməsi sosial-iqtisadi inkişafın ümumi keyfiyyətində təhlükəsizlik problemini kiçildir. Bu mənada, konkret göstəricilərin seçilməsi ilə bağlı fərqli mövqelərin, yanaşmaların çoxluğuna baxmayaraq, xəbərdarlıq sisteminin əsasını formalaşdıran göstəricilər qrupunu seçmək məqsədəuyğun olardı.

İnsanın ərzaq təhlükəsizliyinə qarşı olan təhdidlərin qiymətləndirilməsi zamanı ilk növbədə minimal istehlak səviyyəsinə uyğun sutkalıq kalori normasını xarakterizə edən göstəricinin; əhalinin adambaşına düşən ərzaq məhsullarının istehsalı indeksi göstəricisi; ixracdan asılılıq əmsalının müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır. Onu da qeyd edək ki, müvafiq göstəricilər toplusunun və ilkin xəbərdarlıq sisteminin təşkili ilk növbədə qarşıya qoyulmuş məqsədlərə və zəruri informasiya əldə etmək imkanlarına əsaslanmalıdır. Bu sahədə statistik informasiyanın məhdudluğu və yarımçıq olması regional səviyyədə insanın təhlükəsizliyi monitorinqi vəzifələrini mürəkkəbləşdirir. Regional səviyyədə tənzimləmə ərzaq təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Yerli, milli, regional və qlobal səviyyələrdə göstəricilər (indikatorlar) sisteminin ümumi çatışmazlığı onun məhdudluğu, darlığı və sistemdə ərzaq məhsullarının ekoloji parametrlərini xarakterizə edən göstəricilərin olmamasıdır. Bu isə problemin həllinin bir qədər mürəkkəbləşməsi, tam qiymətləndirilməsinə səbəb olur.

Böhran vəziyyətinin qarşısının alınması ilə bağlı toplanmış nəzəri və praktik təcrübə inkişaf səviyyəsini kəmiyyətcə ifadə edən göstəricilərin (indikatorların) hədd qiymətlərinin müəyyən edilməsinə imkan verir. Nəzərə almaq lazımdır ki, insanın təhlükəsizliyinin birbaşa kəmiyyətcə ölçülməsi, təyini mümkünsüzdür. Mövcud qiymətləndirmə metodları qismən (dolayısı ilə) ölçməyə imkan verir. Kəmiyyətcə qiymətləndirmə sisteminin geniş tətbiqi risk konsepsiyasının inkişafına kömək edir. Konsepsiyanın əsas müddəası ehtimal nəzəriyyəsi və riyazi statistikadan istifadə etmə və təhlükəsizlik kateqoriyasının ehtimal xarakteri daşıması ilə əlaqədardır. Konsepsiyada hadisələr və onların nəticələri ilə bağlı risklərin yaxınlaşması ehtimalının kəmiyyətcə qiymətləndirilməsi, müəyyən edilməsi və risk səviyyəsinin onun yol verilən həddinin qiymətləndirilməsi nəzərə alınmışdır. Təhlükəsizlik probleminin təhlili və proqnozlaşdırılmasında kompüter modelləşdirməsi, sistemli təhlil və qeyri-xətti metodların tətbiqi ehtimal yanaşmadan ehtimal-determinist yanaşmaya keçməyə imkan verir. Bu, xüsusilə təbiət və texnogen faciələr, qismən də sosial fəlakətlər, hadisələr haqqında düzgün, etibarlı proqnoz verməyə və baş verənləri kəmiyyətcə ifadə etməyə, qiymətləndirməyə geniş imkanlar açır.

Lakin imkanın həyatı, onun təhlükəsizliyi yalnız geniş miqyaslı faciələrin, qəzaların riskləri deyil, həmçinin gündəlik həyat tərzinin riskləri ilə müəyyən edilir. «Sakit faciələrlə» bağlı risklərin kəmiyyətcə qiymətləndirilməsi imkanları hələ ki, məhduddur. Belə risklər insanın sağlamlığı nöqteyi-nəzərindən ərzaq təhlükəsizliyi üçün xarakterikdir.

İnsanın təhlükəsizliyi problemi çoxcəhətli olduğu üçün şərti xarakter daşıyır, lakin kritik səviyyənin kəmiyyətcə ifadə edilməsi həmişə mümkün olmur. Bundan başqa, nəzərə almaq lazımdır ki, «hədd qiyməti» anlayışı və onun riyazi metodlarla təyin edilməsi heç də həmişə sosial baxımdan məqbul və insanın, cəmiyyətin inkişafı nöqteyi-nəzərindən düzgün hesab oluna bilməz. Bu baxımdan, bir sıra göstəricilərlə bağlı müqayisə metodunun tətbiqi geniş yayılmışdır. Burada keçmiş

dövrlə, insanın inkişafı ilə bağlı yüksək nəticələr əldə etmiş regionların malik olduqları səviyyə ilə müqayisələr aparılır. Ərzaq məhsullarının ekoloji parametrlərinin tənzimlənməsi üçün göstəricilərin (indikatorların) hədd qiymətlərinin müəyyən edilməsi xüsusilə çətindir.

Ərzaq təhlükəsizliyi problemi fərdi səviyyədə səmərəli həll oluna bilməz. Müasir dövrdə ərzaq məhsullarının keyfiyyətli, ekoloji təhlükəsizliyinə nail olmaq xüsusi əhəmiyyət kəsb edir. Müasir iqtisadi inkişaf meylləri ekoloji təhlükəsizliyin təmin edilməsi, həmçinin ənənəvi ərzaq məhsulları istehsalı imkanlarını məhdudlaşdırır. Müasir texnologiyanın geniş miqyaslı tətbiqi, kütləvi informasiya vasitələrinin inhisarlaşması, yüksək gəlir əldə etmə cəhdi ilk növbədə insanların təhlükəsizliyi, sağlamlığı deyil, məhz kapitalın maraqlarını əks etdirir, bu maraqlardan doğan tələblərə cavab verir.

Ölkədə ərzaq təhlükəsizliyinə qarşı risklərin və təhdidlərin təsiri bir sıra amillərlə güclənir. Bunlar bazar təsərrüfatında sosial risklərin qarşısının alınmasına lazımi diqqət yetirilməməsi, qeyri-sağlam rəqabət mühiti; lazımi norma və qaydalar sisteminin olmaması; vətəndaşların fəallığının aşağı səviyyədə olmasıdır. Bu amillər ölkədə iqtisadi cinayətkarlığın geniş vüsət alması, keyfiyyətsiz məhsul istehsalına şərait yaradır. Belə olan halda ölkəyə idxal olunan məhsullar da vətəndaşların sağlamlığı üçün böyük təhlükə mənbəyi hesab oluna bilər. Çünki o zaman pis, keyfiyyətsiz, vətəndaşların sağlamlığı üçün təhlükəli olan ərzaq məhsulları daxili bazarda yayılır.

Bu baxımdan ərzaq təhlükəsizliyinin tənzimləmənin səmərəliliyini yüksəltmək, dövlətin ölkə vətəndaşlarının maraqlarına xidmət etməsi üçün əsas alətlərdən, vasitələrdən biri həyat keyfiyyətinin monitorinqidir, o cümlədən onun mühüm bir cəhəti olan – insanın ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Monitorinq sisteminin yaradılması ölkədə aparılan dövlət siyasətində ölkə vətəndaşlarının maraqlarının təmin edilməsi prioritetlərinin güclənməsinə kömək edir.

# VI FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ İSTİQAMƏTLƏRİ

## 6.1. Milli iqtisadiyyatın strukturu və iqtisadi təhlükəsizlik

Müasir qloballaşma prosesi hər bir milli iqtisadiyyatda olduğu kimi Azərbaycanın iqtisadiyyatına da təsir göstərir. Ona görə də ölkəmiz suveren dövlətə çevrildiyi müddətdən başlayaraq daxili və xarici iqtisadi əlaqələrdə liberal prinsiplərə üstünlük verdiyi bir şəraitdə yeni iqtisadi sistemə transformasiya olunmasına üstünlük vermişdir. Bununla əlaqədar olaraq qloballaşma şəraitində struktur probleminin iqtisadi təhlükəsizliyin qorunması aspektində həll olunması qarşıda duran mühüm məsələlərdən birinə çevrilmişdir. Struktur siyasətinin həyata keçirilməsi öz xarakteri etibarı ilə makroiqtisadi sabitləşməyə təminat verməklə eyni zamanda dünya iqtisadiyyatında baş verən proseslərlə milli iqtisadiyyatın rəqabət üstünlüklərinin reallaşdırılması imkanları ilə, ən başlıcası isə hər bir ölkənin seçdiyi milli iqtisadi inkişaf modelinin formalaşmasına təkan verir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə ölkəmiz elə bir inkişaf səviyyəsinə çatmışdır ki, onun gələcək inkişafı əhəmiyyətli dərəcədə ölkədə həyata keçirilən struktur siyasətinin xarakteri və səmərəliliyi ilə birbaşa bağlıdır. Bu zaman yadda saxlamaq lazımdır ki, xalq təsərrüfatında baş verən quruluş dəyişiklikləri elmi – texniki tərəqqinin sürətləndirilməsi ilə qarşılıqlı əlaqədə və asılılıqla olan bir prosesdir. Belə ki, elmi – texniki tərəqqi sahəsində məhsulun resurstutumunun aşağı düşməsi müşahidə olunur ki, bu da bir tərəfdən iqtisadiyyatın başlıca makroiqtisadi proporsiyalarının təkmilləşdirilməsinin maddi əsası, digər tərəfdən isə iqtisadiyyatın mükəmməl sahə, ərazi, texnoloji və təkrar istehsal quruluşunun formalaşdırılması elmi – texniki tərəqqinin sürətləndirilməsinin mühüm şərti kimi çıxış edir. Bütün bunlar öz növbəsində yeni formalaşan müstəqil dövlətin iqtisadiyyatının mövcud quru-

luşunun və hərəkətə gətirilə bilən elmi – texniki potensialın müəyyənləşdirilməsini və dəyərləndirilməsini tələb edir. Bütün bunları nəzərə alaraq respublikamızda elə elmi – texniki və struktur siyasəti formalaşdırmaq lazımdır ki, o biri tərəfdən Azərbaycanın malik olduğu bütün resurslarından səmərəli istifadə və ölkəmizin qarşısında duran sosial – iqtisadi problemlərin mümkün qədər optimal müddətdə həll etməyə şərait yaratsın və ən başlıcası isə perspektivdə iqtisadi artımın imkanlarını məhdudlaşdırmasın.

Bu baxımdan sistemin tarnsformasiyası şəraitində struktur siyasəti iqtisadi subyektlərin həyat fəaliyyətinin hüquqi və institusional əsaslarının formalaşmasına, uzunmüddətli iqtisadi artım üçün şəraitin yaradılmasına, həm də istehsal amillərindən istifadə olunmasının səmərəliliyinin artırılmasına və rəqabət aparan sahələr arasında resursların səmərəli bölgüsünə, səmərəliliyinin yüksəldilməsinə istiqamətləndirilmiş tədbirlər sistemini özündə əks etdirir.

Keçid iqtisadiyyatlı ölkələrdə dövlətin struktur siyasəti inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdən fərqli olaraq daha geniş və çoxşaxəli problemlərin həllini tələb edir. Çünki bu zaman respublikamızda həyata keçirilən struktur siyasətinin bütünlüklə xalq təsərrüfatının quruluşunun dəyişən şəraitə və tələblərə uyğun yenidən qurulmasını tələb edir.

Bütün bunlar öz növbəsində dövlətin struktur siyasətinin reallaşdırılmasını iqtisadi inkişafın prioritet istiqamətlərinin müəyyənləşdirilməsini, sahə quruluşunun təkmilləşdirilməsini, istehlak və yığım nisbətinin optimallaşdırılması problemlərini, nəzəri əsaslarının araşdırılmasını obyektiv zərurətə çevirir.

Qeyd etmək lazımdır ki, transformasiya şəraitində struktur dəyişikliklərinə dövlətin təsiri hər şeydən əvvəl bazar sisteminin tələblərini nəzərə almalıdır. Bununla belə təcrübə göstərir ki, sırf bazar mexanizmi əsasında effektiv struktur irəliləyişləri həyata keçirmək mümkün deyildir. Bununla bağlı professor B.Pleşevski haqlı olaraq yazır ki, «Struktur siyasətini reallaşdırarkən ancaq bazar gücünə əsaslanması yığım və investisiyanın aşağı səviyyəsi və ixracın istehsal strukturunda

xammal resurslarının xüsusi çəkisinin artmasında emal sənaye sahələrinin xüsusi çəkisinin aşağı düşməsi ilə xarakterizə olunan iqtisadiyyatın ziyanlı strukturunun formalaşmasına gətirib çıxaracaqdır»[1].

Apardığımız nəzəri səpkidə araşdırmalar ölkədə reallaşdırılan iqtisadi struktur dəyişikliklərinin xarakterinə mühüm təsir göstərən əsas bazar mühitinin ünsürlərini aşağıdakı kimi sistemləşdirməyə imkan vermişdir:

Ölkədə istehsal olunan məhsul və xidmətlərə daxili tədiyə qabiliyyətli tələbin dinamikası; rəqabət mübarizəsi prosesi; iş qüvvəsinin miqrasiyası; müxtəlif kapital növlərinin sahələrarası və regionlararası axını; əsas resurs növlərinin qiyməti və onun əlverişliliyi; istehsal bazarı üzərində inhisarın bərqərarı və inhisar mənfəətinin əldə olunması; bazarın əmtəə və xidmətlərlə təminatı səviyyəsi və s.

Ümumən dünya təcrübəsi göstərir ki, keçid dövründə formalaşan Milli iqtisadiyyatın dayanıqlı və davamlı inkişafın təmin edilməsi həlledici dərəcədə bu mərhələdə həyata keçirilən struktur siyasətinin xarakterilə birbaşa bağlı olur. Keçid dövründə dövlətin struktur siyasəti ölkədə həyata keçirilən iqtisadi siyasət sisteminin tərkib hissəsi olmaqla çoxşaxəli bir problemdir, həm də struktur siyasəti transformasiya şəraitində Milli iqtisadiyyatın formalaşdırılması ilə bağlı iqtisadi sosial və institusional dəyişikliklə bağlı problemlərin qarşılıqlı əlaqə və asılılıqda həllini tələb edir.

Dövlətin struktur siyasətinə nəzəri və metodoloji baxımdan belə yanaşma onun prioritet istiqamətlərinin elmi-praktiki cəhətdən əsaslandırılması, ölkədə dövlətin həyata keçirdiyi investisiya, elmi – texniki, innovasiya, sənaye, aqrar, regional, maliyyə siyasəti ilə uzlaşdırılaraq dəyərləndirilməlidir. Bu baxımdan dövlətin struktur siyasətinə dair mövcud iqtisadi ədəbiyyatda olan fikirləri ümumiləşdirməyə cəhd etsək, onda qeyd edə bilərik ki, struktur siyasəti ölkədə həyata keçirilən sosial – iqtisadi siyasətin tərkib hissəsi olmaq etibari

---

[1] Б.Плышевский Экономист, 1997 г. №12, стр. 33

ilə iqtisadi və sosial sferada praktiki və strateji vəzifələrin həllini tələb edir.

Milli iqtisadiyyatın strukturunun davamlı inkişaf baxımından dəyərləndirilməsinin çox mühüm istiqaməti onun təkrar istehsal quruluşunun təhlili ilə bağlıdır. Qeyd etmək lazımdır ki, təkrar istehsal nəzəriyyəsi əsasında xalq təsərrüfatı strukturunun təhlili Milli iqtisadiyyatın tərkibi, əsas elementləri, inkişafının qanunauyğunluqları, onun dəyişməsinə və təkmilləşməsinə təsir göstərən amilləri müəyyənləşdirməyə imkan verir. Milli iqtisadiyyatın müasir ictimai təkrar istehsal strukturu daim yeniləşən təkrar istehsal tsikli şəklində ifadə edilə bilər. Bu isə öz növbəsində iqtisadiyyatın əsas struktur asılılıqlarını, iqtisadi təkrar istehsal sisteminin özünütəşkil, özünüidarə mexanizmini, əsas özünüinkişaf amillərinin formalaşması prosesini əməli baxımdın dəyərləndirməyə imkan verir. Milli iqtisadiyyata istehsal hazırlığından istehlakadək, resursların sərfindən son məhsuladək cəmiyyətin artan tələbatını ödəmək məqsədilə insanların təşkil etdiyi əsas amillərin təkrar istehsalının qarşılıqlı tsikllərinin mürəkkəb sistemini praktiki baxımdan qiymətləndirməyə imkan verir.

İqtisadiyyatın təkrar istehsal baxımından tədqiqi onun əsas struktur əlaqələrinin sırasında təkrar istehsal iqtisadi tsiklinin bir növ inkişaf qanunauyğunluqları rolunu yerinə yetirən natural və dəyər iqtisadi proprsiyalarının xarakterinin müəyyənləşdirməsinin mühüm şərtidir. Bunların arasında aşağıdakı qarşılıqlı asılılıqları fərqləndirmək lazımdır: yığım və istehlak, istehsal və istehlak, istehsal və bazar, istehsal, ictimai və şəxsi istehlak, istehsalın investisiya və intellektual hazırlığı və s. Fikrimizcə, qeyd olunan digər əlaqələrlə yanaşı ümumi məhsulda və digər makroiqtisadi göstəricilərdə xüsusi çəkilərinə görə, habelə onların dəyişmə dinamikasının təhlili habelə gözlənilməsi zəruri olan bu proporsional əlaqələrin ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımdan dəyərləndirilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Bununla bağlı onu xüsusi qeyd etmək istərdik ki, təəssüf ki, respublikamızda Milli iqtisadiyyatın təkrar istehsal baxı-

mından strukturu çox zəif tədqiq olunmuşdur. Bütün bunlarla yanaşı milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin ölkəmizdə davamlı inkişafın təmin edilməsində onun əməli rolunu artırmaq üçün qeyd olunan istiqamətlərlə yanaşı onun texnoloji və resurs strukturunun təhlili də mühüm əhəmiyyət kəsb edir.

Bu qeyd olunan vəzifələrin səmərəli həyata keçirilməsi hər bir konkret dövrdə dövlətin müvafiq struktur siyasətinin işlənib hazırlanmasını və onun reallaşma mexanizminin müəyyənləşdirilməsini tələb edir.

Bütün bunlar öz növbəsində keçid mərhələsində respublikamızda həyata keçirilən struktur siyasətinin səmərəliliyinin qiymətləndirilməsinin meyarlarını əsaslı dəyişikliyə uğratmışdır. Ona görə də müasir dövrdə ölkəmizdə dövlətin struktur siyasətinin başlıca istiqamətlərini, başqa sözlə, prioritetlərini, məqsəd və vəzifələrini taktiki və strateji cəhətdən əsaslandırarkən yuxarıda qeyd olunan metodoloji prinsiplərin nəzərə alınması çox zəruridir. Təcrübə göstərir ki, bütün səviyyələrdə fəal və çevik struktur siyasəti yeritmədən optimal müddətdə Milli iqtisadiyyatın davamlı və dinamik inkişafına nail olmaq mümkün deyildir. Ölkədə struktur siyasətinin əməli cəhətdən reallaşdırılması əhəmiyyətli dərəcədə müvafiq institusional dəyişikliklərin aparılmasını tələb edir. Beləliklə, ölkədə cari və perspektiv, iqtisadi – sosial, siyasi, təhlükəsizlik problemlərinin səmərəli həlli struktur siyasətinin milli iqtisadiyyatın bütün faza, səviyyə, amil və şərtlərin, resurslar balansını və onların reallaşdırılması imkanlarını qarşılıqlı əlaqə və təsirdə nəzərə alaraq reallaşdırılmasını tələb edir.

Onu da qeyd etmək lazımdır ki, hər bir konkret halda iqtisadi inkişafın səviyyəsindən, ölkənin seçdiyi inkişaf modelindən qarşıya qoyulan məqsədlər sistemindən və mövcud reallıqdan, xüsusən iqtisadi artımı təmin edən resurs amillərinin mövcüdluğundan, balansından, bunlardan istifadə dərəcəsindən asılı olaraq iqtisadi proporsiyaların və struktur əlaqələrinin optimallıq meyarları, hətta makro və mezo və regional səviyyədə fərqli ola bilər. Azərbaycan keçidin ilk

mərhələsində özünün iqtisadi inkişaf strategiyasından elə sahələrin üstün inkişafını seçməlidir ki, birincisi, həmin sfera xarici kapitalın tətbiqini stimullaşdırsın, ikincisi, həmin sahənin məhsulları beynəlxalq bazarda rəqabət qabiliyyətli olsun və nəhayət həmin sahədə əldə olunan gəlirlər bütünlüklə ölkəmizin qarşısında duran iqtisadi – sosial problemlərin həllinə müsbət təsir göstərsin.

Həm də bazar iqtisadiyyatına keçid və onun formalaşdırdığı şəraitdə struktur siyasətinin optimallıq meyarları da müxtəlif olur. Belə ki, transformasiya və milli iqtisadiyyatın davamlı iqtisadiyyata keçid şəraitində struktur siyasətinin investisiya və innovasiya ilə qarşılıqlı əlaqə və asılılığı fərqli prinsiplər və meyarlar əsasında fəaliyyət göstərirlər. Məlumdur ki, iqtisadiyyatın strukturunun kəmiyyət və keyfiyyətcə restruktruzasiyası müvafiq olaraq investisiya həcmi ilə yanaşı texniki və texnoloji səviyyəsinin və onun reallaşdırılmasının səmərəliliyinin kəskin artırılmasını tələb edir.

Bu baxımdan milli iqtisadiyyatın transformasiyası və davamlı inkişafa keçid şəraitində struktur siyasətinin formalaşdırılması və reallaşdırılmasında prioritetlərin mərhələliyinin ardıcıllığının və vaxtının düzgün seçilməsi prinsipial əhəmiyyətə malikdir. Başqa sözlə, iqtisadiyyatda struktur dəyişiklikləri konkret reallığa və tələbata uyğun həyata keçirilməlidir.

Keçid iqtisadiyyatına malik ölkələrin təcrübəsi göstərir ki, bütünlükdə cəmiyyətdə mövcud olan iqtisadi münasibətlər sisteminin bazarın dəyişən şəraitinə və tələbatına uyğun yenidən qurulması bütünlükdə sistemin restrukturizasiyasını tələb edir. Bu baxımdan professor Ş.Hacıyev[1] çox haqlı olaraq qeyd edirdi ki, belə bir şəraitdə bazar sistemi ancaq cəmiyyətin maraqlarına və tədiyə qabiliyyətli tələblərinə uyğun gələn bazara istiqamətlənmiş istehsalatları ön plana çıxarır və saxlayır. Sistemin transformasiya şəraitində restrukturizasiya probleminə belə metodoloji yanaşma hər şeydən əvvəl onun

[1] Ш.Г.Гаджиев, Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития, Киев 2000, стр. 99 - 101

əməli cəhətdən reallaşdırarkən nəinki cari, eləcə də milli iqtisadiyyatın formalaşdırılması və davamlı inkişafın təmin edilməsi ilə bağlı strateji problemlərin həllini nəzərdə tutur. Bu baxımdan ölkədə həyata keçirilən restrukturizasiya siyasəti nəinki mülkiyyət münasibətlərinin, eləcə də idarəetmə təşkilatı, maliyyə, istehsalat və sairə münasibətlərin yenidən qurulmasını tələb edir. Qeyd etmək lazımdır ki, bütünlükdə milli iqtisadiyyatın restrukturizasiyasının ən mürəkkəb, əmək tutumlu, başqa sözlə, konkret reallaşdırılması üçün daha çox resurs tələb edən istiqaməti iqtisadiyyat strukturunun yenidən qurulması ilə bağlıdır. Belə ki, bu problemin həlli nəinki həyata keçirilməsi nəzərdə tutulan dəyişikliklərin, bazar mexanizminin prinsiplərinə uyğun mülkiyyət, təşkilatı normativ - hüquqi bazanın yaradılmasını, eləcə də müvafiq elmi-texniki kadr, maliyyə potensialının infrastrukturunun əməli cəhətdən mövcudluğunu və reallaşdırılması imkanlarını nəzərdə tutur. Doğrudur, bu zaman qarşıya çıxan ən başlıca problem ixraca istiqamətlənmiş milli iqtisadiyyatı formalaşdırarkən strateji baxımdan milli və qlobal maraqların uzlaşdırılmasıdır.

Bütün bunlar bizə transformasiya şəraitində iqtisadiyyatın restrukturizasiyası probleminin nəzəri və əməli problemlərini dəyərləndirməyə imkan verimşdir. Məlumdur ki, bazar sisteminə keçid milli iqtisadiyyatın dəyişən tələbə və şəraitə uyğun restrukturizasiya edilməsini obyektiv zəruriyyətə çevirdi. Digər tərəfdən ölkənin dünya iqtisadiyyatına fəal inteqrasiya olunmasını bu zaman milli iqtisadi təhlükəsizliyin və davamlı inkişafa keçidin təmin olunması aktual bir problem kimi qarşıya qoyur. Bu isə öz növbəsində iqtisadi inkişafın dəyişən tələbin prinsiplərinə uyğun və iqtisadiyyatın restrukturizasiyasını tələb edir. İqtisadi ədəbiyyatda milli iqtisadiyyatın restrukturizasiyalaşdırılması dedikdə[1] adətən iqtisadiyyatın səmərəliliyini yüksəltmək, rəqabət qabiliyyətini artırmaq məqsədilə iqtisadiyyatın strukturunun və idarə

---

[1] Г.Юзбашева, Реструктуризация промышленности Азербайджана. г. Баку, 2003 г., стр. 5, 36

olunmasının mülkiyyət formalarının dəyişdirilməsinə istiqamətlənmiş iqtisadi – təşkilati – hüquqi tədbirlərin həyata keçirilməsi prosesi nəzərdə tutulur. Bu baxımdan müasir dövrdə iqtisadiyyatın restrukturizasiya siyasəti formalaşdırılarkən dünyada baş verən qloballaşma, regional və transmilli inteqrasiya, milli maraq və mənafelər Azərbaycanın mövcud reallıqları prizmasından dəyərləndirilərkən bu sahədə dövlət siyasəti formalaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, bu siyasətin əməli konturları müəyyənləşdirilərkən ölkənin malik olduğu təbii, maddi, elmi – texniki, maliyyə və kadr potensialı hökmən nəzərə alınmalıdır. Dünya təcrübəsi göstərir ki, o ölkələr milli iqtisadiyyatın restrukturizasiyasını mümkün qədər az itki və qısa müddət ərzində səmərəli reallaşdıra bilirlər ki, birincisi, onlar milli iqtisadiyyatın prioritetlərini real qiymətləndirir və onların reallaşdırılmasının ardıcıl və optimal mərhələlərini düzgün müəyyənləşdirirlər. Milli iqtisadiyyatın prioritetləri mütləq, nisbi və amillər üzrə üstünlükləri dəyərləndirilərkən mövcud potensialla yanaşı elmi-texniki tərəqqinin perspektiv inkişaf istiqamətləri sahəsində gələcəkdə dinamik və davamlı iqtisadi artım üçün yaradıla bilən imkanlar, habelə ölkəmizdə bazar münasibətlərinin formalaşdırılması və inkişafı nəticəsində əlverişli investisiya, sahibkarlıq mühitinin yaxşılaşdırılması mümkünlüyü və sairə nəzərə alınmalıdır. Mövcud iqtisadi ədəbiyyata əsaslanaraq qeyd etmək istərdik ki, transformasiya şəraitində milli iqtisadiyyatın restrukturizasiyası yolu ilə milli iqtisadiyyatın formalaşdırılması və inkişafı bir çox zəruri mərhələlərdən keçməlidir[1].

---

[1] M.Əhmədov. «Qloballaşma və Milli iqtisadiyyatın formalaşması. Bakı, 2003

Ш.Гаджиев. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития, Киев, 2000, стр. 99 - 101

Г.Юзбашев. «Реструктуризация промышленности Азербайджана», Баку, 2003

Р.Джабиев. «Социально – экономическое развитие Азербайджанской Республики за годы независимости», Баку, 2005

Birincisi, transformasiyanın ilkin mərhələsində istehsalın aşağı düşməsi dayandırılmalı, makroiqtisadi sabitlik təmin olunmalı, həm də makroiqtisadi sabitlik təkrar istehsal prosesinin bərpasına istiqamətlənməklə yanaşı iqtisadi artımın dinamikliyini təmin etmək üçün zəruri maddi – texniki potensialın yaradılmasına xidmət etməlidir.

İkincisi, bu proseslə paralel olaraq bazar sisteminin «oyun qaydalarının» qanunvericilik hüquqi-normativ və institusional bazası yaradılmalıdır.

Üçüncüsü, əvvəlki mərhələdə yaradılmış zəmin ölkədə investisiya mühitinin yaxşılaşdırılması, xarici və daxili investorların milli iqtisadiyyatın dəyişən tələblərə uyğun yenidən qurulmasını əməli cəhətdən reallaşdırmaq lazımdır.

Dördüncüsü, bu mərhələdə milli iqtisadiyyatın strukturunun yenidən qurulmasının xarakterinə və sürətinə mövcud iqtisadi potensialın texniki – texnoloji səviyyəsinin aşağı müvafiq olaraq rəqabət qabiliyyətinin aşağı olması, emal sənaye sahələrinin inkişafına neqativ təsir göstərmiş. əksinə qısa müddətdə hasiledici sənaye sahələrinin yüksək sürətlə inkişaf etməsinə səbəb oldu.

Beşincisi, neft hasilatı və ixracının kəskin artması sayəsində respublikamızda əldə olunan böyük neft gəlirləri sayəsində artıq 2003-cü ildən başlayaraq qeyri-neft sektorunun intensiv inkişafı milli iqtisadiyyatın strukturunda hiss olunacaq quruluş irəliləyişləri müşahidə olunurdu.

Altıncısı, transformasiya prosesinin ilk onilliyində yaradılan potensial və yüksək artım sürəti respublikamızda milli iqtisadiyyatın nəinki sahə, eləcə də regional strukturunun təkmilləşdirilməsi ilə bağlı əsaslı regional inkişaf proqramları qəbul etməyə və uğurla reallaşdırmağa imkan vermişdir.

Yeddincisi, son beşillikdə regional inkişaf sahəsində əldə olunan uğurlar artıq bu gün ölkəmizə milli iqtisadiyyatın təkmilləşdirilməsi və xarici iqtisadi tarazlığının təmin edilməsi probleminin əməli cəhətdən yaxın gələcəkdə strateji bir məqsəd kimi qarşıya qoymağa imkan vermişdir.

Son illərdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi sahəsində əldə olunan imkanlar onun yeni mərhələyə daxil olması üçün real potensial yaratmışdır.

Səkkizincisi, artıq bu mərhələdə milli iqtisadiyyatın strukturu iqtisadi və sosial inkişafın tarazlığına, səmərəliliyi artırmağa və nəhayət, davamlı inkişafa keçid üçün real zəmin yaratmağa imkan verəcəkdir. Deməli, bu zaman söhbət sadəcə olaraq, milli iqtisadiyyatın strukturunda ayrı-ayrı sahələrin xüsusi çəkisinin kəmiyyət dəyişməsini deyil, onun milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi, qloballaşan dünyada Azərbaycanın milli maraq və mənafelərini səmərəli reallaşdırmaq mümkünlüyündən gedir.

Göründüyü kimi, keçid dövründə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi müxtəlif mərhələlərdən keçməklə külli miqdarda daxili və xarici amillərin təsirinə məruz qalır. Ona görə də bu problemi strateji baxımdın həll etmək üçün mövcud reallıqları, dünya təcrübəsini və dünyada baş verən qloballaşma proseslərini özündə ehtiva edən struktur siyasəti formalaşdırılmalıdır. Bu zaman çalışmaq lazımdır ki, yaranan imkan və şəraitə uyğun olaraq mərhələ – mərhələ reallaşdırılsın. Həm də emal sənaye sahələrinin üstün inkişafı uyğun hasiledici sənaye sahələrinin inkişafı ilə sıx bağlı olsun, digər tərəfdən elə bir iqtisadi və sosial infrastruktur bazası yaradılmalıdır ki, o bütünlükdə milli iqtisadiyyatın dinamik və davamlı inkişafını təmin etməyə imkan versin. Əlbəttə, görünür yaxın gələcəkdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi xarakterinə ayrı – ayrı sahələrin fond, material və əmək tutumunun səviyyəsi də mühüm təsir göstərəcəkdir. Çünki bu gün ölkəmizdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi problemi elə bir həddə gəlib çıxmışdır ki, artıq bu gün hər hansı bir sahənin üstün inkişafı müəyyənləşdirilərkən bazar prinsipləri saxlanılmaqla milli iqtisadiyyatın tarazlı, dinamik inkişafı, habelə sosial problemləri ön plana çıxır.

M.Porter qeyd edirdi[1] ki, hər hansı bir sahənin daxili və xarici bazarda fəaliyyət göstərməsindən asılı olmayaraq o 5 qüvvənin təsiri altında formalaşır: yeni rəqiblərin yaranma təhlükəsi; təchizatçıların ticarət etmək qabiliyyəti; mövcud rəqiblərlə mübarizə; alıcının ticarət etmək qabiliyyəti; əvəzləyici əmtəə və xidmətlərin yaranma təhlükəsi.

Qeyd etmək lazımdır ki, rəqabətin xarakterini müəyyən edən bu 5 qüvvənin təsiri altında hər bir sahənin texniki – iqtisadi xarakteristikasına uyğun sahənin strukturu formalaşır. Odur ki, hər bir sahənin strukturunun formalaşmasında mövcud reallıqlardan irəli gələrək onun spesifik quruluşu təşəkkül tapır. Başqa sözlə, bu və ya digər rəqabət üstünlüyünün təsiri altında bütünlükdə sənayenin və eləcə də, ayrılıqda götürülmüş sahənin strukturu formalaşır. Son nəticədə rəqabət üstünlüyünə malik olan firma və ya şirkət az istehsal xərcləri sərf etməklə daha çox mənfəət əldə etmək imkanına malik olur ki, bu sahibkara məhsul buraxılışının həcmini artırmağa, texniki səviyyəsini və məhsulun keyfiyyətini yüksəltməyə imkan verir. Bu da son nəticədə sahənin quruluşunda müəyyən struktur irəliləyişlərinin baş verməsinə səbəb olur.

Aydındır ki, bazar mexanizmi bu zaman sahənin strukturunun milli maraqlara və davamlı inkişafa keçid problemini müstəqil həll etmək iqtidarında malik deyildir. Bunu nəzərə alaraq, dövlət sərəncamında olan iqtisadi mexanizmlərdən, xüsusən dövlətin sifariş və kontrakt sistemindən istifadə edərək onun strukturunu zəruri istiqamətə yönəltməlidir. Həm də dövlət mexanizmi respublikada qarşılıqlı istehsal və texnoloji əlaqədə olan sahələrdə normal təkrar istehsal prosesini təmin etmək üçün mümkün qədər onların kompleks inkişafına çalışmalıdır.

Bu baxımdan ölkəmizdə davamlı inkişafın təmin edilməsi ilə bağlı həyata keçirilən iqtisadi siyasətin ana xəttini dövlətin struktur siyasəti təşkil etməlidir. Azərbaycan üçün bu

---

[1] М.Портер. Международная конкуренция. М., 1993.

problemin xarakterik cəhəti ondan ibarətdir ki, birincisi – tarixən milli iqtisadiyyatın strukturu ümumittifaq əmək bölgüsünün tələblərinə uyğun formalaşmışdır; ikincisi, ölkəmizdə iqtisadi potensialın I hissəsi Bakı – Abşeron iqtisadi zonasında yerləşdiyindən regional siyasət güclü deformasiyaya uğramış, üçüncüsü, milli iqtisadiyyatımızın dünya iqtisadiyyatına hərtərəfli və fəal inteqrasiyası iqtisadiyyatın strukturunun beynəlxalq bazarın tələblərinə uyğun yenidən qurulması və emal sənayesinin güclü inkişafı və rəqabət qabiliyyətinin artırılmasını təmin etməklə iqtisadiyyatın ixrac istiqamətinin gücləndirilməsi zərurətindən irəli gəlir[1].

Təhlil göstərir ki, iqtisadiyyatın tarixən formalaşan mövcud strukturu uzun bir dövrü əhatə edən ictimai əmək bölgüsü, cəmiyyətin sosial strukturunun xarakteri, tələbatın artması, elmi-texniki tərəqqi nəticəsində məhsuldar qüvvələrin inkişafı və mürəkkəbləşməsi proseslərinin təsiri altında yaranmışdır. Bu isə öz növbəsində iqtisadiyyatın strukturu və onun dinamikasının təhlili və qiymətləndirilməsinə müxtəlif elmi məktəblərin, modellərin prizmasından yanaşaraq müəyyənləşdirilməsini tələb edir.

Son vaxtlar ölkəmizin iqtisadçı alimləri arasında ictimai istehsalın strukturuna və sahələr arasında nisbətə böyük diqqət yetirilməsi müşahidə olunur. Bu özünü, hər şeydən əvvəl, son illərdə ölkəmizdə regional siyasətin gücləndirilməsinə onun rolunun artırılması ilə bağlı dövlətin həyata keçirdiyi regional inkişaf proqramında göstərir[2]. Bununla bağlı, professor Ə.Allahverdiyev yazır: «Azərbaycanın son illik inkişaf təcrübəsi göstərir ki, ölkədə səmərəli regional struktur siyasətinin istiqaməti bütövlükdə regional, eləcə də ayrı – ayrı

---

[1] A.Nadirov. Azərbaycan müstəqillik illərində. Bakı, 2001

[2] Əli Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2005

Г.Юзбашев. Реструктуризация промышленности Азербайджана. Баку, 2003

Əli Allahverdiyev. Bazar iqtisadiyyatının təşəkkülü prosesində dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri. Bakı, 2001

sahələr və sferalar üzrə regional məqsədli proqramların formalaşdırılması və reallaşdırılmasının ən optimal yoludur[1]».

Məlumdur ki, hər bir ölkə fərqli təbii əmək və fond resurslarına malik olur. Öz növbəsində ayrı – ayrı sahələr, istehsalatlar fərqli fond material və əmək tutumuna malik olurlar. Belə bir şəraitdə hər bir ölkənin malik olduğu resurslar balansı ondan istifadə dərəcəsi nəzərə alınaraq, optimal inkişaf yolunun seçilməsi və müvafiq strukturun formalaşdırılması prinsipial əhəmiyyətə malikdir. Bu problem ilkin mərhələdə təbii milli rəqabət üstünlüklərinə əsaslanan keçid iqtisadiyyatı ölkələri üçün xüsusi ilə böyük əməli əhəmiyyət kəsb edir. Çünki cəmiyyətdə sistem dəyişikliklərinin həyata keçirildiyi ümumən strateji prioritetlərin məqsədləri transformasiyaya uğradığı zaman daha sürətlə dəyişir. Bununla yanaşı iqtisadiyyatda müvazinətin təmin edilməsi ölkənin bütün resurslarından mümkün qədər səmərəli istifadə olunmasının iqtisadiyyatın bütün səviyyələrində strukturunun təkmilləşdirilməsini tələb edir.

Transformasiya dövründə ölkəmizdə davamlı inkişafı təmin etmək məqsədilə nəticəli struktur siyasətin hazırlanması və həyata keçirilməsi üçün baza milli iqtisadiyyatın və onun tərkib hissələrinin strukturlaşdırılması sahəsində bir sıra meyarlara görə bütün səviyyələrdə təsərrüfat sistemlərinin inkişafının amillər üzrə təhlili, dövlətin iqtisadi siyasətinin tərkib ünsürlərinin qarşılıqlı əlaqələrini özündə əks etdirir.

Adətən, iqtisadi ədəbiyyatda struktur siyasətinin xarakterinin daha çox xalq təsərrüfatının və eləcə də onun ayrı – ayrı sahə və sferalarının inkişafının prioritet istiqamətlərinin əsaslandırılması və seçilməsi ilə əlaqələndirirlər. Belə yanaşmaya uyğun olaraq, struktur siyasətinin tədqiqatçıları ölkənin iqtisadiyyatı və onun regionlarının balanslı inkişafının təmin edilməsi, ETT – nin nailiyyətlərinin mümkün ola bilən

---

[1] Ə.Allahverdiyev. Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri, Bakı, 2001, səh.177 - 178

nəticələrinin nəzərə alınmasını, istehsalın səmərəliliyinin yüksəldilməsi vəzifələrinin həll edilməsini və cəmiyyətin tələbatlarının ödənilməsini əsas məqsəd kimi irəli sürürlər.

Qeyd etmək lazımdır ki, bir çox postsovet respublikalarında olduğu kimi transformasiya proseslərinin ilkin onilliyində əməli baxımdan Azərbaycanda struktur siyasətinin xarakterində ciddi dəyişikliklər müşahidə olunmur. Belə ki, ənənəvi istehsal əlaqələrinin qırılması, təkrar istehsal prosesinin xarakterinin prinsipcə və keyfiyyətcə dəyişməsi, bazarın tələbinin strukturuna uyğunlaşma meyli kəskin maliyyə və investisiya çatışmazlığı, institusional dəyişikliklər və özəlləşdirmə prosesində yol verilən neqativ hallar, bir sözlə, dərin böhran və sistemin transformasiyası problemlərinin sosial – iqtisadi siyasətdə nəzərə alınmaması «xüsusən rəqabət qabiliyyətli olmayan» əslində bir çox sahə və istehsalatların müflisləşməsinə, sıradan çıxmasına, məhsulun həcminin kəskin azalmasına və əsasən xammal təyinatlı sahələrin (xüsusən, neft - qaz) inkişafına gətirib çıxartdı. Doğrudur, konrket statistik materialların və real iqtisadi proseslərin sistemli təhlili və qiymətləndirilməsi belə nəticəyə gəlməyə əsas verir ki, həmin illərdə məlum siyasi – iqtisadi proseslər şəraitində ölkənin iqtisadi siyasi müstəqilliyini, təhlükəsizliyini təmin etməyin əslində ikinci elə bir alternativ inkişaf yolu da yox idi. Çünki ölkədə makroiqtisadi sabitliyin təmin edilməsi Milli iqtisadiyyatın formalaşdırılması, onun maddi – texniki, texnoloji bazasının müasir beynəlxalq tələblərə uyğun yeniləşdirilməsi, iqtisadi, sosial, bazar infrastrukturunun yaradılması ölkəyə birbaşa güclü xarici investisiya qoyuluşunu, maliyyə resurslarının böyük miqyasda cəlb edilməsini tələb edirdi.

Keçidin ilkin mərhələsində ölkə daxili maliyyə, texniki resursların məhdudluğu respublikamızda əsaslı struktur siyasəti yeritməyə imkan vermirdi. Odur ki, bu mərhələdə ölkəmiz xarici investor dövlətlərinin istəklərinə uyğun sahələri üstün inkişaf etdirməyə və dünya bazarının tələblərinə cavab verməyən, lakin daxili bazarda ehtiyac olan və nisbətən az

səmərəli sahələri və istehsalatları bağlamaq, məhdudlaşdırmaq zəruriyyəti qarşısında qaldı.

Faktiki materialların təhlili göstərir ki, keçidin ilkin mərhələsində iqtisadiyyatın sabitləşdirilməsi və onun artımının həlledici resurs mənbəyi əslində hasiledici sənaye sahələrinin məhsulları olmuşdur. Daha çox xammal ixracı hesabına Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olması milli iqtisadiyyatın formalaşmasına, bir-birinə tam əks olan iki istiqamətdə təsir göstərir. Bütün bunları nəzərə alaraq, respublikamızda uzun bir dövrü əhatə edən struktur siyasəti, bir tərəfdən milli iqtisadiyyatın cari problemlərinin həllini, digər tərəfdən perspektivdən Azərbaycanın dünya iqtisadiyyatına qovuşmasını, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi problemlərini nəzərə almalıdır. Bu isə öz növbəsində ölkəmizdə neft sənayesinin respublikada digər sahələrin inkişafının aparıcı qüvvəsinə çevrilməsini, qeyri – neft sektorunun, üstün inkişafını prioritet vəzifə kimi qarşıya qoyur.

Son nəticədə dövlətin struktur siyasəti milli iqtisadiyyatın təkrar istehsal, sahə və institusional quruluşunun dəyişdirilməsinə istiqamətlənir. O da məlumdur ki, dövlətin struktur siyasəti ölkədə həyata keçirilən sənaye, investisiya, elmi – texniki, regional qeyri – neft sektorunun inkişafı və s. ilə bağlı formalaşdırılan siyasətlə müəyyənləşir. Bütün bu qeyd olunan istiqamətlər üzrə həyata keçirilən struktur siyasəti son nəticədə milli iqtisadiyyatın ayrı – ayrı sahələrinin qarşılıqlı əlaqəsini, asılılığını, mütənasibliyini aşkara çıxarmağa və bununla da onların ölkəmizdə davamlı inkişafı təmin etmək baxımından təkmilləşdirilməsi imkan və ehtiyatlarını müəyyənləşdirməyə imkan verər. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın strukturunda baş verən dəyişikliklər hər şeydən əvvəl ümumi daxili məhsulun strukturunda ayrı – ayrı sahə və sferaların xüsusi çəkisinin dəyişməsində özünü göstərir.

**Cədvəl 6.1.**

**2000 – 2007 – ci illərdəAzərbaycanda ÜDM – də ayrı – ayrı sahələrin xüsusi çəkisi (cəmə nisbətən % - lə)[1]**

| İllər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| ÜDM cəmi: | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Məhsulların istehsalı | 54,5 | 54,3 | 60,1 | 59,9 | 62,8 | 66,7 | 72,6 | 73,5 |
| Ondan: sənaye | 32 | 31,3 | 34,9 | 34,7 | 37,8 | 47,5 | 58,2 | 60,6 |
| Kənd təsərrüfatı | 18,1 | 16,2 | 14,2 | 13,1 | 11,5 | 9,2 | 6,9 | 5,8 |
| Tikinti | 4,4 | 6,8 | 10,8 | 12,1 | 13,5 | 10 | 7,4 | 7,1 |
| Xidmətlər istehsalı: | 45,5 | 44,7 | 39,9 | 40,1 | 37,2 | 33 | 27,4 | 26,5 |
| Nəqliyyat və rabitə | 14,5 | 13,5 | 9,8 | 9,6 | 9,5 | 8,1 | 7,3 | 5,7 |
| Sosial və qeyri – formal xidmətlər | 21 | 20,3 | 14,7 | 12,6 | 12,4 | 10,6 | 8,3 | 8,3 |
| Ticarət və xidmətlər | 6,1 | 6,4 | 7,7 | 7,9 | 8 | 6,9 | 5,8 | 5,5 |
| Məhsula və idxala xalis vergilər | 3,9 | 4,5 | 7,6 | 7 | 7,3 | 7,7 | 6,4 | 7 |

Cədvəl müəllif tərəfindən aşağıdakı materiallar əsasında hesablanmışdır. AzərbaycanRespublikasının statistik göstəriciləri. Bakı, 2001, səh.27, Azərbaycan Respublikasının Statistik göstəriciləri. Bakı, 2002, səh. 27, Azərbaycan Respublikasının Statistik göstəriciləri. Bakı, 2003, səh. 28, Azərbaycan Respublikasının Statistik göstəriciləri. Bakı, 2004, səh. 27, Azərbaycan Respublikasının Statistik göstəriciləri, Bakı, 2005, səh.28, Azərbaycan Respublikasının Statistik göstəriciləri, Bakı, 2006, səh. 28, Azərbaycan Respublikasının Statistik göstəriciləri, Bakı, 2007, səh. 28

Cədvəlin materiallarından göründüyü kimi 2000 – 2007-ci illərdə başlayaraq ÜDM – in strukturunda məhsul istehsalının xüsusi çəkisi artmaqla 54,5%-dən, 73,5%-ə, müvafiq olaraq xidmət sahələrinin xüsusi çəkisi 45,5%-dən 26,5%-ə enmişdir. Onu da xüsusi qeyd etmək lazımdır ki, bu illərdə sənayenin xüsusi çəkisi 27,4 bənd artmış, kənd təsərrüfatının xüsusi 12,3 bənd aşağı düşmüşdür. Struktur dəyişikliklərinin xarakterinin araşdırılması göstərir ki, kənd təsərrüfatı

məhsulları istehsalının bu illərdə artmasına baxmayaraq onun xüsusi çəkisinin azalması bu illərdə ölkəmizdə neft hasilatının və dünya bazarında xam neftin qiymətinin kəskin artması ilə izah olunur. Bu prosesləri eynən tikintiyə, eləcə də digər xidmət sahəsinə də aid etmək olar. Qeyd etmək lazımdır ki, bu məsələlər əvvəlki paraqrafda geniş təhlil olunduğu üçün burada onun geniş şərhinə ehtiyac duymadıq.

Aydındır ki, iqtisadiyyatda baş verən quruluş irəliləyişlərinin xarakterinə və dinamikasına sənayedə baş verən quruluş irəliləyişləri həlledici təsir göstərir. Belə ki, bir tərəfdən sənaye iqtisadiyyatın strukturunda çox böyük xüsusi çəkiyə malikdir, digər tərəfdən sənayedə baş verən quruluş dəyişiklikləri son nəticədə xalq təsərrüfatının başqa sahələrinin inkişafına çox güclü təsir göstərir. Məlumdur ki, Azərbaycanda müstəqilliyn ilkin mərhələsində (1993 – 2000 – ci illər) sənayenin strukturunda baş verən dəyişikliklər bu və ya digər istiqamətdə o qədər kəskin dəyişirdi ki, onların dəyişmə meylini obyektiv qiymətləndirmək əslində mümkün deyil. Digər tərəfdən həmin dövr iqtisadi ədəbiyyatda kifayət qədər öyrənilmişdir. Belə ki, 1991-1994-cü illərdə ölkəmizin dərin böhrana düçar olması emal sənayesi məhsullarının kəskin azalmasına gətirib çıxartdı. 1994-1996-cı illərdə həyata keçirilən sərt makroiqtisadi sabitləşmə tədbirləri həm hasildici, həm də emal sənaye sahələrində istehsalın aşağı düşməsi prosesini dayandırdı, mədənçıxarma sənayesi zəif sürətlə olsa da artmağa başladı. Ölkəmizdə həyata keçirilən iqtisadi strategiya öz bəhrəsini 2000 – ci ildən verməyə başladı. Doğrudur, ümum sənaye, xüsusən hasiledici sənaye üçün xarakterik olan bu proses emal sənayesində ancaq 2003-cü ildən müşahidə olunmağa başladı. Qeyd etmək lazımdır ki, respublika sənayesinin strukturunda baş verən prosesləri real qiymətləndirmək üçün onun quruluşunda hasiledici və emal sahələrinin nisbətinin dəyişməsini onların məhsulların artım dinamikası ilə qarşılıqlı əlaqə və asılılıqda təhlil etmək lazımdır.

Azərbaycanda sənaye sahələrində əməyin fondlarla silahlanma indeksi ilə fondverimi indeksinin qarşılıqlı əlaqədə

təhlili göstərir ki, ümumən sənaye üzrə əməyin fondlarla silahlanması sürətlə artdığı illərdə bir qayda olaraq fondveriminin tempinin zəifləməsi müşahidə olunur. Fikrimizcə, bu onunla izah olunur ki, yeni istifadəyə verilən istehsal gücləri heç bütün hallarda növbəti ildə ümumi məhsulun artımına səbəb olmur.

Məsələn, 2003-2005-ci illərdə 1999-cu ilə nisbətən sənaye üzrə fondlarla silahlanma 22,7%, 6,8% aşağı düşdüyü halda müvafiq olaraq 87%-dən 130,2%-ə yüksəlmişdir.

Qeyd etmək kifayətdir ki, mədənçıxarma sənayesində əvvəlki illərdə neft – qaz sənayesinə qoyulmuş investisiyalar nəticəsində son 5 ildə bu sahədə fondverimi çox sürətlə artmışdır.

Məlumdur ki, dövlət bölməsinin ümumi iqtisadiyyatın quruluşunda yüksək xüsusi çəkiyə malik olması, hər şeydən əvvəl dövlətin iqtisadi proseslərə müdaxilə imkanlarını xarakterizə edir. Bununla yanaşı Azərbaycanın təcrübəsi göstərir ki, dövlət strateji sahələri öz himayəsində saxlamaqla, hətta onun nisbətən ümumi daxili məhsulun strukturunda yüksək xüsusi çəkiyə malik olmadığı şəraitdə belə sosial – iqtisadi prosesləri davamlı inkişaf yoluna istiqamətləndirə bilmişdir. Bu baxımdan transformasiya şəraitində ÜDM – in strukturunda dövlət və qeyri – dövlət bölməsinin xüsusi çəkisinin dəyişmə dinamikasının təhlili maraq doğurur.

**Cədvəl 6.2.**

**1995 – 2007 – ci illərdə Azərbaycanda Ümumi Daxili Məhsulda dövlət və qeyri – dövlət bölməsinin payı, faizlə**

| | | 1995 | 2000 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | Dövlət | 69,7 | 29,2 | 27,0 | 26,7 | 26,5 | 22,2 | 19,0 | 16,0 |
| | Qeyri - dövlət | 30,3 | 70,8 | 73,0 | 73,3 | 73,5 | 77,8 | 81,0 | 84,0 |
| O cümlədən: sənaye | Dövlət | 94,5 | 51,6 | 39,0 | 33,3 | 31,5 | 15,5 | 12,5 | 11,6 |
| | Qeyri - dövlət | 5,5 | 48,4 | 61,0 | 66,7 | 68,5 | 84,5 | 87,5 | 88,4 |
| Tikinti | Dövlət | 21,0 | 36,5 | 4,2 | 3,0 | 2,4 | 9,6 | 18,2 | 28,1 |
| | Qeyri - dövlət | 79,0 | 63,5 | 95,8 | 97,0 | 97,6 | 90,4 | 81,8 | 71,9 |
| Kənd təsərrüfatı | Dövlət | 38,5 | 1,0 | 2,0 | 0,7 | 1,6 | 2,2 | 3,1 | 0,2 |
| | Qeyri - dövlət | 61,5 | 99,0 | 98,0 | 99,3 | 98,4 | 97,8 | 96,9 | 99,8 |
| Ticarət və restoranlar | Dövlət | 17,6 | 1,7 | 1,1 | 0,4 | 2,2 | 2,2 | 0,7 | 0,8 |
| | Qeyri - dövlət | 82,4 | 98,3 | 98,9 | 99,6 | 97,8 | 97,8 | 99,3 | 99,2 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Nəqliyyat | Dövlət<br>Qeyri - dövlət | 95,4<br>4,6 | 37,4<br>62,6 | 39,7<br>60,3 | 63,3<br>36,7 | 57,9<br>42,1 | 62,5<br>37,5 | 57,9<br>46,1 | 28,6<br>71,4 |
| Rabitə | Dövlət<br>Qeyri - dövlət | 90,0<br>10,0 | 42,2<br>57,8 | 28,6<br>71,4 | 9,1<br>90,9 | 18,3<br>81,7 | 19,8<br>80,2 | 20,4<br>79,6 | 21,7<br>78,3 |
| Sosial və sair xidmətlər | Dövlət<br>Qeyri - dövlət | 75,9<br>24,1 | 21,2<br>78,8 | 41,0<br>59,0 | 48,0<br>52,0 | 52,3<br>47,7 | 68,2<br>31,8 | 56,2<br>43,8 | 51,8<br>48,2 |

Cədvəl müəllif tərəfindən Azərbaycanın statistik göstəriciləri 2008 – ci ildə statistik məcmuənin materialları əsasında yaradılmışdır. səh 347 Bakı, 2008, «Səda nəşriyyatı»

Cədvəlin materiallarından göründüyü kimi, Azərbaycanda milli iqtisadiyyatın liberal prinsiplər əsasında formalaşması, başqa sözlə, ölkəmizdə həyata keçirilən özəlləşdirmə və dövlətsizləşdirmə proseslərinin reallaşdırılması ayrı – ayrı sahələrin ÜDM – in strukturunda artım intensivliyinin fərqli olmasına baxmayaraq qeyri-dövlət bölməsinin payının bir qayda olaraq kəskin artması müşahidə olunur. Aydındır ki, qeyri-dövlət bölməsinin xüsusi çəkisinin kəskin artması özəlləşdirmə proqramlarının reallaşdırıldığı 1995-2000- ci illərə təsadüf edir. Bununla belə ÜDM – in strukturunda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 2000-2007 – ci illərdə 13,2 bənd, o cümlədən sənayedə 40 bənd, onun da əsas hissəsi 2003–2007–ci illərə təsadüf edir.

Dövlət proqramları xətti ilə həyata keçirilən layihələr nəticəsində digər sahələrdən fərqli olaraq tikintiyə sosial və sair xidmət sahələrində geniş dövlət proqramlarının, xüsusən regionların sosial-iqtisadi proqramının reallaşdırılması sayəsində qeyri – dövlət bölməsinin xüsusi çəkisi 2004-cü ildən başlayaraq aşağı düşməsinə səbəb olmuşdur.

Yuxarıda qeyd olunanları ümumiləşdirməyə cəhd etsək onda deməliyik ki, cari və perspektiv məqsəd və vəzifələri nəzərə alaraq milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi ilə bağlı formalaşdırılan və həyata keçirilməsi nəzərdə tutulan səmərəli struktur siyasətinin işlənib hazırlanması ilk növbədə Milli iqtisadiyyatın transformasiyasının qanunauyğunluqlarını, xüsusiyyətlərinin nəzəri – praktiki cəhətdən araşdırılaraq dəyərləndirilməsini, onun inkişafını müəyyən edən

amil və şərtlərin qiymətləndirilməsini, müxtəlif səviyyəli iqtisadi proporsiyaların və iqtisadi əlaqələri amillər üzrə təhlil edərək onların təkmilləşdirilməsinin potensial imkanlarının aşkara çıxarılmasını, investisiya – innovasiya fəaliyyətinin, perspektiv inkişaf meyllərini müəyyənləşdirməklə onları Azərbaycanda milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi baxımından sistemləşdirilməsini, onun reallaşdırılmasının konkret mexanizmlərinin, vasitələrinin, yollarının müəyyənləşdirilməsini tələb edir.

Milli iqtisadiyyatın struktur bir sistem kimi hər şeydən əvvəl makroiqtisadiyyatın bütün ünsür və blokları ilə şərtlənir. Bununla yanaşı hər bir ölkənin iqtisadiyyatının strukturunun xarakteri, təkrar istehsal, investisiya, resurs innovasiya, maliyyə, əmək, texniki – texnoloji və s. obyektiv amil və şərtlər həlledici təsir göstərir. Bu amilləri burada geniş şərh etmədən xüsusi qeyd etmək lazımdır ki, eyni vaxtda müstəqil dövlətə çevrilən və yeni iqtisadi sistemə keçən respublikamızda iqtisadiyyatın strukturunun formalaşması xarakteri və dinamikasına qeyri – iqtisadi və subyektiv amillər həlledici təsir göstərmişdir.

Dövlətin yeritdiyi struktur siyasətinin səmərəliliyi həlledici dərəcədə bu prosesdə ölkədə həyata keçirilən elmi-texniki, innovasiya, sənaye, aqrar, valyuta, maliyyə – kredit siyasəti ilə uzlaşdırılaraq reallaşdırılmasından çox asılıdır.

Azərbaycanda milli iqtisadiyyatın formalaşdırılması və inkişafı ilə bağlı ümumilli liderimiz H.Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə başlanmış və bu gün prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial – iqtisadi inkişaf konsepsiyası öz bəhrəsini verir.

Təbii ki, ölkəmizin sosial – iqtisadi inkişafı sürətləndikcə, qarşımızda duran vəzifələr də mahiyyət etibarı ilə dəyişir. Bu gün ən aktual problemlərdən biri Milli iqtisadiyyatın quruluşunun təkmilləşdirməklə tarazlığının təmin edilməsindən və regionların inkişafının sürətləndirilməsindən ibarətdir.

Əlbəttə, real həyatda göstərilən meyllərin və proseslərin qarşılıqlı əlaqəsi heç də bütün hallarda qeyd etdiyimiz

ardıcıllığa uyğun gəlmir. Əslində bu mürəkkəb və ziddiyyətli bir prosesdir. Fikrimizcə, iqtisadiyyatın mövcud strukturunun səmərəli və onun xarakterində baş verən dəyişikliyin qiymətləndirilməsi üçün əsas meyar onların taktiki və strateji planda cəmiyyətin inkişafının əsas sosial – iqtisadi məqsədlərinə nail olmağa nə dərəcədə uyğun gəlməsi hesab edilməlidir.

Dünya təcrübəsi göstərir ki, qarışıq iqtisadiyyat şəraitində struktur dəyişikliklərinə dövlətin təsiri bazarın tələblərini nəzərə almalıdır. Lakin strukturun yenidən qurulması zamanı tamamilə bazar özünütəşkilinə doğru tam istiqamət almasını da düzgün hesab etmək olmaz. İqtisadiyyatda struktur dəyişikliklərinə səbəb olan bütün prosesləri və hadisələri xalq təsərrüfatı strukturunun müxtəlif tərəflərinə həm müsbət, həm də mənfi (cəmiyyətin maraqları mövqelərindən) istiqamətlərdə təsir göstərir və buna görə də tam təbiidir ki, dövlət struktur siyasəti metodlarının məcmusu proporsiyaların struktur əlaqələrinin bazar özünütənzimləmə amilləri ilə passiv şəkildə paralel yanaşı qala bilməz. o, öz təsiri ilə strukturun dinamik optimallığı meyarı əsasında struktur transformasiyanın bazar vasitələrinin müsbət təsirlərini gücləndirilməli və fəal dövlət müdaxiləsi sayəsində mənfi təsirlərini aradan qaldırmaq və ya zəiflətməyi təmin etməlidir.

Bütün bu qeyd olunan prinsiplər əsas göütürülərək, bu gün Azərbaycanda fəal struktur, xüsusən regional inkişafın həyata keçirildiyi indiki şəraitdə struktur deformasiyasının aradan qaldırılması, daxili və xarici bazarların tələblərinə uyğun olaraq struktur yenidən qurulması ilə yanaşı iqtisadi dinamikaının və iqtisadi davamlı inkişafın canlanması üçün müvafiq maddi – təşkilati, institusional zəmin yaradılır.

Bu baxımdan, hal – hazırda Azərbaycanda struktur irəliləyişlərinin o istiqamətlərinə üstünlük verilməlidir ki, qeyd olunan problemləri nisbətən qısa müddətdə, az xərclə, eyni zamanda səmərəli reallaşdırmağa imkan versin və bununla da respublikada Milli iqtisadiyyatın təşəkkülünə və onun valyuta ehtiyatlarının formalaşmasına xidmət etsin.

Dünya təcrübəsinin öyrəilməsi göstərir ki, inkişaf etmiş ölkələrdə struktur siyasəti əsasən texniki tərəqqinin qlobal inkişaf qanunauyğunluqlarından irəli gəlməklə, milli rəqabətin üstünlükləri və onların reallaşdırılmasına imkan verən və bazar mexanizmi tərəfindən tənzimlənən struktur siyasəti dövlətin uzunmüddətli sosial – iqtisadi və elmi – texniki inkişafının proqnozları ilə uzlaşdırılır.

Bu baxımdan müasir dövrdə dünyanın sənayecə inkişaf etmiş ölkələrində innovasiya proseslərinin güclənməsi əsasında iqtisadi artımın keyfiyyətinin dəyişdirilməsi, iqtisadiyyatın bütün sahələrinin elm tutumluluğunun artması, texniki tərəqqinin nəticələrinin istehsala tətbiqi müddətinin qısaldılması, elmi fəaliyyətin əməli xarakterinin kəskin güclənməsi, bütünlükdə ölkə iqtisadiyyatının təkrar istehsal baxımından qarşılıqlı zəncirvari əlaqə və asılılığının güclənməsi ilə xarakterizə olunan «Yeni iqtisadiyyat» formalaşır. Bunları nəzərə alaraq qloballaşma şəraitində perspektiv dövr üçün respublikamızda Milli iqtisadi inkişafın başlıca istiqamətləri dəyərləndirilərkən dünya iqtisadiyyatında müşahidə olunan bu aparıcı meylləri hökmən nəzərə almaq lazımdır.

Son illərdə ölkəmizin iqtisadi inkişafının makroiqtisadi təhlili göstərir ki, davamlı inkişafın ilkin şərtlərini formalaşdırmaq üçün innovasiya əsasında müvafiq struktur və ümumən optimal makroiqtisadi siyasəti formalaşdırmaq və əməli cəhətdən onun reallaşdırmaq lazımdır.

2003-2008-ci illərdə Azərbaycanda iqtisadi inkişafın makroiqtisadi baxımdan təhlili göstərir ki, son illərdə milli iqtisadiyyatın inkişafının prioritetləri tədricən dəyişir. Belə ki, iqtisadi artımın kəmiyyət oriyentirləri (ÜDM-in 2 dəfədən çox artması) iqtisadi artımın struktur prioritetləri, mexanizmləri keyfiyyətlə əvəz olunur. Aydındır ki, bu prosesdə dövlətin fəal investisiya və elmi-texniki siyasəti müəyyən dərəcədə ilkin mərhələdə sosial yönümlü bazar iqtisadiyyatının formalaşdırılması prinsipləri arasında müəyyən ziddiyyətli proseslər baş verir. Lakin o da bir həqiqətdir ki, davamlı sosial yönümlü bazar iqtisadiyyatının formalaşdırılmasının əsasını son

nəticədə milli iqtisadiyyatın innovasiya inkişaf modelinə keçid təşkil edir.

Bu strateji məqsədi reallaşdırmaq məqsədilə ölkəmizdə həyata keçirilən iqtisadi siyasət fikrimizcə aşağıdakı başlıca müddəaları nəzərə almalıdır. Birincisi, ölkəmizdə əldə olunan sabit və yüksək iqtisadi artım sürəti bu sahədə qarşıda duran strateji məqsədləri nəzərə alaraq formalaşdırmalı, ikincisi, yüksək artım sürəti struktur irəliləyişlərlə müşahidə olunmaqla iqtisadi artımın yanacaq kompleksindən asılılığını azaltmağa istiqamətlənməlidir.

Aydındır ki, irimiqyaslı struktur dəyişikliklərin həyata keçirilməsi zəruri investisiya qoyuluşları tələb edir. Bütün bunlar isə davamlı inkişafın təmin edilməsi baxımından investisiya siyasətinin təkmilləşdirilməsini tələb edir.

## 6.2. Qloballaşma şəraitində milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması iqtisadi təhlükəsizliyin təmin olunmasının mühüm istiqamətidir

Müasir dövrdə milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsinin çox mühüm istiqaməti bütünlükdə milli iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlıdır. Məlumdur ki, hər bir ölkənin milli iqtisadiyyatının potensialı, təkrar istehsal şərtləri, resurslar balansı, onlardan istifadə dərəcəsi, habelə beynəlxalq miqyasda onların reallaşdırılması mümkünlüyü istehsal olunan əmtəə və xidmətlərin dünya standartlarına nə dərəcədə cavab verməsindən, başqa sözlə, onun rəqabət qabiliyyətindən çox asılı olur.

Ümumən, milli iqtisadiyyatın fəaliyyətinin, onun rəqabət qabiliyyətinin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi prinsipial əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi mürəkkəb bir anlayış olmaqla, ayrı – ayrı iqtisadçı alimlər onu müxtəlif cür fərqli xarakterizə edirlər. Adətən, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi dedikdə, onun sahələrinin və firmalarının rə-

qibi üstələmək qabiliyyəti və beynəlxalq bazarlarda möhkəmlənmək dərəcəsi başa düşülür. Bu baxımdan milli rəqabət qabiliyyətinin öyrənilməsi bu və ya digər ölkədə rəqabət üstünlüklərinin nə qədər zəif və ya güclü olmasını xarakterizə etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, rəqabət qabiliyyətliliyi anlayışı iqtisadi ədəbiyyatda bəzən səmərəlilik kateqoriyası ilə qarışdırılır. Rəqabət qabiliyyətliliyi kateqoriyası səmərəliliyə nisbətən daha geniş bir anlayışdır. Məlumdur ki, səmərəlilik ümumi halda xərclərin nəticələrə nisbəti kimi hesablanır. Rəqabət qabiliyyətliliyi isə milli iqtisadiyyatın rəqabət mübarizəsinə olan qabiliyyətini və potensialını ifadə edir. Odur ki, qabiliyyət potensial bir imkan kimi reallışdırılmaya da bilər. Həm də, rəqabət qabiliyyətliliyi səmərəlilikdən fərqli olaraq resurs potensialından istifadənin mütləq göstəricisi olmamaqla yanaşı və onu kəmiyyətcə birbaşa qiymətləndirmək mümkün deyildir. Onun səviyyəsi hər hansı bir rəqabət aparan bazar subyektinə nisbətən müəyyənləşdirilir. Bu baxımdan rəqabət qabiliyyətliliyi, nəinki milli iqtisadiyyatın özünün keyfiyyət göstəricilərini yüksəltmək hesabına, habelə digər rəqiblərin müxtəlif yollarla inkişaf imkanlarının məhdudlaşdırması yolu ilə də əldə oluna bilər. Qeyd olunanlar o nəticəyə gəlməyə imkan verir ki, rəqabət qabiliyyəti anlayışı səmərəlilik kateqoriyası ilə yanaşı iqtisadi təhlükəsizliyin təmin edilməsi problemini də özünə daxil edir. Belə ki, səmərəlilik milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi prinsiplərinin gözlənilməsi ilə müşahidə olunmazsa, müəyyən dövrdən sonra onun rəqabət qabiliyyətliliyi nəinki artar, hətta onu xeyli aşağı sala bilər. İqtisadi ədəbiyyatda və eləcə də təcrübədə rəqabət qabiliyyətliliyi makro – mezo və eləcə də mikro səviyyədə, habelə super makro səviyyədə müəyyənləşir. Super makro iqtisadiyyat səviyyəsində rəqabət mübarizəsinin səviyyəsi qiymətləndirilərkən bu zaman nəinki ayrı – ayrı milli iqtisadiyyatlar eləcə də, böyük ölkələr birliyi başa düşülməlidir. O da məlumdur ki, qarşıya qoyulan məqsədə uyğun olaraq onun meyarları və reallaşdırılması mexanizmi müəyyənləşdirməlidir.

Bütün bu deyilənlər bizə belə qənaətə gəlməyə əsas verir ki, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi onun potensialının formalaşması və istifadə olunması strategiyası ilə müəyyənləşir. Təcrübə göstərir ki, bəzən rəqabət qabiliyyətinin artması son nəticədə, inhisarların yaranmasına gətirib çıxara bilər.

Transformasiya dövrünü yaşayan ölkələrin inkişaf xarakterinin öyrənilməsi göstərir ki, bir çox hallarda milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi texnoloji – innovasion amillər hesabına deyil, hər şeydən əvvəl ucuz istehsal amilləri hesabına əldə olunur. İstehsal amillərinin kifayət qədər olması nisbətən, ucuz qiyməti və habelə onlardan ekstensiv istifadə ancaq qısa müddətdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasını təmin edilə bilər. Belə bir vəziyyətdə çıxış yolu o ola bilər ki, bu mərhələdə əldə olunan yüksək gəlirləri milli iqtisadiyyatın texniki – texnoloji səviyyəsinin yüksəldilməsinə, onun strukturunun dəyişən tələbat və şəraitə uyğunlaşdırılmasına yönəldilsin. Müasir dövrdə milli iqtisadiyyatların qloballaşma proseslərinə fəal qovuşması onun rəqabət qabiliyyətliliyi və iqtisadi təhlükəsizliyinin səviyyəsinə güclü təsir göstərir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin müxtəlif vasitələrlə və yollarla əldə olunmasına baxmayaraq, ümumi halda onları üç qrupa bölmək olar. Birinci, resurs, yəni bu və ya digər resursların kifayət qədər olması, ikincisi, mövcud resurslardan istifadə dərəcəsi, üçüncüsü, milli iqtisadiyyatın rəqabət üstünlüyünü reallaşdırmağa imkan verən proqramm strategiyanın mövcudluğu.

Təhlil göstərir ki, qloballaşma şəraitində formalaşan milli iqtisadiyyatlar tədricən asıq iqtisadiyyata çevrilirlər. Açıq iqtisadiyyat şəraitində onların səmərəli fəaliyyətinin təmin edilməsi əhəmiyyətli dərəcədə onların beynəlxalq rəqabət qabiliyyətliliyi və ölkədə həyata keçirilən xarici iqtisadi siyasətin keyfiyyəti ilə birbaşa bağlı olur. Beləliklə, milli rəqabət qabiliyyətliliyi son nəticədə iqtisadi, sosial, siyasi, daxili və xarici və s. amillərlə şərtlənir.

Bütün bunlar öz növbəsində transformasiya şəraitində Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi anlayışının mahiy-

yətinin, meyarlarının göstəricilər sisteminin və onun təmin edilməsinin başlıca istiqamətlərinin nəzəri və əməli baxımdan bir daha dəyərləndirilməsini tələb edir.

Məlumdur ki, rəqabət qabiliyyətliliyi anlayışının sistemli tədqiqi ilk dəfə olaraq A.Smitin «Xalqların sələflərinin təbiəti və səbəbləri haqqında» (1776) əsərində öz əksini tapmışdır. O, merkantilistləri tənqid edəcək mütləq üstünlüklər nəzəriyyəsini irəli sürdü. O yazırdı: «Bir sıra ölkələr əmtəələri digərlərindən daha səmərəli istehsal edə bilərlər. Mütləq üstünlüklər əsasən təbii – iqlim şəraitinin olması hesabına əldə olunur». Daha sonralar David Rikardo (1817) Smitin ideyalarını inkişaf etdirməklə müqayisəli üstünlüklər nəzəriyyəsini irəli sürdü. Ümumi halda bu nəzəriyyəni ifadə etməyə cəhd etsək, qeyd etməliyik ki, hər bir ölkə fərqli məhsullar istehsal etdiyi və mütləq üstünlükləri nəzərə almaqla müəyyən məhsul istehsalı üzrə ixtisaslaşır ki, bu da onun digər ölkələrdən nisbətən ucuz başa gəlməsinə səbəb olur.

Mütləq və müqayisəli üstünlüklər nəzəriyyələrinin modifikasiyası öz əksini İsveç alimləri Eli Hekşer və Berti Olinin əsərlərində tapmışdır (1919 və 1935 – ci illər). İqtisadi ədəbiyyatda onların nəzəriyyəsi istehsal amillərinin nisbəti nəzəriyyəsi kimi daxil olmuşdur. Onlar belə hesab edirlər ki, əmək resursları, torpaq və kapitala nəzərən artıq olarsa, onda əmək xərcləri az olacaq, torpağın qiyməti və kapitala sərf olunan xərclər isə yüksək olacaq. Əgər əmək ehtiyatları məhduddursa, onda kapital və torpağa nəzərən dəyəri çox olacaqdır. Hekşer – Olin teoreminin mahiyyəti ondan ibarətdir ki, ölkə məhsul istehsalında daha effektiv istifadə olunan istehsal amillərini məhsulları ixrac edir, nadir istehsal amillərindən istifadə olunan məhsulları isə idxal edir.

Nobel mükafatı laureatı, rus mənşəli amerikan alimi V.V.Leontyev istehsal amillərinin nisbəti nəzəriyyəsini tənqid etdi. Onun «Leontyev ziddiyyəti» adı almış nəticələri Hekşer-Olinin nəticələrinə tamaamilə əks idi. Leontyev təhlildən belə nəticəyə gəldi ki, kapital artıqlığına baxmayaraq ABŞ – ın ixracında əmək elm tutumlu məhsullar üstünlük təşkil edir.

Halbuki, mövcud resurslar potensialına görə məntiqi olaraq ABŞ – ın ixracında kapital tutumlu məhsullar üstünlük təşkil etməli idi.

XX əsrin 90 – cı illərində M.Porter rəqabətli üstünlüklər nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyəyə görə rəqabətli üstünlük resurslardan istifadənin məhsuldarlığı dərəcəsini əks etdirir. Bu prinsip həm müəssisə, həm də milli iqtisadiyyat səviyyəsində özünü doğrultmuşdur.

M.Porter qeyd edirdi ki, uzun illər dünya iqtisadi ədəbiyyatında Hekşer – Olin modeli kimi təqdim olunan istehsal amillərinin rəqabət qabiliyyətliliyi sistemi (sonradan Samuelson tərəfindən genişləndirilən) bu gün öz əhəmiyyətini kəskin azaltmışdır.

Bu ideya ondan irəli gəlmişdir ki, son illərdə ölkədə əsas istehsal amillərinin mövcudluğundan asılı olaraq sahələrin rəqabət qabiliyyətinin aradan qalxması bütünlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin formalaşmasının şərtlərini əsaslı deformasiyaya uğratdı. Belə ki, ayrı-ayrı ölkələrə dair geniş faktiki materialları təhlil etmək əsasında M.Porter[1] çox orijinal bir rəqabət üstünlüyü nəzəriyyəsi yaratdı. Milli romb kimi adlandırılan bu konsepsiyanın əsasını ölkədəki makroiqtisadi mühiti formalaşdıran firmanın fəaliyyəti təşkil edir.

Ölkənin potensial rəqabət üstünlüyünün reallaşdırılması üçün əlverişli və qeyri-münasib mühiti yaradan determinantları «milli romb» müəyyənləşdirməyə imkan verir.

Bu determinantlar Porterə görə aşağıdakılardar.

Birincisi, amillərin parametri – başqa sözlə, ölkənin rəqabət üstünlüyünün müəyyən maddi və qeyri – maddi şəraiti: birincisi, istehsal amillərinin parametri ölkənin rəqabət qabiliyyətliliyinin formalaşdırılması, xüsusən, ixrac yönümlü sahələrin inkişafı üçün zəruri olan maddi və qeyri – maddi şərtləri (istehsal amillərin) əhatə edir. Bu zaman milli iqtisadiyyatın daxilində rəqabət mühitinin formalaşdırılması çox vacibdir. İkincisi, tələbin parametrləri. Bu, hər şeydən əvvəl,

---

[1]Международная конкуренция. М. 1993, стр. 896

alıcıların məhsulun kəmiyyətinə və keyfiyyətinə olan tələbatı olmaqla tələbin tutumunun və onun dinamikasını özündə əks etdirir. Üçüncüsü, milli iqtisadiyyatın hər hansı bir amil və sahə üzrə rəqabət üstünlüyü o halda kifayət qədər səmərə verir ki, o bu sahə ilə bağlı olan digər sahələrdə yüksək rəqabət qabiliyyətliliyinə malik olsun və müvafiq infrastruktura formalaşsın. Dördüncüsü, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsində tarixi – siyasi və ictimai mühitdən asılı olaraq baş verə bilən obyektiv və subyektiv amillər ölkənin rəqabət qabiliyyətinin səviyyəsinə çox güclü müsbət və yaxud mənfi təsir göstərə bilərlər. Məsələn, dünyada texnika və texnologiyada baş verə bilən inqilabi dəyişikliklər, «neft şoku» və yaxud dünya bazarında neftin qiymətinin kəskin yüksəlməsi və yaxud da da aşağı düşməsi, müvafiq olaraq milli və beynəlxalq valyuta məzənnələrinin kəskin dəyişməsi, münaqişələr, kataklizmalar və s. Azərbaycanın son illərdəki təcrübəsi göstərdi ki, əksər bu amillər Azərbaycanda milli iqtisadiyyatın inkişaf dinamikasına və xarakterinə güclü təsirini nəzərə alaraq  bu məsələlər, tədqiqatın digər bölmələrində araşdırmağa cəhd edilmişdir. Beşincisi, dünya  təcrübəsi onu da göstərir ki, hər hansı ölkənin kifayət qədər təbii əmək resurslarına üstünlüklərə görə malik olması hələ həmin ölkənin beynəlxalq miqyasda rəqabət qabiliyyətliliyini avtomatik təmin etmir. Başqa sözlə, bu üstünlüklərin reallaşması üçün ölkədə mövcud reallıqları, potensialı və eləcə də beynəlxalq miqyasda baş verən innovasiya proseslərini nəzərə alaraq iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılması müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan qloballaşma şəraitində milli iqtisadiyyatların dünya təsərrüfatı ilə qarşılıqlı əlaqə və asılılığının gücləndiyi müasir dövrdə hökumət tərəfindən dövlət və bazar mexanizminin optimal liberal və himayədar prinsiplərin ahəngdarlığına əsaslanan iqtisadi siyasətin yeridilməsi çox vacib və zəruri hallardan hesab edilməlidir.

Qeyd olunan prinsiplər baxımından Azərbaycanda milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin davamlı yüksəldilmə-

sini təmin etmək üçün Respublika Prezidentinin yanında rəqabət qabiliyyətliliyi üzrə xüsusi səlahiyyətli şuranın yaradılması məqsədəuyğundur.

2008-ci ildə inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrini bürümüş maliyyə böhranı bir daha o müddəanı sübuta yetirdi ki, sırf bazar mexanizmi nə qədər təkmil olsa da, o, bütün sosial iqtisadi və ekoloji problemləri səmərəli həll etmək iqtidarında deyildir. Ona görə də, inkişaf etmiş dünya ölkələri maliyyə böhranının dərin iqtisadi böhrana keçməsinin qarşısını almaq və yaxud yumşaltmaq məqsədi ilə maliyyə, istehsal sferasına, kredit münasibətlərinin, eləcə də beynəlxalq miqyasda valyuta münasibətlərinin dövlət tənzimlənməsi əsasında yenidən qurulması ilə bağlı ciddi tədbirlər reallaşdırdılar. Odur ki, bu gün dünya iqtisadiyyatına fəal inteqrasiya olan Azərbaycan bu proseslərdən müvafiq nəticələr çıxarmalı və özünün iqtisadi strategiyasına müvafiq korreksiya etməlidir.

Aydındır ki, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsinin əsas bazası hər bir ölkənin malik olduğu təbii resurslar balansıdır. Bu resurslar qiymətləndirilərkən nəinki onların mövcud vəziyyəti, həm də yaxın vaxtlarda texniki – texnoloji irəliləyişlərin təsiri altında dövriyyəyə daxil edilə bilən resurslar, habelə onlardan səmərəli istifadə imkanları nəzərə alınaraq qiymətləndirilməlidir. Bir çox ölkələrin tarixi təcrübəsi onu da göstərir ki, bəzən resursların kifayət qədər olması iqtisadi inkişaf dinamikasına və xalqın həyat səviyyəsinə neqativ təsir göstərə bilər. Başqa sözlə, «Holland sindromu»nun baş verməməsi üçün iqtisadi inkişafın çoxvektorlu (istiqamətli) inkişafına çalışmaq, təbii resursların reallaşdırılmasında əldə olunan gəlirlərin milli iqtisadiyyatın davamlı və dinamik inkişafının təmin edilməsinə və bütünlükdə onun rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənməsi çox zəruridir. Aydındır ki. milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında insan amili müstəsna əhəmiyyətə malikdir. Çünki müasir dövrdə davamlı insan inkişafını təmin etmədən iqtisadi və sosial inkişafın vəhdətinə

nail olmadan yeni biliklərə, informasiyaya malik intellektual potensial formalaşdırmadan, sadəcə olaraq milli iqtisadiyyatın davamlı və dinamik inkişafına nail olmaq mümkün deyildir. Bütünlükdə milli iqtisadiyyatın davamlılığının təmin edilməsinin amillər üzrə təhlili göstərir ki, o ölkələr bu sahədə kifayət qədər uğurlar qazanırlar ki, onların bu sahədə siyasəti çevik, dəyişən tələbə və şəraitə uyğunlaşmaq qabiliyyətinə malikdir.

Milli iqtisadiyyatın rəqabət üstünlüyünün formalaşmasında hökumətin obyektiv və subyektiv amillərin rolunun nəzərə alması zərurətini M.Porter xüsusi qeyd edir. Məsələn, dünya maliyyə bazarında başverən proseslər, resurslara qiymətin səviyyəsinin kəskin dəyişməsi, makroiqtisadi və siyasi sabitliyin mövcudluğu və ya pozulması onun səviyyəsinə güclü təsir göstərir. Eyni zamanda təcrübə göstərir ki, milli rəqabət üstünlüyünü formalaşdırmaq məqsədi ilə dövlət «milli rombun» determinantlarına bu və ya digər istiqamətdə təsir göstərə bilər. Həmin vasitələrə pul – kredit, vergi, gömrük, antiinhisar siyasəti və s. aid edilə bilər. Lakin burada bir məsələni də qeyd etmək lazımdır ki, həmin vasitələr düzgün iqtisadi siyasət vasitəsilə formalaşdırıla, inkişaf etdirilə bilər və yaxud əksinə zəifləyə bilər.

Son illərdə milli rəqabət qabiliyyətinə dair çox geniş yayılmış müasir konsepsiya formalaşır. İqtisadiyyatın qloballaşdığı bir dövrdə dövlətlər öz iqtisadi siyasətində rəqabət qabiliyyətinin  yüksəldilməsi məsələsini əməli fəaliyyətində nəzərə almağa çalışırlar. Bu məqsədlə 1985 – ci ildə ABŞ – da məhz rəqabət məsələləri ilə bağlı prezident yanında Komissiya yaradılmış və daha sonra 1986 – cı ildə isə Rəqabət qabiliyyətliliyi siyasəti üzrə Şura yaradılmışdır. Bu cür komissiyalar yaratmaq məqsədi ilə Avropa Şurasına üzv ölkələr 2001 – ci ildə Lissabon bəyannaməsini qəbul etdilər. Bəyannamənin əsas məqsədi bundan ibarətdir: «2001 – ci ildən başlayaraq Avropa Şurası dünyada böyük sayda daha keyfiyyətli iş yerlərinin və daha yüksək səviyyəli sosial birliyin yaradılmAsına qadir olan, iqtisadi biliklərə əsaslandırılmış və ən rəqabət

qabiliyyətli ölkələrin inkişaf təcrübəsi öyrənilib geniş yayılmalıdır.

2003-cü ildə BMT-nin inkişaf və ticarət üzrə konfransında qəbul olunmuş məruzəsində göstərilir ki, xüsusi şirkətlər baxımından onların əmtəələrin beynəlxalq rəqabətqabiliyyətinin hansı üsullarla iqtisadi məhsuldarlığın artırılması və yaxud əmək haqqının aşağı salınması, valyutanın devalvasiyası hesabına əldə olunması böyük əhəmiyyətə malik deyildir.

Lakin təhlil göstərir ki, bu problemə daha geniş sosial – iqtisadi nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Çünki rəqabət qabiliyyətliliyinin artırılmasında bu üsulların hansının əsas olması son nəticədə onların iqtisadi, sosial, rifah halı üçün tamamilə fərqli nəticələr verə bilər. Qeyd etmək istərdik ki, sistemin transformasiyasına məruz qalan, inzibati – amirlik sistemindən bazar sisteminə keçən ölkələr üçün bu problem xüsusi və əhəmiyyətlidir.

Belə ki, Azərbaycan kimi keçid iqtisadiyyatına malik ölkələrdə beynəlxalq miqyasda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi obyektiv və subyektiv amillərin təsiri altında baş verməklə bir sıra mərhələlərdən keçməlidir. Bununla bağlı M.Porterin bu problemə yanaşması maraq doğurur.

Onun fikrincə, bütün inkişaf edən iqtisadiyyatlar rəqabətin müxtəlif üsulları ilə fərqlənən üç mərhələdən keçir. Birincisi, «hərəkətverici qüvvəsi» istehsal amili olan iqtisadiyyat.

Bu zaman rəqabət mübarizəsində nailiyyət əsasən istehsal xərcləri ünsürlərinə qiymətin artması hesabına əldə olunur (bu da öz növbəsində təbii və insan resurslarının istifadəsindən çox asılı olur. İkincisi. «hərəkətverici qüvvəsi investisiyalar olan iqtisadiyyat.

Bu inkişaf yolunda rəqabət üstünlüyü hər şeydən əvvəl istehsalın səmərəlilik göstəricilərinin yüksəldilməsi hesabına əldə olunur. Üçüncüsü, «hərəkətverci» qüvvəsi, innovasiyalar olan iqtisadiyyat bu halda rəqabət üstünlüyü daha yüksək istehlak xassələrinə malik yeni məhsullar və texnologiyalar hesabına əldə olunur.

Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş bir çox ölkələrdə son onilliklərdə sənaye istehsalının, məşğulluğun, ixracın hətta texnoloji səviyyənin artmasına baxmayaraq ölkə üzrə ümumi iqtisadi səmərənin aşağı düşməsi ilə müşahidə olunmuşdur. Bu prosesi professor Кanenski[1] məcazi mənada «kasıblaşan iqtisadi artım kimi ifadə edir.

Qeyd etmək istərdik ki, əvvələr zəif inkişaf etmiş ölkələr üçün xarakterik olan bu proses indi daha çox inkişaf etməkdə olan ölkələr üçün xarakterik bir hala çevrilmişdir. Çünki bu ölkələr rəqabətə davam gətirmək üçün xərcləri aşağı salmağa çalışırlar. Çin və bir çox Şərqi Asiya ölkələri buna əyani misal ola bilərlər. Aydındır ki, milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq və müvafiq tədbirləri hazırlamaq üçün ilk növbədə onun mövcud səviyyəsini qiymətləndirmək lazımdır. Bu baxımdan milli iqtisadiyyatın rəqabət qabiliyyətinin qiymətləndirilməsində inkişaf etmiş ölkələrin təcrübəsi maraq doğurur. Xarici ekspertlər tərəfindən müəyyənləşdirilən metodologiya, metodika və praktiki hesablamalar bir qayda olaraq beynəlxalq rəqabət mühitinə əsaslanır. Qeyd etmək lazımdır ki, hər il ümumdünya iqtisadi form hüdudlarında rəqabət qabiliyyətliliyinin qlobal icmalı müəyyənləşdirilir. Həmin icmal ölkələrin sosial – iqtisadi və siyasi inkişafının sabit, qarşılıqlı əlaqə və asılılıqlarına əsaslanır. Ümumdünya iqtisadi forumu qlobal icmalı hazırlayarkən dünya bazarlarında rəqabət mübarizəsində bu və ya digər ölkənin üstünlüyünü və uğursuzluğunu müəyyən edən amilləri müqayisəli şəkildə təhlil edərək dəyərləndirməyə çalışır. Bu məqsədlə iqtisadi artımın və milli rəqabət qabiliyyəti indeksli amillər üzrə təyin edilir. Bu layihələrdə ölkənin rəqabət qabiliyyətliliyi adətən iqtisadi artımın perspektivi baxımından şərh olunur və adam başına real gəlirlərin yüksək gəlirliliyi təmin etmək qabiliyyəti nəzərdə tutulur. Başqa sözlə, makrosəviyyədə ölkənin rəqabət qabiliyyətliliyi ilə onun faktiki iqtisadi artımı eyni mənalı anlayış kimi şərh olunur.

---

[1] Российский экономический журнал №5 2003

Məsələyə bu cür yanaşılması transformasiya dövrünü yaşayan və formalaşmamış iqtisadiyyat üçün məqbul hesab edilə bilməz. Təcrübə göstərir ki, belə ölkələrdə, məsələn, Azərbaycanda yüksək iqtisadi artım sürətinin əldə olunmasına baxzmayaraq əhalinin real gəlirlərinin ona müvafiq artım əslində mümkün deyildir. Çünki milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi və səmərəliliyinin o artım tempinə müvafiq yüksəltmək üçün müəyyən vaxt lazımdır. Bununla belə bu göstərici inkişaf etmiş ölkələr üçün ona görə məqbul sayılır ki, həmin ölkələrdə iqtisadi inkişaf və sosial inkişafın nisbəti müəyyən bir məqbul səviyyədə artıq formalaşmışdır. Bunu nəzərə alaraq son vaxtlar milli iqtisadiyyatın rəqabət-qabiliyyətliliyini qiymətləndirmək üçün informasiya texnologiyalarından istifadənin dərəcəsi, iqtisadi artımda investisiya innovasiya amillərinin xüsusi çəkisi və bütünlükdə səmərəlilik göstəriciləri nəzərə alınaraq qiymətləndirməyə cəhdlər edilir. Qeyd etmək lazımdlır ki, keçid dövrünü yaşayan ölkələrdə milli iqtisadiyyatın rəqabət qabiliyyəti dəyərləndirilərkən kölgəli iqtisadiyyatın xüsusi çəkisi, vergidən yayınmanın dərəcəsi, korrupsiyanın səviyyəsi, əhalinin gəlirlərinin diferensiallaşma dərəcəsi və s. nəzərə alınmalıdır. Məlumdur ki, bu gün ölkəmiz qloballaşma proseslərinə fəal qoşulur. Belə bir şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə qlobal – xarici amillər güclü təsir göstərir. İqtisadi ədəbiyyatda milli iqtisadiyyatın rəqabət üstünlükləri qloballaşma şəraitində: birincisi, əmtəə və kapitallar bazarının liberallaşdırılması ilə xarakterizə olunan daxili iqtisadi, ikincisi, dövlət sərhədlərinin tarif-gömrük hədlərinin aradan qaldırılmasına istiqamətlənmiş beynəlxalq aktların müqavilələrin qəbulunu şərtləndirən xarici – iqtisadi proseslər, başqa sözlə, siyasi – hüquqi amillər, üçüncüsü, elmi – texniki amillər, dördüncüsü, sosial – mədəni amillər, beşincisi, etno – demokratik amillər və s. nəzərə alınmaqla qiymətləndirilməlidir.

Təcrübə göstərir ki, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsində ən əsas şərtlərdən biri düzgün iqtisadi strategiyanın seçilməsidir. Bu məqsədlə işlənib

hazırlanan strateji strategiya yuxarıda qeyd olunanlarla yanaşı iki mühüm şərtə söykənməlidir.

1. Bu strateji planlar beynəlxalq miqyasda dəyişən şəraitə və tələbata uyğun olmaq üçün daima yeniləşməli və ən başlıcası isə çevik olmalıdır.

2. Bu strategiya reallaşdırılarkən onun əməli cəhətdən düzgün reallaşdırılmasına çalışmaq lazımdır.

Digər mühüm cəhət rəqabət qabiliyyətliliyi ilə iqtisadiyyatın açıqlığının optimal həddinin gözlənilməsidir. Çünki milli iqtisadiyyatın, onun inkişaf səviyyəsinə uyğun olmayan dərəcədə açıqlığı daxili istehsalı məhdudlaşdırır, milli valyutanın məzənnəsini aşağı salır, bir sözlə, onun informasiya texnologiyalarından istifadə dərəcəsi, iqtisadi artımda investisiya – innovasiya amillərinin xüsusi çəkisi və bütünlükdə səmərəlilik göstəricilərinin səviyyəsi, habelə keçid dövrünü yaşayan ölkələrdə milli iqtisadiyyatın rəqabətqabiliyyətini dəyərləndirərkən kölgəli iqtisadiyyatın xüsusi çəkisi, vergidən yayınmanın dərəcəsi, korrupsiyanın səviyyəsi, əhalinin gəlirlərinin diferensiallaşma dərəcəsi və s. nəzərə alınmalıdır. Müasir dövrdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliynə qlobal – xarici amillər güclü təsir göstərir. Milli iqtisadiyyatın rəqabət üstünlükləri qloballaşma şəraitində, birincisi, əmtəə və kapital bazarının liberallaşdırılması ilə xarakterizə olunan daxili iqtisadi, ikincisi, dövlət sərhədlərinin tarif gömrük hədlərinin aradan qaldırılmasının istiqamətlənmiş beynəlxalq aktların müqavilələrin qəbulunu şərtləndirən xarici – iqtisadi proseslər, başqa sözlə, siyasi – hüquqi amillər, üçüncüsü, elmi – texniki amillər, dördüncüsü, sosial – mədəni amillər, beşincisi, etno - demokratik amillər və s. nəzərə alınmaqla qiymətləndirilməlidir. Bu baxımdan, fikrimizcə, bu gün Azərbaycanda iqtisadiyyatın açıqlığı dərəcəsi onun rəqabət qabiliyyətliliyi səviyyəsinə bir çox hallarda uyğun gəlmir ki, bu da son nəticədə iqtisadiyyatın xammal təyinatlı inkişafına və daxili istehsalın rəqabət qabiliyyətliliyinin aşağı olmasına səbəb olur. Bu problem Azərbaycanın ümumdünya ticarət təşkilatına daxili ilə bağlı məsələlərin həllində çox dəqiq və

ciddi surətdə nəzərə alınmalıdır. Əks təqdirdə bu Azərbaycanda milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi məsələlərinə neqativ təsir göstərə bilər.

Qeyd olunanları nəzərə alaraq, ölkəmizin malik olduğu zəngin təbii resurslar, intellektual potensial, Azərbaycanın qloballaşma proseslərində fəal iştirakı və son onillikdə bütün istiqamətlər üzrə yaradılmış potensial davamlı inkişaf konsepsiyasını işləyib hazırlamalıdır. Belə bir inkişaf konsepsiya tənzimləmə liberallaşma, institusional dəyişikliklər və geosiyasi prinsiplər üçlüyünün üzvi vəhdətdə götürülməsinə əsaslanmaqla milli iqtisadiyyatın səmərəli təkrar istehsal prosesinin formalaşmasına istiqamətlənməlidir.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın iqtisadi təhlükəsizlik və rəqabət qabiliyyətliliyi daimi əlaqədə və təsirdə olan br prosesdir. Belə ki, son nəticədə beynəlxalq miqyasda səmərəli fəaliyyət göstərən Milli iqtisadiyyatın formalaşdırılması bu iki prosesin səmərəli həllini tələb edir. Doğrudur, bunların hər birinin təmin edilməsi və reallaşdırılması mexanizmləri fərqli olsa da, onların biri digərini təmin edilməsində çox mühüm rol oynayır. Belə ki, Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi beynəlxalq miqyasda ölkənin iqtisadi inkişaf səviyyəsini səmərəliliyinin və onun nə dərəcədə effektiv reallaşdırılmasını xarakterizə edirsə, Milli iqtisadiyyatın iqtisadi təhlükəsiziyi ölkədə həyata keçirilən təkrar istehsal prosesinin ölkənin, cəmiyyətin və hər bir vətəndaşın uzunmüddətli maraq və mənafelərinin təmin edilməsinin çox mühüm şərtidir. Burada bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi müxtəlif səviyyələrdə iqtisadi və qeyri – iqtisadi vasitələrin tətbiqi, başqa sözlə dövlətin bu prosesə fəal müdaxiləsi yolu ilə təmin oluna bilər. İqtisadi təhlükəsizlik gözlənilməklə təmin olunan milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi ölkənin maraq və mənafeləri baxımından həlledici əhəmiyyət kəsb edir. Onu da qeyd etmək lazımdır ki, rəqabət qabiliyyətinin atırılması müxtəlif səviyyələrdə mikro, makro, mezo səviyyələrdə bazar subyektləri üçün bərabər rəqabət mühitinin yaradılmasını

tələb edir. Dünya təcrübəsi birmənalı surətdə təsdiq edir ki, iqtisadi cəhətdən əsassız yaradılan inhisarçılıq milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması imkanlarını minimuma endirir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması səviyyəsini qiymətləndirərkən yadda saxlamaq lazımdır ki, makro, mezo və mikro səviyyələrdə onun səviyyəsini xarakterizə edən göstəricilər fərqlənə bilər, həm də meyarları da uyğun gəlməyə bilər.

Transformasiya dövrünü yaşayan ölkəmizdə milli iqtisdiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi liberal prinsiplərlə effektiv himayədar siyasətin, habelə Milli iqtisadiyyatın tələbatlarına uyğun idxal və ixrac üzrə çevik gömrük tariflərinin tətbiqini tələb edir. Təcrübə göstərir ki, müvafiq struktur dəyişiklikləri həyata keçirmədən milli iqtisadiyyatın bütöv halda rəqabət qabiliyyətini təmin etmək mümkün deyildir. O da məlumdur ki, iqtisadiyyatın strukturunun yenidən qurulması müəyyən vaxt tələb edir və həm də bu proses bir neçə mərhələdə həyata keçirilə bilər. Ona görə də ilkin mərhələlərdə milli iqtisadiyyatın rəqabət qabiliyyətini təmin etmək üçün ölkədə istehsal olunan məhsulların rəqabət qabiliyyətini təmin etmək üçün dövlət gömrük tarifləri və qiymət vasitəsilə müəyyən dotasiya xarakterli tənzimləyici tədbirlər həyata keçirilməlidir. Ölkədə normal təsərrüfatçılıq mühitini yaratmaq və bununla da milli iqtisadiyyatın rəqabət qabiliyyətini təmin etmək üçün təbii inhisarçıların istehsal etdiyi məhsullara və göstərdikləri xidmətə qiymətlərin tənzimlənməsi ən vacib şərtlərdən biridir. Milli iqtisadiyyatın davamlı rəqabət qabiliyyətini təmin etmək üçün ölkədə elmin, təhsilin inkişafına, elm tutumlu yüksək texnoloji məhsullar istehsalına, bir sözlə, investisiyaların innovasiya xarakterinin gücləndirilməsinə və dövlət büdcəsi hesabına vəsaitlərin üstün yönəldilməsi də mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, Azərbaycanda bu gün iqtisadiyyatın sahələri daha çox neft məhsullarının istehsalı və satışından və onlara qiymətin səviyyəsindən çox asılıdır. Ona görə də, Azərbaycanda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında milli

prioritetlərin müəyyənləşdirilməsi, xüsusən, qeyri-neft sektorunun üstün inkişafının təmin edilməsi müstəsna əhəmiyyətə malikdir.

Davamlı inkişaf baxımından rəqabət qabiliyyətliliyini dəyərləndirərkən milli iqtisadiyyatın üç cəhətini xüsusi qeyd etmək lazımdır – birincisi, milli resurslar üzərində dövlət nəzarətinin, beynəlxalq iqtisadi əlaqələrdə bərabər əsasda iştirak etmək üçün milli rəqabət üstünlüklərindən istifadə etmək qabiliyyətti, bütün iqtisadi sistemin möhkəmliyi və davamlılığı, səmərəli sahibkarlığın inkişafına təminatın verilməsi, bütün mülkiyyət subyektlərinin marağının qorunmasını, özü öz inkişafına real zəmin yaratması, başqa sözlə, milli maraqları qorumaqla səmərəli investisiya-innovasiya siyasətinin reallaşdırması imkanı və dərəcəsinin nəzərə alınması mühüm əməli əhəmiyyət kəsb edir.

Qloballaşma şəraitində milli iqtisadiyyatda təkrar istehsal prosesinin dinamikliyinin artırılması onun dünya təsərrüfat sistemində həyata keçirilən təkrar istehsalda vahid bir həlqədə reallaşdırılmasını tələb edir. Odur ki, innovasiyaya əsaslanan davamlı inkişaf modelinə keçidi qarşısına məqsəd qoyan Azərbaycan kimi, ölkələr özünün iqtisadi strategiyasını bu prinsiplər əsasında Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi strategiyası formalaşdırmalıdır.

Təcrübə göstərir ki, bir çox ölkələrdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin edilməsi milli rəqabətqabiliyyətliliyi; xarici rəqabət qabiliyyətliliyi; daxili rəqabətqabiLiyyətliliyi; resurslar üzrə rəqabət qabiliyyətliliyi; institutların, hökumət və qeyri – hökumət təşkilatlarının rəqabət qabiliyyətliliyi və s. istiqamətlər üzrə təsnifləşdirilir.

Mövcud iqtisadi ədəbiyyatda rəqabət qabiliyyətliliyinin iki forması – qiymət rəqabəti və qeyri – qiymət rəqabəti fərqləndirilir. Məlumdur ki, qiymət rəqabətinin təməlində xərclər və məhsuldarlığın səviyyəsi durur. Bununla belə, M.Porter öz tədqiqatlarında[1] rəqabət qabiliyyətinin qeyri –

---

[1] М.Портер. Международная конкуренция. М., 1993 стр. 416

qiymət amilini əsas götürür: «Rəqabət qabiliyyətinin qeyri-qiymət amili o deməkdir ki, iqtisadiyyatın nəticələrinin tədavül prosesində öz əmtəəsini satarkən əsas faktor kimi qiymət götürülmür».

Qeyd etmək lazımdır ki, Beynəlxalq miqyasda milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi zamanı təcrübədə 300-dən çox göstərici üzrə 100 – dən çox qiymətləndirmə vasitələrindən istifadə olunur. Həm bu zaman adətən aşağıdakı amillər tədqiqata cəlb edilir; iqtisadi potensial artım tempi; sənaye istehsalının səmərəliliyi; elm və texnikanın inkişaf səviyyəsi, elmi – texniki nailiyyətlərin istehsala tətbiqi sürəti; ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı dərəcəsi, daxili bazarın həcmi və dinamikliyi; maliyyə sisteminin elastikliyi; dövlət tənzimlənməsinin iqtisadiyyata təsiri səviyyəsi; qüvvəsi ilə təmin olunma dərəcəli və ixtisas səviyyəsi; sosial – iqtisadi və daxili iqtisadi vəziyyəti və s.

Qeyd etmək lazımdır ki, rəqabət qabiliyyətinin qiymətləndirilməsi əməli cəhətdən birbaşa və dolayı yolla həyata keçirə bilər. Məlumdur ki, birbaşa qiymətləndirmə zamanı dövlətin strateji məqsədlərinin məcmusuna nail olmaq məqsədilə milli sərvətin istifadə edilmə dərəcəsi aydın dəyərləndirilməlidir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik dərəcəsinin dolayı qiymətləndirilməsi Ümumi Milli Məhsulun (ÜMM) hər vahidinin istehsalına sərf olunan resursların həcmini nəzərə alaraq həyata keçirilir.

Bu zaman müqayisə olunan milli iqtisadiyyatların obyektinin seçilməsi xüsusilə əhəmiyyətlidir. Bu problemi səmərəli həll etmək üçün dünya təcrübəsində rəqabət qabiliyyətliliyinə görə ölkələrin reytinqini qiymətləndirmək üçün müxtəlif metodlar işlənib hazırlanmış və onlar təcrübədə istifadə olunurlar.

Məlumdur ki, beynəlxalq reytinqlərdə transformasiya dövrünü yaşayan Azərbaycan rəqabət qabiliyyətliliyinə görə ənənəvi olaraq inkişaf etməkdə olan ölkələr qrupuna aid edilir. Adətən keçid iqtisadiyyatına malik olan belə ölkələr yüksək siyasi və iqtisadi qeyri – sabitlik, əlverişsiz investisiya

mühiti, eləcə də təsərrüfat fəaliyyəti üçün çox böyük risklərlə xarakterizə olunurlar.




**Şəkil 6.1. Milli iqtisadiyyatın sosial-iqtisadi konsepsiyasını nəzərə almaqla rəqabət üstünlükləri determinantlarının ümumi sistemi**

Faktiki materialların təhlili göstərir ki, Azərbaycanda keçidin ilkin mərhələsində həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində 2003-2007-ci illərdə o beynəlxalq miqyasda dinamik və uğurla inkişaf edən ölkələr sırasına daxil olub və müvafiq olaraq ayrı-ayrı beynəlxalq təşkilatların müəyyənləşdirdiyi reytinqlərində öz mövqeyini xeyli möhkəmləndirmişdir. Göstərmək kifayətdir ki, 2003-2008-ci illərdə Azərbaycanda ÜDM 2,6 dəfə artmalıdır ki, bu da dünyada ən yüksək göstəricilərdən biridir. Ölkənin maliyyə imkanlarının artması nəticəsində ümumi investisiyaların quruluşunda daxili mənbələrin xüsusi çəkisi xeyli artmışdır. Belə ki 2003-cü ildə ümumi investisiya qoyuluşunda xarici və daxili maliyyə

mənbələrinin nisbəti 70/30 olduğu halda 2008-ci ildə bu rəqəm 40/60 – a nisbəti kimi olmuşdur.

Azərbaycanın milli iqtisadiyyatının rəqabət qabiliyyətinin dünya standartlarına tam uyğun olması üçün hələ bu istiqamətdə çox işlər görmək lazımdır. Bu baxımdan milli iqtisadiyyatı formalaşdırarkən onun rəqabət qabiliyyətliliyini artırmağı dövlətin iqtisadi siyasətinin əsasında qoymalıdır. Ölkənin iqtisadiyyatının rəqabət üstünlüyü öz növbəsində mövcud elmi – texniki, istehsal, təşkilati – idarəetmə, sosial – mədəni, mənəvi potensialla və onlardan istifadənin səviyyəsi ilə şərtlənir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi onun formalaşmasının, təhlükəsizliyinin, son nəticədə əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, başqa sözlə, milli iqtisadiyyatın formalaşması və inkişafında mühüm rol oynayan insan amilinin inkişafının mühüm şərti kimi çıxış edir.

Təhlil göstərir ki, bu gün rəqabət qabiliyyətliliyi əməli cəhətdən real olaraq daha çox ayrı – ayrı firma və şirkətlər arasında müşahidə olunur. Məhz ona görə də təsadüfi deyildir ki, müasir rəqabət problemi üzrə nəzəriyyəçilər öz tədqiqatlarında daha çox firma və şirkətlərin materiallarına istinad edirlər. Lakin hər bir firma və şirkət milli iqtisadiyyatın subyekti olduğuna görə iqtisadiyyatın mikro səviyyəsində rəqabət qabiliyyətinin artırılması makroiqtisadiyyatın inkişafına bilavasitə təsir göstərir və buna görə də dövlət bütün səviyyələrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasında maraqlı olur. Çünki milli iqtisadiyyatın makroiqtisadiyyat səviyyəsində rəqabət qabiliyyətinin yüksəldilməsi son nəticədə ölkəni xarici təhlükədən qorumağa imkan verir. Bunu nəzərə alaraq hər bir müstəqil dövlət, o cümlədən Azərbaycan xarici bazarlar üçün istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılmasına xüsusi qayğı göstərməlidir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin edilməsinin əməli problemlərini tədqiq edərkən qeyd etmək lazımdır ki, dünya bazarına ixrac olunan məhsulların rəqabət qabiliyyətinin artırılmasının ümumi qanunauyğunluqlarından biri də məhsulların fərdi dəyərinin bazar dəyərindən aşağı

olması və ya tələb və təklif qanunlarının təsiri ilə dünya qiymətlərinin formalaşması ilə bağlıdır. Bunun özü isə onunla əlaqədardır ki, hər bir ölkə o məhsulları ixrac edir ki, onlarda həmin məhsulların istehsalı üçün tələb olunan istehsal amilləri başqa ölkələrə nisbətən çox və ya ucuzdur. Həmin məhsulların ixracı iqtisadi cəhətdən ölkə üçün daha səmərəli olduğundan ölkə həmin məhsulların ixacına şərait yaradır. Bunun əksinə, dövlət o məhsulları idxal edir ki, həmin məhsulların istehsalı ölkə daxilində xarici bazarlardakı qiymətinə nisbətən daha yüksəkdir. Ona görə də əməli fəaliyyətdə əsas diqqət iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq üçün ölkənin müvafiq istehsal amilləri ilə yaxşı təmin olunduğu sahələrin üstün inkişafına yönəldilməsidir. Milli iqtisadiyyatın inkişafında insan amilinin rolu kəskin artmışdır. Başqa sözlə, M.Porterin qeyd etdiyi kimi, tərəqqi amilləri təbii amilləri üstələmişdir. Adətən, tərəqqi amillərinə elmi – texniki, informasiya potensialı, əhalinin ümumi təhsil səviyyəsi, xüsusən, müvafiq istehsal sahələri üzrə ixtisaslı kadrların kəmiyyət və keyfiyyəti aid edilir.

Bütün bunlarla yanaşı 2004-cü ildə rəqabət davamlılığını ölçmək məqsədilə təkmilləşdirilmiş göstəricilər toplusu və onun əsasında və Qlobal Rəqabət İndeksi yaradılıb. Bu indeks 12 əsas istiqamət üzrə tərtib olunmuşdur. Burada təhsil və elm, texniki tərəqqi, makroiqtisadi sabitlik, səmərəli idarəetmə, qanunun aliliyi, korrupsiyaya qarşı mübarizə səviyyəsi, şəffaf və təkmil işləyən qurumlar və başqa istiqamətlər əsas götürülmüşdür. Dünya İqtisadi Forumunun Qlobal Rəqabət İndeksi məruzəsində 2007-2008 – ci illərdə Azərbaycanda bütün istiqamətlər üzrə güclü inkişaf müşahidə olunduğu qeyd olunub. Ümumi göstəricilər üzrə siyahıya daxil olan 131 ölkə arasında Azərbaycan 66 – cı yerdə qərarlaşıb.

Həmin məruzədə institusional qurumlar üzrə aparılan qiymətləndirmə zamanı hökumət, hüquqi şəxslərin, qurumlarının fəaliyyəti, onların əldə etdiyi gəlir və ölkənin inkişafında rolu nəzərə alınıb. Azərbaycan bu göstərici üzrə dünya

ölkələri arasında 83 – cü, ölkəmiz MDB ölkələri arasında isə liderlər qrupuna aid edilmişdir.

Azərbaycan infrastruktur səviyyəsinə görə də bir sıra dünya ölkələrini qabaqlayaraq qeyd olunan hesabatda 60 – cı sırada yeri tutur ki, da MDB məkanında ən yüksək pilə hesab olunur. Hesabatın makroiqtisadi göstəricilərlə bağlı bölməsində də Azərbaycanın göstəriciləri kifayət qədər yaxşıdır. Ölkəmiz bu göstəriciyə görə dünya ölkələri arasında 23-cü yeri tutur. Ali təhsil və təlimlə bağlı göstərici üzrə Azərbaycan dünya ölkələri arasında 89-cu, MDB ölkələri arasında isə 4-cü yerdədir. Bu göstərici istehsal prosesinin və istehsal məhsulunun keyfiyyətini artırmaq baxımından vacib amil hesab olunur. Ölkəmiz maliyyə bazarının təkmilləşdirilməsi üzrə dünya ölkələri arasında 91-ci sıradadır. Bu göstərici ölkədə effektiv maliyyə sektorunun möcudluğunu və vətəndaşların maddi resurslardan səmərəli istifadə edildiyini göstərir. Qlobal Rəqabət İndeksinin Texniki Hazırlıq istiqaməti üzrə də göstəricilər qənaətbəxş hesab etmək olar. Azərbaycan dünya ölkələri arasında 83-cü bazarın həcmi meyarlarına görə Azərbaycanın göstəriciləri uğurlu hesab oluna bilər, belə ki, bu göstəriciyə görə ölkəmiz dünya ölkələri arasında 71-ci sahibkarlığın təkmilləşdirilməsi istiqaməti üzrə MDB ölkələri arasında birinci dünya ölkələri arasında isə 80 – ci sıradayıq. İnnovasiya istiqaməti üzrə isə Azərbaycan dünya ölkələri arasında 54 – cü yerdə qərarlaşıb.

Bunlarla yanaşı Dünya İqtisadi Forumunun təqdim etdiyi Sahibkarlığın Rəqabətə Davamlılığı İndeksi üzrə də Azərbaycanı sahibkarlığın rəqabət davamlılığı indeksinə görə 78-ci, şirkətlərin əməliyyat incəlikləri və strategiyalarına görə 79-cu, Milli sahibkarlıq mühitinin keyfiyyətinə görə isə 72 – ci yerdədir.

Ümumilikdə Rəqabətə Davamlılıq İndeksi üzrə göstəricilərimiz MDB ölkələri arasında lider olduğumuzu əyani şəkildə göstərir. 2008-ci ildə Azərbaycanda adambaşına düşən ÜDM-in miqdarı isə 4400 dollardır. İqtisadiyyatın daha da inkişaf etməkdə olması, əhalinin rifahının getdikcə yaxşılaş-

ması, sosial problemlərin həlli istiqamətində atılan addımlar və digər sahələr üzrə həyata keçirilən ciddi tədbirlər yaxın gələcəkdə Azərbaycanın rəqabət qabiliyyətliliyinin daha da artacağını deməyə əsas verir.

Dünya ölkələrindəki mövcud siyasi və iqtisadi azadlıqların səviyyəsi ilə bağlı müxtəlif beynəlxalq təşkilatlar tərəfindən hesabatlar hazırlanır. Təcrübə göstərir ki, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya İqtisadi Forumu və bu kimi ciddi təşkilatların hazırladıqları hesabatlar daha obyektiv olur. Çünki bu təşkilatlar dünya ölkələrindəki obyektiv vəziyyəti əks etdirməyə çalışır. Nüfuzlu ekspertlər də adətən hər hansı ölkədəki siyasi və iqtisadi azadlıqlardan danışarkən yuxarıda adı çəkilən təşkilatların hesabatlarına istinad edirlər.

Beləliklə, Dünya İqtisadi Forumunun hazırladığı hesabatlarda da Azərbaycandakı iqtisadi inkişaf öz əksini tapıb. Rəqabət qabiliyyətliliyinin artırılması indeksi rəqabət qabiliyyətliliyində orta müddətli perspektivdə yüksək sürət əldə etməyə imkan verən iqtisadi siyasət və institutları cəmləşdirir.

Rəqabət qabiliyyətliliyinin cari indeksi isə mikroiqtisadi institutların göstəricilər modelini, bazar quruluşunu və hazırki vəziyyətdə rifahın yüksək səviyyəsini təmin edən iqtisadi siyasətdə istifadə edilir. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası dərinləşdikcə Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin edilməsi meydana yeni problemlər çıxarır. Bu baxımdan ölkəmizin UTT-yə üzvlüyü ilə əlaqədar danışıqlar prosesində, göstərilən problemlərin həllinin zəruriliyi əsas gətirilməklə, digər ölkələrlə müqayisədə daha ağır şəraitdə üzvlük prosesinə qoşulduğumuzun nəzərə alınmasına nail olmaq olduqca vacibdir. Əks təqdirdə, indiyə kimi dövlətin maliyyə ehtiyatlarının məhdudluğu ucbatından yetərincə himayə olunmayan və investisiya qıtlığı səbəbindən texniki və texnoloji cəhətdən yeniləşməsinin ləngidiyinə görə hazırda rəqabət qabiliyyəti aşağı olan, lakin cari və potensial müqayisəli üstünlüyə malik olan istehsal sahələrinin inkişaf perspektivlərini zəiflətmiş olarıq.

Bu məqsədlə, hazırda aşağıdakı istiqamətlərdə işlərin gücləndirilməsi tələb olunur:

- Milli iqtisadiyyatın ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlükləri, iqtisadi potensialının mövcud vəziyyəti və daxili tələbatı nəzərə alınmaqla mütərəqqi strukturunun formalaşdırılmasının başa çatdırılması;
- Sosial – iqtisadi, texniki – istehsal, elmi – texniki və ekoloji sahələrdə beynəlxalq standartlara nail olunması;
- Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və buna mütənasib şəkildə daxili bazarın xarici rəqabətə açılması, o cümlədən daxili və dünya bazar qiymətlərinin uyğunluğunun təmin olunması;
- Milli valyutanın dönərliliyinin təmin olunması;
- Ölkədə investisiya mühitinin daha əlverişli vəziyyətə gətirilməsi, başqa sözlə, Milli iqtisadiyyatın investisiya cəlbediciliyinin artırılması;
- Ölkənin iqtisadi təhlükəsizliynin və Milli mənafelərinin təmin olunması;
- Milli iqtisadiyyatın strateji vacib müəssisə və sahələrinin saxlanılması haqqında UTT ilə razılaşma proteksionist siyasətin işlənib hazırlanması və reallaşması;
- ÜTT daxilolma təşəbbüskeşliyilə, məşğulluğun səviyyəsinin potensial azalmasilə şərtlənən itkilərin kompensasiyası ilə əlaqədar olan xərclərin, komplektləşdirici məmulatlar, yarımfabrikatlar və ümumsənaye təyinatlı məmulatlar üzrə səmərəli kooperasiyasının inkişafı hesabına istehsal xərclərinin azaldılması üçün şəraitin yaradılması məqsədi ilə kiçik biznesə himayədarlığın gücləndirilməsi çox zəruridir.

Bir sözlə, UTT-yə üzvlükdən yetərincə faydalanmaq üçün islahatlar dərinləşdirilməklə dünya bazarında kəskinləşən rəqabət şəraitində milli iqtisadiyyatın inkişafının davamlılığını təmin edə bilən zəmin hazırlanmalıdır. ÜTT-yə üzvlük məqsəd kimi deyil, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunması üzrə aparılan işlərin yalnız mərhələlərindən biri kimi çıxış etməlidir. Ümumən aparılan

araşdırmalar göstərir ki, müasir dövrdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması son nəticədə ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinin mühüm şərtinə çevrilir.

## 6.3. Azərbaycanın milli iqtisadi inkişaf modeli enerji təhlükəsizliyinin təminatının ən etibarlı vasitəsidir

Müasir şəraitdə dünyada baş verən iqtisadi proseslər milli iqtisadiyyatların inkişafına müxtəlif səviyyədə təsir göstərir. Belə ki, bir tərəfdən qloballaşma prosesi dünya ölkələri arasında əməkdaşlığın aparılmasına, inteqrasiyanın dərinləşməsinə imkan yaradırsa, digər tərəfdən dünya maliyyə böhranının gedişatına ölkələr səviyyəsində eyni dərəcədə təsir göstərmir. Belə ki, hər bir ölkədə yeridilən iqtisadi siyasətin həyata keçirilməsindən asılı olaraq onun dünya təsərrüfat sisteminə verəcəyi töhfə fərqli xarakter daşıyır. Bu baxımdan Azərbaycanda həyata keçirilən iqtisadi islahatlaşma prosesi eyni zamanda ölkənin iqtisadi təhlükəsizliyinin qorunması naminə və milli mənafelərin reallaşması baxımından həyata keçirilən iqtisadi siyasət ölkənin milli inkişaf modelini formalaşdırır ki, bu da qarşıya qoyulan iqtisadi-sosial, mədəni-ekoloji və digər tədbirlərə hədəflənən məqsədlərin uğurla həyata keçirilməsinə təkan verir. Ona görə də Azərbaycanın milli mənafelərinin qorunmasına və iqtisadi təhlükəsizliyinə təminat verən enerji təhlükəsizliyinin təmin olunması əsasında onun Avropa məkanında rolunun artmasına təkan verir. Hazırda dünyada baş verən maliyyə böhranı enerjidaşıyıcılarına ciddi təsir göstərsə də, hal-hazırda enerji təhlükəsizliyi milli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi formalaşmaqdadır. Hazırda Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində Avropa ölkələri ilə aparılan iqtisadi əməkDaşlığın həyata keçirilməsi milli iqtisadi inkişaf modelinin mühüm tərəfi kimi özünü əks etdirir. Bununla əlaqədar olaraq qeyd etməliyik ki, Azərbaycan hal-hazırda təkcə region üçün

deyil, Avropanın enerjisinin təmin edilməsində rolu durmadan artır. Bu, hər şeydən əvvəl, onunla əlaqədardır ki, Azərbaycan Avropa enerji təhlükəsizliyinin təmin olunmasındakı mövqeyi birmənalı və dəyişilməz xarakter daşıyır. Ona görə Ki, Azərbaycan öz enerji layihələrini uzunmüddətli əməkdaşlıq çərçivəsi daxilində qarşılıqlı faydalanma və kommersiya prinsipləri əsasında həyata keçirməyə üstünlük verir. Həm də Azərbaycan enerji təhlükəsizliyi ilə əlaqədar problemə müstəqil iqtisadi layihələrin qəbul olunduğu 1994-cü ildəki «Əsrin müqaviləsi»ndən başlayır. Avropada enerji təhlükəsizliyi məsələsi isə son illərin problemi kimi qarşıya çıxmışdır. Azərbaycanda enerji təhlükəsizliyinin təmin olunması istiqamətində Şərq-Qərb dəhlizi istiqamətində 4 boru kəməri layihəsinin həyata keçirilməsi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması ölkəmizin iqtisadi əməkdaşlığının genişlənməsi iqtisadi təhlükəsizliyin təmin olunmasına geniş şərait yaratmışdır.

Hazırda ölkəmizin NABUKO layihəsində tranzit ölkə kimi çıxış etmək iqtidarında olması, eləcə də lazım gələrsə zəruri tam resurs təminedici rolunu oynamasına hazır olması enerji təlükəsizliyinin təminində xüsusi rolunun oynayacağına təminat verir. Eləcə də Türkmənistan və Qazaxıstan qazının ötürüləcəyi TransXəzər qaz kəmərində iştirak etməsi və onun Avropaya çatdırılması həm ölkəmizin rəqabət mühitində iştirakına imkan yaradır, həm də yeni regional əməkdaşlıq səviyyəsinin formalaşmasına təkan verir. Aparılan geoloji kəşfiyyat tədqiqatlar nəticəsində aydınolur ki, Azərbaycan külli miqdar neft-qaz ehtiyatlarına, eləcə də zəruri enerji infrastrukturuna malik olması onun təlükəsizlik imkanlarının genişlənməsinə və möhkəmlənməsinə təkan verir. Belə ki, Azərbaycanın 5 milyard ton həcmində neft ehtiyatına, 5,5 trilyon kubmetr həcmində qaz ehtiyatına malik olması onu göstərir ki, yaxın gələcək üçün xüsusən də alternativ enerji mənbələrində istifadə olunması müddətinə Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu olduqca böyükdür. Təkcə belə bir faktı qeyd etmək lazımdır ki, əgər

2003-cü ildə Azərbaycanda cəmi 15 milyon ton neft, 5,5 milyard kubmetr təbii qaz hasil olunurdusa, hazırda 2008-ci ildə ölkədə 52 milyon ton, 2009-cu ildə 61 milyon ton, 2010-cu ildə 63 milyon ton neft hasil olunacaqdır. Yaxın 5 il ərzində isə Azərbaycan 200 milyon ton neft ixracına malik olacaqdır. 2008-ci ildə Azərbaycanda 27 milyard kub metr, 2009-cu ildə 32 milyon kubmetr qaz hasil olunmuşdur, 2012-ci ildə bu rəqəmin 40 milyard kubmetrə çatacağı gözlənilir. Bu da NABUKO-nun layihə gücünün illik buraxılışından 1,3 dəfə çoxdur.

Əsrin neft müqavilələrinin reallaşmasına maneələr, vaxtaşırı olaraq Xəzər dənizinin sektorlarının sərhədləri məsələlərinin ortaya atılması, Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) neft və qaz kəmərlərinin çəkilməsinə hər cür maneələr, hazırda isə Türkiyə-Gürcüstan-Bakı dəmir yolunun çəkilməsinə qarşı atılan əks addımlar məhz müstəqilliyin qarşısını almağa yönəldilmiş tədbirlərdir.

Qeyd etmək lazımdır ki, ölkəmiz dünyada baş verən qloballaşma prosesindən kənarda qala bilməz. Azərbaycan dünyada gedən qloballaşma proseslərinə qoşulmaq üçün öz təbii sərvətlərindən istifadə etmişdir. Bu taleyüklü məsələnin həllində əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası önəmli rol oynamışdır. Ölkə mənafelərinin qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) əsas ixrac neft və qaz boru kəməri layihələrinin gerçəkləşməsi Azərbaycan Respublikasını ümumdünya inteqrasiya proseslərinə daxil etdi və ölkəmizi dünyanın aparıcı dövlətlərinin strateji maraq kəsb edən bölgəsinə çevirdi.

BTC neft kəməri Azərbaycanın uzunmüddətli inkişafını təmin edəcək və iqtisadi potensialını gücləndirəcək, iştirakçı ölkələr – Azərbaycan, Gürcüstan və Türkiyə arasında mövcud olan əməkdaşlığı möhkəmləndirəcək, regional təhlükəsizlik və bütövlükdə regionun sosial-iqtisadi inkişafı üçün əlverişli

imkanlar yaradacaqdır. BTC vasitəsilə Xəzər neftinin dünya bazarlarına nəqli Şərq-Qərb enerji dəhlizinin əhəmiyyətini daha da artıracaqdır.

Cənub-Şərqi Avropa qaz şəbəkəsi sisteminin inkişafı kontekstində qa kəməri şəbəkələrinin inkişaf etdirilməsi üzrə Türkiyə və Yunanıstan, həmçinin Yunanıstan və İtaliya arasında əldə olunmuş razılıq çərçivəsində, BTƏ qa kəməri Azərbaycan qazını Qara dəniz və Avropa İttifaqı istehlakçılarına çatdıracaqdır. Kəmər Xəzər regionu və Mərkəzi Asiyadan Türkiyənin şərqinə böyük həcmdə qaz nəql edəcəkdir.

Neft strategiyası nəticəsində Azərbaycan Respublikası Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOGATE, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 iyul 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimində söylədiyi nitqində bildirdi ki, çətinliklərə baxmayaraq «1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı: «Azəri-Çıraq-Günəşli» neft yataqlarının işlənməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarına müxtəlif yollarla ixrac edilir. Azərbaycanda son 12 il ərzində təkcə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulmuşdur… Xarici neft şirkətlərinin neft sektorundakı fəaliyyəti bizə imkan verir ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin».[1]

[1] «Xalq» qəzeti, 14 iyul 2006-cı il

Hər bir milli iqtisadiyyatın mövcudluğu və davamlı inkişafı üçün aparıcı sahələr olur və bu sahələr iqtisadiyyatda, sosial-iqtisadi inkişafda dayaq rolunu oynayır. Azərbaycan üçün bu cür dayaqlardan biri ehtiyatları kifayət qədər olan neft və qazdan ibarət təbii sərvətlərdir. Bu sərvətin hasil edilməsi və satışının təşkil edilməsi birincidərəcəli vəzifə kimi qarşıya qoyuldu. Belə bir vəzifənin yerinə yetirilməsi milli iqtisadiyyatın möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsinin əsasını qoymaq demək idi. Ancaq Azərbaycanın öz daxili vəsaiti hesabına zəngin neft ehtiyatlarını hasil edib dünya bazarına çıxarması çətin idi. Buna görə də xarici kapitalın gücündən istifadə etmək lazım gəldi və xarici şirkətlərlə neft müqavilələri bağlandı. Azərbaycan hökuməti müxtəlif variantlı sazişlərdən Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) üstünlük verərək «Əsrin müqaviləsi»ni imzaladı.

«Əsrin müqaviləsi»20 sentyabr 1994-cü ildə imzalanmışdır. İndiyə kimi Azərbaycanda quruda və dənizdə yerləşən neft yataqlarından hasil olunacaq enerji resurslarının pay bölgüsü üzrə (HPBS) 26 saziş imzalanıb. Bu sazişlərdən ikisinin icrası dayandırılıb (yataqların yerləşdiyi ərazi mübahisəli olduğuna görə), 11 saziş ləğv edilib. 13 saziş axtarış-kəşfiyyat və istismar mərhələsindədir. Bu sazişlər üzrə bütövlükdə 630-640 milyon ton neft və 51 milyard kubmetr qaz hasil etmək planlaşdırılır ki, bunun üçün də 22318 milyard ABŞ dolları həcmində vəsait tələb olunur. Özünün texniki-iqtisadi parametrlərinə görə ən mühüm HPBS sazişləri «Azəri-Çıraq-Günəşli» və «Şahdəniz» yataqları üzrədir. Proqnoza görə, «Azəri-Çıraq-Günəşli» layihəsi üzrə neft hasilatının ən yüksək dinamik səviyyəsi 2010-cu ildə olacaq: həmin il neft hasilatı 54,9 milyon tona çatdırılacaq. «Şahdəniz» layihəsi üzrə isə 2010-cu ildə 2,4 milyon ton kondensat hasil olunacaq.

Ölkənin zəngin neft və qaz ehtiyatlarına malik olması elmi əsaslandırılmış faktlarla təsdiq olunur. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) məlumatına görə, hazırda «Azərbaycanda neftlə zəngin 57 yataq mövcuddur ki, bundan 18-i Xəzər dənizinin Azərbaycan

sektorunda, qalanı isə qurudadır. Ümumiyyətlə, Xəzər hövzəsi 30 milyard tona yaxın neft, 18-20 trilyon $m^3$ həcmində qaz ehtiyatlarına malikdir ki, bu da dünyanın karbohidrogen resurslarının 15 faizini təşkil edir. Xəzər hövzəsinin Azərbaycana aid bölməsində isə 3-5 milyard ton neft, 5 trilyon $m^3$ həcmində qa ehtiyatı mövcuddur». Bütün bu ehtiyatlar Azərbaycanın dayanıqlı inkişafı üçün çox böyük imkanlardır. Ekspertlərin hesablamalarına görə, yalnız «Əsrin müqaviləsi»nin reallaşdırılması hesabına respublikamızın əldə edəcəyi vəsaitin məbləği 2030-cu illədək bütövlükdə 30 milyarddan 155 milyard ABŞ dollarına qədər (xam neftin bazar qiymətlərinin 15 dollar/barel və 45 dollar/barel variantları üzrə) ola bilər.[1]

Bütün bu gəlirlər Azərbaycanın milli iqtisadiyyatının, sabit, dinamik inkişafı üçün çox güclü imkandır. Neft layihələrinin reallaşdırılması milli iqtisadiyyatın bütün zəruri sahələrini inkişaf etdirmək məqsədilə digər əlverişli imkanLardan da istifadə etmək üçün şərait yaradır və çoxsahəli milli iqtisadiyyatın yaradılması meylini gücləndirir. Artıq 1998-ci ildən etibarən «Əsrin müqaviləsi» layihəsi üzrə neft hasil olunur. 1998-2007-ci illər ərzində respublikamızda 181,1 milyon ton neft hasil olunub ki, bunun da 100 milyon tondan artığı «Əsrin müqaviləsi» çərçivəsində Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən hasil olunub və müvafiq mənfəət nefti əldə edilib. Təkcə 2008-ci ild 51,7 milyon ton neft hasil olunmuşdur ki, bu da 1995-ci ildəkindən 5,6 dəfə çoxdur.[2]

Milli iqtisadiyyat o zaman mökəmlənib müstəqil olur ki, onun təbii sərvətlərinin hasilatından, satışından, daşınmasından əldə olunan gəlirlər iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsinə, əhalinin işlə təmin olunmasına, sosial sahələrin, sosial və istehsal infrastrukturlarının inkişafına sərf edilsin.

---

[1] Bağırov S. Beynəlxalq şəffaflıq təşəbbüsləri və Azərbaycan. Bakı, 2005, s. 38

[2] Azərbaycanın statistik göstəriciləri. 2005.Bakı, «Səda», 2006, s. 516, 526; Azərbaycan rəqəmlərdə, 2008. Bakı, «Səda»,2008,s. 73

Ölkədaxili istehlakın təmin edilməsi, milli istehsalın daxili istehlaka uyğun qurulması və ona xidmət etməsi milli iqtisadiyyatın davamlı inkişafının zəruri şərtidir. Ölkədaxili istehlak sabit olmalı və onun qeyri-sabitliyinə yol vermək olmaz, əks halda istehsalın da sabitliyi pozular. Buna görə də neft və qaz hasilatının artması ilə bütövlükdə iqtisadiyyatın, o cümlədən də sənayenin digər sahələrinin inkişafı arasında kəskin fərqin yaranmasına yol verilməməlidir. Neft hasilatının ilbəil artması ilə sənayenin inkişaf istiqaməti və quruluşunda ciddi dəyişikliyin olacağı gözlənilir. Bununla neft-qaz sənayesinin güclü olması ölkə iqtisadiyyatının digər sahələrinin inkişafına təsir edəcəkdir. Sözsüz ki, bu neft gəlirləri hesabına olacaq və milli iqtisadiyyatın müstəqilliyi artacaqdır.

«Üç dəniz əfsanəsi», «Əsrin ən böyük layihəsi», «Avrasiyanın ən böyük arteriyası» adlandırılan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri layihəsinin reallaşması Azərbaycanın milli iqtisadiyyatının müstəqilliyinin təmin edilməsi üçün əvəzsiz infrastruktur obyektidir, onun ən böyük uğurudur. BTC milli iqtisadiyyatımızın inkişafının ən başlıca istiqamətlərindən biridir. O «Əsrin müqaviləsi»nin həyata keçirilməsi nəticəsində Azərbaycanın Xəzər dənizindəki sektorundan hasil ediləcək neftin dünya bazarına təhlükəsiz çıxarılmasını mümkün etdi. 2006-cı il iyulun 13-də BTC-nin açılış mərasimi oldu, neft dünya bazarına axmağa başladı. BTC dünya əhəmiyyətli bir ixrac kəməridir, milli sərhədləri aşsa da, Azərbaycan iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir, onun inkişafının real göstəricisidir.

BTC əsas ixrac boru kəməri dünyanın 8 ölkəsindən olan 10 səmdar şirkət tərəfindən inşa edilmişdir. BTC kəmərinin açılış mərasimindəki çıxışında BP şirkətinin prezidenti Con Braun göstərdi ki, kəmərin uzunluğu 1774 kilometrdir və bu layihə 4 milyard dollar sərmayənin qoyulması nəticəsində, 12 ilə başa gəlmişdir. Kəmərin 443 kilometri Azərbaycan ərazisində inşa edilmişdir. Kəmərin inşasında Azərbaycanın (ARDNŞ) iştirak payı 25,00 faizdir. BTC kəmərinin ötürücülük qabiliyyəti – gündəlik 1 milyon barel, illik 50 milyon

tondur. «Əsrin müqaviləsi»nin davamı olan BTC kəməri XXI əsrin ilk 10 illiyinin ən böyük layihəsidir. Milli iqtisadiyyatımızın müstəqilliyinin güclü dayaqlarından biridir.

Kəmərin istismarından respublikamız 20 ildə 2,4-2,5 milyard dollar gəlir əldə edə biləcəkdir. Əgər gələcəkdə Qazaxıstan neftinin bir hissəsinin də BTC ilə daşınacağını nəzərə alsaq, əldə olunacaq gəlirin daha çox olacağını söyləmək olar.

Bütün layihələr iqtisadi cəhətdən eyni səmərəliliyə malik olmur. Ceyhandan Rotterdamadək neftin daşınması Qara dəniz yolu ilə nəzərdə tutulan alternativ variantlarla müqayisədə 2 dəfə ucuz başa gəlir. Ceyhan Türkiyənin birinci dərəcəli limanıdır və böyüktutumlu yük gəmilərini qəbul edə bilir. Xəzərdə üzə bilməyən və Bosfor boğazına yerləşməyən nəhəng okean tankerləri Ceyhan limanına asanlıqla daxil ola bilir. Bunlara görə də Qara dəniz və Xəzər limanlarına nisbətən Ceyhanda neft daşıyan tankerlərə xidmət tarifləri çox ucuzdur. Öz neftini dünya bazarına ixrac edən Azərbaycan üçün bu çox faydalıdır.

BTC-nin üstünlüyü və Azərbaycan üçün xeyri yalnız onun iqtisadi səmərəsi ilə mədudlaşmır. Bu layihə siyasi və ekoloji baxımdan da sərfəlidir. Neft kəməri boyunca «İctimai sərmayə proqramı üzrə 25 milyon dollar xərclənmişdir. Bu proqram çərçivəsində 32 tibb məntəqəsi tikilib, 44 məktəb bərpa olunub, 184 min insan birbaşa tibbi yardım alıb, 15800 mikrokredit verilib, 2700 fermerə təlim kursu keçirilib».[1]

Bütün bunlar BTC kəmərinin Azərbaycanın sosial-iqtisadi inkişafı, iqtisadi müstəqilliyinin təmin edilməsində əvəzsiz rola malik olduğu fikrini söyləməyə əsas verir.

Milli iqtisadiyyatın qlobal iqtisadi maliyyə böhranı şəraitində mühüm əhəmiyyətli məsələlərdən biri də iqtisadi təhlükəsizliyin təmin olunmasıdır. İqtisadi təhlükəsizlik yeni yaranmaqda və dirçəlməkdə olan respublika iqtisadiyyatına hər cür mənfi xarici iqtisadi və siyasi xarakterli təsirlərdən qorunması üzrə görülən tədbirlər sistemi başa düşülür. Bu gün

---

[1] «Xalq» qəzeti, 8 avqust 2006-cı il

respublikamızın xariclə əlverişli inteqrasiya əlaqələrinin saxlanması ilə yanaşı, daxili bazarın xarici diktatdan, rəqabətdən qorunması əsas vəzifələrdən biri olmalıdır. Bundan ötrü idxal və ixrac proseslərində milli mənafelərə xidmət edən, ilk növbədə daxili bazarın müdafiə olunmasını təmin edən gömrük, vergi və kredit siyasəti həyata keçirilməlidir. Daxildə tamlıq təşkil edən iqtisadi sistem və milli iqtisadi mənafelərin daşıyıcılarının formalaşması məsələlərinin həlli bunlarsız mümkün deyildir.

Azərbaycanda neft sərvətlərinin idarə edilməsinin səmərəli strategiyasının işlənməsi və onun mərhələlərlə reallaşdırılması hazırkı inkişaf dövründə müstəsna əhəmiyyət kəsb edir. Bu strategiya neft ölkəsi olan respublikamızda uzunmüddətli makroiqtisadi idarəetmənin bir çox strateji məqamlarını əhatə etməli və neft gəlirlərinin səmərəli istiqamətlərini özündə əks etdirməlidir. Strategiyanın konseptual əsasını «Holland sindromu»na yol verilməməsi prinsipləri təşkil etməlidir. Bu prinsipləri müəyyən etmək üçün ilk növbədə neft ixracatçısı olan ölkələrin iqtisadi idarəetmə təcrübələrinin müsbət və mənfi cəhətlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, «Holland sindromu» neft gəlirlərinin bolluğu hesabına dövlət xərclərinin kəskin genişlənməsi ilə qeyri-neft sektorunun xərclərinin onun yığımına nisbətən artmasına və beləliklə də bu sektorda resurs balansının pozulmasına gətirib çıxaran fenomendir. Neft gəlirlərinin artımının qeyri-sabit olması şəraitində bu meyl gələcəkdə ölkənin yığım potensialının tükənməsinə səbəb ola və makroiqtisadi sabitliyi təhlükə altına ala bilər.

Yaxın illərdə dünya bazarında enerji daşıyıcılarının qiymətlərin əlverişli olması proqnozları Azərbaycanın neft gəlirlərinin dəfələrlə artmasına real imkanlar açır. Belə bir şəraitdə maliyyə israfçılığına yol verməmək və ölkənin neft ehtiyatlarının tükənməsi dövründə maliyyə imkanlarının kəskin azalmasının qarşısını almaq üçün qeyri-neft sektorunda yığım-xərc balansının optimal təşkili olduqca vacibdir. Belə yanaşma neft gəlirləri hesabına maliyyələşən xərclərə sərt

nəzarəti, bu gəlirlər hesabına gələcək yığımların yüksək səviyyəsinə nailolunmasını, makroiqtisadi idarəetmənin səmərəsinin artırılmasını, neft gəlirlərini üstün olaraq istehlakın deyil, investisiyaların maliyyələşdirilməsinə yönəltməklə, iqtisadiyyatın strukturunun optimallaşdırılmasını, qeyri-neft sektorunun inkişafının «neft bumu» ilə dəstəklənməsi ilə yanaşı, ona vergi stimullarının da tətbiqini nəzərdə tutan mühüm prinsipləri əhatə edir.

# VII FƏSİL. MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASININ TƏMİN OLUNMASINDA VƏ MİLLİ MƏNAFELƏRİN QORUNMASINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN YERİ

## 7.1. İqtisadi təhlükəsizliyin təmin olunmasının dövlət strategiyası

Müasir dünya iqtisadiyyatı sistemində ölkələr arasında inteqrasiya əlaqələrinin gücləndiyi şəraitdə milli iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin iqtisadi tənzimləməsinin rolu və əhəmiyyəti xüsusilə artmışdır və bugünkü şəraitdə bu məsələ yeni məzmun kəsb edir. Bəzi qərb iqtisadçı-alimləri müasir şəraitdə iqtisadi proseslərin tənzimlənməsində dövlətin qarşısında duran vəzifələrə aşağıdakıları aid edirlər [121, səh. 94]:

- iqtisadi sistemin bazar sisteminin səmərəli, normal fəaliyyətinə şərait yaradan hüquqi bazanın və ictimai mühitin təmin edilməsi;
- gəlirlərin və sərvətlərin yenidən bölüşdürülməsi;
- milli məhsulun strukturunun təkmilləşdirilməsi, dəyişdirilməsi məqsədilə resursların bölüşdürülməsinə yeni yanaşma;
- iqtisadiyyatın sabitliyinin təmin olunması;
- iqtisadi artımın stimullaşdırılması.

Onu da qeyd edək ki, dövlətin iqtisadi tənzimləmə ilə bağlı funksiyaları müxtəlif müəlliflər tərəfindən bir qədər konkret və ya geniş şəkildə, çoxaspektli şərh edilir. A.Poroxovski dövlətin iqtisadi funksiyasını iki istiqamət üzrə konkretləşdirir [136]:

1) bazar sisteminin, həmçinin ilk öncə bazarın və rəqabət mühitinin qorunması;

2) bazar prinsiplərinin bütövlükdə cəmiyyətin maraqlarına zidd olan ictimai fəaliyyət sahələrində yaranmış məhdudluğun aradan qaldırılması, boşluğun doldurulması. Deməli, belə bir nəticə hasil olur ki, bazarın tabeliyində olmayan funksiyaları dövlət öz üzərinə götürür.

Bəzi iqtisadçı alimlər cəmiyyətin iqtisadi həyatında dövlətin iştirakının məhz bazar iqtisadi sisteminin, ümumiyyətlə, belə deyək ki, bazarın ölkənin sosial-iqtisadi inkişafı istiqamətində mövcud problemləri uğurla həll edə bilməməsi ilə əlaqələndirərək bunu bazar mexanizminin qeyri-təkmilliyi ilə izah edir [111, səh. 51]. Lakin fikrimizcə, bunu bazar mexanizminin qeyri-təkmil olması ilə deyil, bazar iqtisadi sistemin bütövlükdə sosial ədaləti, bərabərliyi təmin edəcək mexanizmlərə malik olmaması ilə izah etmək olar. Çünki bazar iqtisadi sistemi iqtisadi səmərəliliyi təmin etmək üçün imkanlar yaratsa da, bu sistem sosial bərabərliyi təmin etmək imkanından demək olar ki, məhrumdur, yaxud da belə bir mexanizmə malik deyildir. Məhz bu mənada dövlətin iqtisadi proseslərin tənzimləyici kimi, yaxud da bilavasitə bazar münasibətlərinin xüsusi bir agenti, subyekti kimi bu sistemdə iştirakına böyük zərurət duyulur.

Bəzi iqtisadçı alimlər dövlətin iqtisadi tənzimləməsinə aşağıdakı məsələləri aid edirlər [75, səh. 4]:

- mülkiyyət hüququnun müdafiə edilməsi;
- azad sahibkarlığın, işgüzar fəallığın stimullaşdırılmasının və inhisarçı meyllərlə mübarizənin təmin edilməsi;
- cəmiyyəti lazımlı, operativ və hamı üçün əldə edilməsi mümkün şəkildə informasiya ilə təmin etmək;
- təsərrüfatçılıq, iqtisadi sferada qanun-qaydanın, hüquqi normaların təmin edilməsi;
- sahibkarla muzdlu işçi arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi;
- xarici iqtisadi fəaliyyətə nəzarəti həyata keçirmək;
- pul dövriyyəsinin tənzimlənməsi, milli valyutanın sabitliyinin təmin edilməsi;
- iqtisadi təhlükəsizliyin təmin edilməsi və s.

Göründüyü kimi, müəllif iqtisadi təhlükəsizliyin təmin edilməsini də bazar iqtisadi sistemində dövlətin əsas funksiyalarından biri kimi göstərmişdir. Onu da qeyd edək ki, müəllifin bu fikri ilə razılaşmamaq qeyri-mümkündür. Lakin iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin üzərinə

düşən vəzifələr hansıdır və dövlət tənzimlənməsinin rolu bu istiqamətdə nədən ibarətdir. Məhz elə məsələnin də ən maraqlı tərəflərindən biri budur. Yuxarıda sadalananların birbaşa, yaxud da bilavasitə ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsində təsiri vardır.

Ümumiyyətlə, dövlətin iqtisadi tənzimləmə ilə bağlı funksiyalarının sistemləşdirilməsində çox vaxt müəlliflər «bazar sistemi nəyi edə bilmirsə, dövlət onu edir» fikrini əsas götürürlər [162, səh. 12]. Lakin bu mövqeni fikrimizcə o zaman müdafiə etmək olar ki, o, cəmiyyətin maraqları nöqteyi-nəzərindən həyata keçirilsin və dövlət də burada bütövlükdə cəmiyyətin maraqlarının müdafiəçisi, bir təmsilçisi kimi ictimai sistemdə ümumi davranış qaydalarını müəyyən edən və onu diktə edərək ən yüksəkdə durur.

Bəzi müəlliflər bazar iqtisadi sistemində dövlətin mühüm iqtisadi funksiyalarından biri kimi iqtisadi subyektlər arasında «oyun qaydalarının» müəyyən edilməsi və onlara əməl edilməsinə bir növ nəzarətin təmin edilməsini qeyd edirlər və bunun bazar iqtisadiyyatına xas olan bir keyfiyyət kimi Amerika iqtisadiyyatında, cəmiyyətində XXI əsrdə də hakim mövqe tutacağını qeyd edirlər [137, səh. 85]. V.Kredisov isə bu «oyun qaydalarının» dövlət tərəfindən təmin edilməsi üçün bazar iqtisadi sisteminin, o cümlədən keçid iqtisadiyyatının hüquqi bazasının bazar modelinə uyğun qurulmasını, hətta yenidən yaradılmasını önəmli hesab edir [111, səh. 51]. Onu da qeyd edək ki, bazar modelinin inkişafı, bazar təsərrüfat formalarının inkişafı dövlətin fəal iştirakı şəraitində baş verməlidir və bu fonda dövlət iqtisadi subyektlər arasındakı münasibətlərin hüquqi təminatçısı kimi iştirak edir.

Fikrimizcə, «oyun qaydaları» ilə bağlı deyilənlərə bu aspektdən yanaşmaq düzgün olardı. Bu mənada A.Poroxovski də haqlı olaraq dövləti bazar sisteminin özünəməxsus təminatçısı kimi cəmiyyətin bütövlükdə inkişafında sabitləşdirici bir tərəf kimi qiymətləndirilmişdir [111, səh. 85].

Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət tənzimlənməsinin əsas istiqamətlərindən biri, hətta biz

deyərdik ki, birincisi bütün cəmiyyət üzvləri və sosial qruplar arasında, o cümlədən iqtisadi sferadakı münasibətlərin tənzimlənməsi üçün müvafiq institutların, yəni qanunverici, icra və məhkəmə strukturlarının formalaşması, hüquqi bazanın yaradılması, qəbul edilmiş qanunların və müxtəlif hüquqi aktların icrası ilə bağlı şəraiti təmin etməkdir. Bununla dövlət öz sərhədləri daxilində qayda-qanun yaratmaqla, digər dövlətlərlə də münasibətlərini tənzimləyir. Hətta ən ciddi iqtisadi böhran şəraitində belə dövlət bu imkandan istifadə etməklə özünün milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi və cəsarətli addım atmış olur.

Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində başlıca şərtlərdən biri də dövlətin inhisarlaşmaya qarşı apardığı mübarizə və onun həyata keçirdiyi antiinhisar siyasətinin çevikliyidir. Çünki inhisarçılıq meylləri azad rəqabət mühitini sıxışdırır, iqtisadi mühitdəki neqativ təsirləri gücləndirir.

İstehsalın inkişafı, mərkəzləşməsi, elmi-texnki tərəqqi ilə şərtləşərək tarixi qaçılmaz bir prosesə çevrilən inhisarlaşma cəmiyyət, iqtisadi sistem inkişaf etdikcə dünya ölkələrinin iqtisadi həyatlarına sürətlə nüfuz etməyə başlamışdır. İnhisarlaşma şəraitində bazarda məhsulun həcminə nəzarət edən yalnız bir istehsalçı olur. Belə şəraitdə o, maksimum gəlir əldə edərək bazarda qiymət səviyyəsinə nəzarəti həyata keçirir. İ.V.Dolqova və N.V.Şveyko inhisarın mövcud olduğu dörd tip bazar modelini qeyd edirlər [96, səh. 45]: 1) müstəsna bazar modeli; 2) real bazar modeli; 3) müstəsna bazar modeli. Birinci model həqiqi rəqabətə, axırıncı iki model isə qeyri-mükəmməl rəqabətə əsaslanır. Birinci bazar modeli üçün təmiz rəqabət, o biri iki model üçün isə monopolist rəqabəti, oliqapoliya, monopoliya xasdır. Bunu sxem şəklində aşağıdakı kimi aydın görə bilərik (cədvəl 6.1.).

## Bazar modellərinin dörd əsas tipləri

| | **Mükəmməl rəqabət** | **Qeyri-mükəmməl rəqabət** | | |
|---|---|---|---|---|
| | ***Az rast gəlinən bazar modeli*** | ***Real bazar modeli*** | | ***Az rast gəlinən bazar modeli*** |
| | **Açıq rəqabət** | **İnhisarçı rəqabət** | **Oliqopoliya** | **Açıq rəqabət** |
| Firmaların sayı | Çox az sayda kiçik firmalar | Çoxlu sayda firmalar | Az sayda firmalar, o cümlədən iri firmalar da | Bir firma |
| Məhsulun xüsusiyyəti | Bircinsli, standart | Müxtəlifcinsli, differensiallaşmış (fərqli) | Bircinsli yaxud differensiallaşmış | Unikal |
| Qiymətlər üzərində nəzarət | Yoxdur, tələb və təklif qiymətləri fəaliyyətdədir | Bir neçəsinə, çox dar çərçivədə nəzarət var | Məhdud qarşılıqlı asılılıq: əsasən gizli razılaşma şəraitində | Çoxlu |
| Qiymətə əsaslanmayan rəqabət | Yoxdur | Əsasən reklam, ticarət markaları, ticarət nişanlarına üstünlük vermə | Çox tipik, xüsusən məhsulun müxtəlifliyi şəraitində | Reklam əsasən ictimai təşkilatlarla əlaqəli şəkildə aparılır (cəmiyyətin tələbatına uyğun) |
| İnformasiyanı əldə etmək mümkünlüyü | Bütün növ informasiyaları eyni imkan daxilində əldə etmək mümkünlüyü | Müəyyən qədər çətinliklər | Müəyyən qədər məhdudiyyətlər | Müəyyən qədər məhdudiyyətlər |
| Sənaye sahəsinə girmə şərti | Çox asandır, mane yoxdur | Nisbətən asandır | Əhəmiyyətli dərəcədə mane var | Blokadaya alınmışdır |
| Misallar | Kənd təsərrüfatı, kiçik xidmət sahəsi | Pərakəndə ticarət, geyim, ayaqqabı, kompüter istehsalı və vençur biznesinin digər növləri | Açıq Oliqopoliya: polad, mis, alüminium və s. istehsalı. Differensiallaşmış istehsal: avtomobil, kənd təsərrüfatı inventarları, məişət elektronikası və s. istehsalı | İctimai istehlak müəssisəsi, kommunal xidmət, telefon kompaniyası, dərslik, televiziya kabeli istehsalı |

Təcrübə göstərir ki, iqtisadi sistemdə tüğyan edən inhisarçı meyllərin qarşısını almaq üçün dövlət antiinhisar siyasətini həyata keçirməli, bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsində maraqlı olmalıdır. Antiinhisar qanunvericiliyi ilk öncə iri şirkətlər arasındakı qiymət razılaşmasına

qarşı olmalıdır, bu razılaşmanı qadağan etməlidir, həm də dempinq yolu ilə rəqiblərin bazardan sıxışdırılıb çıxarılmasına qarşı yönəlməlidir.

Onu da qeyd edək ki, dövlət antiinhisar tədbirləri həyata keçirməklə əsas bazar mexanizmlərindən biri kimi sağlam rəqabət mühiti yaratmağa can atır. Sağlam rəqabətə şərait yaradılması bazarın imkanlarından bütün iqtisadi subyektlərin ədalətli şəkildə yararlanması, inhisarçı meyllərin hüquqi şəkildə məhdudlaşdırılmasını təmin edə bilər. Məhz bu addımı həm rəqabətin inkişafı, həm də bütövlükdə cəmiyyətin inkişafı maraqlarına cavab verməlidir. Burada cəmiyyətin maraq dairəsində olan məsələlərə milli istehsalın qorunması və inkişafı, kiçik və orta sahibkarlığın inkişafı, regionların inkişafı, səmərəli məşğulluq strategiyasının həyata keçirilməsi, istehlakçıların hüquqlarının qorunması, sahibkarlığın stimullaşdırılması və s. kimi məsələlər nəzərdə tutulur.

Rəqabət davranışının bir neçə müxtəlif strategiyaları mövcud olmuşdur [96, səh. 48]:

1) Violent strategiya – iri firmalar rəqibləri ilə münasibətlərini güc faktoru baxımından həll edirlər;

2) Patent strategiya – dar ixtisaslaşmış firmalar üçün xarakterik rəqabət davranışı;

3) Kommutant strategiya – orta böyüklüklü istehsal müəssisələri üçün xarakterik rəqabət davranışı. Belə müəssisələr tez-tez dəyişən tələbata asan uyğunlaşa bilirlər;

4) Eksperiment strategiya – qısamüddətli strategiya olub, çox riskli bir davranışdır. Bu əsasən bazarın köhnə seqmentlərində radikal dəyişikliklərin aparılması və yenilərinin yaradılması ilə əlaqədardır.

Ümumiyyətlə, dövlətin bazarın və azad rəqabətin təminatçısı kimi çıxış edərək, rəqabət mühitini qorumaq istiqamətində həyata keçirdiyi fəaliyyət iqtisadi sistem qarşısında mühüm vəzifələrdən biri olan cəmiyyətin tələbatını təmin üçün zəruri maddi nemətlər və xidmətlər istehsalına əlverişli şərait yarada bilər.

Xarici iqtisadi fəaliyyətin səmərəli qurulmasında müxtəlif institutların da rolu böyükdür. Bu sırada inzibati dövlət orqanı kimi xarici ticarət və sənaye nazirliyi xüsusi yer tutur ki, bu qurum da müvafiq istiqamətlər üzrə dövlətin siyasətini həyata keçirirlər. Bu nazirlik daxili bazarın inkişafı, yüksək texnoloji və qeyri-istehsal sahələrinin inkişafı, xarici investisiyaların artımı ilə yanaşı, ixracın artırılması, xaricdə istehsalın miqyasının genişləndirilməsi, informasiya tutumlu rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılması, xarici ticarətdəki disbalansın aradan qaldırılması və enerji resursları və xammal idxalından asılılığı azaltmaq istiqamətində fəaliyyət göstərir.

İdarələr, nazirliklər arasında əlaqə yaradan strukturlar kimi ticarət şurası, iqtisadi məsələlər üzrə nazirlərin yığıncağı, struktur islahatları üzrə Birgə Qərargah və başqaları mühüm rol oynayırlar.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimləməsi sistemində hökumət və baş nazir səviyyəsində fəaliyyət göstərən məs-ləhətçi orqanların da rolu böyükdür. Bu orqan xarici iqtisadi siyasət üzrə məsələlərin birgə həllinə nail olmaqda mühüm əhəmiyyət daşıyırlar.

Azərbaycanın xarici iqtisadi siyasətində mühüm istiqa-mətlərdən biri onun müxtəlif beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı, regional təşkilatlarda, birliklərdə təmsil olun-masıdır. Bu mənada Azərbaycanın MDB üzvləri ilə iqtisadi siyasi əməkdaşlığı respublikamızın müstəqil dövlət kimi xarici iqtisadi siyasətində, inkişaf strategiyasında önəmli yer tut-maqla, onun milli iqtisadi təhlükəsizliyinin təmin olunmA-sında özünəməxsus rol oynayır.

Burada məsələlərə iki aspektdən yanaşmaq, fikrimizcə, düzgün olardı. Birincisi, Azərbaycanın MDB çərçivəsində mövqeyi, MDB üzvləri ilə müxtəlif səviyyəli münasibətləri, ikincisi, MDB-nin bir birlik kimi dünya iqtisadiyyatına inteqrasiyası. İkinci məsələyə gəldikdə isə bu barədə bir qədər geniş və çoxsəpkili danışmaq olar. İlk öncə onu qeyd edək ki, MDB-nin bir birlik, təşkilat kimi dünya iqtisadi sisteminə inteqrasiyası üçün ilk növbədə onun potensialından tam

şəkildə istifadə edilməsi, MDB üzvlərinin bu prosesdə bərabərhüquqlu tərəfdaşlar kimi iştirakının təmin edilməsi vacib şərtlərdən biridir. Belə ki, üzv ölkələrlə birlikdə MDB iri regional bir təşkilat kimi zəngin təbii və iqtisadi potensiala malikdir. Dünyanın ərazisinin 16,3%-i, əhalisinin 5%-i, təbii ehtiyatlarının 25%-i, sənaye istehsalının 10%-i, elmi-texniki potensialın 12%-i, dünyada istehsal olunan elektrik enerjisinin 10%-i MDB-nin payına düşür [103, səh. 29]. Digər tərəfdən, Birlik ölkələrinin ümumi bazarının tutumu, həcmi 700 mlrd. dollar məbləğində qiymətləndirilir. 2002-ci ildə birlik ölkələri üzrə ÜDM-in istehsal səviyyəsi 400 mlrd. dollar təşkil etmişdir [103, səh. 32].

Proqnoz hesabatları isə onu deməyə əsas verir ki, 2015-ci ilədək ÜDM, ixrac və investisiyaların həcmində MDB-nin payı 4%, 2030-cu ilədək isə 7-8%-ə çata bilər [119, səh. 70]. Həm də bu birliyə daxil olan ümumi ərazi Avropa və Asiyanın qovuşuğunda yerləşməklə Avro-Atlantik və Asiya-Sakit okean hövzəsi regionlarını birləşdirən qısa dəniz və quru nəqliyyatı əlaqələrini təmin edə bilər. Lakin yuxarıda qeyd etdiyimiz potensialdan o halda səmərəli bəhrələnmək olar ki, birlik üzvləri arasında inteqrasiyanın güclənməsi, sağlam təməllər əsasında xarici iqtisadi əlaqələrin qurulması təmin edilsin.

Lakin bu inteqrasiyanın təmin edilməsinə maneə yaradan müəyyən səbəblər vardır. D.Maçnev belə səbəblərdən biri kimi bu iqtisadi inteqrasiyanı ləngidən bir mexanizmin olduğunu göstərərək, onun təsirini belə əsaslandırır [119, səh. 65]. Birincisi, birlik ölkələrinin ixracında əsas yeri yanacaq-enerji və mineral-xammal sənaye sahələrinin məhsulları tutur. Dünya bazarında bu məhsullar emal sənayesi məhsullarına bir növ mübadilə edilir. İkincisi, bu ölkələrin resurs istehsal edən sənaye sahələrinin məhsulları resurs emal edən sənaye sahələrinə deyil, həmin məhsulları, yəni xammal-materialları daha yüksək qiymətə, dünya bazarı qiymətlərinə alan, daha keyfiyyətli məhsul istehsal edən dünya ölkələrinə, uzaq xarici ölkələrə satılır. Üçüncüsü, qeyd etdiyimiz ikinci cəhət birlik

üzvlərinin öz yerli sənaye sahələrinin məhsullarına olan tələbatını bir növ sıxışdırır. Bu, bir tərəfdən həmin ölkələrin emal sənayesi məhsullarının rəqabəqabiliyyətliyinin aşağı olması, resurs istehsal edən və resurs emal edən sənaye sahələrinin fərqli inkişaf istiqamətləri ilə şərtlənir. Nəhayət, dördüncüsü, resurs istehsal edən sənaye sahələrində dünya bazarı sisteminə sürətli inteqrasiya nəticəsində tədricən artım baş verir, digər sahədə isə resurs təminatı və istehsalın səviyyəsi aşağı düşür. Məhz qeyd edilən bu cəhətlər birlik ölkələrini uzaq xarici ölkələrlə inteqrasiyasını sürətləndirərək, onların öz aralarında birlik daxilində inteqrasiyasını arxada qoyur. Resurs istehsal edən ölkələrin öz aralarında iqtisadi inteqrasiyası artıq ikinci plana keçir və öz əhəmiyyətini itirir.

Y.Yarov isə MDB məkanında inteqrasiyanı dərinləşdirmək, xarici iqtisadi fəaliyyəti sürətləndirmək üçün azad ticarət zonasının yaradılması ideyasına tərəfdar çıxaraq, onun potensialının da tam reallaşmasının bu birliyin dünya ticarətində önəmli yer tutacağına müsbət təsirini əsaslandırmağa çalışır [179, səh. 77]. Əlbəttə, Yarovun bu mövqeyi ilə biz də razılaşırıq. Bu baxımdan ki, sərbəst ticarət zonasının yaradılması MDB üzvləri arasında xarici ticarət fəaliyyətini stimullaşdırmaqla yanaşı, bir çox sosial-iqtisadi, hüquqi məsələlərin də həllində mühüm rol oynaya bilər.

M.Krotov isə MDB dövlətlərinin inteqrasiyasının qarşısında duran maneələrin bir qədər fərqli xüsusiyyətlərini göstərmişdir [110, səh. 71]. Birinci səbəb kimi Birliyə daxil olan ölkələrin müxtəlif (fərqli) inkişaf səviyyələrinə malik olması, ikincisi, MDB-yə güclü xammal potensialına malik ölkələrlə yanaşı, daxil olan üzv ölkələr arasında bir o qədər də zəngin təbii ehtiyatlara malik olmayanları da vardır. Çünki birincilər daha çox dünya bazarlarına inteqrasiyanı üstün tuturlar. Üçüncüsü, MDB-də üzv ölkələrin eləri vardır ki, onların ticarət dövriyyəsinin əsas hissəsi digər dünya dövlətlərinin payına düşür. Məsələn, Rusiyanın Azərbaycanla xarici ticarət dövriyyəsində MDB-nin payı 19%, Qazaxıstanla 37%, Ukrayna ilə 44%, Qırğızıstanla 48%, Belorusiya və

Tacikistanla 65% təşkil edir. Dördüncüsü isə MDB-yə üzv ölkələr arasında dünyanın bir çox maliyyə təşkilatlarına borcu olan ölkələr də vardır ki, onlar da həmin ölkələrin məhz bu təşkilatların maraqlarına cavab verəcək səviyyədə və bu maraqlara uyğun MDB üzvlərilə iqtisadi əməkdaşlığını dəstəkləyirlər.

Düzdür, M.Krotovun bu fikirləri ilə müəyyən dərəcədə razılaşmaq olar. Lakin burada başqa bir cəhətə də diqqət yönəltmək lazımdır. MDB məkanında bir-birləri ilə qarşılıqlı münasibətləri Birlik daxilində bəzən ayrı-seçkilik meyllərinin olduğunu söyləməyə əsas verir. Belə meyllərin mövcudluğu üzv ölkələrin ayrı-ayrılıqda daxil olduqları müxtəlif siyasi və iqtisadi qrupların, təşkilatların formalaşmasına rəvac vermiş olur. Belə ki, Rusiyanın özünün daxil olduğu bir neçə təşkilat, o cümlədən Kollektiv Təhlükəsizlik haqqında müqavilə, Rusiya və Belarusiya dövlətləri ittifaqı, Avrasiya İqtisadi Birliyi və Vahid İqtisadi Məkan kimi təşkilatları göstərmək olar. Bu təşkilatların hamısında Rusiya fəal şəkildə iştirak edir. Nəticədə digər MDB üzvləri də öz aralarında müxtəlif birliklər yaradırlar. Deməli, buradan belə bir nəticəyə gəlmək olar ki, MDB-nin regionda, dünya miqyasında güclü bir təşkilata çevrilməsində çoxsaylı iqtisadi məzmunlu maneələr olsa da, burada siyasi motivlər də az əhəmiyyət kəsb etmir. Adlarını çəkdiyimiz təşkilatlardan da göründüyü kimi, Rusiya dövləti özü onların yaranmasında səy göstərməklə yanaşı, digər üzv ölkələrə münasibətdə ayrı-seçkiliyin yaranmasına səbəb olur və öz maraqları çərçivəsində həmin dövlətlərə siyasi-iqtisadi təzyiqlər göstərir. Bu isə heç də ona qarşı müsbət münasibətin yaranmasına gətirib çıxarmır, əksinə MDB üzvlərinin digər Avropa təşkilatlarına inteqrasiyası meyllərini daha da gücləndirir, həm də öz aralarında yaratdıqları təşkilatlara daha çox önəm vermələrinə səbəb olur. Məhz bir faktı qeyd etmək olar ki, bu gün Avropa ölkələrinin alternativ enerji mənbələri axtarıb tapmaq səyləri, onların Rusiya qazından asılılığı azaltmağa cəhd etmələri GUAM təşkilatının inkişafı üçün yeni perspektivlər vəd edir. Digər tərəfdən,

Qazaxıstanın da Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulması artıq reallaşmağa doğru gedir. Digər tərəfdən, Türkmənistanın da bu sırada yer tutması diqqət mərkəzindədir.

N.Ziyadullayev Rusiyanın MDB məkanında real iqtisadi inteqrasiyanın formalaşmasında konstruktiv rol oynayacağı üçün böyük şansları olduğunu qeyd edərək bunun üçün digər iqtisadi tərəfdaşlarla müqayisədə Rusiyanın daha yüksək rəqabətqabiliyyətli və cəlbedici iqtisadi məkan kimi inkişafını, formalaşmasını ön plana çəkir [103, səh. 31]. Akademik A.Nekipelov isə dünya təsərrüfatının inkişafı, inteqrasiya proseslərinin sürətlənməsi istiqamətində dünya iqtisadiyyatının əsas inkişaf məsələləri, istiqamətləri üzrə qarşılıqlı kompromislər mexanizminin formalaşması, dövlətlərin, təşkilatların, transmilli və milli strukturların qarşılıqlı təsiri, bu istiqamətdə hər bir dövlətin, eləcə də vətəndaşların maraqlarının maksimum təmin edilməsini əsas cəhət kimi qiymətləndirir [124, səh. 7]. A.D.Nekipelovun bu fikirlərinə tərəfdar çıxaraq, belə hesab edirik ki, MDB üzvlərinin inteqrasiyasının sürətlənməsinə imkan verən elə bir strateji konsepsiya işlənib hazırlanmalıdır ki, bu birliyə qoşulan postsovet ölkələrinin tarixi inkişaf xüsusiyyətlərini, onların üzv olduqları subregional və daha iri regional təşkilatların xüsusiyyətlərini, həmin ölkələrin bu təşkilatlarla münasibətlərini demokratik əsaslarla nəzərə alsın, hər bir üzv ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin olunmasına, onların xarici iqtisadi fəaliyyətində bu inteqrasiyaya xüsusi önəm verilməsinə şərait yaratsın.

İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin mühüm funksiyalarından biri də bazar iqtisadi sisteminin normal fəaliyyətini təmin etmək, iqtisadi subyektlər arasında münasibətləri optimallaşdırmaq istiqamətində informasiya ilə bağlı məsələlərin, informasiya təminatının tənzimlənməsidir. Bazar subyektləri tərəfindən qəbul edilən qərarların düzgünlüyü onlara ötürülən informasiyanın düzgünlüyü və dolğunluğundan, tamlığından çox asılıdır. Bu mənada bir sıra müəlliflərin də qeyd etdiyi kimi, bazara çoxsaylı, müxtəlif çeşidli əmtəə və xidmətlərin yönəldiyi bir şəraitdə istehlakçılarda

onlar haqqında ətraflı təsəvvür yaratmaq, onları bu əmtəə və xidmətlər barəsində məlumatlandırmaq üçün dövlət kommunikasiya vasitələrini yaratmaq və buna yaxından kömək etməklə bu işi bilavasitə təmin etməklə bütün iqtisadi agentlərin, subyektlərin, ümumilikdə iqtisadi sistemin normal informasiya təminatına şərait yaradaraq, iqtisadi proseslərin qeyri-müəyyənliyini, nəzərdə tutulmamış halların başvermə ehtimalını minimuma endirmiş olur [166, səh. 60]. Dövlət bu istiqamətdə birbaşa həm özü fəaliyyət göstərə bilər, həm də bu işlə məşğul olan özəl sektorun fəaliyyətinə şərait yaradaraq, onu stimullaşdıra və ona nəzarət edə bilər. Bu işdə dövlətin üzərinə düşən əsas vəzifələrdən biri də informasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsidir. Dövlət bununla iqtisadi subyektlərin, agentlərin fəaliyyətini hüquqi çərçivədə tənzimləyərək, iqtisadi proseslərin istiqamətlərini müəyyənləşdirir, həm də iqtisadi münasibətlərin bu iştirakçılarının bazar sistemindəki informasiyaya sərbəst çıxışlarını təmin etmiş olur. Həmçinin bir sıra hallarda bəzi iqtisadi agentlər informasiyanın gizlədilməsində, onun tam çatdırılmamasında maraqlı tərəf kimi çıxış edərək, buna cəhd edirlər. Nəticədə istehlakçıya lazım olan informasiya ilə onu ala bilmək imkanı və informasiya bazası arasında uyğunsuzluq yaranır. Məhz dövlət də bazar münasibətləri sisteminin bir subyekti qismində öz tənzimləmə fəaliyyəti ilə bu uyğunsuzluğu aradan qaldırmaq istiqamətində fəaliyyətini həyata keçirməlidir.

Bazar iqtisadi sistemi şəraitində özünü göstərən xarici təsir effektləri nəinki istehsalçı və istehlakçıya, həm də bilavasitə satıcı və istehlakın arasındakı sövdələşmələrdə iştirak etməyən subyektlərə də öz təsirini göstərir. Bu təsir effekti iqtisadi subyektlərin xərcləri və gəlirləri qismində, eləcə də ətraf mühitin çirklənməsi, təbii ehtiyatlardan kortəbii, Amansızlıqla istifadə şəklində də özünü büruzə verir. Makroiqtisadi səviyyədə isə belə xarici effektlər cəmiyyətdə baş verən sosial münaqişələr, siyasi sabitsizlik, ictimai sərvətlərin itkisinə səbəb olan dövri iqtisadi sıçrayışlar, dəyişikliklər fonunda özünü büruzə verir. Bu xarici effektlərin qarşısının alınması

zərurəti isə dövlətin bu proseslərin tənzimlənməsinə, kompensasiya edilməsinə müdaxiləsinin real əsasını formalaşdırır.

Bəzi müəlliflər belə hesab edirlər ki, dövlət iqtisadi sistemin fəaliyyətinin əsasını təşkil edən mülkiyyət münasibətlərinin strukturunu özünün malik olduğu müxtəlif institutların köməyi ilə müdafiə etməli, qorumalıdır [129, səh. 346]. Doğrudan da keçid iqtisadiyyatı şəraitində buna daha da çox ehtiyac, zərurət yaranır. Dövlət bu zaman müxtəlif hüquqi institutlarla yanaşı, müxtəlif iqtisadi vasitələrdən, yeri gəldikdə güc metodlarından da istifadə edir. Bu, ümumilikdə iqtisadi sistemin güclənməsi, strukturunun möhkəmlənməsi ilə yanaşı, iqtisadi fəaliyyətin stimullaşdırılmasına da yol açmış olur.

Eyni zamanda bu, həm də dövlətin milli iqtisadi təhlükəsizliyi, cəmiyyətin maraqları nöqteyi-nəzərindən əhəmiyyətlidir.

Bir fakt da aydındır ki, bazar iqtisadi sisteminin fəaliyyəti mənfəətin əldə edilməsi ilə bağlıdır. Lakin elə sahələr də vardır ki, məsələn, təhsil, səhiyyə, elm, mədəniyyət kimi sahələrdə heç də həmişə mənfəətli fəaliyyəti təmin etmək mümkün olmur, xüsusilə də keçid iqtisadiyyatı şəraitində. A.Poroxovski də haqlı olaraq qeyd edir ki, «belə şəraitdə bazarın «görünməz əlləri» həmin sahələrin cəmiyyət üçün nə qədər əhəmiyyət kəsb etdiyini müəyyənləşdirməkdə gücsüz olur» [137, səh. 85]. Ona görə də bazar mexanizminin bu zəif cəhətlərinin bir növ kompensasiya edilməsi üçün dövlətin tənzimləmə fəaliyyətinə ehtiyac vardır.

Bir sıra hallarda bazar iqtisadiyyatı şəraitində dövlətin tənzimləmə fəaliyyətinə müəyyən mənada dövlətin «müdaxiləsi» kimi də yanaşırlar. A.Poroxovskinin fikrincə, «əgər dövlət müəyyən dərəcədə bazar mexanizminin fəaliyyətinə və rəqabət mühitində dəyişiklik etməyə cəhd edərsə, bu artıq dövlətin müdaxiləsidir, yox əgər dövlət «oyun qaydaların»ın, bazarın və rəqabətin təminatçısı kimi çıxış edərsə, o zaman dövlətin bu fəaliyyəti bazar mühitində davranış prinsipləri ilə üzvi şəkildə əlaqələnir [137, səh. 85]. Onu qeyd edək ki, ABŞ-ın formalaşması və inkişafı tarixində də dövlətin iqtisadi

tənzimləmə fəaliyyəti ilə bağlı siyasət bir-birini əvəz edərək, birincisi, dövlətin iqtisadi sferada baş verənlərə müdaxilə etməməsi, ikincisi isə artıq müəyyən bir zamanda buna ehtiyacın yaranması səviyyəsinə gəlib çatmışdır. Nəticə etibarilə də liberallar dövlətin iqtisadi proseslərə müdaxiləsini müsbət qiymətləndirsələr də, konservatorlar bu müdaxilənin azad rəqabət və kompaniya və şirkətlərin səmərəli işi üçün bir maneə olduğunu öz fəaliyyətləri boyunja əsaslandırmaqla çalışmışlar.

A.M.Babaşkina isə qeyd edir ki, «müxtəlif ölkələrin iqtisadiyyatında dövlətin iqtisadi idarəetmə fəaliyyəti dəyişkəndir, dövlətin idarəetmə fəaliyyətinin güclənməsi prosesi onun müdaxilə səviyyəsindən asılı olaraq detənzimləmə ilə əvəz edilir» [78, səh. 3].

Fikrimizcə, daha çox şəxsi maraqların təmin edilməsinin prioritet təşkil etdiyi bir sistemdə, yəni bazar iqtisadi sistemində məhz cəmiyyətin maraqları nöqteyi-nəzərindən çıxış etmək istiqamətində, bütövlükdə ölkənin milli maraqlarının qorunması baxımından dövlətin iqtisadi proseslərə «müdaxiləsi» qəbul oluna bilər. Çünki əks halda, cəmiyyəti, ölkəni bütövlükdə xaos, anarxiya, özbaşınalıq bürüyər. Və bu «müdaxilə» həmin mənada millət, dövlət, cəmiyyət maraqlarına xidmət etdikdə daha uğurlu ola bilər, ölkənin tərəqqisinə xidmət etmiş olar.

V.A.Boqomalov hesab edir ki, dövlət tənzimlənməsi və iqtisadi siyasətin səmərəliliyi ölkənin iqtisadi təhlükəsizlik indikatorudur [82, səh. 318]. A.Poroxovskiyin təbirincə isə, beynəlxalq iqtisadi rəqabət mühiti şəraitində dövlətin fəaliyyətinin səmərəliliyi milli iqtisadi təhlükəsizliyin təmin olunmasında özünü ifadə edir. O dövləti iqtisadi cəhətdən səmərəli dövlət hesab etmək olar ki, öz milli maraqlarını müdafiə etsin və sərhədsiz beynəlxalq rəqabət mühiti şəraitində öz milli iqtisadi təhlükəsizliyini təmin etmiş olsun. Lakin «pis» dövlətdə bazar prinsipləri əsasında inkişaf edən «yaxşı» milli iqtisadiyyat ola bilməz [137, səh. 82]. Deməli, bu fikir bizim yuxarıda dövlətin iqtisadi proseslərin idarə edilməsinə

müdaxiləsi ilə bağlı söylədiklərimizlə yaxınlıq təşkil edir. Lakin fikrimizi bir qədər də dəqiqləşdirərək belə söyləyə bilərik ki, əslində dövlətin iqtisadiyyatın tənzimlənməsində fəaliyyətinin milli iqtisadiyyatın inkişafı üçün istər daxili, istərsə də xarici amillərin təsirinin tənzimlənməsi istiqamətində daha səmərəli hesab etmək olar.

Bir sıra müəlliflər iqtisadi təhlükəsizlik göstəricilərini, indikatorlarını dövlətin iqtisadi tənzimləmə fəaliyyəti üçün əsas hesab edirlər. Belə ki, Rusiya Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Maliyyə-bank tədqiqatları mərkəzi tərəfindən iqtisadi təhlükəsizliyə qarşı məhdudiyyət yarada biləcək 150 göstərici seçilmişdir [155, səh. 74]. Kifayət qədər yüksək qarşılıqlı təsir dərəcəsi ilə seçilən bu indikatorlar iqtisadi təhlükəsizliyə qarşı olan təhlükənin həddini, səviyyəsini kəmiyyətcə ifadə edir, yüksək dərəcədə həssaslığa və dəyişkənliyə malik olmaqla hökumətin iqtisadi siyasət sferasında həyata keçirdiyi siyasət nəticəsində nail olduğu makroiqtisadi sabitliyin dəyişməsi, pozulması ilə bağlı təhlükə yarandıqda dövləti, bazar subyektlərini, cəmiyyəti əvvəlcədən bu barədə məlumatlandırmağa imkan verirlər. Deməli, bu göstəricilərə əsaslanaraq dövlət bu iqtisadi siyasi kursunu həyata keçirir. Məhz bu baxımdan da demək olar ki, dövlətin iqtisadi prosesləri tənzimləməsi sonda öz əksini həyata keçirdiyi iqtisadi siyasətdə tapmış olur. Çünki bu kursun ən ümdə vəzifəsi, ümumi halda ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. V.A.Boqomalov iqtisadi təhlükəsizlik indiikatorlarını əsas tutaraq dövlətin iqtisadi tənzimləmə istiqamətində əsas fəaliyyətinin malik olduğu bütün vasitələrlə bu indikatorların hədd qiymətlərinin azalması halında yaranmış vəziyyəti nizamlamaq, nəzarət altında saxlamaq, qaydaya salmaqdan ibarət olduğunu göstərir və bu indikatorların iqtisadiyyatda dövlətin payını müəyyən etdiyi fikrini irəli sürür [82, səh. 318].

Bəzi müəlliflərin fikrincə, dövlət bazar münasibətləri şəraitində iqtisadiyyatın idarə edilməsində iki tənzimləmə vasitəsindən istifadə etməlidir: plan və bazar [147, səh. 18]. Bu

fikirdə əsaslı həqiqət vardır. Çünki yalnız elmi cəhətdən əsaslandırılmış plan vasitəsilə resurslardan səmərəli istifadə etmək, iqtisadiyyatın sferalarının tarazlı inkişafına nail olmaq, cəmiyyət artmaqda olan tələbatını təmin etmək, uzunmüddətli iqtisadi inkişafa nail olmaq, məhsuldar qüvvələrdən səmərəli istifadə etmək, proporsional inkişafa nail olmaq mümkündür. A.Revenkovun fikrincə, dövlət iqtisadi prosesləri tənzim etməklə yanaşı, həm də istehsal, sosial infrastrukturu inkişaf etdirərək, onun dünya bazarına çıxışına kömək edərək iri kapitalla planauyğun şəkildə əməkdaşlıq etməlidir [147, səh. 18]. O haqlı olaraq dövlətin əsas iqtisadi təşkilati-təsərrüfat funksiyalarından biri kimi ümummilli planlaşdırmanı həyata keçirməsini vacib hesab edir və bunu bazar şəraitində aparılan islahatların uğurunun həlli yolu kimi qiymətləndirir [147, səh. 20].

## 7.2. Regionların iqtisadi təhlükəsizliyinin təmin olunması xüsusiyyətləri

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» (2004-2008-ci illər) Azərbaycan Respublikası prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» fərmanında qarşıya qoyduğu strateji vəzifənin – Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi vəzifəsinin yerinə yetirilməsində çox mühüm mərhələdir. Həmin proqram 2004-cü ildə fevral ayının 11-də Respublika prezidenti cənab İlham Əliyevin fərmanı ilə təsdiq olunmuş və icrasına başlanmışdır. Mübaliğəsiz demək olar ki, bu proqram ölkənin hərtərəfli sosial-iqtisadi inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən bir sənəddir. Yerinə yetirildiyi təqdirdə «Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında» prezident fərmanının icrasının ümumi istiqamətidir.

Dövlət proqramının əsas məqsədi «Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artmasına və ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaqdır» [5,, səh. 7].

Müasir Azərbaycan dövləti cəmiyyət quruculuğunun ilkin mərhələsindədir. Onun regionlarında ərazi əmək bölgüsünün inkişafına qayğı göstərilməsi birinci növbədə iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi, əhalinin müxtəlif məhsullara tələbatının yerli istehsal hesabına ödənilməsi və dünya bazarına daha çox və rəqabət qabiliyyətli məhsul çıxarılması probleminin həllində, habelə regionlarda yeni istehsal münasibətlərinin formalaşmasında daha mühüm rol oynaya bilərdi.

Qeyd etmək yerinə düşər ki, regionçuluq geniş yayılmış Qərbi Avropa ölkələrində ingilis dili ədəbiyyatda geniş işlənməsinə baxmayaraq, «regionşünaslıq» hələ də coğrafiya elmlərinin ayrılmaz hissəsidir. Başqa elmlərə uyğunlaşmağa və onlara sintez etməyə meyillidir. «Rayon» və «region» anlayışları coğrafiya elmində ənənəvi xarakter almışdır. Lakin hər iki anlayış rus ədəbiyyatına gətirilmədir. Rusiyada coğrafi ədəbiyyata rayon anlayışı A.S.Yermolov tərəfindən 1879-cu ildə gətirilmiş və Rusiyada kənd təsərrüfatı rayonlaşdırması aparmaq təklif olunmuşdur. Region anlayışı isə İ.F.Burdonun və A.D.Mixelsonun «Xarici sözlər lüğəti»ndə 1877-ci ildə vətəndaşlıq hüququ almışdır [89, səh. 20].

Regionçuluq öz ölkəsində bir-birindən təbii, təsərrüfat, sosial, etnik və mədəniyyət xüsusiyyətlərinə görə fərqlənən əraziləri nəzərdə tutur. Regionlar təbii-coğrafi, etnik, demoqrafik, dini mənsubiyyətləri və s. əlamətləri nəzərə almaqla təyin olunur. Regionşünas, alim Ə.Nuriyevə görə regionu

müəyyən edərkən aşağıdakı amilllərdən biri, bir neçəsi və ya əksəriyyətinin kompleksi nəzərə alınır [47, səh. 49].

Regionların inkişafına dair həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətlərdə müxtəlif illərdə qanunlar qəbul edilmişdir. «Regional siyasətin əsasları haqqında qanun» (Rusiya), «Sosial iqtisadi inkişafın ərazi təşkili haqqında qanun» (Almaniya), «Regional inkişaf haqqında qanun» (ABŞ), «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» (2004-2008) və s. qanunlar qəbul edilmişdir. Dövlət proqramı «Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi və iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi» strategiyasının həyata keçirilməsində çox mühüm mərhələdir.

Dövlət proqramının əsas məqsədi «Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimulluşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artmasına və ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaqdır» [5, səh. 7].

Dövlətin investisiya siyasətini də dağlıq və dağətəyi regionların üstün inkişafına yönəltmək nəzərdə tutulur. Proqramda Daşkəsən, Gədəbəy, Lerik, Yardımlı, Qusar, Dəvəçi, Xızı inzibati rayonlarında geniş mədəni quruculuq işləri ilə bərabər istehsal sahələrinin sürətlə inkişafının nəzərdə tutulduğu aydın müşahidə olunur. Yaxın beş ildə investisiya qoyuluşu 16,8 milyard ABŞ dolları həcmində proqnozlaşdırılır ki, bunun da təqribən 60%-i Bakı şəhərində kənar şəhər və rayonların payına düşür. Azərbaycanın Abşerondan kənar iqtisadi rayonlarında məşğulluğun və yoxsulluğun təmin edilməsi, işsizliyin azaldılması istiqamətində işlər gedir. Sərhəd və dağ rayonlarının sosial iqtisadi inkişafının aşağı olması əhalinin yaşadığı rayona bağlılığına mane olur, ölkədə ərzaq və iqtisadi təhlükəsizliyin mənbəyinə çevrilir. Dövlət

Proqramında beş il müddətində 600 min iş yeri açmaq nəzərdə tutulur ki, artıq 520 min iş yeri təmin olunmuşdur.

Respublikamız 2007-ci ilin iqtisadi göstəricilərinə görə dünyada analoqu olmayan bir dövlətə çevrilmişdir. 2008-ci ildə Azərbaycanda ÜDM istehsalında özəl bölmənin xüsusi çəkisi optimal səviyyəyə yaxınlaşacaq regionların, sosial-iqtisadi vəsaiti əsasən infrastruktur sahələrinin inkişafına yönəldilmişdir. Düzgün xarici iqtisadi siyasət vasitəsilə istehsal olunmuş məhsulların xarici bazarlarda satılması, daxili bazarın rəqabətdən qorunması üçün şərait yaradılmışdır. Makroiqtisadi inkişafı təmin etmək üçün dövlət miqyaslı tədbirlər kompleksi həyata keçirilir: qanunvericilik bazasının möhkəmləndirilməsi, qanun layihəsini hazırlanması, məşğulluq strategiyasının hazırlanması, iri və orta müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi, Şimal, Cənub və Qərb istiqamətində, Bakı şəhəri ətrafında böyük gömrük terminalı və sərbəst gömrük zonası nəzərdə tutulur.

İqtisadi təhlükəsizlik anlayışı universal kateqoriya kimi təbiətin və cəmiyyətin bütövlükdə təhlükəsizliyinə xas olan bir sıra əlamətlərə malikdir. Ayrı-ayrı insanların həyatının, ailələrin, onların əmlakının, eləcə də cəmiyyətin və dövlətin arzuolunmaz xarici və daxili təsirlərdən, neqativ yönlü dəyişikliklərdən qorunma cəhdi, təhlükəsizlik tələbi əsas, baza tələbatlar tipinə aid edilir. Ölkədə təhlükəsizlik mühitinin daralması nəinki ayrı-ayrı adamların, təşkilatların, bütövlükdə cəmiyyətin fəaliyyətinə və inkişafına ləngidici, mənfi təsir göstərir, cəmiyyətdə və iqtisadiyyatda yaranan böhranların, durğunluğun əsas səbəbinə çevrilərək, onların aradan qaldırılmasında mövcud imkanları məhdudlaşdırır.

Müxtəlif təsərrüfat sistemlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı proqramın işlənib-hazırlanması bir neçə mərhələlərdən ibarətdir:

- təsərrüfat sisteminin fəaliyyətində problem vəziyyətinin qeydə alınması və dərk olunması;

- təsərrüfat sisteminin (obyektin) arzu olunan vəziyyətinin müəyyən edilməsi, yəni təhdidedici (qorxulu) vəziyyətin qiymətləndirilməsi;
- təhdidin tərkibinin və onun konkret predmetinin aşkar edilməsi;
- vacibliyi, başvermə vaxtı və s. üzrə təhdidlərin qiymətləndirilməsi;
- gözlənilən zərərin, itkilərin müəyyən edilməsi və onların kəmiyyətcə qiymətləndirilməsi;
- iqtisadi təhlükəsizliyin təmin edilməsi strategiyasının işlənib-hazırlanması;
- strategiyanın həyata keçirilməsi ilə bağlı tədbirlərin formalaşması.

Təsərrüfat sisteminin iqtisadi təhlükəsizliyinin təmin edilməsi proqramının işlənib-hazırlanması aşağıdakı suallara cavabı özündə əks etdirməlidir:

1) təsərrüfat sistemində təhlükə altında olan nədir?
2) təsərrüfat sisteminə təhdidlərin konkret neqativ təsir mexanizmi, onun iqtisadi təhlükəsizliyinin konkret obyekti hansıdır?
3) təhdidlərdən müdafiə strategiyası və onun ilk və son tədbirləri hansılardır?

Bu suallara cavab vermək üçün təhdidlərin ilkin təsnifləşdirilməsi, onların mənfi təsirlərinin meydana gəlməsi və ya həyata keçməsi ehtimalının ekspert qiymətləndirilməsi vacibdir. İqtisadi təhlükəsizlik predmetlərinin sadalanan keyfiyyət xüsusiyyətləri müxtəlif göstəricilərlə (indikatorlarla) xarakterizə etmək olar. İqtisadi təhlükəsizlik göstəricilərinin qiymətlərinin hər birini 3 sahəyə ayırmaq olar: təhlükəsizlik zonası; təhlükəli (təhdid) zona; yol verilməyən zona. İqtisadi təhlükəsizlik meyarları iqtisadi təhlükəsizliyin göstəricilərinin faktiki, yaxud praktiki qiymətlərinin qorxulu, təhdid zonasına düşməsi, bu qiymətlərin yol verilməyən zonaya meylli olmasını xəbəb verir.

İqtisadi təhlükəsizlik meyarlarından praktikada istifadə edilməsi bu zonaları ayıran nöqtələrin hesablanması və

qiymətləndirilməsinə əsaslanır. Bu nöqtələrin müəyyən edilməsi mürəkkəb, çətin bir məsələ olub, iqtisadi-riyazi modellərdən tutmuş keyfiyyətcə oxşarların seçilməsi, presedentlərin təhlili və ekspert qiymətləndirmə metodlarından istifadə kimi çoxlu vasitələrin tətbiqini tələb edir. Bu zonaların sərhədlərinin kəsişmə nöqtələrinin müəyyən edilməsi və qiymətlərin özləri təhlükəsizlik subyektindən asılıdır. Belə ki, əgər iqtisadi təhlükəsizliyin subyekti dövlət, onun hakimiyyət strukturlarıdırsa, iqtisadi təhlükəsizliyin predmeti, o, «ən güclü dövlətin iqtisadiyyatı»dır, bu zaman ölkədə xalq təsərrüfatının inkişaf meylləri dövlətin digər dünya dövlətləri üzərində hərbi üstünlüyə, dominantlığa nail olmaq və öz ölkəsini dünya bazarından asılı olmayacaq bir hala gətirmək üçün yeritdiyi iqtisadi siyasətə tabe olur. Bu vəziyyətdə təhdid zonası üçün xarakterik göstərici hərbi-sənaye kompleksi istehsalının həcminin azalmasıdır. Digər tərəfdən, əgər iqtisadi təhlükəsizliyin predmeti yüksək həyat səviyyəsi ilə əlaqəlidirsə, o zaman xalq təsərrüfatının inkişafı əhalinin yüksək həyat keyfiyyətinin təmin edilməsi istiqamətinə yönəlir. Burada iqtisadi təhlükəsizlik göstəricilərinə istehlakın səviyyəsi, əhalinin alıcılıq qabiliyyəti və s. aiddir, onların qiymətlərinin azalması təhdid zonasına yaxınlaşma üçün xəbərdarlıqdır.

Dünya təcrübəsi göstərir ki, dövlətin nəhəng maliyyə və sənaye strukturları ilə sıx əməkdaşlığı iqtisadiyyatın böhrandan çıxması və dinamik inkişafına kömək edə bilir. Onu da qeyd edək ki, sənaye-maliyyə qruplarının formalaşması investisiya layihələrinin reallaşması üçün əlavə kapital cəlb etmək imkanlarını ortaya qoyaraq, iqtisadiyyatın sabitləşməsi və istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas amillərindən biri kimi çıxış edir. Bu qruplarda maliyyə resurslarının birləşdirilməsi onların daxili investisiya imkanlarını genişləndirir və daha vacib istiqamətlərdə öz imkanlarını səfərbər etməyə şərait yaradır.

Uğurlu iqtisadi artımın təmin edilməsində bank kapitalının rolu böyükdür. İnvestisiya axınının istiqamətləri ilə bağlı əsas qərarların qəbul edilməsində, yeni investisiya insti-

tutlarının formalaşmasında bank kapitalı mühüm əhəmiyyətə malikdir. Bu mənada ölkənin pul-kredit, struktur və investisiya-innovasiya siyasətinin işlənib-hazırlanmasında aparıcı bankların bu işə cəlb olunması yalnız işin xeyrinə olardı. İnvestisiya sferasına yönəldilən vəsaitlərin toplanması işlərinin sürətlənməsi, vacibliyini, həmçinin xarici ölkələrin təcrübəsini nəzərə alaraq səhmdar cəmiyyətləri formasında investisiya banklarının yaradılması məsələlərinin nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Bu banklar aşağıdakı vəzifələri həyata keçirməlidirlər:

- yüksək səmərəli investisiya layihələrinin reallaşması üçün vəsaitlərin toplanması;
- özəlləşdirilmiş müəssisələrin səhmləri ilə əməliyyatların aparılması və onları digər dövlətlərin fond bazarlarında yerləşdirmək;
- yüksək səmərəli investisiya layihələrinin həyata keçməsi nəticəsində müəssisələrin səhm paketinin dövlət adından idarə edilməsi;
- ölkəyə qaytarılan və yüksək səmərəli investisiya layihələrinə yönəldilən yaxud da əlverişli investisiyaların sığortalanması üçün istifadə olunan kapital, vəsaitlərlə bağlı təkliflərin hazırlanması.

Bu məsələlərin həyata keçirilməsi eyni zamanda sivil investisiya konsepsiyasının işlənib-hazırlanmasını tələb edir. Bu konsepsiyada aşağıdakılar nəzərdə tutulur:

- geniş təkrar istehsal sistemində istehsal yığımının rolu və yerinin strateji cəhətdən əsaslandırılması, təsərrüfatçılığın maliyyə mexanizminin qurulmasını təmin etmək;
- investisiya proseslərində ərazi təşkilatlarının fəallaşması, regional investisiya-tikinti komplekslərinin vahid makroiqtisadi tənzimləmə sistemində birləşməsi. Burada tikinti-maliyyə korporasiyaları şəklində holdinq tipli formalardan istifadə edilir;
- istehsalın inkişafında maliyyələşmə və investisiya yatırımının dinamikasının sinxronluğunu təmin etmək;

- sahələrarası komplekslərdə, iqtisadi rayonlarda sənaye-maliyyə qruplarının formalaşdırılması yolu ilə struktur-investisiya siyasətinin həyata keçirilməsi;

- istehsala investisiya yatırımlarının stimullaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi;

- əsas fondların dəyərinin dövri olaraq indeksləşdirilməsi, həmçinin sürətlə amortizasiyaların fəal tətbiqi vasitəsilə amortizasiya siyasətinin fəallaşdırılması;

- istehsal sahələrinə yatırılan investisiya kreditləri və ticarət əməliyyatları üçün borclar üzrə və banklararası dövriyyədə faiz stavkalarının differensasiya olunması.

Bazar mexanizminin tələbləri və ölkənin milli iqtisadi maraqları arasında müəyyən ayrılıqlar, ziddiyyətlər mövcuddur. Bu ziddiyyətlərin aradan qaldırılması üçün dövlət ölkənin, iqtisadi təhlükəsizliyinin qorunması ilə bağlı öz üzərinə düşən funksiyanı həyata keçirməlidir. Bu funksiyanın həyata keçirilməsində mühüm bir vasitə, alət iqtisadi təhlükəsizliyi kəmiyyətcə xarakterizə edən parametrlər kimi, iqtisadiyyatın müxtəlif sferalarında təhlükəli və təhlükəsiz zonalar arasındakı sərhəddi müəyyən edən indikatorların hədd qiymətlərinin təyin olunmasıdır. Başqa sözlə, iqtisadi təhlükəsizliyin hədd qiymətləri iqtisadi aspektdən ölkənin milli maraqlarını kəmiyyətcə müəyyən edir.

İqtisadi təhlükəsizliyin hədd qiymətlərini təyin etmək üçün prinsipial səviyyədə iqtisadi sahədə ölkənin milli maraqlarını müəyyənləşdirmək lazımdır. Milli maraqların əsas meyarları dövlət tərəfindən qəbul olunmuş strategiyada tətbiq edilir. Bu strategiyaya aşağıdakılır daxil edilir:

- ixracdan asılılığın böhranlı səviyyəsinə yol vermədən geniş təkrar istehsal rejimində iqtisadiyyatın işləmə qabiliyyəti;
- əhalinin həyat səviyyəsinin ölkədəki sosial-siyasi sabitliyi təmin edən normal həddinə nail olmaq;
- maliyyə sisteminin sabitliyi;
- separatis meyllərin inkişafını istisna edən vahid iqtisadi məkanın qorunub saxlanılması;

- cəmiyyətdə cinayətkar ünsürlərin inkişafına mane olan hüquqi və iqtisadi mühitin yaradılması;

- normal və fövqəladə, ekstremal şəraitdə bazar iqtisadiyyatının sabit, sürətli inkişafına təkan verən iqtisadi proseslərin dövlət tərəfindən tənzimlənməsinin təmin olunması;

Ümumi olaraq milli maraqların bu şəkildə sistemdə formalaşması prinsipial əhəmiyyət kəsb etsə də, dövlətin ölkənin iqtisadi təhlükəsizliyinin qorunması, təmin olunması funksiyasını həyata keçirməsində bir alət ola bilməz. Milli maraqlar baxımından iqtisadi vəziyyəti kəmiyyətcə qiymətləndirən parametrləri müəyyənləşdirmək lazımdır. Bu kəmiyyət parametrləri, yaxud da hədd qiymətləri iqtisadi sahələr üzrə ölkənin milli maraqlarına uyğun olaraq qruplaşdırılır.

İstehsalın həcminin aşağı olması ölkənin iqtisadi təhlükəsizliyinə qarşı ən mühüm, əsaslı təhdidlərdəndir. Bu mənada istehsalın inkişafı istiqamətində iqtisadi siyasətin prioritetlərinin müəyyənləşdirilməsi hər bir ölkə üçün olduqca vacib və hər zaman aktual məsələlərdəndir.

Hədd qiymətlərinin birinci qrupunda istehsalın strukturunu və daxili istehsalda ixracın payını xarakterizə edən indikatorlar mühüm əhəmiyyət kəsb edir. Burada mühüm göstəricilər sənaye istehsalında emal sənayesinin, maşınqayırma sənayesinin payı, əhalinin daxili istehlakında ixracın payı və digərləridir ki, onların da hədd qiymətləri ölkəni iqtisadi sahədə onun üçün təhlükəli olan vəziyyətdən uzaqlaşdırsın.

Elm tutumlu məhsulların həcminin kəskin şəkildə azalması xüsusilə qorxuludur. Məsələn, ümumi istehsalda yeni növ məhsulları payı 6% həddindən müəyyənləşdirilir.

Əlbəttə, ölkənin dünya bazarından asılı olmayacaq səviyyəyə çatdırılması tam şəkildə mümkün deyildir. Qloballaşma şəraitində dünya ölkələri ilə iqtisadi əlaqələri, inteqrasiyanı genişləndirmək Azərbaycan üçün önəmli bir məsələ olduğu üçün bu istiqamətdə ixrac imkanlarının tam reallaşması da respublikamız üçün əhəmiyyətlidir, o cümlədən elmtutumlu məhsulların və istehlak mallarının ixracıda

mühüm rol oynayır. Lakin iqtisadiyyatın ixracdan tam asılılığı heç bir ölkə üçün, onun milli, iqtisadi təhlükəsizliyi baxımından yolverilməzdir. Bu mənada, daxili tələbatın ixrac vasitəsilə təmin edilməsi ölkənin xarici təsirlərdən asılılığına şərait yaratmayacaq bir səviyyədə, çərçivədə həyata keçirilməlidir.

Bu vəziyyət çox zaman maşınqayırma, ağır sənaye sahələrində müşahidə edilir. Məlum olduğu kimi, Azərbaycanda daha çox neft maşınqayırması inkişaf etmişdir. Bu gün yeni qurulan, yaradılan müəssisələrə avadanlıqlar, texnoloji qurğular xaricdən gətirilir. İqtisadi asılılığını minimuma endirməyə çalışan hər bir ölkə üçün bu sahənin inkişafı olduqca mühüm bir məsələdir və bu, böyük həcmdə investisiya tələb edən bir sahədir.

Bu gün Azərbaycanda üstün olan yanacaq-xammal resurslarının ixracı və maşın, avadanlıq, bir sıra istehlak mallarının idxalına əsaslanan iqtisadi inkişaf modelinə əsaslanan inkişafdır. Bu isə xeyli dərəcədə dövlətin xarici bazardakı hakim konyunkturadan, xarici dövlətlərin qəbul etdikləri qərarlardan asılı vəziyyətə düşməsinə münbit şərait yaradır.

Bu istiqamətdə böhrandan əsas çıxış yolları ölkənin elmi-texniki potensialını gücləndirir, təhsili dünya standartlarına uyğun şəkildə qurmaq, iqtisadi inkişafın mühüm amili olan insan kapitalının inkişafını qorunmasını təmin etmək, onun yaradıcılıq potensialına münbit şərait yaratmaq, başlıcası isə bu istiqamətlərdə investisiya yatırımlarının həcmini artırmaqdır.

Digər ikinci mühüm qrup əhalinin həyat səviyyəsinin indikatorunun hədd qiymətidir. Bu sahədə ilkin olaraq aşağıdakılar müəyyən olunmalıdır: Gəliri yaşayış minimumundan aşağı olan əhali hissəsi; orta ömür müddəti – 70 il; əhalinin ən yüksək gəlirli 10%-i ilə ən aşağı gəlirli 10%-i arasında ayrılıq, fərq-8 dəfə.

Cəmiyyətdə dar çərçivədə həddindən çox varlı və kütləvi şəkildə yoxsul təbəqənin formalaşması müxtəlif düşüncə, bilik və sosial ədalət haqqında təsəvvürləri olan iki qütbləşmiş

sinfin yaranmasına səbəb olur. Əhalinin həyat səviyyəsinin pisləşməsi bu iki qütbləşmiş sinif arasındakı uçurumu getdikcə dərinləşdirir və islahatların sosial bazası isə möhkəmlənmir. Nəticə etibarilə cəmiyyətdə sosial münaqişələr təhlükəsi daimi qalır.

Bir cəhətə də diqqət yetirmək lazımdır. Yaşayış minimumu elə bir səviyyyədə müəyyənləşə bilər ki, sanki ölkədə bu, səviyyədən aşağı gəlirə malik əhali təbəqəsi yoxdur. İnkişaf etmiş ölkələrdə aşağı gəlir səviyyəsinə malik əhali təbəqəsi ilə yüksək gəlir səviyyəsinə malik əhali təbəqəsi arasında fərq 8 dəfə həddində müəyyənləşib. Bu sosial münaqişələrə səbəb olmur.

Ölkənin iqtisadi təhlükəsizliyi üçün mühüm məsələlərdən biri də nəğd formada xarici valyutanın həcminin nəğd pulun ümumi həcminə nisbəti göstəricisidir. Bu, pul dövriyyəsinin dollarlaşdırılmasını ifadə edir. Pul kütləsinin dövriyyəsinin süni surətdə ləngidilməsi hesabına inflyasiyanın azaldılması cəhdi iqtisadiyyatın monetləşdirilməsinin faktiki və hədd qiymətləri arasında kəskin fərqə səbəb olur. Bu da müəssisələrdə dövriyyə vəsaitlərinin çatışmazlığını yaradaraq, müəssisənin borclarının çoxalması kimi neqativ hallar doğurur. Bu da iqtisadi təhlükəsizlik üçün əsas təhdid, qorxudur. Bu gün də belə problem respublikamızda mövcuddur və müəssisələrin fəaliyyətinə mənfi təsir göstərməkdədir. Müəssisələr bu vəziyyətdən çıxış yolu kimi müəssisələrinin daxili borclarının qarşılıqlı olaraq silinməsi fikrini müdafiə edirlər.

Mühüm göstəricilərindən biri də separatçı meyllərin inkişafını istisna edəcək vahid iqtisadi məkanın qorunması dərəcəsinin hədd qiymətidir. Bir sıra dövlətlərdə ilkin olan yaşayış minimumunun səviyyəsinə görə regionların differensasiyası parametrinin müəyyən edilməsidir.

İstehsalın səviyyəsinin azalması, onun tənəzzülə uğraması nəticəsində sosial-iqtisadi inkişaf baxımından ölkənin regionları arasında qeyri-bərabərlik, «inkişaf etmiş» və «inkişaf etməmiş», o cümlədən «tənəzzülə uğramış» rayonlar arasında uçurum getdikcə güclənir. Nəticədə bu rayonlar üzrə budcəyə vəsaitlərin daxil olmasında da fərqlər müşahidə edilir.

Belə bir vəziyyət respublikamızda da müşahidə edilməkdədir. Bu mənada respublikamızın paytaxtı Bakı şəhəri digər regionlardan bu göstəricilər üzrə əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərqin aradaq qaldırılması məqsədilə hökumət tərəfindən «Regionların sosial-iqtisadi inkişafı» proqramı qəbul edilmişdir.

Yuxarıda qeyd etdiyimiz iqtisadi təhlükəsizlik indikatorlarının maksimal yol verilən hədd qiymətləri ifadə edilmişdir. Bu indikatorlar gəlir səviyyəsi yaşayış minimumdan aşağı olan əhali hissəsi; əhalinin ən yüksək gəlirli 10%-i ilə ən aşağı gəlirə malik 10%-i arasında fərq; işsizliyin səviyyəsi; daxili və xarici barjların həcmi; büdcə kəsiri; daxili bazarda dövriyyədə olan xarici valyutanın həcmi; daxili dövriyyədə ixracın payı; ölkə regionlarının iqtisadi cəhətdən differensasiyası kimi indikatorların faktiki qiymətləri onların hədd qiymətlərindən yüksəkdirsə, deməli, ölkə iqtisadi cəhətdən təhlükəli zonadadır.

Lakin ümummetodoloji cəhətdən belə yanaşmanı qeyri-düzgün hesab edənlər də vardır. Belə ki, məsələn, sənaye istehsalında maşınqayırma sənayesinin xüsusi çəkisi, ÜDM-də investisiyanın həcmi, pul kütləsi bu indikatorların həm minimum, həm də maksimum qiymətlərində ölkə üçün təhlükə, qorxu vardır. Əgər ÜDM-də investisiyanın payının az olması istehsal üçün durğunluq təhlükəsi, avadanlıqların texniki cəhətdən köhnəlməsi qorxusu yaradır, investisiyanın həcminin çox olması isə iqtisadiyyatda «ağırlaşma» təhlükəsi yaradır və əhalinin həyat səviyyəsi aşağı düşür.

Ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, iqtisadi təhlükəsizliyin bir çox indikatorları üzrə birmənalı hədd qiymətləri deyil, təhlükəsiz sahəyə, zonaya keçidi ifadə edən «dəhlizin» müəyyənləşdirilməsi zəruridir. Lakin hazırda iqtisadiyyatda təhlükəsizliyin cəmiyyətdəki cinayətkar ünsürləri inkar edən mühitə, şəraitə uyğun indikatorlarının hədd qiymətləri tam işlənib hazırlanmamışdır.

Şəxsi investisiya – gəlir əldə etmək məqsədilə maliyyə aktivlərinə fiziki şəxslər tərəfindən vəsait qoyuluşudur. Şəxsi

investisiyaların təhlükəsizliyi dövlət tərəfindən vətəndaşların yığımlarını daxili və xarici təhlükələrdən qoruya biləcək onlara təminat verəcək şəraitin yaradılmasını nəzərdə tutur.

Hazırda vətəndaşlardan yığımların cəlb edilməsi prosesinə təhlükə yarada biləcək hallar kimi aşağıdakılar nəzərdən keçirək. 1) Bank sisteminin qeyri-sabitliyi və islahatlardan əvvəlki yığımların real indeksasiyası mexanizminin olmaması. İnvestisiya qoyuluşlarının ən geniş yayılmış və əlverişli üsulu kommersiya banklarına depozit qoyuluşlardır. Yüksək inflyasiya dövründə belə investisiyaların riski böyük olmur. Yerli bankların sabit işi inflyasiyadan gələn gəlirlərin mənimsənilməsi mexanizmini təmin edir. O, hesablardakı qalıqların və digər növ aşağı faiz öhdəliklərin indeksasiya olunmasına əsaslanır. Bu vaxt kredit dərəcələri yüksək olur ki, bu da həddindən artıq yüksək faizli marc təmin edir. Başqa sözlə, mənfi real faiz stavkaları şəraitində bank öz müştərilərindən kredit alıcısı kimi deyil (bunlara görə ödəmələr inflyasiyanı kompensasiya etmir), hesabların və digər aşağı faizli öhdəliklərin sahibləri kimi istifadə edir. Pul qazanmağın (gəlir əldə etməyin) digər bir üsulu milli valyuta kursunun sürətlə aşağı düşdüyü dövrdə müsbət açıq valyuta mövqeyinin qorunub saxlanılmasıdır. Belə şəraitdə aşağı faizlə öhdəliklərin (borcların) valyuta aktivlərinə köçürülməsi banklar tərəfindən gəlirlərin avtomatik olaraq səhfini təmin edir. İnflyasiya ilə əlaqədar baş verən proseslər sonda orta və kiçik bankların müflisləşməsilə nəticələnir ki, bu da xarici investorların bank sisteminə inamını zəiflədir. Bu vəziyyət banklardakı islahatlardan əvvəlki dövrlərdə daxil olan yığımların real indeksasiyası mexanizminin olmaması ilə daha da dərinləşir, həmçinin bank sisteminə olan inama mənfi təsir göstərir. Yeni makroiqtisadi şəraitdə banklar yüksək gəlirli qiymətli kağızların alqı-satqısı və real sektorda seçilmiş müəssisələrin kreditləşməsi ilə məşğul olurlar. Keçid iqtisadiyyatı şəraitində kommersiya banklarının sabit işi üçün təhlükə törədə biləcək aşağıdakı amilləri ayırmaq olar:

- sosial və siyasi vəziyyətin gərginləşməsi ilə əlaqədar banklararası kredit bazarında kreditlər verilməsi limitinin azaldılması;

- dünya maliyyə bazarında rəqabətin dəyişməsi ilə əlaqədar iri xarici investorların fəaliyyəti nəticəsində valyuta və fond bazarlarında tələb və təklifin nisbətinin kəskin şəkildə dəyişməsi;

- kütləvi informasiya vasitələrində maliyyə bazarının operatorları barəsində xoşagəlməz, mənfi fikirlərin yayılması nəticəsində onlara inamın azalması;

- Dövlət Bankının (Milli Bankın) əvvəlcədən zəif nəzərdə tutulan faiz və ehtiyat siyasəti yürütməsi;

Deyilənlərdən bir daha aydın olur ki, bank depozitlərinə investisiya qoyuluşu nəzərəçarpacaq dərəcədə risklidir. Lakin bu investisiyaların inflyasiya səviyyəsindən yüksək gəlir gətirir.

Bir sıra mütəxəssislərin fikrincə, bankların azalması prosesinin sabitləşməsi şəraitində şəxsi vəsaitlərin sığortalanması üzrə belə korporasiyaların yaradılması məqsədəuyğun olardı. Bununla yanaşı bank depozitlərinə investisiya yatırımlarının təhlükəsizliyinin artırılması məqsədilə aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- iqtisadi normaların təsbit edilməsi vasitəsilə kommersiya banklarının üzərinə vətəndaşların yığımlarının həcmi ilə müqayisə oluna biləcək səviyyədə dövlət qiymətli kağızlar portfelini formalaşdırmaq öhdəçiliyini qoymaq;

Bu, kredit müəssisələrində yığımlara zəmanət üçün iqtisadi şəraiti təmin edir.

- kommersiya banklarının birləşməsi prosesini stimullaşdırmaq. Burada iri bankların birləşdirilməsi iri kredit təşkilatlarının yaradılmasına imkan verir.

- sivil birja infrastrukturunun yaradılması ilə kommersiya bankları səhmlərin emissiyası hesabına öz vəsaitlərini artıra bilərlər. Likvidli bazarların olmaması investorlar üçün əksər bankların səhmlərinin cəlbediciliyini, onlara marağı azaldır və yeni emissiyaların yerləşdirilməsi üçün şəraiti mürəkkəbləşdirir.

- nüfuzlu reytinq agentliklərinin yaradılması və onlara dövlət yardımını, himayəsini təmin etmək, kütləvi informasiya vasitələrində bankların reytinqi haqqında məlumat nəşr etmək. Belə reytinq cədvəli-çox vaxt peşəkarcasına tərtib olunmur və xüsusi investorlar üçün o qədər də başa düşülən olmur. Bundan başqa, düzgün bank hesabatlarının çətin əldə olunması maliyyə göstəricilərinin təhlilini çətinləşdirir;

- bank sisteminin sağlamlaşdırılması üçün strateji investorların cəlb olunmasına kömək etmək. Bu, banklarda sağlam maliyyə vəziyyətini sağlamlaşdırmaqla yanaşı, həmin banklara qarşı müştərilərdə inam yaradır və nəticədə banklardan vəsaitlərin axınının qarşısı alınır.

Üçüncü təhlükə milli səhm bazarında sabit vəziyyətin olmamasıdır. Son zamanlar özəlləşdirilmiş müəssisələrin və kommersiya banklarının səhmlərinə fiziki şəxslər tərəfindən maraq artmışdır. İnvestorları həm uzunmüddət, həm də qısa-müddətli yatırımlar cəlb edir. Səhmlərin qiymətlərinin kursunda müşahidə olunan artıb-azalmalar investorların fəaliyyətinə, onların yatırımlarının səviyyəsinə öz mənfi təsirini göstərir. Bu baxımdan səhm bazarında baş verə biləcək mənfi halların, fond böhranının qarşısını almaq üçün göstəricilər (indikatorlar) seçilib dəqiqləşdirilməlidir ki, onların təhlili vasitəsilə bunu həyata keçirmək mümkün olsun. Belə göstəricilərə aşağıdakılar aiddir:

- fond indekslərinin qiyməti. Verilmiş göstəricilər dinamikasının texniki təhlili vasitəsilə bazarda inkişafla bağlı vəziyyəti proqnozlaşdırmaq olar.

- yerli emitentlərin beynəlxalq bazarlarda depozit qəbzlərinin kursu. Bu göstəricinin dinamikası xarici investorlar üçün ölkənin qiymətli kağızlarının cəlbediciliyini əks etdirir.

- paylı investisiya fonlarının və ümumi bank idarəetmə fondlarının paylarının xalis satışının həcmi. Bu göstəricinin dinamikası investorların ümumi iqtisadi əhval-ruhiyyəsini, fəallığını və yerli investisiya institutlarına inam dərəcəsini əks etdirir;

- aparıcı müəssisələrin səhmi»nin «p/e ratio» əmsalının (kurs səhmlərdən əldə olunan xalis gəlir) qiyməti və yerli səhm

bazarının verilmiş göstəricisinin orta qiyməti «p/e ratio» əmsalı nə qədər azdırsa, səhmlərin tam qiymətləndirilməməsi bir o qədər çox olacaqdır. Səhmlərin «p/e ratio» orta qiyməti inkişaf etmiş bazarlarda 1996-cı ildə 16-ya bərabər olmuşdur;

- kapitalı həcmi baxımından aparıcı müəssisələrin səhmləri üçün «d/p ratio» əmsalının qiyməti və yerli səhm bazarı üçün verilmiş göstəricinin orta qiyməti. Verilmiş göstəricinin dinamikası bank depozitləri və dövlət qiymətli kağızları üzrə gəlirliyin dinamikası ilə müqayisəli təhlil üçün istifadə olunur:

- kapitalın həcmi baxımından aprıcı müəssisələrin səhmləri üçün «d/p ratio» əmsalının qiyməti və yerli səhm bazarında bu göstəricinin orta qiyməti. Bu göstərici nə qədər aşağıdırsa, səhmlərin tam qiymətləndirilməməsi səviyyəsi bir o qədər yüksəkdir. Səhmlərin «d/p ratio» əmsalının orta qiyməti inkişaf etmiş bazarlarda 1996-cı ildə 2-yə bərabər olmuşdur.

Dördüncü təhlükə mənbəyi korporativ qiymətli kağızlar bazarı infrastrukturunun inkişaf etməməsidir. Səhmlərə qoyulan şəxsi investisiyaların təhlükəsizliyi üçün əsas qorxu, təhdid fond bazarı infrastrukturunun inkişaf etməməsidir. Bununla əlaqədar olaraq, əsas infrastruktur vahidi kimi qiymətli kağızlarla vahid ticarət sistemi yaradılmalıdır, yəni qiymətli kağızlar bazarının və digər maliyyə alətlərinin müntəzəm fəaliyyət göstərəjəyi bir struktur, təşkilat-fond birjaları yaradılmalıdır. Qiymətli kağızlarla sövdələşmələrin real dəyəri haqqında informasiyanın olması belə bazarın sivil, müasir səviyyəsinin yüksəlməsini ifadə edir. Qiymətli kağızlarla vahid ticarət standartlarının olması korporativ qiymətli kağızlar bazarına investorların inamını daha da artırır.

Fond birjasında qiymətli kağızların və pul vəsaitlərinin hesablanması üzrə sivil hesablama sisteminin olmaması çox vaxt qiymətli kağızlar bazarının imkanlarından həm peşəkar, həm də cinayətkar ünsürlərin öz çirkin məqsədləri üçün istifadə etmələrinə şərait yaradır. Belə bir vəziyyətdən çıxış yolu isə milli fond birjasının yaradılmasıdır.

## 7.3. Qlobal və milli iqtisadi təhlükəsizliyin balanslaşdırılmasında dövlətin rolu

Mülkiyyət münasibətlərinin dəyişməsi ilə yeni iqtisadi sistemə keçid iqtisadi ekoloji, siyasi və sosial sferalarda mənfi dəyişikliklərlə müşahidə olunan mürəkkəb vəziyyət yaratmışdır. Keçid dövrünün ilk illərində sənaye istehsalının, əsas kapitala investisiya qoyuluşlarının həcmi, elm tutumlu məhsul istehsalının səviyyəsi kəskin şəkildə azalmış, əsas istehsal fondlarının aktiv hissəsi köhnəlmiş, sənayenin rentabellik səviyyəsinin davamlı olaraq azalması meyli güclənmişdir. Bu hal ölkənin iqtisadi təhlükəsizliyi üçün ciddi təhdidlərdir.

Hər bir ölkə iqtisadi təhlükəsizliklə bağlı məsələlərin həlli istiqamətində optimal variantların axtarışı və seçilməsi problemi ilə üzləşir. Təcrübə göstərir ki, qəbul edilən qərarların optimallaşdırılması onların səmərəliyinin və etibarlığının 5-7% artmasına xidmət edir. Bu istiqamətdə müasir əlverişli kompüter texnologiyalarının tətbiqi olmadan qeyri-səmərəli qərarların qəbul edilməsi riski olduqca artır.

Müasir səmərəli kompüter texnologiyalarının ilkin informasiya ilə bağlı qeyri-müəyyənliyi dəfələrlə azalda bilmə, daha səmərəli taktiki və strateji proqramları işləyib-hazırlama qabiliyyəti strateji məsələlərin həllində, qərarların qəbul edilməsində bu texnologiyaların uğurla tətbiqinə geniş imkanlar yaradır.

Şəkil 7.1.-də bazarın həcminin təhlilində qarşıya çıxan qeyri-müəyyənliyin minimuma endirilməsində kompüter texnologiyalarının tətbiqi əhəmiyyəti qeyd olunur. Bazarın həcmi müəyyən bir zaman kəsiyində hər hansı bir regionda bazarda tələb olunan əmtəə və xidmətlərin kəmiyyətidir. Burada rəqabət, qiymət, potensial alıcıların sayı, onların gəliri və başqa amillər nəzərə alınır. Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə bazarın həcminin hesablanması marketinq tətqiqatlarının, eləcə də firma daxili planlaşdırmanın əsasını, investisiya layihələrinin iqtisadi cəhətdən əsaslandırılmasının məğzini təşkil edir. Amillərin qeyri-bərabər birləşməsi

şəraitində bazarın həcmi α-ya yaxınlaşır, əlverişli birləşmə şəraitində isə bu β-ya yaxınlaşır.




**Şəkil 7.1.**

Bununla yanaşı β yüz, hətta min dəfələrlə belə α-dan yüksək ola bilər. [α, β] intervalı bazarın həcminin hesablanmasındakı xətanı ifadə edir, yaxud da qeyri-müəyyənlik intervalıdır. Məhz bu qeyri-müəyyənlik iqtisadi risk yaradır. Bazarın həcmi, tutumu məlum olmadıqda, bazarda həddindən artıq mal və xidmət artıqlığı qaçılmazdır. Bu zaman bu malların saxlanılması və nəqli ilə bağlı əlavə xərclər tələb olunur, tam və yaxud qismən əmtəə itkisi yaranır. Burada riskin artması müşahidə olunur. Təchizatın həcmi kifayət qədər olmadıqda, gəlir azalır, nəticədə riskin azalması baş verir. Bazarın optimal tutumu, həcmi riskin artımı və azalması xətlərinin kəsişmə nöqtəsidir. Bu, bir sıra fövqəladə xassələrə malikdir:

- burada ciddi riyazi müəyyənlik və onu səmərəli kompüter texnologiyalarının köməyilə təyin etmək olar.
- hər bir əmtəə, xidmət və ya qiymətli kağız istehsalçısı iqtisadi riski bu nöqtəyə yönəldir, istiqamətləndirir (şəkil 7.1.);
- tarazlıq qiymətinin, tələb və təklifin formalaşmasının bazar mexanizmi bu nöqtədə reallaşır (şəkil 7.2.);
- bu səviyyəyə nail olmaqla istehsalçı maksimum gəlir əldə edir (şəkil 7.3.);

- qeyd olunan xüsusiyyətlərlə yanaşı, bu nöqtə yüksək sabitliyə malikdir. Belə ki, amillərin hətta əhəmiyyətli dərəcədə dəyişməsi bazarın optimal tutumunun, həcminin (yəni bazarda tarazlığın) olduqca az dəyişməsinə səbəb olur.




**Şəkil 7.2. Tarazlıq qiymətinin, tələb və təklifin formalaşması**




**Şəkil 7.3. Gəlirin satışın həcmindən asılılığı**

Bazarın optimal tutumunun sadaladığımız xüsusiyyətlərinə əsaslanaraq, optimal kompüter texnologiyaları qeyri-düzgün ilkin məlumatlardan istifadə etməklə belə kiçik xətalarla bazarın tutumunu hesablamağa imkan verir.

Bu texnologiyalar qeyd olunan məsələlərin iqtisadi səmərəliliyinin inteqral qiymətləndirilməsi yolu ilə müxtəlif vəziyyətlərin işlənib-hazırlanması və tədqiqinə imkan yaradır. Optimal kompüter texnologiyalarının tətbiqi mühüm məsələlərin həllində, qərarların qəbul edilməsində meydana çıxan qeyri-müəyyənliyi aradan qaldıraraq iqtisadi təhlükəsizliyi artırır.

Optimal kompüter texnologiyalarının tətbiqinin digər mühüm istiqamətləri investisiya layihələrinin, kompleks proqramların qiymətli kağızların emissiyası proqramlarının, büdcə layihələrinin işlənib-hazırlanması ilə bağlıdır. Bu, bir növ kombinasiya olunmuş məsələlərin həlli ilə bağlıdır. Bu texnologiyaların tətbiqi bütün optimal həll variantları içərisindən minimum vaxt sərfi ilə daha səmərəlilərini seçməyə, həmçinin, yalnız çoxsaylı resurs məhdudiyyətləri olan məsələlərin, həm də çoxməqsədli məsələlərin həllinə (yəni maksimum gəlir əldə etmək, bununla yerli və regional idarəetmə orqanları üçün olduqca aktual olan maksimum səviyyədə yeni iş yerlərinin yaradılmasını təmin etmək; müxtəlif qiymətli kağızların likvidliyini bu və ya digər tədbirlərin həyata keçirilməsi ilə bağlı risklərin hesablanması) imkan verir.

İnvestisiya layihələrinin işlənib-hazırlanması zamanı optimal kompüter texnologiyalarının tətbiqi bu layihələrin tərkibini, strukturunu formalaşdırmaq, xidmət bazarını tədqiq etmək, maliyyələşdirmə mənbələrinin cəlb edilməsi variantlarını seçmək, inteqral göstəricilərinin layihələrin tərkibindən, strukturundan asılılığını tədqiq etmək kimi prinsipial cəhətləri müəyyən etməyə imkan verir.

İqtisadi təhlükəsizliklə bağlı bir çox məsələlərin, o cümlədən; yerli əmtəə və maliyyə bazarlarının dayanıqlığının təmin olunması, iqtisadi artım proqramının işlənib-hazırlanmasında optimal kompüter texnologiyalarının tətbiqi düzgün təhlil və proqnozlaşdırmanın həyata keçirilməsinə imkan verir. Müxtəlif vaxtlarda dünyanın fond və maliyyə bazarlarında baş verən hadisələr bir daha onu göstərir ki, hətta ən nüfuzlu analitik mərkəzlər belə vaxtında bu böhran

hallarını xəbər verə bilmir və onların qarşısının alınmasında səmərəli tədbirlər təklif edə bilmirlər. Bazarların qeyri-sabitliyi bazar (spekulyativ) kapital tərəfindən təsir dairəsinin və mülkiyyətin yenidən bölüşdürülməsi üçün istifadə oluna bilər ki, bu da iqtisadi təhlükəsizliyə birbaşa təsir göstərir. Bu mənada, yalnız optimal kompüter texnologiyalarının köməyi ilə bazarların davamlığının, sabitliyinin obyektiv meyarlarını və bu sabitliyi qoruyub-saxlamağa xidmət edən idarəetmə metodlarını işləyib-hazırlamaq olar.

Optimal kompüter texnologiyaları investisiya layihələri ideyalarının hazırlanması mərhələsində onların səmərəliliyinin əsaslandırılması istiqamətində iqtisadi idarəetmə metodlarını və qaydalarını təkmilləşdirməyə və bu sahədə köklü dəyişikliklərə rəvac vermək iqtidarındadır. Bu iki mərhələ layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etməyə kömək edir. Burada layihələrin iqtisadi səmərəliyinin inteqral göstəricilərinin hesablanmasında müxtəlif metodiki göstəricilərdən tələblərdən istifadə olunur. İnvestisiya resurslarının məhdudluğu şəraitində optimal kompüter texnologiyalarının tətbiqi iqtisadi riski əhəmiyyətli dərəcədə azaltmağa imkan verir ki, bu da öz növbəsində ölkənin iqtisadi təhlükəsizliyini artırır.

İqtisadiyyatda struktur deformasiyasının güclənməsi, dərinləşməsi – ölkənin iqtisadi təhlükəsizliyinə qarşı olan əsas təhdidlərdəndir. Məlum olduğu kimi keçmiş SSRİ dağıldıqdan sonra yenicə müstəqillik qazanmış respublikaların geniş təkrar istehsal proseslərində durğunluq yaranmış və xalq təsərrüfatının müxtəlif sahələrində yaranmış disproporsiyalar iqtisadi anomaliyanı şərtləndirmişdir. İqtisadi strukturda yaranmış belə nöqsanlar, qüsurlar müasir şəraitdə bir çox çətinliklər yaradır və bu strukturda dəyişikliklərin aparılması iqtisadiyyatın gələcək inkişafı ilə bağlı olub, bir növ bazarın ixtiyarına buraxılır. Keçmiş SSRİ-dən bu gün respublikamıza miras qalan bu struktur deformasiyası öz mənfi təsirini həm ağır sənayedə, həm də insanın gündəlik tələbatını təmin edəcək istehsal sahələrinin və sferalarının fəaliyyətinə gös-

tərərək, ciddi geriliyə səbəb olmuşdur. Burada yüngül və yeyinti sənayesi, xidmət və məişət sənayesi nəzərə alınır. Beləliklə, qırılan iqtisadi əlaqələr fonunda yaranmış iqtisadi struktur bu gün də adları çəkilən xalq təsərrüfatı sahələrində dayanıqlı, sabit yüksələn inkişafı tam təmin edə bilmir.

Bu gün respublikamız qarşısında duran həlli vacib məsələlərdən biri, bəlkə də ən əsaslısı istehsalın səviyyəsinin müasir iqtisadi sistemin tələblərinə uyğun bərpasını və inkişafını, yüksəlişini təmin etməkdir. Məhz ümumi halda belə yanaşma, fikrimizcə, düzgün olardı. Lakin bazar iqtisadiyyatına üyğun struktur dəyişiklikləri ilə müşayiət olunan iqtisadi yüksəliş, istehsalın artımı daha etibarlı olardı. Bu baxımdan da, inamla demək olar ki, istehsalın strukturunun bazarın tələblərinin strukturu ilə əlaqələndirilməsi bu gün Azərbaycan iqtisadiyyatının inkişafı istiqamətində əsas problemlərdəndir.

İnvestisiya yatırımlarının və investisiya fəallığının azalması, elmi-texniki potensialın dağılması ölkənin iqtisadi təhlükəsizliyinə qarşı çox ciddi təhdidlərdəndir, iqtisadiyyata qoyulan investisiyanın həcminin və investisiya fəallığının azalmasında özünü büruzə verir. Xalq təsərrüfatının böyük həcmdə kapital qoyuluşları tələb edən sahələri olmadan ölkənin iqtisadi cəhətdən yüksəlişinə, inkişafına nail olmaq mümkün deyildir. Bu gün kifayət qədər təbii ehtiyatlara malik olan Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunması bu ehtiyatların güclü investisiya və innovasiya potensialı ilə üzvi şəkildə əlaqələndirilməsini zəruri etmişdir. Burada qarşıda duran iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də ölkənin özünün investisiya potensialını formalaşdırmaq və inkişaf etdirməkdən ibarət olmalıdır.

Mütəxəssislərin fikrincə, investisiya kompleksində iqtisadi təhlükəsizliyə qarşı əsas təhdidlərə aşağıdakıları aid etmək olar: əsaslı tikinti resurslarının həcminin kəskin şəkildə azalması; onun yarımsistemləri arasında iqtisadi əlaqələrin qırılması (xammal bazası, texniki və texnoloji təchizat, elmi və kadr potensialı); investisiya sferasında strateji istiqamətlərin olması; investisiya proseslərində faktiki istiqamətlərin strateji

istiqamətlərə nisbətən üstünlük təşkil etməsi (elit səviyyəli yaşayış evləri, tikililəri, ixrac yönümlü xammal sənayesinin qorunub saxlanması).

İnvestisiya fəallığının azalması, zəifləməsi ölkənin istehsal potensialının köhnəlməsinə səbəb olur və bu meylləri daha da gücləndirir. Bunun qarşısının alınmaması tez bir vaxtda bütün maddi istehsal sahələrində bu meyllərin yayılmasına və güclənməsinə gətirib çıxarır, xalis yığımın həcmi mənfi olur, əsas fondların işləmə əmsalı onların sıradan çıxma əmsalına yaxınlaşır. Lakin fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıqların, qurğuların, bir sözlə, əsas fondların birdən-birə, kütləvi şəkildə «atılması», bir növ onlardan imtina edilməsi o qədər də düzgün deyildir, bunun tədricən həyata keçirilməsi məqsədəuyğun olardı. Əsas fondlar xüsusilə maşınlar və avadanlıqlar, qurğular tədricən köhnəlir. Böhrana qədərki dövrlə müqayisədə istehsal avadanlıqları parkının yeniləşməsi əmsalının azalması, parkda yeni avadanlıqların sayının azlığı istehsal aparatının texniki səviyyəsində tənəzzül, pisləşmə müşahidə olunur.

Pul kütləsinin qeyri-əlverişli strukturunda investisiya fəaliyyətinə mənfi təsir göstərir. Burada üç əsas məqamı ayırmaq olar: 1) pul kütləsinin süni surətdə azaldılması; 2) pul vəsaitlərinin böyük bir hissəsinin iqtisadiyyatın real sektorunda deyil, maliyyə-valyuta və aralıq sferalarda yerləşdirilməsi; 3) banklarda və müxtəlif fondlarda əhalinin yığımının investisiya potensialının azalması. Bu həmin vəsaitlərin «cəld pullara» çevrilməsi, yəni cari dövriyyəyə daxil edilməsidir.

Real kapitalın yeniləşməsi üzrə investisiya fəaliyyətinin formalaşması yolu ilə böhrandan çıxmaq olar. Ölkədə investisiya mühitinin sağlamlaşdırılması olmadan investorlar arasında əhəmiyyətli dəyişikliklər belə (investisiya proqramlarında dövlətin payının azalması, xüsusi investorların sayının çoxalması, daxili bazarda xarici investorların kapital qoyuluşlarının xüsusi çəkisinin artması) bu prosesə kömək edə bilmir. İnvestisiyaların aşağı gəlirlilik səviyyəsi, daxili bazarın qeyri-sabitliyi, səbatsızlığı, risklərin yüksək olması, kreditlərin fai-

zinin yüksək olması, vergi təzyiqlərinin güclənməsi, yığımlara qarşı az meyllilik - bütün bunlar investisiya fəallığının yüksəlməsi imkanlarını və dövlətin struktur siyasətində əhəmiyyətli düzəlişlər olmadan və bu problemin həllində dövlətin rolunu fəallaşdırmadan istehsalın texniki cəhətdən yenidən silahlanması perspektivlərini optimist şəkildə qiymətləndirməyə imkan vermir. İqtisadi sistemdə baş verən tənəzzülün real həyəcanlı əlamətləri bir daha göstərir ki, yaranmış bu neqativ vəziyyət, maneə «sındırılması», ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində əsas məsələlərdən biri məhz əsas kapitalın təzələnməsi olacaqdır.

Ümumiləşdirilmiş şəkildə demək olar ki, yaranmış investisiya və innovasiya böhranı aşağıda göstərilən amillərin köməyilə aradan qaldırıla bilər: əsas kapitalın yeniləşdirilməsi istiqamətində investisiya fəaliyyətinin fəallaşdırılması. Bu ümümi ilkin şərtdir; müasir iqtisadi inkişafın istiqamətlərini və prioritetlərini müəyyən etmək; xüsusilə də əsaslı tikintinin; tikinti-maliyyə korporasiyaları formasında holdinq kompaniyalarının yaradılması; qapalı təkrar istehsal və texnoloji strukturlar üzrə maliyyə-sənaye qruplarının formalaşması; xüsusi (şəxsi) investisiyaların stimullaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi; ölkəyə xarici investisiyaların cəlb edilməsi istiqamətində tədbirlər sisteminin işlənib-hazırlanması; əhalidən yığımların investisiyaya transforma-siyası üçün əlverişli şərait yaratmaq.

İnkişaf etmiş ölkələrin tarixi göstərir ki, heç də çox böyük təbii ehtiyatlara malik ölkələr deyil, məhz bu ehtiyatları daha müasir texnologiyanın köməyi ilə hasil edən, nəql edən və emal edən ölkələr daha zəngin və dayanıqlı inkişafa malik olurlar. Məsələnin bu cür qoyuluşu bazar iqtisadiyyatı yolu seçmiş respublikamız üçün sürətli iqtisadi inkişaf vəd verə bilər. Gələcəkdə respublikamızın iqtisadiyyatına xarici sərmayələrin cəlb edilməsi, yatırılması olmadan, ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi faktiki olaraq mümkün olmayacaqdır.

Keçmiş SSRİ-də 70-80-cı illərdə ixracatın 80-90%-ini xammal və yanacaq və energetika ehtiyatları təşkil edirdi. Bu problem digər MDB dövlətləri kimi, Azərbaycana da keçmiş SSRİ-dən miras qalmışdır. Digər tərəfdən həmin dövrdə SSRİ-də valyuta ehtiyatları ölkənin investiysiya potensialının artırılmasına, gücləndirilməsinə deyil, ölkə üçün xaricdən istehlak mallarının alınmasına və daşınmasına sərf olunurdu. İqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən bu meylin güclənməsi ölkənin getdikcə dünya bazarındakı vəziyyətdən, konyukturadan asılılığının həddindən artıq güclənməsinə, bərpa olunmayan təbii ehtiyatların, strateji resursların dağıdılmasına, israf edilməsinə, ölkə iqtisadiyyatında durğunluğa səbəb olur.

Göstərilən problemin həlli yalnız məntiqli, düşünülmüş struktur yenidənqurması strategiyası əsasında mümkündür. Eyni zamanda ölkə ərazisindən xammal-yanacaq ehtiyatının çıxarılmasını azaltmaq vacibdir. Lakin keçid iqtisadiyyatı yaşayan respublikalar, o cümlədən Azərbaycan üçün ilk günlərdə böhrandan, iqtisadi çətinliklərdən çıxış yolu xarici ölkələrə xammal ehtiyatların satışı olmadan mümkün olmamışdır, bu tendensiya bu gün də davam etməkdədir.

Bu gün və gələcəkdə də belə bir vəziyyətdən çıxış yolu tapmaq, ölkənin iqtisadi təhlükəsizliyini artırmaq üçün bir sıra tədbirlər həyata keçirilməlidir. Bunlara aşağıdakılar aiddir: təbii resursların nəqlinə və onlardan istifadəyə dövlət nəzarətini gücləndirmək; xammal ehtiyatlarının aşkara çıxarılması üçün geoloji-kəşfiyyat işlərinin həcmini artırmaq və hasil olunmuş ehtiyatlarla müqayisədə aşkar olunmuş, öyrənilmiş yanacaq-xammal ehtiyatların artımını təmin etmək; yanacaq-xammal resurslarının hasilatı və ilkin emalının geniş miqyasda təkmilləşdirilməsi; gələcəkdə təbii ehtiyatlara daxili tələbatın nisbi və mütləq həcmdə ixtisasına nail olmağa imkan verən texnologiyaya keçmək; investisiya məqsədləri üçün yönəlmiş valyuta ixracının xüsusi çəkisini artırmaq.

Ərzaq və istehlak mallarının idxaldan asılılığının güclənməsi ölkənin iqtisadi təhlükəsizliyinə qarşı təhdidlər

yaradaraq, daxili bazarın xarici firmalar və şirkətlər tərəfindən tutulması təhlükəsini yaradır. Burada söhbət idxal asılılığının zəiflədilməsi, ərzaq idxalının ölkənin iqtisadi təhlükəsizliyinə qorxu yaratmayacaq səviyyədə saxlanılmasının təmin edilməsindən gedir. Əlbəttə, ölkə üçün iqtisadi fayda verə biləcək idxaldan tamamilə imtina etmək düzgün olmazdı, həmçinin belə vəziyyət məhsul istehsalçıları arasında rəqabətin azalmasına, bu sferada milli monopoliyanın güclənməsinə kömək edərdi. Dünya təcrübəsi göstərir ki, daxili tələbatın təmin edilməsində idxalın 20-25% təşkil etməsi ölkənin müstəqilliyinə heç bir təhlükə yaratmır.

İdxal asılılığının zəiflədilməsində əsas, birinci növbəli tədbirlər aşağıdakılardır: yerli istehsal müəssisələrinə dövlət tərəfindən maliyyə yardımı göstərilməsi; daha çevik kömrük güzəştləri sistemi tətbiq etmək (differensiallaşmış), gömrük yardımına ehtiyacı olan iqtisadi fəaliyyət sahələrinin müəyyən edilməsi: idxalın diversifikasiyası; dərman preparatlarının, alkoqollu içkilərin və tütün məmulatlarının, buğdanın ölkəyə gətirilməsində, həmçinin neft və neft məhsullarının, əlvan və nadir metalların ixracında dövlətin inhisarını gücləndirmək zəruridir. Bu məhsullarla xarici ticarətin qaydaya salınması, büdcə gəlirlərinin artması, əsaslandırılmış qiymətlərlə daxili bazarın buğda və neft məhsulları ilə təminatlı təchizatını təmin etmək; xarici ticarətlə bağlı qanunvericilik və normativ-hüquqi bazanın qaydaya salınması və ona daimi nəzarətin həyata keçirilməsi, bu bazanın dünya təcrübəsinə, Beynəlxalq Ticarət Təşkilatının normalarına uyğunluğunu təmin etmək.

Ölkə iqtisadiyyatı üçün əsas qorxu mənbələrindən biri də kapitalın ölkə ərazisindən axını, valyuta ehtiyatlarının ölkə ərazisindən çıxarılmasıdır. Dünya təcrübəsi göstərir ki, şəxsi kapital həmişə siyasi və iqtisadi cəhətdən qeyri-sabitliyə çox həssaslıqla reaksiya verir və bu real təhlükə yarandığı zaman kapitalın xarici banklarda saxlanılması daha etibarlı sayılır. Bununla, əlaqədar olaraq, bu hadisənin geniş miqyas aldığı və onun inkişafı arzuolunmaz hesab olunduğu ölkələr qarşısında üç əsas problem durur: kapital axınının motivlərini dəqiqləş-

dirmək; kapital axınının qarşısını almaq üçün tədbirlər işləyib hazırlamaq; gələcəkdə kapital axınının qarşısını almaq üçün tədbirlər hazırlamaq və onları təkmilləşdirmək.

Ölkənin iqtisadi təhlükəsizliyinə qarşı əsaslı təhdidlərdən biri də sosial sfera ilə əlaqəlidir. Bu təhlükə cəmiyyətdə mülkiyyət təbəqələşməsinin dərinləşməsinə, zənginlər və kasıblar arasında dərin uçrumun əmələ gəlməsinə, aztəminatlı ailələrin, vətəndaşların sayının həddindən artıq çoxalmasına, bir sözlə, yoxsulluğun səviyyəsinin artmasına rəvac verir. Əlbəttə, dünyada elə bir ölkə yoxdur ki, orada bütün əhali zənginlik içərisində yaşasın. Hər bir ölkədə kasıblar və varlılar var. Qərbdə belə bir aforizm vardır; əhalinin 70%-i yaxşı, 30%-i pis yaşayırsa, deməli, ölkə yaxşı yaşayır. Əmlak təbəqələşməsi faktiki olaraq bütün ölkələr üçün xarakterikdir. Lakin bu təbəqələşmənin səviyyəsi, müxtəlif əhali qruplarının gəlirləri arasında fərqli çoxalması ifrat dərəcəyə yaxınlaşmamalıdır. Bəzən ölkənin 3-5% əhalisi həddindən artıq zənginlik içərisində yaşasalar da, yerdə qalan əhalinin gəliri hətta yaşayış minimumundan da aşağı səviyyədə olur. Belə zənginlər əsasən uğurlu sahibkarlıq fəaliyyəti, dövlət strukturlarında tutduqları mövqelərindən istifadə edərək biznes sferasında inhisarçılığa nail olmaq yolu ilə var-dövlət toplayırlar. Dünya təcrübəsi göstərir ki, əhalinin ən yüksək təminatlı 10%-nin gəliri ən aşağı təminatlı 10%-nin gəliri ilə müqayisədə 1:10 nisbətindən yüksəkdirsə, o zaman cəmiyyət sosial cəhətdən qeyri-sabitliyə doğru gedir. İnkişaf etmiş Avropa ölkələrində bu nisbət 1:6-8 arasında dəyişir. Rəsmi statistikaya görə Rusiyada isə bu 1:12-14, ayrı-ayrı şəhər və regionlarda daha yüksəkdir.

Bu baxımdan cəmiyyət, dövlət tərəfindən bölgü münasibətləri mexanizminin təkmilləşdirilməsi, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilməlidir. İlk növbədə yoxsulluğu yaradan səbəbləri aradan qaldırmaq, iqtisadiyyatda böhran vəziyyətinin qarşısını almaq lazımdır. Əhalinin gəlir səviyyəsindəki fərqləri azaltmaq məqsədilə vergi sisteminin rolunu artırmaq,

gəliri yüksək olanlara vergi dərəcələrinin silsiləli artımı, həmçinin əhalinin varlı təbəqəsinin gəlirləri və mülkiyyəti barədə deklarasiyanın düzgünlüyünə nəzarətin gücləndirilməsi və sərtləşdirilməsi və bu məlumatların vergiqoymada nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bazar təsərrüfatı sisteminə uyğun olmayan ümumi bərabərçiliyə sövq etmir. Əsas məsələ keçid iqtisadiyyatı dövründə ölkənin yaşadığı böhranlı vəziyyətin gərginliyinin, ağırlığının müxtəlif əhali qrupları arasında bərabər bölünməsi mexanizmini işləyib hazırlamaq və onu təkmilləşdirməkdir.

Ölkənin iqtisadi təhlükəsizliyinə və onun dünya ölkələri arasında siyasi nüfuzuna zərbə vuran amillərdən biri də ölkənin xarici borclarının məbləğidir, bu, həmin borcların daimi artması zamanı daha ciddi xarakter alır. Dövlət bu borcların qaytarılmasına görə büdcədən xeyli vəsait sərf edir, iqtisadi qərarların qəbul edilməsində müstəqilliyini itirir. Bir dövlətin digər dövlətə müəyyən həddə borclu olması beynəlxalq iqtisadi münasibətlər çərçivəsində normal hal hesab olunur. Problem bu borcun həcminin, məbləğinin artmasındadır. Dünya praktikasında xarici borcun səviyyə meyarı kimi bu borcların qaytarılmasına istiqamətlənmiş xarici valyutanın məbləği hesab edilir (cari borclar, onların faizləri, cərimələr və s.). Xarici borcların qaytarılmasına ölkənin valyuta ehtiyatlarının 25%-dən çox olmayan hissəsi yönəldilirsə, bu təhlükəsiz hesab olunur. Borcun mütləq keyfiyyəti öz-özlüyündə heç nə demir. Bu sahədə təhlükəsizliyin real təsvirinə nail olmaq üçün xarici borc aşağıdakı göstəricilərlə müqayisə edilməlidir; valyuta daxilolmalarının illik həcmi; başqa dövlətlərin respublikamıza olan borcun məbləğı; borcun strukturu (qısamüddətli, ortamüddətli, uzunmüddətli borclar). Ödəmə balansında müsbət saldonun müşahidə edilməsi, xarici borcların strukturunda dəyişikliklər və onların qaytarılması müddətlərinin azaldılması xarici borcların qaytarılmasında yeni imkanlar açır. Onu da qeyd edək ki, son vaxtlar dünya bazarında neftin qiymətinin

qalxması Azərbaycanın xarici borclarının qaytarılmasında vəziyyəti bir o qədər yumşalda bilər.

Ölkənin iqtisadi təhlükəsizliyinə qarşı ciddi təhdidlərdən biri də iqtisadiyyatın həddindən artıq açıqlığıdır. Strateji planda iqtisadiyyatın açıqlığı düzgün kurs hesab olunur və dünyanın bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrinin təcrübəsi də bunu sübut edir. Lakin iqtisadiyyatın normal açıqlığı onun səmərəliliyini rəqabətqabiliyyətliyini və çevikliyini artırmağa kömək edir. Lakin inkişaf etməkdə olan dövlətlər eləcə də gənc müstəqil Azərbaycan dövləti üçün onun iqtisadiyyatının açıqlığı müəyyən bir ölçü, hədd, həmçinin ehtiyatlılıq tələb edir. İqtisadiyyatın açıqlığını təmin edərək yerli istehsalın, maliyyə və bank sisteminin, pul dövriyyəsinin, strateji sahələrin və istehsal sferalarının müdafiəsini, mühafizəsini lazımi şəkildə təşkil etməyi tələb edir. Burada iqtisadiyyatın açıqlığı ilə əlaqədar mövcud olan proseslərin dövlət tərəfindən ləng və ya tələsikliklə tənzimlənməsi arzuolunmaz hesab olunur.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, bir çox ölkələr dövlətin ciddi nəzarəti altında tam iqtisadi açıqlıq prinsipi, yolu ilə getmişlər və bu, bir neçə onilliklər davam etmişdir. Lakin sənayecə inkişaf etmiş ölkələr, məsələn, Yaponiya, Fransa, ABŞ, İsveç – bu gün də xarici kapital üçün qapalı olan istehsal sahələrini və sferalarını qanunvericiliklə müyyən etmişlər. Xüsusilə, Yaponiyada müdafiə sahələrində, rabitə və digər sferalarda şirkətlərin səhmlərinin xarici investorlar tərəfindən alınmasına icazə verilmir və bu sahədə ciddi rejim müəyyənləşdirilmişdir.

Bir sıra hallarda ölkənin milli təhlükəsizlik konsepsiyası xarici bank və sığorta şirkətlərinin fəaliyyətinə, bərpa olunmayan təbii ehtiyatların yataqlarının, telekommuNikasiya, nəqliyyat və əmtəə daşınan yolların xarici müəssisələr tərəfindən istismarına icazə vermir. Xarici şirkətlərin iqtisadiyyatın strateji cəhətdən əhəmiyyətli, mühüm sahələrinə, hərbi sənaye sahələrinə nəzarət etmələrinə icazə vermək olmaz.

Bütün bu deyilənlər ölkə iqtisadiyyatında dünya təsərrüfat əlaqələrindən təcrid olunmasını, onun qapalı vəziyyətə salınmasını tələb etmir. Lakin ölkənin milli maraqları çərçivəsində xarici kapitalın ölkə daxilində, ölkə bazarında tənzimlənməsi ilə bağlı qanunvericilik olmadan, daxili bazarın, ölkə iqtisadiyyatının xarici kompaniyalar üçün «taybatay açılması» yolverilməzdir. Ölkədə bazar münasibətləri kifayət qədər inkişaf edərsə, onun maliyyə-kredit və pul sistemi möhkəmlənərsə, rəqabətqabiliyyətliliyi yüksələrsə, o zaman iqtisadiyyatın açıqlığı məsələsi o qədər də kəskin şəkil olmayacaqdır. Lakin hazırda bu problem ölkənin iqtisadi təhlükəsizliyi ilə bilavasitə bağlıdır. Onun həll olunmaması iqtisadiyyatın həddindən artıq açıqlığı nəticəsində baş verə biləcək təhdidlərin bilavasitə ölkənin iqtisadi təhlükəsizliyinə qarşı yönəlməsinə gətirib çıxarır. Ona görə də bu təhlükənin yumşaldılması və tədricən aradan qaldırılması istiqamətində tədbirlərin işlənib hazırlanması məqamı artıq yetişmişdir. Bu tədbirlər kompleksinə aşağıdakılar aiddir: xarici tərəfdaşlarla olan irimiqyaslı razılaşmaların ölkənin iqtisadi təhlükəsizliyi nöqteyi-nəzərindən ilkin ekspertizası üzrə müstəqil dövlət strukturlarının yaradılması; mülkiyyət formasından asılı olmayaraq təsərrüfat subyektlərinin xarici iqtisadi fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsi; xarici investorlar tərəfində kapital qoyuluşu üçün prioritet sferaların və qadağan olunmuş sahələrin qanunvericiliklə müəyyən edilməsi; xarici investorların səhmləri əldə etmə, alma qaydalarını sərtləşdirmək, ölkənin milli sərvətlərinin dəyər-dəyməzinə, ucuz alınmasına yol verməmək; ölkənin bank sisteminin mühafizəsini təmin etmək.

İqtisadiyyatdan kriminal ünsürlərin kənarlaşdırılması məqsədilə dövlət bir sıra təşkilati-iqtisadi xarakterli tədbirlər görməli, xüsusilə qanunvericilikdəki boşluqları aradan qalldırmalı, kölgə kapitalının qanuni iqtisadiyyata və hakimiyyət strukturlarına müdaxiləsinin qarşısını almaq üçün fəaliyyət həyata keçirməlidir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dövlətin vahidliyinin, bütövlüyünün təmin olunmasında güclü ordu və yüksək texnologiyaya malik müdafiə sistemi ilə yanaşı, daha təkmil iqtisadi, hüquqi və təşkilati mexanizmlərin mövcudluğu, güclü iqtisadi sistemin yaradılması zəruridir; inkişaf etmiş istehlak malları və xidmətləri sektoru; daxili sosial-siyasi sabitlik və etibarlı sosial bazaya əsaslanan islahatlar; ümumi iqtisadi potensialla balanslaşdırılmış kifayət qədər güclü müdafiə potensialı. Bütövlükdə iqtisadiyyat və müdafiə sistemi arasında dərin disproparsiyanın olması sonda ölkənin dağılması üçün real təhlükə mənbəyinə çevrilə bilər (Keçmiş SSRİ-nin təcrübəsi də buna misaldır).

İqtisadi təhlükəsizliyə qarşı olan bütün amillər iqtisadiyyatın mühüm sferalarını əhatə edərək, insanın həyat fəaliyyətinə, onun fundamental əsaslarına ciddi mənfi təsir göstərir. Struktur yenidənqurması adı altında istehsalın dağılmasına gətirib çıxaran iqtisadi siyasət nəticədə milli təhlükəsizliyin əsaslarını sarsıdaraq, süni surətdə inkişafı ləngidir.

Bazar təsərrüfatı sisteminin imkanları informasiya bazası üzərində qurulan iqtisadi strategiya olmadan reallaşa bilməz.

İqtisadi bütövlükdə milli təhlükəsizliklə bağlı dövlətin həyata keçirdiyi strategiyanın əsasını təhlükə qorxusunu minimuma endirə biləcək strateji prioritetləri, milli maraqları nəzərə alacaq inkişaf ideologiyası (yəni iqtisadi, fəlsəfi, sosial, informatika, hüquq, politologiya və geosiyasət və s. bağlı elmi baxışlar sistemi, elmi dünyagörüşü) təşkil etməlidir. Əgər bazarın özünü gücü ilə ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyilsə, o zaman bazar şəraitinin geniş və dərin təhlili əsasında istehsalın artırılmasının bazası müəyyənləşdirilməlidir. İnkişaf ideologiyası olmadan, sənaye və elmi-texniki yüksəlişi təmin etmədən, ona şəraiti yaratmadan büdcə gəlirlərini artırmaq, əhalinin məşğulluq səviyyəsini təmin etmək, əhalinin həyat keyfiyyətini və sosial müdafiəsinin səviyyəsini yüksəltmək kimi iqtisadi təhlükəsizlik məsələlərini həll etmək olmaz.

İqtisadi təhlükəsizliklə bağlı strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi dövlətin milli iqtisadi maraqlarının, mənafelərinin təmin olunması çərçivəsində reallaşmalıdır. Onu da qeyd edək ki, makro və mikroiqtisadi tədbirlər sistemi ilə həyata keçirilən bu addım dövlətin sosial-iqtisadi siyasətinin əsas ana xətti kimi onun bu sahədəki praktik fəaliyyətinin prioritetlərini təşkil etməlidir. Hər bir dövlət bu sahədəki praktik fəaliyyəti ilə davamlı inkişafa nail olmaqla dünya iqtisadi sisteminə uğurlu inteqrasiya edərək, bu sistemin fəal subyektinə çevrilə bilər.

Fikrimizcə, burada təkcə iqtisadi resursların istehsal səviyyəsini, ölkənin iqtisadi potensialını deyil, həm də bu resursların ədalətli bölgüsünə təminat verən bir mexanizmin fəaliyyətini və bu mexanizmin fəaliyyəti nəticəsində ölkədəki bütün sosial-demoqrafik qrupların bütün cəmiyyət üzvlərinin yüksək həyat səviyyəsini, ölkənin yüksək müdafiə qabiliyyətinin əsaslı formalaşmasına rəvac verən kompleks münasibətlər sistemini, elmi-texniki, texniki-iqtisadi yüksəlişin səviyyəsini başa büşmək olar.

Sosial sahədə maraqların təmin olunmasında məqsəd əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsinə nail olmaq və bunu davamlı iqtisadi inkişafın əsas təminatçısı səviyyəsində qəbul etməkdən ibarətdir. Sosial sahədə maraqların təmin olunması aşağıdakı məsələlərin həllinə ehtiyac yaradır:

- əhalinin gəlirlərinin səviyyəsi və yoxsulluq səviyyəsinə görə təbəqələşməsinin, differensiasiyasının azaldılması;
- inflyasiyanın səviyyəsinə uyğun olaraq əhalinin pul gəlirlərinin indeksasiya edilməsi və onun yaşayış minimumu həddinə çatdırılması;
- ölkədə yaşayış minimumunun təyin olunmasında çevik mexanizmin işlənib-hazırlanması;
- əhalinin səmərəli məşğulluğunun təmin olunması. Bu istiqamətdə çevik əmək bazarının formalaşması, işçi qüvvəsinə tələb və təklifin işlək mexanizminin təmin olunması, peşə-ixtisas təhsili almaq imkanı, eləcə də işçi qüvvəsinin

mobilliyini yüksəltmək, bunun əsasında əmək kapitalının, insan kapitalının sərbəst yerdəyişməsinə nail olmaq əsas rol oynayır;

- ölkədə təhsilin, səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və onun dünya standartları həddinə çatdırılmasına nail olmaq;
- aztəminatlı əhali təbəqəsinə dövlət tərəfindən göstərilən yardımların ünvalılıq prinsipi əsasında həyata keçirilməsi;
- dövlətin düzgün, səmərəli qiymət və gəlir siyasətinin həyata keçirilməsi;
- əhalinin bütün sosial-demoqrafik qruplarının keyfiyyətli təhsil, mədəni, səhiyyə və digər xidmətlərlə təmin olunması, sosial sahədəki tədbirlərin, ümumiyyətlə, sosial siyasətin prioritetlərinin əhalinin həyat səviyyəsinin yüksəldilməsi məsələləri ilə üzvi şəkildə həyata keçirilməsinə nail olmaq.

Vergi-büdcə sahəsində milli iqtisadi maraqların təmin olunması aşağıda qeyd olunan məsələlərin həlli ilə həyata keçirilir:

- büdcə sisteminin dayanıqlığının təmin olunması, dövlətin daxili və xarici borclarının azaldılması, büdcənin gəlir və xərclərinin balanslaşdırılması;
- vergi-büdcə sisteminin yüksək inflyasiyanın təsirindən qorunması, dövlət tərəfindən ölkə daxilində qiymətlərin səviyyəsinə səmərəli nəzarətin təmin edilməsi, çevik antiinhisar siyasətinin həyata keçirilməsi;
- fəal sahibkarlığa, investisiya, innovasiya fəaliyyətinin və əhalinin məşğulluğunun stimullaşdırılmasına şəraiti təmin edən optimal vergi sisteminin yaradılması;
- investisiya və innovasiya fəallığının stimullaşdırılması və iqtisadiyyatın dinamik inkişafına yönəlmiş büdcə siyasətinin rolunun bu istiqamətdə gücləndirilməsi;
- dövlətin maliyyə nəzarətinin və tənzimlənməsinin səmərəliliyini yüksəltmək;
- büdcəyə daha çox gəlir gətirən iri müəssisələrin fəaliyyətinə, ölkədə maliyyə axınlarına mərkəzləşdirilmiş və çevik maliyyə nəzarəti mexanizmlərini işləyib-hazırlamaq.

İstehsal sferasında iqtisadi maraqların təmin olunması aşağıdakı məsələlərin həllini tələb edir:

- iqtisadi inteqrasiya şəraitində iqtisadiyyatın açıqlığını təmin etməklə onun geniş təkrar istehsal rejimində fəaliyyətinin texniki, təşkilati, institusional əsaslarını təmin etmək;

- nisbətən az səmərəli iqtisadi institutların strukturunun təkmilləşdirilməsi, səmərəli bazar sisteminin formalaşması, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, dünya iqtisadi sisteminə inteqrasiya, mikrosəviyyədə biznesin inkişafının qarşısını alan maneələrin aradan qaldırılması;

- təşkilati-institusional strukturun təkmilləşdirilməsi yolu ilə iqtisadiyyatın sahələrinin yenidənqurulmasını həyata keçirmək. Bu, elm və istehsalın inteqrasiyasının sürətlənməsi, yerli sənaye müəssisələrinin formalaşması və idarə olunması proseslərinin təkmilləşməsi, onların rəqabətqabiliyyətliyinin yüksəlməsi dövriyyə kapitalından səmərəli istifadəyə geniş imkanlar açır. Onu da qeyd edək ki, istehsalın strukturunun yenidən qurulması məhsulun resurs və enerji tutumunun azaldılması, elm tutumlu məhsul istehsalının həcminin genişləndirilməsinə yönəlməlidir.

- innovasiya və investisiya fəallığının artırılması, bunun əsasında əsas istehsal fondlarının, texnika, texnologiyanın yeniləşdirilməsinin həyata keçirilməsi. Bu, istehsalın yüksək səviyyədə texnika ilə silahlanması, elm və istehsal arasında inteqrasiyanın sürətlənməsi, yerli istehsalın rəqabətqabiliyyətliliyinin yüksəlməsini təmin edə bilər.

- ölkənin elmi-texniki potensialının elmi-texniki tərəqqinin müasir istiqamətlərinə uyğun fundamental və tətbiqi elmlərin prioritet inkişaf istiqamətlərində inkişafının təmin edilməsi, elmtutumlu və yüksək texnologiyalı sənaye, kənd təsərrüfatı istehsalının yaradılması. Burada elmi-texniki inkişafın prioritet istiqamətləri üzrə fundamental və tətbiqi tədqiqatların əsaslı şəkildə maliyyələşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

- intellektual mülkiyyət bazarının formalaşması və inkişafına şərait yaratmaq, istehsal və elmi-texniki müəs-

sisələrin, orta və kiçik innovasiya müəssisələrinin təşkilinə diqqət ayırmaq, onların səmərəli fəaliyyəti, innovasiya məhsulları və xidmətlərini yüksək texnologiyanı reallaşdıra bilmələri üçün şəraiti təmin etmək;

- ölkənin milli iqtisadi təhlükəsizliyini təmin edən sahələrin fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsi və bu sahədə normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsinə nail olmaq;
- ölkədə istər ölkə daxilində baş verən, istərsə də dünya sistemində baş verən fövqəladə hallara, konyunktur dəyişikliklərə hazırlıq baxımından strateji-maddi ehtiyatların formalaşdırılması;
- ölkənin təbii-resurs potensialından uzunmüddətli və səmərəli istifadə, istismar strategiyasının işlənib hazırlanması;
- ölkənin ixrac potensialının inkişaf etdirilməsi.

Xarici iqtisadi sferada milli iqtisadi təhlükəsizliyin təmin olunmasında mövcud potensialdan istifadə ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir:

- ölkənin dünya iqtisadi sisteminə uğurlu inteqrasiyası baxımından elmtutumlu yüksək texnologiyalı məhsul istehsal edən aparıcı şirkətlərlə strateji əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq miqyasda resursları əldə etmək imkanlarını genişləndirmək;
- ölkənin inkişafı və dövlətin maraqlarına uyğunluq baxımından əsaslı sahələrə investisiya axınına şərait yaratmaq. Lakin bunu ölkənin belə kapitaldan asılılığı səviyyəsinədək çatmasına imkan verməmək;
- iqtisadi sahədə ölkənin qanunvericilik bazasının beynəlxalq səviyyədə qanunvericiliyin tələblərinə uyğunlaşdırılması, xüsusilə beynəlxalq iqtisadi təşkilatlarla sıx əməkdaşlıq əlaqələrini inkişaf etdirmək və bu zaman ölkənin milli iqtisadi maraqlarının önə çəkilməsi;
- dünya ölkələri, yaxın qonşularla əməkdaşlıq əlaqələrinin, iqtisadi münasibətlərin və inteqrasiya proseslərinin

prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və inkişaf etdirilməsi;

- ixracın strukturunda elmtutumlu məhsulların, yüksək texnologiyanın həcminin artırılması və ixraca dövlət yardımının və nəzarətin təmin edilməsi;

- yerli istehsalın idxalın, eləcə də haqsız rəqabətin təsirindən qorunması;

- dövlətin maraqları çərçivəsində gömrük-tarif və qeyri-tarif tənzimləmə mexanizmlərindən istifadə edilməsi;

- ölkə vətəndaşlarının, yerli investorların xaricdə öz fəaliyyətlərini qurmalarına kömək etmək, həmin fəaliyyət göstərdikləri dövlətlərdə onların maraqlarının yüksək səviyyədə hüquqi baxımdan qorunmasını təmin etmək.

Regional baxımdan ölkənin milli iqtisadi maraqlarının təmin olunması ölkə daxilində vahid iqtisadi məkanın formalaşması və uğurlu fəaliyyəti, regionlarda avtoritet-kriminogen qüvvələrin iqtisadi strukturların fəaliyyətinə müdaxiləsinin qarşısını almaq, ölkə daxilində əlverişli inteqrasiya proseslərinin həyata keçirilməsinə şərait yaradır. Bu mənada dövlətin sosial-iqtisadi siyasətinin başlıca prioritetlərindən biri də məhz ölkənin paytaxt və iri şəhərlərinin inkişaf səviyyələri arasındakı uyğunsuzluğu minimuma endirmək və aradan qalldırmaq, regional inkişafın optimal istiqamətlərini müəyyənləşdirməkdir. Bu istiqamətdə aşağıdakılar həyata keçirilməlidir:

- ölkə daxilində vahid dövlət nəzarətinin optimal mexanizminin işlənib hazırlanması;

- regionlararası təsərrüfat əlaqələrinin səmərəli şəkildə qurulması, maliyyə vəsaitlərinin regionlar arasında səmərəli bölgüsü və regionlara fərqli münasibətlərə yol verməmək;

- hər bir regionun potensialından müvafiq olaraq ölkənin ümumi inkişafında və həmin regionun özünün inkişafında optimal şəkildə istifadə etmək;

- vergi-büdcə tənzimlənməsi məsələlərində hər bir regionun coğrafi-iqtisadi imkanlarının nəzərə alınması, bu sahədə optimal güzəştlər sisteminin, mexanizminin işlənib hazırlanması;

- regionların investisiya layihələrində bərabər hüquqlar çərçivəsində inkişafına nail olmaq.

Maliyyə, pul dövriyyəsi sahəsində milli iqtisadi təhlükəsizliyin təmin olunması aşağıdakı məsələlərin həllini tələb edir:

- ilk öncə ölkədə maliyyə sferasında sabitliyə nail olmaq, bank sektorunun rəqabətqabiliyyətliyini yüksəltmək, bank sisteminin fəaliyyətini dünya standartları səviyyəsində qurmaq, bank nəzarəti, mühasibatlıq sisteminin fəaliyyətini bazar mexanizmləri əsasında təkmilləşdirmək, dövlət tərəfindən bank əmanətlərinin maraqlarının yüksək səviyyədə qorunmasını təmin etmək, elmi-texniki inkişafın və informasiya texnologiyalarının müasir nailiyyətlərindən istifadə imkanlarını genişləndirmək;
- milli valyutanın yüksək rəqabətqabiliyyətliyini, dönərliyini təmin etmək, valyuta nəzarətinin səmərəliliyini yüksəltmək, çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirlərini gücləndirmək, ölkədən kapital axınının qarşısını almaq, iqtisadi cinayətkarlığa qarşı, korrupsiyaya qarşı ciddi, sərt tədbirlər kompleksi işləyib hazırlamaq;
- ölkədə maliyyə bazarını müasir iqtisadi sistemin tələblərinə uyğun formalaşdırma və inkişaf etdirmək, bütövlükdə dövlətin maliyyə-pul sisteminin, beynəlxalq maliyyə sisteminin fəaliyyətində baş verən mənfi meyllərin təsirindən qorumaq üçün tarazlı, iqtisadi siyasət həyata keçirmək.

Dövlət idarəetməsi ilə bağlı həyata keçirilən fəaliyyətin iqtisadi təhlükəsizliyin təmin olunmasında əsas cəhətləri səmərəli, sosial yönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində iqtisadi siyasətin həyata keçirilməsi, ölkənin milli iqtisadi resurslarından səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, dövlət, sahibkar, ayrı-ayrı vətəndaşlar, bütövlükdə cəmiyyətdə sağlam rəqabət prinsipləri əsasında sosial-iqtisadi münasibətlərin, əməkdaşlığın təmin olunmasından ibarətdir. Bu mənada aşağıdakı məsələlərə diqqət yönəldilməsi vacibdir:

- ilk növbədə dövlətin müstəqilliyinin təmin olunması və qorunub saxlanılması;

- milli xüsusiyyətlərin, adət-ənənələrin, dəyərlərin yad ünsürlərin təsirindən, aşınmadan qorunması, iqtisadi fəaliyyətin etik normaları fonunda bu cəhətlərin əsas götürülməsi və qloballaşma şəraitində ətraf dünyadan faydalı cəhətlərin əxz olunması;

- dünya bazarında rəqabətqabiliyyətinə malik milli iqtisadiyyatın formalaşması üçün əlverişli şəraitin təmin edilməsi;

- təsərrüfat subyektlərinin, kapital, maliyyə, intellektual kapital sahiblərinin fəaliyyətini, eləcə də ölkədə sahibkarlığın inkişafını, işgüzar, əlverişli investisiya mühitinin yaradılmasını təmin edəcək qanunverici bazanın təmin olunması mexanizmlərinin yaradılması və onların işləməsi üçün şəraitin təmin olunması;

- bürokratiya, korrupsiya, iqtisadi cinayətkar fəaliyyətə qarşı sivil, amansız mübarizə tədbirlərinin işlənib hazırlanması;

- bazar sistemi şəraitində iqtisadiyyatın dövlət tərəfindən səmərəli tənzimlənməsi mexanizmlərinin yaradılması;

- yüksək ixtisaslı kadrların dövlətin idarəetmə strukturlarında işə cəlb edilməsinin təmin olunması; dövlət qulluğu haqqında təkmil qanunverici bazanın yaradılması; savadlı idarəetmə kadrlarının hazırlanması, ölkənin istehsal-iqtisadi ehtiyatlarından səmərəli istifadənin idarə edilməsinə cəlb olunması.

İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət strategiyası müəyyən məsələlərin həlli bir sıra tələblərin təmin olunması yolu ilə uğurla reallaşa bilər. Birincisi, hökumətin, icra orqanlarının üzərinə düşən funksiyaları dəqiq müəyyənləşdirmək. İkincisi, dövlətin tənzimləyici funksiyalarının adekvat informasiya təminatı tələb olunur.

İqtisadi təhlükəsizliyin strateji məqsədlərinin qoyuluşu və müəyyən edilməsindən onun təmin olunması üzrə müvafiq vəzifələrin və tədbirlərin konkretləşdirilməsi olduqca vacibdir. Bununla əlaqədar olaraq dövlət tərəfindən iqtisadi böhrandan çıxmaq istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər kompleksi iqtisadiyyatın bütün sferalarını əhatə etməlidir və ölkənin iqtisadi təhlükəsizliyinin

təminatı kimi çıxış edə bilər. Belə tədbirlər sırasına fəal struktur və sosial siyasətin həyata keçirilməsi, investisiya, maliyyə, pul-kredit və xarici iqtisadi sferada dövlətin fəallığının gücləndirilməsi, intitutsional dəyişikliklərin davam etdirilməsi daxildir.

Müasir şəraitdə normal iqtisadi inkişafı təmin edəcək makroiqtisadi siyasət minimum iki fundamental məqsədə xidmət etməlidir. Birincisi, istehsal sferasının, o cümlədən onun kapital dövriyyəsi sferasına pul vəsaitlərinin axınından dağılmaq təhlükəsi qarşısında olan seqmentlərinin inkişafını və canlanmasını təmin etmək. İkincisi, istehsal sferası və kapitalın dövriyyəsi sferası arasında, eyni zamanda onların daxilində olan maneələri aradan qaldıraraq inteqrasiyanı təmin etmək. Bu məsələlərin həll edilməsi makroiqtisadi siyasətin istənilən metodlarının uğursuzluğa düçar olmasını labüdləşdirəcək.

İnvestisiya fəaliyyətinin tənzimlənməsi dövlətin iqtisadi siyasət strategiyası çərçivəsində həyata keçirilməlidir. Burada əsas tənzimləyici alət ayrı-ayrı iqtisadi sferalar və regionlar, bütövlüklə ölkə iqtisadiyyatının prioritet inkişaf istiqamətlərinə yönəlmiş investisiya proqramları və layihələri olmalıdır. Bu məsələlərin həlli birinci olaraq, sabit struktur dəyişikliklərinin təmin edilməsi, ikinci isə dövlət və şəxsi müəssisələrin investisiya fəaliyyətlərinin iş mexanizmini və özünütənzimləməsini müəyyən iqtisadi vasitələrdən uyğun şəkildə istifadə etməklə əlaqədardır. Burada qarşılıqlı əlaqəli iqtisadi-təşkilati tədbirlər həyata keçirmək vacibdir. Keçid iqtisadiyyatı şəraitində müxtəlif iqtisadi sfera və regionlar üçün prioritet investisiya istiqamətlərinin əsaslandırılmasında yeni texniki-iqtisadi metodların işlənib-hazırlanması çətin olsa da, həlli vacib məsələdir. Bu metodlar bazar iqtisadiyyatı konsepsiyaları ilə ziddiyyət təşkil etməməlidir.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün dövlət tərəfindən investisiyalar ayrılan prioritet iqtisadi sferalar aşağıdakılardır:

- istehsal-iqtisadi əlaqələrin qırılması nəticəsində idxalı əvəz edən məhsulların istehsalının bərpası. Belə vacib əhəmiyyətli məhsulları istehsal edən müəssisələrin aşağı rentabelliklə işləməsi dövlətin fəal şəkildə onların fəaliyyətinə yardım etməsinə, maliyyələşdirməsinə zərurət yaradır;

- rəqabətqabiliyyətli məhsullar buraxan müəssisələr. İnhisar strukturlarının təsiri ilə formalaşan qiymətlərdən qorunmaq məqsədilə bu müəssisələrə kömək etmək onların istehsal xərclərini azaltmaq zərurətindən irəli gəlir;

- uzun müddət yüksək tələbat duyulan məhsulların istehsalı;

- daha yüksək keyfiyyətli və ya yeni məhsul növlərinin buraxılışını mənimsəyən müəssisələr;

- istehsal və sosial infrastruktura.

Maliyyə sistemi üçün təhlükə səviyyəsi nə qədər az olarsa, yatırılan vəsaitlərdən gələn gəlir, fayda bir o qədər çox olar. Vahid konsepsiya formasında maliyyə təhlükəsizliyi sisteminin formalaşması üçün islahatlar dövründə maliyyə-pul alətlərinin fəaliyyətinin kompleks təhlili vacibdir. İqtisadi artıma şərait yaradacaq maliyyə mühitinin yaradılmasını təmin edə bilən sistemin konseptual əsaslarının işlənib-hazırlanması nəzərdə tutulan təhlilin əsas istiqaməti və yekun nəticəsi olmalıdır. Burada əsas diqqət cari maliyyə-iqtisadi problemlərin həllinə yönəldilən maliyyə və pul siyasətinin məqsədyönlü təhlili üzərində cəmləşdirilməlidir. Bu istiqamətdə maliyyə sisteminin bütün elementləri arasında mühüm qarşılıqlı əlaqələr nəzərə alınmalıdır.

İnflyasiyanın aşağı düşməsi, pul kütləsinin azalması, dövlətin qısamüddətli borc bazarının gəlirliyinin aşağı düşməsi bankları və digər maliyyə institutlarını kapital qoyuluşu üçün yeni sahələr, sferalar axtarıb-tapmaq məcburiyyətində qoyur. Belə olan halda onların istehsal sferası ilə sıx əməkdaşlıq etmək məsələləri daha da ciddi xarakter alır və zərurətə çevrilir. Bu heç də bankların istehsala tərəf çevrilməsi, yön alması demək deyildir. Sənaye müəssisələri arasında yatırılan investisiyaları qaytarmaq qabiliyyəti olan müəssisələrin sayı

da bu prosesə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan, banklar özləri zərbə altında qalmamaları üçün çox vaxt belə müəssisələrlə kreditləşmə sövdələşmələri aparmırlar.

Bu ziddiyyətli məsələni həll etmək üçün həm maliyyə institutları, həm də müəssisələr investisiya mühitinin dəyişməsinə ciddi reaksiya verməklə yanaşı, onlar öz mövqelərini də düşünülmüş şəkildə qiymətləndirməlidirlər. Onu da qeyd edək ki, bu gün respublikamızda yerli sənaye müəssisələrinin kapital qoyuluşlarına olan tələbatının səviyyəsi müəssisələrin bu investisiyalardan real istifadə imkanlarını xeyli üstələyir. Bu mənada, bank sistemində baş verən böhranı investisiya proseslərindəki yeni keyfiyyət dəyişikliklərinin əlaməti kimi də hesab etmək olar.

Ölkənin investisiya-innovasiya potensialının artırılmasında bank sisteminin rolunun yüksəldilməsi olduqca vacibdir. Bu istiqamətdə bank sisteminin fəallığının təmin olunması ilə bağlı imkanların aşkara çıxarılması, ölkədə əlverişli siyasi və iqtisadi şəraitin yaradılması mühüm rol oynayır, eləcə də bankların özlərinin də xüsusiyyətləri az əhəmiyyət kəsb etmir. Bu mənada aşağıdakı cəhətlərə diqqət yönəltmək məqsədəuyğun olardı.

- bankın şəxsi kapitalının nisbətən məhdud həcmdə olması;
- aktivlərdəki şəxsi kapitalın xüsusi çəkisinin az olması;
- uzunmüddətli kapital qoyuluşları imkanlarını məhdudlaşdıran qısamüddətli passivlərin üstünlük təşkil etməsi;
- passivlərdək depozitlərin payının aşağı olması;
- müəssisə və təşkilatların passivlərindəki qalığın payının hesablar üzrə yüksək olması;
- aktivlərin və passivlərin strukturunun üst-üstə düşməməsi, uyğunsuzluğu;
- bank aktivlərinin likvidliyi probleminin olması, kəskinləşməsi və s.

Deməli, innovasiya-investisiya layihələrində yaxından iştirak edən bankların kapital bazası beynəlxalq, dünya standartlarına cavab verməlidir. Çünki yalnız iri banklar

istehsala investisiya yatırmaq istiqamətində vəsaitlərinin əksər hissəsini onların təsərrüfat dövriyyəsindən çıxarılmasına tab gətirə bilər.

Kapitalın ölkəyə qaytarılmasına zəmin yaratmaq üçün əlverişli ümumi iqtisadi şərait formalaşdırmaq məqsədəuyğun olardı. Dünya təcrübəsi göstərir ki, kapitalın ölkəyə qayıtması kapital axını problemi ilə üzləşmiş ölkənin iqtisadiyyatının sabitləşmədən iqtisadi artıma keçməsi, investisiya mühitinin sağlamlaşdırılması, investisiyaların iqtisadi və siyasi risklərdən etibarlı təminat sistemini formalaşdırmaq, sabit və şəffaf verdi sistemi yaratmaqdan asılıdır. Xarici partnyorlarla əlaqəyə girməklə kapitalın ölkəyə qaytarılması prosesini müəyyən qədər yüngülləşdirmək olar.

Gömrük, valyuta və bank nəzarəti üzrə tədbirlərin işlənib-hazırlanması. Bu mənada, bazar alətlərini təkmilləşdirmək, fond bazarlarının şəffaf və sabitliyi üçün şərait yaratmaq, korporativ qiymətli kağızlar bazarı hesabına fond bazarının həcminin genişləndirilməsi vacibdir. Əks halda qeyd etdiyimiz istiqamətlər üzrə tədbirlər sistemi ölkədən çıxarılmış kapitalın geri qaytarılmasına öz-özünə kömək edə bilməz.

Bank sisteminə qarşı inamın artırılması və əhalinin banklardakı vəsaitlərinin saxlanılmasına təminatın gücləndirilməsi, möhkəmləndirilməsi üzrə tədbirlərə xüsusi əhəmiyyət vermək lazımdır. Etibarlı bank sistemi olmadan depozitlərin sığortalanması dövlət maliyyəsi üzərinə əlavə yük ola bilər, çünki kifayət dərəcədə likvidli olmayan qeyri-tədiyə qabiliyyətli bankların müflisləşməsi nəticəsində üzləşdikləri itkilər depozitlər üzrə ödəmələrin sığortalanması hesabına əvəz oluna bilməz.

Bank depozitlərinin məbləğində sərbəst olaraq dövr edə bilən və dollara mübadilə olunan sertifikatların buraxılışı barəsində tövsiyələr hazırlamaq. Bu tövsiyələr milli valyuta ilə əmanətlər toplanmasına stimul yaradaraq, onların müsadirə olunmasına qarşı təminat ola bilər. Bu ideya təkcə əmanətlər baxımından deyil, investisiya potensialının artırılması məqsədilə ətraflı, dərin təhlil edilməlidir.

Ölkədə aparıcı bankın (Milli Bankın) və aparıcı kommersiya banklarının xarici təşkilatlarla birgə kapital axınının mexanizmləri və kanallarının təhlili, ölçüsünün (miqyasının) qiymətləndirilməsi üzrə məsləhətlər aparılması məqsədəuyğun olardı. Bəzi halda ölkənin mərkəzi bankı ilə xarici bank arasında ölkədən qanunsuz çıxarılmış kapitalın ölkəyə qaytarılması formaları və şərtləri haqqında xüsusi razılaşma hazırlanması barədə danışıqlar aparıla bilər.

Aydındır ki, iqtisadi dəyişikliklərin həyata keçirilməsi müvafiq təşkilati və hüquqi təminat tələb edir. Bu məqsədlə, kölgə iqtisadiyyatının neytrallaşdırılması ilə əlaqədar aşağıdakı iqtisadi təbdirlər kompleksini həyata keçirmək məqsədəuyğundur;

- özəlləşdirmə, iqtisadiyyatın dövlətsizləşdirilməsi (müxtəlif mülkiyyət formaları və fərqli iqtisadi subyektlərin təmsil olunduğu yeni iqtisadi məkanın formalaşması, yəni qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması, cinayətdən uzaq iqtisadi fəaliyyət növləri, saxta əməliyyatlar həyata keçirən sahibkarların əks-təsiri, müqaviməti);

- iqtisadi münasibətlərin bütün sferalarında rəqabətə şəraitin yaradılması (iqtisadiyyatın inhisarsızlaşdırılması, qiymətlərin liberallaşması, dövlətin iqtisadiyyata birbaşa müdaxiləsini məhdudlaşdırmaq. Bunlar qeyri-formal və saxta iqtisadiyyatın inkişafı amillərini və onların cinayətkar formalarının inkişafını neytrallaşdırır);

- sahibkarlıq fəaliyyətinin iqtisadi stimullaşdırılması və istehsalın həcminin artırılması (güzəştli kreditlərin verilməsi və vergi sistemin tətbiqi, məhsulun çeşidi və istehsalının genişləndirilməsi. Bu, istehlak bazarının və istehsal vasitələri bazarının inkişafına kömək edər, eləcə də kölgə iqtisadiyyatının, gizli fəaliyyətin neytrallaşdırılmasına xidmət edir);

- əməyin səmərəliyinin artırılmasında iqtisadi stimullaşdırma (əməyin nəticələrindən asılı olaraq əmək haqqının artırılmasında məhdudiyyətlərin aradan qaldırılması, müəssisənin gəlirlərinin bölüşdürülməsində işçilərin iştirakını təmin etmək. Bu, gizli yolla gəlir əldə etmək hesabına yox

rəsmi sferada əmək fəallıqları hesabına işçilərin həyat səviyyələrini yüksəltməyə stimul yaradır);

- vergi sisteminin təkmilləşdirilməsi (müəssisənin vergi ödəmə səviyyəsini və əhalidən gəlir vergisi dərəcəsini optimallaşdırmaq. Bu, müəssisənin istehsal fəaliyyətinin keyfiyyətini yüksəltmək və miqyasını genişləndirməyi stimullaşdıraraq, zəhmətkeşlərin rəsmi sferada öz gəlirlərini artırmaqda maraqlı olmalarına, müəsisələrin isə öz gəlirlərini artırmalarına kömək edə bilər. Gəlir vergisinin səviyyəsinin həddindən çox yüksək olması vergilərdən yayınma hallarının çoxalmasına və uyğun olaraq gizli formada gəlir əldə etmək istiqamətində fəaliyyətin genişlənməsinə şərait yaradır);

- əmtəə və xidmətlərin bazar mexanizmləri əsasında bölgüsü (əmtəələrin xüsusi sistem əsasında, yəni talon, sifariş, əlaltdan satış və s. əsasında bölgüsünü minimuma endirmək, belə sistemin tətbiqinə böyük ehtiyac duyulduğu hallarda, (yəni müxtəlif qrup uşaqlar, ayrı-ayrı kateqoriyalı xəstələr, aztəminatlı əhali qrupu) tam aşkarlığın və nəzarətin təmin edilməsi; resursların, məhsulların mərkəzləşdirilmiş qaydada bölgüsündən bazar sistemi əsasında müsabiqə qaydasında bölgüyə keçmək; iqtisadiyyatda barterin ləğvi – bu qeyri-formal razılaşmaların, sui-istifadə hallarının, o cümlədən iqtisadi statusu, vəzifə səlahiyyətlərini aşaraq cinayət edən şəxslərin hərəkətlərinin qarşısının alınmasında mühüm rol oynayır);

- təsərrüfat fəaliyyətinə iqtisadi nəzarətin həyata keçirilməsi (burada maliyyə, bank, vergi nəzarəti müxtəlif gizli münasibətlərin, əməliyyatların aşkara çıxarılması və iqtisadi cəzaların tətbiqini təmin edir; eyni zamanda iqtisadi nəzarət iqtisadi sferada cinayətkar fəaliyyətin, hadisələrin qarşısının alınmasında səmərəli vasitə rolunu oynayır).

Kölgə iqtisadiyyatının aradan qaldırılması və ya neytrallaşdırılmaq istiqamətində təşkilati xarakterli tədbirlər kimi iqtisadi sferada cinayətkarlığa qarşı ümumdövlət mübarizə proqramı işlənib hazırlanmalıdır. Bu mübarizə tədbirləri çərçivəsində aşağıdakılar həyata keçirilə bilər:

- vətəndaşların gəlirlərinə və sahib olduqları əmlakın həcminə ümumi və birbaşa nəzarət mexanizminin işlənib-hazırlanması: bazar münasibətləri şəraitində bu, gizli, kölgə iqtisadiyyatının «işbazları» və cinayətkar aləmin liderləri tərəfindən toplanmış gəlirlərə və sərvətə qarşı etibarlı sipər yaradır;

- maddi istehsal sahələrində azad olan işçi qüvvəsinin kəmiyyət və keyfiyyət parametrlərini, əmək ehtiyatlarının və əhalinin miqrasiyasının əsas istiqamətlərini, regionların sosial infrastrukturunun inkişafı üçün kapital yatırımlarının bölüşdürülməsi istiqamətlərini, əlavə işçi qüvvəsinə tələbatın səviyyəsini müəyyənləşdirmək; tam və səmərəli məşğulluğun təmin edilməsi məqsədilə ictimai istehsalda həyata keçirilən struktur dəyişikliklərinin mənfi nəticələrinin qarşısının alınması ilə bağlı uyğun məlumatların ümumdövlət proqramında nəzərə alınması;

- çevik qiymət və vergi sisteminin yaradılması. Bu, dövlət sifarişlərinin yerinə yetirilməsini iqtisadi cəhətdən stimullaşdırmağa, yüksək keyfiyyətli, ucuz başa gələn və tələbatı təmin edən əmtəələrin və xidmətlərin istehsalına kömək edir; təsərrüfat hesablı gəlirdə xüsusi çəkisindən asılı olaraq əmək haqqı fondundan mütərəqqi vergi tutumu şkalasının tətbiqi;

- maddi və maliyyə ehtiyatlarının, o cümlədən qeyri-məhsuldar xərclərin və itkilərin hərəkəti haqqında yeni qeydiyyat və hesabat sisteminin işlənib-hazırlanması;

- mülkiyyət, xüsusiləşmə (özəlləşmə) probleminə yeni yanaşmanın təmin edilməsi. Bu məqsədlə elmi-tədqiqat müəssisələrinin fəaliyyətlərini yenidən təşkil etmək, mühüm sosial-iqtisadi qərarların hazırlanmasında bu müəssisələrdə kriminoloji ekspertizanın aparılmasına şərait yaratmaq;

- istehsal-təsərrüfat fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericiliyi təkmilləşdirmək, stimullaşdırıcı tədbirlərə diqqət ayırmaq;

- cinayət və cinayət-prosessual, vətəndaş və vətəndaş prosessual, inzibati qanunvericiliyi təkmilləşdirmək, aşağıdakı cəhətlərə diqqəti yönəltmək, yenidən baxmaq; a) iqtisadi

sferada qanun pozuntuları zamanı cinayət və qeyri-cinayət hallarını müəyyən edən meyarları əsaslandırmaq; b) daha təhlükəli iqtisadi cinayət növlərinə qarşı cinayət məsuliyyətinin artırılması; c) şahidlərin və zərərçəkmiş şəxslərin müdafiəsi, qorunması, cinayətlərin açılmasına fəal təsir edən və cinayətkarları törətdikləri əməllərə görə peşimançılıq hissinə doğru stimullaşdırıcı effektə malik tədbirlər sistemini nəzərdən keçirmək; ç) cərimə sanksiyalarının tətbiqi, mülkiyyətin müsadirəsi imkanlarını genişləndirmək;

- xırda qanun pozuntularının nəzərdən keçirilməsi üçün inzibati hüquq sisteminin yaradılması;
- vətəndaşların hüquq və maraqlarına, təsərrüfat fəaliyyətinə əsassız müdaxilənin qarşısını almaq üçün qanunların qəbulunda müvafiq məsələlərin nəzərə alınması;
- maliyyə, audit nəzarətinin gücləndirilməsi, təşkilatlararası yoxlama, ekspertiza xidmətinin təkmilləşdirilməsi, vergi nəzarətinin təkmilləşdirilməsi;
- zəhmətsiz yolla əldə edilən gəlirlə mübarizə metodlarının işlənib-hazırlanması cinayətkar yollarla əldə edilən vəsaitlərin maliyyə orqanlarına könüllü verilməsi və cinayət məsuliyyətindən azad olmaları ilə əlaqədar imkanların qanunvericilikdə nəzərə alınması;
- hüquq-mühafizə orqanlarının maddi, sosial-məişət və texniki təchizatının yaxşılaşdırılması.

Sosial siyasətin həyata keçirilməsi zamanı ölkənin regionlarının spesifikası, əhalinin tarixən formalaşmış təsərrüfat fəaliyyətinin təşkili metodları və formaları, məşğulluğu nəzərə alınmaqla, əhalinin sosial təhlükəsizliyi və fiziki mövcudluğu, sağlamlığının təmin edilməsinə diqqətin yönəldilməsi, gələcəkdə əhalinin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsinin qarşısının alıması, əhalinin tənəzzülünə yol verməmək, iqtisadi artımın strateji əhəmiyyətli amilləri olan təhsil və peşə sisteminin dağılmasının qarşısını almaq, ona imkan verməmək kimi məsələlər də diqqət mərkəzində olmalıdır. Bu sahədə fəaliyyət təxirəsalınmaz vəzifələrin

həllindən orta və uzunmüddətli perspektivdə daha yüksək məqsədlərə nail olmağa doğru yönəlməlidir.

Sosial sahədə yaranmış vəziyyət fəaliyyətin aşağıdakı prioritet istiqamətlər üzrə təkmilləşdirilməsini tələb edir: fəal məşğulluq siyasətinin aparılması; əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısını almaq, aztəminatlı ailələrin etibarlı sosial müdafiə sistemini təşkil etmək məqsədilə orta sinfin formalaşması istiqamətində gəlir və vergi siyasətinin aparılması; cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə qayıdış, onun əsaslarının bərpası, yüksəlişinə nail olmaq, ailənin əsaslarının möhkəmləndirilməsi və bu istiqamətdə dövlətin bütün təsir, təhsil vasitələrindən, o cümlədən televiziya, incəsənət, ədəbiyyat, dinin imkanlarından istifadə edilməsi.

Məşğulluğun təmin edilməsi üzrə regional proqramların təsir gücünün artırılması üçün qanunvericilik və normativ aktlara uyğun olaraq islahatlar strategiyası və makroiqtisadi siyasətin prioritetlərində müsbət düzəlişlərin həyata keçirilməsi prinsipial əhəmiyyət kəsb edir. Bu düzəlişlər sırasına aşağıdakılar daxildir;

- sahibkarların yeni iş yerlərinin açılması ilə bağlı investisiya fəallığının artırılmasını stimullaşdırmaq;
- istehsal sahələrinin yenidən qurulması, texniki cəhətdən silahlanması, istehsal sferalarına məxsus kiçik sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində kreditlərin cəlb edilməsi üçün əlverişli şərait yaratmaq;
- yerli istehsalçıları xarici və inhisarçı rəqabətdən qorumaq və ölkədə normal fəaliyyəti təmin edəcək sağlam rəqabət mühitini təmin etmək;
- regional məşğulluq problemlərinin həllində milli-dövlətçilik maraqlarının prioritetlərinin reallaşmasında ictimai xarakterli işlərin təşkili səviyyəsini və statusunu, rolunu yüksəltmək;
- ilkin sağlamlaşma mərhələsi keçən müəssisələrə məşğulluğun təmin edilməsi və kadr hazırlığının təkmilləşdirilməsi istiqamətində kömək etmək;

Bu istiqamətlərdə aparılan işlər söz yox ki, ölkədə geniş miqyaslı işsizliyin qarşısının alınması üzrə fəal şəkildə tədbirlərin həyata keçirilməsi zərurətinə və məşğulluq prinsiplərinə əsaslanan iqtisadi təhlükəsizlik maraqlarına cavab verməlidir.

İnsanın inkişafı nöqteyi-nəzərindən sosial-iqtisadi problemlərin həlli yanaşmanın prioritetlərinin dəyişilməsini tələb edir. Burada, iqtisadi maraqların təmin edilməsi xatirinə insan yox, insanın inkişafı baxımından iqtisadiyyat, eləcə də dövlət sərhədlərinin qorunması xatirinə insan yox, insanın maraqlarının, mənafeyinin qorunması, ictimai birliyə, həmrəyliyə nail olmaq xatirinə dövlət, dövlətçiliyin formalaşması, inkişafı ön planda durur. Ərzaq bazarının inkişafı, ərzaq məhsullarının istehsalı kapital, vəsait toplamaq yox, insanın inkişafına, onun sağlamlığının, yüksək həyat səviyyəsinin təmin olunmasına xidmət etməlidir.

Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət tənzimlənməsinin əsas istiqamətlərindən biri, hətta biz deyərdik ki, birincisi bütün cəmiyyət üzvləri və sosial qruplar arasında, o cümlədən iqtisadi sferadakı münasibətlərin tənzimlənməsi üçün müvafiq institutların, yəni qanunverici, icra və məhkəmə strukturlarının formalaşması, hüquqi bazanın yaradılması, qəbul edilmiş qanunların və müxtəlif hüquqi aktların icrası ilə bağlı şəraiti təmin etməkdir. Bununla dövlət öz sərhədləri daxilində qayda-qanun yaratmaqla, digər dövlətlərlə də münasibətlərini tənzimləyir. Hətta ən ciddi iqtisadi böhran şəraitində belə dövlət bu imkandan istifadə etməklə özünün milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi və cəsarətli addım atmış olur.

Azərbaycanın xarici iqtisadi siyasətində mühüm istiqamətlərdən biri onun müxtəlif beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı, regional təşkilatlarda, birliklərdə təmsil olunmasıdır. Bu mənada Azərbaycanın MDB üzvləri ilə iqtisadi-siyasi əməkdaşlığı respublikamızın müstəqil dövlət kimi xarici iqtisadi siyasətində, inkişaf strategiyasında önəmli yer

tutmaqla, onun milli iqtisadi təhlükəsizliyinin təmin olunmasında özünəməxsus rol oynayır.

Burada məsələlərə iki aspektdən yanaşmaq, fikrimizcə, düzgün olardı. Birincisi, Azərbaycanın MDB çərçivəsində mövqeyi, MDB üzvləri ilə müxtəlif səviyyəli münasibətləri, ikincisi, MDB-nin bir birlik kimi dünya iqtisadiyyatına inteqrasiyası. İkinci məsələyə gəldikdə isə bu barədə bir qədər geniş və çoxsəpkili danışmaq olar. İlk öncə onu qeyd edək ki, MDB-nin bir birlik, təşkilat kimi dünya iqtisadi sisteminə inteqrasiyası üçün ilk növbədə onun potensialından tam şəkildə istifadə edilməsi, MDB üzvlərinin bu prosesdə bərabərhüquqlu tərəfdaşlar kimi iştirakının təmin edilməsi vacib şərtlərdən biridir.

MDB üzvlərinin inteqrasiyasının sürətlənməsinə imkan verən elə bir strateji konsepsiya işlənib hazırlanmalıdır ki, bu birliyə qoşulan postsovet ölkələrinin tarixi inkişaf xüsusiyyətlərini, onların üzv olduqları subregional və daha iri regional təşkilatların xüsusiyyətlərini, həmin ölkələrin bu təşkilatlarla münasibətlərini demokratik əsaslarla nəzərə alsın, hər bir üzv ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin olunmasına, onların xarici iqtisadi fəaliyyətində bu inteqrasiyaya xüsusi önəm verilməsinə şərait yaratsın.

Ölkənin dünya bazarından asılı olmayacaq səviyyəyə çatdırılması tam şəkildə mümkün deyildir. Qloballaşma şəraitində dünya ölkələri ilə iqtisadi əlaqələri, inteqrasiyanı genişləndirmək Azərbaycan üçün önəmli bir məsələ olduğu üçün bu istiqamətdə ixrac imkanlarının tam reallaşması da respublikamız üçün əhəmiyyətlidir, o cümlədən elmtutumlu məhsulların və istehlak mallarının ixracı da mühüm rol oynayır. Lakin iqtisadiyyatın ixracdan tam asılılığı heç bir ölkə üçün, onun milli, iqtisadi təhlükəsizliyi baxımından yolverilməzdir. Bu mənada, daxili tələbatın ixrac vasitəsilə təmin edilməsi ölkənin xarici təsirlərdən asılılığına şərait yaratmayacaq bir səviyyədə, çərçivədə həyata keçirilməlidir. Bu vəziyyət çox zaman maşınqayırma, ağır sənaye sahələrində müşahidə edilir. Məlum olduğu kimi, Azərbaycanda daha çox

neft maşınqayırması inkişaf etmişdir. Bu gün yeni qurulan, yaradılan müəssisələrə avadanlıqlar, texnoloji qurğular xaricdən gətirilir. İqtisadi asılılığını minimuma endirməyə çalışan hər bir ölkə üçün bu sahənin inkişafı olduqca mühüm bir məsələdir və bu, böyük həcmdə investisiya tələb edən bir sahədir.

Bu gün Azərbaycanda üstün olan yanacaq-xammal resurslarının ixracı və maşın, avadanlıq, bir sıra istehlak mallarının idxalına əsaslanan iqtisadi inkişaf modelinə əsaslanan inkişafdır. Bu isə xeyli dərəcədə dövlətin xarici bazardakı hakim konyunkturadan, xarici dövlətlərin qəbul etdikləri qərarlardan asılı vəziyyətə düşməsinə münbit şərait yaradır. Bu istiqamətdə böhrandan əsas çıxış yolları ölkənin elmi-texniki potensialını gücləndirir, təhsili dünya standartlarına uyğun şəkildə qurmaq, iqtisadi inkişafın mühüm amili olan insan kapitalının inkişafını, qorunmasını təmin etmək, onun yaradıcılıq potensialına münbit şərait yaratmaq, başlıcası isə bu istiqamətlərdə investisiya yatırımlarının həcmini artırmaqdır.

İdxal asılılığının zəiflədilməsində əsas, birinci növbəli tədbirlər aşağıdakılardır: yerli istehsal müəssisələrinə dövlət tərəfindən maliyyə yardımı göstərilməsi; daha çevik gömrük güzəştləri sistemi tətbiq etmək (differensiallaşmış), gömrük yardımına ehtiyacı olan iqtisadi fəaliyyət sahələrinin müəyyən edilməsi: idxalın diversifikasiyası; dərman preparatlarının, alkoqollu içkilərin və tütün məmulatlarının, buğdanın ölkəyə gətirilməsində, həmçinin neft və neft məhsullarının, əlvan və nadir metalların ixracında dövlətin inhisarını gücləndirmək zəruridir. Bu məhsullarla xarici ticarətin qaydaya salınması, büdcə gəlirlərinin artması, əsaslandırılmış qiymətlərlə daxili bazarın buğda və neft məhsulları ilə təminatlı təchizatını təmin etmək; xarici ticarətlə bağlı qanunvericilik və normativ-hüquqi bazanın qaydaya salınması və ona daimi nəzarətin həyata keçirilməsi, bu bazanın dünya təcrübəsinə, Beynəlxalq Ticarət Təşkilatının normalarına uyğunluğunu təmin etmək.

# İ S T İ F A D Ə  E D İ L M İ Ş  Ə D Ə B İ Y Y A T


1. Abbasov Ə.M., Sadıqov M.M. «Azərbaycan Respublikasının regionları: maliyyə və vergi potensialının proqnozlaşdırılması problemləri». Bakı, «Elm», 2002
2. Abbasov A.F. «Ərzaq təhlükəsizliyi». Bakı, 2007, 602 s.
3. Abdullayev Ş. «Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması». Bakı ,«Azərnəşr», 2001, 350 s.
4. Allahverdiyev H. «Bazar iqtisadiyyatına keçid şəraitində ərzaq təhlükəsizliyi və onların tənzimlənməsi problemləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», № 3-4. Bakı, 2000, 71-79 s.
5. Allahverdiyev Ə. «Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri» (monoqrafiya). Bakı, «Elm», 2001, 268 s.
6. Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. «İqtisadiyyatın dövlət tənzimlənməsi». Bakı, 2002
7. Alıyev İ.H. «Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri». Bakı, «Elm», 2006
8. Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi. Qanunlar, normativ sənədlər, analitik materiallar. Bakı, 2000, 274 s.
9. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)». 11 fevral 2004-cü il
10. «Azərbaycan milli təhlükəsizlik və xarici siyasət problemləri». Azərbaycan Respublikası 1991-2001». Bakı, 2001
11. Azərbaycan Respublikası Milli Bankı. Bülleten №12 (70) 12/2005

12. Azərbaycan Respublikası Milli Bankı. Statistik Bülleten №11 (93) 11/2007
13. Azərbaycan Respublikası Milli Bankı. Statistik Bülleten №1 (83) 1/2007
14. Azərbaycan Respublikası Milli Bankı. Statistik Bülleten №1 (97) 3/2008
15. Azərbaycanın statistik göstəriciləri, 2005. Bakı, «Səda», 2005
16. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2006
17. Azərbaycanın statistik göstəriciləri, 2007. Bakı, 2007, 870 s.
18. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı, 2007, 164 s.
19. Azərbaycanın milli hesabları. Statistik məcmuə. 2007. Bakı, 2007, 226 s.
20. Azərbaycanın sənayesi. Statistik məcmuə. ARDSK, Bakı, 2002
21. Azərbaycanın xarici ticarəti. 2002-2007. Statistik məcmuə. ARDSK, Bakı, 2007, 264 s.
22. «Azərbaycan» qəzeti, 25 oktyabr 2008-ci il. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi.
23. Azərbaycanda ərzaq təhlükəsizliyi. ARDSK 2005, Bakı, 2005, 897 s.
24. Babayev Ə. «Bazar iqtisadiyyatında əhali gəlirlərinin formalaşması mexanizmi» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 1999
25. Barxudarov M.Ə. «Xarici iqtisadi siyasət və iqtisadi təhlükəsizlik problemləri» // Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı, 2002
26. Barxudarov M.Ə. «Xarici iqtisadi əməkdaşlığın genişləndirilməsinin ölkə iqtisadiyyatına mənafelər baxımından təsiri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №3-4. Bakı, 2001

27. Bayramov Ə.İ. «Milli və korporativ mənafelərin uzlaşdırılması problemləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 1999
28. Bayramov Ə.İ. «İnhisarizm» (monoqrafiya). Bakı, Elm, 2002
29. Bayramov Ə.İ. «Ümummilli mənafe: mahiyyət və təzahür» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 1997
30. Bədirov C.Ə., Mustafayev R.Ə., Məmmədov C.C., Vəliyev S.V. və b. «Kənd təsərrüfatında məsrəflərin uçotu və məhsulların maya dəyərinin kalkulyasiya edilməsinə dair tövsiyə». Bakı, 2003
31. BVF-in illik hesabatı, 2008. www.imf.org.
32. Cəbiyev R.M. «Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı» (monoqrafiya). Bakı, 2000, 237 s.
33. Cozef E. Stiqlitz «Qloballaşma və onun doğurduğu narazılıqlar». Bakı, 2004
34. «Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu». «Azərbaycan» qəzeti, 14 avqust 1999-cu il
35. Əhmədov M. «Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi və rəqabət qabiliyyətinin təmin edilməsinin nəzəri səpgiləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №3-4. Bakı, 2000, 48-56 s.
36. Əhmədov M.A. «Qloballaşma və milli iqtisadiyyatın formalaşması». Bakı, 2003, 520 s.
37. Əhmədov M.A. «Yeni iqtisadi sistemə keçid mərhələsində milli iqtisadiyyatla milli bazarın formalaşmasının qarşılıqlı əlaqəsi» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 1998
38. Əlirzayev Ə.Q. «Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqramı». Bakı, «Odlar Yurdu», 1999, 103 s.

39. Əliyev F.C. «Ev təsərrüfatı gəlirləri, həyat səviyyəsi və yoxsulluq». Bakı, «Elm», 2000, 185 s.
40. Əliyev M.T. «Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri». Bakı, 2002, 761 s.
41. Əyyubov V., Əyyubov T. «İqtisadi təhlükəsizliyin təmin olunmasının başlıca şərtləri»//Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda (məqalələr toplusu) V (XIV) Buraxılış. Bakı, «Elm», 2003
42. Hacızadə E. «Sosiallaşan iqtisadiyyat». Bakı, 2006
43. Həsənov R.T. «Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları». Bakı, Elm, 1998, 343 s.
44. Hüseynov F. «İqtisadi problemlər: mülahizələr, düşüncələr və nəticələr». Bakı, «Elm», 2006, 384 s.
45. İbrahimov İ. «Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri». Bakı, «MMA», 2005, 347 s.
46. İmanov Q., Həsənli Y. «Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri». Makroiqtisadi təhlil. Bakı, «Elm», 2001, 248 s.
47. «Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu». «Azərbaycan» qəzeti, 4 mart 2004-cü il
48. Manafov Q.N. «Sahibkarlığın nəzəri və praktiki məsələləri». Bakı, 1997, 144 s.
49. Meybullayev M.X. «İslam iqtisadiyyatı». Bakı, Ünsiyyət, 2001, 670 s.
50. Meybullayev M.X. «Yeni iqtisadi sistemə keçid şəraitində makroiqtisadi müvazinət problemi» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 1997
51. Meybullayev M.X. «Yeni iqtisadi sistemə keçid problemlərinin həllində dövlətin rolu» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 1998

52. Meybullayev M.X. «İslam və milli iqtisadiyyatın formalaşması prosesi» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 2001
53. Məmmədov N.M. «Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı problemləri». Bakı, 2004, 504 s.
54. Məmmədov N.M. «Ölkənin iqtisadi təhlükəsizliyi». Bakı, 2005, 309 s.
55. Məmmədov N., Bərxudarov M. «İqtisadi təhlükəsizlik». Ali məktəblər üçün dərslik. Bakı, «İqtisad Universiteti», 2006, 452 s.
56. Mənsimov A. «İxrac potensialının genişləndirilməsi və idxalın strukturunun təkmilləşdirilməsi məsələləri» / «İqtisad elmləri: nəzəriyyə və praktika», №1, Bakı, 2004
57. «Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Qanunvericilik toplusu, №8, 31 avqust 2004- cü il
58. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. «Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr». Bakı, «Təfəkkür», 2002, 319 s.
59. Musayev A.F. «Vergi siyasətinin iqtisadi problemləri». Bakı, Elm, 2004, 792 s.
60. Muradov R.Ş. «Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarı problemləri». Bakı, «Elm», 2000, 303 s.
61. Mustafayev F. «Azərbaycan iqtisadiyyatının inkişafının əsas tendensiyaları» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 2003
62. Mustafayev K. «Müasir şəraitdə iqtisadi mənafelərin ziddiyyətləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №3. Bakı, 2003

63. Mustafayev R. «Azərbaycanda bank sisteminin səmərəliliyinin artırılması və iqtisadi inkişafda onun rolunun gücləndirilməsinin bəzi istiqamətləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1. Bakı, 2004
64. Nadirov A.A. «Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri». Bakı, Elm, 2001, 452 s.
65. Nəbiyev R.Ə. «Azərbaycanın keçid dövründə kommersiya hesabının nəzəri və praktiki problemləri». Bakı, «Elm», 2000, 352 s.
66. Nuriyev Ə.X. «Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri». Azərbaycan iqtisadiyyatı: problemlər və perspektivlər. Bakı, Elm, 2002
67. Nuriyev Ə. «Regional siyasət və idarəetmə». Bakı, 2004, 49 s.
68. Qafarov Ş. «Müasir iqtisadi sistem və qloballaşma». Bakı, 2005, 632 s.
69. Quliyeva A.A. «Azərbaycanda insan inkişafının sosial-iqtisadi problemləri». Bakı, «Elm», 2000, 121 s.
70. Quliyev F.T. «Millət və dövlət gəlirləri». Bakı, «Nağıl evi», 2004, 325 s.
71. Quliyev T.Ə. «İnflyasiyanın anatomiyası». Bakı, «Qərənfil», 2006, 274 s.
72. Quliyev T. Ə. «Əməyin sosiologiyası». Bakı, «Maarif», 1998, 328 s.
73. Quliyev Raqib. «Böyük transformasiya: Azərbaycan təşəbbüsləri». Bakı, 2002, 256 s.
74. Quliyev Raqib. «Postsosialist iqtisadi transformasiyası: Azərbaycanda dəyərləndirmələr. Bakı, «Nurlar» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2004, 288 s.
75. Quliyev Raqib. «Postsosialist iqtisadiyyatlarında rəqabət siyasəti: qeyri-müəyyənliklərdə çabalamalar». Bakı, «Nurlar» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 272 s.

76. Sadıqov M.M., Balayeva E.Ə., Həmişəyeva Ş.Ü. «Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi». Bakı, «İqtisad Universiteti», 2003, 192 s.
77. Sadıqov M.M. «Ölkənin iqtisadi təhlükəsizliyinin qorunmasında maliyyə-kredit mexanizminin rolu» // Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə həsr edilmiş elmi-praktik konfransın tezisləri. Bakı, 2002
78. Sadıqov M.M. «Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri». Bakı, 2001
79. Sadıqov K.F. «Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları». Bakı, «Azərnəşr», 1999, 72 s.
80. Sadıqov Ş., Hüseynəliyev R. «İqtisadi inkişaf və sosial siyasət» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №3. Bakı, 2003
81. Salahov S.V. «Aqrar sahənin dövlət tənzimlənməsi problemləri». Bakı, «Nurlar», 2004, 503 s.
82. «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 25 oktyabr tarixli Sərəncamı.
83. Səfərov S. «İqtisadi siyasət strategiyası». Konseptual əsaslar. Bakı, 2000
84. Səfərov S. «10 il müstəqillik və iqtisadiyyat». Bakı, 2001
85. Səmədzadə Z.Ə. «Dövlətin iqtisadi təhlükəsizliyi müstəqil Azərbaycanın mühüm nailiyyətidir» // «İqtisadiyyat və audit», №12, 2001, 10-18 s.
86. Səmədzadə Z.Ə. «Dünya iqtisadiyyatı Çin iqtisadi möcüzəsi». Bakı, «Gənclik», 2001, 317 s.
87. Səmədov K. «Dövlət borcları haqqında» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №3. Bakı, 1994

88. Səmədova O. «Keçid iqtisadiyyatında dövlətin rolu və funksiyaları» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1. Bakı, 2004
89. Şəkərəliyev A.Ş. «Keçid iqtisadiyyatı və dövlət». Bakı, 2000, 280 s.
90. Şirəliyev A. «Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi proqramı və onun reallaşdırılması istiqamətləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1. Bakı, 2004
91. Stiqlits C. «Qloballaşma və onun doğurduğu narazılıqlar». Bakı, 2006, 280 s.
92. Vəliyev T.S. «İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü». Bakı, «Elm», 1999, 282 s.
93. Vəliyev T.S. «İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti». Bakı, «Elm», 2000, 167 s.
94. Vəliyev T.S., Məmmədov N. «İzahlı iqtisadi terminlər». Bakı, 2000, 78 s.
95. Xəlilov H.A. «Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri». Bakı, 2001, 176 s.
96. Xəlilolv H.A. «Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti». Bakı, «Mütərcim» nəşriyyatı, 2005
97. Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005). Bakı, «QAPP-POLİQRAF» Кorporasiyası, 2003
98. Yüsifzadə Ə.N. «Keçid dövrü şəraitində iqtisadi təhlükəsizlik strategiyasının formalaşdırılması problemləri» // «İqtisad elmləri: nəzəriyyə və praktika», №1-2. Bakı, 2003
99. Zeynallı Ə. «Azərbaycan kənd təsərrüfatı coğrafiyasının müasir problemləri». Bakı, «Elm», 2005, 387 s.
100. Абалкин Л.И. «Экономическая безопасность России» // Вестн. РАН. 1997, Т.67, № 9. 771-776 с.

101. Абалкин Л.И. «Роль государства в становление и регулировании рыночной экономики» // Вопросы экономики, №6, 1997
102. Астапов К. «Стратегия развития в постиндустриальной экономики». М., 2006
103. Афонцев С. «Национальная экономическая безопасность: на пути к теоретическому консенсусу» // Мировая экономика и международные отношения, № 10, 2002. 30-39 с.
104. Бабашкина А.М. «Государственное регулирование национальной экономики». Учеб. пособие. М., «Финансы и статистика», 2003, 416 с.
105. Барабин В.В. «Экономическая безопасность государства». М., 2001, 182с.
106. Базилюк А.В., Коваленко С.О. «Теневая экономика в Украине». Киев, ЭНИИ, Минэкономики Украины, 1998, 24 с.
107. «Безопасность – лозунги, теория и политическая практика». РЭЖ, 1991, №17
108. «Безопасность России: правовые, социально-экономические и научно-технические аспекты. Продовольственная безопасность». Разд.1, М., Знание, 2000, Разд. 2, М., Знание, 2001
109. Белова С. «Макроанализ экономики страны» // Экономист, №5, 1995
110. Богомолов В.А. «Экономическая безопасность». М., 2006, 303 с.
111. Бродский Б.Е. «Лекции по макроэкономике переходного периода». М., 2005
112. Бункина М.К. «Национальная экономика». М., «Палеотип», 2002 487 с.
113. Бузгалин А. «Закономерности переходной экономики: теория и методология». // Вопросы экономики, №2, 1995

114. Воробъев Е., Тимченко Б. «Теневая экономика в условиях системного кризиса» / «Экономика Украины», №8, 1998 г., 46 с.
115. Войтов А.Г. «Фундаментальная экономика». М., 1998, 500 с.
116. Гаджиев Ш.Г. «Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития». Киев, Экспресс – об ява, 2000, 504 с.
117. Герасимов П.А. «Теневой сектор в современной Российской экономике». Жур. «Финансы и кредит», №7 (155), 2004, 62 с.
118. Гелбрейт Дж.К. «Экономические теории и цели общества». Пер. с англ. - М., Прогресс, 1979, 406 с.
119. Глазьев С. «Основа обеспечения экономической безопасности страны- альтернативный реформационный курс» // РЭЖ, №1, 1997. 3-19 с.
120. Гладкин Ю.Н., Чистобаев А.Н. «Регионоведение» (учебник). М., 2000, 20 с.
121. Гончаренко А.П. «Развитие методологии экономической безопасности личности». М., Ивановский Государственный Университет, 1999
122. Государственное регулирование рыночной экономики. Учебник. Под общей редакцией В.И. Кушлина, Н.А.Волчина. М., Экономика, 2000, 735 с.
123. Государственное регулирование экономики: мировой опыт и реформ в России (теория и практика). М., Институт Экономики РАН, 1996, 250 с.
124. Государственное регулирование экономики. Под общей редакцией В.И. Кушлина. М., 2005, 828 с.
125. Государство в меняющемся мире. Отчет о мировом развитии. 1997
126. Градов А.П. «Национальная экономика». Санкт-Петербург, 1997, 316 с.

127. Гребенников П.И. «Макроэкономика». СПб., 1992, 152 с.
128. Гумеров Р. «Как обеспечить продовольственную безопасность страны?» // Российский экономический журнал, №5, 1997, 9 с.
129. Давыдов В.В. «Целостность платежной системы-фактор экономического роста» / Бизнес и банки, №16, 2004
130. Дельгадо Х. «Мозг и создание». М., «Прогресс», 1971, 250 с.
131. Джабиев Р.М. «Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости». Баку, «Зия+», 2005, 275 с.
132. Дзарасов С., Пилиев С. «Продовольственная безопасность России» // Экономист, №8,1996, 23 с.
133. Дзлиев М.И., Урсул А.Д. «Основы обеспечения безопасности России». М., 2003, 423 с.
134. Долгова И.В., Швейко Н.В. «Монополии и конкуренция» // Финансы и кредит, №3, 2001, 44-59 с.
135. Дронов Р. «Подходы к обеспечению экономической безопасности» // Экономист, № 2, 2001, 42-45 с.
136. Друкер П. «Эффективное управление. Экономические задачи и оптимальные решения». М., 2003, 12-13 с.
137. Евстигнеева Л., Евстигнеев Р. «Макрорегулирование в переходной экономике: вопросы теории».
138. Емельянов А. «Продовольственная бедность населения России истоки и пути преодоления». Экономист, №10, 2003
139. Ершов М. «О финансовых механизмах экономического роста» // Вопросы экономики, №12, 2002, 4 с.
140. Загашвили В. «Национальная экономическая безопасность» // Обществ. науки и современность, №2, 1995, 15 с.

141. Зельднер А.Г. «Приоритетные проблемы обеспечения национальной безопасности России – продовольственная безопасность» / ИА РАН - 2003
142. Зиядуллаев Н. «СНГ в глобальной экономике: стратегия развития и национальная безопасность» // Мировая экономика и международные отношения, №4, 2005, 29-34 с.
143. Ибраева Г.Р., Филин С.А. «Теневая экономика причины и последствия для стран Европейского Союза». «Финансы и кредит», №19 (133), 2003, 40-48 с.
144. Иванов Е. «Экономическая безопасность России» // Мировая экономика и международные отношения, № 11, 2001, 44-51 с.
145. Ивахнюк И.В. «Международная трудовая миграция». М., Экономический ф-т МГУ, ТЕИС, 2005
146. Илларинов А. «Критерии экономической безопасности» // Вопросы экономики, №10, 1998, 35-58 с.
147. Кемпбелл Р. Макконнелл, Стенли Л.Брю «Экономикс: принципы, проблемы и политика». В 2-х т. Пер. с англ. 11-го изд. Т.1.М., Республика, 1992, 339 с.
148. «Концепция национальной безопасности Российской Федерации» // Российская газета, 2000/18 января
149. Кочетов Э. «Неоэкономика – новая цивилизационная модель экономического развития и Россия». МЭ и МО, №3, 1997, 79-81 с.
150. Колотко Г. «Глобализация и сближение уровней экономического развития: от спада к росту в странах с переходной экономикой». Вопросы экономики, №10, 2000
151. Корнаи Я. «Что означает «изменение системы»» // Вопросы экономики, №2, 2008

152. Коуз Р. «Фирма, рынок и право». Телекс. Нью-Йорк. 1991, 190 с.
153. Кротов М. «Экономическая интеграция стран СНГ: проблемы и перспективы» // Российский экономический журнал, №1, 2001, 67-74 с.
154. Кредисов В. «Государство и рынок: необходимость взаимодействия в переходной экономике» // Экономика Украины, №2, 2002, 50-57 с.
155. Кулиев Т.А. «Регулируемая рыночная экономика». Баку, 1999, 390 с.
156. Кулиев Р.А. «Инвестиционные проблемы в условиях рыночных трансформаций экономики Азербайджана». Баку, «Елм», 2004, 318 с.
157. Кулиев Р.А. «Некоторые аспекты приватизации: опыт и перспективы переобразования собственности». «İqtisadiyyat» qəzeti, №39, 30 sentyabr-5 oktyabr, 2005, s. 2
158. Леонтьев В. Экономические эссе. М., Политиздат, 1990, 415 с.
159. Логинов Е.Л. «Трансформация финансово-хозяйственной деятельности организованных преступных групп в экономике в условиях изменения структуры государственной власти» / «Финансы и кредит», №19 (133), 2003, 36-39 с.
160. Логинов Е.Л. «Корпоративные механизации в деятельности зарубежных корпораций» //«Финансы и кредит», №23 (137), 2003, 72-78 с.
161. Львов Д. «Экономика России свободная от стереотипов монетаризма» // Вопросы экономики, №2, 2000, 90-91 с.

162. Маглакемидзе Т. «Технологическая безопасность и охрана интеллектуальной собственности в переходной экономики Грузии» // «Финансы и кредит», №9 (123), 2003, 77 с.
163. Манцев Д. «Макроэкономика СНГ: Десятилетие реформ» // Российский экономический журнал, №5-6, 2001, 60-70 с.
164. Маргарет Тэтчер. «Искусство управления государства. Стратегии для меняющегося мира». Пер. с англ. М., Альпина Паблитер, 2003, 504 с.
165. Макконнелл К.Р., Брю С.Л. «Экономикс: принципы, проблемы и политика». Т 1. М., Республика, 1992
166. Маркова Н. «Перспективы привлечения финансовых ресурсов к инвестированию производства» // «Экономист», №10, 1998, 43-51 с.
167. Мау В. «Экономическая политика 2007 года: успехи и риски» // Вопросы экономики, №8, 2008
168. Медведев В. «Проблемы экономической безопасности России» // Вопросы экономики, №6, 1997, 3 с.
169. Некипелов А.Д. «Глобализация и стратегия развития экономики России». Проблемы прогнозирования. №4, 2001, 7 с.
170. Нельсон Р., Уинтер С. «Эволюционная теория экономических изменений». М., 2000, 31 с.
171. Новиков Г.В. «Финансовая безопасность экономики (методология и практика)». М., ИЭ РАН, 2001
172. Норт Д. «Институциональные изменения: рамки анализа» // Вопросы экономики, №3, 1997. 7-8, 15 с.
173. Норт Дуглас. «Институты, институциональные изменения и функционирование экономики» / Пер. с англ. М., Фонд экономической книги Начала. 1997
174. Нуреев Р.М. «Основы экономической теории: макроэкономика». М., 1996, 447 с.

175. «Общая экономическая теория (Политэкономия)». Учебник / Под общей ред. В.И.Видяпина, Г.П.Журавлевой. М., 1995
176. Ойкен В. «Основы национальной экономики». Пер. с. нем. М., Экономика, 1996, 345 с.
177. Олейник А.Н. «Институциональная экономика». Учеб. пособие. М.: ИНФРА-М, 2004, 346-348 с.
178. Ольсевич Ю.Я. «К теории экономических трансформаций». М., 1997, 287 с.
179. «Основы экономической теории: политэкономический аспект». Учебник (отв. ред. Климко Г.Н.), Киев «Знания-Пресс», 2001, 68 с.
180. Осипов Г. «Реформирование России: итоги и перспективы». М., 1996, 15-18 с.
181. Паньков «Экономическая безопасность. Межхозяйственный и внутренний аспект» // Внешнеэкономические связи. Вып.8, 1992
182. Петренко И.Н. «Экономическая безопасность России / Денежный фактор» // Академическая серия-2001
183. Плисецкий Д. «Экономическая безопасность: валютно-финансовые аспекты» // Мировая экономика и международные отношения, №5, 2002, 28-37 с.
184. Пономаренко Е.В. «Финансовые приоритеты общественного сектора экономики». М., Российская Академия Республики-2001
185. Попович В.М. «Теневая экономика как предмет экономической криминалогии». Киев, «Правов Дженерела», 1998, 29 с.
186. Пороховский А.А. «Национальные рыночные модели экономического развития» // Российский экономический журнал. №11, 1997, 12 с.

187. Пороховский А.А. «Экономически эффективное государство: Американский опыт». // Вопросы экономики, №3, 1998, 81-89 с.
188. Портер М. «Конкуренция». М., 2000. 55 с.
189. Портер М. «Международная конкуренция: конкурентные преимущества стран». М., МО, 1993
190. Потрубач Н.Н. «Концепция экономической безопасности» // Социальные гуманитарные знания. №4. 2000, 130-140 с.
191. Потрубач Н.Н. «Налоговая составляющая экономической безопасности России» // Н.Н.Потрубач, И.С.Цыпин // Социальные гуманитарные знания. №3, 2002, 146-166 с.
192. Потрубач Н.Н., Максутов Р.К. «Утечка капитала– важная составляющая экономической безопасности» / Социальные гуманитарные знания. №6, 2001, 97-108 с.
193. Присняков В.Ф. «Теневая экономика и методы борьбы с нею» // «Финансы Украины», №7, 2000, 10 с.
194. Прохоренко И.Л. «Национальная безопасность и баланс. Баланс сил в мировой политике». Теория и практика. М., 1993, 70 с.
195. Пронина Л.И. «Бюджетно-налоговое законодательство и реформа федеративных отношений». «Финансы», №3, 2004, 21 с.
196. Прокопчук А.В. «Сущность и угрозы экономической безопасности в России в условиях переходного периода». М., 2000, 39 с.
197. Пушкаренко П., Логвиненко Н. «Генезис и социально-экономические последствия теневой экономики». Киев, «Экономика Украины», №10 (508), октябр 2004, 48 с.
198. Ревенков А. Планирование в системе государственного регулирования экономики. //Экономист, 2001, №8, с. 17-21

199. Роберт Б. Зоеллик «Глобализация, торговля и экономическая безопасность» Материалы заседания в Национальном Клубе Соединенных Штатов о роли свободной торговли в обеспечении экономической безопасности. 01.10.2002
200. Рогова О. «Влияние финансово-денежной политики на социально-экономическую мабильность». «Экономист», №9, 2003г., общ.объем стр. 80-85, стр. 81
201. Рустамбеков Г.Б. «Национальные экономические интересы». Баку, «БДУ» 1998, 244 с.
202. Самедзаде З.А. Этапы большого пути. Экономика Азербайджана за полвека, ее новые реалии и перспективы. Баку, Нурлар, 2004, 936 с.
203. Самедзаде З.А. «Экономическая безопасность государства – важнейшее завоевание независимого Азербайджана». «İqtisadiyyat» qəzeti, 18 oktyabr – 1 noyabr 2001-ci il
204. Самуэльсон П. Экономика. М.: 1997.
205. Самуэльсон Пол А., Нордхаус Вильям Д. Экономика. Пер. с англ. М., Изд-во «БИНОМ», 1997, 800 с.
206. Самофалова, Е.В. Кузьбожев Э.Н., Вертакова Ю.В. «Государственное регулирование национальной экономики» Москва, «Конкурс», 2005. с.259
207. Сенчагов В.К. Экономическая безопасность: геополитика, глобализация, самосохранения и развития // Институт Экономики РАН, М., Финстатинформ. 2002
208. Сенчагов В.К. Экономическая безопасность как основа обеспечения национальной безопасности России // Вопросы экономики. 2001. №8. 64-79 с.
209. Сенчагов В.К. Экономическая безопасность: Производство. Финансы. Банки. М., 1998. с. 621

210. Сенгачов В. Экономическая безопасность России / Академия народного хозяйства при Правительстве Российской Федерации. Москва, Издательство «Дело». 2005
211. Силина Т. /Какая опасность угрожает экономической безопасности, Киевские ведомости, №25, 26 ноября 2002
212. Социально-экономическая эффективность: опыт США. Роль государства. Под ред. В. Мартынова, Р.Энтова, А.Дынкина и др.. М., 1999. с.12-13
213. Станислав Меньшиков «Новая экономика». Москва, «Международные отношения», 1999, с.394
214. Степашин С.В. «Экономическая безопасность Российской Федерации». Учебник // Под общ. ред. М., СПб, Ч.1. 608 с., Ч.2. 639 с., стр. 82
215. Стиглиц Дж. Куда ведут реформы? // Вопросы экономики, 1999, №7, с. 4-30
216. Стратегия содействия сокращению бедности в России: анализ и рекомендации / Под ред. Л. Овгаровой Н., Московское бюро МОТ, 2001
217. Строков В.А. «Концепции национальной рыночной экономики». Изд-во «ХОРС». М., 1997, 151 с.
218. США: Государства, человек, экономика (региональные аспекты). Под редакцией Лебедовой Л.Ф.М.: Анкил, 2001, 224 с.
219. Тамбовцев В.Л. «Экономическая безопасность хозяйственных систем: структура, проблемы» //Вестник МГУ, Серия 6, «Экономика», 1995, №3, 45-53 стр.
220. Танци В. Роль государства в экономики: эволюция концепций. // Мировая экономика и международные отношения. 1998, №10, с. 51-62
221. Теория переходной экономики. Под ред. проф. Николаевой И.П. Москва, «Единство» 2001 с. 483

222. Тоффлер Э. Метоморфозы власти. Знание, богатство и сила на пороге XXI века. М., 2003, с.52-53
223. Трансформационная экономика России. Под ред. А.В.Бузгалина. М., 2006, 616 с.
224. Узяков М.Н. «Трансформация Российской экономики и возможности экономического роста». М., 2000, 380 с.
225. Фишер С., Дорнбуш Р., Шмалензи Р. «Экономика». Пер. с. англ. Со 2-го изд. М., «Дело ЛТД», 1993, 864 с.
226. Филиппенко А.С. Экономическое развитие цивилизационный подход. Москва: Экономика, 2001, 260 с.
227. Фомичев В.И. «Международная». Москва ИНФРА, М, 2001, стр. 44-47
228. Харрод Р. «К теории экономической динамики» / Пер. с англ. М., 1953, стр. 57
229. Хейне П. «Экономический образ мышления». М., 1989, 540 с.
230. Чиркин В.Е. Современное государство. М.: Международные отношения, 2001, 416 с.
231. Шаталин С. «Прерванный диалог». Тверское областное книжно-журн. изд-во, 1998, 304 с.
232. Экономическая безопасность региона: единство теории, методологии исследование и практика. Екатеринбург, 1997
233. Экономическая безопасность. (теория и практика). Под редакцией академика Е.А. Олейникова. М. 1999
234. Экономическая и национальная безопасность. Под редакцией доктора технических наук, профессора Е.А. Олейникова. М. Экзамен, 2004, с. 416-417, 428, 768
235. Экономическая безопасность. Производство-финансы-банки. Под ред. акад. Сенчагова В.К.М.: 1998, 621 с.

236. Экономическая теория. Под ред.ж.Итуэлла, М.Милгейка, П.Ньюмена. Москва, Инфра – М, 2004 с. 931
237. Экономическая теория национальной экономики и мирового хозяйства. Под ред. проф. А.Г.Грязновой, проф. Т.В.Чечелевой. москва «ЮНИТИ» 1998 с. 322
238. Эрхард Л. «Благосостояние для всех». М., Прогресс, 1991, 335 с.
239. Юзбашева Г.З. «Структурная перестройка экономики Азербайджана на современном этапе развития». Б., «Сада», 1997, 225 с.
240. Яров Ю. Глобализация экономики и развитие интеграционных процессов в СНГ. // Российский экономический журнал. 2001, №1, с. 74-78
241. Donald Losman "Economic Security A National Security Folly". Policy Analysis №409, August 1 2001 p. 50
242. Hagemann R. "The Structural Budget Balance: The IMF Metodology", IMF Working Papers WP / 99/95, 1999
243. Johnson S., Konqman D., Shleifer A. The Unefficial Economy in Transition II Brookins on Economic Activity. 1997. №2
244. N.Gregory Mankiw "Principles of Economics" Second Edition, Harcourt College Publishers, Harvard University-2004, p. 557
245. Thurbon E. "Two Paths to Financial Liberalization: South Korea and Taiwan"//The Pacific Review 2001, V14, №2, p.241-267
246. Tanzi V. "Fiscal Federalizm and Decentralization: A.Review of Some Efficiency and Makroeconomic Aspects" "Annual World Bank Conferency on Development Economics"/ 1995, pp. 295-316
247. "The 1997 World Development Report". Washington, World Bank, 1997
248. http.//rusrerf.ru/
249. **www.taxes.gov.az**

**Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri**

**-----------------------------------------**

**Monoqrafiya**

*Çapa imzalanıb 16. 07. 2009. Kağız formatı 60x84 1/16.*
*Həcmi 25 ç.v. Sifariş 69. Sayı 300.*

**-----------------------------------------------------------------------**

*" İqtisad Universiteti " nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*